GÖVHƏR BAXŞƏLİYEVA

MƏQALƏLƏR,
MƏRUZƏLƏR,
MÜSAHİBƏLƏR...

II
CİLD

BAKI-2011

AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun
Elmi Şürasının qərarı ilə nəşr edilir.

Elmi redaktor: *akademik Vasim Məmmədəliyev*

Gövhər Baxşəliyeva. «Məqalələr, məruzələr, müsahibələr...». 2 cilddə. Bakı, «Bakı Çap Evi», 2011, II cild, 512 səh.

Kitaba millət vəkili, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Gövhər Baxşəliyevanın 2003-cü ildə nəşr etdirdiyi **«Hamıdan ucadır alimin yeri»** kitabına daxil edilməyən və bu günəcən pərakəndə halda müxtəlif mətbu nəşrlərdə işıq üzü görmüş məqalə, məruzə, müsahibə və çıxışları, müxtəlif əsərlərə yazdığı ön söz və resenziyaları daxil edilmişdir. Eyni zamanda kitaba müəllifin bügünəcən çap olunmamış bir sıra məqalə və çıxışları da salınıb.

Kitab elmi işçilər, tələbələr, eləcə də elmi və ictimai həyatın ümumi məsələləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

İSBN 978-9952-572-14-11

© G.B.Baxşəliyeva, Bakı-2011.

BAXŞƏLİYEVA GÖVHƏR BAXŞƏLİ QIZI

Baxşəliyeva Gövhər Baxşəli qızı 26 noyabr 1954-cü ildə Bərdə şəhərində doğulub. 1972-ci ildə Bakı şəhəri 212 saylı orta məktəbi bitirdikdən sonra elə həmin il Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb bölməsinə daxil olub. 1977-ci ildə ADU-nu fərqlənmə diplomu ilə bitirərək, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq institutuna işə qəbul olunub, baş laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, «Şərq filologiyası» şöbəsinin müdiri vəzifələrində çalışıb.

1993-cü ildən G.Baxşəliyeva Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, 1997-ci ildən direktoru vəzifəsində çalışır. 1984-cü ildə namizədlik, 1996-cı ildə doktorluq dissertasiyalarını müdafiə edib. Filologiya elmləri doktoru, professordur. Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür. «Qızıl qələm» mükafatı laureatıdır. Klassik və müasir ərəb ədəbiyyatı, ərəbdilli Azərbaycan ədəbiyyatı, müqayisəli ədəbiyyatşünaslıq, ədəbi əlaqələr və mənbəşünaslıq üzrə mütəxəssisdir.

Onun əsərləri keçmiş sovet respublikalarında və ərəb ölkələrində elmi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb, haqqında mətbuatda yazılar gedib, tədqiqatlarda əsərlərinə istinadlar edilib. 3 monoqrafiya, 8 kitab («Əbdüssəlam əl-Üceyli. Həyat və yaradıcılığı», B., Elm, 1989, 5,7 ç.v.; «Bir Məcnun vardı», B., Yazıçı, 1990, 4 ç.v.; Əbülfərəc əl-İsfahani. «Nəğmələr kitabı», ərəb dilindən tərcümə və şərhlər. B., Elm, 1994, 17,75 ç.v.; «Əbülfərəc əl-İsfahaninin «Nəğmələr kitabı» və klassik Azərbaycan ədəbiyyatı». B., Elm, 1998, 12 ç.v.; «İlahi eşq dastanları», B., Maarif, 2001, 23,75 ç.v.; «Hamıdan ucadır alimin yeri», B., 2003, 20,3 ç.v.; Əbülfərəc əl-İsfahani. «Məcnun ləqəbli Qeys ibn Müləvvəh və ərəbdilli Azərbaycan şairləri haqqında hekayətlər». Ərəbcədən filoloji tərcümə, müqəddimə, tədqiqat, şərhlər və göstəricilər, B., Elm, 2007, 23,5 ç.v.; «Müasir Suriya hekayəsi». B., 2007, 20 ç.v.; Əbülfərəc əl-İsfahani. Ölməzliyə aparan yol. Ərəb dilindən tərcümə, tədqiqat, şərh və qeydlər. Bakı, 2010, 156 səh. və sairə) və 100-dən çox elmi məqalə və məruzələrin müəllifidir. Şərq filologiyası və mənbəşünaslıq sahəsində bir çox əsərlərin elmi redaktorudur. Bir sıra elmi dərgilərin redaktoru və ya redaksiya heyətinin üzvüdür. «Azərbaycan şərqşünaslığı» jurnalının baş redaktorudur.

G.B.Baxşəliyeva Azərbaycan şərqşünaslıq elmini dəfələrlə xarici ölkələrdə (Rusiya Federasiyası (Moskva, Sankt-Peterburq, Mahaçqala, Simferopol şəhərləri), İran, Türkiyə, Rumıniya, Macarıstan, Çin, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası, Səudiyyə Ərəbistanı Krallığı, Fransa, Böyük Britaniya, Almaniya, İtaliya və s.) ləyaqətlə təmsil edib, elmin aktual problemlərinə dair məruzələrlə çıxış etmişdir. Xarici mətbuatda bir çox məqalələri nəşr olunmuşdur.

G.B.Baxşəliyeva şərqşünas kadrlarının hazırlanmasında yaxından iştirak etmiş, onun bilavasitə rəhbərliyi ilə on bir namizədlik dissertasiyası müdafiə olunmuşdur. 10.01.02 – «Türk xalqları ədəbiyyatı» və 10.01.03 - «Dünya ədəbiyyatı» ixtisasları üzrə Müdafiə Şurasının sədridir. Şərqşünaslıq sahəsində Respublikada aparılan elmi işlərin koordinasiyası üzrə Problem Şurasının sədridir.

O, pedaqoji fəaliyyətlə də məşğul olmuş, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatı fənni üzrə xüsusi kurs aparmışdır.

G.B.Baxşəliyeva elm təşkilatçısı kimi də xeyli işlər görmüşdür. Onun İnstituta rəhbərlik etdiyi dövrdə şərqşünaslıq elminin ən müxtəlif sahələrinə aid onlarca tədqiqat hazırlanıb çap olunmuş, bir sıra beynəlxalq və respublika elmi konfrans və simpoziumları keçirilmiş, institutun perspektiv inkişaf planları işlənib hazırlanmışdır. Qədim tarixi ənənələri olan Azərbaycan şərqşünaslığı onun direktorluğu dövründə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. İnstitutun profili və aparılan elmi-tədqiqatların başlıca istiqamətləri genişlənmiş, Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-fəlsəfi fikri, filologiyası, Azərbaycanın Şərq ölkələri ilə tarixi-mədəni əlaqələrinin aktual problemləri, Şərq-Qərb qarşılıqlı münasibətləri kompleks şəkildə tədqiq olunmuşdur.

G.B.Baxşəliyeva 1997-ci ildə Şərqşünaslıq İnstitutunun çətin bir dövründə direktor olmasına baxmayaraq, öz vəzifəsinin öhdəsindən uğurla gəlmişdir. Onun fəaliyyəti nəticəsində 1990-cı illərin əvvəllərində baş vermiş kadr axınının qarşısı alınmış və istedadlı gənc kadrların cəlb olunması ilə institutun elmi potensialı möhkəmləndirilmişdir. Eyni zamanda institutda şərqşünaslığın ənənəvi klassik istiqamətləri ilə yanaşı Azərbaycan elminin müasir tələblərinə uyğun olaraq yeni tədqiqat sahələrinin inkişafına diqqət yetirilməyə başlanmışdır. Bu məqsədlə institutun strukturunda dəyişikliklər aparılmış, yeni şöbələr («Şərq-Qərb», «Cənubi Azərbaycan», «Mərkəzi Asiya və Uzaq Şərq» şöbələri) və elmi qruplar yaradılmışdır. G.B.Baxşəliyevanın rəhbərliyi ilə son illərdə institutun beynəlxalq elmi əlaqələri xeyli genişlənmişdir, ABŞ, Almaniya, Hollandiya, Çin, Rusiya, Türkiyə, Ərəb ölkələri, İran, Özbəkistan, Qazaxıstan və sairə bu kimi bir sıra xarici ölkələrdəki şərqşünaslıq mərkəzləri ilə fəal elmi mübadilələr həyata keçirilmişdir. Hazırda G.Baxşəliyeva Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən maliyyələşdirilən «Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən qədim və yeni dövr xəritələrin axtarışı və surətlərinin ölkəyə gətirilməsi» mövzusunda layihə üzərində çalışır. Layihə çərçivəsində o 20.VI – 10.VII.2011-ci il tarixllərində İspaniya və Fransada elmi ezamiyyətdə olmuş, Madrid, Escorial və Paris şəhərlərinin bir sıra kitabxana və arxivlərində axtarışlar aparmışdır.

G.B.Baxşəliyeva 5 noyabr 2000-ci ildə 57-saylı Bərdə-Ağcabədi seçki dairəsindən Azərbaycan Respublikasının II çağırış Milli Məclisinə deputat se-

çilmişdir. 2001-ci ilin iyun ayından 2005-ci ilin dekabr ayınacan Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini olmuşdur. Milli Məclis sədrinin müavini kimi sosial qanunvericiliyə kuratorluq edib. 2005 və 2010-cu illərdə III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə üzv seçilib. Milli Məclisin Elm və Təhsil məsələləri üzrə daimi komitəsinin üzvüdür. Azərbaycan Respublikası Milli Məclisinin İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqında nümayəndə heyətinin rəhbəridir. Onun 2001-ci ildən hazırkı vaxta kimi rəhbərlik etdiyi Parlament nümayəndə heyəti İƏT Pİ-nin sessiya və konfranslarında Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən, Xocalı soyqırımını insanlığa qarşı cinayət adlandıran, üzv parlamentlərə bu haqda qanunvericiliyə əlavələr etməyi təklif edən, işğal edilmiş Azərbaycan ərazilərində müqəddəs islam məbədlərinin, məscidlərinin və məqbərələrinin dağıdılmasını kəskin pisləyən bir sıra qətnamələrin qəbuluna və yekun bəyannamələrə (İstanbul, Qahirə, Əbu Dabi, Kuala-Lumpur, Dəməşq, Palembanq deklorasiyaları və s.) müvafiq maddələrin salınmasına nail olmuşdur. G.B.Baxşəliyeva Parlamentin Azərbaycan-Misir dostluq qrupunun rəhbəridir. O, bir sıra səfərlərdə Azərbaycan Respublikasının Milli Məclisinin nümayəndə heyətinə rəhbərlik edib (Türkiyə, Misir Ərəb Respublikası, Almaniya Federativ Respublikası, Norveç Krallığı, Fransa, Böyük Britaniya, İtaliya, Malayziya, İndoneziya və sair), çoxsaylı görüşlər keçirib, Azərbaycanın nailiyyətləri, üzləşdiyi problemlər və gələcək əməkdaşlıq perspektivləri haqqında geniş fikir mübadiləsi aparıb. Azərbaycan Parlamentini bir sıra beynəlxalq sessiya və konfranslarda təmsil edib (Qərbi Avropa İttifaqının Parlamentlərarası Assambleyasının 51-ci sessiyası, Paris, may, 2005; Bərpaolunan enerji ehtiyatlarından istifadə, Bonn, may, 2004; Uşaq haqlarının müdafiəsinə həsr olunmuş ümumdünya qadın parlamentarilərin konfransı, Roma, oktyabr, 2004; Beynəlxalq davamlı enerji günləri çərçivəsində keçirilən və enerji təhlükəsizliyinə həsr olunmuş beynəlxalq konfrans, mart, 2006, Avstriya, Uels ş.; 2006 il Aprelin 8-13 İstanbulda İKT Parlament İttifaqının VIII sessiyası və konfransı; 2006-cı il 6-11 sentyabr Liviya-Azərbaycan Parlamentlərarası dostluq qrupunun rəhbəri kimi Liviyaya səfər; İKT Parlament İttifaqının IX sessiyası və konfransı, Qahirə, fevral, 2007; İKT Parlament İttifaqının X sessiyası, Malayziya, Kuala-Lumpur, 11-19 fevral, 2008; İKT Parlament İttifaqının fövqəladə sessiyası, İstanbul, sentyabr, 2008; İKT Parlament İttifaqının XI sessiyası, Niger, Niamey ş., 11-19 fevral, 2009; BMT-nin «Sivilizasiyaların alyansı», II forum, İstanbul, aprel, 2009 və s.; İKT Pİ İcraiyyə Komitəsinin iclası və sessiyası, dekabr, 2009; AR Parlamentinin qadın nümayəndə heyəti tərkibində Rumıniyaya səfər, yanvar, 2010; İKT Pİ II Fövqəladə konfransı. Dəməşq (Suriya), 30 iyun 2010; İKT Pİ 13 sessiyası və konfransı, Əbu-Dabi (BƏƏ), yanvar, 2011 və s.).

MÜSAHİBƏLƏR



«AZƏRBAYCANA ABŞ MEYARLARIYLA YANAŞMAQ DÜZGÜN DEYİL»

GÖVHƏR BAXŞƏLİYEVA: «BACARMADIĞIN İŞİN QULPUNDAN YAPIŞMAQ AVANTÜRİZMDİR»

Milli Məclisin növbəti payız sessiyasında bir sıra qanun layihələrinin, o cümlədən «Elm haqqında», «Təhsil haqqında» layihələrin müzakirəsi gözlənilir. Bu haqda «525»in müxbirilə söhbətində Milli Məclis sədrinin müavini, millət vəkili **Gövhər Baxşəliyeva** bildirib: «Hələlik payız sessiyasının planı tərtib olunmayıb. Yaxın günlərdə sessiyanın planı tərtib olunandan sonra konkret hansı qanunların müzakirələrə çıxarılacağını söyləmək mümkün olacaq. Bütövlükdə Azərbaycan cəmiyyəti gözləyir ki, elm və təhsil haqda qanunlar, eləcə də digər sənədlər tezliklə qəbul olunsun. Bu qanunlar artıq hazırdır. Biz gözləyirdik ki, bu iki qanun yaz sessiyasında müzakirəyə çıxarılacaq. Ancaq bu mümkün olmadı. Bir elm adamı kimi bu qanunların qəbul olunması mənim üçün də əhəmiyyətlidir. Qeyd edim ki, bu yaxınlarda dövlət başçısı yüksək balla ali məktəblərə qəbul olunmuş və prezident təqaüdünə layiq görülmüş tələbələrin bir qrupu ilə görüşdü, həmin görüş zamanı təhsilin vəziyyətindən narazılığını bildirdi. Mən də dövlət başçısının bu yöndəki fikirlərini tam dəstəkləyirəm».

Bu yaxınlarda deputat seçildiyi Bərdə rayonunda olduğunu bildirən vitse-spiker səfər zamanı orada kənd məktəblərinin vəziyyətilə yaxından tanış olmaq imkanı əldə etdiyini dilə gətirib: **«Son zamanlar kənd məktəblərinin vəziyyəti məndə narahatçılıq yaradırdı. Çünki mənim seçildiyim dairə əsasən kəndləri əhatə edir. O kəndlərin, demək olar ki, hamısını gəzmişəm və mənim görüşlərim əsasən kənd məktəblərində keçirilib. Müşahidələrimə əsasən deyə bilərəm ki, kənd məktəblərinin durumu xoşagəlməzdir. Bu məsələni vaxtilə təhsil naziri Misir Mərdanovun da nəzərinə çatdırmışam. O mənə dedi ki, məktəblərə vəsaiti Təhsil Nazirliyi yox, rayon icra hakimiyyətləri ayırır. Bunları deməkdə məqsədim odur ki, bu gün Bərdədəki kənd məktəblərinin əksəriyyətinin ciddi təmir işlərinə, müasir texniki avadanlıqlara ehtiyacı var»**. Vitse-spikerin bildirdiyinə görə, o, çıxış yolunu YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin başçısı Akif Saatçıoğluna müraciət etməkdə görüb: **«Orada olarkən Bərdə Rayon Təhsil Şöbəsinin müdiri mənə siyahı verdi. Mən də həmin siyahını hörmətli Akif Saatçıoğluna göndərmişəm. Ümid edirəm ki, onlar Bərdə məktəblərinin**

təmirinə, avadanlıqlarla təmin olunmasına köməklik göstərəcəklər. Düzdür, Akif Saatçıoğlu təmir işlərilə məşğul olmayacaqlarını birdirsə də, məktəbləri texniki avadanlıqlarla təchiz edəcəklərinə söz verdi».

Vitse-spikerlə söhbət zamanı onun 24 avqust referendumunun yekunlarına, eləcə də, ümumxalq səsverməsinin nəticələri ilə bağlı ölkə müxalifətinin, bəzi beynəlxalq qurumların, ABŞ Dövlət Departamentinin, ATƏT-in Bakı Bürosunun mövqeyinə münasibətini də öyrənməyə çalışdıq: **«Şəxsən mən özüm referendum günü Bərdə rayonunda səsvermə prosesini müşahidə etdim. Həmin gün üst-üstə götürəndə 15-ə yaxın məntəqədə oldum. Müşahidə apararkən gördüm ki, referenduma hazırlıq prosesi yaxşı aparılıb, əhali kütləvi şəkildə səsverməyə gəlir. Yeri gəlmişkən, mən özüm bitərəf millət vəkiliyəm. Millət vəkili seçilməzdən əvvəl 23 il elmlə məşğul olmuşam. Elmdə əsas meyar obyektivlikdir. Elmdə həqiqət təhlil və müqayisə nəticəsində ortaya çıxır. Mən də bir elm adamı kimi deyə bilərəm ki, əhali arasında müxalifətin dəstəyi yoxdur. O nəsil ki, 10 il bundan qabaqkı vəziyyəti görüb, artıq həmin dövrün qayıtmasını istəmir. Onlar yaxşı bilirlər ki, 10 il bundan əvvəl vəziyyət necə idi. Mən demək istəmirəm ki, o vaxt hakimiyyətdə olanlar nəsə bir iş görmək istəmirdilər. İstəyirdilər, amma bacarmırdılar. Bacarmadığın işin qulpundan yapışmaq isə avantürizmdir. Əgər bir insan öz şəxsi məqsədi üçün bacarmadığı bir işin qulpundan yapışırsa və bacarıqsızlığının nəticəsində təkcə özü əziyyət çəkirsə, buna heç kim bir söz deyə bilməz. Amma əgər bütöv bir hakimiyyət bacarmadığı işin qulpundan yapışırsa və onun əziyyətini xalq çəkməli olursa, bu, məsuliyyətsizlikdir, hətta deyərdim ki, cinayətdir. Ona görə də mən vaxtilə hakimiyyətdə olub bir işi görə bilməyən adamların bugünkü iddialarını başa düşə bilmirəm. Necə deyərlər, «kor kor, gör gör». Məlum oldu ki, onlar öz vəzifələrinin öhdəsindən gələ bilmədilər, xalqı fəlakətə yuvarladılar. Odur ki, bu gün durub bir iş görməyə çalışan adamlara qulp qoymaq, hər şeyə qara yaxmaq, «hər şey pisdir» demək, bu düzgün mövqe deyil. Yaxşıya yaxşı, pisə pis demək lazımdır»**.

Vitse-spikerin iddiasına görə, bu gün Azərbaycan cəmiyyətində müsbət irəliləyişlər danılmazdır, faktdır: **«Bunu etiraf etmək lazımdır. Elə götürək bu referendumu. Referendum başa çatmamışdan deyirdilər ki, nəticələr saxtalaşdırılacaq. Axı soruşan lazımdır ki, siz haradan bilirsiniz nəticələr saxtalaşdırılacaq? Hər şeyin bir ölçüsü olmalıdır. Bu on il ərzində müxalifət demək olar ki, dəyişməyib. Yenə eyni sözlər, yenə eyni bəyanatlar səsləndirilir. Bilirsiniz, gərək artıq onlar da xalq qarşısında məsuliyyətlərini anlasınlar. Müxalifətçilik edirlər, etsinlər, tənqid edirlər, et-**

sinlər. Ancaq müxalifətçilik o demək deyil ki, hər şeyə ucdantutma qara yaxasan, hər şeyə bir «mız» qoyasan».

Referendumla bağlı ABŞ Dövlət Departamentinin mövqeyinə toxunan vitse-spiker bildirib ki, 200 ildən artıq tarixə malik olan ABŞ demokratiyası ilə 11 illik Azərbaycan demokratiyasını müqayisə etmək olmaz: **«Onlar demokratiyaya doğru 200 ildən artıqdır ki, yol gəlirlər. Biz də istəyirik ki, Azərbaycanda demokratiya tam bərqərar olsun. Ancaq bir şeyi nəzərə almaq lazımdır ki, biz şərqliyik, heç kim inkar edə bilməz ki, mentalitetimizdə şərqçilik qalır. Biz bütün tarix boyu Şərqin bir hissəsi kimi inkişaf etmişik, 100 ilə yaxın çar, 70 il sovet imperiyasının tərkibində olmuşuq. Ona görə də indi birdən-birə Azərbaycana ABŞ meyarlarıyla yanaşmaq düzgün deyil. Azərbaycan gün-gündən inkişaf edir, ölkədəki demokratik dəyişiklikləri görməmək, qiymətləndirməmək insafdan deyil. Bu gün əhalinin böyük əksəriyyəti indiki iqtidarı, onun əvəzedilməz lideri Heydər Əliyevi dəstəkləyir və inanıram ki, bundan sonra da dəstəkləyəcək. Yenə də qeyd edirəm ki, bu gün müxalifətin ictimaiyyət arasında heç bir nüfuzu, dəstəyi yoxdur. Mən özüm seçicilərimlə görüş zamanı şahidi olmuşam ki, müxalifətin yerlərdə heç bir hörməti yoxdur. Camaat onları məsxərəyə qoyur. Gərək bunları müxalifət özü dərk etsin. Son olaraq onu demək istəyirəm ki, 24 avqustda referendum yüksək fəallıq şəraitində keçib və ümumxalq səsverməsi baş tutub**».

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 3 sentyabr 2002-ci il.

AZƏRBAYCAN SƏHİYYƏ SAHƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏNİ ÖYRƏNMƏYƏ ÇALIŞIR

Müsahibimiz Milli məclisin sədr müavini **Gövhər Baxşəliyevadır**.

- Gövhər xanım, Azərbaycan dövləti sosialyönümlü siyasət yeritməsi ilə postsovet məkanında öncül yerlərdən birini tutur. Bu barədə, xüsusən tibb sahəsində yaradılan qanunvericilik bazası haqqında ümumi məlumat verməyiniz oxucularımız üçün maraqlı olardı.

- Müstəqil Azərbaycan Respublikası mütərəqqi sosial siyasəti ilə fərqlənən dövlətdir. Son illər sosial sahədə həyata keçirilən mühüm işlər bunu bir daha sübut edir. Müstəqillik qazandıqdan sonra ölkəmizdə köklü hüquqi, siyasi, iqtisadi və sosial islahatlar geniş vüsət alıb. Şübhəsiz ki, əvvəlcə bu islahatların mexanizmi müəyyənləşdirilməli, onun hüquqi əsasları müvafiq qanunvericilik aktlarında əksini tapmalıdır.

Azərbaycan dövlətinin sosial siyasəti hər bir vətəndaşın mənafeyini nəzərə alınmaqla xalqın yüksək həyat səviyyəsinin təmin olunmasına yönəlibdir. Bu isə həmin sahəyə aid olan hüquqi bazanın mütərəqqi normalara əsaslanmasından irəli gəlir. Yaradılan hüquqi baza bir çox sahədə olduğu kimi, səhiyyədə də yeni münasibətlərin tənzimlənməsinə və yüksək səviyyədə inkişafına imkan verir.

«Əhalinin sağlamlığının qorunması haqqında» qanun ilk növbədə Konstitusiyamızda təsbit olunan müvafiq normaların təmin edilməsinə şərait yaradan hüquqi bazadır. Bu qanun səhiyyə sahəsində əsas sənəd hesab edilir, orada təkcə səhiyyənin təşkilati-iqtisadi məsələləri deyil, həm də vətəndaşların sağlamlığının qorunması sahəsində hüquqları əks olunub. Son illər Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən əhalinin sağlamlığının möhkəmləndirilməsinə, qorunub saxlanmasına yönəldilən tədbirlərin məcmusunu əks etdirən bir çox qanun qəbul edilibdir. Bunlardan «Sanitariya-epidemioloji salamatlıq haqqında», «Əczaçılıq fəaliyyəti haqqında», «İnsanın immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında», «Qan və onun komponentlərinin donorluğu haqqında», «İnsan orqan və toxumalarının transplantasiyası haqqında», «Özəl tibb fəaliyyəti haqqında», «Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında» və digər qanunları göstərmək olar.

«Özəl tibb fəaliyyəti haqqında» qanun islahatların köklü problemlərini tənzimləyən və günün tələbinə cavab verən hüquqi aktdır. İqtisadi və ictimai münasibətlərin mahiyyəti, xarakteri dəyişdiyindən müxtəlif səhiyyə sistemlərinin

mövcudluğu zərurətə çevrilir. Başqa-başqa mülkiyyət növlərinə əsaslanan səhiyyə müəssisələri arasında rəqabətə imkan yaradılması son nəticədə tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına səbəb olur. Məhz belə prinsiplərə söykənən səhiyyə sistemi müasir tələblərə cavab verə bilir. Səhiyyə sahəsində beynəlxalq təcrübənin təhlili göstərir ki, yeni iqtisadi münasibətlər zəminində əhalinin tibbi sığorta məsələsi mühüm rol oynayır. «Tibbi sığorta haqqında» qanun tibbi sığortanın könüllü və icbari formalarını müəyyənləşdirir, sığorta vəsaiti hesabına vətəndaşların tibbi yardım almasına imkan yaradır.

Dünya üçün qlobal problem olan AİDS-in yayılmasının qarşısını almaq, vərəmlə, eləcə də digər yoluxucu xəstəliklərlə mübarizə aparmaq müasir səhiyyənin əsas vəzifələrindəndir. Bu məsələləri tənzimləmək, konkret mexanizmlər müəyyənləşdirmək üçün respublikada müvafiq qanunlar qəbul olunur, milli proqramlar həyata keçirilir ki, bütün bunlar gələcək nəsillərin sağlamlığının qorunması işinə xidmət edən mühüm amillərdən biridir. Son dövrdə qəbul edilən «Psixiatriya yardımı haqqında», «Yod çatışmazlığı xəstəliklərinin profilaktikası məqsədilə duzun yodlaşdırılması haqqında» qanunlar da bu baxımdan əhəmiyyət kəsb edir. Həmin qanunlar dünya təcrübəsinə və beynəlxalq hüquq normalarına tam cavab verir, beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, Ümumdünya Səhiyyə Təşkilatının üzvü olan Azərbaycan bu sahədə üzərinə götürdüyü öhdəlikləri yüksək səviyyədə yerinə yetirir. ÜST-ün direktiv sənədlərinə uyğun olan qanunvericilik aktlarının qəbul edilməsi sahəsində respublikada aparılan işlər beynəlxalq səviyyədə bəyənilir. «Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında», «Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» qanunları Milli Məclis beynəlxalq təşkilatın tövsiyələri nəzərə alınmaqla qəbul edib. Ölkədə möhkəm qanunvericilik bazasının, beynəlxalq təşkilatlarla geniş əlaqələrin yaradılmasının nəticəsidir ki, Şərqi Avropa dövlətlərinin Beynəlxalq Diabet Federasiyasının II Avropa görüşü bu ilin aprel ayında Bakıda keçirilib.

Milli Məclisin Sosial siyasət daimi komissiyası MBT-nin İnkişaf Proqramı və Avropa Şurasının bir sıra əlaqədar qurumları ilə birlikdə uzun müddətdir ki, Azərbaycanda qan bankının və qanköçürmə xidmətlərinin bərpası istiqamətində qanun yaradıcılığı sahəsində təcrübəni öyrənir, əməkdaşlığın möhkəmlənməsi üçün ardıcıl iş aparır.

- Yeri gəlmişkən, qanköçürmə sahəsində mövcud qanunvericilik və real vəziyyət barədə danışardınız. Bu yaxınlarda parlamentdə keçirilən seminar-müşavirədə deputatlarla yanaşı, mütəxəssislər də iştirak edirdi və orada qanköçürmə xidmətinin təkmilləşdirilməsinə ehtiyac yarandığı qeyd edilmişdi.

- Bəli, 10 iyun 2004-cü ildə «Qanköçürmə xidmətləri ilə bağlı Azərbaycan qanunvericiliyinin monitorinqi və qanun yaradıcılığının perspektivləri» mövzusunda seminar-müşavirənin Milli Məclisdə keçirilməsi və tədbiri Milli Məclis sədrinin birinci müavini Arif Rəhimzadənin aparması təsadüfi deyildi. Sovet dövründə ölkədə qanköçürmə xidməti yüksək səviyyədə olub. Sonralar isə qorxulu virusların – AİDS, hepatit B və C – bütün dünyada daha geniş yayılması və qanköçürmə vasitəsilə bir insandan başqasına keçməsi təhlükəsinin çoxalması qanköçürmə xidməti ilə məşğul olanların ciddi narahatlığına səbəb olub. Nəzərə alsaq ki, ölkədə müharibə vəziyyəti davam edir, əsgərlərimiz sərhəd bölgələrində düşmən gülləsinə tuş gəlir, minalara düşür, onda qanköçürmə xidmətinin təkmilləşdirilməsinin vacib olduğunu bir daha qeyd etməliyik. İstənilən travmalar, cərrahiyyə əməliyyatları zamanı, hemofiliyalı, talassemiyalı xəstələrə sağlam qan köçürmək lazım gəlir. Bu baxımdan qanköçürmə xidmətinin təkmilləşməsinə yönəlmiş proqramın böyük əhəmiyyəti var.

Proqram mövcud qanunvericiliyə dəyişiklik etməyi də nəzərdə tutur. Tədbirdə Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Çingiz Əsədov çıxış edərək indiyədək qəbul olunan qanunlar, Donorluğun inkişafı üzrə Dövlət Proqramı, qan xidməti üzrə birinci respublika konfransı, ABŞ-ın «Teksako» neft şirkətinin sponsorluğu ilə Hematologiya və Transfuziologiya İnstitutu nəzdində qan bankının təşkili və s. barədə geniş məlumat verdi. Bildirdi ki, 2002-ci ildən həyata keçirilən layihənin əsas məqsədi Azərbaycanda qanköçürmə xidmətini Avropa üzrə qəbul edilmiş dünya standartları səviyyəsinə qaldırmaqdır. Lakin 1996-cı ildə «Qan və onun komponentlərinin donorluğu haqqında» qəbul edilən qanunda qanın tədarükü, saxlanılması, bölüşdürülməsi və qanköçürmənin təhlükəsizliyinin təmin edilməsi kimi vacib məsələlər artıq tam həcmdə günbəgün inkişaf edən müasir tələblərə cavab vermir. Tədqiqatlar göstərir ki, qanla köçürülən infeksiyaların qarşısının alınmasının ən yaxşı yolu qanın yalnız könüllü, pulsuz, regulyar donorlardan alınmasıdır. Mövcud qanunda isə bu müddəa da vurğulanmır. Ç.Əsədov təmənnasız donorluğun qeyri-müvəffəq vəziyyətə gəlib çıxmasının səbəblərini də söylədi: bunlar iqtisadi çətinliklər ucbatından qan xidmətinin lazımi səviyyədə maliyyələşdirilməsinin mümkün olmaması, iqtisadi və sosial problemlərin əhalinin sağlamlığına mənfi təsir göstərməsi, infeksion xəstəliklərin miqdarının artması, fəaliyyət göstərən müəssisələrin sayının kəskin azalması, donor qabiliyyətli cavanların bir qisminin qazanc dalınca başqa ölkələrə getməsi, əhalinin donorluğa cəlb edilməsi işindən Qızıl Aypara Cəmiyyətinin özünü kənarlaşdırmasıdır. Donorluq transfuzion təbabətin əsas bölməsidir və onun dinamik inkişafı olmadan cərrahiyyə, reanimasiya, hematologiya, mamalıq-ginekologiya, onko-

logiya, travmatologiya və s. kimi sahələrdə ixtisaslaşmış tibbi yardımın müvəffəqiyyətlə həyata keçirilməsi mümkün deyildir. Qan xidmətinin rolu fövqəladə vəziyyətlərdə kütləvi surətdə yaralı və zərərçəkənlərin olduğu zaman xüsusilə artır.

BMT və Avropa Şurasının əlaqədar qurumlarının Azərbaycanda həyata keçirdikləri proqram məhz Norveçin maliyyə dəstəyi ilə həyata keçirilir. Parlament nümayəndə heyətinin Norveçə səfəri isə bu proqramın tərkib hissəsi kimi reallaşdı.

- Səhiyyəsinin həddindən artıq inkişaf etdiyi, tibb personalı qarşısında hər bir vətəndaşın sağlamlığının keşiyində sayıq dayanmasının təmin olunduğu və bütün xəstəxanalarda müalicənin pulsuz aparıldığı Norveçdən öyrənilməli cəhətlər çoxdur. Hesab edirsinizmi, səhiyyə sisteminin Avropa standartlarına uyğun təkmilləşdirilməsi üçün Norveçin təcrübəsindən bəhrələnməyə dəyər?

- Əvvəla onu deyim ki, başçılıq etdiyim parlament nümayəndə heyətinə Sosial siyasət daimi komissiyasının sədri Hadi Rəcəbli və MM aparatı sosial qanunvericilik şöbəsinin müdiri Adilə Abbasova daxil idilər və biz 5-8 iyulda Norveçdə olarkən öyrəndik ki, burada səhiyyə sahəsində qanunlar o qədər də çox deyildir. Azərbaycandan fərqli olaraq hətta qan haqqında ayrıca qanun da yoxdur. Norveç parlamenti (Stortinq) müvafiq icra hakimiyyətinə səlahiyyət verir ki, ümumi qanunvericilik əsasında bütün sahələrin fəaliyyətini tənzimləyən təlimatlar hazırlasın və səhiyyə ocaqlarının həmin təlimatlar üzrə işləməsini təmin etsin. Norveçdə donorlar pulsuz, könüllü və anonimdir. Bu prinsiplər Avropa ölkələrində qəbul olunan ümumi qaydalara əsaslanır. Donorların həyat tərzini müəyyənləşdirmək, qanın sağlamlığını yoxlamaq ilkin mərhələdir. Onu da deyim ki, Afrika və Cənub-Şərqi Asiya ölkələrindən olan şəxslərdən qan götürülmür, hesab edilir ki, bu ölkələrdə viruslara yoluxma ehtimalı böyükdür.

İkinci dünya müharibəsindən sonra Norveçin səhiyyə sistemi çox geridə qalmışdı. 1905-ci ildən müstəqillik qazanan Norveç bütün uğurlarına son 40-50 ildə nail olub. Cəmi 4,5 milyon əhalisi olan bu ölkənin neft və qaz sənayesindən daxil olan gəlirlərin olduqca səmərəli xərclənməsi nəticəsində Norveç səhiyyəsi bu gün Avropada ən qabaqcıl yerlərdən birini tutur. Ölkə 19 qubernadan ibarətdir və əhali əsasən cənub hissədə yaşayır. 2002-ci ildən quberniya xəstəxanaları dövlətin nəzdinə verilib. Norveçdə pullu səhiyyə çox cüzidir, əsasən ilkin tibbi yardım müəssisələrindədir. Xəstəxanalarda isə tibb xidməti tamamilə pulsuzdur.

Norveçin sahəsi 5 tibbi zonaya bölünür. Ölkənin şimal zonasında iqlim soyuq, buzlaq olduğuna görə ora mütəxəssis çatdırmaq çətindir. Ona görə Nor-

veçdə telesəhiyyə güclü inkişaf edibdir. Ölkənin ən ucqar nöqtəsində kompüter qarşısında əyləşən mütəxəssis paytaxtdakı həmkarından həmin an lazımi məsləhət ala bilir. Xəstəyə belə məsləhətlər kömək etmirsə, nə qədər ağır hava şəraiti olsa da, xəstəxanaya çatdırılmalıdır. Televiziya vasitəsilə Norveç həkimləri dünyanın bir sıra ölkələri, o cümlədən Rusiya ilə təcrübə mübadiləsi aparırlar. Telesəhiyyə bizi çox maraqlandırdı. Azərbaycanın ucqar rayonlarından mütəxəssis üçün Bakıya gəlirlər. Fikrimcə, ölkə daxilində telesəhiyyəni inkişaf etdirmək mümkündür.

Norveçdə sosial sahəyə büdcənin beşdə biri ayrılır və səhiyyə ocaqlarında növbələrə mütləq riayət edilir. Yalnız kral və onun ailəsi növbədənkənar tibb xidməti almaq hüququna malikdir. Kral isə əhaliyə hörmət əlaməti olaraq heç vaxt növbədən kənara çıxmır. Norveçdə kişilərin orta ömrü 76, qadınlarınkı 81 ildir. 45 yaşında qadın 38, kişi isə 33 yaşlı kimi görünür. 80 yaşında qadın sanki 8-6 yaş, kişi isə 6-8 yaş cavandır. Bu, həyat tərzinin yüksək səviyyəsindən və ölkənin coğrafi mövqeyindən irəli gəlir. 67 yaşında pensiyaya tövsiyə olunan vətəndaş 70 yaşında mütləq təqaüdə çıxarılır.

Norveçdə tibbi personal və pasiyentlərin hüquqları haqqında qanunlarla tanış olduq. Bu sənədlər əhalinin sağlamlığının təmin edilməsi və xəstələrin hüquqlarının müdafiəsi baxımından çox lazımlıdır. Onlar marağımızı nəzərə alıb bu qanunları tərcümə edib göndərəcəklərinə söz verdilər.

Norveçdə səhiyyənin strukturu da təkmildir. Mən xüsusən səhiyyə üzrə dövlət nəzarəti adlanan qurumdan danışmaq istəyirəm. Bu qurumun rəhbəri və onun müavini baş nazir tərəfindən ömürlük təyin olunur. Demək, həmin qurum Səhiyyə Nazirliyindən asılı deyildir və tamamilə müstəqildir. Təşkilat ölkə üzrə səhiyyə sahəsində görülən işlərə nəzarət edir, müalicə-profilaktika tədbirlərinin mövcud standartlara cavab verməsini təmin edir. Dövlət nəzarəti bütün səhiyyə müəssisələrini yoxlayır və rəy verir. Bu rəylərə isə yalnız səhiyyə üzrə dövlət nəzarətinin fəaliyyətini yoxlamaq səlahiyyətinə malik olan Auditorlar Palatası etiraz edə bilər. Bütün hallarda narazılıq məhkəmə vasitəsilə həll olunur.

Norveçdə xəstəxanaların bəziləri universitetlər nəzdindədir. Biz bir neçə böyük xəstəxanada olduq və heç yerdə xəstə görmədik. Xəstələri səhiyyə müəssisələrini ziyarət edənlərə göstərmək qeyri-etik sayılır. Norveçdə nadir tibbi əməliyyatları da tam pulsuz aparırlar.

Nümayəndə heyəti Norveç parlamentini də ziyarət etdi. Storinq ikipalatalıdır. Cəmi 165 deputatın üçdə biri Yuxarı palatada (Odelstinq), üçdə ikisi Aşağı palatada (Laqstinq) iştirak edir. Qanunlar 12 komitədə hazırlandıqdan sonra Laqstinqə verilir. Bu palatada icra hakimiyyətinin nümayəndələri ilə birlikdə uzun müzakirələr aparılır, səsvermədən sonra qanun layihəsi Odelstinqə ötürü-

lür. Yuxarı palatada layihələr çox tez qəbul edilir, geniş müzakirələrə ehtiyac duyulmur. Parlament iki böyük – mühafizəkarlar və sosial-demokratlar partiyalarının üzvlərindən ibarətdir. Seçkilər proporsional və majoritar qaydada keçirilir və deputatlar yerlərini partiya siyahısı əsasında yox, ərazi baxımından tuturlar. Stortinq 4 il müddətə seçilir, sessiya payızda başlayır və ilk məsələ növbəti ilin büdcəsinin müzakirəsi olur. Parlamentin iclasları həftədə üç dəfə keçirilir.

Fikrimcə, Avropanın ən zəngin və demokratik dövlətlərindən olan Norveçlə səhiyyə sahəsində əməkdaşlıq etmək Azərbaycanın maraqlarına uyğundur. Xalqımızın sağlamlığının qorunması və möhkəmləndirilməsi sahəsində qanun yaradıcılığını daha da təkmilləşdirmək, inkişaf etdirmək üçün Norveçin təcrübəsindən istifadə etmək niyyətindəyik. Əlaqələrimiz daimi xarakter alacaq və bu ölkənin nümayəndələri oktyabr ayında Azərbaycana gələcəklər.

Müsahibəni apardı: Validə İsmayılova,
«Azərbaycan» qəzeti, 30 iyul 2004-cü il.

«AZƏRBAYCAN ŞƏRQŞÜNASLARI ZİYA MÜƏLLİMİN TİMSALINDA BÖYÜK USTADI İTİRDİLƏR»

GÖVHƏR BAXŞƏLİYEVA: «8 İL ÖNCƏ ZİYA BÜNYADOVA TUŞLANAN GÜLLƏ TƏKCƏ ONUN YOX, BİZİM HƏR BİRİMİZİN ÜRƏYİNİN BAŞINDAN DƏYDİ»

«525»in müxbirinin suallarına Milli Məclis sədrinin müavini, Şərqşünaslıq İnstitutunun direktoru, professor **Gövhər Baxşəliyeva** cavab verir.

- Gövhər xanım, bir neçə gündən sonra mərhum akademik Ziya Bünyadovun vəhşicəsinə qətlə yetirilməsinin 8-ci ildönümü tamam olur. Mərhum akademiki uzun müddətdən bəri yaxından tanıyan və onunla xeyli müddət birgə çalışan bir şəxs kimi, həmin məşum hadisəni, qətl gününü necə xatırlayırsınız?

- Elmi fəaliyyəti və həyat yolu bütün ziyalılarımız üçün örnək ola bilən Ziya Bünyadov XX əsr Azərbaycan elminin ən görkəmli simalarından biri idi. Azərbaycan MEA-nın həqiqi üzvü və vitse-prezidenti, əməkdar elm xadimi, Sovet İttifaqı Qəhrəmanı, millət vəkili Ziya Musa oğlu Bünyadov əsl elm fədaisi idi. Onun orta əsrlər Azərbaycan və ərəb xilafəti tarixinə dair qiymətli elmi əsərləri həmişə tədqiqatçılarımız üçün əvəzsiz mənbə olub. Ziya müəllim Şərq tarixinin ustad bilicilərindən biri idi, orta çağ türk tarixini araşdıran alimlər, ərəbdilli mənbələri, əlyazmaları tədqiq edən mütəxəssislər onun danılmaz nüfuzu və biliyi qarşısında baş əyirdilər. Zaman keçdikcə Ziya müəllimin yeri, Ziya Bünyadovun fenomeni öz təkrarsızlığını hər an büruzə verir. İstər elm ilə bağlı, istərsə də təşkilati məsələlərin həll edilməsi zamanı elmi ictimaiyyətimiz onun müdrik kəlam və məsləhətlərini yada salır. Bu, ilk növbədə, Ziya Bünyadovun yaratdığı milli şərqşünaslıq məktəbinə, bu gün onun adını şərəflə daşıyan Şərqşünaslıq İnstitutunun yaradıcı kollektivinə aiddir. Konkret sualınıza gəldikdə isə, bunları deyə bilərəm: 1997-ci il, fevral ayının 21-i, cümə günü... Həmişəki kimi səhər saat onun yarısında Ziya müəllimin Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutundakı kabinetinə daxil oldum. Qısa hal-xoşdan sonra cari işlər haqqında məruzə edib, müvafiq göstərişlər aldım. Yeni nəşrlər barədə fikir mübadiləsindən sonra öz iş otağıma getdim. Həmişəki kimi saat 11.15-də (bu vaxt xidməti maşın gəlib onu Akademiyanın aşağı binasına, Rəyasət Heyətinə aparardı) onun: «Xanım, sağ ol, mən getdim» – deyərək, liftə tərəf getdiyini gördüm. Kim bilərdi ki, bu Ziya müəllimdən eşitdiyim son sözlər, Ziya müəllimi gördüyüm son dəqiqələr idi?! Axşam isə... Xeyli vaxt keçməsinə baxmayaraq, indi də o dəhşətli

günləri xatırlamaq mənim üçün son dərəcə ağırdır. Deyirlər ki, ölüm haqdır, bir gün yaranan bir gün getməlidir. Ancaq belə bir deyim də var, ölüm var ölüm kimi, ölüm var zülm kimi. Ziya müəllimin zorakı ölümü xalqımıza üz verən ən böyük faciələrdən biri idi. Beş illik Böyük Vətən Müharibəsinin odlu-alovlu yollarından sağ-salamat keçən, həyatın bütün sınaqlarından alnıaçıq, üzüağ çıxan qəhrəman-alimi ömrünün ixtiyar çağında öz evinin astanasında qətlə yetirdilər. Ziya müəllimin simasında biz kimi itirdik – Dünya şöhrətli alimimizi, sağlığında artıq elmin korifeyi, klassiki adını qazanmış şəxsiyyəti, Azərbaycan ictimai elminin dayaq sütunlarından birini, el ağsaqqalını, çoxumuzun iftixarı olan bir insanı. Ziya müəllim elmi tədqiqatın müasir üslubunun ən yüksək peşəkarlıq səviyyəsinə qalxmış alim, ensiklopedik bilik, fövqəladə zəka, fenomenal istedad sahibi idi. Böyük, geniş ürəkli insan, qayğıkeş və tələbkar müəllim, tükənməz nikbinliklə dolu, həyat eşqiylə çağlayan gözəl bir insan idi. Ziya müəllimin həyatdan getməsi bütün xalqımız üçün əvəzsiz itki idi. Lakin onunla birgə işləyənlərin, onunla hər gün təmasda olanların, onun həmkarlarının, tələbələrinin, Ziya Bünyadov elmi məktəbinin yetirmələrinin ağrı-acısı ölçüyə gəlməz idi. Çünki Ziya müəllimin şəxsində Azərbaycan şərqşünasları böyük ustadını, sevimli atasını itirdilər. Ona tuşlanan güllə tək onun yox, bizim hər birimizin ürəyinin başından dəydi. Ziya müəllimin simasında təbiətin ona səxavətlə bəxş etdiyi keyfiyyətlərlə titanik zəhmətin bəhrəsi olan xüsusiyyətlər üzvü bir vəhdətdə birləşmişdi. Və nəticədə onun şəxsində ecazkar bir harmoniya təcəssümü yaranmışdı. Elm olimpinin ən yüksək zirvəsində duran Ziya müəllimdə bu müqəddəs peşə sahiblərinə xas olan ən yüksək, ülvi cəhətlər cəmlənmişdi – ilk növbədə özünə, sonra ətrafdakılara yüksək tələbkarlıq, söz və əməl birliyi, alovlu vətənpərvərlik, xalqa, millətə, torpağa hədsiz məhəbbət.

- Ümumiyyətlə, Z.Bünyadovla tanışlığınızın, əməkdaşlığınızın tarixçəsi nə vaxtdan başlayır?

- Ziya müəllimlə mənim ilk əyani tanışlığım o zaman S.M.Kirov adına ADU-nun Şərqşünaslıq fakültəsində may ayında dövlət imtahanları zamanı baş verib. Adını çox eşitdiyim, özünü o vaxtacan görmədiyim Sovet İttifaqı Qəhrəmanı, akademik, məşhur alim Ziya Bünyadov o zaman biz tələbələrə uca, əlçatmaz bir zirvə kimi görünürdü, onun baxışları altında tir-tir əsirdik, dilimiz topuq çalırdı. Universiteti bitirdikdən sonra mən Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsinə işə qəbul olundum. Ziya müəllim o vaxtlar Orta əsr Şərq tarixi şöbəsinin müdiri idi. Onu yalnız institutun ümumi yığıncaqlarında görürdüm, burada isə olduqca prinsipial, tələbkar, hətta sərt çıxışları onun haqqında məndə yaranmış əvvəlki fikrimi bir daha təsdiqləyirdi. İllər keçirdi, mən namizədlik dissertasiyamı müdafiə edib baş elmi işçi vəzifəsində çalışırdım, artıq doktorluq dissertasiyamı tamamla-

maqda idim. 1993-cü ilin yanvar ayı idi. Ziya müəllim qısa fasilədən sonra yenidən institutumuza rəhbərlik edirdi. Bir gün məni kabinetinə dəvət etdi, əvvəlki müavininin başqa işə keçməsilə əlaqədar bu vəzifəni mənə təklif etdi. Beləliklə, mən Ziya müəllimlə sıx təmasda işləməyə başladım və onu yaxından müşahidə etmək imkanı əldə etdim. Çox keçmədən anladım ki, Ziya müəllim haqqında əvvəlki qənaətim tamamilə yanlış imiş. Tədricən, günbəgün qarşımda yeni, indiyəcən tanımadığım bir insan xarakteri canlanırdı. Bu insan böyüklüyü qədər də sadə və səmimi idi. Riyakarlıq, ikiüzlülük, üzdə bir söz deyib, arxada başqa bir söz danışmaq ona tamamilə yad idi. Belə insanlara nifrət edir, onlara heç vaxt bəraət qazandırmırdı. Ziya müəllim mərdlik və cəsarət nümunəsi idi. Bu cəhətlər onun həyatının hər bir sahəsində özünü büruzə verirdi – elmdə də, şəxsi və ictimai həyatında da, həmkarları ilə münasibətlərdə də, Ziya müəllim heç vaxt haqqı nahaqqa qurban verməzdi. Harada olsa, nə söyləsə, nə ilə məşğul olsa, nə yazsaydı, təbiətinin dərinliklərindən yaranan ədalət hissini daim qoruyub saxlayırdı. Və bu hiss son nəticədə onun xarakterinin başqa cəhətlərinə qalib gəlirdi. Ziya müəllim olduqca həssas və rəhmli, xeyirxah insan idi. Zəiflərə, kimsəsizlərə kömək etmək onun daxili tələbatı idi. Çox vaxt heç bir müraciət olmadan kollektivdən kiminsə artıq diqqətə və qayğıya ehtiyacı olduğunu özü duyurdu, o əməkdaşı daim diqqət mərkəzində saxlayıb mümkün köməyi edirdi.

- Bəs, Ziya müəllimin iş üslubu necə idi?

- Ziya müəllimin çox operativ və çox sadə iş üslubu var idi. Onun qəbuluna gələnləri heç vaxt gözlətdirməz, dərhal qəbul edib, məsələni yerindəcə çalışırdı həll etsin. Ümumiyyətlə, Ziya müəllimin otağının qapısı heç vaxt bağlanmazdı, həmişə açıq olurdu, o heç vaxt xüsusi qəbul saatları təyin etməzdi. Hər kəs istənilən vaxt onun yanına gəlib, dərdini, problemini danışa bilərdi. Akademiyanın taleyi onu çox narahat edirdi. O vaxt ölkəni bürümüş dərin iqtisadi böhran birincilər sırasında elmi işçilərə, onların maddi durumlarına təsir etmişdi. Əməkdaşlarımızın ağır maddi vəziyyəti onu qayğılandırırdı, ürəyini ağrıdırdı. Hər vəchlə çalışırdı ki, onlara kömək etsin, çox şeydə güzəştə gedirdi, əvvəlki tələbkarlığını da azaltmışdı. Bir şeyi bağışlaya bilmirdi Ziya müəllim: çətinliklərə dözməyib, institutu tərk edənlərə heç cür bəraət qazandırmırdı. Deyirdi ki, əsl alim hər cür çətinliyə, o cümlədən kasıbçılığa dözməlidir. Öz həyatında sinə gərdiyi çətinlikləri yada salırdı. Və çox şeyi bağışlaya bilən Ziya müəllim tək institutdan gedənləri bağışlamırdı, onları bir növ elmə xəyanətdə günahlandırırdı, onlardan birdəfəlik üz döndərirdi. Bu səbəbdən də instituta geri qayıtmaq istəyənləri yenidən işə götürmürdü. Sözü də həmişə bir olardı: Niyə gedirdilər? Ziya müəllim Qarabağ məsələsini böyük yanğı və ürək ağrısı ilə yaşayırdı. Xatirimdədir, azərbaycanlılar qədim oğuz eli – indiki Ermənistandan kütləvi

şəkildə qovulduqda, o hamıdan öncə onların Dağlıq Qarabağda yerləşdirilməsinin vacibliyini o vaxtkı respublika rəhbərliyinə çatdırdı. Əfsuslar olsun ki, böyük alimin bu təklifi qulaqardına vuruldu. Nəticə isə göz önündədir. Olub keçənləri təhlil edərək başa düşürük ki, Ziya müəllimin o vaxtkı təklifinə əməl edilsəydi, Qarabağ problemi elə o vaxt yerindəcə həll olunardı, xalqımız neçə-neçə müsibətlərdən yan keçərdi.

Ziya müəllim çox intizamlı idi. Nə vaxtsa cavanlıqda, cəbhədə xidmət etdiyi vaxt əldə etdiyi daxili nizam-intizam onun canına elə sirayət etmişdi ki, bütün ömrü boyu bu intizama tabe olmuş, ondan kənara çıxmamışdı. Hər bir işində son dərəcə dəqiq idi. Həmişə eyni vaxtda işə gəlib, eyni vaxtda da işdən gedərdi. Hansısa səbəbdən yarım saat da gecikməli olsa, bu haqda mütləq əvvəlcədən zəng edib xəbərdarlıq edirdi. Deyirdi ki, istirahət günləri evdə darıxır, tez işə çıxmaq istəyir. Ziya müəllimin müavini işlədiyim dörd il ərzində o bir gün də olsun evdə qalmadı, hətta xəstə-xəstə işə gəlirdi, zökəmi, soyuqdəyməni, yüksək hərarəti ayaq üstə keçirərdi. Deyərdi ki, yatağa düşsəm, bir daha durmayacağam. İnanırdı ki, çox yaşayacaq, tez-tez bir falçı qadının sözlərini xatırlayırdı: Müharibəni keçəcəksən, yaralanacaqsan, amma sağ qalacaqsan, uzun ömür sürəcəksən.

Ziya müəllimin çox geniş elmi maraq dairəsi vardı. Tarixçi olmasına baxmayaraq, o daim Şərq ədəbiyyatı ilə də maraqlanırdı, bu sahədə də yeri gələndə böyük işlər görürdü. Məsələn, Nizaminin müasiri, XII əsr Azərbaycan müəllifi Xosrov al-Ustadın «Munis-namə» əsərinin əlyazmasını Böyük Britaniya kitabxanalarında kəşf edib, surətini gətirərək, professor Rüstəm Əliyevə vermişdi. Bu haqda əsərin sonrakı tərcümə nəşrində geniş məlumat verilib. Yaxud, başqa epizod. Ziya müəllim uzun müddət XI əsr müəllifi İmaməddin əl-İsfahaninin «Xəridətül-əsr fi cəridətil-qəsr» əsəri haqda danışırdı. Dörd hissədən ibarət bu əsərin bir hissəsi əcəm (qeyri-ərəb) şairlərinə həsr olunmuşdu və elə bu səbəbdən də ərəb tədqiqatçılarının diqqətindən kənarda qalaraq, işıq üzü görməmiş, əlyazma şəklində Bağdad kitabxanasında mühafizə edilirdi. Ziya müəllimin bir çox səylərinə baxmayaraq, İraq dövləti əlyazmanın surətini xaricilərə verməkdən imtina edirdi. Əsər isə bizim üçün olduqca vacib idi, orada qədim Azərbaycan şeri haqda məlumatlar ola bilərdi. Odur ki, Ziya müəllim əsərin surətini əldə etmək cəhdlərini yorulmadan davam etdirirdi. Nəhayət, 1996-cı ildə məlumat çatdı ki, əsərin surəti Küveyt kitabxanasında saxlanılır. Ziya müəllim dərhal Birləşmiş Ərəb Əmirliklərinin İnstitutumuzla elmi əlaqələri olan mədəniyyət mərkəzi ilə əlaqə saxladı, bu işdə köməklik etmələrini xahiş etdi. Çox keçmədi ki, əsərin surəti institutumuza gətirildi. Ziya müəllim onun ərəbcədən tərcüməsini və tədqiqini filoloq-ərəbşünas kimi mənə tapşırdı.

- Yeri gəlmişkən, Ziya müəllimin ailəsinə qarşı münasibəti necə idi?

- Ailəsini çox sevirdi Ziya müəllim. Oğulları, nəvələri haqda fərəhlə danışardı. Həyat yoldaşı Tahirə xanımdan söz düşəndə: «O, gözəl anadır!» – deyirdi. Yaxınlarda ailə həyatı qurmasının əlli illik yubileyi olacağını deyirdi və təbəssümlə əlavə edirdi: «Əgər bir xanımla mən əlli il ailə həyatı sürmüşəmsə, deməli, o qədər də pis adam deyiləm?!».

- Ziya Bünyadovdan sonra Şərqşünaslıq İnstitutuna siz rəhbərlik edirsiniz. Ondan sonra bu instituta rəhbərlik sizcə, asandır, yoxsa çətin?

- Artıq 8 ilə yaxındır ki, institutumuz Ziya müəllimsizdir. Bu müddət ərzində elə bir gün olmayıb ki, onu yada salmayaq, bu və ya digər məsələ ilə əlaqədar onun dediklərini xatırlamayaq. Bu illər ərzində institut əməkdaşlarının nəşr etdirdikləri əksər kitablar müəlliflər tərəfindən tamamilə könüllü şəkildə o böyük insanın əziz xatirəsinə ithaf olunub. Böyük ehtiyac duyuruq Ziya müəllimə, onun müdrik məsləhətlərinə, maraqlı söhbətlərinə. Deyirlər, ən yaxşı loğman zamandır. Amma nədənsə vaxt keçdikcə o böyük insanın itkisindən kollektivimizə dəyən mənəvi-psixoloji zərbənin ağrısı-acısı azalmır ki, azalmır, əksinə - getdikcə artır. Sualınızın konkret cavabına gəlincə, deyə bilərəm ki, Ziya Bünyadov kimi nəhəng şəxsiyyətdən sonra bu instituta rəhbərlik etmək böyük məsuliyyət və şərəfdir. Biz bütün qüvvələrimizi səfərbər etmişik ki, onun işlərini layiqincə davam edək. Bildiyiniz kimi, mərhum prezidentimiz Heydər Əliyev Ziya Bünyadovun xatirəsinin əbədiləşdirilməsi üçün sərəncam imzalayıb. Həmin sərəncama müvafiq olaraq institutumuza mərhum akademikin adı verilib. Eyni zamanda, ölümündən sonra Ziya müəllim «İstiqlal» ordeni ilə təltif olunub. Elmlər akademiyası Rəyasət Heyətinin sərəncamı ilə Ziya Bünyadovun seçilmiş əsərlərinin üç cildliyini çapa hazırladıq. Bu əsərlər 1999-cu ildə nəşr olundu və təntənəli təqdimat mərasimi keçirildi. Akademikin vəfatından sonra əlyazma şəklində qalan əsərlərinin nəşri təşkil edildi. Hər il dekabrın 21-də Ziya Bünyadovun anadan olduğu günü qeyd edir, elmi konfrans keçirir və həmin konfransın materiallarını çap edirik. Bir müddət öncə çapdan çıxmış «Orta əsrlər Şərqi» məcmuəsi bütövlükdə Ziya Bünyadovun xatirəsinə həsr olunub. Məcmuəyə mərhum akademikin yaratdığı elmi məktəb müdavimlərinin məqalələri daxildir. 2004-cü ildə Ziya müəllimin fundamental monoqrafiyası «Azərbaycan VII-IX əsrlərdə» yenidən ana dilimizdə işıq üzü gördü. Alimin əsərlərinin təkmilləşdirilmiş biblioqrafiyasını da yenidən nəşr etdik. Hazırda akademikin əsərlərindən ibarət üç cildliyin latın qrafikası ilə nəşri üzərində iş gedir.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 18 fevral 2005-ci il.

İSLAM KONFRANSI TƏŞKILATI ERMƏNİSTANIN TƏCAVÜZKAR MÖVQEYİNİ PİSLƏYİR

Milli Məclisin deputatı Gövhər Baxşəliyevanın sözlərinə görə, quruma üzv ölkələrin Parlament İttifaqının konfransında Azərbaycanın haqlı mövqeyinə dəstək verilib.

Aprelin 8-13-də Türkiyənin İstanbul şəhərində İslam Konfransı Təşkilatına üzv ölkələrin Parlament İttifaqının konfransı keçirilib. Azərbaycanı konfransda Milli Məclisin deputatı Gövhər Baxşəliyevanın başçılıq etdiyi nümayəndə heyəti təmsil edib. 47 müsəlman ölkəsindən 450-ə qədər deputatın, 20 spikerin qatıldığı bu toplantıda bir sıra mühüm məsələlər müzakirəyə çıxarılıb. Gövhər Baxşəliyeva konfrans barədə təəssüratlarını belə ifadə etdi:

- Toplantının ilk günü İcraiyyə Komitəsinin növbəti iclasının gündəliyində əks olunmuş məsələlərin və iş proqramının müzakirəsinə həsr edildiyindən gündəlikdəki məsələlərin müzakirəsi konfransın ikinci günü başladı. Aprelin 9-da keçirilən iclasda Kiprdəki vəziyyət, islamofobiya, Küveyt Milli Assambleyasının xahişi ilə gündəliyə çıxarılmış «Dinə qarşı yönəldilmiş təhqirlərə beynəlxalq və milli qanunvericilik səviyyəsində qadağa üzrə MBT-nin Qətnaməsi» və digər məsələlər müzakirə olundu. Aprelin 10-da keçirilən iclasda əsasən maliyyə məsələlərinə yer verildi. Səhəri gün keçirilən iclasda isə Asiya, Afrika və ərəb qruplarının məsləhətləşmələri çərçivəsində İKT Parlament İttifaqının Şurasına yeni üzvlər seçildi. Azərbaycan nümayəndə heyətindən şuraya mənim və Xanhüseyn Kazımlının namizədliyi irəli sürüldü və təsdiq olundu. Çıxışlar zamanı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qətnamənin konfransın yekun sənədlərinə salınması təklifini irəli sürdük.

- ***Bu təklifə reaksiya necə oldu?***

- Toplantı iştirakçıları bu məsələ ilə maraqlanaraq nümayəndə heyətindən mövzuya dair daha ətraflı məlumat verməyi xahiş etdilər. Xanhüseyn Kazımlı öz çıxışında Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması, 1 milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktını diqqətə çatdırdı və toplantı iştirakçılarını Azərbaycanın haqq işini dəstəkləməyə çağırdı. Bir məqamı nəzərinizə çatdırım ki, Parlament İttifaqının üç xüsusi komitəsinin hər birinə Asiya qrupundan iki üzv seçilməli idi. Azərbaycan nümayəndə heyətinin fəallığı xüsusi vurğulanaraq qrupumuz komitələrin üçünə də səsvermə yolu ilə üzv seçildi. Konfransın aprelin 12-də keçirilən növbəti iclasında Türkiyə Böyük Millət Məclisinin Sədri Büləndd Arınc

çıxış edərək islam dünyasının həmrəyliyi baxımından İKT Parlament İttifaqının vacibliyi, islam ölkələrinin sərvətləri, terrorizm, sivilizasiyalararası dialoq, İraqdakı vəziyyət, Orta Şərqdəki sülh prosesi, Kiprdə və Yunanıstanın Qərb bölgəsində yaşayan türklərin vəziyyətindən söhbət açdı. Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan da konfransda müzakirə olunan məsələlərin aktuallığına toxundu. Türkiyə Prezidenti cənab Əhməd Necdət Sezər isə öz çıxışında vurğuladı ki, terrorizmi islamla və ya hər hansı başqa sistemlə bağlanması kökündən yanlış fikirdir. Türkiyə Prezidenti Dağlıq Qarabağ və Kəşmir problemində də toxundu. Bildirdi ki, bu münaqişələr sülh yolu ilə aradan qaldırılmalıdır. Türkiyə isə qardaş Azərbaycan və Pakistan dövlətlərinin ədalətli işinə öz konstruktiv töhfəsini verməkdə davam edəcəkdir.

- ***Eşitdiyimizə görə, konfransda sizin də terrorizmə qarşı mübarizə mövzusunda çıxışınız olub...***

- Bəli, məruzə belə adlanırdı: «BMT-nin nəzarəti altında terrorizmə qarşı mübarizə, işğalçılıq və xarici təcavüzə qarşı BMT Nizamnaməsinin 51-ci bəndinə uyğun olaraq bütün fərdi və kollektiv vasitələrin işlənməsi ilə legitim haqların bərpası». Bu məruzədə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, ermənilərin törətdikləri terror aktları barədə söhbət açdım, faktları, rəqəmləri iştirakçıların diqqətinə çatdırdım. Bildirdim ki, Ermənistan Azərbaycana qarşı terror fəaliyyəti üçün bir sıra xarici ölkələrin vətəndaşlarını cəlb edir və onların işğal olunmuş torpaqlarda hazırlanmasını, maliyyə və texniki yardımını təşkil edir. Erməni terrorizmi öz fəaliyyəti dövründə dünyada tanınmış bir çox terrorçu təşkilatlarla sıx əməkdaşlıq münasibətlərindədir. Ermənistan öz məkrli və ekspansionist məqsədləri üçün istifadə etdiyi ASALA terror təşkilatının fəal üzvlərini az qala milli qəhrəman kimi qələmə verir, Ermənistan ərazisində, eləcə də Azərbaycanın işğal olunmuş torpaqlarında terrorçuların hazırlanması üçün dayaq bazaları və düşərgələr yaradır. Toplantı iştirakçılarının diqqətinə onu da çatdırdım ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını, bu münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası qətnamələrinin, həmçinin digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir. Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, Azərbaycan Respublikası terrorçuluq əleyhinə mübarizə çərçivəsində, xüsusilə də terrorun maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə müvafiq tədbirlər görməkdədir. Məruzədə xüsusi vurğuladım ki, terrorizmə qarşı mübarizə sahəsində bizim üçün ən başlıca əngəl Azərbaycanın Ermənistan tərəfindən işğal olunan və nəzarət altından çıxan ərazilərdir. Beynəlxalq terrorçular bu ərazilərdən silah, narkotik maddə

qaçaqmalçılığı və insan alveri məqsədilə yararlanırlar. Hesab edirik ki, beynəlxalq ictimaiyyət tərəfindən terrorçuluq əleyhinə mübarizə ilə bərabər aqressiv separatçılıq və ekstremizmə qarşı da aktiv mübarizə aparılmalıdır. Beynəlxalq terrorizmə qarşı hüquqi bazanın formalaşdırılması olduqca vacibdir. Bu baxımdan 1999-cu ildə Azərbaycan parlamenti terrorizmə qarşı konkret tədbirlərini nəzərdə tutan «Terrorizmlə mübarizə»yə aid qanun qəbul edib. Azərbaycan artıq beynəlxalq terrorizmə qarşı məsələlər üzrə on bir beynəlxalq konvensiyaya qoşulub. Məruzədə onu da qeyd etdim ki, biz ölkəmiz üçün, eləcə də bölgə üçün ən böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində İKT-nin və digər ölkələrin dəstəyini yüksək dəyərləndiririk. Biz terrorizmin bütün formalarını qətiyyətlə pisləyirik, onun törədilməsi səbəbindən, nə zaman və kim tərəfindən həyata keçirilməsindən asılı olmayaraq beynəlxalq aləm üçün ən dəhşətli və ciddi təhlükə sayırıq. Əlavə etdim ki, terrorizmə qarşı mübarizənin pozitiv nəticələrini yalnız və yalnız beynəlxalq əməkdaşlıq imkanları və bütün səviyyələrdə terrorizmlə qarşıdurmanın gücləndirilməsi ilə əldə etmək olar. Bir məqamı diqqətinizə çatdırım ki, mənim, Sabir Rüstəmxanlının, Xanhüseyn Kazımlının, Cavanşir Paşazadənin təkidli çıxışlarımızdan sonra Azərbaycan nümayəndə heyətinin təklif etdiyi qətnamə konfransın yekun sənədinə salındı. Bundan başqa, Azərbaycan nümayəndə heyətinin səyləri və çıxışları nəticəsində tədbirin sonunda müzakirəyə qoyulmuş «İstanbul bəyannaməsi»nə Azərbaycanın təklif etdiyi bənd əlavə olundu. Burada konfransın Ermənistanın beynəlxalq hüquq və BMT prinsiplərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı hərbi təcavüzünü qətiyyətlə pislədiyi vurğulanır. Konfrans Ermənistanı Azərbaycan torpaqlarını qeyd-şərtsiz işğaldan azad etməyə çağırır.

- Qloballaşma və sivilizasiyalararası dialoq məsələsi də bu gün Azərbaycan üçün kifayət qədər aktualdır. Toplantıda bu mövzunun müzakirəsi zamanı Azərbaycan nümayəndə heyəti hansı fikirlərlə çıxış etdi?

- Bilirsiniz, müasir dövrdə qloballaşma prosesləri hər şeydən əvvəl beynəlxalq əlaqələrin güclənməsi, ölkələr arasında kommunikasiyaların genişlənməsi, ayrı-ayrı xalqların mədəniyyətlərində ortaq elementlərin artması ilə səciyyəvidir. Eyni zamanda, bu proseslərin gedişində daha çox Amerika və bir qədər zəif də olsa, Qərbi Avropa elementlərinin üstünlük təşkil etdiyi transmilli mədəniyyətlərin mədəni-siyasi hegemonluğunun özünü getdikcə daha bariz şəkildə göstərdiyini sezməmək mümkün deyil. Bu hal bəzi tədqiqatçıları mədəniyyətlərin inteqrasiyası, vahid dünya mədəniyyətinin təşəkkülü, millətlərin və xalqların qovuşaraq «superetnos» yaradacağı barədə konsepsiyalar irəli

sürməyə ruhlandırsa da, digər mütəxəssisləri, əksinə, sivilizasiyaların toqquşması, Şərq və Qərb mədəniyyətlərinin dialoqunun qeyri-mümkünlüyündən danışmağa sövq edir. Hətta bəziləri belə hesab edirlər ki, hər bir sivilizasiyanın əsasında din dayanır, dini etiqad və inanclar xalqların şüurunda möhkəm kök salıb. Biz isə konfransda belə bir mövqedən çıxış etdik ki, əslində hər iki konsepsiyada ifratçılığa meyil güclüdür və onlardan heç biri ilə razılaşmaq olmaz.

- ***Bu mövqeyi necə əsaslandırardınız?***

- Əvvəla, hər bir sivilizasiya başqa sivilizasiyadan öz genotipinə və inkişaf məntiqinə görə fərqlənir. Bu, o deməkdir ki, vahid dünya sivilizasiyasından dünışmağa dəyməz. İkincisi, böyük sivilizasiyalar özlərində birləşdirdikləri millətlərin və xalqların etnik xüsusiyyətlərini tamamilə aradan qaldıra bilmir: etnik hisslər və etnik kimliyi qoruyub saxlamaq əzmi hər bir xalqın şüurunda möhkəm yer tutub. Məsələn, bir vaxtlar Afrika qəbilələrinin islamlaşdırılması heç də bu qəbilələrin etnik xüsusiyyətlərinin büsbütün aradan qalxmasına, zənci-Afrika mədəniyyətinin simasızlaşdırılmasına gətirib çıxarmamışdı. Təşəkkül tapan yeni mədəniyyətdə ərəb islam mədəniyyətinin elementləri nə qədər yer tapmışdısa, ənənəvi Afrika mədəniyyətinin ünsürləri də o qədər təmsil olunmuşdu. Bu nisbət bizim günlərdə də qorunub saxlanır. Yaxud bu gün Azərbaycanda «Maqdonalds» şirkəti öz üçüncü filialını yaradaraq nüfuz dairəsini nə qədər genişləndirsə də, ənənəvi çayxana mədəniyyətini silib aradan çıxarmağa qadır deyil. Digər tərəfdən, bu gün dünyanın müxtəlif yerlərində baş verən və çox vaxt fundamentalist qruplaşmalar tərəfindən törədilən terror aksiyalarını islam-xristian qarşıdurması kimi qələmə vermək cəhdləri yanlış cəhdlərdir. Bu hadisələrin arxasında hər şeydən əvvəl iqtisadi-siyasi maraqlar dayanır. Əks təqdirdə, biz xristian NATO-nun xristian Yuqoslaviya əleyhinə apardığı müharibəni, yaxud Venesuela Prezidentinin amerikalılara qarşı hinduların «zəhərli oxları» ilə çıxmaq təhdidlərini izah etməkdə çətinlik çəkərdik.

- ***Necə bilirsiniz, qloballaşma dövründə sivilizasiyalararası dialoq mümkündürmü?***

- Mümkündür, lakin bircə şərtlə ki, bu dialoqun hüdudları qorunsun. Bu hüdudlar isə dialoqun mənəvi-əxlaqi nöqteyi-nəzərdən məqbulluq dərəcəsi ilə şərtlənir. Bu baxımdan dinin norma və idealları sivilizasiyalar arasında həqiqi dialoqun gerçəkləşməsi üçün daha əlverişli sayılmalıdır. Çünki dinlər, hər halda əsas təkallahlı dinlər özlərini İbrahim peyğəmbərin təkallahlıq təlimi ilə bağlamaqla bir-biri arasında, deməli, sivilizasiyalar arasında da körpü salırlar. Eyni zamanda, dinlər sivilizasiyalararası dialoq yolunda əsas manea sayılan etnik separatizm meyllərini öz içərisində əridib yox etməyə çalışır. Zənnimcə, sivilizasiyalararası dialoqun səmərəli olması üçün bu dialoq öncə sivilizasiya-

daxili dialoqdan başlanmalıdır: özü də dialoqa girə bilməyən sivilizasiya özgə sivilizasiya ilə dialoqa girə bilməz. Dinlərin içindəki firqə və məzhəblər bir-birilə nə qədər çox dialoqa gedə bilərlərsə, dinlər də bir-birilə bir o qədər ümumi dil tapa bilər. Digər tərəfdən, bütün sivilizasiyalarda və dinlərdə dözümlülüyə çağırış var. Bu çağırış sivilizasiyalararası dialoq işində ən yararlı vasitə kimi təbliğ edilməlidir. Bu dözümlülüyün əsas prinsipi isə o olmalıdır ki, hər bir cəmiyyətin və fərdin bu və ya digər əqidəni, bu və ya digər həyat tərzini seçmək haqqı vardır. Bu haqqa qarşı zor işlədilməsi yolverilməzdir. Konfransda da bildirdik ki, yalnız bu prinsiplərə əməl ediləcəyi təqdirdə biz üçüncü minillikdə sivilizasiyalararası və dinlərarası dialoqun davam etdiriləcəyinə ümid bəsləyə bilərik.

Müsahibəni apardı: Yadigar Cəfərli,
«Azərbaycan» qəzeti, 27 aprel 2006-cı il.

ALİM VƏ VƏKİL XANIM

Müsahibimiz millət vəkili, alim-xanım **Gövhər Baxşəliyevadır**.

Baxşəliyeva Gövhər Baxşəli qızı 26 noyabr 1954-cü ildə Bərdə şəhərində doğulub. 1972-ci ildə Bakı şəhəri 212 saylı orta məktəbi bitirdikdən sonra elə həmin il Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin ərəb bölməsinə daxil olub. 1977-ci ildə ADU-nu fərqlənmə diplomu ilə bitirərək, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq institutuna işə qəbul olunub, baş laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, «Şərq filologiyası» şöbəsinin müdiri vəzifələrində çalışıb.

1984-cü ildə namizədlik, 1996-cı ildə doktorluq dissertasiyalarını müdafiə edib. Filologiya elmləri doktoru, professordur. Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür. Klassik və müasir ərəb ədəbiyyatı, ərəbdilli Azərbaycan ədəbiyyatı, müqayisəli ədəbiyyatşünaslıq, ədəbi əlaqələr və mənbəşünaslıq üzrə mütəxəssisdir. 1993-cü ildən G.Baxşəliyeva Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, 1997-ci ildən direktoru vəzifəsini icra edib. 2002-ci ildə Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinə təsdiq olunub. Onun institута rəhbərlik etdiyi dövrdə şərqşünaslıq elminin ən müxtəlif sahələrinə aid onlarca tədqiqat əsəri hazırlanıb çap olunmuş, bir sıra beynəlxalq və respublika elmi konfrans və simpoziumları keçirilmiş, dünya Şərqşünaslıq mərkəzləri ilə beynəlxalq əlaqələr yaradılmışdır.

G.Baxşəliyeva şərqşünas kadrlarının hazırlanmasında yaxından iştirak etmiş, onun bilavasitə rəhbərliyi ilə yeddi namizədlik dissertasiyası müdafiə olunmuşdur. «Türk xalqları ədəbiyyatı» və «Dünya ədəbiyyatı» ixtisası üzrə Müdafiə Şurasının sədridir. Şərqşünaslıq sahəsində Respublikada aparılan elmi işlərin koordinasiyası üzrə Problem Şurasının sədridir, 2 monoqrafiya, 4 kitab («Əbdüssəlam əl-Üceyli. Həyat və yaradıcılığı», B., Elm, 1989; «Bir Məcnun vardı», B., Yazıçı, 1990; Əbülfərəc əl-İsfahani. «Nəğmələr kitabı», ərəbcədən tərcümə və şərhlər. B., Elm, 1994; «Əbülfərəc əl-İsfahaninin «Nəğmələr kitabı» və klassik Azərbaycan ədəbiyyatı», B., Elm, 1998; «İlahi eşq dastanları», B., Maarif, 2001; «Hamıdan ucadır alimin yeri», B., 2003) və 70-dən çox elmi məqalə və məruzələrin müəllifidir. Hal-hazırda 2 yeni kitabı çapdadır («Müasir Suriya ədəbiyyatında vətənpərvərlik mövzusu» və «Şərq ölkələri» sorğu kitabı). Şərq filologiyası və mənbəşünaslıq sahəsində bir çox əsərlərin elmi redaktorudur. Bir sıra elmi dərgilərin baş redaktoru və ya redaksiya heyətinin üzvüdür.

Gövhər xanım Azərbaycan Şərqşünaslıq elmini dəfələrlə yaxın və uzaq

xarici ölkələrdə (Moskva, Sankt-Peterburq, Mahaçqala, Simferopol, İran, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Səudiyyə Ərəbistanı Krallığı) ləyaqətlə təmsil edib, elmin aktual problemlərinə dair məruzələrlə çıxış etmişdir.

O, pedaqoji fəaliyyətlə də məşğul olmuş, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatı fənni üzrə xüsusi kurs aparmışdır.

5 noyabr 2000-ci ildə 57-saylı Bərdə-Ağcabədi seçki dairəsindən Azərbaycan Respublikasının II çağırış Milli Məclisinə deputat seçilmişdir. 2001-ci ilin iyun ayından II çağırış Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini olmuşdur. Milli Məclis sədrinin müavini kimi sosial qanunvericiliyə kuratorluq edmişdir. Sosial Siyasət və Mədəniyyət Məsələləri Daimi Komissiyalarının işində verdiyi tövsiyələr bu komissiyalarda hazırlanan layihələrin təkmilləşdirilməsində mühüm əhəmiyyət kəsb edir. Азярбайъан Республикасы Милли Məclisinin İslam Konfransı Təşkilatı Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəridir. O, bir sıra səfərlərdə Azərbaycan Respublikasının Milli Məclisinin nümayəndə heyətinə rəhbərlik edib (Misir Ərəb Respublikası, Almaniya Federativ Respublikası, Norveç Krallığı, Fransa, Böyük Britaniya, İtaliya), çoxsaylı görüşlər keçirib, Azərbaycanın nailiyyətləri, üzləşdiyi problemlər və gələcək əməkdaşlıq perspektivləri haqqında geniş fikir mübadiləsi aparıb. Azərbaycan Parlamentini bir sıra beynəlxalq sessiya və konfranslarda təmsil edib (Qərbi Avropa İttifaqının Parlamentlərarası Assambleyasının 51-ci sessiyası, Paris, may, 2005; Bərpaolunan enerji ehtiyatlarından istifadə, Bonn, may, 2004; Uşaq haqlarının müdafiəsinə həsr olunmuş ümumdünya konfransı, Roma, oktyabr, 2004; Avstriyanın Uels şəhərində «Enerji təhlükəsizliyi»nə həsr olunmuş beynəlxalq konfrans, mart, 2006; İKT Pİ IV konfransı və s.

Hazırda Bərdə kənd seçki dairəsindən III çağırış Milli Məclisin deputatıdır.

- Müasir dövrdə təhsilə, elmə, mətbuata maraq ancaq bir qrup yüksək səviyyəli gənclər arasında daha yüksəkdir. Ümumilikdə isə bu səviyyə aşağıpıdır. Bir filoloq alim kimi sizin buna münasibətinizi bilmək istərdik.

- Elmə, təhsilə, mətbuata maraq mən deməzdim ki, azdır. 1988-ci ildən sonra bir ictimai-iqtisadi formasiyadan digər quruluşa keçəndə, doğrudan da bütün cəmiyyətdə, təkcə bizdə deyil, bütün postsovet məkanında dərin ictimai, iqtisadi-siyasi böhran oldu. Bununla əlaqədar cəmiyyətdə elmə, təhsilə, mətbuata bir qədər maraq azaldı. Maddi təminat aşağı olduğu üçün bir qrup elmlə məşğul olmaq istəyən insanlar məcbur olub, daha gəlirli fəaliyyət sahələrinə üz tutdular. Amma indi həyatımız get-gedə normal axarına düşməkdədir. Iqtisadi inkişafımızın yüksəlməsi ilə insanların maddi durumu da yaxşılaşmağa doğru getdikcə son 3-4 ildə elmə, təhsilə, mətbuata maraq artmaqdadır. Bunu da onda müşahidə edirəm ki, bizim vaxtilə maddi çətinliklər ucbatından çıxıb getmiş

əməkdaşlarımız yenidən elm müəssisələrinə qayıdır. Gənclərdə də elmə maraq artmaqdadır. Aspirantların təqaüdləri 5 dəfə artdı. Əvəllər 50 min manat alırdılarsa, indi 250 min (köhnə manatla) alırlar. Dissertant kimi elmi ad, elmi dərəcə almaq istəyənlərin də sayı artıb. Ümumiyyətlə, son illər elmə maraq getdikcə artmaqdadır.

Bütövlükdə cəmiyyətimizdə təhsilin səviyyəsi isə böyük bir məqalənin mövzusu ola bilər. Biz hamımız maraqlıyıq ki, bizim uşaqlarımız, gənclərimiz ən yüksək səviyyədə təhsil alsınlar. Dünyada gedən inteqrasiya proseslərindən geridə qalmasınlar.

- Müasir gənclik və mənəviyyatımız, ümumiyyətlə, gəncliyin yaxşı və çatışmayan cəhətləri barədə danışmağınızı məqsədəuyğun sayırıq.

- Bu məsələyə iki tərəfdən yanaşmaq istərdim. Öncə mənəviyyat. Əlbəttə ki, bizim özümüzəməxsus milli-mənəvi dəyərlərimiz var. Bu dəyərlər bizim üçün çox qiymətlidir. Mən hesab edirəm ki, gənc nəsildə bu mənəvi dəyərləri yaşadıb, gələcək nəsillərə ötürməliyik. Biz azərbaycanlıyıq, müsəlmanıq, İslam dinini 14 əsr bundan öncə qəbul etmiş bir xalqıq. Dədə-babalarımızın adət-ənənəsindən, İslam dinindən gələn milli mentalitetimiz var. Biz bu mentaliteti qorumalı, ona ehtiramla yanaşmalıyıq. Mən istərdim ki, bu səpkidə milli mentalitetimiz haqqında məktəblərdə, ali təhsil müəssisələrində məqsədyönlü iş aparılsın, izahlar verilsin, dərsliklərə müəyyən mövzular salınsın. Bu istiqamətdə iş gedərsə, biz öz milli mentalitetimizi yaşada bilərik. Keçmişdə elə gözəl adət-ənənələr olub ki, indi müasir gəncliyin çoxu onlardan bixəbərdir. Zaman-zaman bu cür lazımlı dəyərlərin bəziləri it-bat olub.

Digər tərəfdən biz onu da başa düşməliyik ki, Azərbaycan dünyaya inteqrasiya olunur. Bizim bir çox gənclərimiz Qərbdə təhsil alırlar. Amerikada, İngiltərədə, Fransada. Istər-istəməz deyərdim ki, təbliğat baxımından Qərbin Azərbaycana güclü təsiri var. O cümlədən mədəniyyət və yeni texnologiyalar sahəsində. Bu baxımdan hesab edirəm ki, bu gün Qərbdən gələn hansısa meyl bizim azərbaycanlı gəncimiz üçün müsbət xarakter daşıyırsa (texnika, kompüter, müəyyən informasiya vasitələri, internet), bu dəstəklənməlidir.

Müəyyən mənfi hallar, milli-mənəvi dəyərlərimizə zərbə təkcə Qərbdən gəlir düşünsək, səhv etmiş olarıq. Cəmiyyətdə fahişəlik, insan (uşaq, qadın və s.) alveri, narkomaniya – bunlar təkcə Qərbdən gəlmir. Belə hallar Şərqdə də mövcuddur. Bütün bu cür mənfiliklər mənəviyyatın pozulmasına xidmət edir. Bütün bunlarla sərt şəkildə dövlətlə yanaşı, ictimaiyyət də mübarizə aparmalıdır. Bəzən elə məsələlər var ki, onların həllində dövlət qanunlarından çox ictimai rəy, ictimai təsir daha güclü olur.

- Bu bir həqiqətdir ki, iqtisadiyyatımız güclənir, amma buna nisbətdə

mənəviyyatımız istənilən səviyyədə deyil. Yəni, maddiyyat mənəviyyatı üstələyir. Bununla bağlı bir qədər danışın.

Mən belə düşünürəm ki, iqtisadi inkişaf artdıqca mənəviyyatımızda da üstün tutduğumuz dəyərlər öz əvvəlki yerini alacaqdır. İnsanlar yüksək mənəviyyatın üstün cəhətlərini daha yaxşı dərk edəcəklər və hər kəs çalışacaq ki, gənc nəsil yüksək mənəvi dəyərlərə yiyələnsin və onları itirməsin. Bu da ilk növbədə təhsillə bağlıdır.

- Siz III çağırış Milli Məclisə seçkilərdən sonra yenə millət vəkili seçilibsiniz. Bu ildə hansı səfərlərimiz olub?

Bu il ilk səfərim Avstriyaya olub. Enerji təhlükəsizliyinə aid orada beynəlxalq konfrans keçirildi. Bu konfransda çıxış etdim. Azərbaycanda bu sahədə görülən işlər haqqında məlumat verdim. Mənim çıxışım orada böyük maraq doğurdu. Konfrans iştirakçıları Azərbaycanın enerji layihələri ilə çox maraqlandılar.

Onların maraqlandıqları məsələlərə mən aydınlıq gətirdim. Aprelin 7-də İKT Parlament İttifaqının sessiyası İstanbulda oldu. Burada 3 tədbir keçirildi. Birincisi İcraiyyə Komitəsinin iclasıdır. İkincisi, sessiyasıdır. 3-cüsü də konfransıdır. Hər 3 tədbirdə biz iştirak etdik. Mən Azərbaycan Milli Məclisinin İKT Parlament İttifaqında nümayəndə heyətinin rəhbəriydim. Bir qrup deputatla orada iştirak etdik. Müxtəlif məsələlər müzakirə və həll olundu. O cümlədən Şərqdə, İraqda, Fələstindəki vəziyyət, Fələstinin seçkilərindən sonrakı durumu, neft problemi və s. müzakirə olundu. Ümumiyyətlə, İKT ölkələri üçün çox vacib problemlər öndə durdu. Terrorizmlə mübarizə də əsas məsələlər sırasında idi. Dinlərarası, sivilizasiyalar arası dialoq üstünlük təşkil etdi.

Konfransa getməzdən əvvəl çıxış üçün əlavə vaxt istəmişdik. Əvvəlcədən bildirdik ki, hər nümayəndə heyətinə 10 dəqiqə vaxt verilsin. Mənim iki çıxışım oldu. Biri «Terrorizmlə mübarizə haqqında». Bu Azərbaycan üçün çox vacib bir məsələdir. Xalqımız dəfələrlə erməni terrorizminin qurbanı olub. Son 10 ildə 2 mindən çox azərbaycanlı erməni terrorizminin qurbanına çevrilib. Bakı metrosundakı dəhşətli partlayış, Moskva-Bakı qatarında partlayış və başqa faktları orada səsləndirib, bu haqda konfrans iştirakçılarına məlumat verdim.

Ikinci çıxışım dinlərarası dialoq məsələsi müzakirə olunanda baş verdi. Sivilizasiyalararası dialoq çox vacib bir məsələdir. Son illərdə dünyada baş verən hadisələrlə əlaqədar – Hollandiyada Məhəmməd peyğəmbərin (ə) karikaturalarının dərc olunması, İran ətrafında yaranmış qalmaqalla bağlı, İraqla əlaqədar və digər məsələlər çox önəm daşıyır. Dinlərarası dialoq məsələsilə bağlı Şərqşünaslıq İnstitutu dəfələrlə konfrans keçiribdir. Qloballaşma və dinlərarası

dialoq mədəniyyətləri bir-birinə inteqrasiya edir və bu zaman nə etmək lazımdır ki, bir mədəniyyət digərinə üstün gəlməsin. Heç bir din digər dini inkar etmir.

«İnsanlar hamısı bir əcdaddan – İbrahimdən yaranıblar». Elə buna görə də müxtəlif dinləri birləşdirən faktorlar daha çoxdur, nəinki ayıran.

Məhəmməd peyğəmbər müsəlman dinini yaradanda bütün Kitabı olan dinlərə hörmətlə yanaşdı və bunu da öz ümmətinə tövsiyə etmişdir.

Biz bəşəriyyətin, insanların naminə çalışmalıyıq ki, bu birləşdirən əlamətləri daha çox qabardaq, daha çox insanlara öyrədək, tanıdaq ki, onlar qarşıdurmaya getməsinlər. Müxtəlif dinlərə mənsubiyyət insanları bir-birindən ehtiyatlanmağa sövq etməsin. Əksinə, bir-birlərinə əl uzatsınlar, sülh şəraitində yaşasınlar. Istənilən dinin əsasında sülhə çağırış durur.

«Dünya press» qəzeti, 16-30 may 2006-cı il.

GÖVHƏR BAXŞƏLİVEVA: «ZİYA BÜNYADOV BÖYÜK OLDUĞU QƏDƏR DƏ SADƏ VƏ SƏMİMİ İDİ»

BU GÜN MƏRHUM AKADEMİK ZİYA BÜNYADOVUN DOĞUM GÜNÜDÜR

«525»in müxbirinin suallarına Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili **Gövhər Baxşəliyeva** cavab verir.

- Gövhər xanım, bu gün mərhum akademik Ziya Bünyadovun doğum günüdür. Düz 2 aydan sonra isə mərhum akademikin öz evinin astanasında vəhşicəsinə qətlə yetirilməsinin 10 ili tamam olur. Mərhum akademiki uzun müddətdən bəri yaxından tanıyan bir şəxs kimi, həmin qətl gününü necə xatırlayırsınız?

- Ziya müəllim haqda söz demək, fikir bildirmək adamdan böyük məsuliyyət və cəsarət tələb edir. Çünki Ziya müəllim Azərbaycan xalqının ən unikal şəxsiyyətlərindən biri idi. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü və vitse-prezidenti, əməkdar elm xadimi, Sovet İttifaqı Qəhrəmanı, millət vəkili Ziya Musa oğlu Bünyadov əsl elm fədaisi Idi.

Zaman keçdikcə Ziya Bünyadovun fenomeni öz təkrarsızlığını hər an büruzə verir. İstər elmlə bağlı, istərsə də təşkilati məsələlərin həll edilməsi zaman elmi ictimaiyyətimiz onun müdrik kəlam və məsləhətlərini yada salır. Bu, ilk növbədə, Ziya Bünyadovun yaratdığı milli şərqşünaslıq məktəbinə, bu gün onun adını şərəflə daşıyan Şərqşünaslıq institutunun yaradıcı kollektivinə aiddir. Konkret sualınıza gəldikdə isə, bunları deyə bilərəm: 1997-ci il, fevral ayının 21-i, cümə günü... Həmişəki kimi səhər saat onun yarısında Ziya müəllimin institutdakı direktor kabinetinə daxil oldum. Qısa hal-xoşdan sonra cari işlər haqqında məruzə edib, müvafiq göstərişlər aldım. Yeni nəşrlər barədə fikir mübadiləsindən sonra öz iş otağıma getdim. Həmişəki kimi saat 11:15-də (bu vaxt xidməti maşın gəlib onu Akademiyanın aşağı binasına, Rəyasət Heyətinə aparardı) onun: «Xanım, sağ ol, mən getdim,» – deyərək, liftə tərəf getdiyini gördüm. Kim bilərdi ki, bu Ziya müəllimdən eşitdiyim son sözlər, Ziya müəllimi gördüyüm son dəqiqələr idi?! Axşam isə... Xeyli vaxt keçməsinə baxmayaraq, indi də o dəhşətli günləri xatırlamaq mənim üçün son dərəcə ağırdır.

Ziya müəllimin faciəli ölümü xalqımıza üz verən ən böyük faciələrdən biri idi. Böyük Vətən müharibəsinin odlu-alovlu yollarından sağ-salamat keçən, həyatın bütün sınaqlarından alnıaçıq, üzüağ çıxan qəhrəman-alimi ömrünün

ixtiyar çağında öz evinin astanasında qətlə yetirdilər. Ziya müəllimin simasında biz dünya şöhrətli alimimizi, sağlığında artıq elmin korifeyi, klassiki adını qazanmış şəxsiyyəti, Azərbaycan ictimai elminin dayaq sütunlarından birini, el ağsaqqalını, çoxumuzun iftixarı olan bir insanı itirdik. Ziya müəllim elmi tədqiqatın müasir üslubunun ən yüksək peşəkarlıq səviyyəsinə qalxmış alim, fövqəladə zəka, fenomenal istedad sahibi idi. Böyük, genişürəkli insan, qayğıkeş və tələbkar müəllim, tükənməz nikbinliklə dolu, həyat eşqiylə çağlayan gözəl bir insan idi. Ziya müəllimin həyatdan getməsi bütün xalqımız üçün əvəzsiz itki idi. Lakin onunla birgə işləyənlərin, onunla hər gün təmasda olanların, onun həmkarlarının, tələbələrinin, Ziya Bünyadov elmi məktəbinin yetirmələrinin ağrısı-acısı ölçüyəgəlməz idi. Çünki Ziya müəllimin şəxsində Azərbaycan şərqşünasları böyük ustadı, sevimli atanı itirdilər…

- Mərhum akademiklə tanışlığınız, əməkdaşlığınızın tarixçəsi barədə nə deyərdiniz?

- Ziya müəllimlə mənim ilk əyani tanışlığım o zaman keçmiş S.M.Kirov adına ADU-nun şərqşünaslıq fakültəsində may ayında dövlət imtahanları zamanı baş verib. Adını çox eşitdiyim, üzünü o vaxtacan görmədiyim Sovet İttifaqı Qəhrəmanı, akademik, məşhur alim Ziya Bünyadov o zaman biz tələbələrə uca, əlçatmaz bir zirvə kimi görünürdü, onun baxışları altında tir-tir əsirdik, dilimiz topuq çalırdı. Universiteti bitirdikdən sonra mən Şərqşünaslıq İnstitutunun ərəb filologiyası şöbəsinə işə qəbul olundum. Ziya muəllim o vaxtlar Orta əsr Şərq tarixi şöbəsinin müdiri idi. Onu yalnız institutun ümumi yığıncaqlarında görürdüm, burada isə olduqca prinsipial, tələbkar, hətta sərt çıxışları onun haqqında məndə yaranmış əvvəlki fikrimi bir daha təsdiqləyirdi. İllər keçirdi, mən namizədlik dissertasiyamı müdafiə edib, baş elmi işçi vəzifəsində çalışırdım, artıq doktorluq dissertasiyamı tamamlamaqda idim. 1993-cü ilin yanvar ayı idi. Ziya müəllim qısa fasilədən sonra yenidən institutumuza rəhbərlik edirdi. Bir gün məni direktor kabinetinə dəvət etdi, əvvəlki müavininin başqa işə keçməsi ilə əlaqədar mənə bu vəzifəni təklif etdi. Beləliklə, mən Ziya müəllimlə sıx təmasda işləməyə başladım və çox keçmədən anladım ki, onun haqqında əvvəlki qənaətim tamamilə yanlış imiş. Tədricən, günbəgün qarşımda yeni, indiyəcən tanımadığım bir insan xarakteri canlanırdı və bu insan böyüklüyü qədər də sadə və səmimi idi. Riyakarlıq, ikiüzlülük, üzdə bir söz deyib, arxada başqa bir söz danışmaq ona tamamilə yad idi. Belə insanlara nifrət edir, onlara heç vaxt bəraət qazandırmırdı. Ziya müəllim mərdlik və cəsarət nümunəsi idi. Bu cəhətlər onun həyatının hər bir sahəsində özünü büruzə verirdi – elmdə də, şəxsi və ictimai həyatında da, həmkarları ilə münasibətlərdə də.

- Ziya müəllimin iş üslubu necə idi?

- Ziya müəllimin çox operativ və sadə iş üslubu var idi. Onun qəbuluna gələnləri heç vaxt gözlətdirməzdi, çalışardı məsələni yerindəcə həll etsin. Ümumiyyətlə, Ziya müəllimin otağının qapısı heç vaxt bağlanmazdı, o heç vaxt xüsusi qəbul saatları təyin etməzdi. Hər kəs istənilən vaxt onun yanına gəlib, dərdini, problemini danışa bilərdi. Akademiyanın taleyi onu çox narahat edirdi. O vaxt ölkəni bürümüş dərin iqtisadi böhran birincilər sırasında elmi işçilərə, onların maddi durumlarına təsir etmişdi. Əməkdaşlarımızın ağır maddi vəziyyəti onun ürəyini ağrıdırdı. Hər vəchlə çalışırdı ki, onlara kömək etsin, çox şeydə güzəştə gedirdi, əvvəlki tələbkarlığını da azaltmışdı. Bir şeyi bağışlaya bilmirdi. Ziya müəllim: çətinliklərə dözməyib, institutu tərk edənlərə heç cür bəraət qazandırmırdı. Deyirdi ki, əsl alim hər cür çətinliyə, o cümlədən kasıbçılığa dözməlidir. Öz həyatında sinə gəldiyi çətinlikləri yada salırdı. Və çox şeyi bağışlaya bilən Ziya müəllim tək institutdan gedənləri bağışlamırdı, onlardan birdəfəlik üz döndərirdi. Bu səbəbdən də instituta geri qayıtmaq istəyənləri yenidən işə götürmürdü. Sözü də həmişə bir olardı: «Niyə gedirdilər?!» Ziya müəllim Qarabağ məsələsini böyük yanğı və ürək ağrısı ilə yaşayırdı. Xatirimdədir, azərbaycanlılar qədim oğuz eli - indiki Ermənistandan kütləvi şəkildə qovulduqda, Ziya müəllim hamıdan öncə onların Dağlıq Qarabağda yerləşdirilməsinin vacibliyini o vaxtkı respublika rəhbərliyinə çatdırdı. Əfsuslar olsun ki, böyük alimin bu təklifi qulaqardına vuruldu. Nəticə isə göz önündədi...

Ziya müəllim çox intizamlı idi. Nə vaxtsa cavanlıqda, cəbhədə xidmət etdiyi vaxt yiyələndiyi daxili nizam-intizam onun canına elə sirayət etmişdi ki, bütün ömrü boyu intizama tabe olmuş, ondan kənara çıxmamışdı. Hər bir işində son dərəcə dəqiq idi. Həmişə eyni vaxtda işə gəlib, eyni vaxtda da işdən gedərdi. Hansısa səbəbdən yarım saat da gecikməli olsa, bu haqda mütləq əvvəlcədən zəng edib xəbərdarlıq edirdi. Deyirdi ki, istirahət günləri evdə darıxır, tez işə çıxmaq istəyir. Ziya müəllimin müavini işlədiyim dörd il ərzində o bir gün də olsun evdə qalmadı, hətta xəstə olanda da işə gəlirdi.

Ziya müəllimin çox geniş elmi maraq dairəsi vardı. Tarixçi olmasına baxmayaraq, daim Şərq ədəbiyyatı ilə maraqlanırdı, bu sahədə də yeri gələndə böyük işlər görürdü. Məsələn, Nizaminin müasiri, XII əsr Azərbaycan müəllifi Xosrov al-Ustadın «Munis-namə» əsərinin əlyazmasını Böyük Britaniya kitabxanalarında kəşf edib, surətini gətirərək, professor Rüstəm Əliyevə vermişdi. Bu haqda əsərin sonrakı tərcümə nəşrində geniş məlumat verilib. Yaxud, başqa epizod. Ziya müəllim uzun müddət XI əsr müəllifi İmadəddin əl-İsfahaninin «Xəridətül-əsr fi cəridətil-qəsr» əsərinin surətini əldə etmək üçün yorulmadan cəhdlər göstərdi və nəhayət, 1996-cı ildə məlumat çatdı ki, əsərin

surəti Küveyt kitabxanasında saxlanır. Ziya müəllim dərhal Birləşmiş Ərəb Əmirliklərinin institutumuzla elmi əlaqələri olan mədəniyyət mərkəzi ilə əlaqə saxladı, bu işdə köməklik etmələrini xahiş etdi. Çox keçmədi ki, əsərin surəti institutumuza gətirildi və Ziya müəllim onun ərəbcədən tərcüməsini və tədqiqini filoloq-ərəbşünas kimi mənə tapşırdı.

- ***Z.Bünyadovdan sonra Şərqşünaslıq İnstitutuna siz rəhbərlik edirsiniz. Z.Bünyadovdan sonra bu instituta rəhbərlik etmək asandır, yoxsa çətin?***

- Bilirsiniz, artıq 9 ildir institutumuz Ziya müəllimsizdir. Bu müddət ərzində elə bir gün olmayıb ki, onu yada salmayaq, bu və ya digər məsələ ilə əlaqədar onun dediklərini xatırlamayaq. Bu illər ərzində institut əməkdaşlarının nəşr etdirdikləri əksər kitablar müəlliflər tərəfindən tamamilə könüllü şəkildə o böyük insanın əziz xatirəsinə ithaf olunub. Böyük ehtiyac duyuruq Ziya müəllimə, onun müdrik məsləhətlərinə, maraqlı söhbətlərinə. Deyirlər, ən yaxşı loğman zamandır. Amma nədənsə vaxt keçdikcə o böyük insanın itkisindən kollektivimizə dəyən mənəvi-psixoloji zərbənin ağrısı-acısı azalmır ki, azalmır. Sualınızın konkret cavabına gəlincə, deyə bilərəm ki, Ziya Bünyadov kimi nəhəng şəxsiyyətdən sonra bu instituta rəhbərlik etmək böyük məsuliyyət və şərəfdir. Biz bütün qüvvələrimizi səfərbər etmişik ki, onun işlərini layiqincə davam edək. Bildiyiniz kimi, mərhum prezidentimiz Heydər Əliyev Ziya Bünyadovun xatirəsinin əbədiləşdirilməsi üçün sərəncam imzalayıb. Həmin sərəncama müvafiq olaraq mərhum akademikin adı verilib. Eyni zamanda, ölümündən sonra Ziya müəllim «İstiqlal» ordeni ilə təltif olunub. Elmlər Akademiyası Rəyasət Heyətinin sərəncamı ilə Ziya Bünyadovun seçilmiş əsərlərinin üçcildliyini çapa hazırladıq. Bu əsərlər 1999-cu ildə nəşr olunub və təntənəli təqdimat mərasimi keçirilib. Akademikin vəfatından sonra əlyazma şəklində qalan əsərlərinin nəşri təşkil edilib. Eyni zamanda, hər il dekabrın 21-də Ziya Bünyadovun anadan olduğu günü qeyd edir, onun qəbrini dərin kədər və ehtiram hissilə ziyarət edir, elmi konfrans keçirir və həmin konfransın materiallarını çap edirik. Bu gün də Ziya müəllimin ad gününü qeyd edəcəyik, qəbrini ziyarətə gedəcəyik. Bu, bir ziyalı, bir vətəndaş kimi bizim borcumuzdur.

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
«525-ci qəzet», 21 dekabr 2006-cı il.

İSLAM KONFRANSI TƏŞKİLATI ERMƏNİSTANI NÖVBƏTİ DƏFƏ İŞĞALÇI DÖVLƏT ELAN ETDİ

MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ SƏFƏRDƏN QAYIDIB

GÖVHƏR BAXŞƏLİYEVA: «BU QURUMA ÜZV TƏŞKİLATLARIN PARLAMENT İTTİFAQI ŞURASININ IX SESSİYASINDA ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ QƏTİYYƏTLƏ PİSLƏNİB»

Bu günlərdə Malaziyanın Kuala-Lumpur şəhərində İslam Konfransı Təşkilatına üzv təşkilatların Parlament İttifaqı Şurasının IX sessiyası keçirilmişdir. Sessiyada Azərbaycanı Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Gövhər Baxşəliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Gövhər Baxşəliyeva ilə söhbətimiz də İKT Pİ Şurasının son sessiyası barədə oldu. Sessiyanın işini yüksək qiymətləndirən Gövhər Baxşəliyeva İKT Pİ tədbirlərində ümumən islam dünyasını qayğılandıran məsələlərin, İKT-yə üzv olan dövlətlərin üzləşdikləri problemlərin müzakirəyə çıxarıldığını bildirdi.

- İslam Konfransı Təşkilatına üzv olan ölkələrin Parlament İttifaqı Şurasının IX sessiyası Malayziya Parlamentinin Nümayəndələr Palatasının spikeri Tan Sri Dato Seri di-Raja Ramli bin Ngah Talibin dəvəti ilə keçirilmişdir. Sessiyadan bir gün öncə Parlament İttifaqı Şurasının Hüquq məsələləri, insan hüquqları və çevrə, Siyasi və iqtisadi məsələlər və Qadın, sosial və mədəni məsələlər üzrə daimi komissiyalarının və İKT Pİ İcraiyyə Komitəsinin XVI iclası keçirilmişdir. Ərəb, Asiya və Afrika qruplarını təmsil edən Hüquq məsələləri, İnsan hüquqları və çevrə üzrə xüsusi daimi komitənin iclasında islam mədəniyyəti çərçivəsində İKT Pİ üzv ölkələrdə demokratiya, insan hüquqları və beynəlxalq humanitar hüququn orta məktəblərin tədris planına salınması, demokratiya, insan hüquqları və fikir azadlığını dəstəkləyən milli qanunvericiliyin yaradılması mövzuları müzakirə olundu. Qadın, sosial və mədəni məsələlər üzrə xüsusi daimi komitənin iclasında sivilizasiyalar arasında dialoqa dəstək, BMT-nin sivilizasiyalar arasında dialoqa dair ümumi gündəliyin həyata keçməsində bütün parlamentlərin iştirakına dəvət, mədəniyyətin və dialoqun inkişaf etdiriməsi məqsədilə hökumət və digər iştirak edən təsisatlarla əməkdaşlıqda müvafiq təşəbbüslərin göstərilməsi üçün hər bir parlamentdə ittifaq çərçivəsində olan əsas dialoq mərkəzinin yaradılması, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq üzrə mərkəzlərin və institutların yaradılması məqsədilə bəzi islam dövlətlərinin təşəbbüslərinin koordinasiyası, islam ölkələrində qeyri-ərəbdilli tələbələrə ərəb dilinin tədrisi, islam

milli televiziya kanallarının xarici dillərdə verilişinin yaradılması, Qərbdə yayımlanması və digər məsələlərə toxunuldu. İKT Pİ-nin Siyasi və İqtisadi məsələlər üzrə daimi komitəsinin iclasında ərəb, Asiya və Afrika regional qruplarının nümayəndələrini narahat edən münaqişə məsələləri müzakirə edildi. Iclasın işində aktiv iştirak edən Azərbaycan nümayəndə heyəti iclas iştirakçılarını Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasətini pisləməyə çağırdı. Bu təklif qəbul edildi və komitənin müzakirəsinə salındı.

İKT Pİ Şurasının IX sessiyası müqəddəs Quranın oxunması ilə öz işinə başladı. Tədbirə Malayziya Nümayəndələr Palatasının spikeri sədrlik edirdi. Sessiyanın təntənəli hissəsində İordaniya, Küveyt, Qabon, Sierra Liona, Sudan, İraq parlamentlərinin spikerləri, vitse-spikerləri və İKT-nin baş katibi Ekmələddin İhsanoğlu çıxış etdilər. Sessiyada Tacikistanın İKT Pİ-yə üzv olması xahişi səsə qoyuldu və bu ölkə yekdilliklə quruma üzv seçildi. Gündəlik layihəsi təsdiq edildikdən sonra İKT Pİ baş katibinin şuranın IX sessiyasına məruzəsi təqdim edildi, üç xüsusi daimi komitənin təqdim etdikləri ümumi məruzələr dinlənildi.

- İKT Pİ Şurasının IX sessiyasının yekunları ilə bağlı nə deyə bilərsiniz, iclasda Ermənistanın Azərbaycana təcavüzü məsələsi də müzakirə olundumu?

- İKT Pİ Şurasının IX sessiyası Kuala-Lumpur deklorasiyasının qəbulu ilə yekunlaşdı. Deklorasiyada əl-Əqsa məscidi ilə bağlı baş verən narahatçılıqlar, Məkkədə Fələstin məsələsi ilə bağlı əldə edilən razılıq, İraqdakı vəziyyət, Sudandakı Darfur problemi, Darfurdan Çada gəlmiş qaçqınlara yardım göstərilməsi, Somali probleminin həlli, terrora qarşı mübarizə, ABŞ-ın Quantanamo həbs düşərgəsində insan hüquqlarının təmin olunmasına BMT-nin diqqət yetirməsi, nüvə silahının sülh məqsədilə istifadəsi, MAQATE-nin nəzarəti altında nüvə texnologiyasından istifadənin hər bir dövlətin qanuni hüququ olması, Kəşmir probleminin həlli və digər məsələlər öz əksini tapıb.

Deklorasiyanın 16-cı bəndi Azərbaycanla bağlıdır. Bu bənd deklorasiyaya Azərbaycan nümayəndə heyətinin təklifi ilə əlavə olundu və yekdilliklə qəbul olundu. 16-cı bəndə əsasən, IX sessiyanın iştirakçıları Ermənistanın Azərbaycana qarşı təcavüzünü qətiyyətlə pisləyir və erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir, işğal olunmuş Azərbaycan ərazilərində beynəlxalq hüquqazid hərəkətlərə son qoymağa çağırır.

Deklorasiyada BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq təşkilatların Kiprin türklər yaşayan hissəsini izolyasiyadan çıxarmaq haqqında tövsiyyələrinin yerinə yetirilməməsindən doğan təəssüf də öz əksini tapıb. Sənəddə İKT üzvü olan dövlətlərə Şimali Kipr Türk Cümhuriyyəti ilə münasibətlərin qurul-

masında fəal iştirak etmək, birbaşa nəqliyyat, ticarət, iqtisadi, mədəni, informasiya və turizm sahələrində əlaqələrin qurulması tövsiyə olunur. Deklorasiyada Qərbi Trakyada yaşayan türk azlığının hüquqlarının Yunanıstan tərəfindən qorunmasının zəruriliyi qeyd edilir.

- Dinlərarası dialoq dünyada sülhün bərqərar edilməsi üçün əsas vasitələrdən biridir. Amma bu gün bəzi Avropa ölkələrində məqsədyönlü şəkildə islam dininə kölgə salmağa hesablanmış, təhqiredici hərəkətlər edilir. Konfransda bu məsələyə münasibət necə oldu?

- Bəli, sivilizasiyalar, yəni mədəniyyətlər və dinlərarası dialoqun dünyada sülhün bərqərar olunması yolunda yeganə vasitə olması deklorasiyanın 18-ci bəndində də əks olunub. Etiraf edilməlidir ki, son illərdə islam dininə qarşı aparılan təbliğat işi müəyyən uğurlar qazanmışdır. Qərb ictimai fikrində islam haqqında dialoqa hazır olmayan, dözümsüzlük nümayiş etdirən, qəddarlığa çağıran bir din kimi təsəvvür yaradılmışdır. 11 sentyabr 2001-ci il Nyu-York və Vaşinqton hadisələri, Əfqanıstanda talibançıların, İraqda ayrı-ayrı radikal islam qruplaşmalarının fəaliyyəti, İndoneziya və Rusiyada terror aktları, Fransada iki ərəb gəncin öldürülməsinə cavab olaraq küçə iğtişaşları və avtomobillərin yandırılması ilə bağlı olaylar və Məhəmməd peyğəmbərə çəkilən təhqiredici karikaturalara reaksiya bu təbliğata heç də az rəvac verməmişdir. Lakin islam mənbələrinə, Qurana və hədislərə ani bir nəzər belə, bu dinin həqiqətən dialoq dini olduğunu görməyə imkan verir. Əsrlər boyu islam mütəfəkkirləri həmin mənbələrə istinadən, islam dininin təklif etdiyi dialoqun əsasları və prinsiplərini hazırlamışlar. Islamda dialoqun əsasları və prinsipləri Məhəmməd peyğəmbərin hədislərində də öz əksini tapmışdır. Islam tarixində bu əsasların və prinsiplərin real tətbiqi ilə bağlı faktlar da istənilən qədərdir. Bu gün Qərb ictimai fikrində islam barəsində yaranmış yanlış təsəvvürlərin kökü ya Qərbin saxta demokratiya və azadlıq şüarlarına istinadən məqsədyönlü antiislam təbliğatında, ya radikal islamçıların islamın əsas prinsip və məramlarına yetərincə əməl etməmələrində, ya da hər iki amildə birlikdə axtarılmalıdır. IX sessiyanın gündəliyinə islam dəyərlərinə qarşı Qərbin kampaniyasını nəzərə almada sivilizasiyalar arasında dialoqa dəstək, Roma Papası XVI Benidiktin çıxışında səslənən fikirlər və Danimarkada nəşr edilmiş təhqiredici rəsmlər kimi islamın müqəddəs Quranına və Peyğəmbərə qarşı çıxan hər bir təhlükə ilə mübarizə məsələləri salınmışdı.

Müsahibəni yazdı: Rəşad Cəfərli,
«Azərbaycan» qəzeti, 10 mart 2007-ci il.

«İNTUİSİYA MƏNDƏ ÇOX GÜCLÜDÜR»

GÖVHƏR BAXŞƏLİYEVA: «HƏTTA OLUR Kİ, TELEFONA ZƏNG GƏLMƏMİŞDƏN ƏVVƏL ONU HİSS EDİRƏM»

Dosye: *Baxşəliyeva Gövhər Baxşəli qızı. Bərdə şəhərində anadan olub. Orta təhsilini Bakıdakı 212 saylı məktəbdə alıb. 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb bölməsinə daxil olub. 1977-ci ildə oranı fərqlənmə diplomu ilə bitirərək Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda işləməyə başlayıb. Baş laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, «Şərq filologiyası» şöbəsinin müdiri vəzifələrində çalışıb. 1984-cü ildə namizədlik, 1996-cı ildə isə doktorluq dissertasiyası müdafiə edib. Filologiya elmləri doktoru, professordur. Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür. Klassik və müasir ərəb ədəbiyyatı, ərəbdilli Azərbaycan ədəbiyyatı, müqayisəli ədəbiyyatşünaslıq, ədəbi əlaqələr üzrə mütəxəssisdir. 1993-cü ildən Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, 1997-ci ildən direktorudur. «Türk xalqları ədəbiyyatı» və «Dünya ədəbiyyatı» ixtisasları üzrə Müdafiə Şurasının sədridir. 3 monoqrafiyanın, 5 kitabın və 80-dən çox elmi məqalə və məruzələrin müəllifidir. Hazırda elmi fəaliyyəti ilə yanaşı, siyasi fəaliyyət də göstərir. 2000 və 2005-ci illərdə Azərbaycan parlamentinə millət vəkili seçilib. 2001-ci ildən 2005-ci il parlament seçkilərinə qədər vitse-spiker kimi fəaliyyət göstərib. Eyni zamanda Milli Məclisin İKT Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəridir. Bir övladı var.*

Deyirlər, insanın ən böyük müəllimi onun böyüdüyü mühitdir. Mənim bugünkü qəhrəmanımın keçdiyi həyat yolu da daim onu başqalarından fərqləndirib. İstər məşhur ailədə böyüməsi, istərsə də elmin yollarında qazandığı uğurlar onu da seçilmişlərin sırasına yazıb. Taleyini hələ də bir çox sirlərini qoruyub saxlayan Şərq dünyasını öyrənməyə bağlayıb. Ancaq həyatın gözlənilməzlikləri ondan da yan keçməyib. Insanların etimadını qazanması ona siyasət meydanında da uğuqlar gətirib. Amma o, özünü siyasətçidən çox, elm adamı sayır. Baxmayaraq ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra parlamentin Rəyasət Heyətində təmsil olunmaq və xanım kimi vitse-spiker adını daşımaq şərəfinə də məhz o nail olub. İlk baxışda bir qədər sərt xarakterli insan təsiri bağışlasa da, onunla ünsiyyət qurmaq yetər ki, bu xanımın necə sadə və səmimi insan olduğunu anlayasan. Beləliklə, bu gün «Xanım millət vəkili»ndə keçmiş vitse-spiker, millət vəkili, AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru Gövhər xanım Baxşəliyevadır. Onunla iş yerində, Şərqşünaslıq

İnstitutundakı iş otağında görüşdük. Elə iş otağına daxil olarkən oradakı zəngin kitabxana, məşhur şərqşünas alimlərin divar boyu düzülmüş portretləri və həmsöhbətimin stolunun üstündəki kitablar da burada bir elm adamının, həm də bir xanımın işlədiyi təəssüratı yaradırdı. Bütün bunlara rəğmən biz söhbətimizə elmin çətin yollarından deyil, Gövhər xanımın siyasətə gəlişi ilə körpü salmaqla başladıq.

- Mən Bərdə rayonunda doğulmuşam və ömrümün müəyyən hissəsi orada keçib. Bizim nəslimizi, ailəmizi oradakı insanlar yaxşı tanıyırlar. 2000-ci ildə parlament seçkiləri ərəfəsində oradakı insanlar mənə seçkilərdə namizədliyimi irəli sürmək üçün müraciət etmişdilər. Onlar məni parlamentdə görmək istədiklərini bildirdilər. Mən də bu müraciətlər üzərində düşündükdən sonra seçkilərə qatılmağa qərar verdim və 57 saylı Bərdə-Ağcabədi seçki dairəsindən millət vəkili seçildim.

- Parlamentə ilk dəfə seçildikdən sonra rəhbərlikdə təmsil olunacağınızı gözləyirdinizmi?

- (Gülümsünür) Açığını deyim ki, gözləmirdim. Mənim namizədliyimi parlamentdəki həmkarlarım irəli sürmüşdülər. Mən də bu təqdimatdan imtina etmədim.

- Azərbaycan cəmiyyətində belə bir düşüncə hələ də qalır ki, siyasət qadın işi deyil...

- Bu, düzgün yanaşma deyil. Allah qadını ilk olaraq ana kimi yaradıb. Qadının ilkin funksiyalarından biri nəsil qavamçısı kimi dünyaya uşaq gətirməkdir. Ona görə də hər bir qadın öz üzərinə düşən missiyanı yerinə yetirməlidir. Dünyaya övlad gətirən ana ilk növbədə özünü övladına həsr etməli, onun qayğısını çəkməlidir.

Yalnız azad qadın, savadlı qadın yüksək səviyyəli övlad böyüdə bilər. Hətta ərəblər qadını ikili məhbəsin məhbusu sayırdılar. Onlar deyirdilər ki, qadınlar üçün birinci məhbəs çadradır. İkinci məhbəs osə o zaman cəmiyyətdə olan sosial ədalətsizliklər idi. Onda ərəb ölkələri çox kasıb idi və əhalinin yoxsulluq içində yaşamasının ağrısını çox zaman qadınlar çəkirdi. Ona görə də ərəblər deyirdilər ki, əgər kişilər bir məhbəsin məhbusudurlarsa, qadınlar ikili məhbəsin məhbusudurlar. Qadınlar həm hicabı atmalı, həm də kişilərlə bərabər yüksək təhsil almalıdırlar. Vaxtilə bizim mütəfəkkirlər də hicaba qarşı mübarizə aparıblar.

- Amma son vaxtlar elə Bakıda da hicab geyinən xanımların sayı artıb. Hətta hicablılar arasında kiçik uşaqlar da var...

- Hicab taxan xanımlara hörmətlə yanaşıram. Hicab taxmaq və ya taxmamaq hər bir insanın öz əqidəsi ilə bağlı olan məsələdir. Hər bir insan öz əqidəsinə görə hicab taxa da bilər, taxmaya da. Ancaq bu qadınlar onu da

nəzərə almalıdırlar ki, bizim ən dahi şəxsiyyətlərimiz, filosoflarımız, ictimai-siyasi xadimlərimiz uzun müddət qadının hicabı çıxartması uğrunda mübarizə aparıblar. O uzun yolun, o uzun mübarizənin nəticəsi olaraq bugünkü mütərəqqi Azərbaycan qadını formalaşıb. Bu baxımdan qadınların yenidən öz istəyi ilə çadra altına girməsi məni narahat edir. Narahatlıq doğuran başqa bir məqam isə həddi-buluğa çatmamış qızların hicab taxmasıdır. Bu gün biz əqidə azadlığından, insan haqlarından danışırıqsa, həddi-büluğa çatmamış uşağa hicab taxdırmaq olmaz. Ətrafda səkkiz, on, on beş yaşlarında olan qızlar var ki, hicab taxırlar. Amma bu onların öz seçimləri deyil. Əgər o qızlar on səkkiz yaşlarına çatdıqdan sonra hicab taxmaq istəsələr, bu artıq öz seçimləri ola bilər. Bu seçimə mən hörmətlə yanaşıram. Amma kiçikyaşlı uşaqlara hicab taxmaq düzgün deyil. Çünki onlar hicabı öz istəklərinə uyğun deyil, başqalarının təsiri ilə taxırlar. Çünki onlar hələ öz seçimlərini etməyiblər. Bu, düzgün deyil.

- ***Uşaqların tərbiyəsindən danışanda deyirlər ki, uşaq ailənin sifətidir...***

- (Təsdiqləyir) ... Bu, doğrudan da belədir. Təbii ki, uşağın tərbiyəsində əsas rol anaya məxsusdur. Uşağı gələcək həyata hazırlamaq üçün onu bir qədər sərbəst böyütmək lazımdır ki, o, gələcəkdə özünü cəmiyyətdəki mənfi hallardan qoruya bilsin. Adətən müstəqil həyata hazır olmayan insanlar mənfi hallara daha çox meyilli olurlar.

- ***Həm elmi sahədə, həm də ictimai fəaliyyət göstərməyiniz sizə övladınıza lazımi qədər diqqət yetirmək üçün problemlər yaratmayıb ki?***

- Mənim həyatımda həmişə birinci yerdə oğlum olub. Sonrakı yerdə isə digər işlərim dayanıb. Çalışmışam ki, oğluma lazım olan bütün qayğını, diqqəti çatdırım.

- ***Adətən maliyyə müstəqilliyi əldə edən qadınlar ailədə birinci şəxsə çevrilməyə can atırlar və bu da çox hallarda o ailə üçün ciddi problemlər yaradır...***

- Qadının maliyyə imkanlarının olması onun ailədə birinci şəxsə çevrilməsinə əsas yarada bilməz. Mən hesab edirəm ki, qadının maliyyə imkanları olsa belə, o öz qadınlığını gözləməli və həyat yoldaşına hörmət etməlidir. Kişi evə kifayət qədər maliyyə gətirmirsə, bu, heç də ona hörmətsiz yanaşmaq üçün əsas ola bilməz. Kişi gərək ailədə öz birinciliyini hiss eləsin. Ailədə normal münasibətlər olmayanda qeyri-sağlam mühit yaranır. Bu da sonda o ailə üçün çox xoşagəlməz vəziyyət yaradır. Bu baxımdan da mən belə hesab edirəm ki, ağlı olan qadın çalışmalıdır ki, ailəsində həyat yoldaşının birinciliyini qoruyub saxlasın.

- ***Qadın üçün ən böyük karyera onun ailəsidir. Bu, doğrudanmı belədir?***

- Çox yaxşı fikirdi. Əgər qadının yaxşı ailəsi varsa, demək bu onun üçün ən

böyük xoşbəxtlikdi (anasını xatırlayır) ... Məsələn, mənim anamın altı uşağı olub. Bir ananın öz övladlarına hansı qayğını, hansı diqqəti göstərməsi lazımdırsa, anam onu bizim hamımız üçün edib. Həm uşaq vaxtlarımızda, həm oxuyanda, həm də ailə qurandan sonra. Anam imkanı daxilində bizim övladlarımıza da kömək edirdi. Ömrünün son dəqiqəsinə qədər də bizim işlərimizlə, problemlərimizlə yaşayırdı. Hesab edirəm ki, bu, qadın üçün ən böyük xoşbəxtlikdi. Amma burada insanların məsələyə yanaşmasında fərqliliklərin olması mümkündür. Ola bilər ki, qadın özünü ailədə xoşbəxt görürsə, onun üçün ailə hər şeydən yüksəkdə dayanır. Onda bu qadın öz ailəsini seçir. Amma qadınlar da var ki, öz xoşbəxtliyini ictimai həyatda görürlər. Əgər bir qadın düşünürsə ki onun xoşbəxtliyi ictimai həyatdadır, onda o həmin həyatı seçir. Bu məsələyə hər bir insanın öz subyektiv yanaşması var. İnsan var ki, bir maşını var deyir, Allaha min şükür. İnsan da var ki, on maşını var. Deyir ki, yox, Allah, mən on birinci maşını da istəyirəm. Yəni hər şey insanın özündən asılıdır.

- Sizcə, insanlar öz alın yazılarında nə yazılıbsa onu yaşayırlar, yoxsa öz həyatlarını özləri müəyyənləşdirirlər?

- Alın yazısına elə də inanmıram. Mənə elə gəlir ki, hər kəs öz həyatını özü müəyyənləşdirir. Səbəbsiz demirlər ki, «niyyətin hara, mənzilin də ora». Bu məsələ ilə bağlı alimlər, ekspertlər də uzun müddət araşdırma aparıblar. Bu yaxınlarda rus mətbuatında bununla bağlı bir məqalə oxumuşdum. Orada göstərilirdi ki, alimlər apardıqları araşdırmalar nəticəsində belə qənaətə gəliblər ki, insanların həyatı alın yazısından çox, onların daxili intuisiyaları ilə bağlıdır. Hətta onlar müəyyənləşdiriblər ki, adətən qəzaya düşən təyyarələrdə sərnişinlərin sayı həmin təyyarələrin adi günlərdəki uçuşları zamanı olan sərnişinlərin cəmi on beş faizi qədər olub. Alimlər həmin təyyarələrə insanların az minməsini insanların daxili intuisiyaları ilə bağlayırlar. Alimlərin fikrincə, həmin gün təyyarəyə bilet alan bir çox insanların sonradan öz fikirlərini dəyişməsi onların daxili hissiyatları ilə bağlı olur. Olur ki, kimsə təyyarəyə əvvəlcədən bilet alır, ancaq uçuşa bir neçə saat qalmış fikrini dəyişir. Bütün bunlar hamısı insanların daxili intuisiyası ilə bağlıdı.

- Gövhər xanım necə, daxili intuisiyasına inanırmı?

- Çox inanıram. Həssas insan olduğum üçün intuisiya da məndə çox güclüdü. Hətta olur ki, telefona zəng gəlməmişdən əvvəl onu hiss edirəm. Telefonun dəstəyini qaldırmağa gedirəm, amma zəng mən ora çatandan sonra gəlir. Ya da ki, qapı səsini eşidirəm. Qapını açmağa gedib ora çatandan sonra qapı döyülməyə başlayır. Belə hallar həmişə olur. Insan var ki, öz daxili intuisiyasını hiss edir və çox zaman qərarlarını qəbul edən zaman da öz daxili intuisiyasına görə hərəkət edir. insan da var ki, bunu hiss etmir və həyatında baş verənləri alın

yazısı adlandırır. Hər halda mən daxili intuisiyama çox inanıram.

Ailədə altı uşaq olsaq da, valideynlərimiz bizi heç vaxt ərköyün böyütməyiblər. Atamın yüksək vəzifə tutmasına baxmayaraq bizim ailə olduqca sadə olub. Ailə üzvləri arasında bağlılıq çox möhkəm olub. Mən də, digər bacı-qardaşlarım da atamıza, anamıza, ailəmizə çox bağlı olmuşuq. Bizdə indi də bacı-qardaşlar arasında münasibətlər belədir. Yəni «bir nəfər hamı üçün, hamı bir nəfər üçün» (gülür və yenə atasını xatırlayır). Biz heç vaxt unutmuruq ki, kimin övladıyıq. Ona görə də hansısa bir addım atanda çalışırıq ki, bu, atamızın adına layiq olsun. Qaldı ki, mənə hansı illərin daha yaxın olmasına, hər bir insanın yaşadığı həyat ona məxsusdu. Insanın ömür yolunda çətinlik də olur, xoş günlər də. Hər kəs bu dünyada öz taleyini yaşayır. Ona görə də həyat yolumda nələr varsa, onun hamısı mənimdir.

- Qadınların hakimiyyətdə çox təmsil olunması o cəmiyyətin sososialyönümlü olmasına gətirib çıxarır. Razılaşırsınızmı?

- Bu yanaşmanı qəbul etmirəm. Bu fikirlə o qədər də razı deyiləm. Mənim fikrimcə, cəmiyyətin sosialyönümlü olması, problemlərin həllini tapması üçün ölkənin iqtisadi baxımdan inkişaf etməsi vacib şərtdi. Bu məsələlərin həllini tapması baxımından hakimiyyətdə qadınların və ya kişilərin sayca çox olması əsas deyil. Əsas ölkənin öz inkişafıdır. Inkişaf olarsa, təbii ki, o ölkədəki sosial problemlər də ona paralel şəkildə öz həllini tapır. Inkişaf olmayan yerdə isə hakimiyyətdə qadınların, yoxsa kişilərin çox təmsil olunmasından asılı olmayaraq problemlər olduğu kimi qalır.

- Bəzən insan dönüb arxaya baxanda ömrünün hansısa illərini geri qaytarmaq istəyir. Mənim həmsöhbətim Gövhər xanıma daha çox kim yaxındı? Keçmiş nazir qızı, keçmiş vitse-spiker, yoxsa alim və direktor Gövhər xanım?

- Atam 1987-ci ildə vəfat edib. Mən hər zaman çalışmışam ki, hər işimdə atamın adına layiq olum. Ümumiyyətlə, tək mən yox, bizim ailədə hamı bu dəyərləri saxlayır. Mənim atam görkəmli iqtisadçı olmaqla yanaşı, cəmiyyətdə də yaxşı insan kimi tanınmışdı. O, çox yaxşı insan idi. Həyatı boyu çoxlarına kömək edib. Ailədə də çox gözəl ata idi. Hərçənd bir qədər mühafizəkar idi. O vaxtlar atamın bu mühafizəkarlığı mənə sərtlik kimi görünsə də, indi başa düşürəm ki, əgər o mühafizəkarlıq olmasaydı, biz gəlib həyatda öz yerimizi tapa bilməzdik. Düşünürəm ki, uğurlarımın əldə olunmasında atamın mühafizəkar olmasının böyük rolu olub.

Müsahibəni apardı: Vüsalə Rafiqqızı,
«Şərq» qəzeti, 5 may 2007-ci il.

GÖVHƏR BAXŞƏLİYEVA: «TEST ÜSULUNU LƏĞV ETMƏK OLMAZ»

«525»in müxbirinin suallarına professor **Gövhər Baxşəliyeva** cavab verir.

Ötən həftə Milli Məclisdə (MM) Parlamentin Elm və Təhsil məsələləri daimi komissiyasının təşəbbüsü və təşkilatçılığı ilə uzun illərdən bəri qəbulu düyünə düşmüş «Təhsil haqqında» qanun layihəsinin yeni variantının birinci oxunuşda müzakirəsi təşkil olunub. Təxminən üç saat davam edən müzakirələr naməlum səbəbdən qapalı şəkildə reallaşdırılıb. Tədbirə nəinki müxalif, müstəqil, iqtidaryönlü mətbuatın nümayəndələri, hətta MM-in orqanı olan «Azərbaycan» qəzetinin və «AzərTAc»ın əməkdaşları da buraxılmayıb. Ona görə də sözü gedən müzakirələr barədə ətraflı məlumat almaq və suallarımızı cavablandırmaq üçün MM-in Elm və Təhsil məsələləri daimi komissiyasının üzvü, professor Gövhər Baxşəliyeva ilə əlaqə yaratdıq. Müzakirələrin qapalı şəkildə keçirildiyini və bu baxımdan əlavə söz-söhbətlərin yaranmasını istəmədiyini dilə gətirən G.Baxşəliyeva müzakirələr barədə ancaq ümumi fikirlərini bölüşəcəyini bildirib.

- «Təhsil haqqında» qanun layihəsinin yeni variantının birinci oxunuşda çox geniş və ətraflı müzakirəsi keçirildi. Müzakirələrdə çox geniş tərkibli heyət iştirak edirdi. Yəni, qanun layihəsinin müzakirələrinə təhsil işçiləri, təbii olaraq komissiyamızın üzvləri, eyni zamanda, parlamentin digər daimi komissiyalarının sədrləri dəvət olunmuşdular. Bununla yanaşı, millət vəkillərindən kimlər ki, bu qanun layihəsinin müzakirələrində yaxından iştirak etmək istəyirdilər, onlar da müzakirələrə qatılmışdılar. Bir sözlə, qanun layihəsi çox geniş tərkibli bir heyətdə ətraflı şəkildə müzakirə olundu. Müzakirələr zamanı ümumi fikirlər əsasən belə oldu ki, təqdim olunmuş variantın üzərində kifayət qədər iş aparılıb, yəni o, kifayət qədər təkmil bir variant hesab edilə bilər. Əksər çıxışçılar qanun layihəsinin bu variantının parlamentin plenar iclasının birinci oxunuşunun müzakirələrinə tövsiyə olunmasını dilə gətirdilər. Bununla belə, qanun layihəsi ilə bağlı yenə də bir sıra fikirlər, təkliflər səsləndirildi. Sadəcə, mən öz təkliflərimi dilə gətirə bilərəm. Xatırladım ki, təxminən beş il bundan öncə ümummilli liderimiz Heydər Əliyev tərəfindən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Əsasnaməsi təsdiq olunub. Həmin Əsasnamənin bir maddəsi də AMEA-ya ali təhsilin bütün pillələrini açmaq hüququnun verilməsidir. Bununla da Akademiyanın aspiranturadan başqa bakalavriat və magistratura pilləsi açmaq hüququ tanınır. Bu isə Akademiya üçün çox mühüm əhəmiyyət kəsb edir. Burada magistratura xüsusilə daha böyük önəm daşıyır.

Hesab edirik ki, akademiyada mütləq magistratura, əsasən də ödənişli əsaslarla magistratura pilləsi açılmalıdır. Nəyə görə? Ona görə ki, belə bir təhsil pilləsinin açılmasının Akademiyanın işçilərinin maddi durumunun yaxşılaşmasına çox böyük təsiri olar. İkincisi də biz onu nəzərə almalıyıq ki, keçmiş İttifaq respublikalarının əksəriyyətində elmi-tədqiqat institutlarının çoxu məhz bu yolla gedir. Məsələn, Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq Elmi-Tədqiqat İnstitutunun – hansı ki, Moskva şəhərində yerləşir – nəzdində Şərq dilləri İnstitutu açılıb. Onlar oraya həm bakalavriat, həm də magistratura pilləsi üzrə qəbul həyata keçirirlər və ödənişli təhsildən əldə olunan vəsaitin hesabına həmin Şərqşünaslıq Elmi-Tədqiqat İnstitutu da öz mövcudluğunu qoruyub-saxlayır. Onların işçiləri, əməkdaşları da kifayət qədər məvacib alırlar. Eyni yolla da Gürcüstanın Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu gedir. Mənim qanun layihəsi ilə bağlı birinci təklifim bu idi ki, biz AMEA olaraq hesab edirik ki, hazırkı dövrdə bu qurumun ictimai və humanitar institutlarının yaşamaq yollarından biri məhz budur. Fikrimizcə, AMEA-nın ictimai və humanitar elmi-tədqiqat institutlarının ödənişli magistratura pilləsini açması bu institutların həm maddi-texniki bazasının yüksəlməsinə, həm də əməkdaşlarının maddi-rifah halının yaxşılaşmasına gətirib çıxarar. Biz hesab edirik ki, vaxtilə ümummilli liderimizin AMEA-nın Əsasnaməsində göstərdiyi həmin müddəa gələcəkdə qəbul edəcəyimiz «Təhsil haqqında» qanun layihəsində də nəzərə alınmalıdır. Düzdür, mən bu təklifimi müzakirələr zamanı səsləndirə bilmədim. Çünki çıxışa yazılanlar həddindən artıq çox idi. Belə qərara gəlindi ki, çıxışçıların sayı çox olduğuna görə, komissiyamızın üzvlərinə sonda söz verilsin. Ona görə də mən çıxış edib, istər həmin təklifimi, istərsə də digər təklifimi çatdıra bilmədim. İstəyirəm ki, mən həm bu təklifimi, həm də digər təklifimi yazılı şəkildə təqdim edim. Yeri gəlmişkən, mənim ikinci təklifim qanun layihəsində təhsilin prinsipləri ilə bağlıdır. «Təhsil haqqında» qanun layihəsinin yeni variantında fasiləsiz təhsildən söhbət açılır. Orada orta məktəbi başa vuran abituriyentin ali təhsilin bakalavr pilləsində, sonra magistratura pilləsində, daha sonra isə aspiranturada (doktoranturada) qəbul olunaraq təhsil almasından söhbət gedir. Şəxsən mən, AMEA-nın bir elmi-tədqiqat institutunun rəhbəri kimi, hesab edirəm ki, bu prinsip yaxşı prinsipdir, amma biz magistratura pilləsindən sonra aspiranturaya (doktoranturaya) qəbul məsələsinə bir qədər ehtiyatla yanaşmalıyıq. Nəyə görə? Təcrübə onu göstərir ki, mən bunu AMEA-nın nümunəsində deyirəm, bir çox gənc oğlanlar, tələbələr əsgərlikdən yayınmaq üçün magistraturadan dərhal sonra aspiranturaya qəbul olunmağa can atırlar. Onlar gəlirlər, imtahan verib, aspiranturaya daxil olurlar. Elə ki qəbul sənədini əldə edirlər, yəni, əsgərlikdən üçillik möhlət hüququ qazanırlar, ondan sonra onlar elmə elə

bir maraq da göstərmirlər. Elmdən, təhsildən yayınırlar, bəzən heç günlərlə, aylarla institutlarda tapılmırlar. Biz AMEA-nın elmi-tədqiqat institutlarının rəhbərləri olaraq neçə illərdir belə problemlə üzləşmişik. Şəxsən mənim bir neçə il bundan öncə belə bir təklifim olmuşdu ki, aspiranturaya yalnız hərbi xidməti başa vurmuş ali təhsilli oğlanları qəbul etmək lazımdır. Lakin o zaman qanunvericilik mənim bu təklifimin reallaşmasına imkan vermirdi, bu,qanun pozuntusu hesab olunurdu. Bu baxımdan, şəxsən mən bir müddət öncə parlamentdə «Hərbi xidmətə çağırışın əsasları haqqında» qanuna edilən düzəlişləri vaxtında və zamanında atılmış addım hesab edirəm. Bu düzəlişlərə əsasən ali təhsil alan oğlanlara yalnız əsgərlikdən bir dəfə möhlət hüququ verilir. Bu, tamamilə düzgün bir müddəadır və ona heç cür toxunmaq olmaz. Qanun layihəsinin yeni variantında Azərbaycan dövlətinin milliliyinin və dünyəviliyinin qorunmasından da söhbət açılır. Müzakirələr zamanı belə təkliflər oldu ki, «dünyəvilik» sözü «millilik» sözündən əvvələ gətirilsin. Hesab edirəm ki, bu da çox önəmlidir. Hazırda Azərbaycanın inkişafı üçün bax bu dünyəvilik prinsipini – türklər buna layiqlik prinsipi deyirlər – qoruyub saxlamaq, gələcək nəsillərə ötürmək çox vacibdir. Biz bəzi qonşu ölkələrdə, o cümlədən bəzi ərəb ölkələrində gedən prosesləri yaxından izləyirik və görürük ki, bu dünyəvilik prinsipinə çox böyük önəm verilməlidir. Eyni zamanda, mən bu prinsiplə bağlı fikirlərimi çox da açıqlamaq istəmirəm. Ehtiyac olsa və lazım gəlsə, bu haqda gələcəkdə daha geniş şəkildə danışmaq olar. Bu, başqa bir söhbətin mövzusudur. Bir sözlə, müzakirələr zamanı hamı tərəfindən birmənalı qeyd olundu ki, bu gün biz strateji əhəmiyyəti olan bir qanun layihəsini müzakirə etdik. Müzakirələrin yekunu olaraq qərara gəlindi ki, müzakirələr zamanı səslənmiş bütün təkliflərə diqqətlə yanaşılsın, onlar bir daha götür-qoy olunsun, sonda ortaya ən təkmil variantda bir təhsil qanunu çıxarılsın. Yəni, bu qanundan Azərbaycan cəmiyyəti bəhrələnsin və o, yalnız və yalnız Azərbaycanın irəliyə doğru inkişafını təmin etsin. Şəxsən müzakirələrlə bağlı mənim deyəcəklərim bundan ibarətdir.

- Sözlərinizdən belə başa düşmək olar ki, «Təhsil haqqında» qanun layihəsinin yeni variantının birinci oxunuşda müzakirəsi bu dəfə də parlamentin bu sessiyasında müzakirəyə çıxarılmayacaq?

- Mən belə hiss etdim və başa düşdüm ki, qanun layihəsinin müzakirəsi parlamentin oktyabr ayında öz işinə başlayacaq payız sessiyasının müzakirələrinə təqdim olunacaq. Çünki bu elə bir qanundur ki, onunla bağlı hərənin öz fikri var. Bu fikirlərin hamısını nəzərə alanda da bir qədər ziddiyyətlər yaranmış olur. Yəni, bu fikirlərin hamısı nəzərə alınsa, o zaman qanun layihəsinin üzərində işlər bir qədər də davam etdirilməlidir. Bu baxımdan da çox güman ki,

sözügedən qanun layihəsi daha təkmil formada payız sessiyasının müzakirələrinə təqdim olunacaq.

- İctimaiyyət arasında test üsulunun, eləcə də bu prosesi həyata keçirən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) ləğvi ilə bağlı bir narahatçılıq yaşanmaqdadır. Sizcə, «Təhsil haqqında» qanun layihəsinin yeni variantı ictimaiyyətin bu yöndə narahatçılığına son qoyacaqmı?

- Bilirsiniz, mən qanun layihəsinin bütün detallarını açıqlaya bilmərəm. Çünki bir daha qeyd edirəm ki, bu sənədlə bağlı müzakirələr hələ ki qapalı şəkildə keçirilir. Ona görə də bu məsələ ətrafında əlavə söhbətlərin, ajiotajın yaranmasını istəmirəm. Bu, düzgün də olmazdı. Yalnız onu deyə bilərəm ki, bu məsələlərlə bağlı müzakirələr zamanı müxtəlif fikirlər səsləndirildi. Şəxsən mən test üsulunu kifayət qədər mütərəqqi bir üsul hesab edirəm. Ancaq bunu iki dəfə və yaxud bir dəfə keçirməklə bağlı müxtəlif fikirlər ola bilər və bunlar da mövcuddur. Məsələn, Rusiya artıq vahid dövlət imtahanı formasına keçib. Yəni, orada ali məktəblərə qəbul prosesi ilə orta məktəblərin buraxılış imtahanları birləşdirilib. Orada bir dəfə qəbul prosesi həyata keçirilir. Bu cür misallar sözügedən müzakirələr zamanı da səsləndirildi. Ancaq məsləhət necə olacaq, hansı variantın üzərində dayanılacaq, bunlar çox güman ki, sonda bilinəcək. Ümumiyyətlə, testin tam ləğvindən söhbət getmir və gedə də bilməz. Bir daha qeyd edirəm ki, test üsulu ilə qəbul prosesi Azərbaycanın indiki mövcud durumunda çox mütərəqqi bir haldır. Eyni zamanda, qəbul prosesindən sonra tələbələri yerləşdirmək məsələsini kimin, hansı qurumun həyata keçirəcəyi ilə bağlı müəyyən fikirlər var. Məsələn, bəzi xarici ölkələrin təcrübəsində belədir ki, abituriyentlər bal yığdıqdan və bu ballara görə ali təhsil almaq hüququ əldə etdikdən sonra artıq yerləşməni özləri həll edirlər. Onlar istədikləri ali təhsil müəssisələrinə gedirlər və həmin ali təhsil müəssisələri də onları öz sıralarına qəbul edirlər. Hesab edirəm ki, bizdə də bu məsələyə tam aydınlıq gətirilməlidir. Yəni, gələcəkdə qəbul edəcəyimiz qanun layihəsi bu məsələyə nöqtə qoymalıdır.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 30 may 2007-ci il.

ŞƏRQŞÜNASLIQ ELMİ DÖVLƏTİN STRATEJİ MARAQLARINA XİDMƏT EDİR

Azərbaycanın çoxəsrlik tarixi, ictimai fikri, mədəniyyəti, ədəbiyyatı məhz Yaxın və Orta Şərq ölkələrində gedən proseslərlə üzvi sintezdə inkişaf edərək təşəkkül tapmışdır. Böyük alim və mütəfəkkirlərimiz öz qiymətli əsərləri ilə daim Şərq xalqlarının elm və mədəniyyətini zənginləşdirmiş, həmin xəzinəyə qiymətli töhfələr vermişlər. Bu gün demokratik dünyaya inteqrasiya olunan ölkəmiz yeni sistemə məhz tarixən formalaşmış həmin milli-mənəvi dəyərlərlə daxil olur. Belə bir vəziyyətdə, yəni çoxəsrlik mədəniyyətinin təməlində ümumşərq faktoru aparıcı yer tutan müstəqil dövlətimizin dünyanın maraq dairəsində olan regiona diqqətinin artması çox təbiidir. Bunu Prezident İlham Əliyevin Şərq ölkələrinə ardıcıl səfərləri, İslam Konfransı Təşkilatında Azərbaycanın fəal iştirakı da təsdiqləyir. Amma bir həqiqət də var ki, Şərqin tarixini, mədəniyyətini, iqtisadiyyatını, ictimai-siyasi fikrini, filologiyasının aktual problemlərini kompleks şəkildə öyrənmədən, baş verən proseslərin mahiyyətini təhlil etmədən regionda baş verən hadisələri diqqətdə saxlamaq və onlara müdaxilə etmək də mümkün deyil. Məhz bu ağır işi neçə illərdir ki, Azərbaycan Milli Elmlər Akademiyasının akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu uğurla həyata keçirir. Müsahibimiz AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, professor **Gövhər Baxşəliyeva** ilə söhbətimiz də bu barədədir.

- ***Məlum olduğu kimi, Azərbaycanda şərqşünaslıq elminin tarixi ənənələri var. Bəs müasir dövrdə Şərqin öyrənilməsi sahəsində vəziyyət nə yerdədir?***

- Azərbaycanda Şərqin öyrənilməsinin böyük tarixi ənənəsi olsa da və oraya hələ XIX yüzildə A.Bakıxanov, M.F.Axundov, Mirzə Kazım bəy, M.S.Topçubaşov kimi böyük alim və mütəfəkkirlər öz imzalarını qoysalar da, onun sistemli şəkildə tədqiqinə ötən əsrin 50-ci illərindən başlanıb. Lakin ölkəmiz müstəqillik əldə edənə qədər bu elm bütövlükdə keçmiş sovet şərqşünaslığının tərkib hissəsi kimi inkişaf edib. Belə ki, institutda aparılan elmi araşdırmaların tematikası, xüsusilə Şərq ölkələrinin müasir ictimai-siyasi və ideoloji problemləri ilə bağlı bir sıra mövzular hakim marksizm təliminin tələblərinə uyğun şəkildə tədqiq edilərək, Sovet İttifaqının Şərq siyasətinin həyata keçirilməsinə xidmət edib. Bununla bərabər, dərin elmi araşdırmalar, yüksək hazırlıqlı kadr potensialı hesabına Azərbaycan şərqşünaslıq elmi keçmiş İttifaqda aparıcı yerlərdən birini tutub. Akademiklər Ə.Əlizadə,

Ə.Sumbatzadə, H.Araslı, Z.Bünyadov, müxbir üzv B.Hüseynov, professorlar A.İmanquliyeva, R.Əliyev, Ə.Cəfər, R.Seyidov və bir çox digər görkəmli alimlərimizin yorulmaz əməyi isə ona beynəlxalq nüfuz gətirib.

Məsələn, mətnşünaslığın Azərbaycanda bir elm kimi formalaşması bu institutun çərçivəsində baş verib. Görkəmli şərqşünas alim, akademik Ə.Əlizadənin Nizami Gəncəvi, Fəzlullah Rəşidəddin, Məhəmməd ibn Hinduşah Naxçıvani kimi mütəfəkkirlərin irsinin toplanması, onların əsərlərinin elmi-tənqidi mətnlərinin tərtib edilməsi sahəsindəki fəaliyyəti zaman-zaman tarixin müxtəlif qatlarında gizli qalmış ədəbiyyat və mədəniyyət xəzinəmizin «qızıl açarının» tapılmasında əhəmiyyətli rol oynayıb. Böyük alimin açdığı yolla gedən və onun geniş təcrübəsindən istifadə edən sonrakı şərqşünaslar nəsli ədəbiyyatımızın və mədəniyyətimizin tarixində xidmətləri olmuş yüzlərlə alim və şairin əlyazmalarını tədqiq edərək əsl elmi həqiqətləri üzə çıxara bilmişlər.

Bütün yaradıcılıq qüvvəsini, çoxcəhətli istedadını Azərbaycan ədəbiyyatşünaslığının inkişafına və klassik ədəbi irsin öyrənilməsinə sərf edən akademik H.Araslının da elmi fəaliyyətinin ən məhsuldar illəri bu institutda çalışdığı dövrə düşüb. Azərbaycan ədəbiyyatı tarixinin yaradılmasında müstəsna xidmətləri olan görkəmli alim şərqşünaslıq elminin Azərbaycanın strateji maraqları üçün xüsusi əhəmiyyət daşıdığını dəfələrlə vurğulayıb.

Uzun illər instituta rəhbərlik etmiş akademik Ziya Bünyadov da Azərbaycan tarixini ümumşərq kontekstində araşdırmaqla bugünkü müstəqil dövlətimizin Yaxın və Orta Şərq ölkələri ilə dostluq və qonşuluq münasibətlərinin böyük tarixi ənənə üzərində yüksəldiyini elmi dəlillərlə əsaslandırdı. Sonrakı mərhələdə filologiya elmləri doktoru, professor Aida İmanquliyeva bu elmin əhatə dairəsini bir qədər də genişləndirərək bir çox problemləri Şərq-Qərb mədəni ənənələrinin sintezində təhlil etməklə Azərbaycanın təkcə Şərq yox, həm də Qərb dünyası ilə münasibətlərinin ayrı-ayrı mərhələlərinin tədqiqi üçün zəmin hazırladı.

Ümumiyyətlə isə, Azərbaycan şərqşünaslıq elmi həmişə Yaxın və Orta Şərqin siyasətini, iqtisadiyyatını, mədəniyyətini, tarixini, ədəbiyyatını ələhiddə və yaxud ümumdünya proseslərindən təcrid olunmuş şəkildə deyil, Şərq-Qərb sivilizasiyalarının müqayisəsində və ənənələrin sintezində tədqiq edərək, bu gün bütün siyasi güclərin vurğuladığı qütblərarası dialoqun yaranmasına zəmin hazırlamağa çalışmışdır.

- Ölkəmizin müstəqillik qazanması ilə Şərq ölkələri ilə bağlı mövzuların marksizm təliminin tələblərinə uyğun tədqiq edilməsinə də son qoyuldu. Bəs indi Şərq ölkələrinin inkişaf qanunauyğunluqları, burada cərəyan edən proseslərlə bağlı tədqiqatlar hansı istiqamətdə aparılır?

- Respublikamızın müstəqillik qazanması institutun önündə yeni üfüqlər açmaqla bərabər, həm də ciddi vəzifələr qoyub. Belə ki, xarici siyasət xəttini bu gün müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün həm Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi və həm də regionda gedən proseslərdə dövlət maraqlarının qorunması institutun elmi fəaliyyət dairəsinin daha da tutumlu olmasını, bir sıra yeni istiqamətlərin yaradılması və ciddi keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini vacib edib. İnstitutun kollektivi bu yeni şəraiti vaxtında qiymətləndirərək qeyd edilən problemlərin həlli istiqamətində uğurlu addımlar atıb və atmaqdadır. Bu gün institutda elmi tədqiqat işləri əsasən aşağıdakı istiqamətlərdə aparılır: Şərq ölkələrinin ictimai-siyasi inkişafının qanunauyğunluqları, Şərq ölkələrinin tarixi, bu ölkələrdə cərəyan edən ictimai-siyasi, iqtisadi və etnik proseslər, bu ölkələrin beynəlxalq münasibətlər sistemində rolu, Şərq xalqlarının tarixi və filoloji irsi, yazılı abidələrin tədqiqi, tərcüməsi və nəşri, Şərq ölkələrində ictimai fikir və din, Yaxın və Orta Şərq ölkələrinin ictimai-siyasi həyatında İslam amili və sair.

İnstitutumuzda aparılan tədqiqat işlərinin bir çoxu Azərbaycan Respublikasının Yaxın və Orta Şərq siyasətində aktuallıq kəsb edən məsələlərin araşdırılmasına həsr edilib. Bunlar Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələri; müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətləri, Şərq-Qərb sivilizasiyalararası münasibətləri, Azərbaycanın Şərq-Qərb münasibətlərində yeri və rolu, Şərq-Qərb dialoqunun geopolitik və kulturoloji aspektləri və sairdir. Göründüyü kimi, elmi tədqiqat işlərinin istiqaməti klassik şərqşünaslıqla (qədim mənbələrin tədqiqi) bahəm müasir şərqşünaslığın da inkişafını təmin edir, Şərq ölkələrinin yeni ictimai-siyasi, iqtisadi münasibətlər sisteminə keçmiş Azərbaycan üçün faydalı ola biləcək təcrübəsinin, həmin təcrübənin müsbət və mənfi tərəflərinin aydınlaşdırılmasını, Türkiyə, İran, Ərəb və digər Şərq ölkələri ilə iqtisadi, mədəni əməkdaşlığın prioritet sahələrinin müəyyənləşdirilməsini əhatə edir. İnstitut əməkdaşlarının monoqrafiyaları, kitabları, elmi məqalələri və müxtəlif elmi məclislərdə oxuduqları məruzələr bu sahədə xüsusi önəm daşıyır və ölkələrimiz arasındakı münasibətlərin inkişafı üçün stimul ola biləcək faktlardandır.

- ***Tədqiqatlar hansı yollarla aparılır?***

- Elmi istiqamətlər çərçivəsində işlər əsasən iki yolla aparılır. Bunlardan birincisi, şərqşünaslıq elminin əsasını təşkil edən Şərq tarixinin, mədəniyyətinin, bədii təfəkkür tərzinin, ictimai və fəlsəfi fikirlərinin ən vacib və aktual aspektlərini öyrənən fundamental tədqiqatların aparılmasıdır. İkincisi isə, elmi dəyəri ilə yanaşı, geniş oxucu kütləsini maraqlandıran elmi-populyar əsərlərin, eləcə

də cari dövr üçün siyasi və ictimai əhəmiyyəti olan və elmi proqnozlar verən təhlili – informatik məlumatların yazılmasıdır. Ümumiyyətlə, institutun ayrı-ayrı şöbələrində aparılan tədqiqat işlərinin hər biri müasir dünyada gedən qlobal proseslərin mahiyyətinin anlaşmasında, problemlərin köklərinin üzə çıxmasında və dövlətimizin strateji maraqlarına xidmət edən xarici siyasət kursunun müəyyənləşməsində xüsusi önəm daşıyır. Bu mənada ötən il başa çatmış «İslam dünyasının mədəni-tarixi hüdudlarının formalaşması» adlı tədqiqat işini ayrıca qeyd edə bilərik. Tədqiqat işində əslində müasir dünyanın aktual problemi olan sivilizasiyalararası konfliktlərin kökü, meyarları müəyyən edilmiş və konkret olaraq ərəb-müsəlman və Mərkəzi Asiya türk mədəniyyətlərinin toqquşması müstəvisində onların şərhi verilmişdir. Problemin bu gün Şərq-Qərb, daha doğrusu, bir çox terrorist təşkilatlar tərəfindən islam-xristian miqyasına gətirilməsinə cəhd edildiyini nəzərə alsaq, o zaman araşdırmanın elmi aktuallığını lazımınca dəyərləndirə bilərik.

- Bizə daha yaxın olan Cənubi Azərbaycandakı soydaşlarımızın, Kərkük türklərinin problemlərinə, həmçinin qardaş Türkiyəyə dair aparılan tədqiqatlarda hansı məsələlər araşdırılıb?

- Azərbaycan Respublikasının müstəqillik qazanmasından sonra Cənubi Azərbaycan probleminə, İraqda Kərkük məsələsinə xüsusi diqqət ayrılmasını institutun müsbət addımları sırasına aid etmək olar. Bu sıraya «Güney Azərbaycan. Tarixi oçerklər» kitabının üçcildliyinin çapa hazırlanması da daxildir. Kitabda Güney Azərbaycanın siyasi, sosial-iqtisadi, mədəni inkişafının mühüm problemləri tədqiq olunur.

İran tarixçisi Səməd Sərdarniyanın «Arazın hər iki sahilində müsəlmanların soyqırımı» kitabının institutun əməkdaşları tərəfindən tərcümə edilərək çap olunması isə Azərbaycan diplomatiyasını ermənilərin iyrənc təbliğatına qarşı mübarizədə ciddi faktlarla təchiz edir. Kitabda erməni quldur dəstələrinin Türkiyə, İran və Azərbaycan ərazilərində törətdikləri çoxsaylı cinayətlərdən, müsəlman kənd və şəhərlərini xarabazara çevirmələrindən, yüz minlərlə günahsız insanın qanının tökülməsindən sənədlər və mənbələr əsasında söhbət açılır.

Hazırda bütün dünyanın diqqət mərkəzində olan yaxın qonşumuz İranın tarixinin, mədəniyyətinin, iqtisadiyyatının, ictimai-siyasi vəziyyətinin araşdırılmasına yönəlmiş mövzuların əksəriyyətində bu ölkənin Azərbaycanla əlaqələri, regional münasibətlər və Güney Azərbaycanda yaşayan soydaşlarımızın fəaliyyəti, milli haqlar uğrunda mübarizəsi ön plana çəkilir. «Cənubi Azərbaycanın müasir tarixi», «XX əsrin ortalarında Cənubi Azərbaycanda siyasi və mədəni mühit», «XX əsrdə SSRİ-də iranlı diasporu» və digər mövzular üzərində hazırda aparılan işlər dediklərimizə nümunədir. Bu fikirləri Türkiyə

ilə bağlı tədqiqat işlərinə də aid etmək olar. Araşdırmalarda qardaş ölkənin tarixi, ictimai-siyasi vəziyyəti, iqtisadiyyatı, mədəniyyəti təhlil edilməklə bərabər gənc respublikamız üçün səmərəli ola bilən bazar islahatları sahəsindəki təcrübələrinə xüsusi diqqət yetirilib. İlin sonunadək institut tərəfindən «Türkiyə iqtisadiyyatının dövlət sektorunda bazar islahatları» kitabının çapa hazırlanması planlaşdırılıb. Bununla bərabər, «Türk tarixşünaslığı» və «Türk tarixşünaslığı Azərbaycan haqqında» mövzuları daxilində «XVIII yüzilin I yarısında Borçalı ərazisində etnodemoqrafik vəziyyət (Osmanlı və gürcü mənbələrinin müqayisəli təhlili əsasında)», «Ö.Çələbinin «Səyahətnamə» əsərinin tərcüməsi və tədqiqi», «Ə.Zəki Vəlid Toğan və Türkiyə tarixşünaslığı» mövzularında tədqiqat işlərinin yaxın zamanlarda başa çatdırılması nəzərdə tutulub. Göründüyü kimi, adı çəkilən araşdırmaların hər birinin əsasında ölkələrimiz arasındakı münasibətlərin dərin tarixi köklərə, böyük mədəni-iqtisadi ənənələrə malik olduğunu elmi faktlarla sübut etmək dayanır ki, bu da müasir dövrdə xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına, ünsiyyətin dərinləşməsinə şərait yaradır.

«Müasir Türkiyə ictimai fikrində islam» adlı tədqiqat işində isə qardaş ölkənin bu gün yaşadığı problemlərin tarixi, siyasi və ideoloji səbəbləri dərindən araşdırılmaqla bərabər, həm də radikal meyllərin meydana çıxmasını şərtləndirən faktorlar geniş şəkildə təhlil olunur ki, bu da demokratik inkişaf yolu tutmuş bütün cəmiyyətlərə xəbərdarlıqdır və onların əsas prinsiplərdə güzəştə getməməsinin vacibliyinin tutarlı elmi dəlillərlə sübutudur.

Türk xalqının möhtəşəm eposu «Saltuknamə» təhlil edilmiş və Azərbaycan türkcəsinə çevrilərək, çapa təqdim olunmuşdur.

- Məlum olduğu kimi, bu gün dünyanın ən aktual problemlərindən biri sivilizasiyalararası münasibətlərin kəskinləşməsidir. Rəhbərlik etdiyiniz institut bununla bağlı nə kimi araşdırmalar aparır?

- Bu gün dünyanın əksər elmi mərkəzləri sivilizasiyalararası münasibətlərdə dərin çatlar yarandığını, dini dözümsüzlüyün kritik həddə yaxınlaşdığını etiraf edir və diqqəti əsasən ərəb ölkələrində gedən ictimai-siyasi proseslərə yönəldir. Təbii ki, belə bir məqamda Azərbaycan alimləri də regionda baş verən hadisələri dərindən araşdıraraq təhlil etməli və əlaqələri strateji maraqlar çərçivəsində qurmalıdır. Şərqşünaslıq İnstitutunda aparılan tədqiqat işlərində də məhz bu amil önə çəkilmişdir. «Müsəlman Şərqi beynəlxalq münasibətlər sistemində», «Yaxın və Orta Şərq ölkələrində islamın durumu», «Qloballaşma və Şərq-Qərb münasibətləri», «Vatikanın beynəlxalq siyasəti və Avropada islam», «Müasir Azərbaycan şüurunda Şərq-Qərb paradiqmasının qavranması» və digər mövzularda aparılan elmi araşdırmalarda qeyd edilən prob-

lemin hərtərəfli öyrənilməsi qarşıya məqsəd kimi qoyulmuşdur. Əməkdaşlarımız müasir Qərb sivilizasiyasına tarixi təkamül prosesində çoxəsrlik Şərq mədəniyyətinin təsiri, Qərbin sürətli iqtisadi-texniki və mədəni tərəqqi təcrübəsinin Şərq ölkələrində məqsədyönlü şəkildə tətbiqi imkanlarını, qloballaşma şəraitində Şərq-Qərb münasibətlərinin ziddiyyətli məqamlarını, onların mahiyyətini və aradan qaldırılma yollarını araşdırır, qloballaşma prosesinin labüd olaraq hər bir ölkənin ictimai-siyasi və mədəni həyatına təsir göstərdiyini nəzərə alaraq Azərbaycanın Şərq-Qərb münasibətlərində yerini və rolunu müəyyənləşdirirlər. Alimlərimiz Şərqlə Qərbin qovuşduğu bir məkanda yerləşən ölkəmiz üçün müstəqillik şəraitində Qərb mədəniyyətlərinə yiyələnməklə milli mədəniyyətin fundamental dəyərlərini və mütərəqqi cəhətlərini qoruyub saxlamaq yollarını arayırlar.

- Ana dilimizin inkişaf mərhələlərinə dair araşdırmalar barədə nə deyə bilərsiniz?

- Azərbaycan dilinin inkişaf mərhələləri orta əsrlərə aid ikidilli ərəb-türk və fars-türk lüğətləri timsalında araşdırılır. Bu günə qədər Xubeyş Tiflisinin, İbn Firiştənin, Əbu Həyyan Əndəlusinin və bir çox digər filoloqların lüğətləri təhlil edilərək nəşr olunub. İctimai həyatın müxtəlif sahələrinə aid xüsusi lüğətlərin tərtibi davam etdirilir. Bu günlərdə «Tibb terminləri lüğəti» işıq üzü görməlidir. «Ərəbdilli mənbələr Azərbaycan tarixi və coğrafiyası haqqında», «Orta əsrlərdə Şərq dillərinin qarşılıqlı əlaqələri və Azərbaycan ədəbi dili», «Klassik fars şeirinin Azərbaycan dilinə tərcümə məsələləri», «Türk ədəbiyyatının tədqiqi», «Orta əsrlər türk xalqları ədəbiyyatının tədqiqi», «Türk ədəbiyyatının inkişafı», «Ərəb-Azərbaycan dil əlaqələrinin tədqiqi» və digər mövzularda tədqiqat işləri davam etməkdədir.

Bütün bunlarla bərabər, institutda Yaxın və Orta Şərq ölkələrinin ədəbi, mədəni irsinin, dil məsələlərinin, Şərq ölkələrinin Azərbaycanla əlaqələrinin daha geniş araşdırılması əməkdaşların qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. Əsası akademik Ziya Bünyadov tərəfindən qoyulmuş Azərbaycana aid məşhur Osmanlı dəftərlərinin təhlili, müasir əlifbaya transliterasiya və nəşri davam etdirilir. İrəvan əyalətinin, Naxçıvan sancağının, Gəncə-Qarabağ və Tiflis əyalətlərinin, Lori vilayətinin icmal dəftərlərindən sonra Ərdəbil livasının müfəssəl dəftəri işıq üzü görmüşdür.

- Perspektivdə Şərqşünaslıq İnstitutu Şərqin öyrənilməsi sahəsində elmi ictimaiyyətə nə kimi töhfələr verəcək?

- Ənənəvi olaraq institutumuzda uzun illər Ərəb Şərqi, İran və Türkiyə öyrənilmişdir. Bu gün institutda aparılan tədqiqatların coğrafi hüdudları genişləndirilir. Kollektivimiz gözəl dərk edir ki, Yaxın və Orta Şərq ölkələri ilə ya-

naşı, bu gün biz Mərkəzi Asiya, Uzaq Şərq, Cənub-Şərq, Çin və digər Şərq ölkələrini də öyrənməliyik. Artıq bu istiqamətdə müəyyən işlər də görülmüşdür. Belə ki, «Çin Xalq Respublikası» adlı məlumat kitabı hazırlanaraq nəşr edilmiş, «Şərq ölkələri» adlı 50 çap vərəqi həcmində ensiklopediya çapa təqdim edilmişdir. Kitabda bütün Şərq ölkələrinin tarixi, coğrafiyası, əhalisi, iqtisadiyyatı, etnik və dini tərkibi, təbii sərvətləri, mədəniyyəti və müxtəlif sahələrdəki inkişaf göstəriciləri haqqında müfəssəl məlumat verilir. Hazırda institutda «İslam Ensiklopediyası» üzərində iş gedir.

Bir sözlə, Milli Elmlər Akademiyasının akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu bu gün müstəqil Azərbaycanın milli və dövlət maraqlarına xidmət edən zəruri bir elmi-tədqiqat mərkəzi olmaqla yeni dövrün tələblərilə ayaqlaşan inkişaf mərhələsinə qədəm qoyub. İnstitutda aparılmış tədqiqat işlərinin hər biri respublikamız üçün konkret əhəmiyyəti olan aktual məsələləri əhatə edir. Təbii ki, bir müsahibədə onlar barədə geniş danışmaq, qoyulan problemlərin əhəmiyyətini sadalamaq qeyri mümkündür. Təkcə cari ilin birinci yarısında institut əməkdaşlarının bu və digər mövzularla bağlı 9 kitabı çap olunmuş, «Elmi araşdırmalar» toplusunun 4 nömrəsi oxucuların istifadəsinə verilmiş 100-ə yaxın məqalə dərc olunub ki, onların da xeyli hissəsi xarici ölkələrin ayrı-ayrı məcmuələrində işıq üzü görüb.

Müsahibəni apardı: Rəşad Cəfərli,
«Azərbaycan» qəzeti, 31 avqust 2007-ci il.

GÖVHƏR BAXŞƏLİYEVA: «YEKCİNS DÜNYA MƏDƏNİYYƏTİNDƏN DANIŞMAĞA DƏYMƏZ»

«Makdonalds» şirkəti Azərbaycanda öz nüfuz dairəsini nə qədər genişləndirsə də, ənənəvi «çayxana mədəniyyəti»ni silib aradan çıxarmağa qadir deyil

Məlum olduğu kimi, ötən həftə hakim Yeni Azərbaycan Partiyasının (YAP) təşəbbüsü ilə «Sivilizasiyaların dialoqu: siyasi partiyaların rolu» mövzusunda beynəlxalq konfrans keçirilib. Bu konfransda məruzə edən azərbaycanlı millət vəkillərindən biri də Gövhər Baxşəliyeva olub. Əməkdaşımızla söhbətində də millət vəkili konfransla, eləcə də sivilizasiyalararası dialoqun gerçəkləşdirilməsi yönümündə meydana çıxan problemlərlə bağlı bir sıra sualları cavablandırıb.

- Sürətlə inkişaf edən, qloballaşan dünyamızda hər şey durmadan dəyişir, xalqlar və ölkələr yaxınlaşır, insanlar və talelər birləşir. Bütün bunlar bir daha «Şərq Şərqdir, Qərb isə Qərb, onlar heç vaxt uyğunlaşmayacaqlar», - deyənlərin yanıldığını göstərir. Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı əlaqə və təsirinin minilliklərlə tarixi var. Müasir dövrdə isə prosesləri hər şeydən əvvəl beynəlxalq əlaqələrin güclənməsi, ölkələr arasında kommunikasiyanın genişlənməsi, ayrı-ayrı xalqların mədəniyyətlərində ümumi elementlərin artması ilə səciyyələnir. Eyni zamanda, bu proseslərin gedişində daha çox Amerika və bir qədər zəif də olsa, Qərbi Avropa elementlərinin üstünlük təşkil etdiyi transmilli mədəniyyətin mədəni-siyasi hegemonluğunun özünü getdikcə daha bariz şəkildə göstərdiyini sezməmək mümkün deyil. Bu hal bəzi tədqiqatçıları mədəniyyətlərin inteqrasiyası, vahid dünya mədəniyyətinin təşəkkülü, millətlərin və xalqların qovuşaraq «super-retnos» yaradacağı barədə konsepsiyalar irəli sürməyə ruhlandırırsa, digər mütəxəssisləri, əksinə, sivilizasiyaların toqquşmasından, Şərq və Qərb mədəniyyətləri arasında dialoqun qeyri-mümkünlüyündən danışmağa sövq edir. Hətta bəziləri belə hesab edirlər ki, hər bir sivilizasiyanın əsasında din durur, dini etiqad və inanclar xalqların şüurunda dərin kök salıb və buna görə də sivilizasiyaların dialoqu mümkün deyil. Zənnimizcə, hər iki konsepsiyada ifratçılığa meyl güclüdür və onlardan heç biri ilə tam razılaşmaq olmaz.

Əvvəla, hər bir mədəniyyət başqa mədəniyyətdən öz genotipinə və inkişaf məntiqinə görə fərqlənir. Bu o deməkdir ki, yekcins dünya mədəniyyətindən danışmağa dəyməz. İkincisi, böyük sivilizasiyalar özlərində birləşdirdikləri millətlərin və xalqların etnik xüsusiyyətlərini tamamilə silib aradan qaldıra bilmir: etnik xüsusiyyətləri və etnik kimliyi qoruyub saxlamaq əzmi hər bir xalqın şüurunda möhkəm yer tutub. Məsələn, bir vaxtlar Afrika qəbilələrinin islamlaşması

heç də onların etnik xüsusiyyətlərinin büsbütün aradan qalxmasına, zənci-Afrika mədəniyyətinin simasızlaşmasına gətirib çıxarmamışdı. Təşəkkül tapan yeni mədəniyyətdə ərəb-islam mədəniyyətinin elementləri nə qədər yer almışdısa, ənənəvi Afrika mədəniyyətinin ünsürləri də o qədər təmsil olunmuşdu. Bu nisbət bizim günlərdə də qorunub saxlanır. Yaxud bu gün Azərbaycanda «Makdonalds» şirkəti öz yeni filialını yaradaraq nüfuz dairəsini genişləndirsə də, ənənəvi «çayxana mədəniyyəti»ni silib aradan çıxarmağa qadir deyil.

Üçüncüsü, bu gün dünyanın müxtəlif yerlərində baş verən və çox vaxt ekstremist islam qruplaşmaları tərəfindən törədilən terror hadisələrini islam-xristian qarşıdurması kimi qələmə vermək cəhdləri yanlış cəhdlərdir. Bu hadisələrin arxasında hər şeydən əvvəl geopolitik düzənin yenidən qurulmasından doğan ziddiyyətlər və konkret iqtisadi-siyasi maraqlar durur. Əks təqdirdə, biz yaxın keçmişdə baş vermiş İran-İraq müharibəsini, yaxud NATO-nun xristian Yuqoslaviya əleyhinə apardığı əməliyyatları izah etməkdə çətinlik çəkərik.

- Gövhər xanım, qloballaşma dövründə ənənəvi mədəniyyətlərin, o cümlədən islam mədəniyyətinin xarici mədəni təsirlərə müqaviməti güclənsə də, bu, sivilizasiyalar və dinlər arasında dialoqu istisna etmir. Siz necə düşünürsünüz?

- Bəli, qloballaşan dünyada dinc yanaşı yaşamanın təmin edilməsinə yönəlmiş fəaliyyətin mühüm tərkib hissəsi və şərtlərindən biri də din və ümumbəşəri dəyərlər sahəsində mədəniyyətlərarası dialoqun mövcudluğudur. Belə ki, dialoq dinlərarası münasibətlərin düzgün məcrada cərəyan etməsinə zəmin yarada bilər. Dini konsepsiyaların böyük bir hissəsi insan haqqında ülvi təsəvvürləri, insan ləyaqətini qoruyan, insanı uca tutan dəyərləri ehtiva edir. Bu konsepsiyaların öyrənilməsi və kəsişmə nöqtələrinin açıqlanması ümumi mədəniyyətlərarası dəyərlərin aşkar edilməsində mühüm rol oynaya bilər. Odur ki, dünyada inteqrasiya proseslərinin gücləndiyi bir şəraitdə sivilizasiyaların dialoqu həmişəkindən daha zəruridir. Lakin bu dialoqun hüdudları olmalıdır. Bu hüdudlar isə dialoqun mənəvi-əxlaqi nöqteyi-nəzərdən məqbulluq dərəcəsi ilə şərtlənir. Bu baxımdan dinin norma və idealları sivilizasiyalar arasında həqiqi dialoqun gerçəkləşməsi üçün daha əlverişli sayılmalıdır.

Bütün dinlərdə dözümlülüyə çağırış var. Bu çağırış dinlərarası dialoq işində ən yararlı vasitə kimi geniş təbliğ edilməlidir. Tolerantlığın əsas prinsipi isə o olmalıdır ki, hər bir cəmiyyətin və fərdin bu və ya digər əqidəni, bu və ya digər həyat tərzini seçmək haqqı var. Bu haqqa qarşı zor işlədilməsi yolverilməzdir.

- Sizin fikrinizcə, dünyada dialoqun monoloqa çevrilməməsi üçün nələr etmək tələb olunur?

- Bunun üçün dialoq qarşı tərəfi öz mövqeyindən döndərmək məqsədi güd-

məməli, tərəflər arasında fərqli və ixtilaflı məsələlərin deyil, müştərək məsələlərin ön plana çəkilməsinə üstünlük verməli, zora və təzyiqə söykənməməlidir.

Taleyin hökmü ilə Azərbaycan Respublikası coğrafi məkan baxımından Şərq və Qərbin qovşağında yerləşir, xalqımız isə zaman-zaman dünya mədəniyyətinə öz dəyərli töhfələrini verməklə yanaşı hər iki sivilizasiyanın təsiri altında olub. «Qoca Şərqin qapısı» adlanan Azərbaycan min ildən çox bir müddətdə müsəlman mənəvi-mədəni arealına daxil olduqdan sonra çar Rusiyasının tərkibində yeni dəyərlər sistemi ilə tanış oldu və rus dili vasitəsi ilə mütərəqqi Avropa elmini və ictimai-siyasi fikrini mənimsədi, maarifçilik ideyalarını qavradı.

Totalitar sovet rejiminin dağılmasından bilavasitə sonrakı dövr bir vaxtlar sovet xalqları adlanan müsəlman Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının da tarixində ağır böhranlı dövr oldu. Azərbaycan üçün bu dövrün səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, ölkənin təkcə siyasi və sosial-iqtisadi müstəqilliyi deyil, həm də və daha çox mədəni-mənəvi müstəqilliyi gözlənilmədən başlanmışdı. SSRİ-nin dağılması ilə Azərbaycan istər-istəməz özü üçün tamamilə yeni bir tarixi reallığa daxil olmuşdu – ölkə xarici aləmə müvafiq hazırlıq işi aparmadan açılmışdı.

Bir yandan, sovet dövründə xeyli sarsılmış, varislik əlaqələrini itirmiş ənənəvi mədəniyyətlə, xüsusilə islam mədəniyyəti ilə bağlı dəyərlər tələsik və xaotik şəkildə dirçəldilməyə başladı. Müsəlman Şərqi Azərbaycanı öz sıralarına qəbul etdi – ölkə İslam Konfransı Təşkilatının üzvü oldu. 1992-ci ildə qəbul edilmiş «Dini etiqad azadlığı haqqında» Qanun müxtəlif müsəlman və qeyri-müsəlman məzhəb və təriqətlərinin Azərbaycanda sürətlə yayılmasına imkan yaratdı. Bu sahədə ortaya çıxan problemlər hələ də tamamilə aradan qaldırılmayıb.

Azərbaycan cəmiyyəti müstəqillik qazandıqdan sonra özündən asılı olmayaraq fərqli mədəniyyətlərin qovşağına düşmüş və bu mədəniyyətlərə eyni dərəcədə açılıb. Belə də, ziddiyyətlərin yaranması qaçılmaz idi. Bu xüsusən özünü ilk öncə mənəvi dəyərlər sahəsində büruzə verir. Bu zaman bütövlükdə cəmiyyətdən və onun ayrı-ayrı fərdlərindən yüksək dərəcədə sayıqlıq, ətraf aləmə münasibətdə rasional seçimi müəyyənləşdirmək bacarığı, uyğunlaşma, nədənsə imtina etmə, nəyisə qəbul etmə, ağıllı seçki qabiliyyəti tələb olunur. Cəmiyyət bütün bunları yalnız bir şərtlə uğurla yerinə yetirə bilər ki, öz «Mən»ini itirməsin.

Müasir insanın modernləşmə tələblərinə tam cavab verə bilməyən ənənəvi dəyərlərlə bu günün reallıqları arasında yaranmış ziddiyyət məngənəsində sıxılması bir çox müsəlman Şərqi ölkələri kimi Azərbaycanın da hazırkı mədəni dinamikasının səciyyəvi cəhətlərindən biridir.

Zənnimizcə, dəyərlər münaqişəsinin Azərbaycan üçün ən məqbul həll yolu

mövcud dəyərlər sistemlərinin - ənənəvi və modern dəyərlər sistemlərinin hansı birindənsə imtina etmək deyil, bu sistemlərin sintezi - mədəni sintez yolu ola bilər. Mədəni sintezi həyata keçirmədən ölkənin gələcək inkişafı və yeniləşməsi yollarını təsəvvürə gətirmək çətindir. Bu cür sintez təkcə Azərbaycan üçün deyil, bütün müsəlman dünyası üçün aktualdır və əldə ediləcəyi təqdirdə geniş bir məkanda model rolunu oynaya bilər, çünki Azərbaycan modernləşmə yolundakı nailiyyətləri ilə Şərqin əksər ölkələrini arxada qoyub. Yalnız bu prinsiplərə əməl edildiyi təqdirdə biz üçüncü minillikdə zəmanəmizin əsas çağırışı – sivilizasiyaların dialoqunun davam etdiriləcəyinə ümid bəsləyə bilərik. Onu da qeyd edək ki, məhz Azərbaycan dini tolerantlığın hökm sürdüyü unikal bir məkandır. Xalqımızın dinc, yanaşı yaşamaq ənənəsi tarixin dərinliklərindən gəlir. Təsadüfi deyil ki, Şərqdə ilk demokratik respublika və ilk demokratik təsisatlar hələ arxada qoyduğumuz əsrin əvvəllərində məhz Azərbaycanda yaranmışdı. Azərbaycanda mədəni irsin gücü və daxili dinamizmi, qərbləşmə yolundakı əvvəlki uğurları onun modernləşməyə uyğunlaşmaq qabiliyyətini artırır. Hazırda Avropa mədəniyyətinin praqmatik nailiyyətləri Azərbaycan cəmiyyətinin canına başqa müsəlman cəmiyyətlərinə nisbətən qat-qat çox hopub. Bu amillər modernləşmənin tələblərinə cavab verən dəyərlərin və həyat oriyentasiyalarının Azərbaycan cəmiyyətində yayılmasına və möhkəmlənməsinə geniş şərait yaradır.

Bu gün Azərbaycanda həyata keçirilən modernləşmə milli mədəniyyətin, ənənələrin, tarixi təcrübənin möhkəm təməli üzərində qurulmalıdır. Milli-mədəni dəyərləri, milli kimliyi dərindən mənimsəmədən Avropa mədəniyyəti dəyərlərini tam həcmdə qəbul etmək və özününküləşdirmək mümkün deyil.

Kütləvi informasiya vasitələrinin və təhsil sisteminin köməyi ilə demokratik dəyərlər ictimai şüura təlqin edilməli, modernləşməyə mane olan ideya və əxlaq stereotipləri tədricən sıxışdırılıb şüurlardan çıxarılmalıdır. Modernləşmə dövlət, cəmiyyət və şəxsiyyət arasındakı qarşılıqlı münasibətlərin yeni səviyyəyə qaldırılmasını tələb edir. Demokratik siyasi təsisatların möhkəmləndirilməsi, Milli Məclisin fəaliyyətinin çağdaşlaşmaya uyğun şəkildə istiqamətləndirilməsi, fikir müxtəlifliyinin və sağlam diskussiyaların genişlənməsi, demokratik seçkilərin keçirilməsi üçün münasib şəraitin yaradılması, hakimiyyətin məqsədyönlü və səmərəli bölüşdürülməsi, xalqın durmadan maarifləndirilməsi modernləşmə yolunda mühüm addımlardan sayılmalıdır. Və məhz bu istiqamətdə siyasi partiyaların görəcəyi işlər çoxdur.

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
«525-ci qəzet», 3 oktyabr 2007-ci il.

HAMIMIZ BİR GƏMİNİN SƏRNİŞİNLƏRİYİK

Bu gün dünyada gedən qloballaşma prosesi dərinləşdikcə mövqe və münasibətlərdəki fərqlər də artır. Bu prosesin xalqları və ölkələri bir-birinə yaxınlaşdırdığını, dünyanın bütün qütblərinə yeni müsbət dəyərlər sistemi gətirdiyini etiraf edənlərlə yanaşı, onun milli-mənəvi və əxlaqi keyfiyyətləri sıradan aparacağını iddia edərək müqavimət göstərənlərin də sırası kifayət qədər genişdir. Hətta bir çox tədqiqatçılar sivilizasiyaların dialoqunun məhz insanların minillərdən bəri formalaşmış dini etiqad və inanclarından keçdiyi üçün baş tutmayacağını əsaslandırmağa çalışırlar. Digər tərəf isə qloballaşmanın son nəticədə vahid bir xalq yaradacağı haqqında proqnozlar səsləndirir. Beləliklə, diskussiyada hər iki tərəf öz arqumentləri ilə çıxış edir. Biz məsələyə aydınlıq gətirmək üçün Milli Məclisin deputatı, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, professor **Gövhər Baxşəliyevaya** müraciət etdik.

- Gövhər xanım, bu gün sivilizasiyalar arasında dialoqa cəhd həmişəkindən daha geniş miqyas alıb: sərhədlər aradan götürülür, xalqlar və ölkələr sürətlə bir-birinə qovuşur, insan haqları, demokratik dəyərlər vahid müstəvi üzərinə gətirilir. Bununla bərabər, sivilizasiyaları qarşı-qarşıya qoyub, minilliklərin xalqları ayırdığını, Şərqin Qərblə heç vaxt uyğunlaşmayacağını iddia edənlər də var. Bəzən hətta bu iddialar sivilizasiyalararası qarşıdurmalar səviyyəsinə yüksəldilir. Siz bir şərqşünas alim kimi necə düşünürsünüz: minilliklər Şərqi Qərbdən ayırmağa, yoxsa qovuşdurmağa əsas verir?

- Bu bir faktdır ki, qloballaşma və inteqrasiya prosesi getdikcə daha böyük vüsət alır, dediyiniz kimi, xalqlar və ölkələr sürətlə bir-birinə yaxınlaşır, hətta lokal və regional problemlər belə əksər halda beynəlxalq ictimaiyyətin müzakirəsinə çıxır. Böyük tarixi hadisələr və tarixi şəxsiyyətlərin yubileyləri milli mənsubiyyət prizmasından deyil, ümumbəşəri hadisə kimi qeyd olunur. Məsələn, bu günlərdə 800 illik yubileyi YUNESKO səviyyəsində bayram edilən görkəmli mütəfəkkir və şair Mövlana Cəlaləddin Rumiyə təkcə Şərqin mənəvi xəzinəsi kimi deyil, ümumbəşəri dəyər kimi baxılır. Dünyanın əksər ölkələri ilə yanaşı, Azərbaycanda da bu dahi şəxsiyyətin yubileyi ilə bağlı geniş tədbirlər silsiləsi həyata keçirilir. Bizim institutun hazırladığı tədbirdə dünyanın bir çox ölkələrindən gəlmiş şərqşünaslar iştirak etdilər.

Demək istəyirəm ki, planetimiz getdikcə sərhədsizləşir. Təcridolunma, Şərqin, yaxud Qərbin özünü əlahiddə dünya kimi təsəvvür etməsi artıq müm-

kün deyil. Bütün bunlar isə Şərqlə Qərbi əbədi əks qütblər kimi təsəvvür edənlərin yanıldığını sübut edir. Əslində elə Şərqlə Qərb minillər boyu qarşılıqlı əlaqə və vəhdətdə yaşayıb. Bunu hətta ayrı-ayrı xalqların qədim dövrlərə aid nağıl və əfsanələrindəki oxşar süjetlər və obrazlar da təsdiqləyir. Hətta sonralar vəhşi tayfaların hücumları nəticəsində dağıdılan qədim dünyanın sivilizasiyası ilə Avropa İntibah mədəniyyəti arasında körpü rolunu və Şərq müsəlman mədəniyyəti oynayıb. Ümumiyyətlə, Şərq-Qərb mədəniyyətlərinin birliyi, vəhdəti hələ XII əsrdə böyük Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəvinin yaradıcılığında öz əksini tapıb. Bundan əlavə, o, təkcə öz yaradıcılığında iki sivilizasiyanı qovuşdurmayıb, həm də intibah dövrü Avropa ədəbiyyatına güclü təsir göstərib. Bunu Qərbin əksər söz və təfəkkür sahibləri etiraf edir.

Bir sözlə, məhz Şərq və Qərb sivilizasiyalarının qovuşması daim bəşəriyyətin tərəqqisinə xidmət edib. Zaman keçdikcə mədəniyyətlər arasında əlaqələr daha da dərinləşib. Orta əsrlərdə hind, Şərqi Asiya, Ön Asiya, Bizans, Qərbi Avropa mədəniyyətlərinin sintezi nəticəsində «Sərhəd mədəniyyəti» adlanan mədəniyyətlər yaranıb. Bunlardan biri də ecazkar ərəb-ispan mədəniyyətidir. Məhz bütün bunlardan çıxış edərək XIX əsrin 20-ci illərində dahi Höte ümumdünya ədəbiyyatı konsepsiyasını irəli sürüb.

- Sivilizasiyalararası dialoqun əsasları barədə ciddi arqumentlər səsləndirirsiniz. Lakin bugünkü qloballaşma və inteqrasiya proseslərinə fərqli prizmadan yanaşanlar da var. Bir çox tədqiqatçıların fikrincə, qloballaşma milli-etnik xüsusiyyətlərin aradan qalxmasına, dini etiqadın zəifləməsinə gətirib çıxara bilər ki, bu da mədəniyyətlərin qovuşması adı altında aparıcı dövlətlərin mədəni-siyasi üstünlüyü ilə nəticələnər... Ümumiyyətlə, bu məsələlər barədə hansı konsepsiyalar mövcuddur?

- Təbii ki, məsələyə yanaşmada fikir müxtəlifliyi də var. Bu da inteqrasiya prosesində Qərb elementlərinin üstünlük təşkil etməsi və dini etiqad məsələləri ilə bağlıdır. Bəzi tədqiqatçılar birinci fakta əsaslanaraq iddia edirlər ki, mədəniyyətlərin qovuşması son nəticədə vahid dünya mədəniyyətinin və vahid etnosun yaranmasına gətirib çıxaracaq. Buna əks mövqe qoyanlar dini faktorun insanların şüurunda dərin kök saldığını önə çəkərək Şərqlə Qərb mədəniyyətləri arasında dialoqun heç vaxt baş tutmayacağını bildirirlər.

Məncə, hər iki mövqe qüsurludur, onların hər birində şişirtmə var. Əvvəla, birinci faktla bağlı deyim ki, hər bir mədəniyyət təmsil etdiyi millətin qan yaddaşına hopub. O, keçdiyi inkişaf yoluna görə başqa mədəniyyətlərdən fərqlənir, onu tam dəyişmək isə absurddur. Bunu tarixi təcrübə də təsdiqləyir. Zaman-zaman heç bir sivilizasiya özündə birləşdirdiyi millətlərin və xalqların etnik xüsusiyyətlərini ta-

mamilə aradan qaldıra bilməyib. Məsələn, bir vaxtlar SSRİ adlı nəhəng imperiya öz ərazisində yaşayan millətlərdən vahid mədəniyyətə malik sovet xalqı yaratmaq istəyirdi. Amma sonda heç bir şeyə nail ola bilmədi. Baxmayaraq ki, bu məqsədlə ardıcıl dövlət proqramları hazırlanıb həyata keçirildi. İmperiya dağılan kimi milli mədəniyyətlərin forma və məzmunu bərpa olundu.

Bir qədər dərinə gedib digər faktlar da ortaya qoymaq olar. Götürək islamın yayılması dövrünü. Afrika qəbilələrinin islamlaşması heç də onların etnik xüsusiyyətlərinin tamamilə aradan qalxmasına gətirib çıxarmadı. Bundan sonra təşəkkül tapan yeni mədəniyyətdə ərəb-islam mədəniyyəti ilə yanaşı, ənənəvi Afrika mədəniyyətinin elementləri yaşadı. Yaxud başqa bir nümunə. «MakDonalds» şirkəti bu gün Azərbaycanda öz yeni filiallarını yaradaraq nüfuz dairəsini nə qədər genişləndirsə də, ənənəvi «çayxana mədəniyyətini» silib aradan çıxara bilməyib.

Qaldı «dini barışmazlıq» iddiasına, bu da həqiqəti düzgün əks etdirmir. Doğrudur, hazırda dünyanın müxtəlif yerlərində baş verən və çox vaxt ekstremist islam qruplaşmaları tərəfindən törədilən terror hadisələrini bir çox «politoloqlar və ideoloqlar» islam-xristian qarşıdurması kimi qələmə verməyə çalışırlar. Amma bunlar yanlış cəhdlərdir. Bu hadisələrin arxasında hər şeydən əvvəl konkret iqtisadi-siyasi maraqların durduğu deyilsə, daha düzgün olar. Bəziləri İraqa qarşı aparılan müharibəni də bu prizmadan şərh etməyə çalışırlar. Elə isə, onda qoy həmin şəxslər NATO-nun xristian Yuqoslaviya əleyhinə apardığı əməliyyatları izah etsinlər.

- Gəlin onu da etiraf edək ki, din çox vaxt xalqların, millətlərin xarici təsirlərə müqavimət gücü kimi qələmə verilir... Daha doğrusu, belə bir pərdə altında, özünüzün də yuxarıda qeyd etdiyiniz kimi, müəyyən maraqlı qruplaşmalar ondan istifadə etməyə çalışırlar. Bütün bunların müqabilində dialoq üçün dinlərdə kəsişmə nöqtələri tapmaq mümkündürmü?

- Əlbəttə mümkündür. Çünki əksər dinlərdə insan haqqında yüksək fikirlər səslənir, insan ləyaqəti uca tutulur. Sadəcə olaraq, onları dərindən öyrənmək və düzgün şərh etmək lazımdır. Bu halda onlar arasında istənilən qədər kəsişmə nöqtələri tapmaq olar.

Məsələn, götürək təkallahlıq dini təsəvvürlərini. Bu dinlərin əksəriyyəti öz başlanğıclarını İbrahim peyğəmbərdən götürür. Məncə, bu faktın özü dinlər arasında körpü sala bilər. Yeri gəlmişkən başqa bir məsələni də qeyd edim. Sivilizasiyalararası dialoq yolunda əsas manea olan etnik separatizmi dinlər aradan qaldıra bilər. Çünki bütün dinlərdə dözümlülüyə çağırış var, insana məhəbbət var.

- Gövhər xanım, çox tez-tez belə fikirlər də səslənir ki, qloballaşma milli

mənəvi-əxlaqi dəyərləri sıxışdırır, onların yerinə yabançı əxlaq, yabançı dəyərlər sistemi gətirir...

- Təbii ki, bu deyilənlərdə də müəyyən həqiqət elementləri var. Buna görə də, fikrimcə, dialoqun hüdudu olmalıdır. Dialoq hansısa xalqın mədəniyyətinin, milli dəyərlərinin sıradan çıxmasına yox, onun daha da zənginləşməsinə şərait yaratmalıdır. Ümumiyyətlə, tolerantlığın əsas prinsipi elə hər bir cəmiyyətin və hər bir fərdin sərbəst surətdə bu və ya digər əqidəni, həyat tərzini seçmək hüququdur. Bu mənada qloballaşma kiminsə üstünlüyü, kiməsə təzyiq kimi başa düşülməməlidir. Dialoq ziddiyyətləri qabartmaq yolu ilə deyil, müştərək məqamların önə çəkilməsi ilə aparılmalıdır. O, zora və təzyiqə söykənə bilməz.

- Bəs bu mənada Azərbaycanın təcrübəsi nə deyir? Axı Şərqlə Qərbin qovuşuğunda yerləşən ölkəmiz zaman-zaman müxtəlif sivilizasiyaların təsiri altında olub... Bəziləri bu təsirlərin xalqımızın milli-mənəvi dəyərlərinə mənfi, bəziləri isə müsbət təsir etdiyini bildirir...

- Azərbaycan coğrafi baxımdan Şərqlə Qərbin qovuşuğundadır. Xalqımız əsrlər boyu hər iki sivilizasiyanın təsirini görüb. Min ildən artıq bir müddətdə müsəlman aləmində olduğumuz halda, sonradan çar Rusiyası torpaqlarımızı işğal edərək bizi yeni mühitdə yaşamağa məcbur edib. Beləliklə, xalqımız işğalın hər cür əzablarını görüb. Bununla bərabər, biz işğal altında olduğumuz zamanlarda yeni dəyərlər sistemi ilə tanış olmuşuq, ziyalılarımız rus dili vasitəsilə mütərəqqi rus və Avropa elmini və ictimai-siyasi fikrini mənimsəyib, maarifçilik ideyalarına yiyələniblər.

Nəticədə, Azərbaycanda hər iki sistemin dəyərlərini özündə birləşdirən gözəl maarifçi ziyalılar nəsli yetişib. Onlar da öz növbələrində xalqı maarifləndirməyə, onu qabaqcıl Avropa mədəniyyətinin nailiyyətləri ilə tanış etməyə çalışıblar. Bu insanların davamçıları isə bir qədər də irəli gedərək Qərbin ədəbi-fəlsəfi fikri, müxtəlif sivilizasiyaların problemləri barədə olduqca ciddi mülahizələr irəli sürüblər.

- Gövhər xanım, iki sivilizasiyanın qovuşuğunda olmağımızın mənfi və müsbət cəhətlərini qeyd etdiniz... Orası da var ki, bizlər müstəqillik dövrünün başlanğıcında da bir çox ağrılar yaşadıq, ölkə sosial-iqtisadi böhranla bərabər, ağır mədəni-mənəvi gərginlik illəri keçirdi...

- Düz deyirsiniz, sovet rejiminin dağılmasından sonrakı dövr Azərbaycan xalqının tarixində ağır, böhranlı bir dövr oldu. Əslində, bu böhranı təkcə biz yox, keçmiş Sovetlər Birliyinə daxil olan bütün respublikalar yaşadı. Azərbaycana gəldikdə isə, ölkənin siyasi və sosial-iqtisadi müstəqilliyi ilə yanaşı, mədəni-mənəvi müstəqilliyi birdən-birə başlandığından, əhalinin yeni proseslərə uyğunlaşması ağrılı getdi. Çünki ölkə müvafiq hazırlıq işi aparmadan

xarici aləmə açılmışdı. Sovetlər İttifaqının yürütdüyü siyasət nəticəsində mədəniyyətlərarası əlaqələr qırılmışdı, totalitar sovet rejimi dini əqidəni məhv etmək istiqamətində uzun illər ardıcıl iş aparmışdı. Təbii ki, bütün bunlardan sonra milli mədəniyyətlərin və islam dəyərlərinin bərpası asanlıqla başa gələ bilməzdi.

Digər tərəfdən, bu işə tələsik və qarmaqarışıq şəkildə başlanmışdı. Doğrudur, müsəlman Şərqi elə o zaman Azərbaycanı öz sıralarına – İslam Konfransı Təşkilatına üzv qəbul etsə də, 1992-ci ildə «Dini etiqad azadlığı haqqında» qanun qəbul olunsa da, bu sahədə ortaya çıxan problemlərin bir çoxu bu günədək tam həllini tapmayıb.

Bundan əlavə, xalqın Avropa mədəniyyətinə və tərəqqiyə qovuşmaq arzusunun da tam reallaşması asan iş deyil. Bu gün demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı, insan haqları, aşkarlıq və s. ilə bağlı dəyərlər getdikcə cəmiyyətimiz üçün daha çox yaşam normasına çevrilir. Amma bayaq dediyim kimi, bu meyarların ümummilli dəyərlər sırasında öz yerini tam tutması üçün müəyyən zaman kəsiyi lazımdır.

- Ümumiyyətlə, göstərdiyiniz problemlərin həllini necə təsəvvür edirsiniz?

- Bilirsiniz, Azərbaycan cəmiyyəti müstəqillik qazanandan sonra özündən asılı olmayaraq fərqli mədəniyyətlərin arasına düşüb və onların hər birinin qarşılıqlı təsirini üzərində hiss edir. Əlbəttə, bu halda ziddiyyətlərin olması da təbiidir. Sadəcə, cəmiyyətimizdən və onun hər bir üzvündən sayıqlıq, düzgün seçim etmək bacarığı tələb olunur. Sivilizasiyaların dialoqu o zaman uğurlu olar ki, cəmiyyət öz «mən»ini itirməsin. Bu mənada Azərbaycan bu gün hansısa ənənəvi, yaxud modern dəyərlər sistemindən imtina yolu ilə deyil, onların ən müsbət cəhətlərini özündə birləşdirmək yolu ilə getməlidir. Bu cür sintez təkcə Azərbaycan üçün deyil, bütün müsəlman dünyası üçün vacibdir. Əgər ölkəmiz bu yolu uğurla başa vursa, onda bütövlükdə region üçün nümunə rolu oynaya bilər.

- Bunun üçün ilk növbədə hansı işlər görülməlidir?

- Demokratik dəyərlər mətbuat və təhsil sistemi vasitəsilə ictimai şüura yeridilməlidir. İnkişafa mane olan əxlaq stereotipləri sıxışdırılıb şüurlardan çıxarılmalıdır. Dövlət, cəmiyyət və şəxsiyyət arasındakı qarşılıqlı münasibətlər yeni səviyyəyə qaldırılmalıdır. İctimai təşkilatların dövlət idarəçiliyinə cəlb edilməsinə şərait yaradılmalı, Milli Məclisin fəaliyyəti vətəndaş cəmiyyətinin tələblərinə uyğunlaşdırılmalıdır. Fikir müxtəlifliyinə və sağlam diskussiyalara geniş meydan verilməlidir.

Etiraf edim ki, artıq bu istiqamətdə xeyli ciddi addımlar da atılıb. Ümumiyyətlə, Azərbaycan çağdaş nailiyyətləri mənimsəmək baxımından həmişə

Şərqdə birinci olub. Şərqdə ilk demokratik respublika və ilk demokratik təsisatlar ötən əsrin əvvəllərində məhz bizdə yaranıb. Xalqımız daim dinc yanaşı yaşamaq ənənəsinə sadiq olub. Əhali kütləvi şəkildə dünyəvi təhsil alır. Avropa mədəniyyətinin nailiyyətləri Azərbaycanda başqa müsəlman cəmiyyətlərinə nisbətən qat-qat çox yayılıb. Məhz bu təcrübə və amil modernləşmənin Azərbaycanda möhkəmlənməsinə əlverişli şərait yaradır.

Bu gün Azərbaycanda həyata keçirilən islahatlar milli mədəniyyətimizin möhkəm təməli üzərində qurulur. Çünki milli mədəni dəyərləri, milli kimliyimizi mənimsəmədən Avropa dəyərlərini qəbul edə və özümüzünküləşdirə bilmərik.

- Bəs bu məsələdə gənclərin rolunu necə görürsünüz?

- Bu gün azərbaycanlı gənclərin böyük hissəsi müsəlman dünyası ölkələrində, Avropa və Amerikada təhsil alır. Zənnimcə, onların həmin ölkələrin mədəniyyətindən daha çox bəhrələnmək imkanı var. Onlar vətənə dönəndə bu mədəniyyətlərin də nailiyyətlərini özləri ilə gətirəcək və bununla da mədəni sintezə güclü təsir göstərə biləcəklər.

- Azərbaycan dövlətinin hazırkı siyasi kursu minilliyin çağırışı ilə üst-üstə düşürmü?

- Bəli! Dövlətimizin siyasi kursu ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşib. O isə deyirdi ki, «yönümüz Şərqə olsa da, yolumuz Qərbədir». Bu gün həmin kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İnanıram ki, dövlət başçımızın yürütdüyü düzgün siyasət tezliklə Azərbaycanımızın hər iki sivilizasiyanın nailiyyətlərini özündə birləşdirən modern bir dövlət kimi dünya ölkələri sırasına qatılmasına imkan yaradacaq.

- Gövhər xanım, Siz ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın hazırkı dünya düzənindəki yeri və siyasi perspektivləri ilə bağlı qısa, lakin dərin məzmunlu fikirlərini xatırlatdınız. Heydər Əliyev də həmin kursun reallaşmasında böyük demokratik ənənəyə və regionda xüsusi çəkiyə malik olan qardaş Türkiyənin roluna daim önəm verir, ölkələrimizin uğurlarının məhz sıx qarşılıqlı əməkdaşlıqdan keçdiyini bildirirdi. Həqiqətən bu da faktdır ki, qloballaşma ideyasının gerçəkləşməsi və sivilizasiyaların qovuşması üçün vacib olan Şərq-Qərb münasibətlərinin tənzimlənməsində Türkiyə əhəmiyyətli rola malikdir və region üçün nümunə ola biləcək dövlətdir. Bəlkə də qardaş ölkənin elə bu sürətli inkişafı, modern dünyanın bir parçası olması onun ayrı-ayrı «siyasi» və terrorçu qrupların hədəfinə çevrilməsinə səbəb olub. ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində qondarma erməni soyqırımı haqqında qərar layihəsinin təsdiq edilməsi günümüzün aktual mövzusudur...

- Bilirsiniz ki, Azərbaycan bu məsələyə dərhal öz münasibətini bildirib və

qərar layihəsinin təsdiq edilməməsi istiqamətində aktiv fəaliyyət göstərir. Məlumdur ki, bir sıra Avropa ölkələrinin parlamentləri, o cümlədən Fransa parlamenti qondarma erməni soyqırımını tanımışdır. İndi isə «növbə» ABŞ parlamentinə çatıb... Baş verənlər kifayət qədər ciddidir. Amma nə yaxşı ki, bütün zamanlarda tarixi faktlara qarşı gedə bilməyən və öz vicdanının səsi ilə obyektiv elmi həqiqətləri ortaya qoyan alimlər olmuşdur. Onlardan biri də görkəmli fransız tarixçisi Jorj de Molevidir. O, uzun araşdırmaların nəticəsi olan «1915-ci il erməni faciəsi» kitabında yazır: «Qondarma erməni soyqırımı – heç bir real əsası olmayan, yalnız böhtana əsaslanan, yalan və həqiqi tarixin təhrifi üzərində qurulmuş erməni təbliğatının nəticəsidir. Şərəfsiz məqsədlər güdən bu təbliğata heç bir bəraət qazandırmaq olmaz. Erməni təbliğatının bu özbaşınalığı gələcəkdə çox ağır fəsadlar verə bilər. Bu təbliğatı durdurmaq üçün bütün sağlam düşüncəli insanların reaksiyası lazımdır». Çox düzgün və uzaqgörən deyilmiş sözlərdir. Xalqımızın başına gətirilmiş bəlalar bunu bir daha təsdiq edir.

Onu da qeyd etməliyik ki, müzakirəyə çıxarılan qərar layihəsi yalnız Türkiyəyə qarşı yönəlməyib. Burada bilavasitə Azərbaycanın da maraqları təhlükə altına alınır. Əgər qərar layihəsi qəbul olunsa, bu, təkcə Türkiyəyə deyil, bütövlükdə bölgə, o cümlədən Azərbaycan üçün ciddi problemlər yarada bilər. Ən azı Dağlıq Qarabağ üzərində Azərbaycanın suverenliyinin bərpa olunmasına öz mənfi təsirini göstərə bilər və ABŞ-ın Minsk qrupu həmsədrliyində tərəfsiz vasitəçi kimi təmsil olunmasını şübhə altına ala bilər.

Ümidverici hal odur ki, artıq ABŞ-ın tanınmış dövlət adamları, o cümlədən Prezident Buş bu kimi qərarın qəbul edilməsinin böyük səhv olacağını anlatmağa çalışırlar, Osmanlı arxivlərinin materiallarının ABŞ Konqresinin müzakirə mövzusu olmasını yolverilməz hesab edirlər. Qərar layihəsini dəstəkləməyən konqresmenlərin sayı durmadan artır. Bütün bunlar düşünməyə əsas verir ki, ABŞ Konqresində sağlam düşüncə yalançı təbliğata üstün gələcək və bu qərar layihəsi qəbul edilməyəcək.

- PKK uzun illərdir Türkiyədə qanlı aksiyalar törətməkdədir. Xüsusilə də İraqın indiki hakimiyyətinin ölkəyə nəzarət edə bilməməsi bu terrorçu təşkilatın müasir hərbi texniki avadanlığa yiyələnməsinə və qardaş ölkə üçün təhlükəyə çevrilməsinə zəmin yaradıb. İndi Türkiyə ayağa qalxıb, terrorçu PKK-nın bazalarını dağıtmaq üçün əməliyyatlar keçirmək istəyir. Lakin dünya məsələyə birmənalı yanaşmır... Siz uzun illər Şərqi öyrənən bir mütəxəssis kimi belə bir fərqli yanaşmanın səbəbini nədə görürsünüz?

- Terrorizmə fərqli yanaşma ola bilməz. Terrorçu PKK ilə «Əl-qaidə», yaxud ASALA arasında fərq qoymaq yalnız məsələnin mahiyyətini düz anlamamaqdan, yaxud da hansısa qrupların siyasi maraqlarından doğa bilər. Əgər

bu gün söhbət sivilizasiyaların dialoqundan, xalqların, ölkələrin bir-birinə yaxınlaşmasından gedirsə, deməli, separatizmə, ekstremizmə və terrorizmə qarşı mübarizə üsulları da eyni olmalıdır. Təsadüfi deyil ki, SSRİ dağılandan sonra hətta NATO kimi nəhəng blok da strategiyasının əsasının terrorizmə qarşı mübarizə təşkil etdiyini bəyan edib. Amerika İraqda, Əfqanıstanda bu məqsədlə hər gün hərbi əməliyyatlar aparmaqdadır. İsrail hökuməti terrorçu izi ilə Fələstin torpaqlarına ordu yeridir. Rusiya Çeçenistanda 10 ildən artıq bir müddətdə terrorizmə qarşı mübarizə apardığını bəyan edərək hərbi əməliyyatlar keçirib. Keçmiş Yuqoslaviyada fəaliyyət göstərmiş separatçı qruplaşmaların liderləri bu gün Beynəlxalq Haaqa Məhkəməsində törətdikləri cinayətlərə görə cavab verirlər. Bir sözlə, qloballaşmaqda olan dünyamızın müxtəlif bölgələrində beynəlxalq güclər bu qeyri-insani əməllərin qarşısını almaq üçün hər cür vasitələrdən istifadə edirlər. Türkiyənin baş naziri R.T.Ərdoğan Rumıniyadakı türk diasporu ilə görüşdə çox haqlı olaraq bildirdi ki, Amerika min kilometrlərlə məsafəni aşaraq gəlib İraqda terrorizmə qarşı hərbi əməliyyatlar keçirirsə, bizim də öz dövlətimizin və millətimizin təhlükəsizliyini qorumaq haqqımız var.

Türkiyənin rəsmi dairələrinin bildirdiyi kimi, PKK 30 mindən artıq türk vətəndaşını qətlə yetirib, minlərlə insanı şikəst edib və hər zaman Türkiyə üçün təhlükə olaraq qalmaqdadır. Bu mənada Türkiyənin PKK-nın hərbi bazalarının məhv edilməsi ilə bağlı tələbləri haqlıdır. Sadəcə, Qərbin bu məsələyə yanaşmasındakı fərq incə bir məqamla bağlıdır; belə ki, PKK-nın əsas düşərgələrinin yerləşdiyi İraqda hələ normal dövlət yoxdur. Qərb, xüsusilə də ABŞ Türkiyənin İraqın şimal ərazilərinə müdaxilə etdiyi təqdirdə İraqdakı onsuz da ağır vəziyyətin daha da pisləşəcəyindən narahatdırlar. Türkiyənin Baş nazirinin ABŞ Prezidenti ilə son danışıqlarda məsələnin üçtərəfli həlli barədə razılıq əldə edilməsi də dünyanın terrorizmə birmənalı yanaşmasının sübutudur.

- «Bir millət, iki dövlət!» - Azərbaycanla Türkiyə arasındakı münasibətlər çox vaxt bu prizmadan çözülür. Türkiyənin PKK ilə üz-üzə dayandığı bir vaxtda Azərbaycan öz mövqeyini necə ortaya qoymalıdır?

- Sözsüz ki, Azərbaycan həmişə Türkiyə ilə bir yerdə olub və olacaq. Ölkəmizin terrora münasibəti də, yuxarıda dediyim kimi, tam aydındır. Azərbaycan hərbçiləri bu gün koalisiya qüvvələri tərkibində İraqda, Əfqanıstanda antiterror əməliyyatlarında iştirak edirlər. Türkiyədəki vəziyyətlə bağlı isə Xarici İşlər Nazirliyi dərhal rəsmi bəyanatla çıxış edərək terror aktlarını pisləyib. Bu mənada Türkiyə qardaş Azərbaycanı hər an yanında görə bilər. Məncə, bu gün söhbət Azərbaycan-Türkiyə münasibətlərindən deyil, daha geniş miqyasda – ümumtürk dünyası həmrəyliyindən getməlidir. Bu gün Tür-

kiyənin qarşılaşdığı problemlə bağlı dəstək təkcə Azərbaycandan deyil, digər türk respublikalarından da gəlməlidir. Ümumiyyətlə, yazımızın əvvəllərində qoyduğumuz problemin üzərinə qayıdaraq bildirirəm ki, qloballaşma və inteqrasiya proseslərini biz ilk növbədə öz içimizdə aparmalıyıq. Əgər Şərqlə Qərb, əgər fərli sivilizasiyalar vahid məcraya gəlirsə, eyni kök, eyni milli mənəvi dəyərlərə malik xalqlar niyə bir-birinə qovuşmamalıdır? Vaxtilə sovet rejimi bu xalqları bir-birindən ayırmaq üçün onlara müxtəlif adlar qoysa da, köklərini ayrı-ayrı millətlərin tarixlərində axtarmağa məcbur eləsə də, mənəvi, ruhi bağlılığı qıra bilməyib. Bu gün əsas məsələ həmin əlaqələri genişləndirmək və həmin bağları möhkəmləndirməkdir.

Fikrimcə, bunu reallaşdırmaq üçün vasitələr də çoxdur. Məsələn, bu məqsədlə türk respublikalarının müxtəlif forma və məzmunlu birlikləri yarana və yaxud elmi, ədəbi, mədəni sahələrdə nailiyyətlərə görə ümumtürk respublikalarının vahid mükafatları, fəxri adları təsis edilə bilər. Ya da götürək terror problemini. Türk respublikalarının terrorizmə qarşı vahid mübarizə təşkilatını yaratmaq mümkün deyilmi? Əlbəttə mümkündür və onu da qeyd edim ki, dövlətlərimiz ayrı-ayrı olsa da, çox vaxt eyni mənşəli və eyni xətli problemlərlə üz-üzə qalırıq. PKK bu gün Türkiyəyə qarşı qanlı aksiyalar törədir, Azərbaycanı hədələyir, o, məhv olmadığı təqdirdə sabah həmin problemi Orta Asiya respublikalarına da keçirə bilər.

- Gövhər xanım, problem təkcə PKK ilə bitmir, bir sıra arzuolunmaz dini təriqətlər də var ki, onlar da münbit şərait axtarırlar...

- Azərbaycanda təbii ki, dini etiqad azadlığı var. İnsanlar dini inanclarında, etiqadlarında tam sərbəstdirlər. Lakin qeyd etdiyiniz kimi, din pərdəsi altında öz siyasi və iqtisadi maraqlarını həyata keçirmək istəyən, dünyanın hazırkı düzənini pozmağa çalışan, Şərqlə Qərbi üz-üzə qoymağa cəhd edən qruplar, dairələr də az deyil. Onlar ölkələrə təriqətlər kimi gəlir, şərait yaranan kimi qanunsuz fəaliyyətə başlayırlar. Məsələn, vəhabilik adı ilə fəaliyyət göstərən dini təriqətin nümayəndələrinin son vaxtlar Azərbaycanda sabitliyi pozmaq üçün qurduqları planlar da dediklərimizə sübut ola bilər. İngiltərə və ABŞ-ın Azərbaycandakı səfirlikləri onların hədəsi üzündən bir neçə gün məhdudlaşdırılmış iş rejimində çalışmalı oldu.

Digər sektalar da var, onların da məram və məqsədləri heç də üzdə görünən kimi deyil. Buna görə də, fikrimcə, təriqətçiliyə, xaricdən gələn radikal dini cərəyanlara nəzarət güclənməlidir. Din təkcə mollaların ixtiyarında qala bilməz. Hər bir dövlətin bu sahədə aydın siyasəti olmalıdır. Keçmiş müsəlman sovet respublikalarının çoxu bu gün bu problemlə qarşı-qarşıyadır. Məncə, onun qarşısını da birlikdə almalıyıq.

- Gövhər xanım, yenə də söhbətimizin əvvəlinə qayıdıram: bütün bu sadalanan problemlər Sizdə qloballaşmaya və sivilizasiyaların dialoquna inamsızlıq yaratmır ki?

- Qətiyyən. Kosmosdan Yer kürəsini seyr edən kosmonavtlar deyirlər ki, bizim planetimiz səma boşluğunda balaca və yaraşıqlı bir gəmiyə bənzəyir. Belə çıxır ki, biz hamımız bir gəminin sərnişinləriyik. Bu gəmini qorumaq və gələcək nəsillərə bütöv vermək üçün qarşıdurmalardan və konfliktlərdən yan keçməli, qütbləşməni aradan qaldırmalı, hər birimiz sivilizasiyaların dialoquna bacardığımız töhfəni verməliyik. Bu günlərdə 800 illiyini təntənəli surətdə qeyd etdiyimiz dahi Şərq mütəfəkkiri Mövlana Ruminin dediyi kimi: «Biz bu dünyaya ayırmağa yox, birləşdirməyə gəlmişik».

Müsahibəni apardı: İxtiyar Hüseynli,
«Azərbaycan» qəzeti, 14 noyabr 2007-ci il.

«ERMƏNİSTANIN SİLAHLI QÜVVƏLƏRİ İŞĞAL OLUNMUŞ AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏN QEYD-ŞƏRTSİZ ÇIXARILMALIDIR»

Bu tələb İslam Konfransı Təşkilatı Parlament İttifaqının qətnaməsində öz əksini tapmışdır.

Müsahibimiz İKT Parlament İttifaqında Azərbaycan parlamenti nümayəndə heyətinin rəhbəri **Gövhər Baxşəliyevadır**.

- Gövhər xanım, xəbər verildiyi kimi, Sizin rəhbərlik etdiyiniz Azərbaycan parlamenti nümayəndə heyəti İslam Konfransı Təşkilatı Parlament İttifaqı Şurasının sessiyasında iştirak etmişdir. Sessiyanın işi barədə ətraflı məlumat vermənizi xahiş edərdik.

- İslam Konfransı Təşkilatı Parlament İttifaqı Şurasının sessiyası Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində keçirildi. Yanvarın 27-dən 31-nə qədər davam edən tədbirdə şuranın sessiyasından sonra siyasi və iqtisadi daimi komitələrinin, qadın sosial və mədəni məsələlər, insan hüquqları və ətraf mühit daimi komitələrinin iclası keçirildi. Bundan sonra Parlament İttifaqının konfransının 5-ci sessiyası öz işinə başladı. Qeyd edim ki, konfransın sessiyaları 2 ildən bir, şuranın sessiyaları isə hər il keçirilir. Tədbirdə Azərbaycan parlamentini məndən başqa deputatlardan Sabir Rüstəmxanlı, Miri Qəmbərov və Xanhüseyn Kazımlı təmail edirdilər. Parlament İttifaqının bütün tədbirlərində Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən sənədlər müzakirəyə çıxarıldı. Azərbaycan xalqının ən ağrılı yeri olan Dağlıq Qarabağ problemi də əsas müzakirə obyektinə çevrildi. Bu barədə hazırladığımız sənədi qabaqcadan Parlament İttifaqına təqdim etmişdik. Həmin sənəd tədbir iştirakçılarının böyük marağına səbəb oldu. Bu, həmin qəbul olunmuş Qahirə Bəyannaməsində, həm də qətnamələrdə öz əksini tapdı.

- Azərbaycan nümayəndə heyəti üzvlərindən çıxış edən oldumu?

- Təbii ki, oldu. Mən ərəb dilində çıxış etdim. Təvazökarlıqdan uzaq olsa da deyim ki, mənim ərəb dilində çıxış etməyim çox yüksək səviyyədə qarşılandı. Onu da qeyd edim ki, tədbirdə 50-yə qədər ölkənin nümayəndəsi, 20 ölkənin parlament sədri iştirak edirdi. Şərq ölkələrinin, demək olar ki, hamısı təmsil olunurdu. Çox böyük və əhəmiyyətli bir tədbir idi. Belə bir yüksək tribunadan çıxış etmək fürsətindən yararlanmamaq ilk növbədə Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Milli Məclisin sədri cənab Oqtay Əsədovun səmimi salamlarını çatdırdım. Sonra dedim ki, 1999-cu ilin iyun ayında Tehranda keçirilmiş İslam Konfransı Təşkilatı Parlament İttifaqının təsis konfransından keçən dövrdə dünyada böyük

dəyişikliklər baş vermişdir. Özündə Avropa və Şərq mədəniyyətinin ənənələrini birləşdirən Azərbaycan Respublikası da bəşəriyyətin və İslam dünyasının bir parçası kimi bu proseslərdən kənarda qalmayaraq tərəqqi və inkişaf yolunda inamlı addımlarını atmaqdadır. Konfrans iştirakçılarının diqqətinə çatdırdım ki, Azərbaycan xalqı 70 il sovetlər ittifaqı tərkibində güclü ateist təbliğatı altında olmasına baxmayaraq, islam dininə sadiq qalmışdır.

Hazırda Azərbaycan Respublikasında Prezident İlham Əliyevin rəhbərliyi ilə demokratiyanın inkişafı, dünya iqtisadiyyatına inteqrasiya istiqamətində mühüm işlər görülür. Ölkə vətəndaşları Azərbaycan Konstitusiyasında təsbit edilmiş bütün hüquqlardan, o cümlədən söz, vicdan azadlıqlarından sərbəst surətdə istifadə edirlər. Ölkəmizin demokratik inkişafı yolunda xalqımızın ən ağrılı problemi Ermənistanın Azərbaycana qarşı təcavüzüdür. Bu təcavüzün nəticəsində Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon, ümumiyyətlə torpaqlarımızın 20 faizi işğal edilmiş, 1 milyondan artıq soydaşımız doğma ata-baba yurdlarından didərgin düşmüşdür. Erməni qəsbkarlarının işğalı Azərbaycan xalqına böyük maddi və mənəvi ziyan vurmuşdur. İşğal olunmuş torpaqlarımızda erməni silahlı qüvvələri xeyli sayda mədəniyyət abidələrimizi məhv etmiş, müqəddəs islam ocaqlarını, qəbiristanlıqları yerlə-yeksan etmişlər. Bu vandalizm təkcə Azərbaycan xalqına qarşı deyil, bütün islam dünyasına vurulan bir zərbədir. Hərbi təcavüz və etnik təmizləmə nəticəsində 20 mindən çox azərbaycanlı öldürülmüş, 50 mindən çox adam əlil olmuş, dörd mindən çox adam əsir və itkin düşmüş, girov götürülmüşdür. Uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımının bütün dəhşətlərini görmüşlər.

Ermənilərin törətdikləri vəhşiliklərdən söhbət açarkən dedim ki, Azərbaycan xalqı üçün kədər və qüssə ayı olan fevral ayı başlayır. Məhz fevralın 26-da xalqımızın tarixində ən böyük faciələrdən biri baş verib. 1993-cü ildə həmin gün erməni işğalçıları tərəfindən Xocalı adlı Azərbaycan şəhəri yerlə-yeksan edilmiş, 613 dinc sakin, o cümlədən 63 uşaq və 106 qadın vəhşicəsinə öldürülmüşdür. 1275 sakin – qocalar, uşaqlar, qadınlar əsir aparılmış, olmazın təhqir və işgəncələrə məruz qalmışlar. 150 əsirin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günə qədər məlum deyil.

Bundan başqa, bildirdim ki, işğal edilmiş ərazilərimiz erməni terrorçularının və eləcə də ASALA terror təşkilatının geniş miqyaslı fəaliyyəti üçün poliqona çevrilmişdir. Erməni terrorçuların Azərbaycanda törətdikləri 30-dan artıq terror aktı nəticəsində iki mindən çox günahsız Azərbaycan vətəndaşı qətlə yetirilmiş, on minlərlə insan xəsarət almışdır. Bizim üçün terrorçuluq əleyhinə mübarizə sahəsində əsas əngəl Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş və

nəzarət olunmayan ərazilərdir. Beynəlxalq terrorçular həmin ərazilərdən silah, narkotik maddə qaçaqmalçılığı və insan alveri məqsədilə istifadə edirlər. Ermənistan Respublikası beynəlxalq hüquq normalarını kobud surətdə pozaraq, işğal olunmuş Azərbaycan ərazilərində yeni yaşayış məskənləri salaraq, demoqrafik vəziyyəti dəyişdirməyə çalışır. Mənbələr «Artsaxa qayıdış» adlı planın mövcudluğundan xəbər verir. Bu plana uyğun olaraq 2010-cu ilə qədər Dağlıq Qarabağda erməni əhalisinin sayını 300 minə çatdırmaq nəzərdə tutulub, halbuki münaqişənin başlanğıcında burada üç dəfə az erməni yaşayırdı.

BMT-nin məlum dörd qətnaməsini xatırladaraq bildirdim ki, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılmasını tələb edən BMT-nin 4 qətnaməsini, beynəlxalq təşkilatların qərarlarını, o cümlədən İslam Konfransı Təşkilatı kimi çox nüfuzlu beynəlxalq qurumun Ermənistanın işğalçılıq siyasətini pisləyən, zəbt olunmuş torpaqlarımızın azad edilməsini tələb edən qətnamələrini qulaqardına vuran Ermənistan bu günə kimi Azərbaycan torpaqlarını işğal altında saxlayaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması prosesinə böyük maneələr törədir. Yeri gəlmişkən, AŞPA-da son günlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanı işğalçı, Dağlıq Qarabağ ermənilərini separatçı adlandıran qətnamənin qəbul edilməsini də xatırlatdım.

Sonda üzümü konfrans iştirakçılarına tutaraq Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun şəkildə həll edilməsi istiqamətində səylərini bundan sonra da əsirgəməməyə çağırdım və hazırkı sessiyanın yekun sənədlərinə Azərbaycan nümayəndə heyətinin təqdim etdiyi Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən qətnamələrin əlavə edilməsinin vacibliyini diqqətə çatdırdım.

- ***Azərbaycana qarşı münasibət necə idi? Ümumiyyətlə, ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun yüksəldiyini müşahidə etdinizmi?***

- İlk növbədə qeyd edim ki, Qahirənin yaxınlığında salınmış ulu öndərimiz Heydər Əliyevin adını daşıyacaq parkın və ümummilli liderimizin əzəmətli heykəlinin bu günlərdə açılışı olacaq. Bu, böyük tarixi şəxsiyyət Heydər Əliyevin timsalında Azərbaycanın dünyada tanınmasından, getdikcə böyük nüfuz sahibi olmasından xəbər verir. Ümumiyyətlə, konfransda iştirak edən dövlətlərin nümayəndələri ilə söhbətlər zamanı şahidi olduq ki, onlar son illər ölkəmizdə aparılan uğurlu islahatlardan, iqtisadi inkişafdan yaxından xəbərdardırlar və bunu çox yüksək qiymətləndirirlər. Azərbaycanın iri infrastruktur layihələrinin həyata keçirilməsində fəaliyyəti də böyük marağa səbəb olub. Mən qətiyyətlə deyirəm ki, Azərbaycan Şərq dövlətləri arasında böyük nüfuza malikdir. Təkcə bir faktı

diqqətinizə çatdırım ki, İslam Konfransı Təşkilatının İcraiyyə Komitəsinə seçilmiş 6 üzvdən biri Azərbaycanın nümayəndəsi – mən oldum. Bu, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasından xəbər verir. Bundan başqa, nümayəndə heyətimizin üzvlərinə müxtəlif komitələrin iclaslarında çıxış etmək üçün söz verildi, təkliflərimizə böyük hörmətlə yanaşıldı.

- Konfransın gündəliyinə Dağlıq Qarabağ problemi ilə bağlı məsələ salınmışdımı?

- Konfransda Dağlıq Qarabağ məsələsi ətraflı müzakirə olundu. Ermənistanın işğalçı dövlət olması dəfələrlə səsləndi və bu dövlətin işğalçılıq missiyasını hələ də davam etdirməsi kəskin pisləndi. Bu barədə Qahirə Bəyannaməsinə xüsusi maddə salındı və Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında iki qətnamə qəbul olundu. Mən deyərdim ki, bu vaxta qədər beynəlxalq qurumların keçirdiyi tədbirlərdə hələ bu şəkildə qəti tələb irəli sürülməyib. Qətnamədə Ermənistanın silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması çox ciddi tələb kimi irəli sürülür.

Qətnamədə deyilir: Konfrans İKT Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək, Azərbaycan ərazisinin 20 faizinin işğalı ilə nəticələnmiş Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasına qarşı həyata keçirilən təcavüzdən ciddi narahatlığını ifadə edir. Ermənistanın təcavüzü nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün vəziyyəti, humanitar problemlərin kəskinləşməsi və həcminin artması ilə əlaqədar dərin təəssüfünü bildirir və ötən konfransların həmin problemlə əlaqədar bütün müvafiq qətnamələrini bir daha təsdiq edir. Həmçinin İKT BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə ciddi surətdə əməl edilməsinə çağırır, Ermənistan və Azərbaycan arasındakı münaqişənin həlli üzrə bütün diplomatik və digər səyləri alqışlayaraq, üzv dövlətlərin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə ehtiramını bir daha təsdiq edir.

İKT Ermənistan Respublikasının davam etdirdiyi təcavüzkarlıq siyasətinin ATƏT çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsirini qeyd edərək:

- Ermənistan Respublikasının Azərbaycan Respublikana qarşı təcavüzünü kəskin şəkildə pisləyir.

- İşğal edilmiş Azərbaycan ərazilərində mülki azərbaycanlı sakinlərə qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirir.

- İşğal edilmiş Azərbaycan ərazilərində arxeoloji, mədəni və dini abidələrin talan və məhv edilməsini qətiyyətlə pisləyir.

- BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin ciddi şəkildə yerinə yetirilməsinə, erməni silahlı qüvvələrinin işğal edilmiş bütün

Azərbaycan ərazilərindən, o cümlədən Dağlıq Qarabağ bölgəsindən tam, qeyd-şərtsiz və dərhal çıxarılmasını qəti surətdə tələb edir, Ermənistanı Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ehtiramla yanaşmağa çağırır.

- Təhlükəsizlik Şurasının məlum qətnamələrinin müddəalarının Ermənistan tərəfindən hələ də yerinə yetirilməməsi ilə əlaqədar narahatlığını ifadə edir.

- Təcavüzkar tərəfindən münaqişənin şiddətləndirilməsinin və Azərbaycan ərazisinin işğalının davam etdirilməsinin qarşısının alınması məqsədilə bütün üzv dövlətləri Ermənistana silah və hərbi sursat təqdim etməkdən çəkinməyə çağırır. Üzv dövlətlərin ərazisi bu kimi təchizatların tranziti üçün istifadə edilməməlidir.

- Erməni təcavüzü və Azərbaycan ərazilərinin işğalına son qoyulması məqsədilə üzv dövlətləri və beynəlxalq birliyin digər dövlətlərini bütün effektiv siyasi və iqtisadi vasitələrdən istifadə etməyə çağırır.

- Ermənistan və Azərbaycan arasındakı münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərin toxunulmazlığına ehtiram prinsipləri əsasında ədalətli şəkildə və sülh yolu ilə həll edilməsinə çağırır.

- ATƏT-in 1996-cı ildə Lissabonda keçirilmiş zirvə görüşündə icraçı sədrinin bəyanatının ehtiva etdiyi Ermənistanla Azərbaycan arasında silahlı münaqişənin həllini üç prinsipi - Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusunun verilməsi, region və onun əhalisinin təhlükəsizliyinə zəmanət verilməsini dəstəklədiyini ifadə edir.

- Ermənistanla Azərbaycan arasında silahlı münaqişənin mərhələli həlli istiqamətində ATƏT-in Minsk qrupunun fəaliyyətini, Ermənistan və Azərbaycan xarici işlər nazirləri səviyyəsində aparılan məsləhətləşmələri dəstəkləyir və məsələyə bu cür yanaşmanı Azərbaycan qarşı təcavüzün ciddi nəticələrinin aradan qaldırılması üçün vasitə kimi qiymətləndirir.

- Azərbaycan hökuməti və xalqının öz ölkəsinin müdafiəsi naminə göstərdiyi cəhdləri bütövlükdə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu bir daha təsdiq edir.

- Qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələrinə imkan yaradılmasına çağırır.

Bununla yanaşı, sessiyada Qahirə Bəyannaməsi də qəbul olunmuş və Bəyannaməyə bu barədə xüsusi maddə salınmışdır. Həmin maddədə deyilir: «Təşkilat erməni silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz bütün işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılmasını qəti tələb edir və Ermənistanı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmağa çağırır.

Təşkilat bütün üzv dövlətləri və beynəlxalq təşkilatları bütün effektiv siyasi

və iqtisadi vasitələrdən istifadə etməklə erməni təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulmasına çağırır».

Konfransın Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb etməsini təsdiqləyən faktlardan biri də Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyəti abidələrinin məhv edilməsi və dağıdılması ilə bağlı qətnamənin qəbul edilməsi oldu. Qətnamədə bildirilir ki, İKT Nizamnamənin islam irsinin qorunması və müdafiəsi barədə səylərin birləşdirilməsinə dair məqsəd və prinsiplərindən çıxış edərək, Ermənistan tərəfindən işğal edilmiş ərazilərdəki Azərbaycan tarixi, mədəniyyəti, arxeologiyası, etnoqrafiyasının Azərbaycan tarixi və mədəniyyətinin ayrılmaz hissəsi olduğunu dərk edir. BMT Təhlükəsizlik Şurasının Laçın və Şuşa rayonları daxil olmaqla Azərbaycanın işğal olunmuş bütün ərazilərindən erməni silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tam çıxarılmasına, habelə Ermənistan tərəfindən Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrini Ermənistan tərəfindən etnik təmizləmə məqsədilə Azərbaycanda məscidlərin və digər müqəddəs islam məbədlərinin tam və vəhşicəsinə dağıdılmasının vandalizm aktı olduğunu təsdiq edərək, Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan ərazilərində erməni təcavüzkarları tərəfindən islam irsinə vurulmuş böyük zərərin – nadir islam mədəniyyəti və memarlıq abidələrinin, habelə məscidlərin, məbədlərin, qəbiristanlıqların, arxeoloji qazıntıların, muzeylərin, kitabxanaların, rəsm qalereyalarının, dövlət teatrlarının, musiqi məktəblərinin tam və ya qismən dağıdılması, zəbt edilmiş muzeylərdən çoxsaylı qiymətli əşyaların, milyonlarla kitab və tarixi əlyazmaların çıxarılması və məhv edilməsi faktların nəzərə alaraq, Azərbaycan xalqının bununla əlaqədar narahatlığını tam bölüşərək, erməni təcavüzkarların Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləyir.

Göründüyü kimi, İslam Konfransı Təşkilatının Parlament İttifaqı Azərbaycanın haqq işini müdafiə edir, ölkəmizin ərazi bütövlüyünə böyük hörmətlə yanaşır. Tədbir iştirakçıları işğalçı Ermənistan dövlətini iqtisadi boykota, siyasi təcridə çağırdı.

Mən əminəm ki, Azərbaycan diplomatiyası bundan sonra da möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlara imza atacaq, ölkəmizin haqq işi dünya ictimaiyyəti tərəfindən tam dəstəklənəcək və Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu getdikcə yüksələcəkdir.

Müsahibəni apardı: Əliqismət Bədəlov,
«Xalq qəzeti», 15 fevral 2008-ci il.

İSLAM KONFRANSI TƏŞKİLATI HƏR ZAMAN AZƏRBAYCANIN HAQLI MÖVQEYİNİ MÜDAFİƏ EDİR

Azərbaycan parlamentarilərinin uğurla fəaliyyət göstərdikləri beynəlxalq qurumlardan biri də İslam Konfransı Təşkilatına üzv ölkələrin Parlament İttifaqıdır. Martın 24-də Türkiyənin İstanbul şəhərində İKTPİ Şurasının fövqəladə sessiyası keçirilmişdir. İclasda ölkəmizi Milli Məclisin deputatı Gövhər Baxşəliyeva təmsil etmişdir. Onunla söhbətimiz fövqəladə sessiya, Azərbaycan nümayəndə heyətinin İKTPİ-dakı fəaliyyəti, qurumun Dağlıq Qarabağ problemi ilə bağlı qəbul etdiyi sənədlər barədə oldu.

- ***Fövqəladə sessiyada hansı məsələlərə baxıldı?***

- İKT Pİ Şurasının fövqəladə sessiyasının gündəliyində duran əsas məsələ İKT Pİ Baş katibi vəzifəsinə seçkilərin keçirilməsi idi. Bu vəzifəyə namizədlər Mahmut Erol Kiliç (Türkiyə), Brigi Rafini (Niger), Cəfər Səid Basaleh (Yəmən) və Makarim Vibisono (İndoneziya) toplantıda çıxiş etdilər. Bundan sonra İKT Pİ Baş Katibliyinin 2007-ci il üzrə maliyyə hesabatı dinlənilərək qebul edildi. Daha sonra İKT Pİ Baş katibi və onun köməkçisi vəzifələrinə seçkilər keçirildi. Gizli səsvermə ilə Türkiyə nümayəndəsi Mahmut Erol Kiliç təşkilatın yeni Baş katibi seçildi. Onun köməkçisi vezifəsini İran nümayəndəsi Əli Əsğər Sijani tutdu.

İKT Pİ Şurası iclasının sonunda İslam dünyasını son zamanlar yenidən narahat etməyə başlayan bir məsələyə - Avropa ölkələrinin mətbuatında Məhəmməd peyğəmbəri təhqir edən karikaturaların dərc olunmasına münasibət bildirildi. Şuranın qəbul etdiyi İstanbul deklorasiyasında Danimarkanın mətbu orqanlarında Peyğəmbəri təhqir edən karikaturaların yer almasını və bunun bəzi dairələrdə dəstəklənməsini İKT Pİ-nin böyük qəzəb və təəssüflə qarşıladığı qeyd olunur. İKT Pİ üzvləri Avropa Parlamentindəki həmkarlarına müraciət edərək, onları hər hansı dinin və ya peyğəmbərin təhqir olunmasına görə cəza nəzərdə tutan qanunlar qəbul etməyə çağırırlar. Sənəddə 13-14 mart 2008-ci il tarixdə Dakarda (Seneqal) keçirilən XI sessiyanın yekun bəyannaməsinin və İKT Baş katibi Əkmələddin İhsanoğlu tərəfindən irəli sürülmüş ekspert qrupunun yaradılması haqqında təklifin dəstəkləndiyi bildirilir. Bu qrup ümumbəşəri dini və mədəni dəyərlərə hörmətlə yanaşmanı təmin edəcək beynəlxalq hüquqi mexanizm hazırlamalıdır.

- İKT Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyini birmənalı şəkildə dəstəkləyən təşkilatdır. Son dəfə təşkilatın Parlament ittifaqının V Konfransında Dağlıq Qarabağ məsələsi müzakirə olunub...

- Bəli, İKT hər zaman ölkəmizin haqlı mövqeyini dəstəkləmiş, işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılmasını tələb edən qətnamələr qəbul etmişdir. Fövqəladə sessiyada bu məsələyə toxunulmasa da, bir qədər əvvəl, yanvarın 27-31-də təşkilatın Misirin Qahirə şəhərində keçirilmiş 5-ci Konfransında Dağlıq Qarabap problemi müzakirə edildi və yekunda qəbul olunan Bəyannamədə öz əksini tapdı. Öncə qeyd edim ki, həmin konfransda mənimlə yanaşı deputat həmkarlarım Miri Qənbərov, Sabir Rüstəmxanlı və Xanhüseyn Kazımlı iştirak edirdilər. Yanvarın 27-də İKT Pİ Şurasının, 29-da isə komitələrin iclasları keçirildi. Azərbaycan nümayəndə heyətinin təklifi ilə «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» və «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında» qətnamələr Siyasi və iqtisadi məsələlər üzrə komitəyə təqdim olundu və qeyd etdiyim kimi, konfransın yekun sənədində öz əksini tapdı. Deputatlarımızın digər təklifi ilə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələ konfransda müzakirəyə çıxarıldı. Nümayəndə heyəti üzvlərimizin rəy və təklifləri maraqla izlənildi.

Yanvarın 30-da İKT Pİ 5-ci Konfransının rəsmi açılış mərasimi keçirilirdi. Tədbirdə Türkiyə Böyük Millət Məclisinin sədri, İKT Pİ 4-cü Konfransının sədri K.Toptan, Misir Ərəb Respublikasının Baş naziri Ə.Nazif, Misir Xalq Məclisinin sədri, İKT Pİ 5-ci Konfransının sədri Ə.F.Şürur, İKT Pİ Baş katibi E.İhsanoğlu və digər rəsmi qonaqlar çıxış etdilər. Günün ikinci yarısında isə mən ərəb dilində məruzə etdim. Çıxışımda İKT Pİ-nin 1999-cu ilin iyununda Tehranda keçirilmiş təsis konfransından ötəh dövrdə dünyada böyük dəyişikliklər baş verdiyini qeyd edərək, özündə Avropa və Şərq mədəniyyətinin ənənələrini birləşdirən Azərbaycanın da bəşəriyyətin və islam dünyasının bir parçası kimi bu proseslərdən kənarda qalmadığını bildirdim. Azərbaycan Respublikasında Prezident İlham Əliyevin rəhbərliyi ilə ümummilli liderimiz Heyder Əliyevin siyasi kursunun davam etdirilməsi, demokratiyanın inkişafı, insan azadlıqlarının təmin edilməsi, Azərbaycan vətəndaşlarının Konstitusiyada təsbit edilmiş bütün hüquqlardan, o cümlədən söz, vicdan, əqidə azadlıqlarından sərbəst istifadə etmələri, dünya iqtisadiyyatına inteqrasiya istiqamətində həyata keçirilən islahatlar barədə ətraflı məlumat verdim.

Təbii ki, məruzəmdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə böyük yer ayırdım, ölkəmizin demokratiya və iqtisadi inkişafı yolunda ən böyük əngəlin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün olduğunu bildirdim. İşğal olunmuş torpaqlarımızda xalqımıza vurulan maddi və mənəvi ziyanın, tarixi və mədəniyyət abidələrimizin, məscidlərimizin,

müqəddəs islam ocaqlarınm, qəbiristanlıqların yerlə-yeksan edilməsinin bütövlükdə islam dünyasina vurulan bir zərbə olmasını, Ermənistan tərəfindən həyata keçirilən hərbi təcavüzün və etnik təmizləmənin ağır nəticələrini, ASALA erməni terror təşkilatının işğal edilmiş əraziləri geniş miqyaslı fəafiyyəti üçün poliqona çevirdiyini konkret faktlarla tədbir iştirakçılarının diqqətinə çatdırdım. Qeyd etdim ki, bizim üçün terrorçuluq əleyhinə mübarizə sahəsində əsas əngəl Ermənistanın işğal etdiyi və nəzarət olunmayan ərazilərdir. Bu ərazilər beynəlxalq terrorçular tərəfindən silah, narkotik maddə qaçaqmalçılığı yə insan alveri məqsədilə istifadə olunmaqdadır. Beynəlxalq hüquq normalarını kobud surətdə pozan Ermənistan Respublikası işğal olunmuş Azərbaycan ərazilərində yeni yaşayış məskənləri salaraq, ərazinin demoqrafik vəziyyətini dəyişdirməyə çalışır. Məruzəmdə erməni silahlı qüvvələrinin torpaqlanmızdan çıxarılmasını tələb edən BMT-nin qətnamələrini, beynəlxalq təşkilatların qərarlarını, o cümlədən İslam Konfransı Təşkilatı kimi çox nüfuzlu beynəlxalq təşkilatın Ermənistanın işğalçılıq siyasətini pisləyən, zəbt olunmuş torpaqlarımızin azad edilməsini tələb edən qətnamələrini qulaq ardına vuran Ermənistanın bu günə kimi Azərbaycan torpaqlarını işğal altında saxlayaraq münaqişənin sülh yolu ilə nizama salınması prosesinə böyük maneələr törətdiyini qeyd etdim. Müraciətlə İKT üzvü olan ölkələri Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun şəkildə həll edilməsi istiqamətində səylərini bundan sonra da əsirgəməməyə çağırdım.

Yerli KİV-lərin xahişi ilə məruzənin mətnini onlara təqdim etdik. Azərbaycan nümayəndə heyətinin təklif etdiyi dörd bənd tədbirin sonunda müzakirəyə qoyulan yekun sənədə - «Qahirə Bəyannaməsi»nə salındı. Tədbir iştirakçıları BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin ciddi şəkildə yerinə yetirilməsini, erməni silahlı qüvvələrinin işğal olunmuş bütün Azərbaycan ərazilərindən tam, qeyd-şərtsiz və dərhal çıxarılmasını qəti surətdə tələb etdilər, Ermənistanı Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ehtiramla yanaşmağa çağırdılar.

Konfransın fəaliyyətinə gəldikdə, burada da Asiya, Afrika və ərəb qruplarından icraiyyə Komitəsinə üzvlər seçildi. Asiya qrupundan mənim namizədliyim səsə qoyuldu və dəstəkləndi.

Müsahibəni apardı: Rəşad Cəfərli,
«Azərbaycan» qəzeti, 6 aprel 2008-ci il.

«BÜDCƏDƏN ELMƏ AYRILAN VƏSAİTİN HƏCMİ ARTIRILMALIDIR»

Müsahibimiz Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili **Gövhər Baxşəliyevadır**.

- Mən ölkə prezidentinin elmdə islahatların aparılması ilə bağlı imzaladığı sərəncamı yüksək qiymətləndirirəm. Elmlər Akademiyasında islahatlar doğrudan da çoxdan lazım idi. Bizim elm sistemimiz müasir dövrün tələbləri ilə uyğunlaşdırılmalıdır. Mən hesab edirəm ki, bu gün akademiyada cəmləşmiş potensial qorunub saxlanılmalıdır. Bu yaxınlarda akademiyanın 60 illiyi tamam oldu. Bu illər ərzində Milli Elmlər Akademiyasında çox böyük elmi potensial yığılıb. Bu gün akademiyanın gələcəyi ilə bağlı müxtəlif fikirlər var. Mən hesab edirəm ki, akademiyanı qorumalıyıq. Çünki Azərbaycan elminin özəyi məhz Elmlər Akademiyasında toplaşıb. Ayrı-ayrı universitetlərdə, elm ocaqlarında da elmi araşdırmalar aparılır. Amma müqayisə etsək, Milli Elmlər Akademiyasında aparılan elmi araşdırmaların səviyyəsi ayrı-ayrı universitetlərdə aparılan tədqiqatlardan yüksəkdir. Bunu etiraf etmək lazımdır. Son 20 ildə bu fərq daha qabarıq nəzərə çarpır. Xüsusilə də son 20 ildə akademiyada mühüm əhəmiyyəti olan fundamental elmi tədqiqatlar aparılıb. İndi biz bu potensialı qoruyub saxlamağa borcluyuq. Elmlər Akademiyasında hazırda elmin elə sahələri var ki, bu gün onları bağlamaq asan olacaq. Amma sabah həmin sahələr üzrə mütəxəssislərə ehtiyacımız olacaq. Belə olanda dövlət həmin sahə üzrə mütəxəssislər hazırlamaq üçün xeyli xərc çəkməli olacaq. Buna görə də biz həmin istiqamətlər üzrə institutları inkişaf etdirməliyik. İşimizi dövrün tələblərinə uyğunlaşdırmalıyıq. Elə etməliyik ki, Milli Elmlər Akademiyası daha çevik fəaliyyət göstərə bilsin. Daha 30 il bundan əvvəlin metodları ilə işləmək olmaz. Bunun həllinin müxtəlif yolları var. Mən bununla bağlı təkliflərimi yazılı şəkildə elmdə islahatların aparılması üçün yaradılmış Dövlət Komissiyasına təqdim edəcəyəm.

- Bu təkliflər hansılardır?

- Birinci problemimiz elmin maliyyələşdirilməsi ilə bağlıdır. Alimlərimizə yaxşı əməkhaqqı verə bilmədiyimizdən onlar başqa yerlərdə əlavə iş axtarmalı olurlar. Əslində isə elmdə çox böyük perspektivi olan, yüksək səviyyəli elmi araşdırmalar apara bilən alimlər yüksək əmək haqqı almalıdırlar. Belə olarsa, onlar kənarda iş axtarmazlar. Amma bu gün Milli Elmlər Akademiyasının institutlarının direktorları bu imkandan məhrumdurlar. Bizim institutda çox perspektivli kadrlar var. Direktor kimi mən onlara aldıqları əmək haqqının 100 fai-

zindən əlavə əmək haqqı yaza bilmirəm. Təsəvvür edin ki, alimin özünün əmək haqqı maksimum 150 manatdır. Ona əlavə 100 faizlik əmək haqqı da yazsaq, aldığı ümumi maaş 300 manatdan cox olmur. O da hələ 3 il bundan əvvəl mümkün idi. Son 3 ildir bizə əmək haqlarının 70 faizindən artıq əlavə yazmağa icazə verilmir. Üstəlik, 70 faiz əlavə yazdığımız elm adamına institutda hansısa inzibati vəzifə də tapmalıyıq. Akademiyanın institutlarında isə inzibati vəzifələrin sayı çox azdır. Ona görə də elm adamları akademiyanın institutlarında işləyə-işləyə əlavə iş yeri axtarırlar. Bu gün elmimizin düşdüyü vəziyyətin bir səbəbi də bundadır. Əslində biz əmək haqlarının verilməsində direktorlara əlavə imkanlar yaratmalıyıq. Elmi perspektivi olan, yaxşı tədqiqatlar aparan işçilərə yüksək əmək haqqı verilməli, elmə təsadüfən düşən, hər hansı elmi araşdırmalar aparmayanlar isə aşağı əmək haqqı almalıdırlar. Belə olarsa, elm sistemində təmizlənmə gedəcək. Elmdə təsadüfən olanlar, akademiyaya elmi ad üçün gələnlər tədricən bu sahədən gedəcəklər. İkincisi, nəzərə almaq lazımdır ki, Elmlər Akademiyasında unikal intellektual bir mühit yaranıb. Millətimizin qaymaqları burada toplaşıblar. Diqqət yetirsəniz görərsiniz ki, akademiya sistemindən çıxan insanların hamısı yüksək səviyyəli intellektlərdir. Bu gün biz akademiyanı dağıtsaq, sabahkı nəsillər kimdən örnək götürəcək? Bizim nəslimiz Həmid Araslıdan, Əlisöhbət Sumbatzadədən, Ziya Bünyadov və başqa alimlərimizdən nümunə götürüb. Bəs sabahkı nəsillər kimdən nümunə götürəcəklər? Buna görə biz bu elmi mühiti qorumalıyıq.

- Gövhər xanım, prezident sərəncamının preambulasında elmin bugünkü durumu ilə bağlı iradlar da var...

- Mən bu iradlarla razıyam. Elm sistemində köhnə metodlardan istifadə edilməməlidir. Şəxsən mən direktor olaraq həmişə çalışmışam ki, rəhbərlik etdiyim institutu müasir dövrün tələblərinə uyğunlaşdıraq. Elmi araşdırmalar zamanı təkcə klassik dövrü deyil, digər dövrləri də öyrənirik. Araşdırmalarımızın aktuallığına da xüsusi diqqət yetiririk. Çalışırıq Şərq ölkələrinin müasir durumunu, bu ölkələrdə hazırda cərəyan edən siyasi, iqtisadi, etnokonfessional prosesləri araşdıraq. Bu ölkələrin Azərbaycanla əlaqələrinə xüsusi diqqət yetirək. Biz bir növ Azərbaycanı Şərq kontekstində öyrənirik. Mən hesab edirəm ki, biz Cənubi Azərbaycanı da öyrənməliyik. Amma cənubla bağlı araşdırmalarımız bütöv İran kontekstində olmalıdır. Çünki Cənubi Azərbaycanın son 200 illik tarixi İranla bağlıdır. Əgər Cənubi Azərbaycanı İrandan kənarda öyrənsək, doğru nəticələrə gələ bilmərik. Son 200 ildə Cənubi Azərbaycanda baş verən proseslər İranda baş verən proseslərlə sıx əlaqədə olub. Biz İstanbuldakı Baş Bakanlıq arxivindən çox qiymətli sənədlər gətirmişik. Məlum olduğu kimi, Azərbaycan tarixən iki dəfə Osmanlı imperiyasına daxil olub. Osmanlı imperi-

yasının isə çox dəqiq vergi sistemi olub. İmperiya hansı ərazini tutubsa, oraya dərhal vergi müfəttişləri göndərilib. Müfəttişlər vergi dəftərləri tərtib ediblər. Həmin dəftərlərdə ermənilərlə bugünkü münaqişə baxımından çox qiymətli məlumatlar yer alıb. Qaydalara görə, vergi dəftərlərində yaşayış məntəqəsinin adı, məhəllələr, sakinlərin sayı, onların dini və etnik mənsubiyyəti yer alıb. Bu dəftərləri araşdırmaqla həmin dövrlərdə Cənubi Qafqazda daha çox hansı millətlərin məskunlaşdığını müəyyənləşdirmək mümkündür. Biz artıq Gəncə-Qarabağ, Naxçıvan, İrəvan, Qazax-Borçalı, Ərdəbil vilayətlərinin vergi dəftərlərini gətirmişik. Osmanlı türkcəsində yazılan dəftərlər Azərbaycan dilinə tərcümə olunub. Biz onların təhlilini aparırıq. Bütün bunlar bizim xalqımıza lazımdır. Cəmiyyət yalnız bazar iqtisadiyyatı subyektlərindən ibarət ola bilməz. Inkişafımızı istəyiriksə, bazar iqtisadiyyatı ilə yanaşı elmimizi də inkişaf etdirməliyik. İşimizi də bu istiqamətdə qurmalıyıq.

- Sərəncamda Elmlər Akademiyasında struktur islahatlarının aparılması da nəzərdə tutulur. Son vaxtlar akademiyanın bəzi institutlarının ləğv olunacağı, bəzilərinin birləşdiriləcəyi barədə məlumatlar yayılır. Sizcə, bu nə dərəcədə doğrudur?

- Hər halda bizim ictimai-humanitar sahədə fəaliyyət göstərən institutların hansınınsa ləğvinin planlaşdırılması barədə eşitməmişəm. Ola bilsin ki, institutlarda çarpazlaşan istiqamətlər üzrə şöbələr birləşdirilsin.

- Bəs elmin yeni maliyyələşmə mexanizmi ilə bağlı nə düşünürsünüz?

- Eşitdiyimizə görə, bu sahədə yeniliklər olacaq. Konkret olaraq elmin maliyyələşdirilməsi üçün Elm Fondunun yaradılacağı bildirilir. Fond elmi tədqiqatların aparılması üçün böyük miqdarda qrantlar verə biləcək. Özlüyündə bu, yaxşı praktikadır. Bu xəbəri eşidəndən sonra biz layihə hazırlamışıq. Bilirsiniz, ölkənin gələcəyi, inkişafımızla bağlı proqnozlar elm adamları tərəfindən hazırlanmalıdır. Bilirsiniz ki, Azərbaycan çox mühüm bir coğrafi mövqedə yerləşir. Buna görə də gələcəklə bağlı elmi proqnozlarımız olmalıdır. Bütün dünyada bu cür proqnozları elmi mərkəzlər hazırlayır. Cənubi Azərbaycan məsələsi, Azərbaycanın İranla münasibətləri ciddi şəkildə araşdırılmalıdır.

- Gövhər xanım, belə məlumatlar da var ki, Milli Elmlər Akademiyasının bəzi institutlarında işçilərin sayı şişirdilib.

- Mən bu barədə nə deyə bilərəm ki? Elmi araşdırmalar aparan, konkret tədqiqatlar aparan işçiləri qoruyub saxlamalıyıq. İşçilərin sayının şişirdilməsinin qarşısını almaq üçün isə akademiya institutlarında mütəmadi olaraq attestasiya keçiririk. Məsələn, bizim institutda heç kim işçilərin sayının şişirdildiyini deyə bilməz. SSRİ dağılandan sonra bütün cəmiyyətdə, o cümlədən Milli Elmlər Akademiyasında böhran yaşandı. İnsanlar daha çox çörək dalınca qaç-

mağa məcbur oldular. Elmə həvəs xeyli azaldı. Amma son 3-4 ildə elmə həvəs artıb. Cavanlar yalnız hərbi xidmətdən yayınmaq üçün yox, elmi tədqiqatlar aparmaq üçün akademiyanın institutlarına gəlirlər. Şəxsən mən aspirantlarımızın hərbi xidməti başa vuran insanlar olmasına çalışıram. Hərbi xidmətdə olmayanları aspirant götürməməyə çalışıram. İnsanlar başa düşüblər ki, gələcək elmlə bağlıdır. Amma bəlkə də bəzi institutlarda işçilərin sayı həqiqətən şişirdirilib. Bunlar araşdırılmalıdır. Sizə deyim ki, Akademiyanın rəhbərliyi də bu məsələlərə mütəmadi olaraq diqqət yetirir. Məsələn, keçən il akademiyanın bütün institutlarında işçilərin sayı 10 faiz ixtisar olundu. Həmin vaxt bizə deyildi ki, ixtisarları mütəmadi olaraq aparmaq lazımdır. Akademiya məhsul verməyən, tədqiqat aparmayan insanlardan canını qurtarmalıdır.

- Ümumiyyətlə, büdcədə elmə ayrılan vəsaitləri yetərli sayırsınızmı?

- Xeyr, büdcədən elmə ayrılan vəsaitlərin həcmi çox azdır. Məvaciblərin az olması məsələsinə toxundum. Bu səbəbdən işçilərimiz başqa universitetlərdə dərs götürməyə, tərcümələr etməyə çalışırlar. Bizim elmi ezamiyyə xərclərimiz çox məhduddur. İndiki imkanlarla yalnız bir nəfəri xaricə ezamiyyətə göndərə bilirik. Kitab çapı üçün ayrılan pul da xeyli azdır. Ona görə də məcburiyyətdən başqa mənbələr axtarmağa məcbur oluruq. Avadanlıqların alınması üçün ayrılan vəsait də çox azdır. Bugünkü zamanda elmi işçini kompütersiz təsəvvür etmək çətindir. Elmi işçilərin hamısı internetə çıxış imkanları olan kompüterlə təmin olunmalıdır. Biz bunu öz daxili imkanlarımız hesabına etməyə çalışırıq. Bilirsiniz ki, bizdə ödənişli dissertantura var. Bu mənbədə nə vəsait yığılırsa onları kompyuterlərin alınmasına, ezamiyyə xərclərinin ödənilməsinə yönəldirik.

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
«525-ci qəzet», 2 may 2008-ci il.

AZƏRBAYCANDA İSLAM MƏDƏNİYYƏTİ

GÖVHƏR BAXŞƏLİYEVA: «ÖLKƏMİZ SİNTEZ MƏDƏNİYYƏTİN YARADICISIDIR»

Azərbaycanın da üzv olduğu İslam Konfransı Təşkilatı (İKT) müasir dövrdə müsəlman ölkələrini birləşdirən ən nüfuzlu beynəlxalq qurumdur. İKT 1969-cu ilin sentyabrında müsəlman ölkələrinin dövlət və hökumət başçılarının Mərakeşin paytaxtı Rabat şəhərində keçirilmiş konfransında təsis edilib. Dini birlik əsasında yaradılan bu təşkilatın əsas məqsədi üzv dövlətlər arasında islam həmrəyliyini möhkəmləndirmək, elm, mədəniyyət, sosial-iqtisadi və digər mühüm sahələrdə əməkdaşlığa tərəfdar çıxmaq, irqi ayrı-seçkiliyin və müstəmləkəçiliyin bütün formalarının ləğv olunmasına səy göstərmək, işğal olunmuş müqəddəs yerlərin azad edilməsi və toxunulmazlığının təminə nail olmaq. İslam xalqlarının istiqlaliyyəti uğrundakı mübarizəsinə yardım etmək, üzv dövlətlərin digər ölkələrlə əməkdaşlığı üçün hər cür şərait yaratmaqdan ibarətdir.

2001-ci ilin dekabrında Qətərin paytaxtı Dohada keçirilən İKT üzv ölkələrin Mədəniyyət Nazirlərinin III Konfransı İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESKO) təklif etdiyi «İslam mədəniyyətinin paytaxtları» ilkin proqramını təsdiqləyən qətnamə qəbul etdi. Bu qətnaməyə əsasən İSESKO İslam Konfransı Təşkilatına üzv dövlətlərin təklif edəcəkləri şəhərlər arasından Ərəb, Asiya və Afrika regionlarının hər biri üçün bir şəhər olmaqla hər il öz şəhərini seçəcək. Elə həmin konfransda Səudiyyə Ərəbistanında yerləşən Məkkə Əl-Mükərrəm şəhəri İslam mədəniyyətinin ilk paytaxtı seçildi.

2007-ci ilin noyabrında isə Liviyanın Tripoli şəhərində İKT üzv ölkələri Mədəniyyət Nazirlərinin V Konfransında Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Qarayev 2009-cu ildə Bakı şəhərinin İslam Mədəniyyətinin Paytaxtı kimi qeyd olunması təklifini irəli sürdü. Beləliklə, Azərbaycanın paytaxtı 2009-cu il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olundu və mədəniyyət nazirlərinin növbəti VI Konfransının Bakıda keçirilməsi qərara alındı.

Konfrans ərəfəsində Azərbaycan mütəfəkkirlərinin İslam mədəniyyətinə verdiyi dəyər və bu günə qədər ölkəmizdə İslam mədəniyyətinin qorunub saxlanması ilə bağlı fikirlərini öyrənmək üçün millət vəkili, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru **Gövhər Baxşəliyeva** ilə söhbətləşdik.

- ***Azərbaycan Qərblə Şərqin qovşağında yerləşir. Belə deyək ki, Qərb dəyərləri ilə Şərq sivilizasiyası məhz burada qovuşur. Bu gün Bakı İslam***

mədəniyyətinin obrazında necə görünür?

- Geosiyasi vəziyyətinə, yəni Qərblə Şərqin qovşağında yerləşdiyinə görə Azərbaycan mədəniyyəti həm Qərb, həm də Şərq mədəniyyətinin sintezindən yaranmış bir mədəniyyətdir. Tarixdən məlum olduğu kimi, Azərbaycan VII əsrin ikinci yarısından Ərəb xilafəti tərəfindən istila olunub. O vaxtlar ərəb mədəniyyəti bir intibah dövrünü yaşayırdı. Xüsusilə də X əsrə doğru bir ərəb-müsəlman mədəniyyəti yaranmışdı ki, bu mədəniyyətin formalaşmasında Azərbaycan xalqının böyük rolu olmuşdu. Öncə ondan başlayaq ki, Azərbaycanda o dövrdə ərəb dili geniş yayılmışdı, Azərbaycan xalqı İslam dinini qəbul etmişdi. Bunun nəticəsində də Azərbaycanda o zaman dini elmlər, xüsusən də ilahiyyat elmi və onun tərkib hissəsi olan fiqh ərəb dilində tədris edilirdi. Əgər biz deyiriksə ki, orta əsrlər Azərbaycan poeziyasının dili fars dilidir, cəsarətlə deyə bilərik ki, həmin dövr Azərbaycan elminin dili ərəb dilidir.

- Dediniz ki, İslam mədəniyyəti Azərbaycana VII əsrdən sonra gəlib. Ərəb işğalı ilə Azərbaycana İslam mədəniyyəti gəldi. Bəs Azərbaycan öz növbəsində İslam mədəniyyətinə hansı töhfələri verdi ki, hazırda onlar dəyərlər kimi qiymətləndirilir?

- Azərbaycan xalqı həm ərəb dilini mənimsədi, həm ərəb mədəniyyəti ilə yaxından tanış oldu, həm də bu mədəniyyətin formalaşmasında yaxından iştirak etdi. Bu baxımdan bizə məlum olan faktlar hansılardır? Məsələn, IX əsrdən etibarən bir sıra ərəb təzkirəçi-müəlliflər yazır ki, VII əsrin ikinci yarısında Mədinə və Məkkədə bir çox şairlər yaşayırdı ki, onlar əslən Azərbaycandan idilər. İbn Quteybə əd-Dinavari adlı ərəb filoloqu «Kitab-əş-şir və-ş-şüəra» adlı əsərində, Əbülfərəc əl-İsfahani «Kitab-ül-ağani» adlı 24 cildlik antologiyasında azərbaycanlı məvali şairlər haqqında çox yazıblar. Onlar «məvali» ona görə adlandırılırdılar ki, qul kimi Azərbaycandan Ərəb xilafətinin mərkəzinə aparılırdılar. Ərəblərdə bir qayda var idi, hər hansı qul tədricən bir ərəb qəbiləsinin himayəsini qazanırdı və qulluqdan azad edilirdi. Amma adı «məvali» qalırdı və həmin qəbilədə yaşayırdı. Həmin şairlərin şeirləri yuxarıda adlarını çəkdiyim təzkirələr vasitəsilə bu günümüzə qədər gəlib çatıb. Bundan başqa, XI əsr azərbaycanlı alim Xətib Təbrizi haqqında geniş məlumatlar verilir. Həm ərəb nəsrinin, həm də müsəlman ədəbiyyatşünaslıq elminin yaranmasında onun böyük rolu olub. Eyni zamanda digər alimlər, ədiblər, şairlər olub ki, onların əsərləri Şərq kitabxanalarında yayılıb. Həmin əsərlərdən bəziləri bizim Əlyazmalar Fondunda da var. Ümumiyyətlə, o dövrdə yaşayıb-yaradan Bərdəi, Bakuvi, Naxçıvani soyadlı alimlər çoxdur. Seyid Yəhya Bakuvinin qəbri hazırda İçərişəhərdədir. O, xəlvətilik təriqətinin banisi hesab edilir.

Bütün bunlar bir daha sübut edir ki, azərbaycanlılar İslam mədəniyyətinin

formalaşmasında yaxından iştirak ediblər. Bizim milli-mənəvi dəyərlərimizdə İslam amili güclü şəkildə öz əksini tapıb. Bir sıra şairlərimiz, məsələn, Füzuli üç dildə yazıb - ərəb, fars və Azərbaycan dillərində. Füzulinin ölməzliyinin bir səbəbi də onun yaradıcılığında üç mədəniyyətin tam şəkildə öz əksini tapmasıdır. Onun yaradıcılığı həm ideya-məzmun, həm bədii-estetik baxımından hər üç mədəniyyətin yetirməsidir. Nizami farsca yazıb-yaratsa da, bütün əsərlərində biz onun ərəb mənbələrindən bəhrələnməsinin şahidi oluruq. Nizaminin böyüklüyü ondan ibarətdir ki, o, hər hansı mövzuda yazanda o mövzuya dair özündən əvvəlki bütün mövcud ədəbiyyatı oxuyurdu. Bu ərəb təzkirələrinə, rəvayətlərinə də aiddir. Məsələn, «Leyli və Məcnun»un mövzusu ərəb rəvayətindən götürülüb.

Bununla bərabər, Qərb dəyərlərinin də Azərbaycan mədəniyyətinə təsiri çoxdur. Azərbaycan ziyalıları rus mədəniyyəti vasitəsilə Qərbə çıxış əldə etdilər və gördülər ki, Qərb böyük mədəniyyətə malikdir. Ona görə də o zamanlar Avropa və rus mədəniyyətinə çox böyük maraq vardı. Bizim ziyalılarımız başa düşürdülər ki, mütərəqqi ideyalar Qərbdən gəlir və bu ideyalara yiyələnməyə çalışırdılar. Onların təsiri altında bir sıra əsərlər yarandı, o dövrdə Azərbaycan mədəniyyəti güclü intibah dövrünü yaşadı.

Sonra Rusiya tərəfindən işğal edildik. Düzdür, bununla müstəqilliyimiz əlimizdən alındı. Lakin biz Avropaya Rusiya vasitəsilə çıxış əldə etdik. Təbii ki, bu, xalqın mədəniyyətində də müəyyən izlər buraxdı. Nəticədə elə bir sintez mədəniyyət yarandı ki, həm şərqlilər, həm qərblilər bizim mədəniyyətimizə valeh oldular. Bu, bizim elmimizdə də özünü göstərdi. Həm xalqın ümumi mədəni inkişafı, həm şüur cəhətdən, həm də elmin inkişafı baxımından Şərq bizə çata bilməz. Əksər Şərq ölkələrində elm, hər halda humanitar elmlər, orta əsrlər metodologiyası ilə inkişaf etdirilir. Əsərlərdə yalnız faktologiya – faktların yığımı və təsvirçilik mövcudur. Onlar analitik təhlil apara bilmirlər. Türkiyədə, İranda, Ərəb ölkələrində elmi əsərlər bu səviyyədədir. Bizdə isə elmi səviyyə çox yüksəkdir.

- Azərbaycan 70 il sovet əsarəti altında oldu və bu müddət ərzində İslam dini bir növ hücuma məruz qaldı. Müstəqillik əldə etdikdən sonra İslam mədəniyyəti ölkəmizdə lazım olan qədər inkişaf etdimi?

- Şəxsən bir şərqşünas-alim kimi hesab edirəm ki, biz o addımlar atmalıyıq ki, xalqımızın inkişafını daha da stimullaşdırsın, hansı sahədə olursa-olsun. Biz milli maraqlardan çıxış edərək istənilən məsələyə, o cümlədən də əsl İslamın təbliğinə ciddi diqqət yetirməliyik. İslam bizim ata-baba dinimizdir. Amma Azərbaycanda İslam bu gün Səudiyyə Ərəbistanında təbliğ olunduğu kimi təbliğ edilməməlidir. Və yaxud İranın Qum şəhərindəki dini məktəbdə tədris

olunduğu kimi yox. Azərbaycanda İslam xalqın inkişafını nəzərə alaraq yüksək səviyyədə təbliğ olunmalıdır. Islam, əlbəttə ki, yüksək mənəvi dəyərləri özündə birləşdirən bir dindir. Amma qeyd etdiyim kimi, biz bu gün vəhhabi, yaxud fanatik dərəcədə fundamentalistlər yetişdirə bilmərik. Biz azərbaycançılıq ideologiyası əsasında İslamdan halal, sağlam həyat tərzi, mənəvi paklıq kimi məsələləri əxz edə bilərik.

- Bir tədqiqatçı-alim kimi tez-tez başqa ölkələrdə olursunuz və bu sahədə işlərinizi davam etdirirsiniz. Ümumiyyətlə, Azərbaycanda İslam mədəniyyətinin təbliğindən razısınızmı?

- Hesab edirəm ki, Azərbaycanda islam daha yüksək elmi səviyyədə təbliğ və tədris edilməlidir. Azərbaycan qadınının vaxtilə çadranı atması inkişafımızda böyük müsbət hal olub. Bizim mütərəqqi ziyalılarımız çadraya qarşı nə qədər mübarizə aparıblar. Elə ərəblərin özündə də bu mübarizə gedib. Amma orada fundamentalistlər çox güclü olduğundan nəticə olmayıb.

- Gövhər xanım, bildiyiniz kimi, Bakı 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilib. Sizcə, bu, Azərbaycana nə verəcək?

- İslam aləmi tərəfindən Azərbaycan daha çox tanınacaq. Mən özüm parlament xətti ilə İslam Konfransı Təşkilatının Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin rəhbəriyəm. Mütəmadi olaraq bu qurumun sessiyalarında iştirak edirəm. Bildiyiniz kimi, indi 50-dən çox ölkə İKT-nin üzvüdür. Amma onların heç də hamısı Azərbaycanı kifayət qədər tanımır. Qarabağ məsələsi ilə bağlı mən orada bir çox məruzələr etmişəm. Çıxışım bitdikdən sonra mənə yaxınlaşıb Qarabağ məsələsi ilə bağlı suallar veriblər. Hətta onların bəziləri münaqişənin səbəbini belə bilmirlər. Bir dəfə mən Misirin məşhur «Əl-Əhram» qəzetinə müsahibə vermişdim. Müsahibəni oxuyanda qördüm ki, jurnalist yazıb ki, Azərbaycan bir Orta Asiya respublikasıdır. Odur ki, Azərbaycanın İslam aləmində tanınması vacibdir. İslam özü Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. İslam ölkələrinin əksəriyyəti Azərbaycanın mövqeyini dəstəkləyir. Sonuncu dəfə Birləşmiş Millətlər Təşkilatında Qarabağla bağlı qətnamə qəbul ediləndə, biz müsəlman ölkələrinin lehimizə səsverməsi hesabına üstünlük əldə etdik. Bu baxımdan İslam ölkələrinin bizi yaxından tanıması vacibdir.

Müsahibəni apardı: Fəxriyyə Abdullayeva,
«Mədəniyyət» qəzeti, 4 oktyabr 2008-ci il.

GƏLƏCƏYƏ QOYULAN SƏRMAYƏ

Müsahibimiz Milli Məclisin deputatı, AMEA Şərqşünaslıq İnstitutunun direktoru **Gövhər Baxşəliyevadır**.

- Azərbaycan elmində, o cümlədən, onun əsas ocağı olan Milli Elmlər Akademiyasında ciddi islahatların keçirilməsi günün təxirəsalınmaz vəzifəsinə çevrilib. Prezident İlham Əliyevin imzaladığı «Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında» sərəncamı bu zərurəti bütün kəskinliyi ilə ortaya qoyub. Azərbaycanın elm ictimaiyyəti bu sərəncamı necə qarşıladı və onun tətbiqinin nəticəsindən nə gözləyir?

- Ulu öndər Heydər Əliyev çox haqlı olaraq qeyd edirdi ki, «XXI əsrdə yalnız yüksək elmi potensiala və elm tutumlu texnologiyaya malik ölkələr öz xalqları üçün xoşbəxt və firavan həyat tərzi təmin etmək imkanına malik olacaq». Müdrikcəsinə deyilmiş bu fakir qloballaşan və elmi-texniki inqilabın ən yüksək mərhələsini yaşayan dünyamızda öz aktuallığını hər gün göstərir. Elmin inkişafından danışarkən haqlı olaraq bu sahədə islahatlara xüsusi önəm verilməlidir. Əslində, elə elmdə islahatların düzgün və səmərəli aparılması məhz elmin inkişafının ümdə şərtlərindəndir. Dünyanın ən inkişaf etmiş dövlətlərinin bu gün iqtisadi-siyasi proseslərdə oynadığı fövqəl missiyasını da təmin edən amil bu ölkələrin elmdə qazandığı nailiyyətləri və bu nailiyyətləri cəmiyyətin müxtəlif sahələrində müvəffəqiyyətlə tətbiq etmələridir.

Bu tendensiya Azərbaycan dövlətinin də mühüm əhəmiyyət verdiyi məqamlardandır. Elə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin imzaladığı «Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında» 10 aprel 2008-ci il tarixli sərəncamı da bu münasibətin təzahürlərindəndir. Sərəncamın 1-ci bəndi ilə yaradılmış Dövlət Komissiyası Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın və həmin strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramının layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir. Sərəncamın preambulasında elmimizin mövcud durumu yığcam şəkildə dəqiq təhlil olunmuş, islahatların bu vəziyyətin köklü şəkildə dəyişdirilməsinə yönələcəyi vurğulanmışdır. Başqa sözlə, islahatlar Azərbaycan elminin **modernləşməsi** anlamına gəlməlidir. Bu işdə mövcud şəraiti nəzərə almaqla, dünya ölkələrinin, xüsusən keçmiş sovet respublikalarının təcrübəsindən faydalanmaq lazımdır.

Sirr deyil ki, Akademiya sovet sistemindən qalma bir qurumdur və son 15

ildə ölkədə köklü dəyişikliklər baş verdiyi halda, burada əsasən köhnə struktur, maliyyələşdirmə və idarəetmə prinsipləri saxlanmışdır. Gözlənilən islahatlar Elmlər Akademiyasının əsaslı transformasiyasına gətirib çıxarmalıdır. Ümummilli liderimiz H.Əliyevin təbirincə desək, Elmlər Akademiyası Azərbaycanın milli sərvətidir, xalqımızın böyük nailiyyətidir. Nəzərə almaq lazımdır ki, Akademiyanın mövqelərinin zəifləməsi cəmiyyətdə psevdoelmə meydan açа bilər, hərçənd son illərdə bunun bütün əlamətlərini görürük: nəzarətçi ekspert mühiti olmayanda psevdoelm nümunələri yağışdan sonra göbələk kimi intellektual sferanı bürüyür.

- ***Nə qədər təkrar səslənsə də, elmdəki bir çox problemlərin kökünün mövcud maliyyələşmə sistemi ilə bağlı olmasını da unutmamalıyıq…***

- Tamamilə razıyam. Birdəfəlik etiraf etmək lazımdır ki, maliyyələşmənin hazırkı prinsipi (bərabərçilik – «uravnilovka») ilə elmin inkişafına ümid bəsləmək aldadıcı illüziyadan başqa bir şey deyil. Yaradıcı əməyin ödənilməsi ilə məmur işinin ödənilməsi arasından bərabərlik işarəsi götürülməlidir. Xarici ölkələrdə elmi tədqiqatlar dövlət strukturları, böyük biznes, və elm fondları tərəfindən maliyyələşdirilir. Bizdə isə bu iş bütünlüklə dövlətin üzərindədir. Bu mənada iri və varlı şirkətlərin hesabına elm fondlarının yaradılmasına çalışmaq lazımdır. Görkəmli rus alimi akademik Leonid Abalkinin sözləri yada düşür: «Hazırda tərəqqinin üç qüvvəsinin qarşılıqlı əlaqəsinə kəskin ehtiyac duyulur: hakimiyyətin, biznesin və elmin. Yalnız birgə səylərlə onlar həlli çatmış problemləri həll edə, Rusiyanın uğurla yeniləşməsini və çiçəklənməsini, övladlarımızın və nəvələrimizin gələcəyini təmin edə bilərlər» («Arqumentı i faktı» qəzeti, № 11, 2008-ci il, səh. 11). Konkret misal da çəkmək olar. Qardaş Türkiyədə TİKA deyilən türk iş adamlarının birliyi ölkədə təşkil olunan əksər elmi konfrans və simpoziumları maliyyələşdirir, alimlərin elmi ezamiyyələrinə daim vəsait ayırır və s.

Mövcud Elmlər Akademiyası sisteminin özündə də yeni maliyyələşmə metodlarının tətbiqi mümkündür. Bu mənada son 10 ildə elmdə innovasiya strukturunun yaradılmasında böyük sıçrayışa nail olmuş Çin Xalq Respublikasının təcrübəsi maraqlıdır. Çin Elmlər Akademiyasında elmi işçilərin məvacibi 3 hissədən formalaşır: 1) işçinin vəzifə maaşı; 2) vəzifə maaşına əlavə; 3) fəal işə görə mükafat. Bunlardan müvafiq olaraq, 1-si dövlət tərəfindən, 2-si Akademiya rəhbərliyi tərəfindən, 3-sü isə işçinin bilavasitə iştirak etdiyi layihə rəhbərliyi (institut) tərəfindən təyin edilir. Bu yolla Çində elmi kadrların sosial vəziyyətinin xeyli yaxşılaşmasına nail olunmuşdur.

- ***Bəs Azərbaycan reallığında sizin təklifiniz nədir?***

- Məsələn, xatırlatdığım Çin modelinə əsasən hər üç səviyyədə (işçinin vəzifə maaşı; vəzifə maaşına əlavə; fəal işə görə mükafat) məqsədli kiçik

qrantların ayrılması kimi formadan da istifadə etmək olar. Əmək haqlarının müəyyənləşməsində də institut rəhbərlərinə bir qədər sərbəstlik verilməlidir. Belə ki, hazırda mövcud qaydalara uyğun olaraq, elmi-tədqiqat İnstitutunun direktoru əməkdaşın vəzifə maaşına əlavəni yalnız həmin əməkdaşa əlavə inzibati vəzifə tapşırılanda verə bilər və əlavə əməkdaşın vəzifə maaşının 70%-dən çox ola bilməz. Belə də, institut rəhbərinin istedadlı kadrları stimullaşdırmaq imkanı, demək olar ki, çox məhdud olur.

Gənc və perspektivli kadrların dəstəklənməsi işində özümüzdə mövcud olan təcrübədən elmdə də istifadə etmək yerinə düşər. Məlumdur ki, yaradıcı təşkilatlara, o cümlədən, yazıçı və şairlərə Prezidentin xüsusi təqaüdləri verilir. Belə təqaüdlərin elmdəki istedadlara da verilməsi elmin dinamik inkişafında təsirli amil ola bilər.

Gənc alimlərə dövlət mükafatları da təsis etmək olar. Bu yaxınlarda Rusiya Prezidenti D.Medvedevin belə bir addım atmasının şahidi olduq.

Elmlər Akademiyasında gənc və perspektivli alimlərin stimullaşdırılması üçün xüsusi tədbirlər planı hazırlanmalıdır – onlar üçün kiçik həcmli qrantlar ayrılmalıdır, onların xarici ölkələrin elmi mərkəzlərində staj keçmələri üçün vəsait verilməlidir.

- Elmdə islahatlara ehtiyac duyan digər sahələr hansılardır?

- Azərbaycan elmindəki mövcud problematik durum, əlbəttə, təkcə maliyyələşmə prinsipləri ilə bağlı deyil. Bu, bir struktur böhranıdır. Söhbət AMEA-nın, onun ayrı-ayrı bölmə və institutların strukturundan deyil, elmin təşkili və idarə olunmasının prinsipcə yeni metodlarına keçməkdən gedir. Bir vaxtlar tətbiq olunan müqavilə sistemi necə deyərlər, axıra çatdırılmadı. Artıq elmdə modern formalara, ilk növbədə tədqiqatların konkret layihələr əsasında aparılması üsuluna keçilməlidir. Ağrısız olması üçün hətta bunu bir müddət plan-müqavilə üsulu ilə paralel şəkildə tətbiq etmək olar. Bu həm də əməyin ödənilməsində qeyd edilən bərabərçiliyə son qoyulmasına imkan verər.

İslahatlar zamanı xüsusi diqqət Elmlər Akademiyasının fəaliyyətində çevikliyin təmin olunmasına yetirilməlidir. Bu sahədə kök salmış bürokratik metodlardan imtina edilməli, elmi fəaliyyətin təşkili və maliyyələşdirilməsində daha müasir və mütərəqqi formalardan istifadəyə üstünlük verilməlidir.

Elmlər Akademiyasında alimlərin elmi fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi sistemi və ya mövcud attestasiya sistemi ciddi şəkildə islah edilməlidir. Attestasiyalar mövcud qayda ilə beş ildən bir yox, hər il, heç olmasa iki ildən bir aparılmalıdır, nəticələri formalizmdən azad olunmalı, yüksək nəticələr göstərən alimlər real şəkildə mükafatlandırılmalı və stimullaşdırılmalıdır.

Qloballaşan dünyada fundamental elmlərin inkişafı yalnız beynəlxalq elmi

məkana inteqrasiya şəraitində mümkündür. Azərbaycanda dünya elminin müasir vəziyyəti, inkişaf perspektivləri nəzərə alınmaqla geniş beynəlxalq elmi əlaqələr sistemi yaradılmalıdır. Azərbaycanın müxtəlif elmi müəssisələri və alimlərin beynəlxalq elmi layihələrdə iştirak etməsi üçün lazımi şəraitin və stimulların həyata keçirilməsi zəruridir. Aparıcı xarici elmi müəssisələrə ezam və görkəmli xarici alimlərin mühazirələr oxumaq üçün müəyyən müddətə ölkəmizə dəvət edilməsi vacibdir.

- Bəs gənc alimlərə münasibətdə hansı dəyişikliklər vacibdir?

- Azərbaycanda akademik elmi inkişaf etdirmək üçün Elmlər Akademiyasının müəyyən şəkildə təhsil səviyyəsindən başlayaraq gənc alim kadrların yetişdirilməsi prosesində iştirak etməsi zəruridir. Bu, müxtəlif formalarda həyata keçirilə bilər – Akademiya institutlarının nəzdində magistratura təhsilinin təşkil edilməsi ilə, yaxud elmə maraq göstərən perspektivli tələbələrin yuxarı kurslarda Akademiya institutlarında ixtisaslaşdırılmış kurs keçmələri ilə. Təəssüf ki, Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli fərmanı ilə təsdiq edilmiş AMEA-nın Nizamnaməsində əksini tapan – ali təhsil müəssisələri və magistratura yolu ilə yüksək ixtisaslı kadrlar hazırlamaq – kimi AMEA-nın çox vacib funksiyası hələ də gerçəkləşməyib. Halbuki Elmlər Akademiyasında ilk addım kimi magistraturanın açılışı çox vacibdir. Bunun üçün EA-da bütün zəruri şərait də var.

- Siz AMEA-da humanitar sahə üzrə institut rəhbərisiniz. Bu sahə elmdə aparılacaq islahatlardan nə gözləyir?

- Əvvəlcə bir mühüm məqama toxunmaq istərdim: Digər elm sahələri özəl sifarişlər, istehsalatla bağlı layihələr, hətta xarici ölkələrdən alınan qrantlar sayəsində gəlirlər əldə edə bilərlər. Humanitar və ictimai elmlər isə daha çox dövlətimizin himayəsinə güvənməlidir. Bu sahə mənəvi sfera ilə, milli ideologiya və dövlətçilik düşüncəsi ilə birbaşa bağlı olduğundan xüsusi qayğı ilə əhatə olunmalıdır. Bu elmlərə dar mənada «praktik fayda» meyarı ilə yanaşmaq olmaz. Bütövlükdə fundamental elm belə yanaşmanı qəbul etmir. Məşhur bir misalı xatırladaq: Faradeyin elektromaqnit induksiya effektini kəşf etməsi ilə bəşəriyyətin bütün tarixi boyu elmə xərclənən vəsait özünü doğrultmuşdur. Yaxud Ziya Bünyadovun «Azərbaycan VII-IX əsrlərdə», «Azərbaycan Atabəylər dövləti» kitablarının milli şüurun inkişafında oynadığı rolu hansı pul ekvivalenti ilə ölçmək olar?! Fundamental elmə xərclənən vəsait gələcəyə - millətin və dövlətin gələcəyinə qoyulan sərmayədir. Əgər bu gün tələb olunan maliyyə vəsaitini əsirgəsək, sabah bundan yüz qat artığını qoymalı olacağıq. İslahatlar da bu perspektivi nəzərə almaqla həyata keçirilməlidir.

Elm mənəvi fəaliyyət sahəsi olduğundan burada ilk stimul rolunu, təbii ki,

mənəvi amillər oynayır. Yəni qəlbinin hökmü ilə elmə gələn hər bir kəs onun vurğunu, müəyyən mənada fanatı olur. Amma biz maddi dünyada yaşayırıq və maddi təminat kifayət qədər olmadan hər hansı bir fəaliyyət, o cümlədən elmi fəaliyyət qeyri-mümkündür. Bu bir həqiqətdir ki, fundamental elm böyük məsrəflər tələb edən bir sahədir. Və bu məsrəflər heç də dərhal öz bəhrəsini vermir, yalnız perspektivdə özünü doğruldur. Amma güclü olmaq istəyən hər bir dövlət, gələcəyini düşünən hər bir millət bu məsrəflərə getməlidir. Yadınızdadırmı, böyük Nizaminin İskəndər haqqında yazdıqları:

Əmr etdi, verildi belə bir fərman:
«Alimdir gözümdə ən əziz insan!
Elmlə, hünərlə! – Başqa cür heç kəs
Heç kəsə üstünlük eləyə bilməz!
Rütbələr içində seçilir biri
- Hamıdan ucadır alimin yeri!»
Belə qərar verdi: yanında ancaq
Hər kəs öz elmiylə bir yer tutacaq.
Hamı elmə, fənnə elədi rəğbət.
Çünki elmə təşviq edirdi dövlət...

Yəni bu, təkcə elmin, Akademiyanın «daxili işi» deyil, bütövlükdə cəmiyyətə aidiyyatı olan, dövlətin inkişafına, insanların mənəviyyatına, o cümlədən gənclərin tərbiyəsinə təsir göstərən bir məsələdir.

Yada qardaş Türkiyənin baş naziri Rəcəb Təyyib Ərdoğanın keçən ilin sentyabr ayında Ankarada şərqşünasların XXXVIII Dünya Konqresində alimlərə xitabən dediyi sözlər düşür: «Sizlər ömrünüzü elə bir işə həsr etmisiniz ki, bu iş sizin özünüzə böyük mənfəət gətirmir. Amma sizlərin gördüyünüz iş bütövlükdə bəşəriyyətə, insanlığa böyük xeyir gətirir, xalqların inkişafını təmin edir, sülhə, barışa və rifaha xidmət edir».

Bu gün ən başlıca məqsəd AMEA-nı daha çevik, dövlətin və cəmiyyətin real tələbatına cavab verən və gələcək inkişafına xidmət edən bir quruma çevirməkdir.

İnanırıq ki, hörmətli Prezidentimiz cənab İlham Əliyevin dəfələrlə vurğuladığı və hazırda müstəqil ölkəmiz qarşısında duran ən ümdə vəzifə «iqtisadi kapitalı insan kapitalına» çevirmək işində məhz Milli Elmlər Akademiyasının böyük elmi potensialı həlledici rol oynayacaq.

Müsahibəni apardı: İxtiyar Hüseynli,
«Azərbaycan» qəzeti, 1 noyabr 2008-ci il.

«ŞƏRQŞÜNASLIQ İNSTİTUTU YENİ İNKİŞAF MƏRHƏLƏSİNƏ QƏDƏM QOYUB»

Müsahibimiz millət vəkili, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru **Gövhər Baxşəliyevadır**.

- Gövhər xanım, məlum olduğu kimi, bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun 50 yaşı tamam olub. Ona görə istərdik ki, ilk öncə rəhbərlik etdiyiniz institutun keçdiyi bu şərəfli yol barədə bir qədər ətraflı məlumat verəydiniz.

- 1935-ci ildə SSRİ Elmlər Akademiyasının filialının, 1954-cü ildə isə Tarix İnstitutu nəzdində Xarici Şərq ölkələri tarixi şöbəsinin yaradılması ilə Azərbaycanda Şərqin sistemli şəkildə tədqiqi başlandı. Şərqşünaslıq İnstitutu isə (1967-1984-cü illərdə Yaxın və Orta Şərq xalqları institutu) 1958-ci ildə o vaxtkı Nazirlər Sovetinin qərarı ilə Elmlər Akademiyasının digər institutlarında fəaliyyət göstərən müvafiq şöbə və qrupların əsasında yaradıldı. Həmin vaxtdan etibarən Azərbaycan şərqşünaslığının inkişafında keyfiyyətcə yeni dövr başlandı, coğrafi region və əsas tədqiqat istiqamətləri müəyyənləşdi. İnstitutun qarşısında duran başlıca vəzifə Yaxın və Orta Şərq ölkələrinin tarixi, ictimai-siyasi, iqtisadi və mədəni inkişafını və onun xüsusiyyətlərini tədqiq və təhlil etmək. Eyni zamanda, Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə çoxəsrlik mədəni-tarixi əlaqələrini nəzərə alaraq respublika üçün konkret tətbiqi əhəmiyyəti olan aktual tədqiqatlara da önəm verildi. İnstitutun yüksək ixtisaslı kadrlarının və elmi potensialının artması nəticəsində tədricən şərqşünaslığın tematikası genişləndi və zənginləşdi, Azərbaycanın Şərqşünaslıq elmi isə keçmiş ittifaqda aparıcı yerlərdən birini tutdu. Kollektivin səyi əsasən Yaxın və Orta Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi fikri və filologiyasının aktual problemlərinin kompleks şəkildə öyrənilməsinə, Şərq xalqlarının yazılı abidələrinin tədqiqi və nəşrinə, həmçinin Azərbaycan xalqının etnogenezi, tarixi, mədəniyyəti haqda ərəbdilli və farsdilli mənbələrin tərcümə və araşdırılmasına yönəldi. Akademiklər Əbdülkərim Əlizadə, Əlisöhbət Sumbatzadə, Həmid Araslı, Ziya Bünyadov, müxbir üzv Böyükağa Hüseynov, professorlar Aida İmanquliyeva, Rüstəm Əliyev, Əkrəm Cəfər, Rauf Seyidov və bir çox digər görkəmli alimlərimizin yorulmaz əməyi isə ona beynəlxalq nüfuz gətirdi...

- O da məlumdur ki, ötən əsrin 90-cı illərində ölkəni bürümüş dərin iqtisadi-siyasi böhran institutunuzdan yan keçməyib...

- O illərdə bütövlükdə respublikada baş verən güclü intellektual axın insti-

tutumuzda da özünü büruzə verib. Maddi problemlər səbəbindən o illər institut özünün bir sıra istedadlı əməkdaşlarını itirib. Sonralar vəziyyət tədricən normallaşıb və ölkədə aparılan elm siyasəti nəticəsində, göstərilən qayğı, diqqət nəticəsində bu sahədə də, digər sahələrdəki kimi sabitlik yaranıb. Onu da xüsusilə qeyd etmək istərdim ki, 1998-ci ildə ölkə prezidenti mərhum Heydər Əliyevin fərmanı ilə Şərqşünaslıq İnstitutuna akademik Ziya Bünyadovun adı verilib. Hazırda institutda 10 şöbə və bir elmi qrup fəaliyyət göstərir: İran tarixi və iqtisadiyyatı, Türkiyə tarixi və iqtisadiyyatı, Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı, Türk filologiyası, İran filologiyası, Ərəb filologiyası, Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri, Din və ictimai fikir tarixi, Şərq-Qərb qarşılıqlı münasibətləri, Cənubi Azərbaycan şöbələri və Mərkəzi Asiya və Uzaq Şərq elmi qrupu. Ötən müddət ərzində institutda 500-dən artıq monoqrafiya, məqalələr məcmuəsi və kitab nəşr edilib. İnstitut əməkdaşları Azərbaycan şərqşünaslığını bir çox beynəlxalq konqres, konfrans və simpoziumlarda, o cümlədən, şərqşünasların 7 beynəlxalq konqresində, Türk Tarix Qurumunun son on üç konqresində və sair təmsil ediblər. Həmçinin, Almaniya, Fransa, Çin, Avstriya, İtaliya, Böyük Britaniya, Türkiyə, Rusiya, İran, ABŞ, Kanada, Misir və sair ölkələrdə keçirilən şərqşünaslığın müxtəlif problemlərinə həsr edilmiş konfrans və simpoziumlara qatılıblar. İnstitutun hazırda Türkiyə, Fransa, Almaniya, Hollandiya, İran, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası, Rusiya, Qazaxıstan, Özbəkistan və sair ölkələrinin universitet və elmi mərkəzləri, habelə İSESKO və İRSİKA ilə sıx elmi əlaqələri var. İnstitut YUNESKO-nun dəstəyi ilə fəaliyyət göstərən Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun Azərbaycan üzrə əlaqələndiricisidir. İnstitut bir sıra mühüm Beynəlxalq elmi konfrans və simpoziumların təşkilatçısı olub: Şərqşünasların II Ümumittifaq elmi konfransı, Mustafa Kamal Atatürkün anadan olmasının 110 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans, Hollandiyanın Utrext Universiteti ilə birlikdə «Azərbaycan və qonşu ölkələrdə XX əsrin əvvəllərində ictimai-siyasi fikir və ideoloji reallıqlar» mövzusunda beynəlxalq elmi konfrans, Türkiyə Respublikasının 75 illiyinə həsr olunmuş beynəlxalq konfrans, «Qafqazda islam sivilizasiyası» adlı beynəlxalq simpozium, Osmanlı dövlətinin yaranmasının 700 illiyinə həsr olunmuş beynəlxalq konfrans, «Qloballaşma və islam» mövzusunda beynəlxalq elmi konfrans və sair. Qeyd edim ki, ölkəmizin müstəqillik qazanması institutun önündə üfüqlər açmaqla bərabər, həm də ciddi vəzifələr qoyub. Xarici siyasət xəttini bu gün müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün həm Şərq ölkələri ilə iqtisadi, siyasi, mədəni əlaqələrin genişləndirilməsi və həm də regionda gedən proseslərdə dövlət maraqlarının qorunması institutun elmi fəaliyyət dairəsinin daha da tutumlu olmasını, bir sıra yeni istiqamətlərin yaradılmasını, ciddi key-

fiyyət dəyişikliklərinin həyata keçirilməsini vacib edib. İnstitutun kollektivi bu yeni şəraiti vaxtında qiymətləndirərək qeyd edilən problemlərin həlli istiqamətində uğurlu addımlar atıb və atmaqdadır. Bu gün institutda elmi tədqiqat işləri əsasən aşağıdakı istiqamətlərdə aparılır: Şərq ölkələrinin ictimai-siyasi inkişafının qanunauyğunluqları; Şərq ölkələrinin tarixi, bu ölkələrdə cərəyan edən ictimai-siyasi, iqtisadi və etnik proseslər sistemində rolu, Şərq xalqlarının tarixi və filoloji irsi; yazılı abidələrin tədqiqi, tərcüməsi və nəşri; Şərq ölkələrində ictimai fikir və din, Yaxın və Orta Şərq ölkələrinin ictimai-siyasi həyatında İslam amili; Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələri; müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətlər; Şərq-Qərb sivilizasiyalararası münasibətləri; Azərbaycanın Şərq-Qərb münasibətlərində yeri və rolu; Şərq-Qərb dialoqunun geopolitik və kulturoloji aspektləri. Göründüyü kimi, elmi tədqiqat işlərinin istiqaməti klassik şərqşünaslıqla (qədim mənbələrin tədqiqi) bahəm müasir şərqşünaslığın da inkişafını təmin edir, Şərq ölkələrinin yeni ictimai-iqtisadi münasibətlər sisteminə keçmiş Azərbaycan üçün faydalı ola biləcək təcrübəsinin öyrənilməsini, həmin təcrübənin müsbət və mənfi tərəflərinin aydınlaşdırılmasını, Türkiyə, İran, Ərəb və digər Şərq ölkələri ilə iqtisadi, mədəni əməkdaşlığın prioritet sahələrinin müəyyənləşdirilməsini əhatə edir. Ümumiyyətlə, institutun ayrı-ayrı şöbələrində aparılan tədqiqat işlərinin hər biri müasir dünyada gedən qlobal proseslərin mahiyyətinin anlaşmasında, problemlərin köklərinin üzə çıxmasında və dövlətimizin strateji maraqlarına xidmət edən xarici siyasət kursunun müəyyənləşməsində xüsusi önəm daşıyır. İnstitutda aparılan tədqiqat işlərinin hər biri ölkəmiz üçün konkret əhəmiyyəti olan aktual məsələləri özündə cəmləşdirir. Təbii ki, burada onlar haqda geniş danışmaq, qoyulan problemlərin əhəmiyyətini sadalamaq qeyri-mümkündür. Təkcə cari ilin birinci yarısında institut əməkdaşlarının bu və digər mövzularla bağlı 18 kitabı çap olunub, «Elmi araşdırmalar» toplusunun 4 nömrəsi oxucuların istifadəsinə verilib, 100-ə yaxın məqalə dərc olunub ki, onların da xeyli hissəsi xarici ölkələrin ayrı-ayrı məcmuələrində işıq üzü görüb. Bütün bunlarla bərabər, institutda Yaxın və Orta Şərq ölkələrinin ədəbi, mədəni irsinin, dil məsələlərinin, Şərq ölkələrinin Azərbaycanla əlaqələrinin daha geniş araşdırılması əməkdaşların qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. Əsası akademik Ziya Bünyadov tərəfindən qoyulmuş Azərbaycana aid məşhur Osmanlı dəftərlərinin təhlili, müasir əlifbaya transliterasiya və nəşri davam etdirilir. İrəvan əyalətinin, Naxçıvan sancağının, Gəncə-Qarabağ və Tiflis əyalətlərinin, Lori vilayətinin icmal dəftərlərindən sonra Ərdəbil livasının müfəssəl dəftəri işıq üzü görüb. Azərbaycan dilinin inkişaf mərhələləri orta əsrlər ikidilli, ərəb-türk və fars-türk lüğətləri timsalında araşdırılır. Bu günə qədər Xubeyş Tiflisi-

nin, İbn Firiştənin, Əbu Həyyan Əndəlusinin və bir çox filoloqların lüğətləri təhlil edilərək nəşr olunub. İctimai həyatın müxtəlif sahələrinə aid xüsusi lüğətlərin tərtibi davam etdirilir. Bu günlərdə «Tibb terminləri lüğəti» işıq üzü görməlidir. «Ərəbdilli mənbələr Azərbaycan tarixi və coğrafiyası haqqında», «Orta əsrlərdə Şərq dillərinin qarşılıqlı əlaqələri və Azərbaycan ədəbi dili», «Klassik fars şeirlərinin Azərbaycan dilinə tərcümə məsələləri», «Orta əsrlər türk xalqları ədəbiyyatının tədqiqi», «Ərəb-Azərbaycan dil əlaqələrinin tədqiqi» və s. mövzularda tədqiqat işləri davam etməkdədir. Azərbaycan tarixi haqda farsdilli mənbə «Hafiz Əbru. Zeyli-Cami ət-təvarixi – Rəşidi» 2007-də işıq üzü görüb. Ənənəvi olaraq institutumuzda uzun illər Ərəb Şərqi, İran və Türkiyə öyrənilib. Bu gün institutda aparılan tədqiqatların coğrafi hüdudları genişləndirilir...

- ***Bəlkə bunu bir qədər də konkretləşdirəydiniz?***

- Kollektivimiz gözəl dərk edir ki, Yaxın və Orta Şərq ölkələri ilə yanaşı, bu gün Mərkəzi Asiya, Uzaq Şərq, Cənubi-Şərqi Asiya, Çin və sairə Şərq ölkələrini də öyrənməliyik. Artıq bu istiqamətdə müəyyən işlər də görülüb. «Çin Xalq Respublikası» adlı məlumat kitabı hazırlanaraq nəşr olunub, «Şərq ölkələri» adlı 50 çap vərəqi həcmində ensiklopediya çapa təqdim edilib. Əsərdə bütün Şərq ölkələrinin tarixi, coğrafiyası, əhalisi, iqtisadiyyatı, etnik və dini tərkibi, təbii sərvətləri, mədəniyyəti və müxtəlif sahələrdəki inkişaf göstəriciləri haqqında müfəssəl məlumat verilir. Hazırda İnstitutda İslam ensiklopediyası üzərində iş gedir. Mütəmadi olaraq institutda üç dövrü nəşr – «Elmi araşdırmalar», «Orta əsrlər Şərqi» və «Şərq filologiyası» topluları nəşr edilir. Bununla belə, instituta vaxtilə rəhbərlik etmiş və çalışmış görkəmli alimlərimizin yubileylərinə həsr olunmuş elmi sessiya və konfranslar keçirilib, onların elmi irsi təbliğ olunub və olmaqdadır. Fəaliyyətimizin bir istiqaməti də artıq bibliooqrafik nadir nüsxələrə çevrilmiş institutun dünyasını dəyişmiş əməkdaşlarının elmə böyük töhfə vermiş əsərlərinin yeni nəşridir. Məsələn, Z.Bünyadov «Azərbaycan VII-IX əsrlərdə», «Azərbaycan Atabəylər dövləti» və sair. Bir sözlə, Şərqşünaslıq İnstitutu bu gün müstəqil Azərbaycanın milli və dövlət maraqlarına xidmət edən zəruri bir elmi tədqiqat mərkəzi olmaqla yeni dövrün tələblərilə ayaqlaşan inkişaf mərhələsinə qədəm qoyub.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 17 yanvar 2009-cu il.

«ALİMİN YERİ KİTABXANALARDIR»

GÖVHƏR BAXŞƏLİYEVA: «ELMİ İŞÇİ DƏZGAH QARŞISINDA İŞLƏYƏN FƏHLƏ DEYİL, ELMİ İŞÇİDİR. ONA ŞƏRAİT YARATMAQ LAZIMDIR»

Akademiya haqqında hər hansı fikir söyləmək istəyən insanlar gəlsinlər bura. Buradakı əməkdaşların əsərləri ilə tanış olsunlar...

«Təhsil haqqında» yeni qanun layihəsinin Milli Məclisdə ikinci oxunuşdan keçməsinə baxmayaraq yeni qanunda əksini tapan bəzi məsələlərlə bağlı fikir ayrılıqları hələ də ortadan qalxmayıb. Qanun layihəsinin MM-in yaz sessiyasında üçüncü oxunuş müzakirəyə çıxarılacağı gözlənilsə də, yeni qanunun bu şəkildə qəbuluna etiraz edən elm adamları və millət vəkilləri sənəddə bir sıra məsələlərə daha açıq şəkildə aydınlıq gətirilməsinin vacibliyini önə çəkirlər. Beləliklə, «Təhsil haqqında» qanun layihəsi ilə bağlı «Şərq»də başladığımız müzakirələri bu dəfə AMEA-nın Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili **Gövhər Baxşəliyeva** ilə davam etdiririk.

- Bilirsiniz ki, bu qanunun qəbulu neçə illərdi ki, ləngiyirdi. Bəlkə də bizim ictimaiyyət heç bir qanunu bu qədər gözləməyib. Ən çox gözlənilən qanun idi ki, nəhayət ki, onun müzakirələri başladı. Hətta mən Bərdədən məktəb müəllimlərinin məktublarını almışam. Həmin məktuba böyük bir siyahı müəllimlər imza atmışdı ki, MM niyə «Təhsil haqqında» qanunu qəbul etmir. Həmin məktubda yazılmışdı ki, bu qanunun qəbul olunmaması müəllimləri çox narahat edir. Ilk öncə onu deyim ki, ikinci oxunuşda müzakirəyə çıxarılan qanun layihəsi üzərində böyük iş aparılıb. Işçi qrup tərəfindən, Şəmsəddin müəllim (MM-in elm və təhsil komissiyasının sədri Şəmsəddin Hacıyev – red.) tərəfindən çox böyük iş aparılıb, dünya praktikası və daxili ənənə öyrənilibdi. Maksimum çalışılıbdı ki, ictimaiyyəti qane edən, milli təhsil ənənələrini nəzərə alan, eyni zamanda Azərbaycan təhsil sistemini Avropaya inteqrasiya istiqamətində aparan «Təhsil haqqında» qanun hazırlansın. Ona görə də mən bu qanun layihəsinin lehinə səs vermişəm. Amma əlbəttə ki, mənim də müzakirələrdə razılaşmadığım məqamlar, təkliflərim olubdu.

- ***Bunlar hansı məsələlərlə bağlıdır?***

- (Qanun layihəsini vərəqləyir) 22-ci maddəni götürək. Ali təhsillə bağlı. 22.2-də yazılıb ki, Azərbaycan Respublikasının ali məktəblərində mütəxəssis hazırlığı üç tsikillidir. Birincisi, bakalavriatura, ikincisi, magistratura, üçüncüsü

isə doktoranturadır. Deməli, bu qanunla doktorantura ali təhsilin son pilləsi hesab olunur. Halbuki biz indiyə qədər hesab edirdik ki, doktorantura hazırlığı, ümumiyyətlə, elmi dərəcələrin verilməsi ali təhsilin bir hissəsi deyil. Bu, tam müstəqil bir işdir. Amma bu qanundan belə çıxır ki, tam ali təhsil almaq üçün mütləq doktoranturanı da bitirməlisən. Burada doktorantura deyəndə ikipilləli şəkildə elmi dərəcələrin alınması nəzərdə tutulur. Birincisi, konkret elmin adı göstərilməklə fəlsəfə doktoru, ikincisi isə müəyyən elmlər üzrə elmlər doktoru. Bu elmi dərəcələrin verilməsi, adların yazılması, müdafiələrin təşkili ali təhsil müəssisələrində həyata keçirilir. Amma Elmlər Akademiyasında bu, daha geniş şəkildə həyata keçirilir. Əgər bu, təhsilin son pilləsi hesab olunursa, burada bir uyğunsuzluq yaranır. Hər halda mən hesab edirəm ki, doktorantura ali təhsilin son pilləsi hesab olunmamalıdır. Sırf elmlə məşğul olmaq istəyənlər doktoranturaya gələ bilərlər.

- Əksər Avropa ölkələrində elmi dərəcələrin alınması birpilləlidir. Əgər biz təhsil sistemimizi Avropaya inteqrasiya etdirmək istəyiriksə, ikipilləli sistemi saxlamağın özü nə qədər düzgündü?

- İkipilləliyi keçid dövrü üçün saxladılar. Hələlik biz birpilləli sistemə keçməyə hazır deyilik. Çünki bizdə ənənə var. Bu ənənəni nəzərə alaraq doktorantura ikipilləli saxlandı. Bu da özlüyündə bizi qane edir. Əvvəlki aspirantura qalacaq, sadəcə, yeni qanunla doktorantura adlanacaq. Birinci pillədə yenə də müdafiələr olacaq və ona fəlsəfə doktoru, ikinci pillədə isə elmlər doktoru adı veriləcək. Sadəcə, doktoranturanın ali təhsilin son pilləsi hesab edilməsi mənim fikrimcə, mübahisəli məsələdir.

- İkipilləli sistemin saxlanılması, sizcə, gənc elmi potensialın xaricə axın etməsinə aparıb çıxarmayacaqmı? Fəlsəfə doktoru adını burada alan adam xaricdə doktorluq işi etmədən də professor adı ala bilər...

- Ona professor adı verə bilməyəcəklər. Bizdə olan ənənəyə görə, fəlsəfə doktoru hələ professor adından çox-çox uzaqdır. Mütləq ikinci müdafiə etmək – elmlər doktoru olmaq lazımdır. Həmişə biz müəllimlərimizdən də eşitmişik, Ziya müəllim də həmişə deyirdi, namizədlik dissertasiyası, hansı ki, biz indi onu fəlsəfə doktoru adlandırırıq, o sadəcə həmin müəyyən elm istiqamətində, müəyyən mövzu çərçivəsində səndən əvvəl yaranan bütün elmi fikrin icmalıdır. Bu icmaldan da əlbəttə ki, müəyyən nəticələrin çıxarılması. Sırf müstəqil, böyük elmi-tədqiqat məhz elmlər doktoru dərəcəsi almaq üçün yazılan doktorluq dissertasiyasında aparılır. Bunsuz professor adını vermək mümkün deyil.

- Elm adamları arasında bu məsələ ilə bağlı ikili mövqe var. Bəziləri elmə gəlməyin yolunu çətinləşdirməyin əleyhinə çıxırlar. Amma elə sizin həmkarınız Cəmil Həsənli deyir ki, elmlər doktoru adını almaq o qədər çətinləşdi-

rilməlidir ki, ora hər adam keçə bilməsin. Sizin bu məsələyə baxışınız necədir?

- Mən də belə hesab edirəm ki, təsadüfi insanlar gərək elmlər doktoru adı almasınlar. Bizim Ali Attestasiya Komissiyası da bu istiqamətdə iş aparır. Bir neçə aydır ki, yeni qayda tətbiq olunubdu. Elmlər doktoru işi müdafiə etmək istəyən şəxs mütləq xarici ölkələrdəki elmi nəşrlərdə altı elmi məqalə çap etməlidir. Halbuki əvvəl bu məhdudiyyət qoyulmamışdı. .

- ***Bəs buna imkanı olmayanlar nə edəcək?***

- Bunun üçün böyük imkan lazım deyil. Bu, maddi imkandan asılı deyil. sadəcə, yazılan əsər əgər doğrudan da elmdə yeni sözdürsə, çox əhəmiyyətlidirsə, istənilən xarici elmi nəşrlər özləri maraqlıdırlar ki, həmin məqaləni çap etsinlər. O məqaləni çap etmək üçün müdafiə edən şəxsin özü gedib bu nəşrləri axtarmalı deyil ki? O məqaləni elə İnternet vasitəsi ilə də, poçt vasitəsi ilə də göndərə bilər. Sadəcə, o səviyyədə olmalıdır ki, həmin o aparıcı elmi jurnallar onları çap etsinlər. Xaricdə elmi müəssisələrin, yaxşı universitetlərin çox sanballı elmi nəşrləri var. Orada məqalə çap etdirmək asan deyil ki? Orada elmi məqalələrin çapına çox böyük tələbkarlıqla yanaşılır. Bu məqalələrin çap olunması üçün hər hansı kommersiya marağı olmur. Sadəcə, bu məqalələrin elmi əhəmiyyəti, yeniliyi olmalıdır.

- ***Yeni qanunda ali məktəblərə qəbul prosesinin keçirilməsi ilə bağlı əksini tapan bənd ətrafında da mübahisələr var. Xüsusən də tələbələrin testdən sonra ali məktəbə yerləşdirilməsi ətrafında. Bununla bağlı sizin mövqeyiniz necədir?***

- Burada göstərilib ki, test imtahanlarının nəticələrinə uyğun olaraq ali və orta peşə ixtisas təhsili müəssisəsinə tələbə qəbulu ayrı-ayrı ixtisaslar üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən minimum keçid balı və əsas profil fənləri üzrə toplanılan ballar nəzərə alınmaqla abiturientlərin sərbəst seçimi əsasında həyata keçirilir. Bax, bu da məndə şəxsən mübahisə doğuran məsələdir. Indiyə qədər mövcud olan test üsulu cəmiyyətdə özünü təsdiq etmiş bir üsuldur. Cəmiyyət bu üsulu rəğbətlə qarşılayır və onun obyektivliyinə inanır. Indi yeni layihədə bu qaydalar bir qədər dəyişib. Yəni əvvəl TQDK həm biliyi qiymətləndirib, həm də yerləşdirməni aparırdısa, indi TQDK tərəfindən yalnız biliklərin qiymətləndirilməsi nəzərdə tutulur. Yerləşdirmənin isə tələbələrin seçimi əsasında aparılması nəzərdə tutulur.

- ***Bu, ali məktəblərə qəbul prosesində yenidən sovet dövründə olan ənənənin bərpasına aparmırmı?***

- Belə bir narahatçılıq var. Hər halda burada yazılıb ki, müvafiq icra hakimiyyəti tərəfindən müəyyən edilmiş minimum keçid balları və əsas profil

fənlər üzrə toplanmış ballar nəzərə alınmaqla tələbələrə seçim azadlığı veriləcək. Belə deyildi ki, Avropa ölkələrində bu qayda tətbiq olunur. Artıq zamanı yetişib, Azərbaycan da bu qaydalara keçməlidir. Təklif olunan variant hələ tətbiq olunmayıb. Ona görə də indidən bunun nəticələrinin necə olacağını demək çətindi.

- Qeyd etdiniz ki, «Təhsil haqqında» qanunun qəbul olunması ilə bağlı müəllimlərdən çoxsaylı məktublar alırdınız. Bu da bir həqiqətdir ki, müəllimlərin sosial təminatla bağlı yeni qanundan müəyyən gözləntiləri də var...

- Qanun layihəsində təhsil alanların sosial müdafiəsi, təhsil verənlərin sosial müdafiəsi ilə bağlı məsələlər var. 36-cı maddədə belə yazılıb. «Təhsil işçilərinin əməkhaqqı və vəzifə maaşları işçilərin funksional öhdəlikləri, peşə xüsusiyyətləri, ixtisas dərəcəsi və iş stajı nəzərə alınaraq təyin edilir. Dövlət və bələdiyyə təhsil müəssisəsi öz sərəncamında olan büdcədənkənar vəsait hesabına işçilərin əməkhaqqına əlavələr, mükafatlar və stimullaşdırıcı ödənişlər təyin edə bilər. Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi və pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrin adlarına görə əlavələrin həcmi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Elmi dərəcələr və fəxri adlara görə əlavə ödənişlər təhsil müəssəsində büdcədən kənar vəsaitlər hesabına da verilə bilər». Bildiyim qədər elmi dərəcələr və fəxri adlara görə büdcədən kənar vəsaitlərin verilməsi yenidir. Yəni indiyə qədər yalnız ali təhsil müəssisələri büdcədənkənar vəsaitləri əməkhaqqına əlavələr kimi verirdilər. Amma fəxri adlara görə, elmi adlara görə əlavələr mən eşitməmişdim. Burada bu məsələ əksini tapıb. Hesab edirəm ki, bu müsbət haldır. Bu gün elmlər namizədlərinin maaşına 30 manat əlavə olunur, elmlər doktoruna görə isə 50 manat əlavə olunur. Məsələn, təhsil müəssisəsinin imkanı varsa, 100 manat əlavə etsin. Bu özü müsbət haldır.

- Bayaq qeyd etdiniz ki, elmi adların alınması bir qədər çətinləşdirilməlidir ki, elmə təsadüfi adamlar gəlməsin. Amma bu gün o elmi adlar üçün ödənilən əlavələr həmin insanların zəhməti və itirdiyi illərlə nə dərəcədə uyğundu?

- Yəni deyirsiniz azdır?

- Əlbəttə azdır.

- İmkan olduqca yəqin ki, bu məbləğlərə baxılacaq.

- Amma belə deyirlər ki, elmi dərəcələrə görə əlavələrin az olması alimlərin say çoxluğundan irəli gəlir. Elmlər Akademiyasında köklü islahatlar aparılsa, bu məsələdə də dəyişiklik ola bilər. Bu fikirlə razısınızmı?

- Bilirsiniz ki, prezidentin sərəncamı ilə Elmlər Akademiyasında islahatların aparılması barədə komissiya da yaradılıb. Həmin sərəncamla bağlı akade-

miyanın birinci vitse-prezidenti Arif müəllim Həşimovun rəhbərliyi ilə işçi qrup yaradılıb və işçi qrup «Elmin inkişafı üzrə Milli Strategiya»nı hazırlayıb. Bu böyük bir sənəddir. Orada elmin inkişafı ilə bağlı bütün məsələlər nəzərə alınıb. Azərbaycan elmi hansı istiqamətdə inkişaf etməlidir. Islahatlar hansı istiqamətdə aparılmalıdır. Alimlərin sosial müdafiəsinə qədər bütün məsələlər orda nəzərə alınıb və həmin sənəd islahatları aparan komissiyanın sədri, baş nazir Artur Rəsizadəyə təqdim olunub. Bildiyim qədər onun yanında da bu sənəd müzakirə olunub və tam bəyənilib. Elmlər Akademiyası çox böyük bir qurumdur. Bu qurum Azərbaycan elminə çox böyük, dəyərli alimlər verib. Elmlər Akademiyası yaranana qədər də Azərbaycan elminin inkişafı ilə bağlı ayrı-ayrı şəxslər fəaliyyət göstərirdi. Amma bütövlükdə sistemli şəkildə elmi araşdırmalar Elmlər Akademiyası yaranandan sonra başlayıb. Bəzən deyirlər ki, elm universitetlərdə də inkişaf edir. Tam razıyam. Elm universitetlərdə də inkişaf edir. Ancaq universitet müəllimlərinin əksəriyyəti elmə o qədər də vaxt ayıra bilmirlər. Çünki onların ilk vəzifəsi tədrisdir və onların vaxtının əsas hissəsi də tədrisə həsr olunur. Düzdü, ayrı-ayrı insanlar tapılır ki, baxmayaraq ki, həm tədrislə məşğuldur, eyni zamanda da gözəl elmi əsərlər yarada bilir. Amma Elmlər Akademiyasında sırf elmi araşdırmalar aparılır. Elmlər Akademiyasında bu günə qədər mən deyərdim ki, Azərbaycan elmini dünya miqyasına çıxaran şəxslər yetişib. Texnika sahəsini götürün. Neft-kimya sahəsini götürün. Fizika sahəsini götürün. Humanitar, ictimai elmlər sahəsini götürün. Elə tək Ziya Bünyadovun əsərlərini götürün. Onun «Azərbaycan VII-IX əsrlərdə», «Azərbaycan Atabəylər dövləti» Azərbaycanda milli şüurun formalaşmasında müstəsna rol oynamış əsərlərdir. Bu əsərləri heç bir ekvivalentlə ölçmək mümkün deyil.

- Tez-tez akademiyanın institutlarının birləşdirilməsi ilə bağlı da fikirlər səsləndirilir...

- Belə bir fikir yoxdur. Amma ictimaiyyətdə bəzən səslənir ki, bu qədər alimin çalışması nəyə lazımdır. Amma yada salaq XII əsr Azərbaycan şerini. Siz Əlyazmalar Fondunda bir az çalışsanız görərsiniz ki, həmin dövrdə yüzlərlə şairlər olubdu. Onların biri də Nizami olubdu. O yüzlərlə, minlərlə şairlərə buraxılan vəsaitin müqabilində bir Nizaminin əsərləri kifayət etmirmi? O Nizami ki Azərbaycan xalqının, bütün şərq mədəniyyətinin fəxridir. Mənim şəxsi fikrim budur ki, çətin ki, bundan sonra Nizami səviyyəsində şair yetişsin. Nizami özündən əvvəl yaranmış həm Şərq mədəniyyətini, həm də Qərb mədəniyyətini üzvü surətdə özündə cəmləşdirən, özünün yaradıcı süzgəcindən keçirən, dahiyanə əsərlər yaradan şəxsdir. Nizaminin əsərləri bir möcüzədir. Ona görə də bu mənim şəxsi fikrimdir ki, əgər yüz alim içində bir Ziya Bünyadov yetişibsə və

o cür əsərlər yazılıbsa, bu həmin yüz alimin yaşamasına, işləməsinə dövlətdən vəsait ayrılmasına bəraət qazandırır. Halbuki o yüz alimdən biri Ziya Bünyadovdu. Digər 99-nunda içində Azərbaycan elmini şərəfləndirən xeyli alimlər olubdu. Hətta bizim institutda elə gözəl alimlər olub ki, onlar heç doktorluq müdafiə edə bilməyiblər. Həyatdan elmlər namizədi kimi köçüb gediblər. Amma onlar elmə o qədər gözəl töhfə veriblər ki, bu istənilən elmlər doktorunun verdiyi töhfədən çox olubdu.

- ***Yəni Akademiyanı bu qədər tənqid etməyə ehtiyac yoxdur?***

- Əlbəttə ki, yoxdur. Akademiyanı tənqid edən şəxslər, elmi işdən, elmi mühitdən uzaq olan adamlardır. Onlar bilmirlər ki, bu institutlarda hansı işlər gedir, nələr yaranır. Xahiş edərdim ki, akademiya haqqında hər hansı fikir söyləmək istəyən insanlar gəlsinlər bura. Buradakı əməkdaşların əsərləri ilə tanış olsunlar. Bəzən belə fikirlər də səslənir ki, akademiyaya gəldim, orada 3-5 adam var idi, qalanlar yox idi. Bu insanlar bir şeyi səhv salırlar. Elmi işçi dəzgah qarşısında işləyən fəhlə deyil. Elmi işçidir! Ona şərait yaratmaq lazımdır. Burada biz səhər 9-dan axşam 6-ya qədər bu insanları saxlasaq, bir otaqda 15-20 adam oturur. Təsəvvür edin. 15-20 adam bir otaqda yaradıcılıqla necə məşğul olacaq? Alimin yeri onun şəxsi kabinetidir. Alimin yeri kitabxanalardır. Alimin əməyi yaradıcı əməkdir. Onlar üçün tam şərait yaratmaq lazımdır. Onların əməyi haqqında onların ortaya qoyduğu əsərə görə dəqiq fikir bildirmək olar. Yoxsa kənardan durub nəyisə demək, bu düşgün olmazdı.

Müsahibəni apardı: Vüsalə Rafiqqızı,
«Şərq» qəzeti, 23 yanvar 2009-cu il.

«ORTAQ TÜRK DİLİNİN ƏSASINDA AZƏRBAYCAN DİLİNİN DAYANMASINI İSTƏRDİM»

Millət vəkili, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru **GÖVHƏR BAXŞƏLİYEVA: «MİLLİ EFİR MƏKANINDA BÜTÜN VERİLİŞLƏR ANA DİLİMİZDƏ GETMƏLİDİR.»**

- Gövhər xanım, bu günlərdə Milli Televiziya və Radio Şurasının Azərbaycan efir məkanında verilişlərin ana dilimizdə getməsi haqda qərarı ictimaiyyətin diqqət mərkəzindədir və geniş müzakirə olunur. Bu məsələ ətrafında müxtəlif fikirlər səsləndirilir. Bu haqda Sizin fikirlərinizi də bilmək istərdik.

- Milli Televiziya və Radio Şurasının qərarı vaxtında atılmış addımdır. Fikrimi əsaslandırmağa çalışacam. Azərbaycan dili Konstitusiyamızda təsbit olunmuş dövlət dili statusuna malikdir. Bu dili yaşatmaq, inkişaf etdirmək, tətbiqini təmin etmək, saflığını qorumaq dövlətin və hər bir vətəndaşın borcudur. Azərbaycan dili günümüzə qədər böyük inkişaf yolu keçib. Bu gün dilimiz bütün türk dilləri içində öz leksik və semantik tərkibinə, qrammatik strukturuna görə ən zəngini, ən inkişaf etmişidir. Eyni zamanda, müasir Azərbaycan dili türk dilləri içərisində öz təmizliyini və genetik xüsusiyyətlərini ən yaxşı qoruyub saxlamış dildir. Bu mənim subyektiv fikrim deyil. Bütün dilçi-alimlər tərəfindən qəbul olunmuş həqiqətdir. Deyək ki, XVIII əsrin sonunadək Orta Asiyada türk dili məhz Füzulinin «Leyli və Məcnun»u vasitəsilə tədris olunurdu. Belə olan halda, dilimizin tətbiqinin məhdudlaşdırılması hətta digər türk dilləri hesabına belə, xalqımıza lazımdırmı? Eyni zamanda, türkdilli xalqların bir-birinə yaxınlaşmasında, qarşılıqlı inteqrasiya prosesində dil probleminin olduğu da həqiqətdir və bir çox elm adamlarının fikrincə, ortaq türk dili bu problemi aradan qaldırar. Söhbət yeni dil yaradılmasından getmir – bütün türk xalqları üçün ümumi ola bilən dilin seçilməsindən gedir. Yəni, bu xalqlara hansısa yabançı, xarici dil və yaxud da «Esperanto» kimi süni düzəldilmiş dil təklif olunmur, söhbət əcdadlarımızın min illərlə danışdığı, sonrakı nəsillərə ərməğan verdiyi dilin hamı üçün anlaşılan bir formasının ümumi qəbulundan gedir. Və burada ortaq dil kimi hansı dilin seçilməsi də digərini aşağılamaq, yaxud onun dilinə sayğısızlıq kimi qiymətləndirilə bilməz. Çünki bu gün özbək, qazax, qırğız, türkmən, tatar, başqırd, Azərbaycan və sair adlarla adlandırdığımız dillərin hamısı bir kökdən, bir mənbədən gəlir. Vaxtilə hamımızın əcdadları bu dildə danışmaqla bir-birlərini başa da düşüb, fikirlərini çatdırıblar. Biz niyə eyni köklü xalq olduğumuz halda bir-birimizi başa düşməyək, niyə bizim aramızda

dil sərhədi olsun? Buna etiraz edənlər niyə düşünmürlər ki, ortaq dilin seçilməsi həm də bu dillərin hər birinin zənginləşməsinə, onlardakı yabançı sözlərin təmiz türk sözləri ilə əvəzləndirməsinə gətirib çıxara bilər. Fikir verin, Türkiyə ilə əlaqələrimiz vaxtilə dilimizdə olmuş, sonradan isə rus dilinin təsiri ilə sıxışdırılaraq unudulmuş nə qədər təmiz türk sözünün yenidən bərpa olunmasına səbəb olub. Məsələn, müstəqillik dönəminə qədər Azərbaycan dilində «subyektiv» sözünün təmiz türkcəsini çox az adam bilirdi. İndi isə hamı «özəl» deyir. Təmiz türk sözüdür, dilin bütün qanunlarını özündə əks etdirir. Yaxud sovet dövründə «multiplikasiya» deyilən bir söz var idi, hətta dilin işlək fonduna daxil edilmişdi. Mətbuatda da, televiziyada da belə yazılırdı. Lakin sonradan Türkiyə türkcəsi vasitəsilə dilimizə qayıdan «cizgi» sözü onu birdəfəlik arxivə atdı. «Cizgi» dilə də asanlıqla yatır, tələffüzü də asandır. O cümlədən «birbaşa translyasiya» ifadəsi. İndi «canlı yayım» deyirik. Birləşmənin hər iki tərəfi təmiz türk mənşəli sözlə ifadə olunub. Bir sözlə, ortaq dil türk respublikalarının inteqrasiyasına şərait yarada biləcəyi kimi, həm də bu dillərin etnomilli əsasda təmizlənməsini, inkişafını təmin edə bilər; dil saflaşar, durulaşar. Mən bu bir neçə misalın nümunəsində Azərbaycan dilinin Türkiyə ilə əlaqələr hesabına nə qədər yabançı sözdən xilas olduğunu görürəm. Yəqin ki, eyni proses Türkiyə türkcəsində də gedib. Orta Asiyanın türkdilli respublikalarına gəlincə isə, burada türk dillərinin vəziyyəti daha acınacaqlıdır. Qazax, qırğız, türkmən dilləri rus dilinin təsirinə daha çox məruz qalıb. Onların hətta ziyalıları danışanda hər cümlədə bir neçə rus sözü işlədirlər. Hətta yazılı ədəbiyyatda da yeri gəldigəlmədi rus dilindən alınma söz və birləşmələrə rast gəlinir. Əlbəttə, ortaq dil bu dillərin təmizlənməsinə, paklaşmasına, özünə qayıdışına şərait yarada bilər. Ən başlıcası isə xalqların inteqrasiya prosesini sürətləndirər, onların arasındakı mənəvi yaxınlığı daha da dərinləşdirər.

- Dediklərinizdən aydın olur ki, siz bir alim kimi ortaq türk dili ideyasını yüksək dəyərləndirirsiniz. Lakin onu da qeyd edək ki, söhbət hələlik ideyadan gedir. Tutaq ki, sabah konkret işə keçmək lazım gəlindi. Onda siz bu dillərdən hansının ortaq dil olmasına üstünlük verərdiniz?

- Mən ortaq türk dilinin əsasında Azərbaycan dilinin dayanmasını istərdim. Ona görə yox ki, özüm azərbaycanlıyam, öz dilimi daha çox sevirəm. Mən məsələyə daha çox dilçilik aspektindən, dilin öyrənilməsi səviyyəsindən, təmizliyindən, norma və qanunları gözləməsindən, tarixi-ənənəvi keyfiyyətləri qoruması baxımından yanaşıram. Təxminən min il bundan öncə yazıya alınmış «Kitabi - Dədə Qorqud» dastanı ilə bugünkü Azərbaycan dili arasında çox az fərq var. Müasir Azərbaycan oxucusu «Dədə Qorqud»u oxuyur və asanlıqla başa düşür. Yəni, müasir Azərbaycan dili türk dilləri içərisində öz təmizliyini,

genetik xüsusiyyətlərini ən yaxşı qoruyub saxlamış dildir. Digər tərəfdən, Azərbaycan dili kifayət qədər ciddi öyrənilib, dil materialı linqvistik baxımdan ətraflı tədqiq edilib. Adi bir misal deyim, Mahmud Kaşğarinin hələ XII əsrdə türk dillərində kəşf etdiyi ahəng qanunu bu gün ən çox Azərbaycan dilində izlənilir. Bu da dilin axıcılığında, rəvanlığında özünü göstərir. Ona görə də Azərbaycan dili tez anlaşılır və başa düşülür. Dilimizin bu xüsusiyyətini nəzərə alaraq bir vaxtlar M.Y.Lermontov yazırdı ki, fransız dili Avropa üçün nədirsə, azərbaycanlıların da dili Şərq üçün həmin şeydir. Hesab edirəm ki, ortaq türk dilinin əsasında Azərbaycan dilinin dayandığı təqdirdə onun bütün türkdilli xalqlar üçün ümumişlək dilə çevrilməsi problemi olmayacaq.

- ***Görünür, bu, dilçi alimlərimizin böyük sənətkarlarımızla birgə uzun müddət dilimizin saflığı uğrunda apardıqları mübarizənin bəhrəsidir. Dilimizin ərəb-fars tərkibindən təmizlənib, dilin ən «dözümlü» hissəsi olan fellər əsasında onlarla yeni sözlər yaranıb...***

- Tamamilə haqlısınız. Qaldı məsələnin ortaq türk dili müstəvisinə gətirilmə-sinə, mən dəmirəm ki, ortaq türk dili kimi Azərbaycan dili qəbul olunmalıdır, mən deyirəm ki, ortaq türk dilinin əsasında Azərbaycan dili dayansa daha yaxşı olar. Əlbəttə, həmin dilə Türkiyə türkcəsindən də, türkmən dilindən də, qazax dilindən də, qırğız dilindən də sözlər, ifadələr gələ bilər. Çünki dil daim inkişaf etməyi, zənginləşməyi sevən ictimai ünsiyyət vasitəsidir. Tutaq ki, bu gün bizim dilimizdə elə alınma sözlər işlənir ki, onların təmiz türkcəsini bilmirik. Sabah həmin söz qazax və yaxud qırğız dili vasitəsilə dilimizə qayıdıb möhkəmlənə bilər. Bunun nəyi pisdir ki? Əksinə, dilimiz zənginləşər. Ortaq dil məsələsinə gəldikdə isə yenə deyirəm, mən həmin dilin əsasında Azərbaycan dilinin dayanmasını istərdim. Bu isə o demək deyil ki, digər türk dilləri, o cümlədən Türkiyə türkcəsi inkar olunmalıdır, yox, sadəcə dilimizin qrammatik strukturu, fonetik qanunları ortaq türk dilinin əsasını təşkil etməyə optimal imkan verir.

- Gövhər xanım, yuxarıda qeyd etdiyiniz kimi, dil ictimai ünsiyyət vasitəsidir. Bu baxımdan, inanırsınızmı ki, bu vasitə türk dünyasının inteqrasiyasında əsas rol oynayacaq?

- Bilirsiniz, qloballaşan dünyada sərhədlər şərti mahiyyət daşımağa başlayır, ölkələr və xalqlar qovuşur. Heç kəs bu proseslərdən kənarda, təcrid olunmuş vəziyyətdə yaşaya bilmir. Görün, bu gün dünyada nə qədər birlik var. Avropa Birliyi, Ərəb Ölkələri Liqası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və sair, və ilaxır. Bütün bu birliklər ümumi inteqrasiya və bundan da öncə qloballaşmanın qanunauyğunluğundan doğur. Belə bir zamanda türk respublikalarının da siyasi, iqtisadi və mədəni inteqrasiyaya can atmaları təbii-

dir. Əgər bu gün türk respublikaları arasında ortaq dil problemi həll olunarsa, sabah digər sahələrdəki maneələr də aradan qalxar. Bir sözlə, türkdilli respublikaların yaxınlaşması üçün əsas çoxdur və mənim fikrimcə, belə bir inteqrasiya bizim qloballaşmaya verdiyimiz ən yaxşı töhfə ola bilər.

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
«525-ci qəzet», 17 fevral 2009-cu il.

«QƏRBİN İKİLİ SİYASƏTİ YAXIN VƏ ORTA ŞƏRQDƏ AĞIR NƏTİCƏLƏR DOĞURUR.»

GÖVHƏR BAXŞƏLİYEVA: «NİAMEY BƏYANNAMƏSİNDƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ DƏ ƏKSİNİ TAPDI.»

Əsrlərdən bəri formalaşan islam mədəniyyəti öz zənginliyi ilə seçilir. İslam nəinki bu dinə sitayiş edənlərə, başqa dindən olan insanlara da hörmət və sevgi ilə yanaşmağı istəyir. Bu dinin təməlində ədalət prinsipi durur. Amma nədənsə bu gün dünyada ədalətsizliklə, qanlı qırğınlarla qarşılaşan ölkələr də əhalisi islam dininə sitayiş edənlərdir.

Bu bir problemdir və bu problemi də Qərb ölkələri yox, məhz islam dövlətləri özü həll etməlidir. Bəs görəsən islam dövlətləri bu problemləri həll etməyin yollarını nədə görür. Bu yaxınlarda islam ölkələrinin nümayəndələri Nigerin paytaxtı Niameydə toplaşdı. İslam Konfransı Təşkilatına üzv ölkələrin Parlament İttifaqının tədbirləri keçirildi. Azərbaycandan tədbirlərə qatılan nümayəndə həyətinə rəhbərliyi isə millət vəkili **Gövhər Baxşəliyeva** edib. Toplantılarda hansı məsələlərin müzakirə olunması, hansı problemlərin gündəliyə çıxarılması ilə bağlı suallarımızı millət vəkilinə ünvanladıq.

- Gövhər xanın, islam ölkələri 3 gün ərzində bir araya gəldi. Keçirilən tədbirlərin mahiyyəti barədə nə deyə bilərsiniz?

- Nigerin paytaxtı Niameydə İslam Konfransı Təşkilatına üzv ölkələrin Parlament İttifaqının bir sıra tədbirləri oldu. Altı üzvündən birinin də mən olduğum İcraiyyə Komitəsinin tədbiri oldu. Üç daimi komitənin iclasları oldu. Mən siyasi və iqtisadi məsələlər komitəsində iştirak etdim. Müzakirəyə çıxarılan məsələlərdən biri də Ermənistan-Azərbaycan münaqişəsi oldu. Yığıncaqda öz təklifimi verdim ki, təşkilat bir daha münaqişəyə dair qətnamə qəbul etsin. İştirakçıların diqqətinə çatdırdım ki, islam ölkələrinin, beynəlxalq təşkilatların dəstəyinə, görülən işlərə baxmayaraq, məsələ həllini tapmayıb. Qəbul olunmasını təklif etdiyim qətnamədə bildirilirdi ki, İslam Konfransı Təşkilatı Parlament İttifaqı münaqişənin bu günə qədər həll edilməməyindən təəssüfünü ifadə edərək, işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrini dərhal icra etməyə və Ermənistanı təkidlə BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə, həmçinin beynəlxalq təşkilatların münaqişə ilə bağlı digər qərarlarına əməl etməyə və silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarmağa çağırır. İKT Pİ üzv döv-

lətləri Ermənistan və Azərbaycan arasında olan münaqişənin qısa zamanda dinc həllinə nail olunmasına səmərəli töhfə verməyə və işğalçı Ermənistanla bütün əlaqələri kəsməyə çağırır. Parlament İttifaqı beynəlxalq birliyi təkidlə azərbaycanlı qaçqın və məcburi köçkünlərin ağır həyat şəraitinə laqeyd qalmamağa çağırır, Ermənistan və Azərbaycan arasında beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan ədalətli sülh sazişinin bağlanmasına kömək məqsədilə beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlament və hökumətlərinə səylərini artırmaq üçün müraciət edir. Bundan sonra Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyətinin rəhbəri də çıxış etdi və təklifi dəstəklədi. Bir sıra ərəb ölkələrindən nümayəndələr də təklifə dəstək verdi və qətnamə qəbul olundu. Konfransın son günü Niamey Bəyannaməsi də qəbul olundu. Bəyannamədə müsəlman aləminin bir sıra problemləri ilə yanaşı, Dağlıq Qarabağ məsələsi də öz əksini tapdı.

Müsəlman ölkələrində problemlər, münaqişələr çoxdur. Fələstin-İsrail qarşıdurması, İraqda minlərlə günahsız insanın qırılması və bu kimi bir çox ciddi məsələlər var. Ümumiyyətlə, müsəlman ölkələrinin nümayəndələri bu problemlərin müzakirəsi zamanı hansı həll yollarını gündəmə gətirdi?

- Onu qeyd edim ki, təşkilatın bütün yığıncaqlarında ilk müzakirə olunan məsələ İsrail-Fələstin qarşıdurması oldu. Bu sessiyadan daha əvvəl yanvarın 14-də TBMM-in rəhbəri Göksal Topdanın təşəbbüsü ilə Parlament İttifaqının İcraiyyə Komitəsi İstanbulda toplandı. Həmin iclas münaqişəyə həsr olunmuşdu. Hadisənin pislənilməsi və sair məsələlərlə bağlı bəyannamə də qəbul olundu. Niameydə keçirilən yığıncaqlarda isə İKT Pİ təkidlə tələb etdi ki, ilk növbədə məsələ ədalətlə həll olunsun. BMT-nin hələ 1947-ci ildə çıxardığı qərarla paytaxtı müqəddəs Qüds şəhəri olan müstəqil Fələstin dövlətinin yaradılması ilə bağlı qərarın olduğu bildirildi və bu məsələnin həll olunması tələb olundu. Başqa məsələlər də müzakirə olundu. Hazırda Qəzza zolağından seçilən bir sıra fələstinli millət vəkilləri başda sədr olmaqla həbsə alınıb həbsxanalarda saxlanılır. Onların azad olunması tələb olundu. Bundan başqa həbsdə saxlanılan fələstinlilərlə beynəlxalq normalara uyğun rəftar olunması tələb olundu. Fələstin xalqına humanitar yardımı çatdırmaq üçün sərhədlərin açılması tələb olundu. Hazırda Fələstində bir qədər ikitirəlik yaranıb. Qəzza zolağında fəaliyyət göstərən «Həmas» Fələstin muxtariyyatının prezidenti Mahmud Abbasa tabe olmur. Qəzza sektorundan olan nümayəndələr Parlament İttifaqına müraciət etmişdi ki, Qəzza sektorunun təşkilata ayrıca bir üzv kimi qəbul olunması müzakirə olunsun. Mahmud Abbasın nümayəndələri isə bunun yolverilməz olduğunu bildirdi. Nümayəndələrin fikrincə, əgər söhbət Fələstin xalqının birliyindən gedirsə, ikitirəliyə yol açan məsələ gündəmdən çıxarılma-

lıdır. Onlar bildirdilər ki, Fələstin xalqının prezidenti var və münaqişənin danışıqlar yolu ilə həll olunmasına çalışmaqla düzgün siyasət aparır. Buna görə də Qəzza sektorundan müraciət edənlərin məsələsi gündəlikdən çıxarıldı. Digər bir müraciət isə Birləşmiş Ərəb Əmirliklərindən daxil olmuşdu. Belə ki, onlar hesab edirlər ki, İranın ərazisinə daxil etdiyi üç ada Əmirliklərə məxsusdur. İran nümayəndə heyəti isə bu məsələ ilə bağlı çox kəskin çıxış etdi və belə məsələlərin gündəliyə qoyulmasının düzgün olmadığını bildirdi. Ona görə də bu məsələ də sessiyaya çıxarılmadı.

İraq xalqının suverenliyinin bərpa olunması məsələsi müzakirə olundu. Darfurdakı, Kiprdəki, Qərbi Trakiyadakı vəziyyət müzakirə olundu. Qərbin ölkələrə münasibətdə ikili standartlara yol verməsi və bu siyasətin Yaxın və Orta Şərqdə doğurduğu ağır nəticələrlə bağlı məsələ gündəmə gətirildi. Daha bir müzakirə mövzusu isə Yaxın və Orta Şərq regionunun nüvə silahından azad zonaya çevrilməsi ilə bağlı oldu. Eyni zamanda xalqların müasir enerji texnologiyalarından, o cümlədən də nüvə enerjisindən sülhməramla istifadə etmək hüququnun bərabərliyi məsələsi gündəmə gətirildi.

- İslam ölkələrinə iqtisadi cəhətdən yardım etmək məqsədi daşıyan hansısa bir qurumun yaradılması ilə bağlı fikirlər səsləndirildimi?

- İslam ölkələrinə yardım edilməsi məqsədilə Beynəlxalq İslam Fondunun yaradılması məsələsi müzakirə olundu. Zəngin ərəb dövlətləri həmişə kasıb islam ölkələrinə kömək edir. Fələstin hadisələrindən sonra Səudiyyə Ərəbistanı Fələstin xalqına 1 milyard dollar ayırdı. Amma o vəsaiti Həmas vasitəsilə deyil, Mahmud Abbas vasitəsilə ötürdü. Bundan başqa kasıb islam ölkələrinin borclarının zəngin islam ölkələri tərəfindən bağışlanılması, yaxud da ki, borcların bir qisminin silinməsi kimi məsələlər gündəmə gətirildi. Milli parlamentlərdə sivilizasiyaların dialoqu mərkəzlərinin yaradılması, qeyri-ərəbdilli islam ölkələrində ərəb dilinin tədrisi kimi məsələlər də müzakirə olundu.

- Bakı İslam mədəniyyəti paytaxtı elan olunub. Bunun əhəmiyyətini nədə görürsünüz? İslam mədəniyyətinin formalaşmasında Azərbaycanın rolunu necə xarakterizə etmək olar?

- Bunun çox böyük əhəmiyyəti var. Əvvəla ona görə ki, Azərbaycan xalqı müştərək müsəlman mədəniyyətinin yaradıcılarından biridir. Azərbaycanın ərəb xilafəti tərəfindən 643-cü ildə istila olunmasından sonra ərəb dili və mədəniyyəti Azərbaycanda geniş yayılıb. İnsanlar o zamanlar təhsili də çox zaman ərəbcə alıb. Yaxud da daha təkmil təhsil almaq üçün xilafətin mərkəzi şəhərlərinə gediblər. Bundan sonra həmin insanların bir çoxu müştərək müsəlman mədəniyyətinin yaradıcılarından olublar. Ərəb mənbələrindən oxuyuruq ki, Məkkə və Mədinə şəhərlərində azərbaycanlı şairlər yaşayıb-yaradıb. Onlar

şerlərini ərəbcə yaradırdı. Daha sonra həmin şerlər qələmə alındı və ərəb antologiyalarına daxil edildi. Azərbaycanlı alimlər ilahiyyat sahəsində də çoxlu əsərlər yaradıb. Həmin əsərlərin bir çoxu bu gün də AMEA-nın Əlyazmalar İnstitutunda saxlanır. O dövrdə Azərbaycanda ərəb dilini tədqiq edən və ərəb dilçiliyinə aid bir çox əsərlər yaranıb. Quranın təfsirinə aid olan bir çox əsərlər yaranıb. Hətta xilafət dağıldıqdan sonra da bir müddət Azərbaycanda elm dili ərəb dili olub. Təbii ki bu dövrdə yaradılanlar da müştərək müsəlman mədəniyyətinin bir hissəsidir. Müasir dövrdə məsələnin əhəmiyyətinə gəlincə isə, bir daha müsəlman aləminin diqqətini Bakıda cəmləşdirmək, islam aləmində daha yaxından tanınmaq üçün bu hadisənin böyük önəmi var. Bir sıra tədbirlər keçiriləcək ki, bu həm yerli əhali, həm də islam aləmi üçün önəmli hadisədir.

- Son zamanlar Türkiyənin Ermənistanla münasibətləri yumşaltmaq istəməsi, Dağlıq Qarabağ münaqişəsinin həllinə soyuq yanaşması ilə bağlı fikirlər səsləndirilir. Sizin bu hadisələrə münasibətiniz necədir?

- Türkiyə hər zaman Azərbaycanın strateji tərəfdaşı olub. Onlar bizə qardaş ölkədir və olaraq da qalacaq. Türkiyə Ermənistanla hər hansı bir danışıqlar aparsa, əməkdaşlığa gedərsə də belə, Azərbaycanın mənafeyinə zərbə vuracaq bir addım atmasına inanmıram. Olan söhbətləri artıq hesab edirəm. İştirak etdiyim bütün tədbirlərdə Türkiyənin Azərbaycanın mənafeyini daim müdafiə etdiyini müşahidə edirəm.

Müsahibəni apardı: Aygün,
«Olaylar» qəzeti, 28 fevral - 2 mart, 2009-cu il.

AZƏRBAYCANDA ŞƏRQŞÜNASLIQ ELMİ YÜKSƏK SƏVİYYƏDƏ İNKİŞAF EDİB

Müsahibimiz Milli Məclisin deputatı, AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor **Gövhər Baxşəliyevadır**.

- Gövhər xanım, Azərbaycan elmi bu gün inkişafın hansı mərhələsindədir?

- Bu günə qədər Azərbaycan elmi çox böyük inkişaf yolu keçib. Azərbaycan mütəfəkkir və alimləri Şərq fəlsəfi fikrinə böyük töhfələr veriblər. Orta əsrlərdən başlayaraq Şərq xalqlarının mədəniyyətinin, elminin yaradıcılarından biri olublar. Bunlara Xətib Təbrizi, Bəhmənyar, Şəhabəddin Sührəvədi, Nəsrəddin Tusi, Bərdəi, Seyid Yəhya Bakuvi və digərlərini misal gətirmək olar. Azərbaycanda 1946-cı ildən Elmlər Akademiyasının yaradılması ilə elmin nizamlı, sistemli şəkildə inkişafı başlandı. Bir neçə il əvvəl Elmlər Akademiyasının 60 illiyi qeyd olundu. Bu illər ərzində Elmlər Akademiyası Azərbaycanda fundamental elmin inkişafında həm dəqiq elmlər – neft-kimya, riyaziyyat, geologiya və digər sahələrdə, həm də ictimai və humanitar elmlərin inkişafında çox böyük nailiyyətlər əldə etdi. Çox güclü kadr potensialı yaradılmışdır. Rəhbərlik etdiyim Şərqşünaslıq İnstitutu 1958-ci ildə yaradılıb. İnstitutun yaranma tarixi bilavasitə görkəmli mənbəşünas və mətnşünas alim, akademik Ə.Əlizadənin adı ilə bağlıdır. Daha sonra İnstituta elmdə öz dəst-xətti olan, böyük məktəb yaratmış akademik Ə.Sumbatzadə, akademik H.Araslı, akademik Z.M.Bünyadov və professor A.İmanquliyeva kimi görkəmli alimlər rəhbərlik etmişlər. Onlar Azərbaycan xalqının milli şüurunun formalaşmasında çox mühüm rol oynamışlar.

Akademik Ə.Əlizadə mənbəşünaslıq sahəsində, farsdilli mənbələrin tədqiqində çox böyük işlər görmüşdür. Azərbaycanın tarixi, mədəniyyəti üçün çox böyük əhəmiyyət kəsb edən əsərlərin elmi-tənqidi mətnini tərtib edib, tərcümə edib, onlara şərhlər yazıbdır. Akademik Z.M.Bünyadov yazdığı əsərlərində Azərbaycanın VII-IX əsrlərdəki sosial, iqtisadi, mədəni inkişafını dəqiqləşdirib, tam əhatə etmişdir. Bu gün hər bir azərbaycanlı qürur hissi duyur ki, mənim babam VII əsrdə bədii sənət əsərləri yaradıb. Professor Aida xanım İmanquliyeva Azərbaycan ərəb ədəbiyyatşünaslıq məktəbinin yaranmasında müstəsna xidmətlər göstərmişdir. Onun çoxsaylı elmi əsərlərində Qərb-Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da bütün Şərq ədəbiyyatının

gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaratmışdır.

Sovetlər İttifaqı dağılandan sonra həyatımızın bütün sahələrində dərin tənəzzül və böhran başladı. AMEA da öz çətin dövrlərini yaşadı. Bildiyiniz kimi, məvaciblər o dövrlərdə çox aşağı idi və bunun da nəticəsində beyin axını baş verdi. İnsanlar daha gəlirli sahələrə üz tutdular. Bir sıra əməkdaşlarımızı itirdik. Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra, həyatımızın bütün sahələrində olduğu kimi, Azərbaycan elmində də sabitlik yarandı. Ulu öndərin hakimiyyətə qayıtdıqdan sonra ilk görüşlərindən biri məhz AMEA-da oldu. Birmənalı şəkildə bildirdi ki, Elmlər Akademiyası Azərbaycan xalqının milli sərvətidir və bu sərvəti biz qoruyub yaşatmalıyıq. AMEA-da vəziyyət getdikcə sabitləşməyə başladı. Bəzi kadrlar geri qayıtdı, gənclərin elmə axını daha gücləndi. Bizim əsas vəzifəmiz istedadlı gəncləri qoruyub saxlamaqdır. Elə etmək lazımdır ki, onlar bütün vaxtlarını yalnız elmə sərf etsinlər. Biz onların akademiyada tam gücləri ilə işləmək imkanlarını təmin etsək, bu Azərbaycan elminə çox böyük töhfə verər. Əsl alimi yetişdirmək üçün onilliklər lazımdır. İstedadlı insanları qoruyub saxlamalıyıq, çünki elmin inkişafını məhz istedadlı kadrlar təmin edir.

- Elmin inkişafına dair konsepsiyalardan irəli gələn vəzifələrdən biri də dünya elm məkanına inteqrasiyadır. Rəhbərlik etdiyiniz institut bu sahədə nə kimi işlər həyata keçirir?

- Azərbaycan elminin dünya elm məkanına inteqrasiyası çox sürətlə gedir. Heydər Əliyevin hakimiyyətinin birinci dövründə Azərbaycanın böyük quruculuq meydanına çevrilməsi, keçmiş ittifaq respublikaları arasında öncül yerdə dayanması inkaredilməz həqiqətdir. Ümummilli lider Heydər Əliyev qurucusu olduğu müasir, müstəqil Azərbaycan üçün zəruri addımları məhz o dövrdə atıb. İqtisadiyyatın inkişafı ölkənin tərəqqisində vacib amil kimi önə çəkilib. Azərbaycan ümummilli lider Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə böyük iqtisadi potensiala malik ölkə kimi tanınıb.

Digər vacib amil kimi ölkədə təhsilin inkişafını xüsusi qeyd etmək istərdim. Ulu öndər Heydər Əliyevin «Təhsil millətin gələcəyidir» tezisi həyata keçirilən siyasətin əsasında dayanıb. Həmin dövrdə yüzlərlə Azərbaycan gəncinin keçmiş İttifaqın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi bu günə hesablanan addım idi.

Hazırda Prezident İlham Əliyev bu ənənəni uğurla həyata keçirir. Dövlət başçısının fərmanı ilə təsdiqlənmiş Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarına dair Dövlət Proqramına uyğun olaraq gənclərimiz dünyanın en nüfuzlu ali məktəblərində təhsillərini davam etdirirlər. Yüksək ixtisaslı kadrların yetişdirilməsi qarşıda duran ən mühüm vəzifələrdən biridir. Prezident

İlham Əliyevin Ali təhsilin inkişafına dair uzunmüddətli Dövlət Proqramının həyata keçirilməsi uğurlu siyasətin daha bir nümunəsidir.

Ulu öndər Heydər Əliyevin neft strategiyasının Azərbaycanın inkişafında rolunu hər zaman önə çəkən Prezident İlham Əliyev eyni zamanda bildirir ki, iqtisadiyyatın inkişafını yalnız neft-qaz amilinə bağlamaq olmaz. Hər bir ölkənin inkişafında elmin, təhsilin, yeni texnologiyaların rolu böyükdür. Dövlət başçısı neft kapitalını insan kapitalına çevirməyi qarşıya ən ümdə vəzifə kimi qoyub.

Bugünkü uğurlar ulu öndər Heydər Əliyevin 40 il bundan öncə başladığı işlərin davamıdır. Azərbaycan tarixinə dönüş anı kimi daxil olan 14 iyuldan başlanan yol bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu gün şərqşünaslıq elmi çox yüksək səviyyədə inkişaf edib. Burada rus şərqşünaslıq məktəbinin də rolu az olmayıb. Biz təhlil metodologiyasını rus şərqşünaslarından öyrənmişik. Bizim bir çox kadrlarımız Rusiya Şərqşünaslıq İnstitutunda təhsil alıblar. Onların nailiyyətləri ilə tanış olaraq metodologiyasını mənimsəyiblər. Rusiya şərqşünaslıq elminin təhlil metodologiyası çox yüksək səviyyədədir. Onlar sərbəst düşüncə tərzi əsasında analitik təhlil aparır və dəqiq, məntiqli nəticələrə gəlib çıxırlar. Qonşu dövlətlərdən Türkiyədə, İranda şərqşünaslıq elmi bizdən qat-qat aşağıdır. Bunu mütəxəssislər çox gözəl bilirlər. Onların müstəqil təhlil bacarığı yoxdur, faktların toplanması və təsviri ilə məşğuldurlar. Bu günlərdə keçirilən Beynəlxalq İbn Ərəbi simpoziumu bir daha təsdiq etdi ki, Azərbaycan şərqşünaslıq elminin inkişafı çox yüksək səviyyədədir. Aida İmanquliyevanın əsərləri də təsdiq etdi ki, bizdə dünya səviyyəli əsərlər yazılır. Bizim alimlər bir çox konfranslarda iştirak edirlər. Dünyada beynəlxalq elmi jurnallar var ki, məqalənin çapı ilə təhsil ocağının dünya elminə inteqrasiyası müəyyənləşir. Bu yaxınlarda oxudum ki, Azərbaycan Tibb Universitetinin bu sahədə uğurları daha çoxdur. Azərbaycan elminin digər sahələrindəki uğurları isə dünya informasiya məkanına kifayət qədər çıxara bilməmişik.

- Şərqşünaslıq İnstitutunun fəaliyyət istiqamətləri hansılardır?

- Şərqşünaslıq İnstitutunun fəaliyyət istiqamətləri çox genişdir. Burada 10 şöbə mövcuddur: İran tarixi və iqtisadiyyatı, Cənubi Azərbaycan, Türkiyə tarixi və iqtisadiyyatı, Ərəb ölkələr tarixi və iqtisadiyyatı, İran filologiyası, Türk filologiyası, Ərəb filologiyası, Yazılı abidələrin tədqiqi və nəşri, Din və ictimai fikir tarixi, Şərq-Qərb şöbələri. Biz mütləq bu ölkələri Azərbaycanla əlaqəli şəkildə öyrənirik. Bizim amalımız millətin mənafeyini qorumaqdır. Şöbənin əməkdaşları beynəlxalq və respublika elmi konfranslarında fəal iştirak edirlər. İnstitut kollektivi öz elmi fəaliyyətini şərqşünaslığın ən aktual problemlərini

tədqiq etməyə yönəltmişdir. Türkiyə, İran və Ərəb ölkələrinin tarixi, ictimai-siyasi və iqtisadi inkişafı, Şərq xalqlarının filologiyası, İslam tarixi, müasir Yaxın Şərqdə din və ictimai fikir cərəyanları və digər sahələr İnstitut əməkdaşlarının diqqət mərkəzindədir. Bu günlərdə «Bakı - İslam mədəniyyətinin paytaxtı -2009» mədəniyyət ili çərçivəsində konfrans keçirilirdi. Azərbaycan xalqı həmin islam mədəniyyətinin yaradıcılarından biri olub və o mədəniyyətə də çox gözəl töhfələr verib. Biz gözəl başa düşürük ki, tədqiqat obyektimiz genişdir. Bu gün biz Ərəb, Türkiyə, İran dövlətləri ilə kifayətlənməməli, Şərqin digər ölkələrində, xüsusən ilk növbədə, böyük dövlətlərin iqtisadiyyatını, siyasətini və mədəniyyətini tədqiq etməliyik. Bununla əlaqədar bir ilə yaxındır ki, İnstitutda Mərkəzi Asiya ölkələrini, müasir dünyanın sosial, iqtisadi və siyasi durumunu tədqiq etməyə başlamışıq. İlk addım olaraq Çin Xalq Respublikası haqda məlumat kitabı hazırlayıb, nəşr etmişik. Bu işdə bizə Çinin ölkəmizdəki səfirliyi yaxından kömək edib. Çin haqqında hazırlanan digər əsər «Çin Xalq Respublikasının xarici siyasəti və onun Cənubi Qafqaz respublikaları ilə münasibətləri» əsəridir. Hazırda bu region üzrə digər istiqamətlərdə iş gedir.

- Bu sahədə kadr potensialı sizi qane edirmi?

- İnstitutun yüksək ixtisaslı kadrlarının və elmi potensialının artması nəticəsində tədricən şərqşünaslıq tematikası genişlənir və zənginləşir. İnstituta qəbul olunan kadrların bilik və bacarıqları yoxlanılır. Əvvəl biz kadrları sınaq müddətinə götürürük. Savadlı, çalışqan, elmə həvəsi olan kadrları işə götürürük.

- Görkəmli şərqşünas alim, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın 70 illik yubileyi keçirildi. Onun həyat yolu hər bir gənc üçün örnəkdir...

- Görkəmli şərqşünas alim, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın dərin nəzəri biliyi analitik təfəkkürü, geniş erudisiyası, zəngin mütaliəsi, bir neçə Şərq və Qərb dillərini bilməsi sayəsində apardığı tədqiqatlar və yazdığı əsərlər qısa bir vaxt ərzində ona nəinki keçmiş Sovetlər Birliyində, hətta bir çox xarici ölkələrdə geniş şöhrət gətirmişdir. Aida xanım elmin bütün enişli-yoxuşlu yollarını pillə-pillə keçmişdi, öz zəhməti, istedadı, zəkası, qabiliyyəti sayəsində kiçik elmi işçidən baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinə ucalmışdı. O Azərbaycan Şərqşünaslıq elmini dəfələrlə respublika hüdudlarından uzaqlarda (Moskva, Kiyev, Poltava, Sankt-Peterburq, Hamburq, Halle və s.) ləyaqətlə təmsil etmişdir.

Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksək ixtisaslı ərəbşünas kadrların hazırlanmasını daim diqqət mərkəzində saxlamışdır. Təsadüfi deyil ki, institutun «Ərəb filologiyası» şöbəsinə başçılıq etdiyi qısa müddət ərzində onun bilavasitə səyləri ilə 10-dan artıq namizədlik dissertasiyası müdafiə edilmişdir.

Aida İmanquliyeva Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin, Şərq ədəbiyyatının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, uzun illər pedaqoji fəaliyyətlə səmərəli məşğul olmuş, Azərbaycan Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxumuşdur.

Professor A.İmanquliyeva Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsiri problemini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsir və əlaqələrini öyrənərkən, alim hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürür, mədəni tərəqqini şərtləndirən amillərə istinad edirdi. Onun tədqiqatları nəticəsində bütün dövrlər üçün aktuallığını saxlayan mütləq bir həqiqət müəyyənləşmişdir: Şərqin bir çox ölkələrinin müasir inkişafı bir gerçəkliyi ortaya qoyur: qərbin mədəni dəyərləri o zaman yerli zəmində kök sala və onu zənginləşdirə bilər ki, onlar Şərq ənənəsinə və milli xarakterə uyğun formalarda əxz edilsinlər. Alimin çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatının həmin aspektdə öyrənilməsi üçün çox mühüm zəmin yaradır və metodoloji əhəmiyyət daşıyır.

Bir vaxtlar Qərb və Şərq mədəniyyətlərinin qarşılıqlı əlaqə və təsirinin tədqiqi hakim ideologiyanın tələblərinə uyğun olaraq, ciddi təhriflərə məruz qalırdı. Şükürlər olsun ki, o zamanlar artıq arxadadır, ön plana isə qarşıdurma yox, sivilizasiyaların dialoqu, ortaq mədəni və mənəvi dəyərlər çəkilib. Lakin elə o dövrdə yetişən və alim kimi formalaşan nadir istedad sahibləri var idi ki, zamanı qabaqlayaraq problemə ideoloji konyuktura mövqeyindən deyil, universal modellər, ümumbəşəri dəyərlər müstəvisində yanaşırdılar. Aida İmanquliyeva məhz belə alim-tədqiqatçılardan idi.

Alimin çoxsaylı və gərgin araşdırmaları sayəsində aşağıdakı nəticələr əldə edilmişdir: Ərəb məhcər ədəbiyyatı nümayəndələrinin ədəbi yaradıcılığının əhəmiyyəti ondadır ki, onlar Avropa və Amerika ədəbiyyatının etik və bədii dəyərlərini yenilik ruhunda əxz etmiş, yeni formada ifadə etmiş, onların nailiyyətlərini ən yaxşı milli ənənələrlə sintezdə təcəssüm etdirmişlər. «Suriya-Amerika məktəbi»nin ən istedadlı sənətkarları əcnəbi ədəbiyyatlardan məhz ərəb ölkələrinin ən mühüm ictimai inkişaf tələblərinə cavab verən nailiyyətləri mənimsəmişlər.

Alim ərəb məhcər ədəbiyyatının ən müxtəlif bədii üsluba malik nümayən-

dələrinin yaradıcılığını araşdırdı: Nuaymə yaradıcılığında rus ədəbiyyatının təsiri ilə formalaşan tənqidi realizmi öyrəndi, Cübran yaradıcılığında ingilis poeziyasının təsiri ilə romantik üslubun inkişaf prosesini izlədi, Amerika transsendentalistlərinin Əmin ər-Reyhani və digərlərinin yaradıcılığında oynadığı rolu müəyyənləşdirdi. Bu zaman o, yüzlərlə ədəbiyyat oxuyur, yazıçıların ən məşhur əsərlərini təhlil edir, onların yaradıcılıq metodunu, dünyagörüşünü, nəsr və poeziya dillərinin təkamülünü, lirizmi müxtəlif qəhrəman obrazlarının xüsusiyyətlərini tədqiq edir, dünya ərəbşünaslığında ilk dəfə olaraq ərəb-Amerika, Qərbi Avropa və rus ədəbi əlaqələrinin məğzi və əhəmiyyətini aşkar edir, ərəb məhcər ədəbiyyatının ən görkəmli nümayəndələrinin bədii üslubunun formalaşmasında Qərb və rus ədəbiyyatlarından mənimsəmə prosesi və onun nəticələrini müəyyənləşdirir. Məhz onların yaradıcılığı sayəsində XX əsr ərəb ədəbiyyatının mövzu dairəsi genişlənmiş, janr tərkibi daha da rəngarəng olmuş, bədii ifadənin yeni formaları yaranmış və ərəb ədəbiyyatı ümumbəşər mədəniyyətinin ayrılmaz hissəsinə çevrilmişdir.

Aida xanımla 15 il birgə çalışan bir insan kimi bir məsələni də xüsusi vurğulamaq istəyirəm. Ulu Tanrı Aida xanımı yaradarkən, çox səxavətli olmuş, ona yüksək şəxsi və intellektual keyfiyyətlərlə yanaşı, qibtə doğuran bir zahiri gözəllik də bəxş etmişdi. Onun gözəlliyini vəsf etmək üçün bəlkə də Füzuli qələmi, Vaqif təbi, Ələsgər sözü gərəkdir. Çünki bu zahiri gözəllik onun daxili aləmi, zəngin mənəvi dünyası, incə ruhu və həssas qəlbi ilə tam bir harmoniya təşkil edirdi.

Bu günlərdə görkəmli şərqşünas alim, elm təşkilatçısı, pedaqoq, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın yubileyi keçirildi. Yaşasaydı, ailəsi, həmkarları, tələbələri ilə birlikdə bu günü fərəhlə qarşılayardı. Çox təəssüf ki, onun ömür yolu qısa oldu. Amma onsuz ötən illər bir həqiqəti də ortaya qoydu: Aida xanım bizdən yalnız cismən ayrılıb, adı dillərdən düşmür, xatirəsi ürəklərdən silinmir. Onun ruhu aramızda dolaşır, övladlarında, əsərlərində, tələbələrində, həmkarlarında yaşayır, yolumuzu işıqlandırır, bizi sabaha səsləyir. Əsərləri dönə-dönə oxunur, təhlil və tədqiq edilir, tərcümə olunur, yenidən işıq üzü görür. Nə qədər ki, onun alim qələmi ilə uğrunda mübarizə apardığı ideya və amallar aktuallığını itirməyib, nə qədər ki, Şərq və Qərb münasibətlərində tam anlaşma bərqərar olmayıb, insanlar dönə-dönə Aida İmanquliyevanın əsərlərinə müraciət edəcək və gələcək nəsillər onu daim minnətdarlıqla xatırlayacaqlar.

«İki sahil» qəzeti, 21 oktyabr 2009-cu il.

«AZƏRBAYCAN MODELİ» ŞƏRQ ÖLKƏLƏRİNDƏ TƏBLİĞ OLUNMALIDIR

GÖVHƏR BAXŞƏLİYEVA: «ÇÜNKİ BURADA ÖYRƏNİLƏSİ BİR ÇOX MƏQAMLAR VAR»

Müsahibimiz millət vəkili, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru **Gövhər Baxşəliyevadır**.

Ölkə prezidenti İlham Əliyev bu il noyabrın 2-də BDU-nun 90 illik yubiley mərasimində çıxışı zamanı ölkə iqtisadiyyatında keçid dövrünün artıq başa çatdığını bəyan edib. Bu, həqiqətən də belədir. İndi bilik dövrü başlayır. Yaşadığımız dövr, zaman bilik, yeni innovasiya texnologiyaları, elm dövrüdür. Ümumiyyətlə, dövlət başçımız dəfələrlə vurğulayıb ki, biz əldə etdiyimiz neft kapitalını insan kapitalına çevirməliyik. Neft kapitalını insan kapitalına çevirmək üçün isə Azərbaycan elmi, təhsili yüksək sürətlə inkişaf etməli, Azərbaycan insanı hərtərəfli, bilikli və savadlı olmalıdır. Elə sözügedən məqalədə də vurğulanır ki, təbii sərvətlərimiz var, çoxdur, amma bunlar bir gün tükənir və tükənə bilər. Biz elə sərvətlərə üstünlük verməliyik ki, onlar heç zaman tükənmir, əksinə, həmişə yeniləşir. Bu da heç şübhəsiz, insanın intellekti, biliyidir və o bilik, o intellekt nəticəsində əldə olunan uğurlardır. Mənim diqqətimi cəlb edən və üstündə dayandığım məqamlardan biri budur ki, əsl həqiqəti çatdırmaq məhz alimlərin üzərinə düşür, alimlərin üzərinə qoyulur.

- ***Bu işdə alimlərin üzərinə hansı vəzifələr düşür. Söhbət hansı həqiqətlərdən gedir?***

- Burada söhbət cəmiyyətin inkişafı, bizim keçmişimiz, tariximiz, bu günümüz barədə həqiqətlərin çatdırılmasından, ortaya qoyulmasından gedir. Vaxt var idi sovetlər quruluşu dağılandan sonra bir neçə il biz inkarçılıq, nihilizm dövrü yaşadıq. Biz keçmişimizi sanki inkar edirdik. Amma bu, düzgün deyildi. Bizim keçmişdə də bir çox uğurlarımız, nailiyyətlərimiz olub. Onlara əsaslanmalıyıq, amma onların da tam konservasiyası mümkün deyil. Biz keçmiş ənənələrimizlə novatorluğu birləşdirməli və daim irəli baxmalıyıq. Mərhum ümummilli lider Heydər Əliyev öz dövründə - xüsusilə keçid dövründə bütün cəmiyyəti səfərbər edərək, onu düzgün yola istiqamətləndirə bildi və bunun sayəsində 90-cı illərin əvvəllərinin çətinliklərini artıq geridə qoymuşuq.

- ***Sözügedən yazıda göstərilir ki, indi cəmiyyətimiz qarşısında, ilk növbədə elmi elita qarşısında mühüm vəzifələrin həlli məsələsi dayanır və əsas məqsəd ondan ibarətdir ki, yaxın illərdə təhsildə, elmdə, ümumən intellektual sahələrdə ciddi dönüş yaradılmalı, biliklərə əsaslanan iqtisadiyyatın qurulması prosesi intensivləşməlidir...***

- Bu o deməkdir ki, bizim elmimiz ilk növbədə Azərbaycanın sosial-

iqtisadi tələblərinə cavab verməlidir, Azərbaycanın sosial, iqtisadi, siyasi, mədəni problemlərinin həllinə yönəlməlidir. Azərbaycan elmi eyni zamanda tətbiqi xarakter daşımalıdır. Artıq o zamanlar keçib ki, alim öz kabinetində rahatca oturub, məsələn, klassik dövrün tədqiqi ilə məşğul olurdu. Klassik dövr də tədqiq olunmalıdır. Amma bununla bahəm indiki zamanda dünyada elm artıq daha çevikdir, daha mobildir və elm bu gün yaranan problemlərə cavab verməlidir, bu gün baş verən hadisələri də ehtiva etməli, işıqlandırmalıdır. Bu istiqamətdə elmimizin, elmi müəssisələrimizin çevikliyinə, mobilliyinə xüsusi diqqət yetirilməlidir. Bildiyiniz kimi, qloballaşan dünyada yaşayırıq, mədəniyyətlərin dialoqu baş verir, ölkələr bir növ sərhədsizləşir, get-gəl, xarici təsir çoxalır. Belə bir şəraitdə biz gərək çalışaq öz milli «mən»imizi saxlayaq. Çalışmalıyıq ki, milli varlığımızla bağlı dəyərlərə xələl gəlməsin. Tariximizi, mədəniyyətimizi, bizi birləşdirən mənəvi dəyərləri qoruyub saxlamaq indi hər birimizin ümdə vəzifəsi olmalıdır.

- Yazıda o da vurğulanır ki, dövlət başçısının sərəncamı ilə yaradılmış Prezident yanında Elmin İnkişafı Fondunun əsas məqsədi müxtəlif sahələrdə aparılan araşdırmaların səmərəliliyinin artırılmasını və dünya elmi məkanında Azərbaycan elminin layiqincə təmsil olunmasını təmin etməkdir. Sizcə, sözügedən Fond bu missiyanın öhdəsindən gələ biləcəkmi?

- Qeyd edim ki, bu sərəncamdan daha öncə ölkə başçısı Azərbaycan elminin 2009-2015-ci illərdə inkişafının milli strategiyasını təsdiq edib. Eyni zamanda, bu strategiyanı həyata keçirmək üzrə Dövlət Proqramını da təsdiqləyib. Bununla da həmin strategiyanın prioritet istiqamətlərindən biri olaraq Azərbaycan elminin yaxın zamanlarda, yaxın illərdə dünya elmi məkanına inteqrasiya etməsi məsələsi önə çəkilib. Bildiyiniz kimi, sovet dövründə ölkəmiz dünya məkanından təcrid olunmuşdu, o cümlədən elmimiz də. O vaxt bir o qədər xaricə getgəlimiz yox idi. Araşdırmalarımız rus elminə daha çox istiqamətlənirdi. Düzdür, biz kitablardan, ədəbiyyatlardan dünya elmi ilə tanış idik, amma bilavasitə qarşılıqlı münasibətimiz mövcud deyildi. İndi zaman dəyişib, biz daha qısa bir zamanda dünya elminə inteqrasiya etməliyik və bizim tədqiqatlarımız dünya elmi tədqiqatlarının səviyyəsinə qalxmalıdır. Burada bir haşiyə çıxmaq istərdim. Akademik Fuad Qasımzadənin yaxşı bir sözü var ki, Azərbaycan həmişə öz elminin iki sahəsinə görə dünyada tanınıb: bu, neft kimyası, bir də şərqşünaslıqdır. Biz, ümumiyyətlə, bu etirafları çox eşitmişik ki, Azərbaycan şərqşünaslıq elmi məhz dünya səviyyəsinə çıxmış bir elmdir. Bu gün bunu hamı, bütün tədqiqatçılar da təsdiq edir. Biz, belə demək mümkünsə, öz təhsilimizi Rusiyanın Elmlər Akademiyasında və yaxud bu akademiyanın Sankt-Peterburq filialında almışıq. Rus şərqşünaslıq elmi tarixən çox güclü olub və bu elm sahəsi alman şərqşünaslıq elminin metodologiyası əsasında formalaşıb. Biz də Rusiya şərqşünaslıq elmi ənənələri üzərində təhsilimizi alaraq, bu gün Azərbaycanın güclü şərqşünaslıq

elmi məktəbini yaratmağa nail ola bilmişik. Bəlkə də, bu, bir qədər qeyri-təvazökar səslənər, amma bunu qeyd etməmək mümkün deyil. Biz tez-tez Türkiyədə, İranda və Ərəb ölkələrində oluruq. Bizim şərqşünaslıq elmimiz onlarla müqayisəyə gəlinməyəcək dərəcədə güclüdür. Çünki biz məhz müasir təhlili üslublar, çağdaş metodologiya ilə araşdırmalarımızı aparırıq. Halbuki onlarda yeni metodologiya yoxdur. Bizdə isə müasir, deduktiv-induktiv, tarixi-müqayisəli metodlarla təhlillər aparılır. Bu təhlillər bizim alimlərin əsərlərinin yüksək səviyyəsini təmin edir. Özü də bunu mən demirəm, bunu İran, Türkiyə, ərəb alimləri deyirlər, etiraf edirlər. Bizim dünya şöhrətli alimlərimiz, Əbdülkərim Əlizadə, Həmid Araslı, Ziya Bünyadov, Aida İmanquliyeva, Rüstəm Əliyev kimi şərqşünaslarımız olub.

- Konkret olaraq, rəhbərlik etdiyiniz institut bu məsələlərin həlli ilə bağlı hansı addımları atmağı düşünür?

Biz planlarımıza da bir sıra əlavələr etməyi qərara aldıq. Biz hesab edirik ki, şərqşünas alimlər olaraq, «Prezident İlham Əliyevin Şərq siyasəti» adlı bir geniş elmi araşdırma, irihəcmli kitab hazırlamalıyıq. Qeyd edim ki, artıq bununla bağlı bölğü işi aparılıb, bu kitabın hazırlanmasına başlanılıb. İnşaallah, 2011-ci ildə həmin kitab hazır olacaq və onu müxtəlif Şərq dillərinə tərcümə edəcəyik. Biz şərqşünaslıq İnstitutunda mövcud olan məktəbləri qorumaq şərtilə tədqiqat, araşdırma regionumuzu, arealımızı genişləndirik. Biz hesab edirik ki, müasir dövrdə təkcə ərəb ölkələrini, İranı, Türkiyəni araşdırmaqla kifayətlənməməliyik. Biz artıq Çini tədqiq etməyə başlamışıq, bu yöndə iki monoqrafiya çap olunub. Başlamışıq Yaponiyanı tədqiq etməyə, bununla yanaşı Mərkəzi Asiya və Uzaq Şərq ölkələri üzrə elmi qrup yaratmışıq. Biz yeni şöbə - Şərq-Qərb qarşılıqlı əlaqələrini və təsirlərini araşdıran şöbə yaratmışıq. Bu şöbədə ən müasir səviyyədə tədqiqatlar gedir. Biz başa düşürük ki, ictimaiyyət elmi institutlar haqqında geniş məlumatlar ala bilmirlər. Elmi əsərlər sırf elmi dildə yazılır və belə demək mümkünsə, mütəxəssislərə hesablanır. Buna görə institumuzda «Elmi araşdırmalar» jurnalı artıq neçə illərdir buraxılır.

- Bəs adıçəkilən məqalədə xüsusilə önə çəkilən «Azərbaycan modeli» haqda nə deyərdiniz?

- Azərbaycanın inkişaf modeli ən sürətli inkişaf modelidir və dünya tərəfindən də etiraf olunur ki, Azərbaycan iqtisadi inkişaf tempinə görə ən öndə gedən ölkədir. Bununla əlaqədar, xüsusən «Azərbaycan modeli»nin Şərq ölkələrinə nümunə olmasını nəzərə alaraq, adıçəkilən yığıncağımızda gələn ilin mart ayının 16-17-də Bakı şəhərində beynəlxalq konfransın keçirilməsinə qərar vermişik. «Müasir Şərq ölkələrinin sosial-iqtisadi inkişafı və Azərbaycan modeli» adı altında keçiriləcək beynəlxalq konfransda həm özümüzün, həm də tədbirə dəvət olunmuş xarici mütəxəssislərin iştirakı ilə bu məsələ ətrafında geniş müzakirələr aparılacaq. Onu da qeyd edim ki, Şərq ölkələrinin əksəriyyəti öz inkişaflarında

geri qalırlar. Bir sıra problemlərlə üz-üzədirlər: yoxsulluq, səfalət, qeyri-stabillik, düzgün olmayan idarəçilik metodları və sair, və ilaxır. Həmin Şərq ölkələrində dövlət siyasəti heç də düzgün aparılmır. Ona görə biz hesab edirik ki, «Azərbaycan modeli» Şərqdə, Şərq ölkələrində təbliğ olunmalıdır və bu işə biz də öz töhfəmizi verməliyik. Çünki burada öyrəniləsi bir çox məqamlar var.

- Məlum yazıda elmi şuralar, o cümlədən namizədlik, doktorluq dissertasiyalarının yazılmasındakı, müdafiə olunmasındakı qüsurlarla, nöqsanlarla əlaqədar qabardılan məqamlar haqqında nə deyə bilərsiniz?

- Bu məsələ əslində institutların özlərindən asılıdır. Bəlkə də başqa institutlarda elmi şuraların işi aşağı səviyyədədir, ancaq bizim institutla bağlı indiyəcən eşitməmişik ki, zəif işlər keçir. Bu, hər bir institutun müəyyənləşdirdiyi qaydadan və insanların, alimlərin özlərinə olan münasibətlərindən, tələblərindən asılıdır. Ümumən burada düz qeyd olunur ki, sovet dövrü ilə müqayisədə müdafiəyə buraxılan işlərin səviyyəsi aşağı düşüb. Bununla belə, bu, heç də o demək deyil ki, hamısının səviyyəsi aşağıdır. Amma aşağı səviyyəli işlər də çoxdur. Müdafiələrdə bəzən əvvəlki tələbkarlıqlar mövcud olmur. Yazıda o da göstərilir ki, elm, elmi işlərin müdafiələri bir biznesə çevrilib və bunun qarşısı alınmalıdır. Şəxsən mən də belə düşünürəm.

Müsahibəni apardı: Alim,
«Olaylar» qəzeti, 17 dekabr 2009-cu il.

ERMƏNİSTAN TORPAQLARININ AZƏRBAYCANA MƏXSUSLUĞUNU TƏSDİQLƏYƏN 5 TARİXİ XƏRİTƏ

ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN DİREKTORU, MİLLƏT VƏKİLİ GÖVHƏR BAXŞƏLİYEVA: «MİSİRİN DAR-ÜL-KÜTUB KİTABXANASINDAN ƏLDƏ EDƏRƏK GƏTİRDİYİM XƏRİTƏLƏR BÖYÜK ƏHƏMİYYƏTƏ MALİKDİR»

– Gövhər xanım, eşitdiyimizə görə, bu yaxınlarda Misir Ərəb Respublikasında (MƏR) olarkən orada Azərbaycanın tarixi həqiqətlərini özündə əks etdirən xəritələr aşkar etmisiniz. Buna necə nail oldunuz?

– Əvvəla qeyd edim ki, müasir dövrümüzdə ərazi bütövlüyünü qorumaq uğrunda mübarizə aparan xalqımızın haqq səsini bütün dünyaya çatdırmaq, yalan üzərində qurulan erməni təbliğatını ifşa etmək üçün Azərbaycan barəsində həqiqətləri hər kəsə bəyan etmək lazımdır. Tarixi sənədlər də məhz Azərbaycan xalqının əzmkar mübarizəsində haqlı olduğunu açıq-aşkar göstərir. Sadəcə, ermənilərin dünya ictimaiyyətininin gözü önünə çəkdiyi qalın yalan pərdəsini yarmaq üçün hər birimiz həqiqətləri üzə çıxarmaq işində əlimizdən gələni əsirgəməməliyik. Bu baxımdan hesab edirəm ki, ötən ay Misirin Dar-ül-Kütub kitabxanasından əldə edərək gətirdiyim xəritələr böyük əhəmiyyətə malikdir. Həmin kitabxananın kartoqrafiya şöbəsində 15 mindən artıq müxtəlif tarixi xəritə saxlanılır. Misirə qısa səfərim dövründə də bu xəritələrin yalnız bir qismi ilə tanış olmaq imkanı əldə etdim. Lakin elə bu xəritələr arasından Azərbaycan üçün çox dəyərli olan 5 xəritəni üzə çıxararaq həmin xəritələrin şəklini götürə bildim. Tarixin müxtəlif dövrlərini əhatə edən, Avropa və Asiya ölkələrində ötən əsrlərdə nəşr edilmiş bu xəritələrlə tanış olarkən Azərbaycanın ərazi bütövlüyünün, Ermənistanın isə indiki ərazisindən çox-çox uzaqlarda, cənubda olmasının Qərb alimlərinə, xəritəşünaslarına açıq-aydın bəlli olduğu təsdiqlənir. Bütün bunlar mənfur qonşularımızın son dövrlərdəki yalançı təbliğatının ifşa edilməsinə yeni bir əsas verir. Onu da nəzərinizə çatdırım ki, həmin xəritələrin şəklini Bakıya gətirdikdən sonra onları dərindən araşdırmışam. Bu xəritələrdən birincisi ötən əsrin əvvəllərində Parisin Sent Denis Bulvarı 18-20 ünvanında A.Tarid tərəfindən nəşr edilib. Dəmir yolları və naviqasiya xətlərini göstərmək üçün tərtib olunan bu xəritə Avropa və Asiya ölkələrini əhatə edir. Bu xəritədə Xəzər dənizinin Qərb sahillərində təsvir edilən və Azərbaycan kimi təqdim edilən dövlət ərazisi Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər) ilə uyğun, hətta nisbətən geniş verilib. Azərbaycan Milli Ensiklopediyasında təqdim edilən müvafiq xəritədə mübahisəli ərazi kimi qeyd edilən yerlər də A.Taridin xəritəsində Azərbaycan ərazisi kimi verilib. Dağlıq Qarabağın, o cümlədən Şuşanın bizim olduğunu təsdiqləyən bu xəritədə Azərbaycan ərazisinə indiki dövlətimizin ərazisindən savayı

şimaldan Dərbənd, Qasımkənd və daha yuxarı olan yerlər verilir. Qərbdən sərhəd Göyçə gölündən keçir. Müasir Ermənistanın Mehri, Qafan, Gorus, Sisyan, Vardenis, Krasnoselsk rayonları, Berd rayonunun yarıdan çoxu və s. Azərbaycan ərazisi kimi göstərilir...

– Hər halda bu xəritə və eləcə də digər xəritələr Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən tarixi coğrafiyasının öyrənilməsində mühüm əhəmiyyəti var...

– Tamamilə doğrudur. Digər bir xəritədə Gülüstan, Türkmənçay müqavilələrindən sonrakı İran ərazisi əks olunub. Fars dilində tərtib olunan bu xəritədə Azərbaycan toponimi Araz çayının sahillərindən ta İraqın sərhədlərinə kimi ərazi üzərində yazılıb. Burada Azərbaycan ərazisində Əhər, Mərənd, Savalan dağı, Urmiya gölü, Marağa, Mahabad, Maku, Xoy, Ərdəbil, Miyanə, Təbriz və digər şəhərlər göstərilir. Xəritələrdən 3-cüsü 1785-ci ildə İtaliyanın Venesiya şəhərində tərtib olunub. Böyük İsgəndərin İmperiyası adlanan bu xəritə Avropa, Afrika və Asiyanı əhatə edir. Xəritə Antonio Zatta və onun oğlanları tərəfindən İtalyan dilində tərtib edilib. Burada Xəzər dənizinin Qərb sahilində Albaniya ərazisi göstərilir. Ərazinin cənubunda Araz çayı qeyd edilir. Xəritəyə diqqət yetirdikdə dövlət deyil, sadəcə coğrafi ərazi kimi böyük və kiçik Ermənistanın Araz çayından xeyli cənubda Assuriya və Mesopatamiya ilə qonşuluqda verildiyini görmək olar.

Digər iki xəritə Niderlandın Amsterdam şəhərində tərtib olunub və Osmanlı imperiyasını əhatə edir. Rəssam Yudukus Hundius tərəfindən tərtib edilən bir xəritə Sultan III Məhmədin dövrünə (1595-1603) aiddir. Digər xəritə isə 1775-ci ildə rəssam Fridrix dö Vid tərəfindən tərtib edilərək çap olunub. Bu xəritələrdə də erməni ərazilərinin indikindən xeyli cənubda olaraq, müasir Ermənistan dövlətinin ərazisinə heç bir aidiyyətinin olmaması aşkar görünür. Fridrix dö Vidin xəritəsində Azərbaycan ərazisində Şirvan toponimi qeyd edilir. Göründüyü kimi, bütün bu xəritələr Azərbaycanın ərazi bütövlüyünü təsdiqləməklə, erməni uydurmalarını ifşa etməklə yanaşı, bunun Qərbdə və Şərqdə ötən əsrlərdə xəritəşünas alimlər tərəfindən şəksiz qəbul edildiyini tam olaraq sübuta yetirir, tarixi Ermənistan ərazilərinin isə nəinki Dağlıq Qarabağa, heç indiki Ermənistan dövlətinin özünə də aidiyyəti olmadığını göstərir. İstər Dar-ül-Kütubda, istərsə də dünyanın digər mötəbər mənbələrində bu həqiqətləri bir daha təsdiqləyə biləcək daha onlarla sənədlər əldə etmək mümkündür. Bütün bunları aşkarlamaq Azərbaycan elminin, dünya ictimaiyyətinə çatdırmaq isə hər bir azərbaycanlının borcudur.

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
«525-ci qəzet», 28 yanvar 2010-cu il.

ARMENİYA MESOPOTAMİYA İLƏ ASSURİYANIN QONŞULUĞUNDA YERLƏŞİB

ERMƏNİLƏRİN QAFQAZDA YAŞAMADIQLARINI BU DƏFƏ MİSİR KİTABXANASINDAKI XƏRİTƏLƏR TƏSDİQLƏDİ

Gövhər Baxşəliyeva: «Əminəm ki, dünyanın muzey və kitabxanalarında ciddi araşdırmalar aparsaq, bundan on dəfə artıq tarixi faktlar əldə edərik.»

Hazırda ölkəmizin ərazi bütövlüyünü bərpa etmək uğrunda mübarizə aparan xalqımızın haqq səsini bütün dünya ictimaiyyətinə çatdırmaq, yalan üzərində qurulan erməni təbliğatını ifşa etmək üçün Azərbaycan barəsində həqiqətləri dünyaya yaymaq ən vacib məsələlərdən biridir. Doğrudur, zaman-zaman tarixçilərimiz, alimlərimiz ermənilərin Qafqazda yerli deyil, məhz sonradan gəlmə xalq olması barədə tutarlı faktlara söykənən elmi araşdırmaları beynəlxalq konfransların, simpoziumların müzakirəsinə çıxara biliblər. Lakin əsl həqiqətləri dünya ictimaiyyətindən gizlətmək, onları çaşdırmaq, yalanlar üzərində qurulmuş erməni təbliğatını ifşa etmək üçün indiyədək görülmüş işlər yetərli deyil. Bu baxımdan, Azərbaycan Milli Elmlər Akademiyası akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, professor Gövhər Baxşəliyevanın ötən ay Misirdə olarkən, Qahirə şəhərindəki məşhur Dar-ül-Kütub kitabxanasından əldə edərək gətirdiyi xəritələr yalançı erməni təbliğatını ifşa etmək üçün tutarlı faktlardır.

- Gövhər xanım, Misir kitabxanalarında Azərbaycanla bağlı tarixi mənbələrin, xəritələrin olduğunu bilirdinizmi? Yoxsa, sırf təsadüf nəticəsində həmin xəritələri aşkarladınız?

- Düzü, bir şərqşünas kimi, xəritələri araşdırmaq heç bizim planımıza daxil deyil. Lakin bunu mən özümə, sadəcə, bir vətəndaşlıq borcu bilib, imkan daxilində səfərdə olduğum ölkələrin kitabxanalarına baş çəkir, ölkəmin tarixini əks etdirən xəritələrlə tanış oluram. Dekabr ayında Misirə son səfərimdə də belə oldu. Səfərin əsas məqsədi Qahirədə keçirilən İslam Konfransı Təşkilatı Parlament İttifaqının iclasında iştirak etmək idi. Bildiyiniz kimi, mən həmin təşkilatda Azərbaycan parlament nümayəndə heyətinin rəhbəriyəm. Tədbir çərçivəsində, öz istirahət vaxtıma qənaət edərək, Azərbaycanın Misirdəki səfirliyindən xahiş etdim ki, məni Dar-ül-Kütub kitabxanasına aparsınlar. Məlumat üçün bildirim ki, hələ 2003-cü ildə, Milli Məclis sədrinin müavini olarkən, Azərbaycan parlament nümayəndə heyətinin rəhbəri kimi Misirə səfər etmiş-

dim. İxtisasca şərqşünas olduğumdan xarici səfərlərdə həmişə xahiş edirəm ki, məni kitabxanalara aparsınlar. Çünki kitabxanalar təkcə kitabların saxlandığı bir məkan deyil, bura, eyni zamanda, xalqın mədəniyyətinin, onun tarixinin qorunduğu, mühafizə olunduğu bir məbəddir. O zaman xahiş etmişdim ki, bizi Qahirədəki Dar-ül-Kütub kitabxanasına aparsınlar. Qeyd edim ki, bu çox zəngin bir kitabxanadır. Burada kartoqrafiya şöbəsində 15 mindən artıq müxtəlif tarixi xəritə saxlanılır. Doğrudur, Misirin öz ərazisinə aid olan xəritələr, təbii, daha yaxşı vəziyyətdə qorunub mühafizə olunur. Digər xəritələrin bir qismi elə kartoqrafiya şöbəsində saxlanılır, qalanları isə aşağıda zirzəmidə saxlanılır. Bizi kitabxana ilə tanış edərkən orada həmin xəritələri görmüşdüm. Lakin səfərimizin qrafiki çox sıx olduğundan, həmin xəritələrə diqqətlə baxmağa imkanımız olmamışdı. Odur ki, dekabr ayında Misirdə olarkən səfirliyimizdən xahiş etdim ki, məni həmin kitabxanaya aparsınlar. Sağ olsunlar ki, xahişimi yerə salmadılar. 4 saat bu kitabxanada oldum, xəritələrlə tanış oldum. Vaxtımın məhdud olması səbəbindən xəritələrin hamısı ilə tanış olmasam da, Azərbaycan üçün çox dəyərli olan 5 xəritə ilə yaxından tanış oldum, onların surətini götürdüm. Avropa və Asiya ölkələrində ötən əsrlərdə nəşr edilmiş və tarixin müxtəlif dövrlərini əhatə edən bu xəritələrdə Azərbaycanın ərazi bütövlüyü təsdiqlənməklə yanaşı, ermənilərin hazırda məskunlaşdığı ərazilərdən çox-çox uzaqlarda - daha cənubda yaşamalarının Qərb alimlərinə, xəritəşünaslarına hələ o zamanlarda bəlli olması açıq-aydın görünür.

- Gəlin etiraf edək ki, belə ciddi araşdırmalar aparmaq üçün 4 saat çox da böyük bir müddət deyil...

- Təbii. Lakin buna baxmayaraq, 4 saat ərzində nəyə mümkün idisə baxa bildim. Seçdiklərim Azərbaycanın ərazi bütövlüyünün təsdiqi üçün çox önəm daşıyan xəritələrdir. Hesab edirəm ki, bunlar ermənilərin yalançı təbliğatını ifşa etmək üçün çox dəyərlidir və böyük əhəmiyyət daşıyırlar. Kitabxanadakı xəritələrin şəklini çəkmək yasaqdır. Lakin hörmət əlaməti olaraq, buna imkan yaratdılar. Xəritələrdən ikisinin şəklini özüm çəkdim. Üçünü isə onlar bizim üçün SD-yə köçürdülər. Yeri gəlmişkən, qeyd edim ki, indiyədək tarixçilərimizin ortaya qoyduğu bütün tarixi sənədlər Dağlıq Qarabağ məsələsində Azərbaycan xalqının əzmkar mübarizəsində haqlı olduğunu açıq-aşkar göstərir. Sadəcə, ermənilərin dünya ictimaiyyətinin gözü önünə çəkdiyi qalın yalan pərdəsini yarmaq üçün hər birimiz həqiqətləri üzə çıxarmaq işində əlimizdən gələni əsirgəməməliyik. Baxın, bu xəritələrdən birincisi ötən əsrin əvvəllərində Parisin Sent Denis Bulvarı 18-20 ünvanında görkəmli fransız kartoqrafı Alfons Tarid tərəfindən nəşr edilib. Kartoqrafın məqsədi heç də xəritədə Azərbaycan ərazisini göstərmək olmayıb. Onun əsas məqsədi, ümumiyyətlə, Avropa və

Asiyanın dəmiryolları və naviqasiya xətlərini əhatə edən böyük bir xəritə tərtib etmək olub. O, 1930-cu ildə vəfat edib. Belə ehtimal olunur ki, A.Tarid bu xəritəni haradasa ötən əsrin 20-ci illərində çəkib. Belə ki, xəritədə Xəzər dənizinin qərb sahillərində təsvir edilən və Azərbaycan kimi təqdim edilən dövlətin ərazisi Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920-ci illər) ərazisi ilə uyğun, hətta nisbətən geniş verilib. Azərbaycan Milli Ensiklopediyasında təqdim edilən müvafiq xəritədə (səh. 290) Cümhuriyyətin mübahisəli ərazi kimi qeyd edilən yerlər belə A.Taridin xəritəsində Azərbaycan ərazisi kimi qeyd olunub. Dağlıq Qarabağın, o cümlədən, Şuşanın tarixi Azərbaycan ərazisi olduğunu təsdiqləyən bu xəritədə ölkəmizin ərazisinə, indiki dövlətimizin ərazisindən əlavə şimaldan Qasımkənd, Dərbənd və daha yuxarı olan yerlər verilir. Qərbdən isə dövlətin sərhədi Göyçə gölünün ortasından keçir. Müasir Ermənistanın Mehri, Qafan, Gorus, Sisyan, Vardenis, Krasnoselsk rayonları, Berd rayonunun yarıdan çoxu və s. Azərbaycan ərazisi kimi göstərilir. Bu xəritənin Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən tarixi coğrafiyasının öyrənilməsində mühüm əhəmiyyəti var.

Xəritədə, həmçinin, ermənilərin iddia etdikləri Naxçıvan bölgəsi Azərbaycanın ərazisi kimi göstərilib. Xəritə o qədər dəqiq işlənilib ki, burada digər böyük şəhərlərimiz - Bakı, Elizavetpol (Gəncə), Şamaxı, Lənkəran və Astara belə qeyd olunub. Xəritədə Ermənistanın Qafqazda olan ərazisi Yerevan şəhəri də daxil olmaqla çox kiçik bir ərazini əhatə edir. Avropanın göbəyində, erməni lobbisinin daha fəal olduğu Fransada ötən əsrdə çap olunmuş bu xəritə bir daha təsdiqləyir ki, indiki Ermənistanın ərazisi Azərbaycan torpağıdır. Zaman-zaman bizim torpaqların mənimsənilməsi hesabına bu torpaqlar artırılaraq indiki Ermənistan dövlətinin ərazisi yaradılıb.

- Bu xəritələr ermənilərin uydurduğu, guya ötən əsrlərədək iki dəniz arasında mövcud olmuş Böyük Ermənistan dövlətinin boş xülya olmasını bir daha təsdiqləyir...

- Mənim aşkarladığım xəritələrdə ermənilərin bu yalanını da ifşa edən tarixi faktlar var. Baxın, Misirdən gətirdiyim ikinci xəritə Venesiyada italyan kartoqrafı Antonio Zatta tərəfindən tərtib olunub. 1785-ci ildə «Antonio Zatta və oğulları» şirkəti tərəfindən çap olunan bu xəritədə Böyük İsgəndərin (Makedoniyalı İsgəndər) Avropa, Asiya və Afrika qitələrini əhatə edən imperiyası öz əksini tapıb. İmperiyanın torpaqlarına diqqətlə baxdıqda burada Mesopotamiya, Assuriya və digər ərazilər aydın görünür. İtalyan dilində tərtib edilmiş xəritədə Armeniya Meycə qeyd olunub. Bunun tərcüməsi isə Böyük Ərməniyyə deməkdir. Lakin bu söz heç də Ermənistan kimi başa düşülməməlidir. Bunun dövlət olmadığının bir sübutu var. Həmin ərazinin qonşuluğunda Armeni-

ya Mayna, yəni, Kiçik Ərməniyyə də qeyd olunub. Tarixdə hələ belə bir fakt yoxdur ki, eyni adda iki dövlət olsun və onlardan biri böyük, digəri isə kiçik adlandırılsın. Bu toponimlər yalnız yer adıdır. Necə ki, indi Böyük Qafqaz və Kiçik Qafqaz sıra dağları var, eyni ilə də o zamanlarda Armeniya Meycə və Armeniya Mayna mövcud olub. Digər tərəfdən isə, həmin ərazilər, heç də ermənilərin təbliğ etdiyi kimi, iki dəniz - Qara və Xəzər dənizləri arasında deyildir. Həmin ərazi onların iddia etdiyi ərazidən daha uzaqda, Mesopotamiya ilə Assuriyanın qonşuluğunda, hətta Cənubi Azərbaycan torpaqlarından da bir qədər aşağıda - indiki Suriya və İraq dövlətlərinin ərazisinə düşür. Bu faktın özü bir daha sübut edir ki, Ermənistan dövləti heç vaxt Qafqazda mövcud olmayıb. Xəritənin bizə aid olan hissəsini lap yaxından çəkib, böyütmüşəm. Diqqət edin, burada Araz çayı, Albaniya dövlətinin sərhədi aydın şəkildə görünür.

- Əslində, bizim tarixçilər apardığı tədqiqatlar nəticəsində çoxdan sübut edə bilmişdilər ki, Qafqazda heç vaxt Ermənistan dövləti mövcud olmayıb...

- Doğrudur, bizim tarixçilər, alimlər bu sahədə çox böyük işlər görüblər. Mən onların zəhmətini yerə vura bilmərəm. Amma onların imkanı olmayıb ki, həmin tarixi araşdırmaları aparan zaman gəlib dünyada məşhur olan Qahirə və yaxud İsgəndəriyyənin kitabxanalarına baş çəksinlər, gedib tarixi, qədim xəritələrin surətlərini gətirsinlər. Onlar öz tədqiqatlarında həmin ərazilərin xəritəsini tarixi mənbələr əsasında çəkiblər, atlaslar yaradıblar. Bizim tarixçilər həqiqətən də tam şəkildə öyrəniblər, 100 faiz sübuta yetiriblər ki, Qafqazda heç vaxt Ermənistan dövləti mövcud olmayıb. Amma bir var, biz özümüz deyək özümüz inanaq, bir də var ki, xarici dövlətlərin muzey və kitabxanalarında saxlanılan həmin tarixi faktları tapıb dünya ictimaiyyətinə təqdim edək. Biz elə bir mənfur, riyakar düşmənlə üz-üzə durmuşuq ki, tarixçilərimizin çəkdikləri həmin xəritələr yetərli deyil. Yalançı erməni təbliğatına qarşı məhz bu kimi tarixi faktlarla mübarizə aparmaq lazımdır. Dünya muzeylərində və kitabxanalarında saxlanılan qədim xəritələrin surətini çıxarıb, onların qarşısına qoymaq lazımdır ki, həqiqətin kimin tərəfində olduğunu görsünlər, indiyədək eşitdikləri və gördüklərinin uydurma erməni təbliğatı olduğunu dərk etsinlər. Digər tərəfdən isə, bir halda ki, ermənilər heç bir əsası olmayan, öz xeyirlərinə olan saxta xəritələr çap etdirib, onları bütün dünyada təbliğ edirlər, niyə tarixi həqiqətləri özündə əks etdirən, Azərbaycanın haqlı mövqeyini müdafiə edən bu kimi xəritələri biz çap etdirməyək? Qoy həmin xarici dövlətlərin siyasətçiləri, tarixçiləri, lap belə adi insanları görsün ki, həqiqət kimin tərəfindədir.

Misirdən gətirdiyim növbəti iki xəritə isə Hollandiyanın Amsterdam şəhərində tərtib olunub və Osmanlı İmperiyasını əhatə edir. Rəssam Yudukus

Hundius tərəfindən tərtib edilən bir xəritə Sultan III Məhmədin dövrünə (1595-1603) aiddir. Digər xəritə isə 1775-ci ildə rəssam Fridrix dö Vid tərəfindən tərtib edilərək çap olunub. Bu xəritələrdə də erməni ərazilərinin indikindən xeyli cənubda yerləşərək, müasir Ermənistan dövlətinin ərazisinə heç bir aidiyyətinin olmaması aşkar görünür. Fridrix dö Vidin xəritəsində Azərbaycan ərazisində Şirvan toponimi qeyd edilir.

Göründüyü kimi, bütün bu xəritələr Azərbaycanın ərazi bütövlüyünü təsdiqləməklə, erməni uydurmalarını ifşa etməklə yanaşı, bunun Qərbdə və Şərqdə ötən əsrlərdə xəritəşünas alimlər tərəfindən şəksiz qəbul edildiyini tam olaraq sübuta yetirir, tarixi Ermənistan ərazilərinin isə nəinki Dağlıq Qarabağa, heç indiki Ermənistan dövlətinin özünə də aidiyyəti olmadığını göstərir.

- Azərbaycanla Misir arasında mədəni sahədə əməkdaşlığa dair müqavilə mövcuddur. Bundan istifadə edərək, gələcəkdə digər xəritələrin də surətlərini gətirməyi düşünürsünüzmü? Yaxud belə xəritələri, uyğun arayışlarla birgə, başqa dillərə tərcümə edərək xarici ölkələrdə yaymağı planlaşdırırsınızmı?

- Bu suala bir qədər geniş cavab vermək istərdim. Hətta həmin müqavilə olmasa belə, biz bunu etməliyik, gedib dünya muzeylərinin arxivlərində, kitabxanalarda işləmək lazımdır. Təsəvvür edin, Qahirə şəhərindəki kitabxanada təqribən 15 min, İsgəndəriyyə kitabxanasında isə 22 mindən artıq qədim xəritələr saxlanılır. Belə xəritələrdən xeyli sayda Avropa ölkələrində də saxlanılır. Adətən, belə tarixi xəritələrin surətlərini vermirlər. Müxtəlif yollar axtarmaq, danışıqlar aparmaq lazımdır. Bəzi ölkələr qədim əlyazmaların, xəritələrin surətlərini pulla satırlar. Bizim üçün fərqi yoxdur, pulla satsınlar, yaxud hörmət əlaməti olaraq versinlər. Biz mütləq belə əhəmiyyətli tarixi xəritələri əldə etməliyik. Əvvəlcə, biz həmin muzeylərdə, kitabxanalarda axtarış aparmalı, sözügedən tarixi xəritələri aşkarlamalıyıq. Daha sonra isə onların əldə edilməsi barədə danışıqlar aparmalıyıq.

Mən Bakıda Misirin Azərbaycandakı səfiri ilə görüşmüşəm, bu haqda ona danışmışam. Səfir də söz verib ki, mənə İsgəndəriyyə kitabxanasındakı tarixi sənədlərlə, xəritələrlə tanış olmağa şərait yaradılacaq.

Qahirədə olarkən, səfirliyin əməkdaşını kitabxanaya apardım. Ona hansı sənədləri axtarmağı göstərdim. Səfirimizdən xahiş etdim ki, həmin əməkdaş üçün imkan yaradılsın ki, heç olmasa həftədə bir dəfə həmin kitabxanaya getsin, orada axtarış aparsın. Söz verdilər, amma buna nə dərəcədə əməl olunacaq, deyə bilmərəm. Türkiyədə səfərdə olarkən bizim İstanbuldakı Baş konsulumuz Səyyad Aranla görüşdüm, bu barədə ona danışdım. Mən əminəm ki, İstanbuldakı muzeylərdə Azərbaycanın tarixi ilə bağlı olduqca zəngin materiallar tapmaq olar. Çünki Osmanlı İmperiyası böyük dövlət olub, vaxtilə varidat kimi

buraya çoxlu tarixi sənədlər gətirilib. Türkiyə muzeylərində zəngin materiallar saxlanılır. İndinin özündə belə muzeylərə baxanda həm Qərb, həm də Şərq ölkələrindən çoxlu eksponatlar görmək olar. Həmin muzeylərin kartoqrafiya şöbələrində, xəritələr bölmələrində yaxşı axtarış aparmaq lazımdır. Mən inanıram ki, biz qardaş ölkədə tarixi keçmişimizlə bağlı zəngin materiallar əldə edə bilərik. Əgər bir kitabxanada 4 saatlıq axtarış belə faydalı nəticə veribsə, görün həftələrlə, aylarla arxivlərdə işləsək, hansı nəticələr əldə edə bilərik?

O ki qaldı sualınızın birbaşa cavabına, məlumat üçün qeyd edim ki, Elmin İnkişaf Fondu yaradılıb. Növbəti ildə Fondda artıq layihələrin qəbuluna başlanılacaq. Bizim institut da belə bir layihə təqdim etməyi planlaşdırır. Daha doğrusu, biz bu xəritələri toplayıb, nəfis şəkildə, tarixi arayışla birlikdə atlas şəklində çap etdirmək istəyirik. Əlbəttə, hələlik biz yalnız bu xəritələri toplamaqla məşğuluq. Sonra həmin tarixi arayışı tərtib edəcəyik. Təbii, bu işə biz mütləq tarixçilərimizi də cəlb edəcəyik. Kitabdakı tarixi arayışları bir neçə dildə hazırlamaq istəyirik. Əsas məqsəd ondan ibarətdir ki, biz dünya ictimaiyyətini inandırmalıyıq ki, ermənilər tarixən bu torpaqlarda yaşamayıblar, yerli xalq deyillər və onların heç vaxt Qafqazda dövləti olmayıb. Hesab edirəm ki, tariximizlə bağlı həqiqətləri, faktları aşkarlamaq Azərbaycan elminin, onları dünya ictimaiyyətinə çatdırmaq isə hər bir azərbaycanlının borcudur.

Müsahibəni apardı: Səlim Loğmanoğlu,
«Yeni Azərbaycan» qəzeti, 4 fevral 2010-cu il.

«AİLƏ-MƏİŞƏT ZORAKILIĞININ QARŞISININ ALINMASI HAQQINDA» QANUN LAYİHƏSİ...

Müsahibimiz AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili **Gövhər Baxşəliyevadır**.

GÖVHƏR BAXŞƏLİYEVA: «QANUNUN MÖVCUDLUĞU CƏMİYYƏTDƏ, AİLƏLƏRDƏ AİLƏ MƏDƏNİYYƏTİNİN SƏVİYYƏSİNİ QALDIRA, YÜKSƏLDƏ BİLƏR»

- Gövhər xanım, sizə də məlum olduğu kimi, xeyli müddətdir «Ailə-məişət zorakılığının qarşısının alınması haqqında» qanun layihəsinin qəbulu məsələsi ətrafında həm cəmiyyətdə, həm parlamentarilər arasında ciddi müzakirələr getməkdədir. Cəmiyyətin, o cümlədən, deputatların bir qismi bu qanunun qəbulunu vacib saysalar da, digər qismi isə, birmənalı olaraq, bunun yolverilməz olduğunu bəyan edirlər. Siz bu məsələdə hansı mövqedəsiniz: razılar, yoxsa narazılar?

- Hesab edirəm ki, Azərbaycanda da belə bir qanun qəbul edilə bilər. Hər halda belə bir qanunun mövcudluğu cəmiyyətdə, ailələrdə ailə mədəniyyətinin səviyyəsini qaldıra, yüksəldə bilər. Məncə, belə bir qanunun qəbulu yaxşı olardı. Düzdür, bəzən belə fikirlər səslənir ki, uşaq evə gec gəlir, ata ona necə əl qaldıra bilməsin, ancaq istənilən halda uşaq olsun, qadın olsun, fərqi yoxdur, başqasının üstünə əl qaldırma düz deyil. Qadını, uşağı döymək insanlıqdan, kişilikdən olmaz. Güclü cinsin nümayəndəsinin zəif cinsin nümayəndəsinə, hətta öz cinsindən olan insana əl qaldırması, onu döyməsi, əziyyət verməsi istənilən halda yaxşı cəhət deyil. Sadəcə, bu cür məsələlərdə tərbiyəvi üsullardan istifadəyə üstünlük verilməlidir. Əksinə, tərbiyəvi üsulları kənara qoyub, yalnız fiziki təzyiqə, gücə əl atmaq yolunu tutmaq vəziyyəti daha da qəlizləşdirir, gərginləşdirir. Fiziki təzyiqə və təsirə məruz qalan uşaq, övlad sonradan həmin hərəkəti başqa formada - gizlində təkrarlamağa başlayır. Bu isə nəticə etibarilə daha böyük fəsadlara gətirib çıxarır. Ona görə mən ailə-məişət münasibətlərində, bütövlükdə, cəmiyyətdə sivil addımların, münasibətlərin tərəfdarıyam. Bu baxımdan, bir daha hesab edirəm ki, belə bir qanunun qəbulu ümumi işimizə, nəinki mənfi, əksinə, daha müsbət təsir göstərər.

- İstər cəmiyyətdə, istərsə elə parlamentdə müzakirə, mübahisə mövzularından biri də yas və toy mərasimlərini tənzimləyəcək «Mərasimlər haqqında» qanunvericilik aktının qəbulu məsələsidir. Siz necə hesab edirsiniz, bu qanunun qəbulu vacibdirmi və qəbul olunacağı təqdirdə, işləmə mexaniz-

minə malik olacaqmı, toy və yas mərasimlərini hüquqi çərçivədə tənzimləyə biləcəkmi?

- Doğrusu, mən dəqiq deyə bilmərəm ki, bununla bağlı qanun qəbul olunmalıdır, ya yox. Əslində, mən belə düşünürəm ki, bu məsələləri qanun çərçivəsinə salmaq da bir o qədər düzgün deyil. Amma eyni zamanda hesab edirəm ki, gərək bu yöndə ciddi təbliğat, maarifləndirmə işləri aparılsın, müəyyən məhdudiyyətlər tətbiq olunsun.

- Sizcə, məhdudiyyətləri - məsələn, yas mərasimləri ilə bağlı - kim, hansı təşkilat qoymalıdır?

- Fikrimcə, konkret yas mərasimləri ilə bağlı məhdudiyyətləri Qafqaz Müsəlmanları Ruhani İdarəsi qoya, tətbiq edə bilər. Hamımız yaxşı bilirik, görürük ki, yas mərasimləri hansı «dəbdəbə» ilə keçirilir. Kiminsə imkanı var yas mərasimini daha «dəbdəbəli» edir, kiminsə imkanı yoxdur məcbur olur borca düşür, keçirir. Bu, tamamilə düzgün deyil. İmkan yoxdur bunu etməmək də olar. Qafqaz Müsəlmanları Ruhani İdarəsi də gərək bu istiqamətdə maarifləndirmə işi aparsın ki, əsil islami qaydalarla yas mərasimləri necə keçirilməli, necə təşkil olunmalıdır... Bəzən görürsən ki, küçələrdə çadır quraraq gediş-gəliş, magistral yolunu kəsir, ehsan verirlər. Eyni zamanda, həmin çadırın yanında başqa bir balaca çadır da qurub, orada qab-qacaqları tələm-tələsik yuyub, yenidən stolların üstünə düzürlər. Bu, hər şeydən əvvəl, antisanitariyadır. Tibbi cəhətdən də düzgün deyil. Hesab edirəm, yas mərasimləri, necə ki, digər Şərq ölkələrində, o cümlədən, yaxın İranda, Türkiyədə təşkil olunur, daha doğrusu, yas mərasimləri məscidlərdə olur, bizdə də məhz bu cür olmalıdır. Fikrimcə, məscidlərin nəzdində müvafiq bir yer ayrılmalı, yas mərasimləri orada təşkil olunmalı və ehsan da orada verilməlidir. Bu, daha uyğundur. Özü də ehsan kasıbların, imkansızların arasında paylanmalıdır.

- Bəs toy mərasimləri ilə bağlı nə demək istərdiniz? Son 10-15 ildə, demək olar ki, bu mərasimlər bütün adət-ənənələri adlayıb, üstündən keçib.

- Tamamilə razıyam. Toy mərasimləri də bütün əndazəni aşıb. Axı nə qədər israfçılıq, ifratçılıq olar? Bir stolun üstünə nə qədər yemək, neçə cür salat, içki düzülər? Hələ mən bunların keyfiyyətini, sanitariya-gigiyena tələblərinə cavab verdiyini nəzərə almıram. Eyni zamanda, toylarda nə qədər səs-küy, uğultu olar? Musiqidən, səsin həddindən artıq uca verilməsindən ağız deyəni qulaq eşitmir... Biz tez-tez məclislərdə, hətta digər ölkələrdə, o cümlədən, Şərq ölkələrində keçirilən toy mərasimlərində oluruq. Onların heç birində - söhbət Şərq ölkələrindən gedir - stolların üstünə bu qədər yemək-içmək düzülmür. Sadəcə, nimçələrdə hər kəsin öz payı gəlir - bir, iki, maksimum üç dəfə... Daha stolların üstündə əlavə yeməklər, içkilər, mer-meyvə qalmır, israfa yol veril-

mir. Ya da ayaqüstü olanda - furşet şəklində - yemək-içmək, mer-meyvə hamısı bir kənara düzülür və hər kəs nə qədər istəyir gedib oradan istifadə edir. Bilirsiniz, israfçılıq islamda ən böyük günahlardandır. İsrafçılığa istənilən halda yol verilməməlidir. Son olaraq, demək istəyirəm ki, bu cür məsələlər ayrıca qanunla yox, hardasa müəyyən qaydalarla, maarifləndirmə, təbliğat işi ilə tənzimlənməli, qaydaya salınmalıdır.

- Yadınızdadırsa, təxminən bir il öncə, parlamentin plenar iclasının müzakirəsinə təqdim olunan «Reproduktiv sağlamlıq və ailə planlaşdırılması haqqında» qanun layihəsi elə birinci oxunuşdan geriyə qaytarıldı. Səbəb də bu oldu ki, qanun layihəsində ciddi təkmilləşdirmələrə, xüsusilə, «surroqat ana» və «donor bank»ı məsələləri ilə bağlı - ehtiyac var. Bu baxımdan, bilmək istərdik ki, bəs siz bu qanunla bağlı nə fikirdəsiniz? Onun qəbulunu vacib sayırsınız, yoxsa?..

- Belə düşünürəm ki, bu qanunun da qəbulu mümkündür. Qanunu hazırlayanlar özləri də razıdırlar ki, həmin məsələ - «surroqat ana» məsələsi sözügedən sənəddən, birmənalı olaraq, çıxarılmalıdır. Şəxsən elə mən özüm də əvvəldən dedim ki, bu, nə mənəviyyata, nə də insanlığa sığan məsələdir. Hansısa qadın o uşağı - başqa anadan mayalanmış - doqquz ay bətnində gəzdirirsə, o qadının həmin uşağa bir ana-övlad münasibəti yaranır və ya hansısa qadın o məsələyə gedirsə, sadəcə, ona ehtiyac üzündən gedir. Doqquz ay uşağı bətnində daşıyandan sonra o uşağı başqasına vermək, mənim fikrimcə, övladı anadan zorla ayırmaq deməkdir. Bu, insanlığa sığan bir məsələ deyil. Əgər Allah-Təala hansısa ailəyə, cütlüyə övlad məsləhət görməyibsə, indi onu bu cür yolla həll etmək özü günahdır, qeyri-humanist hərəkətdir. Odur ki, bu məsələlər qanun layihəsindən çıxarılmaq, eləcə də, digər təkmilləşdirmələr aparmaq şərtilə adıçəkilən sənədi qəbul etmək olar. Burada problem doğuracaq bir məsələ görmürəm.

- Yeri gəlmişkən, Ailə Məcəlləsinə də dəyişikliklərin edilməsi məsələsi gündəlikdədir. Bir sıra deputat həmkarlarınız, xüsusilə, nikah yaş həddinin artırılmasına, nikaha girməzdən öncə ailə qurmağa hazırlaşan cütlüklərdən tibbi arayışların tələb edilməsini, nikaha girənlər arasında mülkiyyət müqaviləsinin bağlanmasını nəzərdə tutan düzəlişlərin sözügedən Məcəllədə əksini tapmasının vacibliyini önə çəkirlər...

- Bilirsiniz, bizdə nikah yaş həddi elə orta yaş həddi kimi də götürülüb. Bəzi dövlətlər var ki, orada 14-15 yaşlarında nikaha girməyə icazə verilir. Elə dövlətlər də mövcuddur ki, orada 20-22 yaşlarında ailə qurmaq üçün nikaha girməyə icazə var. Bu baxımdan, hesab edirəm ki, bizdəki mövcud qanunvericiliklə müəyyənləşdirilən yaş həddi şəraitimiz üçün normaldır. Şəxsən mən hesab edirəm ki, bu yaş həddi 18 olsa, daha yaxşı olar. Məktəbi bitirdikdən sonra

insanların nikaha girmək hüququ, imkanı olmalıdır. Erkən nikahlara gəlincə isə mən də buna qarşıyam...

- Bildiyiniz kimi, erkən nikaha girənlər də çox vaxtı öz münasibətlərini molla kəbini ilə həll edirlər...

- Bunlar yolverilməzdir. Şəxsən mən də molla kəbini ilə olan nikahlara qarşıyam. Nikahlar mütləq dövlət qeydiyyatından – «ZAQS»-dan keçməlidir. Bu münasibətlər mütləq qanuniləşməlidir. Eyni zamanda, insanlar - əsasən, qızlar nəzərdə tutulur - 9 illik icbari təhsil var ki, onu mütləq almalıdırlar və yalnız bundan sonra nikaha girmək hüququna malik olmalıdırlar. Özü də bu nikahlar nikaha girən cütlüklərin, ələlxüsus, qızların öz arzuları, istəkləri ilə bağlı olmalıdır. Onların iradəsinin ziddinə olaraq bu məsələlər zor yoluyla həll olunmamalıdır. Qızların təhsil alması, ən azı, icbari təhsil alması məsələsi bütün hallarda təmin edilməlidir. Bu məsələyə rayon təhsil şöbələri çox ciddi yanaşmalıdırlar. Yadınızdadırsa, sovetlər dövründə bir uşaq dərsə gəlməyəndə, həmin uşağın evinə gedirdilər, onun valideynlərini məcbur edirdilər ki, uşaq dərsə davamiyyətini davam etdirsin. Hesab edirəm ki, indi də belə olmalıdır. Hər bir uşaq məktəb, təhsil şöbəsi tərəfindən nəzarətdə olmalıdır. Direktor bacarmırsa, bu işi rayon təhsil şöbəsi mütləq görməlidir. Hətta deyərdim ki, uşağını dərsdən, təhsildən yayındıran valideynlər üçün cəza tədbiri də seçilməlidir. Tibbi arayışların tələb edilməsi məsələsinə gəlincə hesab edirəm ki, bu, mütləq Ailə Məcəlləsində öz əksini tapmalıdır. Ailə qurmağa hazırlaşan cütlüklərin nikaha girməzdən öncə, bir-birilərinin sağlamlıqları, səhhətləri barədə məlumatlı olmaları çox vacibdir. Bəzən görürsən ki, səhhəti, sağlamlığı yol vermədiyi halda kimsə başqası ilə nikaha girir və nəticədə istər onun, istərsə də nikaha girdiyi şəxsin səhhətində, övlad dünyaya gətirməsində ciddi problemlər yaranır. Bu da çox zaman sonda həmin cütlüyün və yaxud cütlüklərin evliliklərinin dağılmasına gətirib çıxarır. Ona görə düşünürəm ki, bu məsələnin müvafiq qanunvericilikdə - Ailə Məcəlləsində əksini tapması vacibdir...

- Bəs mülkiyyət müqaviləsi məsələsi barədə nə düşünürsünüz?

- Hesab edirəm ki, bu məsələ sırf könüllülük əsasında olmalıdır. Burada məcburiyyət olmamalıdır. Əgər nikaha girənlər özləri istəyərlərsə, bunu edə bilərlər. Bizdə mental cəhətdən də belədir ki, nikaha girənlər əvvəlcədən bunu düşünmürlər. Onlar, sadəcə, gələcək xoşbəxt ailə həyatları barədə düşünürlər. Düzdür, bu cür düşünməyənlər də var, ancaq hər halda, bu, böyük üstünlük təşkil etmir. Ona görə bu məsələdə könüllülük prinsipinə üstünlük verilməlidir.

«Səs» qəzeti, 9 fevral 2010-cu il.

GÖVHƏR BAXŞƏLİYEVA: «AİLƏ-MƏİŞƏT MÜNASİBƏTLƏRİNDƏ TƏRBİYƏVİ ÜSULLARA ÜSTÜNLÜK VERİLMƏLİDİR»

Suallarımızı Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili **Gövhər Baxşəliyeva** cavablandırır.

- Xeyli müddətdir «Ailə-məişət zorakılığının qarşısının alınması haqqında» qanun layihəsinin qəbulu məsələsi ətrafında həm cəmiyyətdə, həm parlamentarilər arasında ciddi müzakirələr gedir. Deputatların bir qismi bu qanunun qəbulunu vacib saysalar da, digərləri bunun yolverilməz olduğunu bəyanlayırlar. Siz bu məsələdə hansı mövqedəsiniz?

- Azərbaycanda da belə bir qanun qəbul edilə bilər. Belə qanunun mövcudluğu cəmiyyətdə, ailələrdə ailə mədəniyyətinin səviyyəsini qaldıra, yüksəldə bilər. Düzdür, bəzən belə fikirlər səslənir ki, uşaq evə gec gəlir, ata ona necə əl qaldıra bilməsin, ancaq istənilən halda uşaq olsun, qadın olsun, fərqi yoxdur, başqasının üstünə əlqaldırma düz deyil. Qadını, uşağı döymək insanlıqdan, kişilikdən olmaz. Güclü cinsin nümayəndəsinin zəif cinsin nümayəndəsinə, hətta öz cinsindən olan insana əl qaldırması, onu döyməsi, əziyyət verməsi istənilən halda yaxşı cəhət deyil. Sadəcə, bu cür məsələlərdə tərbiyəvi üsullara üstünlük verilməlidir. Tərbiyəvi üsulları kənara qoyub, yalnız fiziki təzyiqə, gücə əl atmaq yolunu tutmaq vəziyyəti daha da qəlizləşdirir, gərginləşdirir. Fiziki təzyiqə və təsirə məruz qalan uşaq, övlad sonradan həmin hərəkəti başqa formada - gizlində təkrarlamağa başlayır. Bu isə nəticə etibarilə daha böyük fəsadlara gətirib çıxarır. Ona görə mən ailə-məişət münasibətlərində, bütövlükdə cəmiyyətdə sivil addımların, münasibətlərin tərəfdarıyam. Bu baxımdan hesab edirəm ki, bu qanunun qəbulu ümumi işimizə nəinki mənfi, əksinə daha müsbət təsir göstərər.

- Mübahisə doğuran mövzularından biri də yas və toy mərasimlərini tənzimləyəcək «Mərasimlər haqqında» qanununun qəbuludur. Bu qanun toy və yas mərasimlərini hüquqi çərçivədə tənzimləyə biləcəkmi?

- Bu məsələləri qanun çərçivəsinə salmaq da bir o qədər düzgün deyil. Eyni zamanda, hesab edirəm ki, gərək bu yöndə ciddi təbliğat, maarifləndirmə işləri aparılmalı, müəyyən məhdudiyyətlər tətbiq olunmalıdır.

- Məhdudiyyətləri - məsələn, yas mərasimlərilə bağlı - kim, hansı təşkilat qoya bilər?

- Yas mərasimlərilə bağlı məhdudiyyətləri Qafqaz Müsəlmanları İdarəsi

tətbiq edə bilər. Hamımız yaxşı bilirik, görürük ki, yas mərasimləri hansı «dəbdəbə» ilə keçirilir. Kiminsə imkanı var yas mərasimini daha «dəbdəbəli» edir, kiminsə imkanı yoxdur məcbur olur borca düşür, keçirir. Bu, düzgün deyil. İmkan yoxdursa bunu etməmək də olar. Qafqaz Müsəlmanları İdarəsi də gərək bu istiqamətdə maarifləndirmə işi aparsın ki, əsl islami qaydalarla yas mərasimləri necə keçirilməli, necə təşkil olunmalıdır... Bəzən görürsən ki, küçələrdə çadır quraraq gediş-gəliş, magistral yolunu kəsir, ehsan verirlər. Eyni zamanda, həmin çadırın yanında başqa bir balaca çadır da qurub, orada qab-qacaqları tələm-tələsik yuyub, yenidən stolların üstünə düzürlər. Bu, hər şeydən əvvəl antisanitariyadır. Tibbi cəhətdən də düzgün deyil. Mən belə hesab edirəm, yas mərasimləri, necə ki, digər Şərq ölkələrində, o cümlədən yaxın İranda, Türkiyədə təşkil olunur, daha doğrusu, yas mərasimləri məscidlərdə olur, bizdə də məhz bu cür olmalıdır. Fikrimcə, məscidlərin nəzdində müfaviq bir yer ayrılmalı, yas mərasimləri orada təşkil olunmalı və ehsan da orada verilməlidir. Özü də ehsan kasıbların, imkansızların arasında paylanmalıdır. Yoxsa dost-tanışı yığıb ehsan vermək, axı, bu, nə dərəcədə düzgün olar?

- ***Bəs, toy mərasimlərilə bağlı nə demək istərdiniz?***

- Toy mərasimləri də bütün əndazəni aşıb. Axı, nə qədər israfçılıq, ifratçılıq olar? Bir stolun üstünə nə qədər yemək, neçə cür salat, içki düzülər? Hələ mən bunların keyfiyyətini, sanitariya-gigiyena tələblərinə cavab verdiyini nəzərə almıram. Eyni zamanda, toylarda nə qədər səs-küy, uğultu olar? Musiqidən, səsin həddindən artıq uca verilməsindən ağız deyəni qulaq eşitmir... Biz tez-tez məclislərdə, hətta digər ölkələrdə, o cümlədən Şərq ölkələrində keçirilən toy mərasimlərində oluruq. Onların heç birində - söhbət Şərq ölkələrindən gedir - stolların üstünə bu qədər yemək-içmək düzülmür. Sadəcə, nimçələrdə hər kəsin öz payı gəlir - bir, iki, maksimum üç dəfə... Daha stolların üstündə əlavə yeməklər, içkilər, mer-meyvə qalmır, israfa yol verilmir. Ya da ayaqüstü olanda - furşet şəklində - yemək-içmək, mer-meyvə hamısı bir kənara düzülür və hər kəs nə qədər istəyir gedib oradan istifadə edir. Bilirsiniz, israfçılıq İslamda ən böyük günahlardandır. İsrafçılığa istənilən halda yol verilməməlidir.

- ***Təxminən bir il öncə parlamentin plenar iclasının müzakirəsinə təqdim olunan «Reproduktiv sağlamlıq və ailə planlaşdırılması haqqında» qanun layihəsi elə birinci oxunuşdan geriyə qaytarıldı. Səbəb də bu oldu ki, qanun layihəsində ciddi təkmilləşdirmələrə - xüsusilə «surroqat ana» və «donor bank»ı məsələləri ilə bağlı - ehtiyac var. Sizin bu məsələ ilə bağlı mövqeyiniz necədir?***

- Düşünürəm ki, qanunun da qəbulu mümkündür. Qanunu hazırlayanlar

özləri də razıdırlar ki, həmin məsələ - «surroqat ana» məsələsi sənəddən çıxarılmalıdır. Şəxsən elə mən özüm də əvvəldən dedim ki, bu nə mənəviyyata, nə də insanlığa sığan məsələdir. Hansısa qadın başqa anadan mayalanmış uşağı doqquz ay bətnində gəzdirirsə, o qadının həmin uşağa bir ana-övlad münasibəti yaranır. Doqquz ay uşağı bətnində daşıyandan sonra o uşağı başqasına vermək, mənim fikrimcə insanlığa sığmır. Əgər Allah hansısa ailəyə, cütlüyə övlad məsləhət görməyibsə, indi onu bu cür yolla həll etmək özü günahdır, qeyri-humanist hərəkətdir. Odur ki, bu məsələlərin qanun layihəsindən çıxarılması, təkmilləşdirmələrin aparılması şərtilə adıçəkilən sənədi qəbul etmək olar. Burada problem doğuracaq bir məsələ görmürəm.

- ***Yeri gəlmişkən, Ailə Məcəlləsinə də dəyişikliklərin edilməsi məsələsi gündəlikdədir. Bir sıra deputat həmkarlarınız, xüsusilə nikah yaş həddinin artırılmasına, nigaha girməzdən öncə ailə qurmağa hazırlaşan cütlüklərdən tibbi arayışların tələb edilməsini, nikaha girənlər arasında mülkiyyət müqaviləsinin bağlanmasını nəzərdə tutan düzəlişlərin Məcəllədə əksini tapmasının vacibliyini önə çəkirlər...***

- Bilirsiniz, bizdə nikah yaş həddi elə orta yaş həddi kimi də götürülüb. Bəzi dövlətlər var ki, orada 14-15 yaşlarında nikaha girməyə icazə verilir. Elə dövlətlər də mövcuddur ki, orada 20-22 yaşlarında ailə qurmaq üçün nikaha girməyə icazə var. Bu baxımdan hesab edirəm ki, bizdəki mövcud qanunvericiliklə müəyyənləşdirilən yaş həddi şəraitimiz üçün normaldır. Şəxsən mənim qənatimə görə, yaş həddi 18 olsa, daha yaxşı olar. Məktəbi bitirdikdən sonra insanların nigaha girmək hüququ, imkanı olmalıdır. Erkən nikahlara gəlincə isə mən də buna qarşıyam...

- ***Erkən nikaha girənlər də çox vaxtı öz münasibətlərini molla kəbini ilə həll edirlər...***

- Bunlar yolverilməzdir. Mən də yalnız molla kəbinilə olan nikahlara qarşıyam. Nikahlar mütləq dövlət qeydiyyatından keçməlidir. Bu münasibətlər mütləq qanuniləşməlidir. Eyni zamanda, insanlar - əsasən qızlar nəzərdə tutulur - 9 illik icbari təhsil var ki, onu mütləq almalıdırlar və yalnız bundan sonra nikaha girmək hüququna malik olmalıdırlar. Bu, çox böyük problemdir. Əksər həmkarlarım kimi, mən də bu məsələdən ciddi narahatçılıq keçirirəm. Xüsusilə, Azərbaycanın cənub və şimal bölgələrində, o cümlədən paytaxt Bakının kəndlərində problem aktuallığı və kəskinliyilə özünü göstərir. Bu bölgələrdə qızların təhsildən yayındırılaraq, əməyə cəlb edilməsi və yaxud zorla ərə verilməsi halları çox ciddi problem kimi ortalıqdadır. Ona görə bu məsələlər ciddi şəkildə tənzimlənməlidir. Qızların təhsil alması, ən azı, icbari təhsil alması məsələsi bütün hallarda təmin edilməlidir. Bu məsələyə rayon təhsil şöbələri

çox ciddi yanaşmalıdırlar. Bir məqamı da vurğulamaq istərdim. Hesab edirəm ki, nikahlar nikaha girən cütlüklərin, xüsusilə qızların öz arzuları, istəklərilə bağlı olmalıdır. Onların iradəsinin ziddinə olaraq bu məsələlər zor yoluyla həll olunmamalıdır... Tibbi arayışların tələb edilməsi məsələsinə gəlincə, bu, mütləq Ailə Məcəlləsində öz əksini tapmalıdır. Ailə qurmağa hazırlaşan cütlüklərin nikaha girməzdən öncə bir-birilərinin sağlamlıqları, səhhətləri barədə məlumatlı olmaları çox vacibdir. Bəzən görürsən ki, səhhəti, sağlamlığı yol vermədiyi halda kimsə başqası ilə nikaha girir və nəticədə istər onun, istərsə də nikaha girdiyi şəxsin səhhətində, övlad dünyaya gətirməsində ciddi problemlər yaranır.

Müsahibəni apardı: Səlcuq,
«Xalq Cəbhəsi» qəzeti, 9 fevral 2010-cu il.

MİLLƏT VƏKİLİ GÖVHƏR BAXŞƏLİYEVA: «FİZİKİ TƏZYİQƏ, GÜCƏ ƏL ATMAQ VƏZİYYƏTİ DAHA DA GƏRGİNLƏŞDİRİR»

«AİLƏ-MƏİŞƏT MÜNASİBƏTLƏRİNDƏ TƏRBİYƏVİ ÜSULLARDAN İSTİFADƏYƏ ÜSTÜNLÜK VERİLMƏLİDİR»

– Gövhər xanım, xeyli müddətdir «Ailə-məişət zorakılığının qarşısının alınması haqqında» qanun layihəsinin qəbulu məsələsi ətrafında həm cəmiyyətdə, həm parlamentarilər arasında ciddi müzakirələr getməkdədir. Cəmiyyətin, o cümlədən deputatların bir qismi bu qanunun qəbulunu vacib saysalar da, digər qismi isə birmənalı olaraq bunun yolverilməz olduğunu bəyan edirlər. Siz bu məsələdə hansı mövqedəsiniz: razılar, yoxsa narazılar?

– Hər halda belə bir qanunun mövcudluğu cəmiyyətdə, ailələrdə ailə mədəniyyətinin səviyyəsini qaldıra, yüksəldə bilər. Məncə, belə bir qanunun qəbulu yaxşı olardı. Düzdür, bəzən belə fikirlər səslənir ki, uşaq evə gec gəlir, ata ona necə əl qaldıra bilməsin, ancaq istənilən halda uşaq olsun, qadın olsun, fərqi yoxdur, başqasının üstünə əl qaldırmaq düz deyil. Qadını, uşağı döymək insanlıqdan, kişilikdən olmaz. Güclü cinsin nümayəndəsinin zəif cinsin nümayəndəsinə, hətta öz cinsindən olan insana əl qaldırması, onu döyməsi, əziyyət verməsi istənilən halda yaxşı cəhət deyil. Sadəcə, bu cür məsələlərdə tərbiyəvi üsullardan istifadəyə üstünlük verilməlidir. Əksinə, tərbiyəvi üsulları kənara qoyub, yalnız fiziki təzyiqə, gücə əl atmaq yolunu tutmaq vəziyyəti daha da qəlizləşdirir, gərginləşdirir. Fiziki təzyiqə və təsirə məruz qalan uşaq, övlad sonradan həmin hərəkəti başqa formada – gizlində təkrarlamağa başlayır. Bu isə nəticə etibarilə daha böyük fəsadlara gətirib çıxarır. Ona görə mən ailə-məişət münasibətlərində, bütövlükdə cəmiyyətdə sivil addımların, münasibətlərin tərəfdarıyam. Bu baxımdan bir daha hesab edirəm ki, belə bir qanunun qəbulu ümumi işimizə nəinki mənfi, əksinə, daha müsbət təsir göstərər.

– İstər cəmiyyətdə, istərsə elə parlamentdə müzakirə, mübahisə mövzularından biri də yas və toy mərasimlərini tənzimləyəcək «Mərasimlər haqqında» qanunvericilik aktının qəbulu məsələsidir. Siz necə hesab edirsiniz, bu qanunun qəbulu vacibdirmi və qəbul olunacağı təqdirdə işləmə mexanizminə malik olacaqmı, toy və yas mərasimlərini hüquqi çərçivədə tənzimləyə biləcəkmi?

– Doğrusu, mən dəqiq deyə bilmərəm ki, bununla bağlı qanun qəbul olunmalıdır, ya yox. Əslində mən belə düşünürəm ki, bu məsələləri qanun çərçivəsinə salmaq o qədər də düzgün deyil. Gərək bu yöndə ciddi təbliğat, maa-

rifləndirmə işləri aparılsın, müəyyən məhdudiyyətlər tətbiq olunsun...

– Sizcə, məhdudiyyətləri – məsələn, yas mərasimləri ilə bağlı – kim, hansı təşkilat qoymalıdır və qoya bilər?

– Mənim fikrimcə, konkret yas mərasimləri ilə bağlı məhdudiyyətləri Qafqaz Müsəlmanları Ruhani İdarəsi tətbiq edə bilər. Hamımız yaxşı bilirik, görürük ki, yas mərasimləri hansı «dəbdəbə» ilə keçirilir. Kiminsə imkanı var yas mərasimini daha «dəbdəbəli» edir, kiminsə imkanı yoxdur məcbur olur borca düşür, keçirir. Bu, tamamilə düzgün deyil. İmkan yoxdur bunu etməmək də olar. Qafqaz Müsəlmanları Ruhani İdarəsi də gərək bu istiqamətdə maarifləndirmə işi aparsın ki, əsl islami qaydalarla yas mərasimləri necə keçirilməli, necə təşkil olunmalıdır... Bəzən görürsən ki, küçələrdə çadır quraraq gediş-gəliş, magistral yolunu kəsir, ehsan verirlər. Eyni zamanda, həmin çadırın yanında başqa bir balaca çadır da qurub, orada qab-qacaqları tələm-tələsik yuyub, yenidən stolların üstünə düzürlər. Bu, hər şeydən əvvəl antisanitariyadır. Tibbi cəhətdən də düzgün deyil. Mən belə hesab edirəm, yas mərasimləri, necə ki, digər Şərq ölkələrində, o cümlədən yaxın İranda, Türkiyədə təşkil olunur, daha doğrusu, yas mərasimləri məscidlərdə olur, bizdə də məhz bu cür olmalıdır. Fikrimcə, məscidlərin nəzdində müvafiq bir yer ayrılmalı, yas mərasimləri orada təşkil olunmalı və ehsan da orada verilməlidir. Bu daha uyğundur. Özü də ehsan kasıbların, imkansızların arasında paylanmalıdır. Yoxsa dost-tanışı yığıb ehsan vermək, axı, bu, nə dərəcədə düzgün olar...

– Bəs, toy mərasimləri ilə bağlı nə demək istərdiniz? Son 10-15 ildə, demək olar ki, bu mərasimlər bütün adət-ənənələri adlayıb, üstündən keçib...

– Tamamilə razıyam. Toy mərasimləri də bütün əndazəni aşıb. Axı, nə qədər israfçılıq, ifratçılıq olar? Bir stolun üstünə nə qədər yemək, neçə cür salat, içki düzülər? Hələ mən bunların keyfiyyətini, sanitariya-gigiyena tələblərinə cavab verdiyini nəzərə almıram. Eyni zamanda, toylarda nə qədər səs-küy, uğultu olar? Musiqidən, səsin həddindən artıq uca verilməsindən ağız deyəni qulaq eşitmir... Biz tez-tez məclislərdə, hətta digər ölkələrdə, o cümlədən Şərq ölkələrində keçirilən toy mərasimlərində oluruq. Onların heç birində – söhbət Şərq ölkələrindən gedir – stolların üstünə bu qədər yemək-içmək düzülmür. Sadəcə, nimçələrdə hər kəsin öz payı gəlir – bir, iki, maksimum üç dəfə... Daha stolların üstündə əlavə yeməklər, içkilər, mer-meyvə qalmır, israfa yol verilmir. Ya da ayaqüstü olanda – furşet şəklində – yemək-içmək, mer-meyvə hamısı bir kənara düzülür və hər kəs nə qədər istəyir gedib oradan istifadə edir. Bilirsiniz, israfçılıq islamda ən böyük günahlardandır. İsrafçılığa istənilən halda yol verilməməlidir. Bu başqa məsələ ki, bəlkə şadlıq sarayları, restoranlar bir-birilə rəqabətə girirlər ki, kim daha çox stolun üstünə

yemək qoysun, artıq hesab edirəm ki, bu keçib, bu, arxada qalmış bir mərhələdir. Zənginliyin yemək-içməyin çoxluğu ilə ölçülməsi mərhələsi keçib. Məncə, iki-üç cür yemək, salat oldu, bu, bəs edər. Son olaraq demək istəyirəm ki, bu cür məsələlər ayrıca qanunla yox, hardasa müəyyən qaydalarla, maarifləndirmə, təbliğat işi ilə tənzimlənməli, qaydaya salınmalıdır.

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
«525-ci qəzet», 10 fevral 2010-cu il.

«BİZİM YAS MƏRASİMLƏRİ BAŞDAN-AYAĞA ANTİSANİTARİYADIR»

Gövhər Baxşəliyeva: «Yalnız molla kəbini ilə nikah yolverilməzdir»

Ölkədə «Ailə-məişət zorakılığının qarşısının alınması haqqında» qanunun qəbulu cəmiyyət tərəfindən birmənalı qarşılanmayıb. Bir sıra ekspertlər hələlik Azərbaycanda belə bir qanunun qəbulu üçün şəraitin yetişmədiyi qənaətindədir. Müsahibimiz millət vəkili **Gövhər Baxşəliyevadır**.

- Gövhər xanım, «Ailə-məişət zorakılığının qarşısının alınması haqqında» qanunun qəbulu məsələsi ilə bağlı siz hansı mövqedəsiniz?

- Hesab edirəm ki, Azərbaycanda da belə bir qanun qəbul edilə bilər. Hər halda belə bir qanunun mövcudluğu cəmiyyətdə, ailələrdə ailə mədəniyyətinin səviyyəsini qaldıra, yüksəldə bilər... Məncə, belə bir qanunun qəbulu yaxşı olardı. Düzdür, bəzən belə fikirlər səslənir ki, uşaq evə gec gəlir, ata ona necə əl qaldıra bilməsin, ancaq istənilən halda uşaq olsun, qadın olsun, fərqi yoxdur, başqasına əl qaldırmaq düzgün hərəkət deyil. Qadını, uşağı döymək insanlıqdan, kişilikdən olmaz. Güclü cinsin nümayəndəsinin zəif cinsin nümayəndəsinə, hətta öz cinsindən olan insana əl qaldırması, onu döyməsi, əziyyət verməsi istənilən halda yaxşı cəhət deyil. Sadəcə, bu cür məsələlərdə tərbiyəvi üsullardan istifadəyə üstünlük verilməlidir. Əksinə, tərbiyəvi üsulları kənara qoyub, yalnız fiziki təzyiqə, gücə əl atmaq yolunu tutmaq vəziyyəti daha da qəlizləşdirir, gərginləşdirir. Fiziki təzyiqə və təsirə məruz qalan uşaq, övlad sonradan həmin hərəkəti başqa formada – gizlində təkrarlamağa başlayır. Bu isə nəticə etibarilə daha böyük fəsadlara çıxarır. Ona görə mən ailə-məişət münasibətlərində, bütövlükdə cəmiyyətdə sivil addımların, münasibətlərin tərəfdarıyam. Bu baxımdan bir daha hesab edirəm ki, belə bir qanunun qəbulu ümumi işimizə nəinki mənfi, əksinə daha müsbət təsir göstərər.

- Necə hesab edirsiniz, qanunun qəbulu toy və yas mərasimlərini hüquqi çərçivədə tənzimləyə biləcəkmi?

- Doğrusu, mən dəqiq deyə bilmərəm ki, bununla bağlı qanun qəbul olunmalıdır, ya yox. Əslində mən belə düşünürəm ki, bu məsələləri qanun çərçivəsinə salmaq da bir o qədər düzgün deyil. Amma eyni zamanda hesab edirəm ki, gərək bu yöndə ciddi təbliğat, maarifləndirmə işləri aparılsın, müəyyən məhdudiyyətlər tətbiq olunsun.

- Sizcə, mərasimlərə məhdudiyyətlər hansı təşkilat tərəfindən edilməlidir?

- Mənim fikrimcə, konkret yas mərasimləri ilə bağlı məhdudiyyətləri Qafqaz Müsəlmanları İdarəsi qoya, tətbiq edə bilər. Hamımız yaxşı bilirik, görürük ki, yas mərasimləri hansı dəbdəbə ilə keçirilir. Kimin imkanı var, yas mərasimini

daha dəbdəbəli edir, kimin imkanı yoxdur, məcbur olur borca düşür. Bu, tamamilə düzgün deyil. İmkan yoxdursa, bunu etməmək də olar. Qafqaz Müsəlmanları İdarəsi də gərək bu istiqamətdə maarifləndirmə işi aparsın ki, əsl islami qaydalarla yas mərasimləri necə keçirilməli, necə təşkil olunmalıdır... Bəzən görürsən ki, küçələrdə çadır quraraq gediş-gəliş, magistral yolunu kəsir, ehsan verirlər. Eyni zamanda həmin çadırın yanında başqa bir balaca çadır da qurub, orada qab-qacaqları tələm-tələsik yuyub, yenidən masaların üstünə düzürlər. Bu, hər şeydən əvvəl antisanitariyadır. Tibbi cəhətdən də düzgün deyil. Mən belə hesab edirəm, yas mərasimləri, digər Şərq ölkələrində, o cümlədən yaxın İranda, Türkiyədə təşkil olunan kimi məscidlərdə olmalıdır. Fikrimcə, məscidlərin nəzdində müvafiq bir yer ayrılmalı, yas mərasimləri orada təşkil olunmalı və ehsan da orada verilməlidir. Bu, daha uyğundur. Özü də ehsan kasıbların, imkansızların arasında paylanmalıdır. Yoxsa dost-tanış yığıb ehsan vermək, axı bu, nə dərəcədə düzgündür?..

- Bəs toy mərasimləri ilə bağlı nə demək istərdiniz? Son 10-15 ildə, demək olar ki, bu mərasimlər bütün adət-ənənələri adlayıb, üstündən keçib.

- Tamamilə razıyam. Toy mərasimləri də bütün əndazəni aşıb. Axı, nə qədər israfçılıq, ifratçılıq olar? Bir masanın üstünə nə qədər yemək, neçə cür salat, içki düzülər? Hələ mən bunların keyfiyyətini, sanitariya-gigiyena tələblərinə cavab verdiyini demirəm. Eyni zamanda toylarda nə qədər səs-küy, uğultu olar? Musiqidən, səsin həddindən artıq uca verilməsindən ağız deyəni qulaq eşitmir. Biz tez-tez məclislərdə, hətta digər ölkələrdə, o cümlədən Şərq ölkələrində keçirilən toy mərasimlərində oluruq. Onların heç birində - söhbət Şərq ölkələrindən gedir – stolların üstünə bu qədər yemək-içmək düzülmür. Sadəcə, nimçələrdə hər kəsin öz payı gəlir – bir, iki, maksimum üç dəfə. Daha stolların üstündə əlavə yeməklər, içkilər, mer-meyvə qalmır, israfa yol verilmir. Ya da ayaqüstü olanda – furşet şəklində - yemək-içmək, mer-meyvə hamısı bir kənara düzülür və hər kəs nə qədər istəyir, gedib oradan istifadə edir. Bilirsiniz, israfçılıq islamda ən böyük günahlardandır. İsrafçılığa istənilən halda yol verilməməlidir. Bu başqa məsələ ki, bəlkə şadlıq sarayları, restoranlar birbirilə rəqabətə giriblər ki, kim stolun üstünə daha çox yemək qoysun, artıq hesab edirəm ki, bu keçib, bu, arxada qalmış bir mərhələdir. Zənginliyin yemək-içməyin çoxluğu ilə ölçülməsi mərhələsi keçib. Məncə, iki-üç cür yemək, salat oldu, bəs edər. Son olaraq demək istəyirəm ki, bu cür məsələlər ayrıca qanunla yox, haradasa müəyyən qaydalarla, maarifləndirmə, təbliğat işi ilə tənzimlənməli, qaydaya salınmalıdır.

- Yadınızdadırsa, təxminən bir il öncə parlamentin plenar iclasının müzakirəsinə təqdim olunan «Reproduktiv sağlamlıq və ailə planlaşdırılması haqqında» qanun layihəsi elə birinci oxunuşdan geriyə qaytarıldı. Səbəb də

bu oldu ki, qanun layihəsində ciddi təkmilləşdirmələrə - xüsusilə «surroqat ana» və «donor bank»ı məsələləri ilə bağlı – ehtiyac var. Bu baxımdan bilmək istərdik ki, bəs siz bu qanunla bağlı nə fikirdəsiniz? Onun qəbulunu vacib sayırsınız, yoxsa?..

- Belə düşünürəm ki, bu qanunun da qəbulu mümkündür. Qanunu hazırlayanlar özləri də razıdırlar ki, həmin məsələ - «surroqat ana» məsələsi sözügedən sənəddən birmənalı olaraq çıxarılmalıdır. Şəxsən elə mən özüm də əvvəldən dedim ki, bu nə mənəviyyata, nə də insanlığa sığan məsələdir. Hansısa qadın o uşağı – başqa anadan mayalanmış – doqquz ay bətnində gəzdirirsə, o qadının həmin uşağa bir ana-övlad münasibəti yaranır və ya hansısa qadın o məsələyə gedirsə, sadəcə ona ehtiyac üzündən gedir. Doqquz ay uşağı bətnində daşıyandan sonra o uşağı başqasına vermək, mənim fikrimcə, övladı anadan zorla ayırmaq deməkdir. Bu, insanlığa sığan bir məsələ deyil. Əgər Allah-Təala hansısa ailəyə, cütlüyə övlad məsləhət görməyibsə, indi onu bu cür yolla həll etmək özü günahdır, qeyri-humanist hərəkətdir. Odur ki, bu məsələləri qanun layihəsindən çıxarmaq, eləcə də digər təkmilləşdirmələr aparmaq şərtilə qanunu qəbul etmək olar. Burada problem doğuracaq bir məsələ görmürəm.

- ***Yeri gəlmişkən, Ailə Məcəlləsinə də dəyişikliklərin edilməsi məsələsi gündəlikdədir. Bir sıra deputat həmkarlarınız, xüsusilə nikah yaş həddinin artırılmasına, nikaha girməzdən öncə ailə qurmağa hazırlaşan cütlüklərdən tibbi arayışların tələb edilməsini, nikaha girənlər arasında mülkiyyət müqaviləsinin bağlanmasını nəzərdə tutan düzəlişlərin Məcəllədə əksini tapmasının vacibliyini önə çəkirlər...***

- Bilirsiniz, bizdə nikah yaş həddi elə orta yaş həddi kimi də götürülüb. Bəzi dövlətlər var ki, orada 14-15 yaşlarında nikaha girməyə icazə verilir. Elə dövlətlər də mövcuddur ki, orada 20-22 yaşlarında ailə qurmaq üçün nikaha girməyə icazə var. Bu baxımdan hesab edirəm ki, bizdəki mövcud qanunvericiliklə müəyyənləşdirilən yaş həddi şəraitimiz üçün normaldır. Şəxsən mən hesab edirəm ki, bu yaş həddi 18 olsa, daha yaxşı olar. Məktəb bitirdikdən sonra insanların nikaha girmək hüququ, imkanı olmalıdır. Erkən nikahlara gəlincə isə, mən də buna qarşıyam...

- ***Bildiyiniz kimi, erkən nikaha girənlər də çox vaxtı öz münasibətlərini molla kəbini ilə həll edirlər.***

- Bunlar yolverilməzdir. Şəxsən mən də yalnız molla kəbini ilə nikahlara qarşıyam. Nikahlar mütləq dövlət qeydiyyatından – VVAQ-dan keçməlidir. Bu münasibətlər mütləq qanuniləşməlidir. Eyni zamanda insanlar - əsasən qızlar nəzərdə tutulur – 9 illik icbari təhsil var ki, onu mütləq almalıdırlar və yalnız bundan sonra nikaha girmək hüququna malik olmalıdırlar. Özü də bu nikahlar nikaha girən cütlüklərin, ələlxüsus qızların öz arzuları, istərkləri ilə bağlı olma-

lıdır. Onların iradəsinin ziddinə olaraq həll olunmamalıdır...

- ***Burada qızların təhsildən yayındırılması məsələsi bəlkə də ən ciddi problemlərdəndir...***

- Bu, çox böyük problemdir. Əksər həmkarlarım kimi, mən də bu məsələdən ciddi narahatçılıq keçirirəm. Xüsusilə Azərbaycanın cənub və şimal bölgələrində, o cümlədən paytaxt Bakının kəndlərində bu məsələ, problem aktuallığı və kəskinliyi ilə özünü göstərməkdədir. Bu bölgələrdə qızların təhsildən yayındırılaraq, əməyə cəlb edilməsi və yaxud zorla ərə verilməsi halları çox ciddi problem kimi ortalıqdadır. Ona görə bu məsələlər ciddi şəkildə tənzimlənməlidir. Qızların təhsil alması, ən azı, icbari təhsil alması məsələsi bütün hallarda təmin edilməlidir. Bu məsələyə rayon təhsil şöbələri çox ciddi yanaşmalıdırlar. Yadınızdadırsa, sovetlər dövründə bir uşaq dərsə gəlməyəndə həmin uşağın evinə gedirdilər, onun valideynlərini məcbur edirdilər ki, uşaq dərsə gəlsin. Hesab edirəm ki, indi də belə olmalıdır. Hər bir uşaq məktəb, təhsil şöbəsi tərəfindən nəzarətdə olmalıdır. Direktor bacarmırsa, bu işi rayon təhsil şöbəsi mütləq görməlidir. Hətta deyərdim ki, uşağını dərsdən, təhsildən yayındıran valideynlər üçün cəza tədbiri də seçilməlidir. Tibbi arayışların tələb edilməsi məsələsinə gəlincə, hesab edirəm ki, bu, mütləq Ailə Məcəlləsində öz əksini tapmalıdır. Ailə qurmağa hazırlaşan cütlüklərin nikaha girməzdən öncə bir-birilərinin sağlamlıqları, səhhətləri barədə məlumatlı olmaları çox vacibdir. Bəzən görürsən ki, səhhəti, sağlamlığı yol vermədiyi halda kimsə başqası ilə nikaha girir və nəticədə istər onun, istərsə də nikaha girdiyi şəxsin səhhətində, övlad dünyaya gətirməsində ciddi problemlər yaranır. Bu da çox zaman sonda həmin cütlüyün və yaxud cütlüklərin evliliklərinin dağılmasına gətirib çıxarır. Ona görə düşünürəm ki, bu məsələnin müvafiq qanunvericilikdə - Ailə Məcəlləsində əksini tapması vacibdir...

- ***Bəs mülkiyyət müqaviləsi barədə nə düşünürsünüz?***

- Hesab edirəm ki, bu məsələ sırf könüllülük əsasında olmalıdır. Burada məcburiyyət olmamalıdır. Əgər nikaha girənlər özləri istəyərlərsə, bunu edə bilərlər. Bizdə mental cəhətdən də belədir ki, nikaha girənlər əvvəlcədən bunu düşünmürlər. Onlar, sadəcə, gələcək xoşbəxt ailə həyatları barədə düşünürlər. Düzdür, bu cür düşünməyənlər də var, ancaq hər halda, bu, böyük üstünlük təşkil etmir. Ona görə bu məsələdə könüllülük prinsipinə üstünlük verilməlidir.

«Olaylar» qəzeti, 26 fevral 2010-cu il.

«KƏNDLƏRİN QAZLA TƏCHİZATI SAHƏSİNDƏ PROBLEMLƏR ÖN SIRADA DURUR»

Millət vəkili Gövhər Baxşəliyeva: «Bəzi məmurların vətəndaşların müraciətlərinə daha diqqətli yanaşmaları gərəkdir»

– Gövhər xanım, bu günlərdə deputat seçildiyiniz Bərdə rayonunda 2009-cu ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib. Siz də sözügedən rayondan olan deputat kimi həmin yığıncaqda iştirak etmisiniz. Bu baxımdan istərdik ki, ilk öncə bu barədə məlumat verəsiniz...

– Əvvəla, tədbirdə Bərdə rayon icra hakimiyyətinin başçısı İlham Ağayev məruzə etdi və onun hesabatı ətrafında müzakirələr aparıldı. İlham Ağayev hesabat dövründə Bərdənin sosial-iqtisadi inkişafı sahəsində əldə olunan uğurlardan danışmaqla yanaşı, yol verilən nöqsanlardan, mövcud çatışmazlıqlardan da söz açdı. Rayonun müvafiq qurumlarına bu çatışmazlıqları aradan qaldırmaq tapşırıldı. Bütün bunlar yığıncaqda qəbul edilən qərar layihəsində də öz əksini tapdı. Yığıncaq iştirakçıları həmçinin rayon ictimaiyyəti adından Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevə müraciət qəbul etdilər. Bu müraciətdə Bərdə ictimaiyyətinin ölkə başçısının yürütdüyü daxili və xarici siyasəti dəstəklədiyi, respublikanın sosial-iqtisadi inkişafı istiqamətində əldə olunan nailiyyətləri yüksək qiymətləndirdiyi qeyd edilir və möhtərəm prezidentin rəhbərliyi ilə iqtisadiyyatı gücləndirmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq barədə qəbul edilmiş proqramların Bərdə rayonunda da müvəffəqiyyətlə həyata keçirildiyi bildirilir.

– Bu bölgəni təmsil edən millət vəkili kimi Bərdə rayonunda görülən işləri necə qiymətləndirirsiniz?

– Bildiyiniz kimi, son zamanlar bütün dünyanı bürüyən böhrana baxmayaraq, Azərbaycan Respublikası möhtərəm prezident İlham Əliyevin səyləri, yürütdüyü düzgün iqtisadi siyasət nəticəsində bu böhranın təsirlərindən yan keçə, bir çox sahələrdə nəzərəçarpacaq inkişafa nail ola bilib. Bütün bunlar respublikamızın hər bir bölgəsində olduğu kimi, Bərdə rayonunda da öz əksini tapıb. Burada görülən quruculuq işləri, rayonun iqtisadi inkişafı birbaşa dövlət başçısının diqqətindədir. Elə ötən ilin martında cənab İlham Əliyev Bərdəyə səfəri zamanı bölgə üçün böyük əhəmiyyəti olan Müalicə-Diaqnostika Mərkəzinin, eləcə də Tarix-Diyarşünaslıq Muzeyinin, Uşaq İncəsənət Məktəbinin açılışında iştirak etdi, YAP Bərdə rayon təşkilatının yeni inzibati binası, Daxili Qoşunların «N» saylı hərbi hissəsi üçün salınmış şəhərciklə tanış oldu. Təbii ki, rayonda görülən tikinti-abadlıq işləri tək bunlarla məhdudlaşmır. 2009-cu ildə Bərdədə avto-

vağzal kompleksi, müasir tipli ticarət mərkəzi, müxtəlif inzibati binalar, Qarabağ əlilləri və şəhid ailələri üçün 24 mənzilli bina və fərdi yaşayış evləri, Kətəlparaq və Qaradırnaq kəndlərində məktəb binaları və bu kimi daha neçə yeni obyekt istifadəyə verilib. Rayon mərkəzində aparılan abadlıq işləri göz qabağındadır. Əhalinin sosial müdafiəsi gücləndirilir. Ötən il rayonda 500-dən çox daimi iş yeri açılıb. Sahibkarlıq fəaliyyəti genişlənir, aqrar bölmədə uğurlar var. Əkinçilik sahələri genişlənir. Dənli bitkilər və kartof istehsalında artım daha böyükdür. Elə tək buğda istehsalında 43 faiz artım olub. Uğurlar təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə də müşahidə olunur.

– Əldə olunan nailiyyətlərlə yanaşı, müəyyən çatışmazlıqların da olduğunu qeyd etmişdiniz.

– Bəli. Bütün bunlar qeyd etdiyim kimi, rayon icra hakimiyyətinin başçısı İlham Ağayevin də hesabatında öz əksini tapıb. Məsələn, əsas qabarıq nəzərə çarpan nöqsanlardan biri büdcənin həm gəlir, həm də xərcləri sahəsində ilin kəsirlə başa vurulmasıdır. Bu məsələni araşdırıb ciddi tədbirlər görmək barədə Maliyyə idarəsinin rəisinə tapşırıqlar verildi. Əhalinin təbii qazla təminatında çatışmazlıqlar çoxdur. Rayonun 109 kəndindən yalnız 16,5 faizi qazla təmin olunub. Bu il ərzində 60-a yaxın kənddə mövcud problemin aradan qaldırılması planlaşdırılır. Rayonun ayrı-ayrı idarə və müəssisələrində vətəndaşların dinlənilərək onları narahat edən məsələlərin həlli istiqamətində görülən işlər heç də həmişə qənaətbəxş olmur. Bəzi məmurların vətəndaşların müraciətlərinə daha diqqətli yanaşmaları gərəkdir. Aqrar sahədə buğda istehsalı sahəsində 2009-cu ilin yüksək artım göstəricilərini qeyd etdim. Bu il isə vəziyyət tam əksinədir. Buğda əkini sahələrinin kəskin azalması yeni ildə götürüləcək məhsulun da miqdarına təsir göstərəcək. Ötən il isə pambıq və şəkər çuğunduru istehsalı sahəsində həm əkin sahələrinin, həm də götürülən məhsulun həcmi təxminən 50 faizədək azalıb. Rayonda təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə çatışmazlıqlar aradan qaldırılmalıdır. Təmir və bərpaya ciddi ehtiyacı olan binalar da az deyil.

– İclasdan sonra Bərdənin kəndlərində bir sıra görüşlər keçirmisiniz...

– Doğrudur. Elə həmin günün ikinci yarısında rayonun kəndlərinə yollandım. Kəndlərdəki görüşlərim ertəsi gün də davam etdi. Bərdənin Şirvanlı, Mollalı, Mustafaağalı, Kətəlparaq, Qaradəmirçi kəndlərində görüşlər keçirdim, əhali qarşısında çıxış etdim, onları dinlədim, problemləri ilə tanış oldum. Bütövlükdə görüşlər konstruktiv ruhda keçdi.

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
«525-ci qəzet», 2 mart 2010-cu il.

«AZƏRBAYCAN MODELİ» ŞƏRQ ÖLKƏLƏRİNƏ NÜMUNƏDİR

- Gövhər xanım, ictimai-siyasi və elmi fəaliyyətlə məşğul olan bir xanım kimi Azərbaycan qadınının cəmiyyətdəki rolunu və mövqeyini necə dəyərləndirirsiniz?

- Azərbaycan qadınının cəmiyyətdəki rolu çox yüksəkdir. Bu gün bizim cəmiyyətdə qadın böyük bir qüvvədir. Azərbaycan qadını yüksək təhsil görmüş, kifayət qədər potensiala malik bir xanımdır. Şərq ölkələri ilə müqayisədə Azərbaycan qadını intellektual imkanlarına, cəmiyyətdə mövqeyinə görə ön sıradadır. Bunu ölkəmizdə səfərdə olan xarici qonaqlar da dəfələrlə vurğulayıblar. Elə Misirin Azərbaycandakı keçmiş səfiri xanım Cihan Amin Məhəmməd Əli mənimlə söhbətində dəfələrlə qeyd edirdi ki, Azərbaycanda onun ən çox xoşuna gələn qadınların vəziyyəti, onların azadlığı, dərin savada malik olmaları, burada yüksək səviyyəli mütəxəssis qadınların – alimlərin, müəllimlərin, həkimlərin olmasıdır. O, həmişə vurğulayırdı ki, Azərbaycan qadını öz təcrübəsi ilə Şərq qadınlarına, o cümlədən də Misir qadınlarına nümunə ola bilər.

Bununla belə, tam razıyam ki, qadınlarımızın ictimai fəallığı, idarəetmə orqanlarında təmsilçiliyi daha çox olmalıdır.

- Bir neçə vəzifənin ağırlığı sizin zərif qadın çiyinlərinizin üzərinə düşür. Bütün bu vəzifələri müvəffəqiyyətlə yerinə yetirməyə vaxt və enerjini hardan alırsınız?

- Bu vəzifələri yerinə yetirməyə vaxtı, təbii ki, iş günümün dəqiq bölgüsünü aparmağım sayəsində tapıram. İllər boyu qazandığım iş təcrübəm, alışdığım dəqiq nizam-intizam buna imkan verir. Enerjiyə gəldikdə isə bu, artıq Allahtəaladan və valideynlərimdən mənə ata edilmiş böyük bir töhfədir. Bütün bunlarla yanaşı, gördüyüm işlərin bəhrəsi, insanlara, cəmiyyətimizə lazımlı olması mənə ikiqat enerji verir.

- Müstəqil Azərbaycan parlamentinin ilk qadın vitse-spikeri olmusunuz. İlk qadın vitse-spiker kimi hansı çətinliklərlə üzləşirdiniz?

- Rastlaşdığımız müəyyən çətinliklər olurdu. Məsələn, uzun müzakirələr böyük iş nəticəsində hazırlanan qanunların bəzən sonra real həyatda işləmə mexanizminin olmaması bu qəbildəndir. Seçicilərin, müxtəlif insanların bizə müraciətlərindən də bu vəziyyətdən doğan problemlərlə üzləşmələri bəlli olurdu. Bu həm mənim, həm də digər deputat həmkarlarımın iş prosesində üzləşdiyimiz əsas çətinliklərdəndir.

- Azərbaycan qadınının bugünkü intellektual potensialı Milli Məclisdə təmsilçilik faizi ilə üst-üstə düşürmü?

- Mən hesab edirəm ki, Azərbaycan qadını bu gün Milli Məclisdə faiz

baxımından daha çox təmsil oluna bilər. Bu gün Milli Məclisdə 125 deputatdan 14-ü, yəni millət vəkillərinin 11 faizdən bir qədər çoxu qadınlardır. Hesab edirəm ki, bu göstərici gələcəkdə artırılsa daha yaxşı olar. Azərbaycan qadınlarının digər sahələrdə də təmsilçiliyinin artırılması məqsədəuyğun olar. Bu baxımdan hakim Yeni Azərbaycan Partiyasının bu istiqamətdə gördüyü işlər, həm parlament seçkilərində, həm də bələdiyyə seçkilərində qadınlara üstünlük verməsi, əlbəttə ki təqdir olunan bir haldır.

- Siz İslam Konfransı Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin rəhbərisiniz. Müasir qloballaşan dünyada Azərbaycanın islam dünyasındakı rolunu necə xarakterizə edərdiniz?

- Hesab edirəm ki, müasir qloballaşma dövründə İslam dünyasında Azərbaycan kifayət qədər fəal rol oynayır. Bilirsiniz ki, Azərbaycan üzvü olduğu İslam Konfransı Təşkilatının bütün qurumlarında təmsil olunur, bütün tədbirlərində fəal iştirak edir. Eyni zamanda ölkəmiz İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament Məclisinə də daxildir və bu məclisin bütün sessiyalarında, konfranslarında, icraiyyə komitəsinin yığıncaqlarında mütəmadi olaraq iştirak edir və kifayət qədər fəallığı ilə seçilir. Azərbaycanın özündə də keçən il İslam Konfransı Təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin toplantısı keçirildi.

Ümumiyyətlə, ölkəmizin islam dünyasındakı mövqeyi ilə bağlı deyə bilərəm ki, Azərbaycanın bugünkü inkişafı, mədəniyyətimizdə bütün Şərq və Qərb dəyərlərinin sintezi, dini tolerantlığın yüksək səviyyədə olması Azərbaycanı bir ictimai-siyasi və iqtisadi inkişaf modeli kimi bütün Şərq ölkələrinə təqdim etməyə imkan verir.

- Gövhər xanım, 2009-cu ilin dekabrında Misirdə səfərdə olarkən Dar-ül-Kütub kitabxanasında tapdığınız xəritələr və onların əhəmiyyətindən danışın.

- Dar-ül-Kütubda aşkarladığım tarixi xəritələr istər Dağlıq Qarabağın, istər hazırkı Ermənistanın böyük bir hissəsinin, istərsə də digər torpaqların tarixən Azərbaycana məxsus olmasının ötən əsrlərdə də Qərb alimlərinə, xəritəşünaslarına məlum olduğunu təsdiq edir. Məsələn, ötən əsrin əvvəllərində Parisdə görkəmli fransız xəritəşünası Alfons Tarid tərəfindən nəşr etdirilmiş xəritədə Azərbaycan ərazisinə müasir respublikamıza daxil olan ərazilərdən başqa şimaldan Qasımkənd, Dərbənd və başqa torpaqlar, qərbdən müasir Ermənistanın Mehri, Qafan, Gorus, Sisyan, Vardenis, Krasnoselsk rayonları, Berd rayonunun yarıdan çoxu və s. daxildir. Önəmli haldır ki, xəritədə Şuşa toponimi də (Choucha) əks olunub. Bu xəritənin Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən tarixi coğrafiyasının öyrənilməsində mühüm əhəmiyyəti var.

Başqa bir xəritə Gülüstan və Türkmənçay müqavilələrinin bağlandığından

sonra Cənubi Azərbaycanın ərazisini əhatə edir və burada Azərbaycan toponimi Araz çayından İraq sərhədlərinə qədər olan böyük ərazini – Təbriz, Ərdəbil, Marağa, Əhər, Mərənd, Mahabad, Maku, Xoy, Miyanə, Savalan dağı, Urmiya gölü və s. tarixi Azərbaycan torpaqlarını əhatə edir.

Eyni zamanda əldə etdiyimiz və XVI-XVIII əsrlərdə İtaliya və Hollandiyada tərtib olunmuş digər xəritələr nəinki Dağlıq Qarabağın, ümumiyyətlə, bütövlükdə müasir Ermənistanın tarixi Ermənistan adlı ərazilərlə heç bir əlaqəsinin olmamasını və vaxtilə Böyük Ermənistan və Kiçik Ermənistan adlanan torpaqların indiki Ermənistan dövlətindən çox-çox uzaqda, Assuriya ilə Mesopotamiyanın qonşuluğunda yerləşməsini göstərir. Bu faktları venesiyalı xəritəşünas Antonio Zatta tərəfindən tərtib edilmiş və «Böyük İsgəndərin imperiyası adlanan» xəritə də, eyni dövrdə Amsterdamda Fridrix dö Vidin hazırladığı xəritə də, həmin şəhərdə Yudukus Hundius tərəfindən tərtib olunmuş və Sultan III Məhmədin dövrünü – XV əsrin sonu XVI əsrin ilk illərini əhatə edən xəritələr də təsdiqləyir.

- Bütün bunlar mənfur qonşularımızın son dövrdəki yalançı təbliğatının ifşa edilməsinə hansı əsasları verir?

- Saxta erməni təbliğatı, yalan informasiya, dünya ictimaiyyətini hələ də çaşdırmaqda davam edir, insanları bölgəmizin tarixi, Ermənistan-Azərbaycan münaqişəsinin kökləri ilə bağlı yalanlara inanmağa sövq edir. Bu saxtakarlığın qarşısında Qərb xəritəşünaslarının hazırladıqları həqiqi tarixi xəritələri, sənədləri çıxarmaqla dünya ictimaiyyətinə həm erməni təbliğatının yalanlara söykənən saxtakarlıqdan başqa bir şey olmadığını sübut edə, həm də Azərbaycan həqiqətlərini nümayiş etdirməklə xalqımızın haqq səsini çatdıra bilərik. Sadəcə, bu sahədə qüvvələri daha çox səfərbər etmək, təbliğatda daha fəal və faydalı olmağa çalışmaq gərəkdir.

- Təmsil olunduğunuz Elm və Təhsil komitəsində «Elm siyasəti haqqında» qanun layihəsi hazırlanır. Siz bu qanunda hansı məqamların əks olunması tərəfdarısınız?

- Tamamilə düzgün buyurursunuz. «Elm siyasəti haqqında» qanun layihəsi hazırlanır və artıq ilkin variantda qanun layihəsi komitə üzvlərinə də paylanıb. Daha öncə Prezidentimizin sərəncamı ilə Azərbaycan elmində islahatlar aparılması üzrə dövlət komissiyası yaradılmışdır. Həmin komissiyaya tapşırılmışdı ki, Azərbaycan elminin inkişaf strategiyasını hazırlasın. Artıq o strategiyanı həyata keçirmək üzrə dövlət proqramı da hazırdır və Prezident tərəfindən imzalanıb. Hesab edirəm ki, hazırlanan elm siyasəti haqqında qanun layihəsində əsas konseptual məsələlər kimi məhz Azərbaycan elminin inkişaf strategiyasında qoyulan vəzifələr öz əksini tapmalıdır. Bu vəzifələr hansılardır? Birincisi,

elmimizin Azərbaycanın bugünkü sosial, ictimai, mədəni həyatının tələblərinə cavab verməsi, ikincisi, Azərbaycan elminin dünya elmi məkanına inteqrasiyası, üçüncüsü, beynəlxalq elmi əlaqələrin daha da gücləndirilməsi, dördüncüsü, elmlə məşğul olan insanların sosial müdafiəsinin gücləndirilməsi, elmin təhsil və istehsalla inteqrasiyası, intellektual mülkiyyət hüququnun qorunması və sairə. Bu gün Azərbaycanda elmin inkişafının prioritet istiqamətləri müəyyənləşdirilməli, bu istiqamətlər üzrə proqram və layihələr hazırlanmalı və həyata keçirilməli, elmi fəaliyyətin dünya standartları səviyyəsində aparılmasını təmin edən kompleks tədbirlər həyata keçirilməlidir.

«Milli Məclis» jurnalı, mart-aprel 2010-cu il.

İKT-YƏ DAXİL OLAN BƏZİ ÖLKƏLƏR AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİ QƏBUL ETMİRLƏR

GÖVHƏR BAXŞƏLİYEVA: «QURUMA DAXİL OLAN BƏZİ ÖLKƏLƏR İŞĞALÇI ERMƏNİSTANLA DAHA ÇOX ƏMƏKDAŞLIQ EDİRLƏR»

Dünyada baş verən siyasi və iqtisadi proseslər və iri dövlətlərin təsiri nəticəsində islam ölkələri bəzən bir-birlərini müdafiə etməkdən çəkinirlər. Elə vəziyyət yaranıb ki, hətta birbaşa İslamla bağlı olan vahid təşkilatda təmsil olunan ölkələr islam həmrəyliyinin ziddinə olaraq bir-birlərinə yardım əlini uzatmaqda tərəddüd edirlər. Bəs bu dövlətlərin qarşısına sədd çəkən amillər hansılardır? Müsahibimiz millət vəkili **Gövhər Baxşəliyevadır**.

***- Gövhər xanım, məlum olduğu kimi, bu günlərdə ABŞ-ın Massaçusets ştatı Xocalı faciəsini soyqırım aktı kimi tanıyıb. Necə hesab edirsiniz, bundan sonra bu faciənin soyqırım kimi ABŞ-ın digər ştatlarında və ən nəhayət ABŞ Konqresində, eləcə də digər dünya ölkələrinin parlamentlərində tanınması mümkündürmü*?**

- Əvvəla qeyd edim ki, ABŞ-ın Massaçusets ştatında Xocalı faciəsinin soyqırım kimi tanınması çox əhəmiyyətlidir. Eyni zamanda, bundan xeyli öncə - Leyla xanım Əliyeva tərəfindən başladılan «Xocalıya ədalət!» kampaniyası çərçivəsində İslam Konfransı Təşkilatının Parlament İttifaqı (İKT Pİ) bu qurumun Uqandada keçirilən toplantısında Xocalı faciəsini soyqırım aktı kimi tanımışdı. Ona görə belə hesab edirəm ki, biz bundan yararlanaraq, istifadə edərək bu istiqamətdəki işlərimizi daha da sürətləndirməliyik. O da yaxşı məlumdur ki, hər il 24 aprel ərəfəsində ermənilər tərəfindən uydurma «erməni soyqırımı» ilə bağlı haray-həşir salınır, istər-istəməz bütün türk aləmi, türk dünyası əsassız olaraq gərginlik keçirir. Bu, həm də belə demək mümkünsə, Türkiyə başda olmaqla, digər türk cümhuriyyətlərinə qarşı bir təzyiq vasitəsi kimi istifadə olunur. Heç də təsadüfi deyil ki, bu günə kimi Avropanın, Amerikanın bir sıra ölkələri, o cümlədən ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsi uydurma «erməni soyqırımı» ilə bağlı qətnamə layihələri qəbul edib və bunlar da məhz həmin təzyiqin tərkib hissəsidir. Bununla yanaşı, hər il belə bir gərginlik də yaşanır ki, ABŞ prezidenti 24 aprellə bağlı çıxışında «soyqırım» ifadəsini işlədəcək, ya yox? Mən belə düşünürəm ki, bu kimi halların qarşısının önlənməsi üçün Azərbaycan parlamenti olaraq, indiyə qədər ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş soyqırım hadisələrini sənədləş-

dirib - bu istiqamətdə də kifayət qədər sənədlərimiz var, Fövqəladə İstintaq Komissiyasının materialları (1918) da ortalıqdadır, 1913-cü ildən ta 1918-ci ilə qədər Azərbaycan xalqına qarşı ermənilər tərəfindən baş vermiş qətliamlar, vandalizm hərəkətləri şahidlərin ifadəsi ilə orada öz əksini tapmaqdadır, bunlar hətta rus dilinə də tərcümə olunub, dünya parlamentlərinə göndərməliyik. Bundan başqa, faktlarla sübut olunub ki, 1918-ci il hadisələrindən öncə - 1905-1907-ci illərdə də ermənilər tərəfindən 100 minəcən azərbaycanlı amansızcasına qətlə yetirilib. Həmçinin 31 mart soyqırımı ilə bağlı mərhum dövlət başçımız Heydər Əliyevin məlum sərəncamı var və vaxtilə baş vermiş bütün qanlı hadisələr orada öz əksini tapıb. Bu sənədləri də həmin ölkələrə göndərməliyik. Onu da deyim ki, indiki İran ərazisində, Cənubi Azərbaycanda da ermənilər tərəfindən azərbaycanlıların kütləvi qətliamı həyata keçirilib. Məsələn, Xoyda, Urmiyada və digər bölgələrdə 163 min azərbaycanlı qətl olunub. Biz bunların hamısını cəmləşdirib, sənədləşdirib, digər ölkələrin parlamentlərinə göndərməli, onlara müraciət etməliyik ki, ermənilərin bu vandalizm hərəkətlərinə hüquqi-siyasi qiymət versinlər. Biz müraciətlə kifayətlənməyərək, həm də dünya ölkələrinin parlamentləri, parlamentariləri ilə geniş iş aparmalıyıq. Çalışmalıyıq ki, heç olmasa, ən azı, bizə yaxın olan ölkələr, müsəlman ölkələri xalqımıza qarşı törədilən vandalizm hərəkətlərini soyqırım kimi tanısınlar. Yəni, belə hesab edirəm ki, biz ermənilərin uydurma «soyqırım» iddialarını və bu iddialardan istifadə edərək, Türkiyəyə, Azərbaycana, bütövlükdə türk dünyasına yönələn təzyiqləri önləmək üçün məhz elə ermənilərin özlərinin xalqımıza qarşı törətdiyi qətliamların dünya parlamentləri tərəfindən tanınmasına nail olmalıyıq. İstər Xocalı soyqırımı, istər XX əsrin əvvəlində baş vermiş qətliamlar ilk öncə qardaş türk cümhuriyyətlərinin parlamentlərində, o cümlədən Türkiyə Böyük Millət Məclisində tanınmalıdır. Bunlar çox vacib və əhəmiyyətlidir.

- İKT-nin son iclaslarından birində sözügedən qurumun yeni Nizamnaməsi qəbul edildi. Məlumatlara görə, bu yenilik sözügedən qurumun daha çevik fəaliyyət göstərməsi niyyətlərindən irəli gəlir. Ancaq o da məlumdur ki, elə bu təşkilata daxil olan bəzi ölkələr Azərbaycan həqiqətlərini qəbul etmir və yaxud da etmək istəmirlər.

- Dediklərinizlə müəyyən mənada razıyam. Son dəyişikliklər sözügedən təşkilatların - həm İKT-nin, həm də Parlament İttifaqının müasirləşməsi, müasir metod və üsullarla işləməsi istəklərindən, onların daha mobil qurumlara çevrilməsindən irəli gəlir. Yəni, həmin dəyişikliklərin kökündə məhz bu niyyətlər dayanır. Onu da nəzərinizə çatdırım ki, hər iki təşkilata istər İKT-yə, istərsə də Parlament İttifaqına türk əsilli şəxslər, Əkmələddin İhsanoğlu və

Mahmud Erol Kılıc rəhbər seçiləndən sonra bu qurumların fəaliyyəti daha çox fəallaşıb, aktivləşib. Çünki bu şəxslər daha müasir, daha təcrübəli insanlardır. Həm də onlar hər ikisi elmdən gəliblər. Hər ikisi çox yaxşı alimdir. Dünyada gedən prosesləri çox yaxşı, düzgün anlayan insanlardır. Eyni zamanda bunlar modern düşünən insanlardır və bu baxımdan, təşkilatın işini modernləşdirmək üçün onlar çox iş görürlər. Deyərdim ki, son dəyişikliklər də məhz bu iki insanın fəaliyyəti ilə birbaşa bağlıdır. Hər iki Nizamnamədə də göstərilib ki, İKT-nin əsas iş prinsipi müsəlman birliyi, həmrəyliyi və qardaşlığıdır. Bu baxımdan, əgər İKT üzvləri olan ölkələr, müsəlman ölkələri öz işbirliklərini bu prinsip əsasında qururlarsa, hesab edirəm ki, o zaman onlar Azərbaycan faciələrinə, həqiqətlərinə daha da diqqət yetirməlidirlər. Düzdür, yuxarıda qeyd etdiyim kimi, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Xocalı faciəsinin soyqırım aktı kimi tanınması ilə bağlı bu qurumların fəaliyyəti ortalıqdadır, amma heç də bu qurumlara daxil olan bütün ölkələr bu təşkilatın baş prinsipinə, islam həmrəyliyi prinsipinə riayət etmirlər.

- ***Söhbət konkret olaraq hansı ölkələrdən gedir?***

- Mənə elə gəlir ki, burada konkret ad çəkməyə elə bir ehtiyac yoxdur. Bu, hamıya yaxşı məlumdur. Bu ölkələr sırasında hətta bizimlə qonşu olan ölkələr də var. Bu baxımdan, gərək İKT və onun digər qurumları öz üzvlərinə təsir etsinlər ki, onlar Azərbaycanın problemlərinə daha həssaslıqla yanaşsınlar, işğalçı Ermənistanla əlaqələrə üstünlük verməsinlər. Yenə də qeyd edirəm, çox təəssüflər olsun ki, İKT-yə daxil olan bəzi ölkələr bu təşkilatın baş prinsipi olan İslam həmrəyliyi prinsipini pozaraq, ona riayət etmirlər, işğalçı Ermənistanla daha çox əməkdaşlıq edirlər. Ona görə biz bu istiqamətdə də öz işlərimizi gücləndirməli və sürətləndirməliyik. Məhz bu yolla həm faciələrimizin tanınmasına, həm həqiqətlərimizin qəbul edilməsinə, həm də Türkiyə və Azərbaycan başda olmaqla, türk dünyasına yönələn təzyiqlərin, saxta iddiaların qarşısını almağa nail ola bilərik.

Müsahibəni apardı: Alim,
«Olaylar» qəzeti, 5 may 2010-cu il.

«ŞƏRQŞÜNASLIQ İNSTİTUTU YENİ İNKİŞAF MƏRHƏLƏSİNƏ QƏDƏM QOYUB»

Müsahibimiz millət vəkili, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru **Gövhər Baxşəliyevadır**.

- Gövhər xanım, məlum olduğu kimi, bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun 50 yaşı tamam olub. Ona görə istərdik ki, ilk öncə rəhbərlik etdiyiniz institutun keçdiyi bu şərəfli yol barədə bir qədər ətraflı məlumat verəydiniz.

- 1935-ci ildə SSRİ Elmlər Akademiyasının filialının, 1954-cü ildə isə Tarix İnstitutu nəzdində Xarici Şərq ölkələri tarixi şöbəsinin yaradılması ilə Azərbaycanda Şərqin sistemli şəkildə tədqiqi başlandı. Şərqşünaslıq İnstitutu isə (1967-1984-cü illərdə Yaxın və Orta Şərq Xalqları İnstitutu) 1958-ci ildə o vaxtkı Nazirlər Sovetinin qərarı ilə Elmlər Akademiyasının digər institutlarında fəaliyyət göstərən müvafiq şöbə və qrupların əsasında yaradıldı. Həmin vaxtdan etibarən Azərbaycan şərqşünaslığının inkişafında keyfiyyətcə yeni dövr başlandı, coğrafi region və əsas tədqiqat istiqamətləri müəyyənləşdi. İnstitutun qarşısında duran başlıca vəzifə Yaxın və Orta Şərq ölkələrinin tarixi, ictimai-siyasi, iqtisadi və mədəni inkişafını və onun xüsusiyyətlərini tədqiq və təhlil etmək. Eyni zamanda, Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə çoxəsrlik mədəni-tarixi əlaqələrini nəzərə alaraq respublika üçün konkret tətbiqi əhəmiyyəti olan aktual tədqiqatlara da önəm verildi. İnstitutun yüksək ixtisaslı kadrlarının və elmi potensialının artması nəticəsində tədricən şərqşünaslığın tematikası genişləndi və zənginləşdi, Azərbaycanın Şərqşünaslıq elmi isə keçmiş ittifaqda aparıcı yerlərdən birini tutdu. Kollektivin səyi əsasən Yaxın və Orta Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi fikri və filologiyasının aktual problemlərinin kompleks şəkildə öyrənilməsinə, Şərq xalqlarının yazılı abidələrinin tədqiqi və nəşrinə, həmçinin Azərbaycan xalqının etnogenezi, tarixi, mədəniyyəti haqda ərəbdilli və farsdilli mənbələrin tərcümə və araşdırılmasına yönəldi. Akademiklər Əbdülkərim Əlizadə, Əlisöhbət Sumbatzadə, Həmid Araslı, Ziya Bünyadov, müxbir üzv Böyükağa Hüseynov, professorlar Aida İmanquliyeva, Rüstəm Əliyev, Əkrəm Cəfər, Rauf Seyidov və bir çox digər görkəmli alimlərimizin yorulmaz əməyi isə ona beynəlxalq nüfuz gətirdi...

- O da məlumdur ki, ötən əsrin 90-cı illərində ölkəni bürümüş dərin iqtisadi-siyasi böhran institutunuzdan yan keçməyib...

- O illərdə bütövlükdə respublikada baş verən güclü intellektual axın institu-

tumuzda da özünü büruzə verib. Maddi problemlər səbəbindən o illər institut özünün bir sıra istedadlı əməkdaşlarını itirib. Sonralar vəziyyət tədricən normallaşıb və ölkədə aparılan elm siyasəti nəticəsində, göstərilən qayğı, diqqət nəticəsində bu sahədə də, digər sahələrdəki kimi sabitlik yaranıb. Onu da xüsusilə qeyd etmək istərdim ki, 1998-ci ildə ölkə prezidenti mərhum Heydər Əliyevin fərmanı ilə Şərqşünaslıq İnstitutuna akademik Ziya Bünyadovun adı verilib. Hazırda institutda 10 şöbə və bir elmi qrup fəaliyyət göstərir: İran tarixi və iqtisadiyyatı, Türkiyə tarixi və iqtisadiyyatı, Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı, Türk filologiyası, İran filologiyası, Ərəb filologiyası, Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri, Din və ictimai fikir tarixi, Şərq-Qərb qarşılıqlı münasibətləri, Cənubi Azərbaycan şöbələri və Mərkəzi Asiya və Uzaq Şərq elmi qrupu. Ötən müddət ərzində institutda 500-dən artıq monoqrafiya, məqalələr məcmuəsi və kitab nəşr edilib. İnstitut əməkdaşları Azərbaycan şərqşünaslığını bir çox beynəlxalq konqres, konfrans və simpoziumlarda, o cümlədən, şərqşünasların 7 beynəlxalq konqresində, Türk Tarix Qurumunun son on üç konqresində və sair təmsil ediblər. Həmçinin, Almaniya, Fransa, Çin, Avstriya, İtaliya, Böyük Britaniya, Türkiyə, Rusiya, İran, ABŞ, Kanada, Misir və sair ölkələrdə keçirilən şərqşünaslığın müxtəlif problemlərinə həsr edilmiş konfrans və simpoziumlara qatılıblar. İnstitutun hazırda Türkiyə, Fransa, Almaniya, Hollandiya, İran, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası, Rusiya, Qazaxıstan, Özbəkistan və sair ölkələrinin universitet və elmi mərkəzləri, habelə İSESKO və İRSİKA ilə sıx elmi əlaqələri var. İnstitut YUNESKO-nun dəstəyi ilə fəaliyyət göstərən Beynəlxalq Mərkəzi Aziya Araşdırmaları İnstitutunun Azərbaycan üzrə əlaqələndiricisidir. İnstitut bir sıra mühüm Beynəlxalq elmi konfrans və simpoziumların təşkilatçısı olub: Şərqşünasların II Ümumittifaq elmi konfransı, Mustafa Kamal Atatürkün anadan olmasının 110 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans, Hollandiyanın Utrext Universiteti ilə birlikdə «Azərbaycan və qonşu ölkələrdə XX əsrin əvvəllərində ictimai-siyasi fikir və ideoloji reallıqlar» mövzusunda beynəlxalq elmi konfrans, Türkiyə Respublikasının 75 illiyinə həsr olunmuş beynəlxalq konfrans, «Qafqazda islam sivilizasiyası» adlı beynəlxalq simpozium, Osmanlı dövlətinin yaranmasının 700 illiyinə həsr olunmuş beynəlxalq konfrans, «Qloballaşma və islam» mövzusunda beynəlxalq elmi konfrans və sair. Qeyd edim ki, ölkəmizin müstəqillik qazanması institutun önündə üfüqlər açmaqla bərabər, həm də ciddi vəzifələr qoyub. Xarici siyasət xəttini bu gün müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün həm Şərq ölkələri ilə iqtisadi, siyasi, mədəni əlaqələrin genişləndirilməsi və həm də regionda gedən proseslərdə dövlət maraqlarının qorunması institutun elmi fəaliyyət dairəsinin daha da tutumlu olması-

nı, bir sıra yeni istiqamətlərin yaradılmasını, ciddi keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini vacib edib. İnstitutun kollektivi bu yeni şəraiti vaxtında qiymətləndirərək qeyd edilən problemlərin həlli istiqamətində uğurlu addımlar atıb və atmaqdadır. Bu gün institutda elmi tədqiqat işləri əsasən aşağıdakı istiqamətlərdə aparılır: Şərq ölkələrinin ictimai-siyasi inkişafının qanunauyğunluqları; Şərq ölkələrinin tarixi, bu ölkələrdə cərəyan edən ictimai-siyasi, iqtisadi və etnik proseslər sistemində rolu, Şərq xalqlarının tarixi və filoloji irsi; yazılı abidələrin tədqiqi, tərcüməsi və nəşri; Şərq ölkələrində ictimai fikir və din, Yaxın və Orta Şərq ölkələrinin ictimai-siyasi həyatında İslam amili; Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələri; müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətlər; Şərq-Qərb sivilizasiyalararası münasibətləri; Azərbaycanın Şərq-Qərb münasibətlərində yeri və rolu; Şərq-Qərb dialoqunun geopolitik və kulturoloji aspektləri. Göründüyü kimi, elmi tədqiqat işlərinin istiqaməti klassik şərqşünaslıqla (qədim mənbələrin tədqiqi) bahəm müasir şərqşünaslığın da inkişafını təmin edir, Şərq ölkələrinin yeni ictimai-iqtisadi münasibətlər sisteminə keçmiş Azərbaycan üçün faydalı ola biləcək təcrübəsinin öyrənilməsini, həmin təcrübənin müsbət və mənfi tərəflərinin aydınlaşdırılmasını, Türkiyə, İran, Ərəb və digər Şərq ölkələri ilə iqtisadi, mədəni əməkdaşlığın prioritet sahələrinin müəyyənləşdirilməsini əhatə edir. Ümumiyyətlə, institutun ayrı-ayrı şöbələrində aparılan tədqiqat işlərinin hər biri müasir dünyada gedən qlobal proseslərin mahiyyətinin anlaşmasında, problemlərin köklərinin üzə çıxmasında və dövlətimizin strateji maraqlarına xidmət edən xarici siyasət kursunun müəyyənləşməsində xüsusi önəm daşıyır. İnstitutda aparılan tədqiqat işlərinin hər biri ölkəmiz üçün konkret əhəmiyyəti olan aktual məsələləri özündə cəmləşdirir. Təbii ki, burada onlar haqda geniş danışmaq, qoyulan problemlərin əhəmiyyətini sadalamaq qeyri-mümkündür. Təkcə cari ilin birinci yarısında institut əməkdaşlarının bu və digər mövzularla bağlı 18 kitabı çap olunub, «Elmi araşdırmalar» toplusunun 4 nömrəsi oxucuların istifadəsinə verilib, 100-ə yaxın məqalə dərc olunub ki, onların da xeyli hissəsi xarici ölkələrin ayrı-ayrı məcmuələrində işıq üzü görüb. Bütün bunlarla bərabər, institutda Yaxın və Orta Şərq ölkələrinin ədəbi, mədəni irsinin, dil məsələlərinin, Şərq ölkələrinin Azərbaycanla əlaqələrinin daha geniş araşdırılması əməkdaşların qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. Əsası akademik Ziya Bünyadov tərəfindən qoyulmuş Azərbaycana aid məşhur Osmanlı dəftərlərinin təhlili, müasir əlifbaya transliterasiya və nəşri davam etdirilir. İrəvan əyalətinin, Naxçıvan sancağının, Gəncə-Qarabağ və Tiflis əyalətlərinin, Lori vilayətinin icmal dəftərlərindən sonra Ərdəbil livasının müfəssəl dəftəri işıq üzü görüb. Azərbaycan dilinin inkişaf mərhələləri orta əsrlər ikidilli, ərəb-türk və

fars-türk lüğətləri timsalında araşdırılır. Bu günə qədər Xubeyş Tiflisinin, İbn Firiştənin, Əbu Həyyan Əndəlusinin və bir çox filoloqların lüğətləri təhlil edilərək nəşr olunub. İctimai həyatın müxtəlif sahələrinə aid xüsusi lüğətlərin tərtibi davam etdirilir. Bu günlərdə «Tibb terminləri lüğəti» işıq üzü görməlidir. «Ərəbdilli mənbələr Azərbaycan tarixi və coğrafiyası haqqında», «Orta əsrlərdə Şərq dillərinin qarşılıqlı əlaqələri və Azərbaycan ədəbi dili», «Klassik fars şeirlərinin Azərbaycan dilinə tərcümə məsələləri», «Orta əsrlər türk xalqları ədəbiyyatının tədqiqi», «Ərəb-Azərbaycan dil əlaqələrinin tədqiqi» və s. mövzularda tədqiqat işləri davam etməkdədir. Azərbaycan tarixi haqda farsdilli mənbə «Hafiz Əbru. Zeyli-Cami ət-təvarixi – Rəşidi» 2007-də işıq üzü görüb. Ənənəvi olaraq institutumuzda uzun illər Ərəb Şərqi, İran və Türkiyə öyrənilib. Bu gün institutda aparılan tədqiqatların coğrafi hüdudları genişləndirilir...

- Bəlkə bunu bir qədər də konkretləşdirəydiniz?

- Kollektivimiz gözəl dərk edir ki, Yaxın və Orta Şərq ölkələri ilə yanaşı, bu gün Mərkəzi Asiya, Uzaq Şərq, Cənubi-Şərqi Asiya, Çin və sairə Şərq ölkələrini də öyrənməliyik. Artıq bu istiqamətdə müəyyən işlər də görülüb. «Çin Xalq Respublikası» adlı məlumat kitabı hazırlanaraq nəşr olunub, «Şərq ölkələri» adlı 50 çap vərəqi həcmində ensiklopediya çapa təqdim edilib. Əsərdə bütün Şərq ölkələrinin tarixi, coğrafiyası, əhalisi, iqtisadiyyatı, etnik və dini tərkibi, təbii sərvətləri, mədəniyyəti və müxtəlif sahələrdəki inkişaf göstəriciləri haqqında müfəssəl məlumat verilir. Hazırda İnstitutda İslam ensiklopediyası üzərində iş gedir. Mütəmadi olaraq institutda üç dövrü nəşr – «Elmi araşdırmalar», «Orta əsrlər Şərqi» və «Şərq filologiyası» topluları nəşr edilir. Bununla belə, instituta vaxtilə rəhbərlik etmiş və çalışmış görkəmli alimlərimizin yubileylərinə həsr olunmuş elmi sessiya və konfranslar keçirilib, onların elmi irsi təbliğ olunub və olmaqdadır. Fəaliyyətimizin bir istiqaməti də artıq biblioqrafik nadir nüsxələrə çevrilmiş institutun dünyasını dəyişmiş əməkdaşlarının elmə böyük töhfə vermiş əsərlərinin yeni nəşridir. Məsələn, Z.Bünyadov «Azərbaycan VII-IX əsrlərdə», «Azərbaycan Atabəylər dövləti» və sair. Bir sözlə, Şərqşünaslıq İnstitutu bu gün müstəqil Azərbaycanın milli və dövlət maraqlarına xidmət edən zəruri bir elmi tədqiqat mərkəzi olmaqla yeni dövrün tələbləri ilə ayaqlaşan inkişaf mərhələsinə qədəm qoyub.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 17 yanvar 2009-cu il.

«VƏTƏN MƏNƏ NƏ VERƏCƏK» YOX, «MƏN VƏTƏNƏ NƏ VERƏCƏYƏM»...

«İNSANLAR MƏNƏ NƏ VERƏCƏK» YOX, «MƏN İNSANLARA NƏ VERƏCƏYƏM»...

Professor **Gövhər Baxşəliyeva** ilə dörd-beş il öncə bir beynəlxalq toplantıda tanış olduq. Diqqətimi çəkən iri gözləri, sadə, səmimi davranışı, sakit, amma güclü xarakteri oldu. Və onun həm universitetdə, həm də Milli Məclisdə bacarıqlı olduğunu, işlərini böyük bir ciddiyyət və həssaslıqla yerinə yetirdiyini dərk etdim. Gövhər xanım ilə söhbət edərkən yadıma yeniyetməlik illərində atamızdan eşitdiyimiz sözlər düşdü: «Ağıllı, bilgili, işini əla bilən insanlar sərgilədikləri müvazinətli duruşla özünü o dəqiqə bəlli edər».

- Azərbaycana çox böyük xidmətlər göstərən, 18 il maliyyə naziri olan bir atanın qızı olaraq necə bir çocuqluq illəri yaşadınız?

- Çox xoşbəxt uşaqlıq illəri yaşamışam. Atam, dediyiniz kimi, 18 il Azərbaycanın maliyyə naziri olub. Lakin çox böyük dövlət vəzifəsi daşımasına, işlərin çoxluğuna baxmayaraq, öz ailəsinə böyük diqqət yetirirdi. Uşaqlarına daim nəzarət edir, təhsilimizə çox böyük önəm verir, həmişə dərslərimizlə, uğurlarımızla maraqlanırdı.

Atam bizi tez-tez doğma Bərdəyə aparırdı. Yadımdadır, yaz vaxtı düzlərdə saatlarla lalə yığardıq, dincələrdik. Biz uşaqlıqda çox gözəl günlər keçirmişik.

Bakıda atam bizi dram teatrının, şəhər sirkinin tamaşalarına aparırdı. İldə bir dəfə onun məzuniyyət vaxtında Yessentukiyə istirahətə gedirdik. Bundan əlavə Moskvaya büdcə məsələlərinin müzakirəsi ilə bağlı ezamiyyətə gedərkən bizi də özü ilə aparırdı. Əlbəttə, bunlar hamısı uşaqlığın unudulmaz anlarıdır. Bunlar üçün öz valideynlərimə minnətdaram.

- Elmi həyata gedən yolunuz necə başladı? Ərəb filologiyası üzrə təhsil almağınız üçün sizə nə kimi təsirlər oldu?

- Mən Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olanda düşünürdüm ki, hansı dil üzrə sənəd verim - ərəb, yoxsa fars dili bölməsinə? O vaxt atamın tövsiyəsi ilə məhz ərəb dilini seçdim. Çünki ərəb dili daha geniş regionda işlənir. 18-dək ərəb ölkəsi var.

Bundan başqa, ərəb dili İslamın, müqəddəs Quranın dili olduğuna görə bütün müsəlman ölkələrində geniş yayılıb. Azərbaycanın orta əsərlər elmi də ərəb dilində öz əksini tapıb. Bütün bunlar ərəb dilini seçməyimə səbəb oldu.

Şərqşünaslıq fakültəsinin ərəb bölməsini bitirəndən sonra harada işləyəcəyim, çalışacağım barədə düşünürdük. Birmənalı şəkildə özüm də, atam da belə qərara gəldik ki, Azərbaycan Elmlər Akademiyasında çalışacaq və

elmlə məşğul olacağam. Odur ki, akademiyanın Şərqşünaslıq İnstitutunun ərəb filologiyası şöbəsində işə qəbul olundum. Çox keçmədi elə həmin institutun qiyabi aspiranturasına daxil oldum. Mövzum «Müasir Suriya ədəbiyyatında vətənpərvərlik» idi. Sankt-Peterburq Dövlət Universitetinin aparıcı alimlərindən Anna Arkadyevna Dolinina elmi rəhbərim təyin olundu. Tez-tez elmi rəhbərimlə görüşmək üçün Sankt-Peterburqa gedib-gəlirdim. Orada kitabxanalarda aylarla işləyir, elmi işim üçün məlumat toplayırdım. Moskvada xarici ədəbiyyat kitabxanasında da çox işləyirdim.

- «Elm - elm bilməkdir, elm - kəndin bilməkdir, Sən özünü bilməzsən, bu necə oxumaqdır», - Yunus Emre elmə belə qiymət verirdi. Sizə görə elm nədir? Ziyalı kimdir?

- Mənə görə elm cəmiyyət, insan, onu əhatə edən bütün aləm, cərəyan edən bütün hadisələr haqqında doğru-dürüst bilik almaq vasitəsidir. Ziyalı kimi elmə yiyələndikcə başa düşürsən ki, hələ sən heç nə bilmirsən. Öyrəndikcə bu həvəs daha güclənir və insan daha da çox öyrənmək istəyir. Ziyalı ziya sözündəndir - işıq, nur deməkdir. Ziyalı ilk növbədə işıqlı, nurlu insana deyilir. Türklər ziyalılara aydınlar deyirlər. Yəni ziyalılar o insanlardır ki, çox yüksək daxili mədəniyyətə malikdirlər və eyni zamanda çox gözəl təhsil alıblar. Ziyalılar öz bilikləri, savadları ilə digərləri ilə daim paylaşmaq həvəsində olur və daim cəmiyyətin inkişafına öz töhfəsini verirlər. Ziyalı təmənnasız öz xalqına, insanlara xidmət etməlidir.

- Azərbaycan Respublikası Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru olarkən Türkiyə ilə bağlı görülən bir çox çalışmalar var. Örnək olaraq: Cəlaləddin Rumi, Yunus Emre, Qaracaoğlan, Rəşad Nuri Güntəkin, Nazim Nikmət, Ömər Seyfəddin, Tofiq Fikrət, Melih Cevdet Anday, Sədri Ertem, Səbahaddin Ali, Orxan Hancerioğlu, Orxan Kamal, Yaşar Kamal, Əziz Nesin kimi bir çox dəyərli yazarların həyatı və əsərləri haqqında kitablar yayınlanmışdır. «Müasir Türkiyənin aktual problemləri», «Atatürk və Türkiyədə mədəni inqilab», «Şərqi Anadolu Ağqoyunludan Osmanlı imperiyasınadək», «Türkiyənin xarici ticarət siyasəti» adlı kitablarında «Türkiyədə sənaye kadrlarının hazırlanması», «Türkiyədə şəhərləşmənin sosial-iqtisadi problemləri» kimi bir çox tezis çalışmaları olduğunu bilirəm. Şərqşünaslıq İnstitutunun direktoru olarkən bu gün Azərbaycan-Türkiyə əlaqələrinin inkişafı üçün görmək istədiyiniz fəaliyyətdən söz edərmisiniz?

- Türkiyənin və türkdilli xalqların tarixi, mədəniyyəti, ictimai fikri, ədəbiyyatı, dili ilə bağlı tədqiqatlar institutumuzda önəmli yer tutur. Azərbaycan - Türkiyə tarixi, mədəni, ədəbi əlaqələrinin tədqiqinə xüsusi diqqət yetirilir. Hazırda Şərqşünaslıq İnstitutunda bu mövzularda 30-a yaxın tədqiqat işi aparılır.

Müasir Türkiyənin iqtisadi inkişafı ilə bağlı ölkəmizdə özəlləşdirmənin həyata keçirilməsinin xüsusiyyətləri, Türkiyənin iqtisadi inkişafının xüsusiyyətləri və onun Azərbaycan üçün əhəmiyyəti kimi mövzularda tədqiqatlar aparılır.

Osmanlı tarixinə dair araşdırmalardan Osmanlı imperiyasının XVIII əsrdə Qafqazda hərbi siyasəti, elə həmin dövrdə Xalxal livasında vergi siyasəti ilə bağlı işləri qeyd edə bilərəm. Bundan əlavə, institutumuzda Osmanlı tarixi bibliioqrafiyası hazırlanır, Zəki Vəlidi Toğanın «Ümumtürk tarixinə giriş» kitabı redaktə olunur.

Türkiyə ictimai fikri ilə bağlı araşdırmalar sırasında müasir Türkiyədə millətçilik ideologiyası, Türkiyənin ictimai şüurunda postmodernist təmayüllər kimi mövzuların adlarını çəkmək olar.

Ərəbdilli mənbələr əsasında orta əsrlərdə türk xalqlarının ictimai-mədəni inkişafına dair aparılan araşdırmalardan İbn Rusta və Zəkəriyyə əl-Qəzvininin əsərlərində türk xalq və tayfaları haqqında məlumatlar, İbn Xəlliqan əş-Şafiinin «Vəfayət əl-əyan» adlı əsərində türk əsilli qadınlar və onların ictimai siyasi fəaliyyəti, Mərkəzi Asiyada islamın yayılması dövründə köçəri türklər və yerli əkinçi əhali arasında münasibətlər mövzularını misal çəkə bilərəm. Orta əsrlər türkdilli mənbələrlə əlaqədar görülən işlərdən Nədimin «Divan»ının filoloji tərcüməsi diqqətə layiqdir.

Türk ədəbiyyatına dair tədqiqatlar çoxşaxəlidir. Cümhuriyyət dövrü türk ədəbiyyatına dair 60-cı illərdə yeni türk hekayəçiliyinin formalaşması, Oktay Rifatın yaradıcılığı, aşıq ədəbiyyatından Xəlil Qarabulud və Bəyram Durbilməzin yaradıcılığı institutda aparılan tədqiqat mövzularındandır. Türk ədəbiyyatına dair araşdırmalardan ötən əsrdə 60-cı illərə qədər Türkiyədə ədəbi cərəyanlar, XIX-XX əsrlərdə Türkiyə ədəbiyyatı, Nizami Gəncəvi ideyalarının davamçısı olan XVI əsr türk şairi Mahmud ibn Osman Laminin yaradıcılığı və başqalarını qeyd etmək olar.

- Sizin başarılı olma metodlarınız nələrdir?

- İşlərimdə uğurlu olmağım iş günümün dəqiq bölgüsünü aparmağım, vaxta qənaət etməyimlə bağlıdır. Bütün nəzər-diqqətimi gördüyüm işlərə cəlb edirəm. İllər boyu qazandığım iş təcrübəm, alışdığım dəqiq nizam-intizam da buna kömək edir.

- Yayımlanmış əsərlərinizlə bağlı nələr söyləmək istərdiniz?

- Mənim indiyədək 3 monoqrafiya və 6 kitabım çapdan çıxıb. İlk kitabım «Əbdüssəlam əl-Üceyli. Həyat və yaradıcılığı»dır. Daha sonra «Bir Məcnun vardı», Əbülfərəc əl-İsfahaninin ərəb dilindən tərcümə etdiyim «Nəğmələr kitabı» və klassik Azərbaycan ədəbiyyatı» monoqrafiyası, ərəbcədən tərcümə

edərək, müqəddimə, tədqiqat və şərhlərlə dərc etdirdiyim Əbülfərəc əl-İsfahaninin «Məcnun ləqəbli Qeys ibn Müləvvəh və ərəbdilli Azərbaycan şairləri haqqında hekayələr», «Ölməzliyə aparan yol» kitablarım, eləcə də «İlahi eşq dastanları», «Hamıdan ucadır alimin yeri», «Müasir Suriya hekayəsi» və digər kitablarım çap olunub. 90-a yaxın məqaləm və elmi məruzəm var.

Hazırda iki kitab üzərində işləyirəm. Ümumiyyətlə, ərəb ədəbiyyatına dair çoxlu materiallarım var. Sadəcə, heyfslənirəm ki, vaxtım azdır. Millət vəkili kimi, eləcə də təşkilati fəaliyyətim elmlə daha fəal məşğul olmağa imkan vermir. İstərdim ki, elmi işlərə daha çox vaxt ayırım.

- Hər ölkənin ictimai və siyasi həyatında gənclik çox önəmlidir. Gənclərə nələr tövsiyə edərdiniz?

- Gənclərə daha fəal olmağı tövsiyə edirəm. Vətənlərini daha çox sevsinlər, Azərbaycan üçün çalışsınlar. Həmişə «Vətən mənə nə verəcək» yox, «mən Vətənə nə verəcəyəm» deyə, «İnsanlar mənə nə verəcək» yox, «Mən insanlara nə verəcəyəm» deyə düşünsünlər. Bu istiqamətdə çalışanların həm öz gələcəkləri, həm də bütövlükdə ölkəmizin gələcəyi gözəl olacaq.

Müsahibəni apardı: Yasemin Bayer,
«Ayna» qəzeti, 15 may 2010-cu il.

«RƏFİQƏLİK ETMƏYƏ VAXTIM YOXDUR»

Gövhər Baxşəliyeva: «Elə məktəblər var ki, bir otaqda dərs gedir, digər otaqda məcburi köçkün xörək bişirir».

«Hesabat» rubrikasının 17 buraxılışı ərzində millət vəkili Gövhər Baxşəliyeva ikinci qadın həmsöhbətimizdir. Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru, keçmiş vitse-spikerlə söhbətimizdə parlamentdəki fəaliyyəti ilə yanaşı, elmi fəaliyyətinə də toxunmuşuq.

- ***Gövhər xanım, geridə qalan fəaliyyətinizi necə dəyərləndirirsiniz?***
- Qənaətbəxş dəyərləndirirəm. Məndən asılı olan nə var idisə, elədim. Amma elə problemlər var ki, deputat onu həll edə bilmir.
- ***Hansı problemi həll edə bilməmisiniz?***
- Təmsil olunduğum dairə Bərdənin 63 kəndini əhatə edir. İcra hakimiyyəti orqanlarına və digər aidiyyəti qurumlara qaz xətti çəkilməyən kəndlərin qazlaşdırılması ilə bağlı müraciətlər ünvanlamışdım. Söz verilsə də, bu günə kimi əməl olunmayıb. Bir sözlə, subyektiv xarakter daşıyan məsələləri həll eləmişəm.
- ***Seçicilərinizlə sonuncu dəfə nə vaxt görüşmüsünüz?***
- May ayında.
- ***Onlar sizə daha çox hansı problemlə bağlı müraciət edirlər?***
- Əsasən, kənd yerlərinə xas olan problemlərdir. Qazlaşdırma və kənd yollarının bərbad olması Bərdədə ən böyük problemdir. Heydər Əliyev Fondu tərəfindən bir neçə kənddə məktəb tikilib, bəziləri təmir olunub. Amma problem bütövlükdə həllini tapmayıb. Elə məktəblər var ki, bir otaqda dərs gedir, digər otaqda məcburi köçkün xörək bişirir, yaxud həyətdə toyuq-cücəsini, qoyun-quzusunu saxlayır. Rayonda belə məktəblər çoxdur. Əvvəllər işıq problemi ilə bağlı çox müraciət edirdilər. Amma şükürlər olsun ki, son vaxtlar yalnız bir kənddən belə şikayət almışam. Bundan başqa, kənd yerlərindən işsizliklə bağlı kifayət qədər müraciətlər alırıq. Torpaq sahələri kəndlilərə paylansa da, heç də hamının əkib-becərməyə imkanı çatmır. Bərdənin kəndlərində suvarma və içməli su ilə bağlı da problem var. Müvafiq qurumlara müraciət etmişəm. İndiyə qədər 30-a yaxın quyu qazılıb. Amma bu kifayət etmir.
- ***Bu günlərdə deputat həmkarlarınızdan biri deyib ki, icra başçıları deputatları alçatmaq üçün əllərindən gələni edirlər. Sizin Bərdə Rayon İcra Hakimiyyətinin başçısı ilə münasibətləriniz necədir?***
- Bizim rayonun icra başçısı İlham Ağayevdir. Hiss etməmişəm ki, o,

məni alçatmaq üçün nə isə edir (gülür). Çünki bizim atalarımız bir-birlərini tanıyıb, hörmət ediblər. Həm də rayonda kimin hansı nəsildən olmasına böyük önəm verilir. Onların nəsli-kökü bizə, biz isə onlara hörmətlə yanaşırıq, xeyirdə-şərdə bir yerdə oluruq.

- ***Hansı dövlət qurumları müraciətinizə reaksiya verib?***

- Su problemi ilə bağlı müraciət eləmişəm. Su Təsərrüfatı və Meliorasiya ASC-nin rəhbəri Əhməd Əhmədzadə müraciətlərimə operativ cavab verib. Dediyim kimi müraciətlərim əsasında Bərdədə 30-a yaxın quyu qazılıb.

- ***Bəs cavab verməyənlər hansılardır?***

- Mənfi, yaxud müsbət olmasından asılı olmayaraq hamısından cavab almışam. Açığı, mənim müraciətlərimə çox vaxt müsbət reaksiya verilib. Bəzən insanlar məhkəmə işləri ilə bağlı müraciət edirlər. Təkid edirlər ki, onların xeyrinə qərar çıxarılmasına kömək edim. Mən belə insanlara başa salmağa çalışıram ki, deputat məhkəmənin işinə müdaxilə edə bilməz.

- ***Parlamentin iclaslarından 2 saatlıq fasiləyə çıxanda, əsasən hansı işlərlə məşğul olursunuz?***

- İş çox olur. Əsasən, seçiciləri qəbul edirəm. Müzakirə olunacaq məsələlərlə tanış oluram. Eyni zamanda, institutun problemləri, tələbələrimin, özümün elmi işlərimlə məşğul oluram.

- ***Elmi fəaliyyət çətindir, yoxsa millət vəkili olmaq?***

- Yəqin ki, millət vəkili. Çünki elmi fəaliyyət çətin də olsa, ixtisasıma uyğundur. İkincisi, elmlə məşğul olanda insan mənəvi rahatlıq tapır.

- ***Yeri gəlmişkən, rəhbərlik etdiyiniz institutun fəaliyyəti ilə bağlı hansı məqamları qeyd etmək istərdiniz?***

- Hazırda bir layihə üzərində işləyirik. İngiltərə arxivlərində və Amerikanın Prinston Universitetində Azərbaycan xalqının tarixi və mədəni keçmişi haqqında dəyərli materiallar var. Həmin materialları aşkarlayıb ölkəmizə gətirməliyik. Bu məqsədlə Elmin İnkişafı Fonduna təqdim etmək üçün layihə hazırlayırıq.

- ***Qadın millət vəkillərindən kiminlə daha yaxınsınız?***

- Mənim yaxınlarım bacılarımdır. Təəssüf ki, 3 bacımdan ikisini itirdim. İşim çox olduğundan rəfiqəlik etməyə vaxtım yoxdur. Hətta kiçik bacımla həftədə bir dəfə telefonla danışa bilirik.

- ***Münasibətiniz soyuq olan millət vəkili var?***

- Biz ora kiminləsə şəxsi münasibətlər qurmağa, rəfiqəlik etməyə getmirik. Hamısı mənim həmkarlarımdır. Lazım olanda danışırıq, söhbətləşirik.

- ***Ev işlərinə necə, vaxt ayıra bilirsiniz?***

- (gülür) Çalışıram, vaxt ayıram. Amma bir az çətindir. Həmişə çalışmı-

şam ki, işlərimi özüm görəm. Çünki evimin işini görmək mənə xoşdur.

- ***Yenidən namizədliyinizi verəcəksiniz?***

- Seçicilərim yenə onları təmsil etməyimi istəsələr, məmnuniyyətlə razı olacağam. Yox, hesab etsələr ki, başqası daha yaxşı təmsil edə bilər, nə deyə bilərəm?

Müsahibəni apardı: İntiqam Valehoğlu,
«Mərkəz» qəzeti, 9 iyun 2010-cu il.

TÜRK RESPUBLİKALARININ TERRORİZMƏ QARŞI VAHİD MÜBARİZƏ TƏŞKİLATINI YARATMAQ MÜMKÜNDÜRMÜ?

Millət vəkili Gövhər Baxşəliyeva: «Milli iqtisadi maraqlardan irəli gələn şərtlər əsasında türkdilli dövlətlər ümumdünya ticarət təşkilatının tamhüquqlu üzvü olmalıdır»

– Qloballaşan dünyamızda inteqrasiya prosesləri getdikcə böyük vüsət alır. Xalqlar və ölkələr sürətlə bir-birinə yaxınlaşır, hətta lokal və regional problemlər belə əksər halda beynəlxalq ictimaiyyətin müzakirəsinə çıxır. Planetimiz getdikcə sərhədsizləşir. Təcridolunma, hansısa ölkənin özünü ayrıca bir dünya kimi təsəvvür etməsi artıq mümkün deyil. Bu, türkdilli ölkələrə də aiddir. Öz müstəqilliyinin 16-cı ilini yaşayan Azərbaycanın, Qazaxıstanın, Qırğızıstanın, Türkmənistanın və Özbəkistanın bütün sahələrdə mühüm islahatlar apardıqlarını, demokratikləşmə, insan haqlarının təmin olunması, bazar iqtisadiyyatı infrastrukturunun yaradılması proseslərində böyük tərəqqiyə nail olduqlarını və bunun onların dünya birliyinə inteqrasiyasına kömək etdiyini xüsusi vurğulamaq lazımdır. Beynəlxalq iqtisadi əməkdaşlığın nümunəsi kimi Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, TRASEKA, böyük «İpək yolu»nun bərpası layihələri türkdilli xalqların bir-birinə və bütövlükdə dünyaya inteqrasiyasına bariz nümunədir...

– ***Sizcə, bunlar kifayətdirmi?***

– Xeyr, qədim və zəngin mədəniyyətə malik olan, bəşəriyyətə görkəmli şəxsiyyətlər bəxş edən türk dünyası xalqlarının bu sahədə əməkdaşlığının daha da genişləndirilməsi vacibdir. Tarixən yaranmış bənzərsiz mədəni irsimizi indiki nəsillərə qaytarmaqla yanaşı, onu dünyaya daha da yaxından tanıtmaq baxımından son dərəcə önəmlidir. Bu sahədə TÜRKSOY təşkilatının gördüyü işlər və ümumən onun fəaliyyəti qeyd edilməlidir. Uğurlardan biri də odur ki, ölkələrimiz türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxarıldı. Türk dünyasına məxsus olan, indi müstəqil dövlətlərə çevrilən sabiq sovet respublikaları digər türk ölkələri ilə qonşuluq, dostluq və qardaşlıq münasibətlərini bərpa etdilər. Azərbaycan indiyə qədər türk dövlətləri başçılarının bütün sammitlərində iştirak edib, bu ittifaqı möhkəmləndirmək üçün əlindən gələni əsirgəməyib. 2000-ci ildə Azərbaycanda keçirilən növbəti sammit bütün türk dünyası və türk dövlətləri ailəsi üçün çox mühüm olan və gələcək əməkdaşlıq üçün proqram xarakteri daşıyan məşhur «Bakı bəyannaməsi»nin elan edilməsi ilə başa çatıb...

– ***O faktdır ki, sovet rejiminin dağılmasından sonrakı dövr türkdilli***

ölkələrin tarixində ağır böhranlı dövr oldu. Əslində bu böhranı təkcə biz yox, elə keçmiş Sovetlər Birliyinə daxil olan bütün respublikalar yaşadı...

– Doğrudur, bu ölkələrin siyasi və sosial-iqtisadi müstəqilliyi ilə yanaşı, mədəni-mənəvi müstəqilliyi də birdən-birə başlandığından əhalinin yeni proseslərə uyğunlaşması ağrılı getdi. Çünki ölkələr müvafiq hazırlıq işi aparmadan xarici aləmə açılmışdı. Sovet İttifaqının yürütdüyü siyasət nəticəsində mədəniyyətlərarası əlaqələr qırılmışdı, totalitar sovet rejimi dini əqidəni məhv etmək istiqamətində uzun illər ardıcıl iş aparmışdı. Təbii ki, bütün bunlardan sonra milli mədəniyyətlərin və mənəvi dəyərlərin bərpası asanlıqla başa gələ bilməzdi. Digər tərəfdən, bu işə tələsik və qarmaqarışıq şəkildə başlanmışdı. Ona görə bu sahədə problemlər qalmaqdadır. Bundan əlavə, xalqlarımızın Avropa mədəniyyətinə və tərəqqiyə qovuşmaq arzusunun da tam reallaşması asan iş deyil. Bu gün demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı, insan haqları, aşkarlıq və sair ilə bağlı dəyərlər getdikcə cəmiyyətimiz üçün daha çox yaşam normasına çevrilir. Amma bu meyarların ümummilli dəyərlər sırasında öz yerini tam tutması üçün müəyyən zaman kəsiyi lazımdır. Azərbaycan cəmiyyəti müstəqillik qazanandan sonra özündən asılı olmayaraq, fərqli mədəniyyətlərin arasına düşüb və onların hər birinin qarşılıqlı təsirini üzərində hiss edir. Əlbəttə, bu halda ziddiyyətlərin olması da təbiidir. Sadəcə, cəmiyyətimizdən və onun hər bir üzvündən sayıqlıq, düzgün seçim etmək bacarığı tələb olunur. İnteqrasiya prosesi o zaman uğurlu olar ki, cəmiyyət öz «Mən»ini itirməsin. Bu mənada türkdilli ölkələr bu gün hansısa ənənəvi, yaxud modern dəyərlər sistemindən imtina yolu ilə deyil, onların ən müsbət cəhətlərini özündə birləşdirmək yolu ilə getməlidir. Demokratik dəyərlər mətbuat və təhsil sistemi vasitəsi ilə ictimai şüura yeridilməlidir. İnkişafa mane olan əxlaq stereotipləri sıxışdırılıb şüurlardan çıxarılmalıdır. Dövlət, cəmiyyət və şəxsiyyət arasındakı qarşılıqlı münasibətlər yeni səviyyəyə qaldırılmalıdır. İctimai təşkilatların dövlət idarəçiliyinə cəlb edilməsi genişlənməlidir.

– ***Azərbaycanda bu istiqamətdə lazımi addımlar atılırmı?***

– Əlbəttə, Azərbaycanda artıq bu istiqamətdə xeyli ciddi addımlar atılıb. Ümumiyyətlə, Azərbaycan çağdaş nailiyyətləri mənimsəmək baxımından həmişə Şərqdə birinci olub. Xalqımız daim dinc, yanaşı yaşamaq ənənəsinə sadiq qalıb. Müasir mədəni nailiyyətlər Azərbaycanda başqa müsəlman cəmiyyətlərinə nisbətən daha çox yayılıb. Məhz bu təcrübə və amil inteqrasiya proseslərinin sürətləndirilməsi üçün Azərbaycanda əlverişli şərait yaradır... Ulu öndərimiz Heydər Əliyev Azərbaycanın sivil dünyaya inteqrasiyasının reallaşmasında böyük demokratik ənənəyə və regionda xüsusi çəkiyə malik olan qardaş Türkiyənin roluna daim ciddi önəm verir, ölkələrimizin uğurlarının məhz

sıx qarşılıqlı əməkdaşlıqdan keçdiyini bildirirdi. Həqiqətən bu da faktdır ki, qloballaşma ideyasının gerçəkləşməsi və sivilizasiyaların qovuşması üçün vacib olan Şərq-Qərb münasibətlərinin tənzimlənməsində Türkiyə əhəmiyyətli rola malikdir və region üçün nümunə ola biləcək dövlətdir. Bəlkə də qardaş ölkənin elə bu sürətli inkişafı, modern dünyanın bir parçası olması onun ayrı-ayrı «siyasi» və terrorist qrupların hədəfinə çevrilməsinə səbəb olub. ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində qondarma erməni soyqırımı haqqında məlum qərar layihəsinin təsdiq edilməsi son ayların aktual mövzusudur... Fikrimizcə, bu gün söhbət Azərbaycan-Türkiyə münasibətlərindən deyil, daha geniş miqyasda – ümumtürk dünyası həmrəyliyindən getməlidir. Bu gün Türkiyənin qarşılaşdığı problemlə bağlı dəstək təkcə Azərbaycandan deyil, digər türk respublikalarından da gəlməlidir. Ümumiyyətlə, yuxarıdakı fikirlərimin üzərinə qayıdaraq bildirirəm ki, qloballaşma və inteqrasiya proseslərinə biz ilk növbədə özümüzdən başlamalıyıq. Əgər Şərqlə Qərb, əgər fərqli sivilizasiyalar vahid məcraya gəlirsə, eyni kökə, eyni milli-mənəvi dəyərlərə malik xalqlar niyə bir-birinə qovuşmamalıdır? Vaxtilə sovet rejimi bu xalqları bir-birindən ayırmaq üçün onlara müxtəlif adlar qoysa da, köklərini ayrı-ayrı millətlərin tarixlərində axtarmağa məcbur etsə də, mənəvi, ruhi bağlılığı qıra bilmədi. Bu gün əsas məsələ həmin əlaqələri genişləndirmək, həmin bağları möhkəmləndirməkdir...

– ***Fikrinizcə, bunu reallaşdırmaq üçün vasitələr çoxdurmu?***

– Bəli. Məsələn, bu məqsədlə türk respublikalarının müxtəlif forma və məzmunlu birlikləri yarana və yaxud elmi, ədəbi, mədəni sahələrdə nailiyyətlərə görə ümumtürk respublikalarının vahid mükafatları, fəxri adları təsis edilə bilər. Ya da götürək terror problemini. Türk respublikalarının terrorizmə qarşı vahid mübarizə təşkilatını yaratmaq mümkün deyilmi? Əlbəttə, mümkündür və onu qeyd edim ki, dövlətlərimiz ayrı-ayrı olsa da, çox vaxt eyni mənşəli, eyni xətli problemlərlə üz-üzə qalır. Türkdilli ölkələr arasında ticarət-iqtisadi əlaqələri genişləndirmək məqsədi ilə ikitərəfli və çoxtərəfli layihələrin, xüsusən sənaye, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya və turizm sahəsində layihələrin hazırlanmasının və həyata keçirilməsinin əhəmiyyətini bir daha qeyd etmək istərdim. Parlamentlər, hakimiyyət strukturları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə xüsusi əhəmiyyət verilməli, türkdilli dövlətlərin dünya iqtisadiyyatına inteqrasiya prosesi durmadan davam etdirilməlidir. Türkdilli dövlətlərin geosiyasi vəziyyətini nəzərə alaraq, hərtərəfli iqtisadi və sosial inkişafın təmin olunması üçün onların beynəlxalq maliyyə institutları ilə, iqtisadi təşkilatlarla, regional birliklərlə əməkdaşlığı genişləndirilməli, bütövlükdə

dünya iqtisadiyyatına inteqrasiya prosesi sürətləndirilməlidir. Milli iqtisadi maraqlardan irəli gələn şərtlər əsasında türkdilli dövlətlər Ümumdünya Ticarət Təşkilatının tamhüquqlu üzvü olmalıdırlar. Azərbaycan artıq Avropa İttifaqı ilə «Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi» imzalayıb, Avropa qonşuluq siyasətinə daxil edilib. Bu istiqamətdə digər türkdilli dövlətlərin səyləri gücləndirilməli, bütün sahələrdə Avropa standartlarının tətbiq edilməsi üzrə məqsədyönlü tədbirlər görülməlidir. Türkdilli ölkələrin malik olduqları zəngin təbii sərvətlər, onların mövcud iqtisadi, elmi-texniki potensialı bu sahədə daha səmərəli əməkdaşlıq üçün əlverişli şərait yaradır. Bütün bunlar, habelə ölkələrimizin mühüm coğrafi mövqeyi regionun iqtisadi tərəqqi zonasına çevrilməsi, dünya iqtisadi sistemində layiqli yer tutması üçün yaxşı zəmindir. Bu, həm də türkdilli ölkələrə siyasi üstünlük verir.

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
«525-ci qəzet», 5 avqust 2010-cu il.

DEPUTAT «SURROQAT ANA» MƏSƏLƏSİNİN QANUN LAYİHƏSİNDƏN ÇIXARILMASINA TƏKİD EDİR

Millət vəkili **Gövhər Baxşəliyeva** modern.az-ın suallarını cavablandırır.

- Gövhər xanım, «Ailə-məişət zorakılığının qarşısının alınması haqqında» qanun layihəsinin qəbulu məsələsi ətrafında həm cəmiyyətdə, həm də deputatlar arasında ciddi müzakirələr getməkdədir. Cəmiyyətin, o cümlədən deputatların bir qismi bu qanunun qəbulunu vacib saysalar da, digər qismi isə birmənalı olaraq bunun yolverilməz olduğunu bəyan edirlər. Siz bu məsələdə hansı mövqedəsiniz?

- Hesab edirəm ki, Azərbaycanda belə bir qanun qəbul edilə bilər. Hər halda, belə bir qanunun mövcudluğu cəmiyyətdə, ailələrdə ailə mədəniyyətinin səviyyəsini qaldıra, yüksəldə bilər. Məncə, belə bir qanunun qəbulu yaxşı olardı. Düzdür, bəzən belə fikirlər səslənir ki, uşaq evə gec gəlir, ata ona necə əl qaldıra bilməsin, ancaq istənilən halda uşaq olsun, qadın olsun, fərqi yoxdur, başqasının üstünə əlqaldırma düz deyil. Qadını, uşağı döymək insanlıqdan, kişilikdən olmaz. Güclü cinsin nümayəndəsinin zəif cinsin nümayəndəsinə, hətta öz cinsindən olan insana əl qaldırması, onu döyməsi, əziyyət verməsi istənilən halda yaxşı cəhət deyil. Sadəcə, bu cür məsələlərdə tərbiyəvi üsullardan istifadəyə üstünlük verilməlidir. Əksinə, tərbiyəvi üsulları kənara qoyub, yalnız fiziki təzyiqə əl atmaq vəziyyəti daha da qəlizləşdirir. Fiziki təzyiqə və təsirə məruz qalan uşaq, övlad sonradan həmin hərəkəti başqa formada – gizlində təkrarlamağa başlayır. Bu isə nəticə etibarilə daha böyük fəsadlara gətirib çıxarır. Ona görə mən ailə-məişət münasibətlərində, bütövlükdə cəmiyyətdə sivil addımların, münasibətlərin tərəfdarıyam. Bu baxımdan bir daha hesab edirəm ki, belə bir qanunun qəbulu ümumi işimizə nəinki mənfi, əksinə, daha müsbət təsir göstərər.

- İstər cəmiyyətdə, istərsə elə parlamentdə müzakirə, mübahisə mövzularından biri də yas və toy mərasimlərini tənzimləyəcək «Mərasimlər haqqında» qanunvericilik aktının qəbulu məsələsidir. Siz necə hesab edirsiniz, bu qanunun qəbulu vacibdirmi və qəbul olunacağı təqdirdə işləmə mexanizminə malik olacaqmı?

- Doğrusu, mən dəqiq deyə bilmərəm ki, bununla bağlı qanun qəbul olunmalıdır ya yox. Əslində mən belə düşünürəm ki, bu məsələləri qanun çərçivəsinə salmaq da bir o qədər düzgün deyil. Amma eyni zamanda hesab edirəm ki, gərək bu yöndə ciddi təbliğat, maarifləndirmə işləri aparılsın, müəyyən məhdudiyyətlər tətbiq olunsun...

- Sizcə, məsələn, yas mərasimləri ilə bağlı məhdudiyyətləri kim, hansı təşkilat qoymalıdır?

- Mənim fikrimcə, konkret yas mərasimləri ilə bağlı məhdudiyyətləri Qafqaz Müsəlmanları İdarəsi tətbiq edə bilər. Hamımız yaxşı bilirik ki, yas mərasimləri hansı «dəbdəbə» ilə keçirilir. Kimin imkanı varsa yas mərasimini daha «dəbdəbəli» edir, kimin imkanı yoxdur məcbur olur borca düşür.

Qafqaz Müsəlmanları İdarəsi də gərək bu istiqamətdə maarifləndirmə işi aparsın ki, əsl islami qaydalarla yas mərasimləri necə keçirilməli, necə təşkil olunmalıdır...

Bəzən görürsən ki, küçələrdə çadır quraraq gediş-gəliş, magistral yolunu kəsir, ehsan verirlər. Eyni zamanda, həmin çadırın yanında başqa bir balaca çadır da qurub, orada qab-qacaqları tələm-tələsik yuyub, yenidən stolların üstünə düzürlər. Bu, hər şeydən əvvəl antisanitariyadır. Tibbi cəhətdən də düzgün deyil. Mən belə hesab edirəm, yas mərasimləri, necə ki, digər Şərq ölkələrində, o cümlədən yaxın İranda, Türkiyədə təşkil olunur, daha doğrusu, yas mərasimləri məscidlərdə olur, bizdə də məhz bu cür olmalıdır. Fikrimcə, məscidlərin nəzdində müvafiq bir yer ayrılmalı, yas mərasimləri orada təşkil olunmalı və ehsan da orada verilməlidir. Bu daha uyğundur. Özü də ehsan kasıbların, imkansızların arasında paylanmalıdır. Yoxsa dost-tanışı yığıb ehsan vermək, axı, bu, nə dərəcədə düzgün olar...

- Bəs, toy mərasimləri ilə bağlı nə demək istərdiniz? Son 10-15 ildə, demək olar ki, bu mərasimlər bütün adət-ənənələri adlayıb, üstündən keçib...

- Tamamilə razıyam. Toy mərasimləri də bütün əndazəni aşıb. Axı, nə qədər israfçılıq, ifratçılıq olar? Bir stolun üstünə nə qədər yemək, neçə cür salat, içki düzülər? Hələ mən bunların keyfiyyətini, sanitariya-gigiyena tələblərinə cavab verdiyini nəzərə almıram. Eyni zamanda, toylarda nə qədər səs-küy, uğultu olar? Musiqidən, səsin həddindən artıq uca verilməsindən ağız deyəni qulaq eşitmir... Biz tez-tez məclislərdə, hətta digər ölkələrdə, o cümlədən Şərq ölkələrində keçirilən toy mərasimlərində oluruq. Onların heç birində - söhbət Şərq ölkələrindən gedir – stolların üstünə bu qədər yemək-içmək düzülmür. Sadəcə, nimçələrdə hər kəsin öz payı gəlir – bir, iki, maksimum üç dəfə... Daha stolların üstündə əlavə yeməklər, içkilər, mer-meyvə qalmır, israfa yol verilmir. Ya da ayaqüstü olanda - furşet şəklində - yemək-içmək, mer-meyvə hamısı bir kənara düzülür və hər kəs nə qədər istəyir gedib oradan istifadə edir. Bilirsiniz, israfçılıq İslamda ən böyük günahlardandır. İsrafçılığa istənilən halda yol verilməməlidir. Bu başqa məsələ ki, bəlkə şadlıq sarayları, restoranlar bir-birilə rəqabətə girirlər ki, kim daha çox stolun üstünə yemək qoysun, artıq hesab edirəm ki, bu keçib, bu, arxada qalmış bir mərhələdir. Zənginliyin yemək-içməyin çoxluğu ilə ölçülməsi mərhələsi keçib. Məncə, iki-üç cür yemək, salat oldu, bu, bəs edər. Son olaraq demək istəyirəm ki, bu cür məsələlər ayrıca qanunla yox, hardasa müəyyən qay-

dalarla, maarifləndirmə, təbliğat işi ilə tənzimlənməli, qaydaya salınmalıdır.

- Yadınızdadırsa, təxminən bir il öncə parlamentin plenar iclasının müzakirəsinə təqdim olunan «Reproduktiv sağlamlıq və ailə planlaşdırılması haqqında» qanun layihəsi elə birinci oxunuşdan geriyə qaytarıldı. Səbəb də bu oldu ki, qanun layihəsində ciddi təkmilləşdirmələrə - xüsusilə «surroqat ana» və «donor bank»ı məsələləri ilə bağlı – ehtiyac var. Bu baxımdan bilmək istərdik ki, bəs siz bu qanunla bağlı nə fikirdəsiniz? Onun qəbulunu vacib sayırsınız, yoxsa?..

- Belə düşünürəm ki, bu qanunun da qəbulu mümkündür. Qanunu hazırlayanlar özləri də razıdırlar ki, həmin məsələ - «surroqat ana» məsələsi sözügedən sənəddən birmənalı olaraq çıxarılmalıdır. Şəxsən elə mən özüm də əvvəldən dedim ki, bu nə mənəviyyata, nə də insanlığa sığan məsələdir. Hansısa qadın o uşağı – başqa anadan mayalanmış - doqquz ay bətnində gəzdirirsə, o qadının həmin uşağa bir ana-övlad münasibəti yaranır və ya hansısa qadın o məsələyə gedirsə, sadəcə, ona ehtiyac üzündən gedir. Doqquz ay uşağı bətnində daşıyandan sonra o uşağı başqasına vermək, mənim fikrimcə, övladı anadan zorla ayırmaq deməkdir. Bu, insanlığa sığan bir məsələ deyil. Əgər Allah-Təala hansısa ailəyə, cütlüyə övlad məsləhət görməyibsə, indi onu bu cür yolla həll etmək özü günahdır, qeyri-humanist hərəkətdir. Odur ki, bu məsələlər qanun layihəsindən çıxarılmaq, eləcə də digər təkmilləşdirmələr aparmaq şərtilə adıçəkilən sənədi qəbul etmək olar. Burada problem doğuracaq bir məsələ görmürəm.

- Ailə Məcəlləsinə də dəyişikliklərin edilməsi məsələsi gündəlikdədir. Bir sıra deputatlar nikah yaşının artırılmasını, nikaha girməzdən öncə ailə qurmağa hazırlaşan cütlüklərdən tibbi arayışların tələb edilməsini, nikaha girənlər arasında mülkiyyət müqaviləsinin bağlanmasını nəzərdə tutan düzəlişlərin sözügedən Məcəllədə əksini tapmasının vacibliyini önə çəkirlər...

- Bilirsiniz, bizdə nikah yaşı həddi elə orta yaş həddi kimi də götürülüb. Bəzi dövlətlər var ki, orada 14-15 yaşlarında nikaha girməyə icazə verilir. Elə dövlətlər də mövcuddur ki, orada 20-22 yaşlarında ailə qurmaq üçün nikaha girməyə icazə var. Bu baxımdan hesab edirəm ki, bizdəki mövcud qanunvericiliklə müəyyənləşdirilən yaş həddi şəraitimiz üçün normaldır. Şəxsən mən hesab edirəm ki, bu yaş həddi 18 olsa, daha yaxşı olar. Məktəbi bitirdikdən sonra insanların nikaha girmək hüququ, imkanı olmalıdır. Erkən nikahlara gəlincə isə mən də buna qarşıyam...

- Bildiyiniz kimi, erkən nikaha girənlər də çox vaxtı öz münasibətlərini molla kəbini ilə həll edirlər...

- Bunlar yolverilməzdir. Şəxsən mən də yalnız molla kəbini ilə nikahlara qarşıyam. Nikahlar mütləq dövlət qeydiyyatından keçməlidir. Bu münasibətlər mütləq qanuniləşməlidir. Eyni zamanda, insanlar - əsasən qızlar nəzərdə tutulur

- 9 illik icbari təhsil var ki, onu mütləq almalıdırlar və yalnız bundan sonra nikaha girmək hüququna malik olmalıdırlar. Özü də bu nikahlar nikaha girən cütlüklərin, ələlxüsus qızların öz arzuları, istəkləri ilə olmalıdır. Onların iradəsinin ziddinə olaraq bu məsələlər zor yoluyla həll olunmamalıdır...

- Burada qızların təhsildən yayındırılması məsələsi bəlkə də ən ciddi problemlərdəndir...

- Bu, çox böyük problemdir. Əksər həmkarlarım kimi, mən də bu məsələdən ciddi narahatçılıq keçirirəm. Xüsusilə Azərbaycanın cənub və şimal bölgələrində, o cümlədən Bakının kəndlərində bu məsələ, problem aktuallığı ilə özünü göstərməkdədir. Bu bölgələrdə qızların təhsildən yayındırılaraq, əməyə cəlb edilməsi və yaxud zorla ərə verilməsi halları çox ciddi problem kimi ortalıqdadır. Ona görə bu məsələlər ciddi şəkildə tənzimlənməlidir. Qızların təhsil alması, ən azı, icbari təhsil alması məsələsi bütün hallarda təmin edilməlidir. Bu məsələyə rayon təhsil şöbələri çox ciddi yanaşmalıdırlar. Yadınızdadırsa, sovetlər dövründə bir uşaq dərsə gəlməyəndə həmin uşağın evinə gedirdilər, onun valideynlərini məcbur edirdilər ki, uşaq dərsə davamiyyətini davam etdirsin. Hesab edirəm ki, indi də belə olmalıdır. Hər bir uşaq məktəb, təhsil şöbəsi tərəfindən nəzarətdə olmalıdır. Direktor bacarmırsa, bu işi rayon təhsil şöbəsi mütləq görməlidir. Hətta deyərdim ki, uşağını dərsdən, təhsildən yayındıran valideynlər üçün cəza tədbiri də seçilməlidir.

Tibbi arayışların tələb edilməsi məsələsinə gəlincə hesab edirəm ki, bu, mütləq Ailə Məcəlləsində öz əksini tapmalıdır. Ailə qurmağa hazırlaşan cütlüklərin nikaha girməzdən öncə bir-birilərinin sağlamlıqları, səhhətləri barədə məlumatlı olmaları çox vacibdir. Bəzən görürsən ki, səhhəti, sağlamlığı yol vermədiyi halda kimsə başqası ilə nikaha girir və nəticədə istər onun, istərsə də nikaha girdiyi şəxsin səhhətində, övlad dünyaya gətirməsində ciddi problemlər yaranır. Bu da çox zaman sonda həmin cütlüyün və yaxud cütlüklərin evliliklərinin dağılmasına gətirib çıxarır. Ona görə düşünürəm ki, bu məsələnin müvafiq qanunvericilikdə - Ailə Məcəlləsində əksini tapması vacibdir...

- Bəs, mülkiyyət müqaviləsi məsələsi barədə nə düşünürsünüz?

- Hesab edirəm ki, bu məsələ sırf könüllülük əsasında olmalıdır. Burada məcburiyyət olmamalıdır. Əgər nikaha girənlər özləri istəyərlərsə, bunu edə bilərlər. Bizdə mental cəhətdən də belədir ki, nikaha girənlər əvvəlcədən bunu düşünmürlər. Onlar, sadəcə, gələcək xoşbəxt ailə həyatları barədə düşünürlər. Düzdür, bu cür düşünməyənlər də var, ancaq hər halda, bu, böyük üstünlük təşkil etmir. Ona görə bu məsələdə könüllülük prinsipinə üstünlük verilməlidir.

modern.az, 8 sentyabr 2010-cu il.

GÖVHƏR BAXŞƏLİYEVA: «İKT-NİN BƏZİ ÜZVLƏRİ İSLAM HƏMRƏYLİYİ PRİNSİPİNƏ ƏMƏL ETMİRLƏR»

Müsahibimiz Azərbaycanın İslam Konfransı Təşkilatı (İKT) Parlament İttifaqındakı Nümayəndə Heyətinin Rəhbəri **Gövhər Baxşəliyevadır**.

– İKT-nin məqsədi müsəlman aləmini birləşdirərək onun həmrəyliyini təşkil etmək, müsəlman ölkələrinin birliyinə nail olaraq siyasi, iqtisadi və mədəni əməkdaşlıq yaratmaq, müsəlman xalqlarının mənafelərini, milli hüquqlarını, müstəqilliyini qorumaq üçün birgə, yekdil fəaliyyət göstərməkdir. Ölkəmiz müstəqilliyini əldə etdikdən sonra keçmiş Sovetlər Birliyinin müsəlman respublikaları arasında birinci olaraq İKT-yə üzv qəbul olunmaq üçün müraciət edib və 1991-ci ilin dekabrında bu təşkilata qəbul olunub. Bundan sonra ölkəmiz bu nüfuzlu beynəlxalq təşkilat ilə fəal əməkdaşlıq münasibətləri qurub, təşkilat tərəfindən Azərbaycanın haqq işini dəstəkləyən bir sıra qətnamə və bəyannamənin qəbul edilməsinə nail olub. Ölkə prezidenti İlham Əliyevin də çoxşaxəli xarici siyasətində Şərq amili daim önəmli yer tutub, islam ölkələri və İKT ilə münasibətlər yüksələn xətlə inkişaf edib. Bunu ölkə başçısının islam ölkələrinə müntəzəm səfərləri, bağlanan çoxsaylı müqavilələr, İKT yığıncaqlarında fəal iştirakı və bu təşkilatın Azərbaycanla bağlı qəbul etdiyi çoxsaylı qərar və qətnamələri təsdiq edir.

– Bildiyimiz qədər, Azərbaycanın haqq səsinin eşidilməsində, ərazi bütövlüyünün müdafiəsində İKT-a üzv dövlətlərin Parlament İttifaqı (İKT Pİ) da mühüm rol oynayır...

– Doğrudur, ancaq sualınızın cavabına keçməzdən əvvəl bir məqamı qeyd etmək istəyirəm ki, İKT Pİ-nin əsas vəzifələri üzv ölkələrin qanunvericilik və məşvərət məclisləri arasında hərtərəfli əməkdaşlığı inkişaf etdirmək, bu əməkdaşlığın səmərəli həyata keçirilməsi üçün müvafiq hüquqi əsaslar yaratmaq, beynəlxalq hüquq prinsiplərini və normalarını rəhbər tutmaqla digər beynəlxalq, hökumət və qeyri-hökumət təşkilatlarla əməkdaşlıq etməkdir. Qeyd etmək lazımdır ki, son illər həm İKT, həm də İKT Pİ öz işlərində çox müsbət irəliləyişlər edir. Təsadüfi deyil ki, 2008-ci il martın 14-də Dakar şəhərində İKT-nin yeni Nizamnaməsi təsdiq edilib. Hazırda İKT Pİ-nin fəaliyyət qaydalarının müasir prinsiplərə uyğun təkmilləşdirilməsi, onun daha çevik, baş verən hadisələrə daha operativ reaksiya və əməli təsir göstərmək mexanizmlərinin yaradılması istiqamətində böyük işlər gedir. Bu prosesə müsbət təsir edən hər iki təşkilatın başında çox mütərəqqi insanların, əsl alim və ziyalıların, türk qardaşlarımız Ekmələddin İhsanoğlunun və Mahmud Erol Kı-

lıcın durmasıdır. Onların bu təşkilatlarda nə qədər böyük iş görmələrinin biz şahidiyik. Bütün səylər təşkilatların yeniləşməsinə, dünyada baş verən proseslərlə ayaqlaşmasına, müsəlman xalqlarının inkişafına xidmət edir. Bu təşkilatlar Azərbaycanın haqq işini daim dəstəkləyib, bizim ərazi bütövlüyümüzü müdafiə edən, işğalçı Ermənistanı birmənalı şəkildə qınayan, işğalçı ilə bütün əlaqələri kəsməyə çağıran bir çox qətnamə, qərarlar qəbul edib. Bütün keçirilən konfrans və şura iclaslarının yekun bəyannamələrinə bu haqda maddələr salınıb. Bununla belə mən bir məsələ üzərində dayanmaq istərdim: Təşkilatın əsas fəaliyyət prinsipi – müsəlman həmrəyliyidir...

– Çox təəssüflər olsun ki, bu prinsipə əməl etməyən üzv ölkələr də var...

– Bəli, çox təəssüf ki, bu təşkilatda çox fəal iştirak edən və hətta islam aləminin lideri funksiyasını öz üzərinə götürməyə çalışan bəzi ölkələr reallıqda islam həmrəyliyi prinsipini unudaraq, işğalçı Ermənistanla hərtərəfli əməkdaşlıq edir və ildən-ilə bu əməkdaşlığı hətta genişləndirir. Bununla belə, təşkilatda İslam aləmini narahat edən əsas problemlər daim gündəliyə salınır və müzakirə edilir: Fələstin məsələsi və zəbt edilmiş torpaqların qaytarılması, əl-Əqsə məscidinin sökülmə təhlükəsindən qorunması, Orta Şərq regionunun bütövlükdə bütün kütləvi qırğın silahlarından, xüsusilə də nüvə silahlarından azad zonaya çevrilməsi və sair salınıb. Azərbaycan nümayəndə heyəti olaraq biz daim Ermənistan-Azərbaycan münaqişəsi haqqında məsələnin də gündəliyə salınmasına və sonrakı müzakirəsinə nail oluruq. Ümumiyyətlə, qeyd olunmalıdır ki, İKT Pİ-nin yarandığı vaxtdan günümüzəcən təşkilatla parlamentimizin arasında çox işgüzar və səmərəli əməkdaşlıq münasibətləri yaranıb. Nümayəndə heyətimiz İKT Pİ-nın məclislərində daim iştirak, çıxış edib, rəy və təkliflərini bildirib, bir sıra qətnamə, bəyanat, yekun bəyannamələrə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı maddələrin salınmasına nail olub. İKT Pİ-nin İstanbul şəhərində keçirilən konfransında nümayəndə heyətimizin təklif etdiyi qətnamə – «İKT Pİ Konfransı beynəlxalq hüquq və BMT prinsiplərinin kobud pozulması sayılan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı Ermənistan Respublikasının davamlı təcavüzünü qətiyyətlə pisləyir. Konfrans Ermənistan silahlı qüvvələrinin tamamilə, qeyri-şərtsiz və tezliklə bütün işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılmasına çağırır...» – konfransın yekun sənədlərinə daxil edilib. Bundan başqa, nümayəndə heyətimizin səyləri nəticəsində tədbirin sonunda müzakirəyə qoyulan «İstanbul Bəyannaməsinə» Azərbaycanın təklif etdiyi bənd əlavə edilib.

Həmçinin Malayziyanın Kuala-Lumpur şəhərində İKT Pİ Şurasının IX sessiyasında iştirak edən nümayəndə heyətimizin təklifi ilə ayrıca bənd – «Şura Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünü və Ermənistan silahlı

qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarında apardığı qeyri-qanuni hərəkətlərini (etnik təmizləmə, İslam mədəniyyəti abidələrinin vəhşicəsinə məhvi, milli sərvətlərin talan edilməsi) qətiyyətlə pisləyir. Şura Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından tezliklə çıxarılmasını tələb edir» – həmin tədbirin yekun sənədinə – Kuala-Lumpur Bəyannaməsinə salınıb. Qahirə şəhərində keçirilmiş Parlament İttifaqının V konfransında təklifimizlə «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» və «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında» qətnamələr təşkilatın Siyasi və İqtisadi məsələlər üzrə komitələrinə təqdim olunub və konfransın yekun sənədlərinə salınıb.

– Bir müddət öncə adıçəkilən qurumun toplantısında «Artsaxa qayıdış» adlı plan haqqında da danışmısınız...

– Beynəlxalq hüquq normalarını kobud surətdə pozaraq, Ermənistan işğal olunmuş ərazilərimizdə yeni yaşayış məskənləri salaraq, ərazinin demoqrafik vəziyyətini dəyişdirməyə çalışır. Mənbələr «Artsaxa qayıdış» adlı planın mövcudluğundan xəbər verir. Bu plana uyğun olaraq bu ilə qədər Dağlıq Qarabağda erməni əhalisinin sayını 300 minə çatdırmaq nəzərdə tutulub, halbuki münaqişənin başlanğıcında burada üç dəfə az erməni yaşayırdı. O zaman da qeyd etmişdim ki, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılmasını tələb edən BMT-nin məlum 4 qətnaməsini, beynəlxalq təşkilatların qərarlarını, o cümlədən İKT kimi çox nüfuzlu beynəlxalq təşkilatın Ermənistanın işğalçılıq siyasətini pisləyən, zəbt olunmuş torpaqlarımızın azad edilməsini tələb edən qətnamələrini qulaq ardına vuran Ermənistan bu günə kimi torpaqlarımızı işğal altında saxlayaraq Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması prosesinə böyük maneələr törədir. Mən təşkilat üzvlərinə səslənərək onları Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun şəkildə həll edilməsi istiqamətində səylərini bundan sonra da əsirgəməməyə, həmçinin sessiyanın yekun sənədlərinə nümayəndə heyətimizin təqdim etdiyi Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən qətnamələrin əlavə edilməsinin vacibliyinə dəvət etdim... Həmçinin Dəməşq şəhərində İKT Pİ-nin növbədənkənar konfransında – «Qəzzanın blokadasına yox» şüarı ilə keçirilən mötəbər məclisdə çıxış edərək, Azərbaycanın dost Fələstin xalqının sülh və sabitliyə nail olmasını, Qüds paytaxt olmaqla, müstəqil, suveren Fələstin dövlətinin yaradılması sahəsində səylərini dəstəklədiyini qeyd etdim. Bununla yanaşı, son iyirmi ildə Azərbaycan

xalqının qarşılaşdığı əsas problemin – Ermənistanın Dağlıq Qarabağı və ətraf rayonları işğal etməsini xatırladaraq 1 milyondan çox azərbaycanlının öz ata-baba yurdundan qovulduğunu, erməni işğalının xalqımıza sağalmaz maddi və mənəvi yaralar vurduğunu qeyd etdim. Çıxışımda bu günəcən Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrini və digər mötəbər beynəlxalq təşkilatlarının, o cümlədən İKT-nin çoxsaylı qərar və qətnamələrini qulaq ardına vurduğunu diqqətə çatdıraraq onu da qeyd etdim ki, Fələstin və Azərbaycan xalqlarının pozulmuş hüquqlarının bərpası üçün beynəlxalq səyləri artırmaq, İKT-yə üzv dövlətlərin islam həmrəyliyini daha da gücləndirməsi son dərəcə vacibdir.

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
«525-ci qəzet», 22 sentyabr 2010-cu il.

AMEA-NIN AKADEMİK ZİYA BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN DİREKTORU, PROFESSOR GÖVHƏR BAXŞƏLİYEVA:

... SAF VƏ HƏQİQİ İMAN, SAVADLI DİNDARLIQ DAHA ÜSTÜNDÜR

- Din dedikdə ilk olaraq nə düşünürsünüz? Həyatınızın hansı anında hiss etdiniz: «Nə yaxşı ki, dinimiz var?»

- Din deyəndə mən ilk növbədə Uca Allah-Təalamızı düşünürəm və həyatımın ən ağır məqamlarında «nə yaxşı ki, dinimiz var, imanımız var, Allaha, onun Peyğəmbərinə (s) inamımız var», - deyə düşünürəm.

- Müxtəlif mənəvi dəyərlərin universallaşdığı bir dövrdə din də universallaşa bilərmi? Sizcə, universal din necə ola bilər?

- Mən hesab edirəm ki, din universallaşmamalıdır. Hər dinin özünəməxsusluğu qorunub saxlanmalı və ona ibadət edənlərin vicdan azadlığına hörmətlə yanaşılmalıdır. Universal din, məsələn, bəhailik sayılır. Kosmoqonik bir din hesab edilir və Qərb tərəfindən belə dinlər təşviq edilir.

- Hərə öz Allahını axtarır. Bu, müdriklik əlamətidir, mənəvi tələbat, yoxsa zəiflik?

- Bu, əlbəttə ki, müdriklik əlamətidir, mənəvi tələbatdır. Bunu heç vəchlə zəiflik əlaməti hesab etmək olmaz. İnsanın ürəyində Allahı olmalıdır, Allah xofu olmalıdır. Uca yaradanın qoyduğu qayda-qanunla da insan yaşamalıdır.

- Din nə zaman mədəniyyət, nə zaman xurafat və nə zaman fanatizmdir? Bu meyllərin dərkində oxucularımıza, xüsusilə də müxtəlif dini cərəyanların fəallaşdığı bir zamanda öz yerini tapa bilməyənlərə, aldananlara nə məsləhət verərdiniz?

- Din o zaman mədəniyyətdir ki, insan Allah-Təala tərəfindən qoyulmuş, Peyğəmbərimiz (s) tərəfindən bizlərə çatdırılmış o qaydalara, ənənələrə riayət edir. Xurafata, fanatizmə isə insan artıq yaşadığı cəmiyyətdə bir qədər dar düşüncəlilərin təsirinə məruz qalanda keçir. Allah-Təala tərəfindən Quranda qoyulmuş qaydaları ayrı-ayrı insanlar təhrif edirlər və dinimizin təhrif olunmuş variantını da cəmiyyətdə təbliğ edirlər. Hər insan müstəqil düşünməlidir və özü dərk etməlidir ki, yalnız və yalnız saf və həqiqi iman, savadlı dindarlıq daha üstündür. Buna görə də heç kimin təsiri altına düşmək lazım deyil.

- Cəmiyyət üçün yaxşı azərbaycanlı kimi formalaşmaqdan ötrü dindar olmaq vacibdirmi?

- Məncə, yaxşı azərbaycanlı ilk növbədə vətənpərvər olmalıdır. Xalqı üçün, milləti üçün, Vətən üçün, torpaq və onun bütövlüyü üçün canından belə keçməyə hazır bir insan olmalıdır. Onun dindar və ya qeyri-dindar olması bu zaman ikinci dərəcəli məsələdir.

- İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin din xadimləri çox rahatsızdırlar ki, dindarlıq zəifləyir. Son iki yüz ildə Qərb filosofları arasında belə bir fikir də yaşayır ki, din yox olmağa məhkumdur. Dünya dini liderlərinin Bakı Sammitində Moskva və Bütün Rusiyanın Patriarxı Kiril bu fikri təkzib etmiş və dini dəyərlərin həmişəyaşarlığını bildirmişdir. Sizcə, söylənənlər maddiyyatın mənəviyyat üzərində üstünlüyüdür, yoxsa mənəviyyatın maddiyyat qarşısında zəifliyi?

- Mən hesab etmirəm ki, dindarlıq zəifləyir və din get-gedə yox olmağa məhkumdur. Əksinə, cəmiyyət daha da inkişaf etdikcə insanlar gec-tez, xüsusən yaşa dolduqca öz Allahına doğru gedirlər və onlarda Allaha inam daha da güclənir. Burada Patriarx Kirillə, onun fikirləri ilə tam razıyam. Hesab edirəm ki, bu söylənənlərin maddiyyatla heç bir əlaqəsi yoxdur.

- «Allahın işinə qarışmaq», «peyğəmbərlik edib proqnozlar vermək» İslam təfəkküründə ziddir. Cəmiyyətdə daha çox olmuşların araşdırılmasına vaxt ayırmaq gələcəyi elmi baxışla «görməkdən», yaxud da fantast düşüncədən qaçmaq «tərbiyəsi» həmin fikirlərlə, müsəlman mentaliteti və milli mənəvi dəyərlərlə əlaqəli ola bilərmi? Bu bizi gecikdirmir?

- Hesab edirəm ki, əlaqəli ola bilməz və bunun bizi gecikdirməsindən də heç bir söhbət gedə bilməz.

- Xeyir-şərli ömür yaşayırıq və bu yolumuz mollasız keçmir. Müasir mollanı necə təsəvvür edirsiniz? Və gələcəyin mollasını necə görmək istərdiniz?

- Mən gələcəyin mollasını daha savadlı, daha yüksək intellektual səviyyəli görmək istərdim. İslam dinini, ərəb dilini, Quranı daha dərindən, gözəl qavramış bir mütəxəssis kimi görmək istərdim.

- Yas və toy mərasimlərimiz barədə hansı təklifləri verərdiniz? Bəzi adətlərimizin düzəlişə ehtiyacı varmı? Nə məsləhət görərdiniz?

- Hesab edirəm ki, toy və yas mərasimləri daha təvazökar keçirilməlidir. Cəmiyyətin heç də bütün təbəqələrinin həmin dəbdəbəli yas mərasimləri və ya dəbdəbəli toylara imkanı yoxdur. Odur ki, mərasimlər bir qədər kiçik miqyasda, daha təvazökar keçirilməlidir və bu işdə nümunə kimi biz elə ərəb ölkələrinə də üz tuta bilərik, qonşu Türkiyəyə, İrana da.

- Nikah yaşına çatmamış qızların ailə həyatı qurması cəmiyyətin düşkünlüyüdür, yoxsa «şəxsi iş»?

- Cəmiyyətin düşkünlüyündən söz gedə bilməz. Amma istənilən halda ni-

kah yaşına çatmamış qızların ailə həyatı qurması yolverilməzdir və bununla bütün cəmiyyət mübarizə aparmalıdır.

- Bəzən adama elə gəlir ki, əgər təzədən yaşamaq mümkün olsaydı, insan ömrünü, bir növ, redaktə edərdi. Redaktəyə ehtiyac çoxdur?

- Baxır kimin həyatında. Əgər bu, yalnız mənə aiddirsə, mən hesab edirəm ki, həyatımda redaktə ediləsi məqamlar yoxdur.

- Tənqiddən xoşunuz gəlir? Olduğunuz mühitdə qarşınıza çıxa biləcək opponentiniz var? Sonuncu dəfə sizi hansı məsələdə tənqid ediblər?

- Mən xeyirxah tənqidə həmişə müsbət yanaşmışam. Şad olaram ki, hər hansı hərəkətimə, addımıma, əsərimə xeyirxah, ağlabatan tənqidi eşidim. Hesab edirəm ki, xeyirxah, obyektiv tənqid yalnız təkmilləşməyə, kamilləşməyə xidmət edir. Odur ki, mən həmişə tənqidə müsbət yanaşıram. Sonuncu dəfə eşitdiyim tənqidə gəldikdə, Ali Attestasiya Komissiyasına Azad Mirzəcanzadənin rəhbərlik etdiyi zaman AAK-ın işi haqqında tənqidi məqalə ilə çıxış etmişdim və onlar o vaxtı mənim məqaləmə çox tənqidi yanaşdılar. Amma məqaləmdə həqiqətləri yazmışdım və bütün elmi ictimaiyyət o zaman məni dəstəklədi. Onlar da geri çəkildilər, gördülər ki, həqiqət mənim tərəfimdədir.

- Alim-pedaqoq kimi Azərbaycanda təhsilin səviyyəsindən razısınızmı?

- Əlbəttə, bir alim kimi, pedaqoq kimi istərdim ki, Azərbaycanda təhsil inkişaf etsin və dünya standartlarına uyğunlaşsın.

- Elmə axın var, yoxsa elmdən axın? Sizcə, Azərbaycanda elmə maraq göstərən gənclərin sayının az olması nə ilə bağlıdır?

- Həqiqətən də, bir ara alimlərin maddi vəziyyətlə əlaqədar xarici ölkələrə köçməsi və başqa sahələrə üz tutması, gənc kadrların da elmə maraq göstərməməsi reallıq idi. Bütün bunlar şərqşünaslıq institutunun fəaliyyətinə də mənfi təsirini göstərmişdi. Ancaq son zamanlar əks mənzərə müşahidə olunmaqdadır. İnstitutumuzda işləmək üçün müraciət edənlərin sayı xeyli çoxalıb. Biz də onların arasından müsahibə apararaq, daha bacarıqlı və savadlı olanları seçib işə götürürük. Son illər dissertasiya müdafiə edənlərin sayında da nəzərəçarpacaq artım var. Bütün bunlar şərqşünaslıq elminin sabahına inamla baxmağa əsas verir.

- İslam Konfransı Təşkilatı ölkələrinin Parlament İttifaqında (İKT Pİ) ölkəmizi təmsil edən nümayəndə heyətinin rəhbəri kimi Azərbaycan həqiqətlərinin təbliğində, dünya ictimaiyyətinə çatdırılmasında hansı layihələr həyata keçirirsiniz?

- İKT Pİ-nin hər tədbirində, istər konfransı olsun, istər şura iclası, yaxud komitə iclasları, həmişə bizim nümayəndə heyəti orada Ermənistanın Azərbaycana qarşı işğalını pisləyən, təcavüzkarı qeyd-şərtsiz Azərbaycan torpaqlarını boşaltmağa çağıran, bütün İslam ölkələrini təcavüzkarla hər hansı bir əlaqəni

dərhal kəsməyə çağıran qətnamələrin, bəyanatların və digər sənədlərin qəbuluna nail olub. İKT Pİ-nin, demək olar ki, bütün tədbirlərində çıxış edərək, Azərbaycanın haqlarını qorumağa çağırmışam.

İki il öncə İKT Pİ-nin Misirin Qahirə şəhərində keçirilmiş V konfransında Azərbaycan nümayəndə heyətinin təklifi ilə «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» və «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında» qətnamələr Siyasi və iqtisadi məsələlər üzrə komitəyə təqdim olundu və konfransın yekun sənədlərində öz əksini tapdı. Bizim digər təklifimiz ilə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi konfransda müzakirəyə qoyuldu.

Ötən il Nigerin paytaxtı Niamey şəhərində İKT Pİ-nin XI sessiyasında Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub. Mən tədbirdə bu məsələ, həmçinin Xocalı faciəsi ilə bağlı çıxış edərək, sessiya iştirakçılarına geniş məlumat vermişəm və İKT Pİ-yə üzv dövlətləri məsələyə münasibət bildirməyə çağırmışam.

Təşkilatın yaz sessiyasında «Dağlıq Qarabağın demoqrafik statusunun dəyişdirilməsi üzrə erməni planı» adlı məruzə etdim. Həmin çıxışımın xülasəsi İKT Pİ-nin 3 dildə nəşr olunan bülletenində yayılıb.

Son toplantı bu il Suriyanın paytaxtı Dəməşqdə olub. İKT Pİ-nin fövqəladə konfransında əsas müzakirə olunan məsələ Qəzza bölgəsində son durumla bağlı olsa da, Azərbaycanın da bənzər problemlərlə üzləşdiyini qeyd etdim və Ermənistanın işğalçı siyasətini əyani göstərən faktları bir daha təşkilat üzvlərinin diqqətinə çatdırdım.

- Son dövrlər Azərbaycan elminin inkişafı, yüksəlişi istiqamətində ciddi addımların atılması məsələsi diqqət mərkəzindədir. Bu baxımdan rəhbərlik etdiyiniz Şərqşünaslıq İnstitutu elmimizə töhfə olacaq yeni ideyalar üzərində çalışırmı?

- Respublikamızın müstəqillik qazanması institutun önündə yeni üfüqlər açmaqla bərabər, həm də yeni vəzifələr qoyub. Bu baxımdan son illər institutun fəaliyyətində klassik şərqşünaslıqla yanaşı, yeni istiqamətlərin də açılması öz faydasını verməkdədir. Əməkdaşlarımız müasir Qərb sivilizasiyasının tarixi təkamül prosesində çoxəsrlik Şərq mədəniyyətinin təsiri, Qərbin sürətli iqtisadi-texniki və mədəni tərəqqi təcrübəsinin Şərq ölkələrində məqsədyönlü şəkildə tətbiqi imkanlarını, qloballaşma şəraitində Şərq-Qərb münasibətlərinin ziddiyyətli məqamlarını, onların mahiyyətini və aradan qaldırılma yollarını araşdırırlar. Bu məqsədlə İnstitutda yeni «Şərq-Qərb» şöbəsi yaradılıb. Bundan əlavə «Mərkəzi Asiya və Uzaq

Şərq» elmi qrupu yaradılıb, «Cənubi Azərbaycan» şöbəsi bərpa edilib. İnstitutun elmi planlarında Azərbaycanşünaslıq istiqamətində mühüm dəyişikliklər edilib. Əməkdaşlarımız ilk növbədə ərəbdilli və farsdilli Azərbaycan alimlərinin və ədiblərinin yaradıcılığına dair tədqiqatlar aparır, Azərbaycan tarixinə, mədəniyyətinə, dilinə, ictimai-fəlsəfi fikrinə dair ərəb və fars dilində olan qaynaqların tapılıb araşdırılması üçün səmərəli fəaliyyət göstərirlər.

Bu gün xalqımıza üz verən faciələrin tarixi köklərini araşdırmaq, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq işində də son zamanlar əhəmiyyətli addımlar atılıb. Buna misal olaraq, son iki ildə 1918-ci il Bakı və Quba qırğınları ilə bağlı tarixi sənədlərin kitab şəklində çap etdirilməsini, İran alimi Səməd Sərdariniyanın «Arazın hər iki sahilində müsəlman qətliamı» kitabının dilimizə tərcümə edilməsini, mənim Misirdən Azərbaycanın tarixi sərhədlərini təsdiqləyən xəritələri aşkar edib gətirməyimi qeyd edə bilərəm.

Müasir Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı da diqqət mərkəzindədir. Son 7 ildə Azərbaycan Prezidenti hörmətli İlham Əliyevin apardığı müdrik və tarazlaşmış xarici siyasəti və bu siyasətdə Şərq ölkələrinin mühüm yer tutduğunu nəzərə alaraq, «Prezident İlham Əliyevin Şərq siyasəti» adlı irihəcmli monoqrafiya tədqiqat planlarımıza salınıb.

Müasir mərhələdə Şərqşünaslıq İnstitutu ənənəvi İran-Türkiyə-Ərəb ölkələri üçbucağından çıxmaqdadır. Ölkəmizin Çin, Yaponiya, Cənubi Koreya, Hindistan, Pakistan, Mərkəzi Asiya dövlətləri ilə günbəgün genişlənən əlaqələri bu gün regionun öyrənilməsini də zəruriləşdirir. Bu istiqamətdə institutumuzda artıq «Çin Xalq Respublikası» adlı məlumat kitabı nəşr olunub, tək Yaxın Şərqi deyil, bütövlükdə Şərq aləmini əhatə edən «Şərq ölkələri» adlı 50 çap vərəqi həcmində məlumat kitabı çapa təqdim edilib.

İnstitutda görülən əhəmiyyətli işlərdən biri də «İslam ensiklopediyası»nın hazırlanmasıdır. «Din və ictimai fikir tarixi» şöbəsinin əməkdaşları bu iş üzərində çalışırlar.

Həllini tapmalı olan məsələlərdən biri İnstitutun müvafiq dövlət orqanları, o cümlədən Xarici İşlər Nazirliyi, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, Xaricdə Yaşayan Soydaşlarımızla İş üzrə Dövlət Komitəsi və s. ilə sıx əməkdaşlığının forma və mexanizmlərinin işlənməsi, həmin qurumların analitik informasiya təminatında alimlərimizin potensialından səmərəli istifadə olunmasıdır. Hərçənd, ötən dövr ərzində ayrı-ayrı məsələlərə dair belə əməkdaşlığın nümunələri kifayət qədər olub.

- İnstitutunuzun alimləri dünyanın bir çox elmi mərkəzləri ilə sıx əlaqələr saxlayır, elmi əməkdaşlıq edirlər. Beynəlxalq miqyasda aparılan işlər və onun nəticələri barədə nə deyə bilərsiniz?

Beynəlxalq əlaqələrimiz son zamanlar xeyli genişlənib. Əməkdaşlarımız son bir ildə Türkiyə, Rumıniya, Türkmənistan, Rusiya, Gürcüstan, İran və digər ölkələrdə keçirilmiş beynəlxalq konfranslarda, tədbirlərdə iştirak ediblər. Ötən ilin sentyabrında mənim Çinə səfərim və buradakı görüşlərimiz çox faydalı oldu. Bu baxımdan Pekin Universitetinin Ərəb dili fakültəsində keçirdiyimiz görüşləri xüsusi qeyd etmək lazımdır. Biz fakültə rəhbərliyi ilə gələcək əməkdaşlığımızın perspektivlərini müzakirə etdik, qarşılıqlı səfərlərin edilməsindən, mühazirələrin oxunmasından danışdıq. Bu görüşlər gələcəkdə qarşılıqlı elmi əlaqələrin inkişafının əsasını qoydu. Alimlərimizin qarşılıqlı səfərləri bizim Çini, çinlilərin isə Azərbaycanı daha dərindən öyrənməsinə kömək edəcək. Düşünürəm ki, gənc alimlərimizi təcrübə toplamaq, Çin dilini öyrənmək üçün bu ölkəyə ezamiyyətə göndərmək lazımdır. Ümumiyyətlə, Şərq ölkələri ilə elmi əlaqələrin genişlənməsi bütövlükdə ölkəmizdə şərqşünaslıq elminin inkişafına, bu ölkələrlə hərtərəfli əlaqələrin yaradılmasına müsbət təsir göstərəcək.

Bu cür əlaqələri biz tək Şərq ölkələri ilə deyil, eyni zamanda Avropanın şərqşünaslıq mərkəzləri ilə qurmağa da çalışırıq.

Bu cəhətdən Şərqşünaslıq İnstitutunun səmərəli fəaliyyətinin bir bariz nümunəsi kimi bu ilin iyun ayında Rumıniyada keçirilmiş elmi konfransı və əməkdaşlıq haqqında memorandumun imzalanmasını göstərmək olar. Rumıniyanın Kluj-Napoka şəhərində Babeş-Bolya Universitetinin Türkologiya və Mərkəzi Asiya Tədqiqatları İnstitutu ilə birgə «Şərq və Qərb arasında dialoq» mövzusunda elmi konfrans keçirtdik. Konfransda institutumuzdan mən, eləcə də filologiya elmləri doktoru Vilayət Cəfərov və filologiya elmləri namizədi Lalə Əliyeva məruzə etdik. Səfər zamanı Şərqşünaslıq İnstitutu və Babeş-Bolya Universitetinin Türkologiya və Mərkəzi Asiya Tədqiqatları İnstitutu arasında əməkdaşlıq haqqında memorandum da imzalandı. Bu memorandumda müştərək elmi-tədqiqat işlərinin aparılması, alimlərimizin qarşılıqlı səfərlərinin təşkili, kadr hazırlığı və əməkdaşların staj keçməsində tərəflərin bir-birinə yardımçı olması, birgə elmi seminar, konfrans və simpoziumların təşkili və digər məsələlər nəzərdə tutulur.

Cari ilin aprel ayında Bakıda da beynəlxalq konfrans keçirmişik. Azərbaycan Milli Kitabxanası, TÜRKSOY və Mədəniyyət və Turizm Nazirliyi ilə birgə təşkil etdiyimiz və müasir türk tarixşünaslığının banilərindən biri sayılan görkəmli başqırd alimi Əhməd Zəki Validi Toğanın anadan olmasının 120 illiyinə həsr olunmuş konfransda Türkiyədən, Qazaxıstandan, Başqırdıstandan və Krımdan gələn nümayəndələr iştirak ediblər.

«Cəmiyyət və din» qəzeti, 25 noyabr - 1 dekabr 2010-cu il.

ŞƏRQŞÜNASLIQ ELMİNİN BUGÜNÜ

AMEA-nın institutları barəsində məlumat vermək jurnalımızda artıq ənənəyə çevrilib. Bu sayımızda AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun fəaliyyətindən söhbət açacağıq. Təməli 1958-ci ildə qoyulan bu İnstitutda İran, Türkiyə, Ərəb ölkələrinin tarixi, ədəbiyyatı, iqtisadiyyatı və fəlsəfəsinə dair çox qiymətli əsərlər yazılıb. İnstitutda eyni zamanda görkəmli alimlər yetişib. Azərbaycanın Yaxın Şərq ölkələrinin Səlcuqilər və monqollar dövrünün tanınmış tədqiqatçısı, institutda mətnşünaslıq elmi istiqamətinin yaradıcısı Əbdülkərim Əlizadə, sistemli ədəbiyyat tarixinin yaradılmasında, qədim əlyazmalar, cüng və təzkirələr kimi ilkin qaynaqlar əsasında elmə az məlum olan sənətkarların əsərlərinin araşdırılmasında böyük zəhməti olan Həmid Araslı, Orta əsrlər Azərbaycan və Yaxın Şərq tarixinin, Ərəb Xilafəti dövrünün görkəmli tədqiqatçısı Ziya Bünyadov, İran ədəbiyyatının aktual problemlərinə dair tədqiqatların müəllifi Böyükağa Hüseynov və başqaları vaxtilə bu institutda çalışıblar.

Qonağımız İnstitutun direktoru, filologiya elmləri doktoru, professor, millət vəkili **Gövhər Baxşəliyevadır**. G.Baxşəliyeva Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib. 1977-ci ildən Şərqşünaslıq İnstitutunda çalışır. 1997-ci ildən İnstitutun direktorudur. O, klassik və müasir ərəb ədəbiyyatı, müqayisəli ədəbiyyatşünaslıq, ədəbi əlaqələr və eyni zamanda mənbəşünaslıq üzrə mütəxəssisdir. 3 monoqrafiya, 7 kitab, 85 elmi məqalə və məruzələrin müəllifidir. Onun rəhbərliyi ilə on bir namizədlik dissertasiyası müdafiə olunub. İnstituta rəhbərlik etdiyi dövrdə şərqşünas kadrların xaricə axınının qarşısını almağa müvəffəq olub. Yeni şöbə və elmi tədqiqat qrupları yaradıb.

G.Baxşəliyeva Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür. Bir sıra xarici ölkələrdə Azərbaycanı uğurla təmsil edib. Milli Məclisə 3 dəfə üzv seçilib. 2001-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini vəzifəsində çalışıb. Söhbətimizə institutun fəaliyyətindən başlamaq istərdik.

- Gövhər xanım, Şərqşünaslıq İnstitutunda aparılan elmi-tədqiqat işləri barədə oxucularımıza geniş məlumat verməyinizi xahiş edirəm.

- İnstitutumuz zəngin ənənələrə malikdir. Akademiklər Əbdülkərim Əlizadə, Əlisöhbət Sumbatzadə, Həmid Araslı, Ziya Bünyadov, AMEA-nın müxbir üzvü Böyükağa Hüseynov, professorlar Aida İmanquliyeva, Rüstəm Əliyev, Əkrəm Cəfər kimi dünya şöhrəti alimlərimizin qoyduqları ənənələr bu gün də davam etdirilir. Alimlərimizin şərqşünaslığın müxtəlif sahələrini əhatə

edən tədqiqatları elmimizin yüksək nüfuzunu qorumaqda böyük rol oynayır. Hər il institutumuzda 80-dən artıq elmi tədqiqat işi aparılır, elmi nəşrlərdə alimlərimizin 200-dən artıq elmi məqaləsi dərc olunur. Təkcə ötən il əməkdaşlarımızın 42 məqaləsi, bu ilin birinci yarısında isə 20-yə yaxın məqaləsi nüfuzlu beynəlxalq nəşrlərdə işıq üzü görüb.

Hazırda institutumuzda elmi tədqiqat işləri 4 istiqamətdə 11 problem və 27 mövzu çərçivəsində aparılır. Bu tədqiqatlar Şərq ölkələrinin tarixini, bu ölkələrdə cərəyan edən ictimai-siyasi, iqtisadi və etnik prosesləri, onların beynəlxalq münasibətlər sistemində rolunu və Azərbaycanla əlaqələrini, Şərqin yazılı abidələrinin tədqiqi, tərcüməsi və nəşrini, Şərq ədəbiyyatlarının tədqiqini, Yaxın və Orta Şərq ölkələrində fəlsəfə, ictimai fikir və din tarixini, Azərbaycanda İslam dininin mövqeyi və rolunu, Şərq-Qərb sivilizasiyalararası münasibətlərini əhatə edir.

Həmin tədqiqat işlərindən əsası böyük alimimiz, akademik Ziya Bünyadov tərəfindən qoyulan məşhur Osmanlı vergi dəftərlərinin tədqiqi, tərcüməsi və nəşrinin davam etdirilməsini qeyd etmək istərdim. Bu sıradan 2009-cu ildə artıq XVIII əsrin II yarısı – XIX əsrin 30-cu illərində Borçalı ərazisinin, eləcə də XVIII yüzilliyin I yarısında Urmiya bölgəsinin etnodemoqrafik vəziyyəti ilə bağlı tədqiqat işləri başa çatdırılıb.

İnstitutda Cənubi Azərbaycanla bağlı tədqiqatlara da böyük önəm verilir. Bu bölgənin tarixi, iqtisadiyyatı və ictimai-siyasi vəziyyəti üzrə «Güney Azərbaycan» məlumat kitabı hazırlanıb, həmçinin Seyid Cəfər Pişəvərinin «Zindan xatirələri» ön söz və şərhlərlə çapa təqdim olunub.

Çapa hazırlanmış «Türkiyə. Tarixi-iqtisadi oçerklər» kitabını, İran körfəzi ölkələrinin beynəlxalq əlaqələr sistemində mövqeyini əks etdirən elmi-tədqiqat işini, Yaponiya ilə Azərbaycan Respublikası arasında siyasi-iqtisadi və mədəni əlaqələrin araşdırılmasını qeyd edə bilərəm. Məşhur ərəb alimi Əl-Məsudinin əsərlərində türk xalq və tayfalarına aid materiallar və İbn Xəlliqanın «Vəfayət əl-əyan» adlı əsərində türk əsilli alimlər haqqında hissələr, Ş.Vəravinin «Mərzbannamə» əsəri, F.Əttarın «Təzkirətül-övliya» əsərinin II hissəsi tərcümə və şərh edilib, Nədimin «Divan»ının tekstoloji təhlili, eləcə də «Orta əsr farsdilli sufi nəsri» adlı iş tamamlanıb. Din və ictimai fikir sahəsində «Müasir Türkiyənin mütərəqqi ilahiyyatçılarının həqiqi islam uğrunda mübarizəsi və dini irticanın tənqidi», «İslam mədəniyyəti və ümumbəşəri sivilizasiyasının təşəkkülündə onun rolu» adlı elmi tədqiqatları, xüsusən də institutda hazırlanmış «İslam» ensiklopedik lüğətini qeyd etməyə dəyər. Müasir ədəbiyyatla bağlı «Modernləşmə və XX əsr ərəb ədəbiyyatı», «Müasir Şərq ədəbiyyatında Qərb obrazı», «Böyük Azərbaycan şairi Məhəmməd Hüseyn Şəhriyarın əsərlərinin

Azərbaycan dilinə tərcüməsi», «Ən yeni dövr Kipr türk poeziyası», «XX əsr türk nəsri və dramaturgiyası», «XX əsrin II yarısında yeni türk hekayəçiliyi», «Rəşad Nuri Güntəkinin dram yaradıcılığı» adlı tədqiqatlar da diqqətəlayiqdir. Dövlətşah Səmərqəndinin «Təzkirətüşşüəra», Cübran Xəlil Cübranın «Qırıq qanadlar» əsərləri, İ.M.Filştinskinin «Ərəb ədəbiyyatı tarixi. X-XVIII əsrlər» kitabı tərcümə edilib, Azərbaycanca-ərəbcə böyük və kiçik həcmli lüğətlər tərtib edilib.

- Aparılan tədqiqatların nəşri sahəsində vəziyyət necədir və nəşr olunan əsərlər başqa dillərə tərcümə olunurmu?

- Hər il institutumuzun əməkdaşlarının 20-dən artıq kitabı çap olunur. Ötən il işıq üzü görən kitablardan mənim «Ölməzliyə aparan yol», Solmaz Rüstəmova-Tohidinin «Mart 1918. Bakı. Azərbaycanlıların soyqırımı sənədlərdə», Xalidə Quliyeva-Qafqazlının «Qaracaoğlan», Çimnaz Mirzəzadənin «Hübeyş Tiflisinin ərəbcə-farsca «Qanun əl-ədəb» lüğəti», Əkrəm Rəhimlinin «Seyid Cəfər Pişəvəri. Həyatı və ictimai-siyasi fəaliyyəti», Məsiağa Məhəmmədinin «Rza Bərahəni: şeirlər, müsahibələr, araşdırma» kitablarını qeyd edə bilərəm.

Solmaz Rüstəmova-Tohidinin azərbaycanlıların soyqırımı ilə bağlı «Quba. Aprel-may 1918. Azərbaycanlıların soyqırımı sənədlərdə» kitabı çapdan çıxıb. 2010-cu ilin birinci yarısında artıq 10-a yaxın kitab çap olunub. Bunlardan Aydın Abıyevin «Mənşəyinə görə şəxs adları», Elmira Məmmədovanın «Osman Türkayın poetik irsi», Kəmalə Ələkbərovanın «XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinə Türkiyə türkcəsinin təsiri» kitablarını, Mehdi Kazımovun fars dilindən tərcümə edərək müqəddimə və şərhlərlə çap etdirdiyi «Məhəmməd bin Münəvvər. Əsrar ət-touhid fi məqamat əş-şeyx Əbu Səid»i və Məsiağa Məhəmmədinin Söhrab Sipehridən tərcümələrini misal çəkə bilərəm. Hazırda 10-dan artıq kitab çapa təqdim edilib. Bunların sırasında filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın məqalə və tərcümələrini əhatə edən kitabının xüsusi dəyəri var.

Əməkdaşlarımızın kitabları xarici ölkələrdə də tərcümə olunub çap edilir. Alimlərimizin son illərdə İranda, Türkiyədə, Rusiyada, Kanadada, Ərəb ölkələrində kitabları işıq üzü görüb. Məsələn, Əkrəm Rəhimlinin «Cənubi Azərbaycanda milli demokratik hərəkat. 1941-1946-cı illər» kitabı Tehranda fars dilinə tərcümə olunaraq nəşr edilib. Bu kitab həmçinin Kanadada Azərbaycan dilində çap olunub. Cəmilə Sadıqova və Təyyibə Ələsgərovanın «Fars dilini tədqiq edən Azərbaycan alimləri» kitabı Tehranda fars dilinə tərcümə olunaraq çap olunub. Əkrəm Rəhimlinin «Mübarizə burulğanlarında keçən ömür – Seyid Cəfər Pişəvəri» kitabının Tehranda fars dilinə tərcüməsi başa

çatmaq üzrədir və yaxın aylarda bu kitabın çapı gözlənilir. Solmaz Rüstəmova-Tohidinin 1918-ci il Bakı və Quba hadisələri ilə bağlı kitablarının ingilis dilinə tərcüməsi planlaşdırılır.

Bunlardan əlavə Şərqşünaslıq İnstitutunun mütəmadi olaraq «Şərq filologiyası məsələləri» məcmuəsi, «Elmi araşdırmalar» toplusu və «Azərbaycan şərqşünaslığı» jurnalı nəşr olunur.

- İnstitutunuzun alimləri dünyanın bir çox elmi mərkəzləri ilə sıx əlaqələr saxlayır, elmi əməkdaşlıq edirlər. Beynəlxalq miqyasda aparılan işlər və onun nəticələri barədə nə deyə bilərsiniz?

- Beynəlxalq əlaqələrimiz son zamanlar xeyli genişlənib. Əməkdaşlarımız son bir ildə Türkiyə, Rumıniya, Rusiya, Gürcüstan, İran və digər ölkələrdə keçirilmiş beynəlxalq konfranslarda, tədbirlərdə iştirak ediblər. 2009-cu ilin sentyabrında mənim Çinə səfərim və buradakı görüşlərimiz çox faydalı oldu. Bu baxımdan Pekin Universitetinin Ərəb dili fakültəsində keçirdiyimiz görüşləri xüsusi qeyd etmək lazımdır. Biz fakültə rəhbərliyi ilə gələcək əməkdaşlığımızın perspektivlərini müzakirə etdik. Bu görüşlər gələcəkdə qarşılıqlı elmi əlaqələrin inkişafının əsasını qoydu. Alimlərimizin qarşılıqlı səfərləri bizim Çini, çinlilərin isə Azərbaycanı daha dərindən öyrənməsinə kömək edəcək. Düşünürəm ki, gənc alimlərimizi təcrübə toplamaq, Çin dilini öyrənmək üçün bu ölkəyə ezamiyyətə göndərmək lazımdır. Ümumiyyətlə, Şərq ölkələri ilə elmi əlaqələrin genişlənməsi bütövlükdə ölkəmizdə şərqşünaslıq elminin inkişafına, bu ölkələrlə hərtərəfli əlaqələrin yaradılmasına müsbət təsir göstərəcək.

Bu cür əlaqələri biz tək Şərq ölkələri ilə deyil, eyni zamanda Avropanın şərqşünaslıq mərkəzləri ilə də qurmağa çalışırıq.

Bu cəhətdən Şərqşünaslıq İnstitutunun səmərəli fəaliyyətinin bir bariz nümunəsi kimi bu ilin iyun ayında Rumıniyada keçirilmiş elmi konfransı və imzalanmış memorandumu göstərmək olar. Rumıniyanın Kluj-Napoka şəhərində Babeş-Bolya Universitetinin Türkologiya və Mərkəzi Asiya Tədqiqatları İnstitutu ilə birgə «Şərq və Qərb arasında dialoq» mövzusunda elmi konfrans keçirtdik. Konfransda institutumuzdan mən, eləcə də filologiya elmləri doktoru Vilayət Cəfərov və Lalə Əliyeva məruzə etdik. Konfrans çərçivəsində Şərqşünaslıq İnstitutu və Babeş-Bolya Universitetinin Türkologiya və Mərkəzi Asiya Tədqiqatları İnstitutu arasında əməkdaşlıq haqqında memorandum da imzalandı. Bu memorandumda müştərək elmi-tədqiqat işlərinin aparılması, alimlərimizin qarşılıqlı səfərlərinin təşkili, kadr hazırlığı və əməkdaşların staj keçməsində tərəflərin bir-birinə yardımçı olması, birgə elmi seminar, konfrans və simpoziumların təşkili və digər məsələlər nəzərdə tutulur.

2010-cu ilin aprel ayında Bakıda da beynəlxalq konfrans keçirtmişik. Azər-

baycan Milli Kitabxanası, TÜRKSOY, Mədəniyyət və Turizm Nazirliyi ilə birgə təşkil etdiyimiz və müasir türk tarixşünaslığının banilərindən biri sayılan görkəmli başqırd professoru Əhməd Zəki Validi Toğanın anadan olmasının 120 illiyinə həsr olunan konfransda Türkiyədən, Qazaxıstandan, Başqırdıstandan və Krımdan gələn nümayəndələr iştirak ediblər.

Alimlərimizin səfərlərinə gəldikdə, İnstitut əməkdaşlarından tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı ilə bağlı nəşr etdirdiyi iki kitabın təqdimatı və ümumiyyətlə, erməni təcavüzü haqqında həqiqətləri elmi şəkildə bəyan etmək məqsədilə son bir ildə Londonda, Rotterdamda, Moskvada konfrans və tədbirlərdə iştirak edib. Solmaz xanım İranda beynəlxalq konfransda da iştirak edib. 2010-cu ilin iyun ayında Tehranda daha bir konfransda əməkdaşlarımızdan Şəfəq Əlibəyli, Nüşabə Əlizadə, Şəmsi Əhmədov məruzə ilə çıxış ediblər. Bundan əlavə bu il Türkiyədə keçirilmiş müxtəlif konfranslarda Səadət Şıxıyevanın, Roida Rzayevanın, Zülfiyyə Vəliyevanın, Təranə Həşimovanın, Türkmənistanda Elman Quliyevin iştiraklarını qeyd edə bilərəm.

- İnstitutunuza gənc şərqşünas kadrların cəlb olunması məsələsi öz həllini necə tapır? Sizcə, son illər elmi işlərə marağın azalması gənc şərqşünas kadrların çatışmazlığına gətirib çıxara bilərmi?

- Həqiqətən də bir ara alimlərin maddi vəziyyətlə əlaqədar xarici ölkələrə köçməsi və başqa sahələrə üz tutması, gənc kadrların elmə maraq göstərməməsi Şərqşünaslıq İnstitutunun fəaliyyətinə də mənfi təsirini göstərmişdi. Ancaq son zamanlar əks mənzərə müşahidə olunmaqdadır. İnstitutumuzda işləmək üçün müraciət edənlərin sayı xeyli çoxalıb. Biz də onların arasından müsahibə apararaq, daha bacarıqlı və savadlı olanları seçib işə götürürük. Son illər dissertasiya müdafiə edənlərin sayında da nəzərəçarpacaq artım var. Bütün bunlar Şərqşünaslıq elminin sabahına inamla baxmağa əsas verir.

- Gövhər xanım, müsahibəyə görə Sizə öz təşəkkürümü bildirirəm.

Müsahibəni apardı: Mehparə Axundova,
«Elm və həyat» jurnalı, № 3-4, 2010-cu il.

«HİCAB MƏSƏLƏSİNƏ YANAŞMADA DÖVLƏTİN MÖVQEYİNİ HAQLI HESAB EDİRƏM»

ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN DİREKTORU, MİLLƏT VƏKİLİ GÖVHƏR BAXŞƏLİYEVA: «HİCABSIZLIQ, ÇARŞABSIZLIQ ƏSLİNDƏ AZƏRBAYCAN, TÜRK QADININ BÖYÜK NAİLİYYƏTİDİR»

– Gövhər xanım, məlum olduğu kimi, ötən ilin sonlarından bu yana hələ də orta ümumtəhsil, o cümlədən, ali təhsil məktəblərində qızların təhsil ocaqlarına hicabla gəlməsinə icazə verilib-verilməməsi məsələsi ətrafında yaranan gərginlik davam etməkdədir. Bəs, siz bu məsələdə hansı mövqenin tərəfdarısınız – qızların orta və ali təhsil məktəblərinə hicabla gəlməsinə icazə verilməsinin, yoxsa icazə verilməməsinin?

– Hesab edirəm ki, bu məsələdə dövlətin, konkret olaraq, Təhsil Nazirliyinin mövqeyi birmənalı şəkildə düzgün mövqedir və bəlkə də bir qədər gecikmiş mövqedir, qərardır. Mən əslində belə hesab edirəm ki, bu mövqe, bu qərar hələ bir neçə il bundan öncə ortaya qoyulmalı, sərgilənməli idi. Bu, çox prinsipial məsələdir. Azərbaycan dünyəvi dövlətdir və Azərbaycanda təhsil də dünyəvi xarakter daşıyır. O cümlədən, həmin təhsil müəssisələrində məktəblilərin, tələbələrin geyim forması da dünyəvi xarakter daşımalıdır. Ümumiyyətlə, birmənalı şəkildə bildirmək istəyirəm ki, həddi-buluğa çatmamış qızların hicab altına girmələrinin əleyhinəyəm. Düzdür, bizdə vicdan azadlığıdır, əqidə azadlığıdır, amma bu o demək deyil ki, yaşı həddi-buluğa çatmamış qızlar kiminsə təsiri – anasının, bacısının, qohumlarının təsiri və bəzən də bəlkə evdə atasının, qardaşının təkidi ilə həmin o hicabı taxsın. O, gərək 18 yaşına çatsın. Məhz bundan sonra onun tam müstəqil seçim etmək hüququ var və o öz seçimini etməkdə də sərbəstdir. Nə cür istəyər, o cür də geyinər. Yəni, istədiyi yerdə hicabdan istifadə edə bilər və bizlər də onun seçiminə hörmətlə yanaşarıq, yanaşmalıyıq. Amma məktəbli yaşında qız uşaqlarının hicab taxması qətiyyən yolverilməzdir. Məktəbli forması var, ona riayət olunmalıdır. Və əgər hansısa ailələr istəyirlərsə ki, qız övladları hicabdan istifadə etsin, onlar o zaman həmin qızların 18 yaşına çatmasını gözləməlidirlər...

– Necə hesab edirsiniz, bu məsələdə bir qədər ehtiyatsız davranış, daha doğrusu, hicabdan istifadə edənlərə və bunun tərəfdarlarına qarşı sərt rəftar formasının sərgilənməsi Azərbaycanda gələcəkdə dini zəmində radikalizmə, hətta, ekstremizm meyllərinə və yaxud, onun güclənməsinə gətirib çıxarmaz ki?

– Bu məsələni bir-biri ilə qətiyyən qarışdırmaq olmaz. Dövlətin, konkret olaraq, müvafiq icra hakimiyyəti orqanı olan Təhsil Nazirliyinin haqlı mövqeyi heç cür bu məsələdən sui-istifadə hallarına imkan vermir və verməməlidir.

Yəni, kimlərsə bu məsələdən bəhanə kimi istifadə edib, ölkədə dini zəmində hansısa narazılıq yaratmağa cəhd etməməlidir və edə də bilməz. Eyni zamanda, kimlərsə bu məsələyə etiraz bildirirlər, mitinqlər keçirirlər, digər etiraz aksiyalarına əl atırlar, onlara izah olunmalıdır ki, burada dövlət tam haqlıdır. Dövlət öz vətəndaşlarının hüququnu, qanunu qoruyur və burada geri çəkilmək olmaz. Çünki illər sonra bu məsələ daha da kəskin xarakter ala bilər. İkincisi, bəziləri bilmirlər, mən bir dəfə bu haqda danışmışdım, sonra isə qonşu dövlətlərdə mənim fikirlərimə qəti etirazlar bildirilmişdi...

– Siz o vaxt konkret olaraq, hansı mövqeni sərgiləmişdiniz ki, sonda bu cür etirazlara səbəb olmuşdu?

– Mən o zaman bildirmişdim və bu gün də həmin fikirlərimin üzərində qalıram, Quranda belə buyurulub ki, hicab yalnız peyğəmbərin zövcələri üçün nəzərdə tutulub. Allah-Təala belə buyurub ki, ya Məhəmməd, sənin zövcələrin müsəlman ümmətinin digər qadınlarından fərqlənmək üçün hicab taxsınlar. Yəni, hələ o zamandan bütün qadınlar üçün hicab taxması buyrulmayıb. Onu da qeyd edim ki, o zaman ilkin olaraq Məhəmməd peyğəmbərin zövcələri hicab taxıblar. İlkin islamda müsəlman qadınlar hamısı heç də hicab taxmayıblar. Daha sonra onlara bənzəmək, onlardan nümunə götürməkmi üçün digər müsəlman, azad qadınlar cariyələrdən fərqlənməkdən ötrü özləri müstəqil şəkildə hicab geyinməyə başladılar. Amma yuxarıda dediyim kimi, Quranda birmənalı şəkildə hicab taxmaq peyğəmbərin zövcələri üçün nəzərdə tutulub. Və eyni zamanda, bütün müsəlman ümmətinə – həm kişilərə, həm qadınlara müraciət olunur ki, ya Məhəmməd, sənin ümmətinin insanları ayıb yerlərini örtsünlər. Bunlar da yenə həm kişilərə, həm qadınlara aiddir. Sifət isə insanın heç vaxt ayıb yeri sayılmayıb və sayılmır.

– Necə hesab edirsiniz, indi hicabdan istifadə etmək qəbahətdirmi?

– Təbii ki, qəbahət deyil. Bu insanların – gənc qızların, qadınların öz hüququdur və heç kəs onların bu hüququna müdaxilə edə bilməz. Onlar bu məsələdə seçim etməkdə tam sərbəstdirlər və biz də yuxarıda dediyim kimi, onların bu seçiminə hörmətlə yanaşırıq, yanaşmalıyıq. Ancaq gənc, həddi-buluğa çatmamış, xüsusilə, məktəb yaşlı qızların bu məsələyə qarışdırılması, aid edilməsi heç cür düzgün deyil və yolverilməzdir. Eyni zamanda, məqamı düşmüşkən, bir məsələni də qeyd etmək istəyirəm. Hicabsızlıq, çarşabsızlıq əslində Azərbaycan, türk qadınının böyük uğuru, nailiyyətidir. Biz bunu başa düşməli və dərk edərək, qiymətləndirməliyik. Onillər, yüzillər boyu bütün Şərq aləmində bu cür ehkamlara – hicaba, çarşaba qarşı mübarizə gedib. Hətta, insanlar bu yolda ölümə belə gediblər. Bu, heç də keçmiş sovet quruluşunun hicaba, çarşaba qarşı mübarizəsi və onu aradan qaldırması kimi qiymətləndirilə bilməz. Hələ sovet, sosializm quruluşundan daha öncə – 19-cu əsrdən başlayaraq Misirdə, Suriyada, İraqda, digər ərəb

ölkələrində maarifçi mütəfəkkirlər, yazıçılar, şairlər hicaba, çarşaba qarşı mübarizə apardılar. Hətta, ərəb dünyasında bununla bağlı böyük bir ədəbiyyat yarandı, «Qadın azadlığı» romanı ərsəyə gəldi və sair. Qadınları necə azad edək, bu yöndə silsilə yazılar ortaya qoyuldu. İstər Ədib İshaq, istər Cəmaləddin Əfqani, istər Mahmud və Məhəmməd Teymur qardaşları, istər Mustafa Kamil, istərsə digər ziyalılar tərəfindən bununla bağlı böyük bir mübarizə, mücadilə aparılırdı ki, o mübarizənin də bir hissəsi XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın demokrat – maarifçi yazıçılarının payına düşür. Onlar da hicabsızlığa, çarşabsızlığa qarşı mübarizə aparırdılar. Ərəb mütəfəkkirləri yazırdılar ki, bizim qadınlar ikili məhbəsin məhbusudurlar – həm ictimai ədalətsizliyin, həm də bu qara hicabın, çarşabın. Biz onları bu məhbəsdən çıxarmalıyıq. Hesab olunurdu ki, yalnız azad düşüncəli, yüksək təhsil görmüş qadın azad övlad yetişdirə bilər. Biz əgər cəmiyyətimizin gələcəyini sivil, maarifpərvər görmək istəyiriksə, o zaman mütləq qadını hicabdan, çarşabdan azad etməliyik. O cümlədən, dediyim kimi, uzun illər bununla bağlı Azərbaycanda da böyük bir mübarizə gedib. Və Azərbaycan qadını Şərq dünyasında hicabdan, çarşabdan azad olan, imtina edən ilk müsəlman qadını oldu. Keçmiş sovet quruluşu isə bu prosesi daha da sürətləndirdi və amiranə üsulla bu məsələni birdəfəlik həll etdi. Məhz bu hicabsızlığın, çarşabsızlığın nəticəsidir ki, Azərbaycan qadını bu gün Şərqdə ən inkişaf etmiş, ən öndə gedən qadınlardır. Bizim qadınların böyük bir ziyalı təbəqəsi, ordusu var. Bu gün həkimlərimizin, pedaqoqlarımızın böyük əksəriyyəti qadınlardır. Bizim qadınları bu gün Şərq aləmində bir nümunə kimi göstərirlər, qəbul edirlər. Vaxtilə Azərbaycanda Misirin səfiri işləyən xanım Cihan Amin Məhəmmədəli ilə görüşlərimiz zamanı ondan soruşanda ki, Azərbaycanda bu müddət ərzində bəyəndiyiniz əsas nə oldu, o mənə cavab vermişdi ki, Azərbaycan qadınının vəziyyəti, səviyyəsi. Eyni zamanda qeyd etmişdi ki, məni Azərbaycan qadını valeh etdi və bu, Şərq aləminə, Şərq qadınına bir nümunədir. Onun bir arzusu da var idi ki, biz təcrübə mübadiləsi aparaq – yəni, Misir qadınları bizim qadınlardan öyrənsinlər. Öyrənsinlər ki, müasir Şərq qadını necə olmalıdır. Yaxşı, belə nailiyyətlər əldə olunandan sonra biz indi bunu niyə itirməli, əldən verməliyik. Mövqeyim belədir ki, biz bu nailiyyətlərimizi qoruyub, saxlamalıyıq. Bir sözlə, indi yenidən hicaba, çarşaba qayıtmaq, insanları bu ehkamlara doğru istiqamətləndirmək heç də faydalı iş, addım, əməl deyil. Bu, bizim, xüsusilə Azərbaycan türk qadınlarının nailiyyətidir və bu nailiyyətimizin dəyərini də bilməli, qiymətləndirməliyik.

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
«525-ci qəzet», 14 yanvar 2011-ci il.

«DÜNYA ARXİVLƏRİNDƏN AZƏRBAYCANLA BAĞLI UNİKAL MATERİALLAR TAPA BİLƏRİK»

Gövhər Baxşəliyeva: «Ezamiyyələr məsələsində Elmin İnkişafı Fonduna böyük ümidlər bəsləyirəm»

- Gövhər xanım, Elmin İnkişafı Fonduna rəhbərlik etdiyiniz institutdan layihə təqdim olunub?

- Mən fonda layihə təqdim etmişəm. Adı çəkilən təşkilatın nizamnaməsinə görə ora bütöv institut özü müraciət edə bilməz. Ayrı-ayrı, ya da qrup halında alimlər layihələri ilə müraciət edə bilərlər. Mən də öz layihəmlə müraciət etmişdim. İcraçı kimi həm özüm, həm də institutdan bir əməkdaşımızdır. Birinci qrant müsabiqəsində təqdim etdiyim həmin layihə də qalib gəldi. Müəyyən qrant ayrılıb. İndi bu il qrantdan istifadə edərək, layihəni həyata keçirməliyik. Layihə «Misirin Dər-ul Kutub və İsgəndəriyyə kitabxanalarında Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən xəritələrin tapılması, surətlərinin çıxarılıb. Azərbaycana gətirilməsi və o xəritələrin təsviri» adlanır. Məbləğ hələ ki, bizim hesaba köçürülməyib. Bir-iki texniki məsələlər var ki, fond hələ onları həll edir. Vəsait hesaba köçürüləndən sonra biz Misirə gedəcəyik və orda geniş bir işə başlamalıyıq. Hesab edirəm ki, həm Şərqin, həm də Qərbin bir sıra kitabxana və əlyazmalar fondlarında, arxivlərində Azərbaycan haqqında materiallar var. Biz həmin materialların aşkar olunması üçün müntəzəm surətdə iş aparmalıyıq. Müntəzəm ezamiyyələrimiz olmalıdır. Alimlərimiz aylarla oturub həmin fondlarda-xəzinələrdə Azərbaycan haqqında, ölkəmizlə bağlı materialları aşkar edib ölkəmizə gətirməlidir.

- Bunlar hansı materiallar ola bilər?

- İndiyə kimi ayrı-ayrı vaxtlarda bu materiallardan bəziləri əlimizə keçib. Həm sovet dövrü, həm də ötən 20 il ərzində bizə elə bir maliyyə vəsaiti verilməyib ki, uzun müddətə alimlərimizi ezamiyyəyə göndərə bilək. İndi şəxsən mən ezamiyyələrlə bağlı Elmin İnkişafı Fonduna çox böyük ümid bəsləyirəm. İndiyə kimi ayrı-ayrı alimlərimiz ayrı-ayrı ölkələrdə iki-üç günlük konfranslarda olanda, vaxt tapıb kitabxanalara gedib. Mən də Azərbaycanla bağlı xəritələri elə tapdım. Misirdə konfransda olarkən 4 saat vaxta qənaət etdim və kitabxanaya gedib həmin xəritələrin 7-sini tapdım. Yəni, indiyə kimi Azərbaycanla bağlı materiallar ayrı-ayrı vaxtlarda tapılıb gətirilib. Həmin tapıntılar vaxtilə və indi də çox böyük əhəmiyyət daşıyır. Misal da çəkmək olar. Deyək ki, onların içində XII əsr azərbaycanlı müəllifi Xosrov əl-Ustadın «Munisnamə» əsərini Ziya müəllim tapıb gətirmişdi. XV əsr azərbaycanlı müəllif-bütöv «Xəmsə» yazan Əşrəf Marağayinin

əsərinin əlyazmasını Oksfordun Bodlean kitabxanasından tapıb gətirdik. Ziya müəllim Osmanlı dəftərlərini Türkiyənin başbakanlıq arxivindən tapıb gətirdi. Bu dəftərlər Azərbaycanın ərazi bütövlüyünü təsdiq etmək üçün çox böyük əhəmiyyət kəsb edir. Gəncə-Qarabağ, İrəvan, Naxçıvan sancağının, Qazax-Borçalı, Ərdəbil və bu qəbildən olan xeyli dəftərləri tərcümə etmişik. Bunlar osmanlı vergi dəftərləridir. XVIII əsrin əvvəllərində iki dəfə qısa müddətə Azərbaycan Osmanlı dövlətinin tərkibinə daxil olub. Osmanlının da siyasəti elə idi ki, ərazisinə daxil olan yerlərə vergi müfəttişləri göndərirdi. Onlar vergi dəftərləri tərtib edir və əhalini siyahıya alırdılar. Orda hansı evlərin müsəlman, hansıların xristian əhaliyə aid olduğu dəqiq göstərilirdi. Əhalinin dini mənsubiyyəti göstərilirdi. Biz həmin dəftərlər vasitəsilə XVIII əsrin əvvəllərində İrəvanda nə qədər xristian əhali-ermənilər, nə qədər müsəlman, yəni azərbaycanlı əhali yaşadığını müəyyən edirik. Eləcə də Qarabağ ərazisində. Bunlar da adı çəkilən ərazilərdə vaxtilə böyük əksəriyyətin müsəlmanlardan ibarət olduğunu sübut edən tutarlı dəlillərdəndir. Bax Azərbaycanla bağlı bu cür vacib materialların olması ehtimal olunur. Azərbaycanla bağlı yeni-yeni ərəb mənbələri ola bilər. Müxtəlif azərbaycanlı müəlliflərin əsərləri ola bilər. Bunlar bizim mənəvi sərvətimizdir. İmkan düşdükcə, alimləri ezam etməli və Azərbaycana aid olan materialları toplamalıyıq. Düşünürəm ki, bu istiqamətdə biz gələcəkdə də çox böyük işlər görə bilərik.

- Sizcə, Azərbaycanla bağlı materiallar daha çox hansı ölkələrdədir?

- İlk növbədə ən böyük əlyazmalar xəzinələri, böyük arxivlər olan ölkələrə getməliyik. Məsələn, Füzulinin ərəb divanı uzun müddət alimlər tərəfindən axtarılırdı. Füzulinin ərəbcə belə bir divanı olduğu haqqında məlumat var idi, amma tapılmırdı. Sonda həmin divan Sankt-Peterburqda hələ çar dövründə yaradılan Asiya muzeyinin arxivindən tapıldı. Elə insanlar olub ki, əlyazmaları heç oxuya da bilməyib. Tutaq ki, hansısa bir rus alimimi, missionerimi, səyyahımı əlinə düşəndə yığıb aparıb. Materiallar təkcə Şərqdə yox, həm də Qərbdədir. Bilirsiniz ki, bir zamanlar Şərq ölkələri Qərb tərəfindən istila olunmuşdu. Müstəmləkəçilər həmin ölkələrdən xeyli sayda materialları yığıb aparıblar. Bodlean kitabxanası bu yolla tərtib olunub. ABŞ-da hətta Priston Universitetinin böyük kitabxanası Şərq əlyazmalarından ibarətdir. İngiltərədə olan İndian Ofis kitabxanası vaxtilə ingilislərin Hindistandan çıxanda apardıqları materiallar sayəsində yaradılıb. O materialların içində həm də xeyli ərəb, müsəlman əlyazmaları var. Çünki Hindistan əhalisinin müəyyən hissəsi müsəlman idi. Bir vaxt müsəlman mədəniyyəti Hindistanda çiçəklənmişdi. Bunların hamısını biz araşdırmalıyıq. Əlyazmalar dəqiq kataloqa alınan kitabxanalarda iş asan olur. Amma əksər ərəb ölkələrində materiallar kataloqlaşdırılmayıb. Ona görə də araşdırmaçılar kitabxanada oturub materialları araşdırmalıdır. Bu çox böyük

vaxt və zəhmət tələb edir, amma Azərbaycan haqqında unikal materiallar əldə edə bilərik.

- Gövhər xanım, institutlara ezamiyyə üçün vəsait ayrılmır?

- Elmi-tədqiqat institutlarına elmi ezamiyyə üçün çox cüzi vəsait ayrılır. Ötən illərə kimi biz həmin vəsaitlə ildə bir nəfəri 2-3 günlük konfransa göndərə bilərdik. Həmin vəsaitə tədqiqat aparmaq mümkün deyildi. Qeyd etdiyim kimi, indi ümid edirik ki, fondun vasitəsilə biz bu işlərimizi aparacayıq.

- 2011-ci ildə bir alim kimi yeni kitablarınız olacaq?

- Əlbəttə ki, alim həmişə gərək elmi yaradıcılığını davam etdirsin. Bunsuz alim alim deyil. Ona görə də institutda işləyən bütün alimlər, o cümlədən də mən mütəmadi olaraq, elmi yaradıcılıqla məşğuluq. Şəxsən mənim 2010-cu ildə bir kitabım çıxdı. 2011-ci ildə Misirin məşhur nasir və dramaturqu Tofiq-əl Həkimin ədəbi-nəzəri görüşləri haqqında bir monoqrafiya nəşr etməyi planlaşdırıram. Bunun üzərində xeyli araşdırma aparmışam, materiallar toplamışam. Bundan əlavə bir sıra kitablarımız var ki, mənim redaktəmi gözləyir. Məsələn, Filştinskinin kitabına bizim şərqşünaslıq fakültələrində tələbələr arasında, ərəb ədəbiyyatını tədqiq edən tədqiqatçılar arasında böyük tələbatı var. «Ərəb ədəbiyyatı tarixi» kitabını rus dilindən Azərbaycan dilinə tərcümə etdik. İndi kitab mənim redaktəmlə çapa getməlidir. «Şərq ölkələri. Sorğu kitabı»nı, «İslam ensiklopediyası»nı redaktə edib çapa verməliyəm. Çoxlu lüğətlər çap edirik.

- Bu kitabları yetərli tirajla nəşr edə bilirsiniz?

- Nəşr işimiz əvvəlki illərə nisbətən yaxşıdır. Sovet dövründə kitab nəşri çətin idi. Kitabın nəşr olunması üçün illərlə növbəyə dururdun. Kitabın poliqrafik səviyyəsi də aşağı olurdu. Şükürlər ki, son 5-7 ildir kitab çapına imkan yaranıb. Vəsaitin hardan yarandığını da deyim. Biz instituta xarici dissertantlar götürməyə başlamışıq. Onlar da təhsil haqqı üçün institutun hesabına müəyyən məbləğ köçürürlər. Həmin məbləği kitab çapına yönəldirik. Onun bir qismini də ezamiyyələrə veririk. Amma onların köçürdükləri o qədər böyük məbləğ deyil ki, biz kimisə bir ay ərzinə xaricə göndərə bilək. Kitab çapı ilə bağlı başqa planlarımız da var. Şərqşünaslıq İnstitutu 1958-ci ildən mövcuddur. Vaxtilə institutda çox gözəl əsərlər yaranıb. Amma o kitabların tək-tək nüsxələri qalıb. Hətta bəzilərinin bizim institutda bir-iki nüsxəsi qalıb, ya qalmayıb. O kitablardan hansılar ki, bugünkü elm üçün də əhəmiyyət kəsb edir onları tədricən yenidən latın qrafikası ilə çap etmək istəyirik. Məsələn, ərəbşünas alim Malik Mahmudovun «Ərəbcə yazmış Azərbaycan ədib və şairləri» kitabı çox közəl əsər idi. Bir neçə il bundan əvvəl prezidentin sərəncamı ilə latın qrafikası ilə kitablar çap olunanda həmin kitabı da təklif etdim və kitabı çap etdilər. Zaman-zaman digər alimlərimizin də kitablarını çap edəcəyik.

Həm onların ruhu şad olar, həm də gənc alimlər, tələbələr həmin kitablardan istifadə edə bilər.

- Gövhər xanım, əcnəbi dissertantları instituta götürdüyünüzü bildirdiniz. Hazırda institutda nə qədər xaricdən gələn dissertant var və daha çox hansı ölkələrdən gəliblər?

- Bizim xaricdən gələn 41 dissertantımız var. Onlar əsasən İrandandır. Əvvəllər ərəb ölkələrindən dissertantlarımız olub. Bir nəfər Quzey Kıbrısdan olub. Amma indi İrandan olanlardır. Əsasən də İran azərbaycanlılarıdır.

- Gövhər xanım, elmə gələnlər arasında qızlar üstünlük təşkil edir?

- Düzdür, qızlar daha çox gəlir. Amma oğlanlar içində də məhz elmlə məşğul olmaq istəyən və çox savadlı uşaqlar var. Onları axtarmaq lazımdır. Mən istedadlıları axtarıram.

Müsahibəni apardı: Aygün,
«Olaylar» qəzeti, 29-31 yanvar 2011-ci il.

DÜNYƏVİ HƏYAT TƏRZİNƏ ƏSASLANAN AZƏRBAYCAN QADINI İNKİŞAFINA, HÜQUQLARINA VƏ YÜKSƏK SƏVİYYƏSİNƏ GÖRƏ ŞƏRQƏ NÜMUNƏDİR

Gövhər Baxşəliyeva: «XXI əsrdə baş örtüyünə qayıtmaq geriyə - cəhalətə dönüş və qazanılan nailiyyətlərdən imtinadır.»

Azərbaycanda dini tolerantlığın bütün dünya miqyasında ən mükəmməl örnəklərdən biri kimi qəbul edilməsi son illərin ən mühüm uğurlarındandır. Respublikamız bu gün sivilizasiyaların, mədəniyyətlərin, o cümlədən də dinlərin maneəsiz qovuşduğu məkandır, onların uzlaşdırıcı körpüsüdür. Milli, mənəvi, dini yönümdə müxtəlif konfessiyaların, etnik qrupların, zümrələrin ölkəmizdə maneəsiz fəaliyyəti, spesifik rituallarını icra etmələri əslində respublikamızı və xalqımızı zənginləşdirən amildir. Təəssüf ki, bəzi dairələr belə normal dini durumu gərginləşdirməyə uğursuz cəhdlər edir, müxtəlif süni ajiotajlar törədir, baş örtüyü məsələsi ilə bağlı ictimai narazılıq yaratmağa çalışırlar. Təqdirəlayiq haldır ki, ölkə ictimaiyyəti bu kimi bədxah meyilləri yaradan səbəbləri, eləcə də onların nəticə etibarilə nə məqsəd güdməsini gözəl anlayırlar.

Bu məsələlərə münasibət bildirmək üçün Milli Məclisin deputatı, AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor **Gövhər Baxşəliyeva** ilə söhbətləşdik.

- Gövhər xanım, müəyyən dairələrin baş örtüyü məsələsi ilə bağlı son günlər ölkədə süni problemlər yaratmaq cəhdləri ictimaiyyətdə ciddi narazılıqla qarşılanıb. Ziyalı xanımların bu məsələyə münasibətini bilmək maraqlı olardı...

- Həqiqətən də qeyd etdiyiniz məsələ ictimai müzakirələrin əsas mövzusuna çevrilib. Bunu təbii qəbul etmək lazımdır. Çünki din mənəvi dəyərlər sisteminin olduqca həssas məqamlarındandır. Fəqət son müzakirələri mən cəhalətlə müasirliyin, dinin həqiqi tələbləri ilə qondarma yanaşmalar, xüsusən də qadın istibdadı ilə qadın azadlığı arasında gedən əbədi mübarizə kontekstində şərh edərdim. Bu baxımdan xüsusi qeyd etmək istərdim ki, son günlər elm, təhsil sahəsində tanıdığım, ictimai həyatda mənimlə birlikdə fəal olan, eləcə də Milli Məclisdəki həmkarım xanımlarla söhbətdə mövzu istər-istəməz baş örtüyü ilə bağlı ictimai rəydə gedən müzakirələrə yönəlir. Qadınlar «Bizə yaradılan münbit şəraitdən bəhrələnib cəmiyyət həyatında daha faydalı olmalıyıq, yoxsa yenidən geriyə - cəhalətə doğru qayıtmalıyıq?» - deyə soruşurlar.

Məlumdur ki, ötən ilin sonlarından bu yana orta ümumtəhsil, o cümlədən

ali təhsil məktəblərində qızların təhsil ocaqlarına hicabla gəlməsinə icazə verilib-verilməməsi məsələsi ətrafında yaranan gərginlik davam etməkdədir. Biz qadınların birmənalı şəkildə fikri belədir ki, bu məsələdə dövlətin, konkret olaraq Təhsil Nazirliyinin mövqeyi düzgün mövqedir. Şəxsən mən belə hesab edirəm ki, bu mövqe, bu qərar hələ bir neçə il bundan öncə ortaya qoyulmalı, sərgilənməli idi. Bu, çox prinsipial məsələdir. Azərbaycan dünyəvi dövlətdir və ölkəmizdə təhsil də dünyəvi xarakter daşıyır. O cümlədən həmin təhsil müəssisələrində məktəblilərin, tələbələrin geyim forması da dünyəvi xarakter daşımalıdır.

- Qarşı tərəf bu məqamda daha çox vicdan azadlığı prinsipinə istinad edir. Sizcə, bu, sadəcə, bəhanə deyilmi?

- Əlbəttə, bəhanədir! Özü də çox uğursuz bəhanədir! Ümumiyyətlə, həddi-büluğa çatmamış qızların hicab altına girmələrinin əleyhinəyəm. Düzdür, bizdə vicdan azadlığı, əqidə azadlığı məsələləri dövlətin əsas qanununda - Konstitusiyada təsbit olunub və bu norma ictimai həyatda təmin edilib. Amma fərdin vicdan azadlığı anlayışı ilə orta məktəb şagirdinin dərsə baş örtüyü ilə getmək istəyinin heç bir əlaqəsi yoxdur. Bunlar tam fərqli məsələlərdir. Vicdan azadlığı o demək deyil ki, yaşı həddi-büluğa çatmamış qızlar kiminsə təzyiqi - anasının, bacısının, qohumlarının təsiri və bəzən də bəlkə evdə atasının, qardaşının təkidi ilə həmin o hicabı taxsın. O, gərək 18 yaşına çatsın. Məhz bundan sonra onun tam müstəqil seçim etmək hüququ var və o öz seçimini etməkdə də sərbəstdir. Yəni istədiyi yerdə baş örtüyündən istifadə edə bilər və bizlər də onun seçiminə hörmətlə yanaşarıq. Amma məktəbli yaşında qız uşaqlarının hicab taxması qətiyyən yolverilməzdir. Vahid məktəbli formasına riayət olunmalıdır. Və əgər hansısa ailələr istəyirlərsə ki, qız övladları hicabdan istifadə etsin, onlar o zaman həmin qızların 18 yaşına çatmasını gözləməlidirlər.

- Ümumiyyətlə, bu gün Azərbaycan qadınına zorən baş örtüyü bağlatmaq istəyənlər heç qadından buna razı olub-olmamağını soruşurlarmı, onun mövqeyini öyrənirlərmi?

- Əsas problem də məhz budur! Sual doğur: niyə valideyn iradəsinə tabe olan, hələ tam və müstəqil fikri, mövqeyi olan şəxsiyyət kimi formalaşmayan yeniyetmə qızları elmə yox, cəhalətə, iki-üç əsr öncəki duruma geri sürükləyirlər? Sirr deyil ki, hazırda orta təhsil məktəblərindən yayınanlar, erkən nikaha məcbur edilənlər arasında faiz baxımından böyük üstünlüyü məhz o başı örtüklü qızlar təşkil edir. İnsanlar onu da bilməlidirlər ki, mənəviyyat, əxlaq heç də baş örtüyü ilə ölçülmür. Azərbaycanda hicabdan istifadə etməyən yüksək mənəviyyat və pak əxlaq daşıyıcıları olan kifayət qədər qadınlar var ki, xalqımız tərəfindən namus və ləyaqət simvolu olaraq qəbul ediliblər.

Bir də ki əsl din, iman mədəniyyətdir, onun xurafat və fanatizmlə heç bir əlaqəsi yoxdur və olmamalıdır! Bu meyarların dərki üçün qadınlarımıza, qızlarımıza, xüsusilə də müxtəlif dini cərəyanların fəallaşdığı bir zamanda öz yerini tapa bilməyənlərə, aldananlara demək istərdim: din o zaman mədəniyyətdir ki, insan Allah-Təala tərəfindən qoyulmuş, Peyğəmbərimiz tərəfindən bizlərə çatdırılmış qaydalara, ənənələrə riayət edir. Xurafata, fanatizmə isə insan artıq yaşadığı cəmiyyətdə bir qədər dar düşüncəlilərin təsirinə məruz qalanda keçir. Allah-təala tərəfindən Quranda qoyulmuş qaydaları ayrı-ayrı insanlar təhrif edirlər və dinimizin təhrif olunmuş variantını da cəmiyyətdə təbliğ edirlər. Hər insan müstəqil düşünməlidir və özü dərk etməlidir ki, yalnız və yalnız saf və həqiqi iman, savadlı dindarlıq daha üstündür. Buna görə də heç kimin təsiri altına düşmək lazım deyil.

- Gövhər xanım, Qurani-Kərimdə əksini tapmış qaydalardan söz düşmüşkən, baş örtüyü ilə bağlı müqəddəs kitabımızda hansı tələblər var?

- Müqəddəs Qurani-Kərimdə belə buyurulub ki, hicab - baş örtüyü yalnız peyğəmbərin zövcələri üçün vacibdir. Yəni hələ o zamandan hicab bütün qadınlar üçün mütləq olmayıb. «Əhzab» surəsinin 59-cu ayəsində deyilir: «Ey peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin arvadlarına de ki, örpəklərini gözlərinə yaxınlaşdırsınlar. Bu onların tanınmaları və əziyyətə məruz qalmamaları üçün daha münasibdir». «Əhzab» surəsinin 59-cu ayəsinin ikinci hissəsi ilə bağlı M.Mütəhhəri təfsirçilərə istinadla yazır: «Münafiqlərdən bir qrupu axşam hava qaralarkən camaatın keçdiyi küçələrdə dayanaraq kənizlərə sataşırdı (kənizlər üçün başı örtmək vacib deyildir). Bəzi hallarda bu əxlaqsızlar hətta azad qadınlara da sataşır, sonra bəhanə edib deyirdilər ki, biz onun azad qadın deyil, kəniz olduğunu zənn etmişdik. Buna görə də azad qadınlara göstəriş verildi ki, cilbab olmadan - yəni bədəni tam örtmədən evdən çıxmasınlar ki, kənizlərdən tamamilə seçilsinlər və əxlaqsızlar tərəfindən əziyyətə məruz qalmasınlar».

Onu da qeyd edim ki, ilkin islamda müsəlman qadınlar hamısı heç də hicab taxmayıblar. Daha sonra digər müsəlman, azad qadınlar cariyələrdən fərqlənməkdən ötrü özləri müstəqil şəkildə hicab geyinməyə başladılar. Amma yuxarıda dediyim kimi, Quranda birmənalı şəkildə baş örtüyü taxmaq peyğəmbərin zövcələri üçün nəzərdə tutulub. Və eyni zamanda, bütün müsəlman ümmətinə - həm kişilərə, həm qadınlara müraciət olunur ki, ya Məhəmməd, sənin ümmətinin insanları ayıb yerlərini örtsünlər. Bunlar da yenə həm kişilərə, həm qadınlara aiddir. Sifət və baş isə insanın heç vaxt ayıb yeri sayılmayıb və sayılmır.

Qadınlar anlamalıdırlar ki, baş örtüyü taxmaq onların öz hüququdur və heç

kəs onların bu hüququna müdaxilə edə bilməz. Onlar bu məsələdə seçim etməkdə tam sərbəstdirlər və biz də yuxarıda dediyim kimi, onların bu seçiminə hörmətlə yanaşırıq, yanaşmalıyıq. Ancaq gənc, həddi-büluğa çatmamış, xüsusilə məktəb yaşlı qızların bu məsələyə qarışdırılması, aid edilməsi heç cür düzgün deyil və yolverilməzdir.

- Bu mübahisələrdə Sizcə, dini qaydalara daha çox əməl olunmalıdır, yoxsa dünyəvi həyat tərzinə?

- Bu, hər kəsin öz seçimi olmalıdır. Amma bu seçim qanunlara hörmət əsasında müəyyənləşməli və ümumiyyətlə, cəmiyyətin inkişafına töhfə rolunu oynamalıdır. Bu gün islami qaydalarla yaşamağa can atan qadınlar unutmamalıdırlar ki, dünyəvi həyat tərzi onlara İslam qaydaları ilə müqayisədə qat-qat çox sərbəstlik və imtiyazlar verir. Əgər İslamın zühuru əvvəlki cahiliyyə dövrü ilə müqayisədə çox mütərəqqi hal olaraq qadınlara yeni hüquqlar verdi və müsəlman aləminin görünməmiş inkişafına, möhtəşəm intibahına səbəb oldusa, XII əsrdən sonrakı mərhələlərdə isə məhz bir sıra islami ehkamların reformasiya olunmaması, yeni yaranmış ictimai-siyasi və mədəni şəraitə uyğunlaşdırılmaması, daim mühafizəkarların islahatçılara qalib gəlməsi nəticəsində müsəlman cəmiyyətinin inkişafı ləngidi.

İslamın çoxarvadlılıq, vərəsəlik (bir oğlun payı iki qız payına bərabərdir), şahidlik (1 kişinin şahidliyi 2 qadının şahidliyinə bərabərdir) və sair bu kimi ehkamları müasir qadınların nə dərəcədə hüquqlarını təmin edir? Odur ki, hesab edirəm, qadınlarımız bugünkü Azərbaycanda dünyəvi dövlətin onların hüquqlarının müdafiəsi və inkişafı üçün yaratdığı şəraiti qiymətləndirməli, onun qədrini bilməlidirlər. Bu gün bir çox Azərbaycan qadınları analıq vəzifələrini də tam şəkildə həyata keçirirlər (bunu son demoqrafik göstəricilər bir daha təsdiq etdi), eyni zamanda ictimai fəallıqlarını da davam etdirirlər. Bu gün qadınlarımızın fəaliyyəti yalnız ev və ailə ilə məhdudlaşdırılmamalı, əksinə, onlar üçün yeni fəaliyyət meydanları açılmalıdır. Ana savadlı, geniş dünyagörüşlü olanda onun yetişdirdiyi övladlar - gələcəyimizin təminatçıları da savadlı mütəxəssis, dövlətinə, xalqına gərəkli vətəndaş olacaq.

- Bəzən belə suallar da yaranır ki, baş örtüyü məsələsində dövlətin qəti mövqeyinin sərgilənməsi Azərbaycanda gələcəkdə dini zəmində radikalizmə, hətta ekstremizm meyillərinə və yaxud onun güclənməsinə gətirib çıxarmaz ki?

- Hesab edirəm ki, bu məsələni qətiyyən bir-biri ilə qarışdırmaq olmaz. Dövlətin, konkret olaraq, müvafiq icra hakimiyyəti orqanı olan Təhsil Nazirliyinin haqlı mövqeyi heç cür bu məsələdən sui-istifadə hallarına imkan vermir və verməməlidir. Yəni kimlərsə bu məsələdən bəhanə kimi istifadə edib,

ölkədə dini zəmində hansısa narazılıq yaratmağa cəhd etməməlidir və edə də bilməz. Eyni zamanda, kimlərsə bu məsələyə etiraz bildirirlər, mitinqlər keçirirlər, digər etiraz aksiyalarına əl atırlar, onlara izah olunmalıdır ki, burada dövlət tam haqlıdır. Dövlət öz vətəndaşlarının hüququnu, qanunu qoruyur və burada geri çəkilmək olmaz. Çünki illər sonra bu məsələ daha da kəskin xarakter ala bilər.

Baş örtüyündən imtina əslində Azərbaycan qadınının böyük uğuru, nailiyyətidir. Biz bunu başa düşməli və dərk edərək, qiymətləndirməliyik. Onillər, yüzillər boyu bütün Şərq aləmində bu cür ehkamlara - hicaba, çarşaba qarşı mübarizə gedib. Hətta insanlar bu yolda ölümə belə gediblər. Bu, heç də keçmiş sovet quruluşunun hicaba, çarşaba qarşı mübarizəsi və onu aradan qaldırması kimi qiymətləndirilə bilməz. Hələ sovet sosializm quruluşundan daha öncə - XIX əsrdən başlayaraq Misirdə, Suriyada, İraqda, digər ərəb ölkələrində maarifçi mütəfəkkirlər, yazıçılar, şairlər hicaba qarşı mübarizə aparırdılar.

Hətta ərəb dünyasında bununla bağlı böyük bir ədəbiyyat yarandı, «Qadın azadlığı», «Yeni qadın» əsərləri ərsəyə gəldi və sair. Qadınları necə azad edək, bu yöndə silsilə yazılar ortaya qoyuldu. İstər Ədib İshaq, istər Cəmaləddin Əfqani, istər Mahmud və Məhəmməd Teymur qardaşları, istər Mustafa Kamil, istərsə digər ziyalılar tərəfindən bununla bağlı böyük bir mübarizə, mücadilə aparıldı ki, o mübarizənin də bir hissəsi XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın demokrat-maarifçi yazıçılarının payına düşür. Ərəb mütəfəkkirləri yazırdılar ki, bizim qadınlar ikili məhbəsin məhbusudurlar - həm ictimai ədalətsizliyin, həm də qara hicabın. Biz onları bu məhbəsdən çıxarmalıyıq. Hesab olunurdu ki, yalnız azad düşüncəli, yüksək təhsil görmüş qadın azad övlad yetişdirə bilər. Biz əgər cəmiyyətimizin gələcəyini sivil, maarifpərvər görmək istəyiriksə, o zaman mütləq qadını hicabdan azad etməliyik.

Ərəb mütəfəkkirləri və maarifçiləri gözəl anlayırdılar ki, mühafizəkar islamın ağır ehkamları Şərqi inkişafdan saxlayır. Hicab müsəlmanları Yer kürəsinin millətlərindən arxada qoymuşdur, müsəlman qadınlarının bir çoxunu bədbəxt etmişdir. Görkəmli İraq maarifçisi və şairi Cəmil Sidqi əz-Zəhəvi yazırdı: «Hicab ictimai həyatda ən ağır xəstəlikdir, açıq üzlülük paklıq rəmzidir».

- Azərbaycan qadını Şərq dünyasında baş örtüyündən, çarşabdan azad olan, imtina edən ilk müsəlman qadını oldu. Bu seçim ona nə verdi?

- Bu seçimin formal görüntüsü baş örtüyündən imtina idi, əsl mahiyyəti isə azad, müstəqil olmaq, öz potensialını xalqın, dövlətin inkişafına yönəltmək və sosial-mənəvi inkişaf mərhələsinə qədəm qoymaq idi. Məhz hicabsızlığın nəticəsidir ki, Azərbaycan qadını bu gün Şərqdə ən inkişaf etmiş, ən öndə gedən qadındır. Bizim qadınların böyük bir ziyalı təbəqəsi, ordusu var. Bu gün

həkimlərimizin, pedaqoqlarımızın, alimlərimizin böyük əksəriyyəti qadınlardır. Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etməklə demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı. Cəmiyyətdə gedən demokratikləşmə prosesləri sayəsində ölkəmizdə qadınların fəaliyyəti daha da genişləndi. Bu gün Azərbaycan qadını cəmiyyətin tam-hüquqlu üzvü olaraq kişilərlə çiyin-çiyinə çalışmaqla müstəqil Azərbaycanımızın gələcəyinin fəal qurucusudur.

Ulu öndər Heydər Əliyevin qadınlara daim diqqət və qayğı göstərməsi isə bu sahədə dövlət siyasətinin işlənib hazırlanması üçün əsaslı zəmin yaratmışdır. Bunun uğurlu nəticəsi ölkə başçısının 14 yanvar 1998-ci il tarixli fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması olmuşdur. 2000-ci il martın 6-da «Dövlət idarəetmə orqanlarında qadınların bərabər təmsil olmaları haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı respublika qadınlarına dövlət qayğısının böyük təzahürü idi. Fərman qadınların kişilərlə hüquq bərabərliyinin, xüsusilə onların dövlət idarəçiliyi sistemində yüksək səviyyədə təmsil olunmasının əməli surətdə təmin edilməsi məqsədi daşıyırdı.

Milli dövlət quruculuğunun bütün sahələrində xüsusi xidmətləri olan Azərbaycan qadını bu gün də qaynar ictimai proseslərin fəal iştirakçısıdır. O, ölkəmizdə vətəndaş həmrəyliyi və dövlətçiliyimizin daha da gücləndirilməsi uğrunda mübarizənin ön sıralarında gedir, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, yaşadılması və mədəni potensialın zənginləşdirilməsi naminə əzmkarlıq göstərir. Möhtərəm Prezidentimiz İlham Əliyevin söylədiyi kimi: «Elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qazandığı nailiyyətlər Azərbaycan qadınının çox böyük potensiala malik olduğunu təsdiq edir».

Bizim qadınları bu gün Şərq aləmində bir nümunə kimi göstərirlər, qəbul edirlər. Vaxtilə Azərbaycanda Misirin səfiri işləyən xanım Cihan Amin Məhəmmədəli ilə görüşlərimiz zamanı ondan soruşanda ki, Azərbaycanda bu müddət ərzində bəyəndiyiniz əsas nə oldu, o mənə cavab vermişdi ki, Azərbaycan qadınının vəziyyəti, səviyyəsi. Eyni zamanda qeyd etmişdi ki, məni Azərbaycan qadını valeh etdi və bu, Şərq aləminə, Şərq qadınına bir nümunədir. Onun bir arzusu da var idi ki, biz təcrübə mübadiləsi aparaq - yəni Misir qadınları bizim qadınlardan öyrənsinlər. Öyrənsinlər ki, müasir Şərq qadını necə olmalıdır. Yaxşı, belə nailiyyətlər əldə olunandan sonra biz indi bunu niyə itirməli, əldən verməliyik! Mövqeyim belədir ki, biz bu nailiyyətlərimizi qoruyub saxlamalıyıq! Bir sözlə, indi yenidən baş örtüyünə qayıtmaq, insanları bu ehkamlara doğru istiqamətləndirmək heç də faydalı iş, addım, əməl deyil! Bu, Azərbaycan qadınının nailiyyətidir və bu nailiyyətimizin dəyərini də bilməli,

qiymətləndirməliyik. Bir sözlə, XXI əsrdə baş örtüyünə qayıtmaq, geriyə - cəhalətə dönüş və qazanılan nailiyyətlərdən imtinadır.

- Gövhər xanım, Azərbaycanda dini durumu süni şəkildə gərginləşdirməyə uğursuz cəhdlər göstərildiyi bir dönəmdə bəzi xarici dövlətlərin, xüsusən də İranın təmsilçilərinin ölkəmizin daxili işlərinə aşkar və kobud müdaxiləsi müşahidə olunur. Bu kimi bədnam addımları necə qiymətləndirirsiniz?

- Böyük təəssüf hissi ilə qeyd edirəm ki, müasir İranın həm daxili, həm xarici siyasəti ikili standartlar, bəzən isə hətta riyakarlıq üzərində qurulub! Məlum olduğu kimi, İran İslam Respublikası çoxmillətli ölkədir. Burada böyüklü-kiçikli 80-dən çox xalq yaşayır ki, bunlar dil, milli kimlik, tarix, ənənə və bəziləri hətta dini məzhəb cəhətdən biri digərindən, o cümlədən farslardan fərqli olsa da, onların hamısı «iranlı» və ya «İran milləti» adlandırılır. Farslardan əlavə, bu ölkədə 30-35 milyon Azərbaycan türkü, 5 milyondan çox kürd, 3-4 milyon ərəb, bəluc, mazandaranlı, gilək, talış, türkmən və s. millətlər yaşayır. Iran əhalisinin böyük əksəriyyətini təşkil edən bu xalqların öz ana dilində bir məktəbi belə yoxdur. Halbuki ölkənin Əsas Qanununun 14-cü maddəsində aydın yazılıb: «İran xalqı hansı etnik qrup (qövm), qəbilədən olmasından asılı olmayaraq, bərabər hüquqa malikdir, rəng, irq, dil və bu kimi amillər kimsəyə üstünlük (imtiyaz) vermir».

Ermənilərdən başqa, - onların sayı 120-150 min arasında göstərilir, qeyri-müsəlmanlar təqib olunur, onlara qarşı həbs və zorakılıqlardan belə çəkinilmir. Milli, dini və məzhəb ayrı-seçkiliyi ölkənin dövlət siyasətinin mühüm tərkib hissəsidir.

Rəsmi Tehran Əsas Qanunun 11-ci maddəsini də - «Bütün müsəlmanlar bir ümmətdir və İran İslam Cümhuriyyəti öz ümumi siyasətini islam xalqlarının birlik, vəhdət və həmrəyliyi əsasında qurmağa, islam dünyasında siyasi, iqtisadi və mədəni vəhdətin gerçəkləşməsi üçün ardıcıl səy göstərməyə borcludur» - prinsipini də kobud surətdə pozur. Halbuki müsəlman Azərbaycan Respublikasına qarşı düşmən olan, onun ərazisinin 20 faizini işğal edən, 1 milyona qədər azərbaycanlını öz doğma yurdundan qaçqın və köçkün salan ermənilərə qonşu İran İslam Respublikasında geniş meydan verilib. Onlara 30-dan çox məktəbdə ana dilində təhsil almaq şəraiti yaradılıb. İsfahan və Tehran universitetlərində erməni dilində fakültələr fəaliyyət göstərir. Azərbaycanın tarixi, ədəbiyyatı, milli varlığı əleyhinə erməni müəlliflərinin çoxsaylı kitab, dərgi və qəzetlərinin çapına icazə verilib.

İran nəşriyyatları türk dünyası, o cümlədən Azərbaycan əleyhinə yazılmış erməni müəlliflərinin əsərlərini məmnuniyyətlə çap etdikləri halda, azərbaycanlı müəlliflərin milli ruhlu yazıları basqılara məruz qalır. Qara Kilsə adlanan

Güney Azərbaycanın qərb bölgəsindəki yerdə erməni keşişinin «tarixi» qəbri İran və dünya ermənilər tərəfindən hər ilin iyun ayının 24-də təntənəli ziyarət olunduğu halda, Azərbaycan xalqının milli qəhrəmanı Babəkin adını daşıyan «Babək qalası»na ziyarətə getmək, orada kütləvi görüşlər keçirmək artıq neçə ildir yasaq olunub, buna təşəbbüs göstərənlər isə təqib olunurlar. BMT tərəfindən elan olunmuş «Ana dili günü»nün Güney Azərbaycanda və digər qeyri-fars əyalətlərində qeyd olunmasına icazə verilmir. Təbrizdə, Urmiyada, Ərdəbildə azərbaycanlılar tərəfindən çap olunan dərgi və qəzetlərin redaksiyaları bağlanmış, yazarlarından bir qismi həbs olunmuş və ya böyük məbləğdə cərimələnmişlər. Mədəni və milli hüquqlarını tələb edən azərbaycanlı fəallar təqib edilir və qondarma ittihamlarla həbs olunur, işgəncələrə məruz qalır, edama məhkum edilirlər.

Məlumdur ki, ermənilərlə farsların etnik yaxınlıqları barədə uydurmaların bünövrəsi hələ Pəhləvilər şahlıq taxtına çıxan vaxtdan - 1925-ci ildən qoyulub. Hazırda İrandakı siyasi mühitdən və Qarabağ münaqişəsi ilə bağlı İran-Ermənistan münasibətlərindəki durumdan istifadə edən iranlı ermənilərin üzdəniraq tarixçiləri və onları xaricdən həvəsləndirənlər ermənilərin qədimdən iranlılarla, yəni farslarla birköklü qardaş, ən uzağı «əmioğlu» olduqlarını sübut etmək üçün yeni-yeni saxta mənbələrə istinad edib kitab yazır, çap etdirirlər. Belə kitablardan biri də 2006-cı ildə Tehrandakı «Diba» nəşriyyatında nəfis şəkildə 2000 nüsxə ilə çap edilmiş müəllif Andranik Hoyanın 242 səhifəlik «İranlılarla ermənilərin mədəni əlaqələri» adlı kitabıdır.

- Onu da unutmayaq ki, İslam prinsiplərinə və müqəddəs kitabımız Qurani-Kərimin buyurduğu ehkamlara heç müasir İranda çox zaman əməl olunmur. İndi bu dairələrin hansısa insan hüquqlarının pozulmasından danışmağa mənəvi haqları varmı?

- Tamamilə doğru buyurursunuz, bu gün İranda İslam dəyərlərinə və Qurani-Kərimin tələblərinə yanaşma sırf simvolik xarakter daşıyır. Təəssüf ki, bu ölkədə bəzi dairələr İslam dinindən yalnız öz şəxsi məqsədləri üçün istifadə edirlər. İnsan azadlığı və insan hüquqları «islam» pərdəsi altında tapdalanır. XXI əsrdə qadınları şallaqlayan, daş-qalaq edən, dar ağacından asan dairələr hansı insan hüquqlarından danışır? Ailə, məişət, əxlaq və davranış məsələlərində zorakılıq və haqsızlıq hökm sürür. İran konstitusiyasında insanlara verilmiş yarımçıq hüquqlar belə onların əlindən alınır. Konstitusiyada bərabərlikdən, insan hüquqlarından, insan azadlıqlarından bəhs olunduğu halda, əməldə onlara riayət olunmur. İslam dininin əsasını sülhə, əmin-amanlığa, haqqa, mərhəmətə çağırış təşkil edir. Fəqət indi bunların heç birinə riayət edilmir. İranda yaşayan onlarla xalqa öz dilində yazıb-oxumaq, məktəbə getmək

hüququ verən, millətlərin bərabərliyini təsbit edən 15-ci və 19-cu maddələrin icrasına yol verilmir. Allahın verdiyi ana dilində təhsil almaq hüququ hər bir insanın əzəli haqqıdır.

Özünü Azərbaycanın «dostu» və «din qardaşı» adlandıran İran Azərbaycanın ərazi bütövlüyünü «tanısa» da, İslam Konfransı Təşkilatı və onun Parlament İttifaqında təcavüzkar Ermənistanı qınayan, Azərbaycanın işğal olunmuş ərazilərində müqəddəs islam abidələrinin və məscidlərinin dağıdılmasını pisləyən, üzv dövlətləri işğalçı Ermənistanla bütün əlaqələri kəsməyə çağıran qərar və qətnamələrə səs versə də, həqiqətdə daim Ermənistana hərtərəfli dəstək verir, ərzaqdan tutmuş neft və qaza qədər bütün zəruri tələblərlə təmin edir. Son 20 ildə bu iki dövlət arasında salınmış körpülər, yollar, tunellər İranın Ermənistana yolladıqlarını mənzil başına tez çatdırmaq üçün təcavüzkar dövlətə mərhəmət və qayğının misalıdır. İranın statistikasında da rəsmən göstərilir ki, İran-Ermənistan ticarət dövriyyəsi ilbəil artır. Cari ilin sonuna qədər bu dövriyyəni 1 mlrd. dollara çatdırmaq nəzərdə tutulub.

Ulu öndərimiz Heydər Əliyev Şərqi Azərbaycan ostanının valisini qəbul edərkən dediyi sözlər İranın Ermənistana necə dəstək verdiyinə gözəl misaldır. Heydər Əliyev Ermənistanın sabiq prezidenti Ter-Petrosyanın: «Əgər İran bircə həftə bizə ərzaq göndərməsə İrəvan acından ölar», - etirafını xatırlatmışdır.

Qəribə də olsa, İranın istər İslam inqilabından əvvəl, istərsə də sonra elmi, ictimai fikrində, kütləvi informasiya vasitələrində sovet Azərbaycanı, sonra Azərbaycan Respublikası terminlərini işlətməkdən, demək olar ki, imtina edir, müxtəlif yanlış ifadələrə üstünlük verirlər: Qafqaz, Cənubi Qafqaz, Aran, Arazın Şimalı, Azərbaycan əvəzinə Bakı, azərbaycanlılar əvəzinə müsəlmanlar və s. Millətçi ziyalı iranlılar sanki Azərbaycan Respublikası terminini işlətməməklə müstəqil Azərbaycan dövlətinin mövcud olmadığına özlərini inandırmaq istəyirlər. Həqiqət isə bundan ibarətdir ki, İran KİV-nin məqalələrində və qərəzli elmi araşdırmalarda «Azərbaycan Respublikası» ifadəsinə qısqanclıqla yanaşılsa da, iranlılar belə bir dövlətin mövcud olduğunu, daim inkişaf etdiyi və qüdrətləndiyini yaxşı bilirlər. Məhz Azərbaycan Respublikasının artan qüdrəti və nüfuzunu gözü götürməyənlər onun İranla münasibətlərini gərginləşdirmək yolunda hər təxribata əl atırlar.

Müsahibəni apardı: İxtiyar Hüseynli,
«Azərbaycan» qəzeti, 14 fevral 2011-ci il.

GÖVHƏR BAXŞƏLİYEVA: «ERMƏNİ SAXTAKARLIQLARINI İFŞA ETMƏK ALİMLƏRİMİZİN MÜQƏDDƏS BORCUDUR»

Millət vəkili, professor **Gövhər Baxşəliyevanın** Gün.Az-a müsahibəsi:

- Gövhər xanım, Dağlıq Qarabağ probleminin, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə, xüsusilə, elmi, siyasi dairələrə çatdırılması istiqamətində rəhbərlik etdiyiniz İnstitut hansı işləri görür?

- Əvvəla qeyd edim ki, uzun illərdən bəri ərazi bütövlüyünü bərpa etmək uğrunda mübarizə aparan xalqımızın haqq səsini daha da ucaltmaq, tarixi gerçəklikləri bütün dünyaya bəyan etmək, danılmaz tarixi həqiqətləri məqsədyönlü şəkildə təhrif edərək, öz xalqına başdan-ayağa saxta tarix yazan erməni «alimlərinin» saxtakarlıqlarını durmadan ifşa etmək hər bir azərbaycanlının və ilk növbədə alimlərimizin müqəddəs borcudur.

Bu sahədə Azərbaycan alimləri tərəfindən xeyli faydalı iş görülüb, tədqiqatlar aparılıb, monoqrafiyalar və kitablar yazılaraq, nəşr edilib və edilməkdədir. Bu istiqamətdə növbəti layihəni isə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun qrant şəklində maliyyə dəstəyi ilə mən özüm reallaşdırıram.

Bu layihə də «Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən orta əsrlər və yeni dövr xəritələrinin axtarışı və surətlərinin ölkəmizə gətirilməsi» adlanır...

- Həmin layihə üzərində işlərə bəs nə vaxtdan başlanılıb?

- Layihə üzərində işə bu ilin aprel ayından başlanılıb. Layihə çərçivəsində bu ilin 20 iyun -10 iyul tarixlərində İspaniya və Fransaya ezam olunmuş, bu ölkələrin bir sıra kitabxana və arxivlərində axtarışlar aparıb, yüzlərlə qədim xəritə və atlasları nəzərdən keçirərək, 80-dən çox xəritənin surətini çıxarıb, elektron variantını hazırlayıb, çəkilişlər aparmışam.

Xalqımızın tarixi coğrafiyasının öyrənilməsi üçün faydalı olan və Ermənistanın Cənubi Qafqaza gəlmə etnos olduğunu sübut edən bu xəritələr müstəsna əhəmiyyətə malikdir. Gətirilən bir çox mühüm sənədlər sırasında orijinalları Hamburq, Bolonya, Cota, Leyden, Paris, London, Berlin və Vyanada saxlanılan qədim ərəb və fars əlyazmaları var ki, bunlarda Azərbaycana aid xəritələrin və onların Avropa alimləri tərəfindən hazırlanmış transkripsiyalarının fotosurətləri əks olunub.

X-XIII əsrin birinci yarısında tərtib olunan bu xəritələr Azərbaycanın tarixi əraziləri haqqında həqiqəti olduğu kimi əks etdirir. Məsələn, onlardan birində Azərbaycan əraziləri şimalda Bəbul-əbvabdan («Dərbənd») bir qədər də

yuxarıyadək torpaqları, cənubda indiki Cənubi Azərbaycan ərazisini və ondan daha cənubda yerləşən Ərməniyyə vilayətinin, əl-kəbir (böyük) və əl-sağır (kiçik) daxil olmaqla, böyük hissəsini əhatə edir (Balxi, Hamburq nüsxəsi).

Xəritədə Azərbaycan ərazisinə Dərbənd, Şabran, Şəki, Qəbələ, Şəmkir, Gəncə, Bərdə, Bərzənd, Əhər, Ərdəbil, Mərənd, Marağa, Təbriz, Səlmas, Xoy, Hilat, Bidlis, Miyanə və sair şəhərlər daxildir. Xəritədə aydın görünür ki, «böyük» və «kiçik» Ərməniyyə tarixi Azərbaycan torpaqlarından cənubda yerləşib və yer adından başqa bir şey deyil. Beləliklə, bu xəritə bir daha təsdiq edir ki, erməni təbliğatının dənizdən-dənizə «Böyük Ermənistan» xülyası böyük yalandan başqa bir şey deyil.

Gətirilmiş sənədlər ermənilərin Cənubi Qafqaza gəlmə etnos olduğunu, Fərat çayının yuxarılarında qədim Assuriya və Mesopotamiya ilə sərhəddə məskunlaşdığını və zaman-zaman indiki Türkiyə və İranın ərazisinə köç etdiklərini əyani şəkildə nümayiş etdirir. 1918-ci ilədək Cənubi Qafqaz ərazisində heç bir erməni dövləti olmayıb. Bu, tarixi reallıqdır və əldə edilmiş yeni xəritələr bunu bir daha təsdiq edir.

Azərbaycan xalqının əcdadları hələ eramızdan əvvəl Arazdan şimalda, Dağlıq Qarabağ da daxil olmaqla, Albaniya, cənubda isə Manna və Atropatena kimi dövlətlər yaradıblar. Bu dövlətlər süqut etdikdən sonra da həmin ərazilərdə müxtəlif Azərbaycan dövlətləri yaranmış və xalqımız öz tarixi torpaqlarında kompakt şəkildə yaşamağa davam edib. Bunu əldə edilmiş xəritələrdə çoxsaylı Azərbaycan toponimlərinin əks olunması bir daha sübut edir.

Yalnız XIX əsrin əvvəllərindən Rusiya imperiyasının regionda apardığı məqsədyönlü siyasət nəticəsində Cənubi Qafqaza Türkiyədən və İrandan ermənilərin kütləvi köçürülməsi başlandı və beləliklə də, Cənubi Qafqazda erməni dövlətinin yaradılmasının əsası qoyuldu.

Xalqımızı öz tarixi torpaqlarından məhrum etmək və bu torpaqları ermənilərlə məskunlaşdırmaq məqsədi ilə erməni millətçiləri tərəfindən xalqımıza qarşı zaman-zaman deportasiyalar və qətliamlar həyata keçirildi, boşaldılmış tarixi Azərbaycan ərazilərinin adları isə ermənileşdirildi. Hazırda Ermənistan Respublikası adlanan ərazinin tarixi Azərbaycan torpaqları olduğu və burada xalqımıza məxsus toponimlərin tarixin yaddaşına möhkəm həkk olunduğu əldə edilmiş xəritələrdə tutarlı dəlillərlə əyani şəkildə bir daha təsdiq edilir.

Surətləri gətirilən xəritələr müxtəlif dövrlərdə və regionlarda tərtib edilib. Burada qədim Şərq alim, tarixçi və səyyahları Balxi, İstaxri, Müqəddəsi, Əhməd əl-Tus, İbn Səid, Nəsrəddin Tusi və sair müəlliflərin tərtib etdiyi xəritələr vardır.

XV-XVII əsrlər Avropa alim, səyyah və xəritəşünasların tərtib etdiyi

xəritələr də çox mühüm əhəmiyyətə malikdir. Abraham Orteliusun 1570 və 1606-cı illərdə çap olunmuş Avropa xəritələri, Georq Sansonun 1669-cu ilə aid, Guiljelmo Blacuvun isə üzərində tarixi əks olunmayan Asiya qitəsinə aid xəritələri, Rofellenin 1506-cı il tarixli Yer kürəsi xəritəsi, naməlum müəllifin 1529-cu ildə hazırladığı və Avropa, Asiya və Afrikanı əhatə edən xəritəsi, Stalpartidin Antverpendə nəşr etdiyi dünya xəritəsi, 1562-ci ildə İenkensononun yaratdığı Rusiya, Moskoviya və Tartariya xəritəsi, həmçinin 1482-ci ildə Florensiyada Françesko Berlingierinin tərtib etdiyi xəritə və digər naməlum müəlliflərin əsərləri bu qəbildəndir.

Sonrakı dövr Avropa xəritəşünaslarının tərtib və nəşr etdirdikləri xəritələr də erməni təbliğatının yalan üzərində qurulduğunu sübut edir. XVIII-XIX əsrlərə aid bu xəritələrdən Qafqazın 1877-ci ildə tərtib edilmiş xəritəsi (Qota, Almaniya), Petermannın hazırladığı Qafqazın fiziki-coğrafi xəritəsi, Kiepertin 1854-cü ildə Berlində nəşr etdirdiyi Qafqaz ərazilərinin xəritəsi, eləcə də Gilyermo del İslenin, Sansonun, Fridrix de Vitin, Antonio Zatta və digərlərinin xəritələri Azərbaycan həqiqətlərini təsdiqləyən tarixi sənədlərdir.

Görkəmli fransız xəritəşünası Alfons Taridin müxtəlif illərdə nəşr etdirdiyi Qafqaza və Osmanlı imperiyasına aid xəritələri xüsusi əhəmiyyətə malikdir. Digər xəritələr qrupunu isə çar Rusiyası zamanı hərbi topoqrafik depoda və Əlahiddə Qafqaz Korpusunun baş qərargahı nəzdində tərtib edilmiş və İmperator Rus Coğrafiya Cəmiyyəti tərəfindən müxtəlif illərdə nəşr edilmiş Qafqaz və onun müxtəlif quberniya və uyezdlərini əks etdirən xəritələr təşkil edir.

Bunlardan əlavə, İstanbul Baş Bakanlığı arxivindən Qafqaza aid Osmanlı xəritələrinin gətirilməsi də xalqımızın tarixi keçmişinin öyrənilməsi üçün mühüm əhəmiyyət daşıyır. XVII-XIX əsrin əvvəllərinə aid bu xəritələrdə Azərbaycanın tarixi coğrafiyası olduqca düzgün, obyektiv və dolğun əks olunub. Məsələn, xəritələrdən ikisində İrəvan şəhəri öz ilkin adına müvafiq olaraq Rəvan variantında verilib. Tarixdən məlumdur ki, bu şəhər məhz yarandığı dövrdən Rəvan adlanıb və sonradan buraya gəlmiş ermənilər tərəfindən adı dəyişdirilərək hazırkı variantını alıb.

Bütün bu xəritələr Azərbaycanın ərazi bütövlüyünü təsdiqləməklə, erməni uydurmalarını ifşa etməklə yanaşı, bunun Qərbdə və Şərqdə ötən əsrlərdə xəritəşünas alimlər tərəfindən şəksiz qəbul edildiyini tam olaraq sübuta yetirir.

- Gövhər xanım, xəritələrlə tanış olarkən orada daha maraqlı bir nüansa rast gəlmək olur ki, bu da «Tiqranakert» adlanan ərazi ilə bağlıdır...

- Bu, olduqca maraqlı, əhəmiyyətli xəritədir. 1785-ci ildə venesiyalı xəritəşünas Antonio Jakler tərəfindən tərtib olunub. Amma bu Böyük İsgəndərin imperiyasına – eramızdan əvvəl 4-cü əsrə aiddir.

Eramızdan əvvəl 4-cü əsrdə baxın görün Ermənistan harada yerləşirdi. Xəritədə qırmızı xətlə İsgəndərin imperiyasının sərhədləri göstərilib. Ermənilər hər zaman olduğu kimi, saxtakarlıq edirlər, götürüb həmin o imperiyanın sərhədlərinin müəyyən hissəsini verirlər və iddia edirlər ki, bu, elə Ermənistan sərhədidir, guya gəlib çıxır Qafqaza. Halbuki belə deyil.

Baxın, Eyşa Mayna - Kiçik Asiya, yanında Armeniya Mayna- Kiçik Ermənistan, ya Ərməniyyə götürək və Armeniya Meyca –«Böyük Ermənistan». Yəni, bunlar nə deməkdir? O deməkdir ki, bu, dövlət adı deyil, bunlar, yer adlarıdır. Onlar isə saxtakarlıq edirlər, deyirlər ki, elə bu, dövlət adıdır – «Böyük Ermənistan»dır.

Sonra, bunların burada bir şəhəri var, baxın açıq görünür – Tiqranakert. Bunlar elə indi - bizim zamanımızda bu Tiqranakerti gətirib Əsgəranа çıxarırlar. Elə keçən ay belə bir məlumat yayıldı ki, Dağlıq Qarabağda gənclər arasında «Artsaxın» tarixi üzrə müsabiqə elan olunub - burada da gənc ermənilər iştirak edirlər, hələ mükafat da alırlar - onlara verilən suallardan biri məhz bu Tiqranakertin guya indiki Əsgəran şəhərində yerləşməsi ilə bağlıdır. Guya bunlar orada qazıntılar aparırlar və Əsgəranda Tiqranakertin qalıqların tapırlar. Halbuki sizin də qeyd etdiyiniz xəritədən aydın görünür ki, Tiqranakert harada yerləşir. Bu, faktdır, bunu tarixdən artıq silmək olmaz.

Ruslarda bir söz, əlyazmalar yanmırlar, o cümlədən xəritələr də yanmırlar. Məqsədyönlü şəkildə onlar haradasa əllərinə keçənləri məhv edirlər, amma nə qədər ki, hələ belə xəritələr qalıb, biz bunların hamısını toplayıb saxlamalıyıq. Növbəti xəritə Almaniyada tərtib olunmuş qədim xəritədir, baxın görün, iki dəniz - Qara dəniz, Kaspi burada əksini tapıb. Burada Şirvan, Azərbaycan, «Turkamaniya» yazılıb. Ermənilər haradadır, bu, yoxdur. Yuxarıda da qeyd etdiyim kimi, tarixdən artıq məlumdur ki, bunlar Fərat çayının yuxarılarında yaşayıblar və zaman-zaman şimala doğru gediblər, beləliklə, sonrakı əsrlərdə - 17-18-ci əsrlərdə bunların bir qismi İranda, bir qismi Türkiyədə yerləşiblər.

Amma əvvəlki yerlərində də qalıblar. Məsələn, bu gün Suriyada çoxlu erməni var. Hansı ermənilərdi? Həmin o ermənilərin nəvə-nəticələridir...

Bu sonrakı əsrləri əks etdirən xəritədir, fransızca tərtib olunub. Burada bütün toponimlər tarixi Azərbaycan toponimləridir – Ağrıdağ, Qəndil, Aladil və ilaxır. Burada Göycə gölü var. Göycə gölü bütün xəritələrdə ilk olaraq Göyçə gölü kimi işlənir. Sevanın adı yoxdur xəritələrdə. 18-ci əsrə doğru yazılıb Göycə ya Sevan. Yəni, sonradan Sevanlaşdırılıb. Ancaq bunun ilkin adı Göycə gölüdür.

Növbəti xəritə yenə bir az öncə adını çəkdiyim görkəmli kartoqraf Abra-

ham Ortelius tərəfindən 1570-ci ildə tərtib olunub. Bu xəritədə Bakı var, Dərbənd var, Ermənistan yoxdur, ya da «Turkamaniya» var. «Turkamaniya» da türklər diyarı deməkdir. Qədim xəritələrdə öz əksini tapıb Midiya və «Turkamaniya».

Növbəti xəritələri bayaq dediyim kimi, Osmanlı arxivindən gətirmişəm. Bunlar Şərqi Anadolu və Kafkaziya aid xəritədir, Osmanlı vaxtında osmanlılar tərəfindən tərtib olunub. Bu xəritələrdəki bütün toponimlərlə tanış olsanız, oxusanız görəcəksiniz ki, bu, Göycə gölüdür, bu, Qara dəniz, bu, Xəzər dənizidir. Hansı ki, bu, osmanlıca yazılmış xəritədir, bunları ərəb dilini bilən oxuya bilir.

Sual olunar, bu xəritələrin önəmi nədədir? Bu xəritələrdə - bir qədər əvvəl qısaca bəhs etmişdim – «İrəvan» ilkin variantda Rəvan kimi yazılıb, yəni, ilkin dövrlərdə Rəvan şəhəri olub, İrəvan olmayıb. Yəni, bunlar hamısı danılmaz faktlardır ki, ermənilərin Cənubi Qafqaza 1828-ci ilədək aidiyyəti olmayıb.

Ola bilər, tək-tük erməni yaşayıb, hər millətdən yaşaya bilər, amma onlar kompakt şəkildə burada yaşamayıblar. Ermənilərin 1828-ci ildən sonra bu ərazilərə kütləvi köçürülmələri başladı və Rusiya imperiyası İrəvan quberniyası, İrəvan xanlığı torpaqlarında, Naxçıvan xanlığı torpaqlarında onlara «Armyanskaya oblast» – erməni vilayəti yaratdı. Sonradan da -1918-ci ildə də Ermənistan Respublikası yaradıldı.

Digər qisim xəritələr çar Rusiyası dövründə əlahiddə Qafqaz Korpusunun baş qərargahı tərəfindən tərtib olunub. Qədim - o vaxtkı rus əlifbası ilə yazılıb və bunlarda da bütün Azərbaycan toponimləri, bütün bizim keçmiş xanlıqlar, sonrakı quberniyalar – İrəvan quberniyası, Yelizavetpol quberniyası, Bakı quberniyası, ümumiyyətlə, Naxçıvanda Şəruru - Dərələyaz, Yenə Bəyazid, digər uyezdlərin hamısı öz əksini tapıb.

Məsələn, almanca tərtib olunmuş xəritədə - Pyersesin xəritəsində Göycə hətta dəniz kimi yazılıb. Çökəklik, Zeyvə, Ağcaağ, Şatunağ, Ağbaş, Ulucanlı – hamısı almanca yazılıb, Hamarlı, Alagöz, Molla Qasım, Şatunlu, Nal təpə və sair. Sonra Qarabağın ayrıca xəritəsi var, gətirmişəm. Yenə də almanca tərtib olunub. Orada Zəngibasarda öz əksini tapıb, Ağbaş, İkiçilə, Ozanlılar. Zəngəzurun xəritəsi var. Şuşa, Qarabağ... Təbii ki, hamısında da - Qarabağ hissəsində Şuşa, yuxarıda Xankəndi yüzdə-yüz əksini tapıb. Qarabulaq, Əsgəran, Şahbulaq, Kiçikbulaq, Böyük Vedi, Kiçik Vedi, Alagöz dağı, Ağrı dağı və sair. Artıq burada quberniyalara, quberniyalar uyezdlərə, uyezdlər uçastkalara bölünüb.

- Xəritələrlə bağlı axtarışlar, araşdırmalar davam etdiriləcəkmi?

- Bu iş davam edəcək və digər ölkələrə də səfərimiz gözlənilir. Hansı

ölkələr nəzərdə tutulub onlar haqqında indi məlumat vermək istəmirəm və ehtiyat edirəm ki, ermənilər buna maneçiliklər törədərlər, xəritələrlə bağlı araşdırmalarımıza əngəllər yaradarlar. Amma bu xəritələri tam toplayandan sonra onları nəfis şəkildə, yəni, Azərbaycanın tarixi coğrafiyasına aid bir atlas tərtib edib çap etdirmək fikrindəyik.

- Bu nə vaxta nəzərdə tutulur?

- Bilirsiniz, layihəmiz bu ilin aprelindən gələn ilin aprelinədək nəzərdə tutulub. Atlasa gəlincə, onu çap etmək asan məsələ olmayacaq. Nəyə görə? Çünki bəzi xəritələr köhnədir, hərflər tam görünmür. Biz gərək onları oxunaqlı vəziyyətə gətirək, onların üzərində rəssamlar yaxşı işləməlidir, hər şey aydınlaşdırmalıdır. Yəni, mən bu ilin axırınacan təhvil verəcəyəm. Amma mətbəədən nə vaxt çıxacaq, o bir qədər çəkər. Yəqin 2012-ci ildə artıq o atlas işıq üzü görər.

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
Gün.az. 16 sentyabr 2011-ci il.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV MÜSTƏQİLLİYİMİZ ÜÇÜN TƏHLÜKƏ TÖRƏDƏN AMİLLƏRİ ARADAN QALDIRARAQ ONU DÖNMƏZ VƏ ƏBƏDİ ETMİŞDİR

Gövhər Baxşəliyeva: «Ulu öndərin layiqli davamçısı cənab İlham Əliyevin 2003-cü ildən ölkəyə rəhbərliyi dövründə əldə olunan nailiyyətlər, iqtisadi uğurlar Azərbaycanı həyatın müxtəlif sferalarında dünya miqyasında aparıcı mövqelərə çıxartdı»

Məlum olduğu kimi, bu il Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsinin 20-ci ildönümü tamam olur. Prezident İlham Əliyevin Sərəncamına əsasən, bununla bağlı dövlət səviyyəsində müxtəlif tədbirlər həyata keçirilməkdədir. «Yeni Azərbaycan» qəzeti olaraq, biz də müstəqilliyimizin ildönümü ilə əlaqədar bir sıra layihələr icra etməkdəyik. Bu istiqamətdə həyata keçirdiyimiz rubrikalarımızdan biri isə «Bu mənim mövqeyimdir» adlanır. Bu rubrikada Azərbaycanın görkəmli elm adamlarının, cəmiyyətdə nüfuzu olan ictimai, siyasi xadimlərin dövlətimizin müstəqillik tarixi, inkişaf yolu ilə bağlı fikirlərini dərc edir, bu şərəfli tarixi fərqli rakurslardan dəyərləndirməyə çalışırıq. Rubrikamızın növbəti qonağı isə millət vəkili, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyevadır.

- Gövhər xanım, 20 il öncə dünyada böyük tarixi əhəmiyyət daşıyan bir hadisə baş verdi və SSRİ kimi böyük bir imperiya süquta uğradı. İmperiyanın süqutunu necə izah edirsiniz? Bu, tarixi zərurət idi, yoxsa, imperiyanın tərkibində yaşayan respublikaların bu prosesdə hansısa rolu oldu? Yəni, bu, tarixi hadisələrin nəticəsində baş vermiş olay idi?

- Hesab edirəm ki, Sovet İttifaqının süqutu tarixi zərurət, qanunauyğun, obyektiv tarixi proseslərin nəticəsi idi. Gec-tez bu, baş verməli idi. Tarixdən məlumdur ki, böyük imperiyalar həmişə idarəolunmaz hala gəlir. Yarandıqdan bir qədər sonra dağılır. Məsələn, Böyük İsgəndərin imperiyasından bu yana Ərəb xilafətını, Osmanlı imperiyasını və digər imperiyaları xatırlamaq olar. Doğrudur, sovet imperiyasına daxil olan 15 respublikadan əksəriyyəti müstəqillik arzusu ilə yaşayırdı. Lakin sovet hakimiyyətinin rəhbərliyindən narazı xalqların etirazlarının qarşısı zor gücünə alınır, müstəqil düşüncəli insanların səsləri boğulurdu. O vaxtkı şəraitdə bu istiqamətdə mübarizə aparmaq çox çətin idi. Lakin dövlətin bu cür idarə edilməsi çox uzun müddət davam edə bilməzdi. Digər imperiyalar kimi Sovet İttifaqının da dağılması qaçılmaz idi. Şükürlər olsun, 70 ildən artıq yaşadıqdan sonra SSRİ rəhbərliyində baş verən hadisələr ölkənin süqutunu sürətləndirdi ki, bunun da nəticəsində imperiyaya

daxil olan respublikalar müstəqillik əldə etdilər.

- Bəs necə oldu ki, Azərbaycan digər keçmiş sovet respublikalarından fərqli olaraq, bu prosesi daha ağır, çətin və daha çox itki ilə başa vurdu?

- Bilirsiniz ki, o zaman Azərbaycana mərkəzin münasibəti birmənalı deyildi. Bir yandan sərvətləri ilə zənginliyi, digər tərəfdən insanların qəlbində müstəqillik arzusunun yaşaması və ən əsası da Sovet İttifaqını idarə edənlərin xalqımıza qarşı milli, dini baxımdan fərq qoyması ayrıseçkilik münasibətinin yaranmasını şərtləndirirdi. Tarixən də məlumdur ki, Azərbaycanın mühüm geostrateji mövqeyi və zəngin təbii sərvətləri daim yadelli işğalçıları cəlb edib. Ancaq xalqımız daim azadlıq uğrunda mübarizə aparıb. Sovet İttifaqı dağılanda da bir yandan SSRİ rəhbərliyinin Azərbaycan xalqının müstəqillik istəklərindən ehtiyatlanması, digər tərəfdən isə xalqımıza qarşı olan qərəzli münasibəti ölkəmizdə bu proseslərin ağır keçməsinə, qan tökülməsinə, böyük itkilərin verilməsinə səbəb oldu.

Bütün bunları həyata keçirmək üçünsə, ilk növbədə həmin proseslərin qarşısını ala biləcək, məhz öncəki illərdə Azərbaycan xalqına qarşı hər hansı təxribatların qarşısını cəsarətlə almış bir insan - Ulu öndər Heydər Əliyev Sovet rəhbərliyindən düşünülmüş şəkildə uzaqlaşdırıldı. Məhz bundan sonra Azərbaycana qarşı istənilən təxribatları həyata keçirmək mümkün oldu.

SSRİ-nin dağılması nəticəsində iqtisadi böhran, ərazilərin itirilməsi, qaçqın, köçkün ordusunun yaranması Azərbaycanın inkişafına, iqtisadi-siyasi durumuna mənfi təsir göstərdi. Ölkəyə səriştəsiz insanların rəhbərlik etməsi həm iqtisadi, həm də siyasi böhran şəraitində müstəqilliyimizin, dövlətimizin mövcudluğunu belə sual altında qoymuşdu.

- 1993-cü ilin iyunundan sonra Azərbaycanda ciddi dəyişikliklər baş verdi. İstər siyasi, istər iqtisadi, istərsə də sosial sferalarda böyük inqilabi dəyişikliklər yarandı. Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi nə anlam daşıyırdı və bu tarixi hadisə ölkəmizdə nələri dəyişdirdi?

- Azərbaycan xalqı, ilk növbədə lider qazandı - uzun illər respublikamızı idarə etmiş, əməyi sayəsində özünü təsdiqləmiş, daim xalqın uğuruna çalışmış, xalqımızı çox çətin bir dövrdə ağır bəlalardan qurtaran, millətin gələcəyini, dövlətçiliyin təməlini quran, siyasi sabitliyi, əmin-amanlığı təmin edən, gələcək iqtisadi inkişafın əsasını qoyan bir lideri. Ulu öndər Heydər Əliyevin bu amallar uğrunda hələ sovetlər dönəmində respublikamıza rəhbərlik etdiyi vaxtlarda da böyük xidmətləri olmuşdu. Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, Naxçıvanski adına hərbi liseyin yaradılması, ölkədə müstəqil sosial-iqtisadi infrastrukturun yaradılması və inkişafı, istehsal müəssisələrinin artırılması gələcək müstəqilliyin təməlini qoyurdu. Ulu öndər özü də deyirdi ki,

dili, ordusu olan bir ölkə, iqtisadiyyatı güclü olan dövlət müstəqil sayılır.

Biz tariximizin bütün anlarını yadda saxlamalıyıq. Unutmayaq ki, xalqımızın azadlıq və milli istiqlal uğrunda mübarizə tarixi şanlı və şərəfli olduğu qədər də faciəvi olub. Faciəvi olub ona görə ki, zaman-zaman tarixi şəraitin diktəsi və xalqın azadlıq ruhunun hökmü ilə milli haqlarımız uğrunda gedən mücadilələr son nəticədə məğlubiyyətə uğramış, ata-babalarımızın müstəqillik arzuları yadelli işğalçılar tərəfindən qan içində boğulmuşdur. Ən ibrətamiz və təəssüfləndirici hal odur ki, bu acı məğlubiyyətlərdə obyektiv proseslərlə yanaşı, subyektiv amillərin də ciddi təsiri olmuşdur. Daxili çəkişmələr və münaqişələr, regional və sinfi maraqların milli mənafelərdən üstün tutulması, ən başlıcası xalqın bütün təbəqələrini vahid məqsəd ətrafında birləşdirməyi bacaran Ümummilli liderin olmaması məhz bu cür subyektiv amillərdəndir ki, xarici müdaxiləyə meydan açmış, milli müstəqillik üçün yaranmış tarixi şansın gerçəkləşməsinə imkan verməmişdir. Bunu XVIII əsrdə - bütün dünyada milli dövlətlərin formalaşması prosesinin getdiyi bir zamanda Azərbaycanın xanlıqlara parçalanması faktı da təsdiq edir, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşadıqdan sonra süquta uğraması da.

XX əsrin sonunda xalqımızın milli istiqlala qovuşması üçün növbəti tarixi şərait yarandı. 1988-ci ildən vüsət alan xalq hərəkatı Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi, xalq hərəkatının içərisindən çıxmış siyasi qüvvələrin hakimiyyətə gəlməsi ilə nəticələndi. Lakin bir tərəfdən Ermənistanın torpaqlarımıza təcavüzü, digər tərəfdən isə hakimiyyət təcrübəsi və səriştəsi olmayan qüvvələrin daxili və xarici siyasətdə buraxdığı səhvlər xalqımızı ciddi sınaq qarşısında qoydu. Siyasi didişmələr və silahlı qruplaşmaların mübarizəsi ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxardı. Daxili hərc-mərclik, hakimiyyət orqanlarının iflic vəziyyətə düşməsi yenicə qazanılmış müstəqilliyin itirilməsinə səbəb ola bilərdi. Lakin bu dəfə tarix təkrarlanmadı. Çünki əvvəlki dövrlərdən fərqli olaraq indi xalqın bütün təbəqələrinin inandığı və hörmət bəslədiyi Ümummilli lider, böyük siyasi iradəyə və təcrübəyə malik şəxsiyyət - Heydər Əliyev şəxsiyyəti var idi. Xalqın mütləq əksəriyyətinin, o cümlədən, hakimiyyət nümayəndələrinin təkidli tələbi ilə Bakıya gəlib Ali Sovetin Sədri, daha sonra ölkə Prezidenti seçilən Heydər Əliyev müstəqilliyimizə qarşı yönəlmiş, necə deyərlər, ənənəvi ssenarini pozdu, Azərbaycanın hansısa xarici qüvvələrin əlində oyuncağa çevrilməsinə imkan vermədi. Bu, çoxəsrlik tariximizdə şəxsiyyətin roluna dair ən bariz nümunə, ən parlaq örnəkdir. 1993-cü ilin son dərəcə gərgin şəraitində möhtərəm Heydər Əliyevin daxili sabitliyi təmin etmək, xarici təzyiqlərin qarşısını almaq və beləliklə, dövlət müstəqilli-

yimizi qoruyub saxlamaq istiqamətində apardığı nəhəng işlər bu gün öz bəhrəsini verir. Biz o günlərin canlı şahidləri olsaq da, həmin dövrdə baş vermiş prosesləri yenidən mənalandırmaq, onların mahiyyətinə daha dərindən varmaq ehtiyacı duyuruq. Möhtərəm Heydər Əliyevin Ali Sovetin Sədri seçilərkən etdiyi çıxışın mətni xüsusi diqqət çəkir. Ötən bu illərdən həmin proqram xarakterli çıxışa nəzər saldıqda görürük ki, Ulu öndərin bütün sonrakı fəaliyyəti o tarixi çıxışdakı müddəaların addım-addım gerçəkləşdirilməsindən ibarətdir. Millət və dövlət qarşısında götürülmüş öhdəliklərə sədaqətin bundan böyük nümunəsini təsəvvür etmək çətindir. Ulu öndər müstəqilliyimiz üçün təhlükə törədən amilləri aradan qaldıraraq onu, öz təbirincə desək, dönməz və əbədi etmişdir. Həmin çıxışda müəyyən edilən digər iki istiqamət - demokratik islahatların həyata keçirilməsi və ərazi bütövlüyünün təmin olunması istiqamətində də ardıcıl işlər görülmüşdür.

Məşhur bir deyimə görə, dağın əzəmətini duymaq və müşahidə etmək üçün ona uzaqdan baxmaq lazımdır. Tarixi hadisələr də belədir. Yeni əsrin zirvəsindən yaxın keçmişə - 1993-cü ildə baş vermiş proseslərə və həmin proseslərin mərkəzində dayanan Ulu öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətinə nəzər saldıqda o dövrün tariximizdə müstəsna yerini və əhəmiyyətini daha dərindən dərk edirik.

Ulu öndərin layiqli davamçısı cənab İlham Əliyevin 2003-cü ildən ölkəyə rəhbərliyi dövründə əldə olunan nailiyyətlər, iqtisadi uğurlar Azərbaycanı həyatın müxtəlif sferalarında dünya miqyasında aparıcı mövqelərə çıxartdı. Məhz möhtərəm Prezident İlham Əliyevin düşünülmüş iqtisadi siyasəti sayəsində Azərbaycan iqtisadi inkişaf tempinə görə ən yüksək yeri tutdu, bütün dünyanı iqtisadi böhran bürüdüyü bir dövrdə həmin böhranı, demək olar ki, hiss etmədən adladı və iqtisadi inkişafını davam etdirdi.

- Məlum olduğu kimi, 1993-cü ilə qədər Azərbaycanda bütün sahələrdə dərin böhran hökm sürürdü. O cümlədən, ideoloji cəhətdən də bir boşluq yaranmışdı. Yeni düşüncə tərzinin yaranması və inkişafı üçün baza qıtlığı mövcud idi. Belə bir şəraitdə Ulu öndərin atdığı addımları necə xarakterizə edərdiniz? Milli-mənəvi dəyərlərin qorunması istiqamətində görülən işləri necə qiymətləndirirsiniz?

- Həqiqətən də, həmin dövrdə Azərbaycan bütün sahələrdə dərin böhran yaşayırdı. Həm iqtisadi, həm siyasi, həm ideoloji cəhətdən ölkəmizin düşdüyü vəziyyət çox acınacaqlı idi və hətta deyərdim ki, müstəqilliyimizin, dövlətçiliyimizin itirilməsi həddində idi. İlk günlərdən Ulu öndər Heydər Əliyev dövlətin bütün sahələrdə siyasətinin prinsiplərini, xarakterini müəyyənləşdirdi və bu xətlə aparılan siyasət də Azərbaycanı böhrandan çıxardı.

Azərbaycanın dünya dövlətləri arasında layiqli, möhkəm yerini tutmasında Ulu öndərin müdrik xarici siyasəti mühüm rol oynadı. Mən bir şərqşünas kimi, ilk növbədə Heydər Əliyevin xarici siyasətindən danışmaq istərdim. Ulu öndər öz xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və s. sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışırdı. Ümummilli lider Heydər Əliyevin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusilə, Türkiyə, İran və s. ölkələrlə münasibətlərdə dahi uzaqgörənlik, müdriklik və mahir davranış həmişə duyulurdu. Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələri ilə bərabərhüquqlu münasibətlər qurulur, regionda yerləşən bütün dövlətlərlə mehriban qonşuluq əlaqələri saxlanılır, bu əlaqələr inkişaf etdirilərək möhkəmləndirilirdi və indiyədək də bu siyasət uğurla davam etdirilir. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda, region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və s. aiddir. Bu və İslam Konfransı Təşkilatına daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib idi. Bütün bu amilləri nəzərə alan Heydər Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

- Elm xadimi kimi 20 illik müstəqillik dövründə Azərbaycan elminin inkişafı ilə bağlı fikirlərinizi bilmək istərdik. Eyni zamanda, Azərbaycan elminin dünyaya inteqrasiyası hansı səviyyədədir?

- Ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından və Elmlər Akademiyası üzvləri ilə, elmi ictimaiyyətlə tarixi görüşündən və bu görüş nəticəsində atdığı addımlardan sonra Elmlər Akademiyası sistemində mövcud olmuş dərin böhran, tənəzzül, hətta iflas proseslərinin qarşısı alındı və necə deyərlər, ölkənin digər sahələrində olduğu kimi, Elmlər Akademiyasında da sabitlik yarandı. Elmin inkişafı, elmi-texniki potensialın güclənməsi, yüksəkixtisaslı elmi kadrların hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində önəmli tədbirlər həyata keçirildi. Ümummilli lider Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına «Milli Elmlər Akademiyası» statusu verildi. Bu tarixi Fərman ölkədə fundamental elmin nailiyyətlərini, Azərbaycan xalqının sosial, iqtisadi, mədəni və mənəvi təşəkkülündə elmin rolunu, ölkənin ictimai-siyasi həyatında nüfuzunu, dövlətin tərəqqisinin təminatçısı olduğunu bir daha təsdiqlədi.

Bütün sahələrdə olduğu kimi, elmə münasibətdə də Heydər Əliyev kursunun layiqli davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyev isə elmdə

islahatlar, elmin inkişaf strategiyası, Elmin İnkişafı Fondunun yaradılması ilə bağlı sərəncamları ilə Azərbaycan elminin günün tələbləri səviyyəsinə yüksəlməsi istiqamətində mühüm addımlar atdı. Ötən illərdə ölkəmizdə alimlərin məvacibləri dəfələrlə artırılıb. Xüsusən də, dövlət başçısının 2005-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının 60 illiyi ilə əlaqədar imzaladığı sərəncamlarla görkəmli alimlərimizə yüksək dövlət mükafatları, elmi adlar, Prezident təqaüdü və mənzillər verilməsini qeyd etmək istərdim. Elmin inkişafına yönəldilən xərclər təxminən 7 dəfə artıb. Azərbaycan Elminin İnkişaf Strategiyası təsdiq olunub, 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiyasının həyata keçirilməsi üçün Dövlət Proqramı qəbul edilib, Elmin İnkişaf Fondu yaradılıb və s. Bütün bunlar göstərir ki, AMEA-ya, Azərbaycan elminə diqqət ilbəil artırılır. Bu il Prezidentimizin AMEA-nın illik hesabat yığıncağındakı iştirakı da elmə dövlət tərəfindən yüksək diqqət və qayğının nümunəsidir. Dövlət başçısının həmin tədbirdə söylədiyi nitqdə Azərbaycan elminə yüksək qiymət verilir, görülən işlərin çox uğurlu və təqdirəlayiq olduğu bildirilir, Azərbaycan elminin gələcəyinə böyük inam bəslənilir.

Elmimizin dünyaya inteqrasiyası məsələsinə gəldikdə isə, bu proses gedir. Bu məsələ 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiyada öz əksini tapıb. Hazırda bu istiqamətdə böyük işlər gedir, mütəmadi beynəlxalq konfrans, simpozium, seminarlar keçirilir. Böyük uğurlar qazanılır. Beynəlxalq jurnallarda məqalələr dərc olunur.

Şərqşünaslıq İnstitutu bu sahədə fəallığı və məhsuldarlığı ilə seçilir. Müstəqillik illərində Şərqşünaslıq İnstitutu əməkdaşlarının nəşr olunmuş 245 kitabından 17-si, 2700 elmi məqaləsindən 365-i xarici ölkələrdə işıq üzü görüb. Keçirilmiş 28 konfransdan 15-i beynəlxalq miqyaslıdır və bu sırada xaricdə təşkil etdiyimiz birgə konfranslar da var. Bunlardan müxtəlif illərdə Bakıda Hollandiyanın Utrext Universiteti ilə birgə keçirdiyimiz «Azərbaycan və qonşu ölkələrdə XX əsrin əvvəllərində ictimai-siyasi fikir və ideoloji reallıqlar» mövzusunda, YUNESKO ilə birgə təşkil etdiyimiz Mirzə Kazım bəyin 200 illiyinə həsr olunmuş beynəlxalq konfransları, «Heydər Əliyev və Şərq», «Yaxın və Orta Şərq: dünəni, bu günü və sabahı», «Şərq xalqlarının Bakı qurultayı-1920: tarix və reallıqlar» və s. mövzuda, həmçinin, Türkiyə Respublikasının 75 illiyinə, Osmanlı dövlətinin yaranmasının 700 illiyinə, böyük İran şairləri Hafiz Şirazi və Sədi Şiraziyə, İranda Məşrutə inqilabının 100 illiyinə, Şeyx Məhəmməd Xiyabani hərəkatının 90 illiyinə həsr olunmuş beynəlxalq konfransları qeyd edə bilərəm. Son zamanlar Rumıniyanın Babeş-Bolya Universiteti ilə sıx əlaqələr qurulub və bu Universitetin Türkologiya və Mərkəzi Asiya Tədqiqatları İnstitutu ilə birgə ötən il Rumıniyanın Kluj-Napoka şəhərində

«Şərq və Qərb arasında dialoq», bu il isə Bakıda «Müasir şərqşünaslığın aktual problemləri» mövzusunda beynəlxalq elmi konfransları uğurla keçirmişik. Bizim, həmçinin, təşkil etdiyimiz 51 seminardan 8-i, 34 simpoziumdan 11-i beynəlxalq səviyyəlidir.

Bu illər ərzində əməkdaşlarımızın xaricdə iştirak etdiyi tədbirlər sırasında 317 konfrans, 47 seminar, 121 simpozium var. Alimlərimiz indiyədək 14 qrant alıb.

İnstitutumuzun hazırda Türkiyə, Almaniya, Hollandiya, Rumıniya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası və s. ölkələrin universitet və elmi mərkəzləri, habelə Türk Tarix Qurumu ilə sıx elmi əlaqələri var. Onlarla ikitərəfli elmi əməkdaşlıq haqqında müqavilələr imzalanıb, şərqşünas alimlərin daha səmərəli elmi fəaliyyətlə məşğul olması təmin edilib. Həmçinin, institut YUNESKO-nun dəstəyi ilə fəaliyyət göstərən Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun Azərbaycan üzrə əlaqələndiricisidir.

Müsahibəni apardı: Nardar Bayramlı,
«Yeni Azərbaycan» qəzeti, 7 oktyabr 2011-ci il.

DÜNYA UŞAQLARIN SİLAHLI MÜNAQİŞƏLƏRƏ VƏ TERROR AKTLARINA MƏRUZ QALMASINI PİSLƏYİR

QADIN PARLAMENTARİLƏRİN BİRİNCİ BEYNƏLXALQ KONFRANSINDA

Xəbər verdiyimiz kimi, Milli Məclisin nümayəndə heyəti bu ilin 17-18 oktyabrında Romada keçirilən Uşaqların və Gənclərin Müdafiəsinə həsr olunmuş qadın parlamentarilərin birinci Dünya Konfransında iştirak etmişdir. Tədbirdə Azərbaycanı Milli Məclis Sədrinin müavini **Gövhər Baxşəliyeva** və deputat Amaliya Pənahova təmsil etmiş, Azərbaycan həqiqətləri barədə danışmış, Ermənistanın təcavüzü nəticəsində azərbaycanlı uşaqların və gənclərin terrora məruz qaldığını, adi insan hüquqlarından məhrum edildiyini dünyanın əksər dövlətlərinin nümayəndələrinin nəzərinə çatdırmışlar. Səfər təəssüratını bölüşmək üçün əməkdaşımız Milli Məclis Sədrinin müavini Gövhər Baxşəliyevaya müraciət etmişdir. O demişdir:

- Tədbirdə 107 ölkənin hər birindən iki deputat iştirak edirdi. Rusiyanın Beslan şəhərində törədilmiş faciənin kiçik qurbanlarının xatirəsinə ithaf olunmuş və BMT-nin dəstəyi ilə baş tutan bu tədbir başlanarkən 20-dək müxtəlif dillərə, dinlərə, irqlərə mənsub uşaqlar gəlib ön sıralarda əyləşdilər, onlardan üçü – ağ, qara və monqoloid irqli uşaq çıxış edərək dünya qadınlarına, parlamentlərinə müraciət etdilər. Uşaqlar həyəcanla danışaraq deyirdilər ki, bizə özünüzün, dünyanın gələcəyi kimi baxın, bizi məhv edənlər öz gələcəklərini məhv edirlər. Ona görə də bizi qorumalısınız, hamılıqla qoşulduğunuz MBT-nin Uşaq Hüquqları Konvensiyasında əks olunan bütün müddəaları yerinə yetirməlisiniz. Uşaq hüquqları toxunulmaz olmalıdır. Çıxış edən uşaqlar yaşamaq, təhsil, sağlamlıq, istirahət, ailə, əgər valideynləri ayrılmışsa, hər ikisi ilə ünsiyyətdə olmaq, dini, irqi ayrı-seçkilikdən müdafiə, azadlıq, müharibədə əsir düşməmək, yaşayış yeri ilə təmin olunmaq hüququ tələb edirdilər. Biz müşahidə etdik ki, Beslandakı hadisələr Qərb ölkələrini çox narahat edib, beynəlxalq ictimaiyyət uşaqların kütləvi şəkildə təcavüzə məruz qalmasından sarsılıb və hiddətlənib. Bütün çıxış edənlər birmənalı şəkildə bildirirdilər ki, bundan dəhşətli hal ola bilməz və dünya, o cümlədən qadın parlamentarilər bu kimi faciələrin bir daha baş verməməsi üçün səylərini birləşdirməlidirlər.

Konfransda ölkə prezidenti də iştirak edirdi. Tədbiri İtaliya Deputatlar palatasının sədri Pier Ferdinande Kasini açdı. Sonra Roma şəhərinin meri Valter Veltroni, Latviya Seyminin sədri, Avropa komissarı İndriqa Udre, İtaliyanın xarici işlər naziri Franko Frantini, Avropa Parlamentinin sabiq sədri Nikol Fonteyn, Salvadordan insan hüquqları müdafiəçisi Biatris Alemanni de Karillo, YUNİSEF-in Mərkəzi və Şərqi Avropa ölkələri üzrə regional direktoru Mariya Kalivis çıxış

etdilər. Onların çıxışlarının əsas məğzi bu idi ki, uşaqların hüquqlarının hər bir sahədə qorunması üçün mütləq parlamentlərarası əməkdaşlıq lazımdır. Uşaq hüquqlarının qorunması sahəsində bütün insanlar, xüsusən qadınlar fəallıq göstərsələr, uşaq alveri, uşaq əməyinin istismarı, uşaqların və yeniyetmələrin silahlı münaqişələrə cəlb edilməsi kimi hallarla daha səmərəli mübarizə aparmaq mümkündür. Dünya parlamentləri uşaq problemlərinə, uşaqların müdafiəsinə daha diqqətlə yanaşmalı, bu məsələni fəaliyyətlərinin prioritet istiqamətinə çevirməlidirlər. Uşaqların sülh şəraitində yaşamasına, rifahının tam təmin edilməsinə nail olanadək bu işdə heç bir kompromisə yol verilməməlidir. Çıxış edənlərin hamısı həm tədbir iştirakçıları, həm də dünya parlamentləri və hökumətləri qarşısında uşaq hüquqlarının daha səmərəli müdafiəsini təmin etməklə bağlı tələblər qoydular. Belə bir fakt xatırlandı ki, dünyada hər gün üç min uşaq evsiz qalır, 240 min uşaq qanunsuz əməyə cəlb olunur. Hər bir ölkədə uşaq hüquqlarının müdafiəsi konsepsiyası hazırlanmalı və Dövlət Proqramı kimi həyata keçirilməlidir. Latviya Seyminin sədri, Avropa komissarı İndriqa Udre çıxış edərək vurğuladı ki, uşaq hüquqlarının qorunması elə insan hüquqlarının qorunması deməkdir.

Konfransın işi bölmələrdə davam etdirilərkən Azərbaycan nümayəndələri çıxış etdilər. Ölkədə uşaq hüquqlarının qorunması sahəsində görülən tədbirlərdən söhbət açan A.Pənahova konfrans iştirakçılarının diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində azərbaycanlı uşaqların pozulmuş hüquqları probleminə yönəltdi.

Bölmələrdə müzakirələr müxtəlif mövzular ətrafında aparılırdı. Uşaq hüquqlarının müdafiəsi bölməsində uşaq alveri, uşaq əməyinin istismarı, uşaqlar hərbi münaqişələrdə və s. kimi mövzular müzakirə olunurdu. Müzakirələrdə çıxış edərək bildirdim ki, uşaqların və gənclərin müdafiəsi yaşadığımız dövrün ən vacib məsələlərindəndir. Beynəlxalq hüququn müvafiq müddəalarına uyğun olaraq dövlətlər silahlı münaqişələrdən ziyan çəkmiş uşaqlara qayğını və onların müdafiəsini təmin etməlidirlər. Ona görə də MBT-nin Uşaq Hüquqları Konvensiyası üzrə iştirakçı dövlətlər tərəfindən qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsi vacibdir. Uşaqların müdafiəsi işində beynəlxalq əməkdaşlığın xüsusi əhəmiyyəti vardır. BMT-nin ixtisaslaşdırılmış qurumları – BMT-nin Uşaq Fondu (YUNİSEF), Təhsil, elm və mədəniyyət məsələləri Təşkilatı (YUNESKO), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Beynəlxalq Əmək Təşkilatı (BƏT) uşaq və gənclərin müdafiəsi üzrə beynəlxalq əməkdaşlıq sahəsində mühüm rol oynayırlar. İtaliya şəhərində keçirilən bu konfransın əməkdaşlığın möhkəmlənməsində xüsusi rolu var.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qurbanına çevrilmiş uşaqların problemi barədə danışaraq dedim ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Dağlıq Qarabağ və ətraf rayonlardan, eləcə də Ermənistandakı dədə-baba torpaqlarından qovulmuş azərbaycanlıların çox hissəsini az-

yaşlı uşaqlar, gənclər təşkil edir. 1988-ci ildə Ermənistanda yaşayan azərbaycanlıların etnik təmizlənməsi prosesində 15 yaşına qədər 23 uşaq öldürülmüş, onlarca uşaq şikəst olmuşdur. 1992-ci ilin fevralında dünyada misli görünməmiş vəhşiliklər törədən ermənilər Xocalı soyqırımında 83 azyaşlı uşağı qətlə yetirmişlər, onlardan sağlamlığını itirənlərin 76 nəfəri yetkinlik yaşına çatmamış oğlan və qızdır. Baş verməsi ilə bəşəriyyətə meydan oxuyan bu cinayət 25 uşağın hər iki valideynini, 130 uşağın isə valideynlərindən birini itirməsinə, 54 uşağın itkin düşməsinə səbəb olmuşdur. Ermənistanın iyrənc təcavüzü nəticəsində 20 min azərbaycanlı öldürülmüş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif xəsarət alaraq əlil olmuş, əksəriyyətini uşaq və gənclər təşkil edən bir milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ən faciəli hal isə 18 uşağın hələ də beynəlxalq normalara zidd olaraq erməni əsirliyində qalmasıdır.

Qeyd etdim ki, zəif məxluq olan uşaqların xüsusi qayğı və mühafizəyə ehtiyacları var. Hər bir uşağın fiziki, əqli, mənəvi cəhətdən inkişaf etməsi üçün lazımi şərait olmalıdır. Dağlıq Qarabağ münaqişəsi nəticəsində 130 min nəfərə yaxın Azərbaycan məktəblisi qaçqın düşmüşdür. Məcburi köçkünlük və qaçqınlıq problemi təhsil üçün çox ciddi çətinliklər yaratmışdır. Erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərimizdə 616 ümumtəhsil məktəbi, 234 məktəbəqədər tərbiyə müəssisəsi, 12 texniki peşə məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 5 orta ixtisas məktəbi, 1 ali məktəb işğal zonasında qalmış və dağıdılmış. 1994-cü ilin əvvəlləri üçün aparılmış təqribi hesablamalara görə Ermənistanın hərbi təcavüzü nəticəsində respublikanın təhsil sisteminə 1,5 milyard ABŞ dolları dəyərində maddi ziyan vurulmuşdur. Dəymiş mənəvi ziyan maddi ziyandan daha böyükdür. İşğalın, terrorçuluğun qurbanına çevrilmiş günahsız uşaqlar neçə illərdir dözülməz şəraitdə - çadırlarda yaşayır, təhsil alır, böyüyürlər. Düşərgə həyatı onlara ağır psixoloji təsir göstərir, müxtəlif xəstəliklər yaradır, mədəni dəyərlərdən uzaqlaşdırır. Amansız münaqişədə valideynlərini itirmiş, məhv edilmiş, şikəst olmuş, uşaqlıq çağının qayğısız günlərindən məhrum olmuş uşaqların, eləcə də bu gün çadırlarda dünyaya göz açan körpələrin pozulmuş hüquqlarının müdafiəsinə vəzifəsi bilavasitə uşaqların haqlarını müdafiə etmək olan beynəlxalq təşkilatlar, dünya birliyi biganə qalmamalı, onların hüquqlarının bərpa olunmasında beynəlxalq öhdəliklərin yerinə yetirilməsinə çalışmalıdırlar. Beynəlxalq ictimaiyyətə, donor ölkələrə və beynəlxalq humanitar təşkilatlara müraciət edərək onları münaqişədən zərər çəkmiş əhalinin, ilk növbədə uşaq və gənclərin əzabəziyyətinin yüngülləşdirilməsi işinə həssas yanaşmağa çağırdım.

Konfrans qəbul etdiyi Yekun Bəyannamədə BMT-nin Uşaq Hüquqları Konvensiyasından və BMT Baş Məclisinin uşaqlar üçün xüsusi sessiyanın yekun sənədindən irəli gələn öhdəliklər xatırlandı, müxtəlif mədəniyyətləri və təc-

rübələri təmsil edən iştirakçılar arasında səmərəli fikir mübadiləsi aparıldığı və parlamentlərin fəaliyyətini artırmaqla ölkələrimizin daha geniş əməkdaşlığa təşviq edilə biləcəyi vurğulandı, parlamentlərarası əlaqələrin dərinləşməsi ilə uşaq hüquqlarının daha səmərəli müdafiəsinin təmin ediləcəyi göstərildi. Dünyada uşaqlara qarşı ayrı-seçkiliyin və zorakılığın müxtəlif formalarının mövcudluğundan, silahlı münaqişələrin və terror aktlarının gənc nəsillər üçün törətdiyi faciəvi sonluqlardan bəşəriyyətin narahatlığı ifadə olundu. Konfrans qərara aldı ki, uşaqların hüquqlarının təmin olunması üçün beynəlxalq konvensiyaların həyata keçirilməsinə nəzarət edilsin, qadınların mülki hüquqların qorunması sahəsində siyasi rolu artırılsın, uşaqların ali maraqları sosial siyasətin əsas prinsipi kimi tanınsın, onların daha səmərəli müdafiəsini təmin edən siyasətlər bəyənilsin, qanunların qəbulu və həyata keçirilməsi zamanı uşaq və qadın hüquqlarının müdafiəsinə üstünlük verən ölkələrlə əməkdaşlıq siyasəti dəstəklənsin. Gələcəkdə buna bənzər tədbirlərin keçirilməsi və gündəliklərin hazırlanması, uşaqların, o cümlədən yeniyetmələrin hüquqlarının qorunması naminə qadın parlamentarilərin daimi şəbəkəsini yaratmaq və internetdən də istifadə etməklə şəbəkə üzvləri arasında əlaqələr qurmaq, məlumatların mübadiləsini təmin etmək və s. üçün Şəbəkə Koordinasiya Komitəsi təsis edildi.

Konfrans çərçivəsində bir sıra yaddaqalan görüşlər də keçirildi. Roma Papası bizi qəbul etdi. Oktyabrın 17-də İtaliya Deputatlar Palatasının sədri Azərbaycan nümayəndə heyətini qəbul edərkən Azərbaycanın əsas problemindən xəbərdar olduğunu dedi. Ölkəmizin strateji əhəmiyyətli mövqedə yerləşdiyini, zəngin təbii ehtiyatlara malik olduğunu, dünyanın ən böyük enerji daşıyıcıları layihəsinin burada həyata keçirildiyini vurğuladı. İtaliya Deputatlar Palatasının sədri Azərbaycana gəlmək istədiyini də nəzərə çarpdırdı. İtaliya parlamentinin beynəlxalq münasibətlər komitəsinin sədri deputat Danieli və İtaliya-Azərbaycan dostluq qrupunun rəhbəri deputat Provero ilə də görüşlər keçirdik. AŞ PA-da İtaliya nümayəndə heyətinin üzvləri olan bu deputatlar bildirdilər ki, beynəlxalq təşkilatlarda Azərbaycan nümayəndə heyəti ilə fəal əməkdaşlıq edirlər, eyni mövqe nümayiş etdirir, Dağlıq Qarabağ probleminin həllində həmişə Azərbaycanı dəstəkləyirlər və bundan sonra da dəstəkləyəcəklər. Biz ikitərəfli münasibətlərin daha da inkişaf etməsinin xalqlarımızın və dövlətlərimizin mənafeyinə uyğun olduğunu vurğulayaraq hər iki deputatı ölkəmizə rəsmi səfərə dəvət etdik. Çünki qarşılıqlı səfərlər, keçirilən görüşlər əlaqələrin bütün sahələrdə inkişafına təkan verir.

Söhbəti yazdı: V.İsmayılova,
«Azərbaycan» qəzeti, 30 oktyabr 2004-cü il.

DEPUTATLARIN SAYININ ARTIRILMASINA EHTİYAC YOXDUR

GÖVHƏR BAXŞƏLİYEVA: «AZƏRBAYCAN XALQININ İNKİŞAFINA XİDMƏT EDƏN İNSANLAR PARLAMENTƏ SEÇİLMƏLİDİR».

Müxtəlif dairələrdə Milli Məclisin deputatlarının sayının artırılması ilə bağlı fikirlər səsləndirilir. MM sədrinin müavini Gövhər Baxşəliyeva bildirib ki, hazırda deputatların sayının artırılmasına ehtiyac duyulmur: «125 deputat kifayətdir ki, müzakirə olunan qanunların müzakirəsini aparsın. İndi parlamentdə kifayət qədər mütəxəssis təmsil olunur. Ayrı-ayrılıqda yüksək potensiallı deputatlarımız var. Deputatların sayının artırılması isə bölgələrdəki seçicilərin sayından asılıdır. Hazırda hər dairənin seçicilərinin sayı təqribən 40-45 min nəfərdir. Əgər bu rəqəm endirilsə, yeni dairə seçki məntəqələri yaradıla bilər». G.Baxşəliyevanın fikrincə, proporsional seçki sisteminin bərpası müzakirələrin nəticəsindən asılıdır: «Majoritar seçki sistemində kifayət qədər imkan var ki, hər bir siyasi spektrin nümayəndəsi parlamentdə təmsil olunsun. Bu məsələ daha çox siyasi partiya nümayəndələrinin intellektual potensialından asılıdır. Əgər müxalifət düşərgəsinin doğrudan da güclü nümayəndəsi varsa, majoritar qaydada da seçilə bilərlər. Burada iqtidar – müxalifət söhbəti yoxdur. Müstəqil deputat kimi hesab edirəm ki, Azərbaycan xalqının inkişafına xidmət edən insanlar parlamentə seçilməlidir. Bizə öz şəxsi mənafeyini yox, ürəkdən xalqın mənafeyini düşünən deputat lazımdır. Elə insanlar seçilməlidir ki, onlar bizim problemlərimizin aradan qaldırılmasına xidmət edə bilsinlər».

«Olaylar» qəzeti, 14 yanvar 2005-ci il.

GÖVHƏR BAXŞƏLİYEVA: «BİZİ QARŞIDA DAHA BÖYÜK İŞLƏR, TƏDQİQATLAR GÖZLƏYİR»

Ötən il görülən işlər haqda hesabat verən AMEA-nın Şərqşünaslıq institutunun direktoru aparılan tədqiqatların uğurlu perspektivinə inanır

«Hesabat ilində institutumuzun əməkdaşları fərdi müqavilə üzrə çalışıblar. Elmi tədqiqat işləri institutun elmi istiqamətinə daxil olan 9 problem və 16 mövzu çərçivəsində aparılıb». Bu fikirləri «525»in müxbirilə söhbətində 2004-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi fəaliyyəti haqqında hesabatla bağlı məlumat verən İnstitutun direktoru, professor Gövhər Baxşəliyeva dilə gətirib. Onun sözləinə görə, institutun elmi istiqaməti «Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi və mədəni inkişafı» adlanır və həmin elmi istiqamətə onun özü rəhbərlik edir:

«Hesabat ilində institutda 27 tədqiqat işi bitməliydi, onlardan 25 bitib. Tarix elmləri namizədi X.Həsənova yaşamaq üçün xarici ölkəyə getdiyindən, kitabxanaçılıq elmləri namizədi G.Cəfərova isə analıq məzuniyyətində olduğundan tədqiqat işlərini təhvil verə bilməyiblər. Tamamlanmış işlər isə bunlardır: Problem «Ərəb ölkələrinin tarixi və ictimai-siyasi vəziyyəti». İş «Əl-Qəlqəşandinin «Sübhəl-əşa fi marifat sinaat əl-inşa» əsərindən Azərbaycan tarixi, coğrafiyası və etnoqrafiyasına dair materiallar» adlanır. Qeyd edim ki, XIV-XV əsrlərdə Misirdə yaşamış ərəb tarixçisi əl-Qəlqəşandinin adıçəkilən əsəri dəftərxanalarda çalışan məmurlar üçün məlumat vəsaiti kimi nəzərdə tutulub. Ensiklopediya janrında tərtib olunmuş «Sübh əl-əşanın» bir hissəsində Azərbaycanın ərazisi, coğrafi mövqeyi, şəhərləri, yolları, çayları və əhalisi haqqında məlumat verilir. Əsərin müəllifi özündən əvvəlki qaynaqlardan geniş şəkildə istifadə edib və hətta həmin mənbələrdən müvafiq hissələri iqtibas gətirib. Təqdim olunan işdə əl-Qəlqəşandinin əsərindəki Azərbaycana aid olan hissələr ilk dəfə olaraq elmi-tənqidi şərhlərlə Azərbaycan dilinə tərcümə olunub. Digər iş «Qloballaşma: Ərəb Şərqi və müasirləşmə problemləri» adlanır ki, həmin tədqiqat işində dünyanın Şimal və Cənub yarımkürələrindəki ictimai-iqtisadi inkişafın spesifik xüsusiyyətləri, qloballaşmanın beynəlxalq aləmdə yeni xarakterli ziddiyyətləri üzə çıxarması geniş təhil edilir. Müəllif qloballaşmanın Ərəb Şərqinin siyasi, mədəni və intellektual həyatında doğurduğu ciddi dəyişiklikləri, ABŞ-ın bu regiona münasibətdə siyasətinə dair öz mülahizələrini elmi dəlillərlə əsaslandırmağa çalışıb». Gövhər Baxşəliyevanın bildirdiyinə

görə, digər problem «Türkiyənin tarixi, iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti, Türkiyə-Azərbaycan əlaqələri» adlanır: «Bu problemə aid olan işlərdən birində də Türkiyə Respublikasında iqtisadiyyatın dövlət tənzimlənməsindən söhbət açılır. Belə ki, bu işdə Türkiyədə respublika hakimiyyəti illərində dövlətin fəal sahibkarlıq fəaliyyəti ilə yanaşı inkişafın ayrı-ayrı mərhələlərində həyata keçirdiyi çoxcəhətli iqtisadi tənzimləmənin konkret forma və metodları (gömrük himayəçiliyi, vergi və amortizasiya, maliyyə-kredit siyasəti, inzibati metodlar) araşdırılıb. Iqtisadiyyatın dövlət tənzimlənməsinin təsirli vasitələrindən olub, Türkiyə Respublikasında artıq ötən əsrin 30-cu illərindən etibarən geniş tətbiq edilən sosial-iqtisadi inkişafın proqramlaşdırılması praktikası ayrıca nəzərdən keçirilərək işıqlandırılıb».

«Körfəz böhranı və sonrakı illərdə Türkiyədə kürd problemi»nə aid olan tədqiqatda Türkiyədəki kürd probleminin tarixi və indiki vəziyyəti ətraflı təhlil olunur. Müəllif tarixi sənədlərə əsaslanaraq bu problemi Türkiyənin beynəlxalq vəziyyəti ilə əlaqəli şəkildə şərh etməyə cəhd göstərib. Adıçəkilən işdə ötən əsrin 90-cı illərində baş vermiş körfəz böhranının bu problemə təsiri də tədqiq olunur.

«Azərbaycan tarixinə və mədəniyyətinə aid mühüm mənbələrin tədqiqi və tərcüməsi, ərəb və farsdilli Azərbaycan ədəbiyyatının elmi-tənqidi mətnlərinin tərtibi, tərcüməsi və nəşri» problemi haqda danışan G.Baxşəliyeva qeyd edib ki, fars dilçiliyi tarixində XI-XIV əsrlər xüsusi mərhələ təşkil edir. Bu elmin bir çox istiqamətləri məhz bu dövrdə təşəkkül tapıb. İlk addım XI əsrdə Azərbaycanda leksikoqrafiya sahəsində atılıb, XII-XIII əsrlərdə inkişaf prosesnidə yeni tipli lüğətlərlə yeni mərhələlər yaranıb. Qrammatika isə XII əsrdən formalaşmağa başlayıb. Fars dilçiliyinin ilk dövrlərdə təşəkkül tapan sahələri də tədqiqata cəlb edilib.

«Yaxın və Orta Şərq ölkələrində din və ictimai fikir» problemində İslam fundamentalizmi və müasir dövrdə onun əsas təzahür formaları tədqiq olunub. Tədqiqat işində islamın fundamentalizmə rəvac verən xüsusiyyətləri ilə bağlı məqamlar açıqlanır, islam təməlçiliyinin tarixinə nəzər salınır, fundamentalizmin əsasən Qərbin mədəni təsirlərinə reaksiya kimi tədqiq edilir. Müəllif ərəb, Avropa və rus tədqiqatçılarının problemlə bağlı konsepsiyalarının tənqidi təhlilinə geniş yer ayırır. Kitabda bir sıra islam nəzəriyyəçilərinin fundamentalist baxışları tədqiq edilir, radikal islam qruplaşmalarının ekstremist hərəkətləri islam şəriət alimlərinin əsərlərinə istinadən tənqid edilir.

Növbəti iş «İslam fundamentalizminin mənşəyi, ideya əsasları və təkamülü» adlanır. Bu işdə müasir islam fundamentalizminin təşəkkül prosesi izlənilir, onun xarici aləmlə münasibətlərinin başlıca prinsipləri açıqlanır, bu cərəyanın

radikallaşmasına rəvac verən amillər, onun maliyyə qaynaqları araşdırılır. Tədqiqatçı tərəfindən islam fundamentalistlərinin müsəlman dünyası və onun hüdudları haqqında təsəvvürləri təhlil olunmuş, dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən qeyri-hökumət islam təşkilatları haqqında məlumat verilib, islam fundamentalistlərinin qloballaşma prosesi ilə əlaqəsi açıqlanıb və fundamentalist islam cərəyanı kimi müasir vəhhabiliyin siyasi və əqidə prinsipləri göstərilib.

«Atatürkün görüşlərində milli suverenlik ideyasının formalaşması» adlanan işdə Türkiyənin ilk prezidenti və milli azadlıq hərəkatının rəhbəri Mustafa Kamal Atatürkün baxışlarında «milli suverenlik» ideyasının yaranması məsələsi tədqiq olunur. Tədqiqatçı bu ideya əsasında formalaşmış atatürkçülüyün 6 əsas prinsipini – millətçilik, respublikaçılıq, xalqçılıq, dünyəvilik, etatizm və inqilabçılığı, habelə onun 4 əsasını (millət, respublika, ictimai hüquq, dünyəvi dövlət) geniş şəkildə işıqlandırılır. Tədqiqat işində həmçinin milli suverenlik konsepsiyasının yaranması və formalaşmasına təsir göstərən amillər, o cümlədən Azərbaycan amilinin – Şərqdə ilk respublika olan ADR-in milli müstəqillik ideologiyasının təsiri də təhlil olunur.

Azərbaycan-İran ədəbi əlaqələrindən bəhs edən «XX əsrdə Azərbaycan-İran ədəbi əlaqələri» işində İran-Azərbaycan ədəbi əlaqələrində poetik tərcümələrin böyük əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq XX əsrdə bədii üslubda tərcümə edilən poetik əsərlər tədqiqata cəlb edilir. Giriş hissəsində bədii tərcümənin metodologiyasından, forma və məzmun uyğunluğundan, mütərcimin tərcümə prosesinə yanaşma üslubundan bəhs edilir və mövzu ilə əlaqədar elmi-nəzəri ədəbiyyat nəzərdən keçirilir. Həmin işin I və II fəsillərində Sədi Şirazinin «Bustan» və «Gülüstan» əsərlərinin Azərbaycan dilinə tərcüməsindən bəhs olunur.

G.Baxşəliyeva bildirib ki, hesabat ilində institut əməkdaşlarının 21 monoqrafiya, kitab, broşüra və toplusu çapdan çıxıb. «İnstitutda mərhum akademik Ziya Bünyadovun elmi irsinin təkrar nəşrinə böyük diqqət göstərilir. Onun ilk fundamental monoqrafiyası 1989-cu ildə ilk dəfə Azərbaycan dilinə tərcümə edilərək çap olunub. Lakin bu nəşrdə bir sıra səhvlər və buraxılışlar olduğuna görə, əsərin yenidən redaktəsi və latın əlifbası ilə nəşri vacibdir. Monoqrafiyada VII-IX əsrlərdə Azərbaycanda mövcud olan ictimai-siyasi vəziyyət, ərəb işğalının başlanması və gedişi, Babəkin başçılığı altında Xürrəmilər hərəkatı ətraflı surətdə işıqlandırılıb». Eyni zamanda akademikin əsərlərinin yeni biblioqrafiyası tərtib olunaraq nəşr edilib. Biblioqrafiya iki hissədən ibarətdir. Birinci hissədə akademik Z.M.Bünyadovun əsərləri xronologiya ilə verilib. Biblioqrafiyanın II hissəsi akademikin şəxsiyyəti və əsərləri

haqqında müasirlərinin yazdıqları məqalələri, rəyləri, fikirləri özündə birləşdirir. Bu nəşrdə həm də akademikin elmi rəhbəri olduğu bütün yetirmələrinin siyahısı verilib.

«Rüstəm Əliyev fenomeni» kitabına görkəmli Azərbaycan şərqşünası, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Rüstəm Əliyev haqqında məqalələr və xatirələr daxil edilib. Əsasən R.Əliyevin həmkarlarından və tələbələrindən ibarət müəllif kollektivinin yazılarında alimin şəxsiyyəti və elmi yaradıcılığının müxtəlif cəhətləri açıqlanır, onun mənalı ömrünün maraqlı anlarına işıq salınır, şərqşünaslıq elmi qarşısında xidmətlərindən bəhs olunur.

«Şərqin tarixi abidələri» adlanan kitabda Hindistan, Əfqanıstan və Livan ərazilərində tarixin lap başlanğıcından bəri yaradılan abidələrdən bəhs olunur. Tarixi ardıcıllıq baxımından hind sənəti, yunan sənəti, Roma və Bizans sənəti haqqında xüsusi oçerklər verilib. Kitabda əsas yeri isə islam abidələri tutur, islam tarixində yaradılan 13 sənət məktəbinin yeri göstərilir.

«Ərəb filologiyasının Azərbaycanda inkişafı» adlanan kitabda əsas məqsəd ərəb filologiyasının Azərbaycanda öyrənilməsi və inkişafı probleminin xronoloji qaydada və müqayisəli tarixi aspektdə müfəssəl işıqlandırılmasından ibarətdir. Kitabda Azərbaycanda ərəb filologiyasının müasir mərhələdə inkişaf prosesi nəzərdən keçirilib.

Bundan əlavə G.Baxşəliyevanın qeyd etdiyinə görə, hesabat ilində Şərqşünaslıq İnstitutunun xarici ölkələrin elmi müəssisələri ilə elmi əlaqələri institut əməkdaşlarının beynəlxalq elmi konfransların işində iştirakı, xarici ölkələrə elmi ezamiyyətləri, xarici mətbuatda məqalələrin nəşri, xarici ölkə radio və televiziyası ilə çıxışları və birgə elmi tədbirlərin keçirilməsi ilə təmsil olunur. Institut direktoru bildirib ki, 2004-cü ildə institutun əməkdaşları Azərbaycan, Türkiyə, İran, Rusiya və Qazaxıstanın müxtəlif şəhərlərində keçirilmiş beynəlxalq elmi konfrans və simpoziumlarda iştirak edib. Ötən ildə institut tərəfindən aşağıdakı elmi konfrans və sessiyalar keçirilib: Şərqin aktual problemləri: tarix və müasirlik, akademik Z.M.Bünyadovun xatirəsinə həsr olunmuş elmi nəzəri konfrans, əməkdar elm xadimi, professor R.Əliyevin anadan olmasının 75 illiyinə həsr olunmuş elmi sessiya, qloballaşma və islam və sair. Bu konfranslarda Misir, Səudiyyə Ərəbistanı, Türkiyə və İran İslam Respublikası səfirliyinin əməkdaşları və alimləri də iştirak ediblər.

Söhbət zamanı G.Baxşəliyeva onu da bildirib ki, institutda 1 və yaxud 2 ildən bir «Şərq filologiyası» məqalələr toplusu və «Orta əsrlər Şərqi» toplusu nəşr olunur: «Bunlar tematik nəşrlərdir». Bundan əlavə institut tərəfindən iki elmi araşdırmalar jurnalı – «Elmi araşdırmalar» və «Hikmət» adlı jurnalları nəşr olunur. «Qeyd edim ki, bu jurnallar çox böyük rezonans doğurub, yəni bu

jurnallarda əksini tapan materiallar elmi ictimaiyyəti çox maraqlandırıb» – deyə Gövhər Baxşəliyeva sözlərinə əlavə edib.

G.Baxşəliyevanın bildirdiyinə görə, bütün görülən işlərlə bərabər onları qarşıda daha böyük işlər, tədqiqatlar gözləyir: «Bildiyiniz kimi, keçmiş sovet dövründə bir neçə şərqşünaslıq institutu var idi və bu institutların da baş institutu Moskvada yerləşirdi. O institutda o zaman Şərqin elə bir ölkəsi yox idi ki, tədqiqata cəlb olunmasın. O zaman Azərbaycanın Yaxın və Orta Şərqə yaxın olması nəzərə alınaraq bizim unstitut İran, Türkiyə və Ərəb ölkələri üzrə ixtisaslaşmışdı. Indisə Azərbaycan müstəqil dövlət olduğu üçün bizim alimlərimiz çox gözəl başa düşür ki, bütün Şərqi öyrənmək lazımdır. Ona görə də biz tədricən çalışırıq ki, tədqiqata cəlb etdiyimiz regionu genişləndirək. Məsələn, bizdə gənc mütəxəssislərdən biri Yaponiya üzrə tədqiqata cəlb edilib, o bu ölkə üzrə ixtisaslaşdırılıb. O hazırda Yaponiya haqqında mümkün olan materialları toplayır. Digər bir mütəxəssisimizi Çin üzrə ixtisaslaşdırmışıq. Bundan əlavə Azərbaycanda Yaxın Şərq ölkələrinə olan marağı nəzərə alaraq biz böyük sorğu kitabını hazırlamaq qərarına gəlmişik. Artıq bu kitab üzrə gedən işlər tamamlanmaq üzrədir və ümid edirik ki, ilin sonuna «Şərq ölkələri» sorğu kitabını nəşr edib ictimaiyyətə təqdim edəcəyik».

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 27 yanvar 2005-ci il.

GÖVHƏR BAXŞƏLİYEVA: «BU İLKİ YAZ SESSİYASI DA GƏRGİN VƏ MƏHSULDAR KEÇƏCƏK»

«Ötən ilin payız sessiyasında Milli Məclisin (MM) 29 iclası keçirilib, iş planında nəzərdə tutulan, habelə qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən 102 qanun və qərar ətraflı müzakirələrdən sonra qəbul edilib, bir sıra qanun layihələrinə birinci və ikinci oxunuşlarda münasibət bildirilib». Bu fikirləri «525»in müxbirilə söhbətində Milli Məclis sədrinin müavini Gövhər Baxşəliyeva bildirib. Onun sözlərinə görə, görülən işlərin ümumi yekunu bundan ibarət olub ki, ölkədə davam etdirilən siyasi, iqtisadi, hüquqi, sosial islahatların hüquqi bazası daha da möhkəmləndirilib və təkmilləşdirilib: «Payız sessiyasında «2005-ci ilin dövlət büdcəsi haqqında» qanun layihəsi və büdcə zərfinə daxil olan digər sənədlər, habelə «Dövlət sirri haqqında», «İctimai televiziya və radio yayımı haqqında», «Milli Bank haqqında», «Məlumat toplularının hüquqi qorunması haqqında» və başqa qanun layihələri geniş müzakirələrdən sonra qəbul olunub, bir sıra qanunvericilik aktlarına, o cümlədən Mülki Məcəlləyə, Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə, Vergi Məcəlləsinə, Əmək Məcəlləsinə dəyişikliklər və əlavələr edilib. BMT-nin transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan «Odlu silahların, onların tərkib hissələrinin və komponentlərinin, habelə sursatların qeyri-qanuni hazırlanması və dövriyyəsinə qarşı» Protokola Azərbaycan Respublikasının qoşulması qanunvericilik qaydasında təsbit olunub, «İnsan alverinə qarşı mübarizə haqqında» Konvensiyanın Yekun Protokolu təsdiqlənib. Azərbaycanla Asiya İnkişaf Bankı arasında «Selə qarşı tədbirlər» layihəsinin maliyyələşdirilməsi üzrə Kredit Sazişinə, Belçika, Niderland, İtaliya, Yunanıstan, Litva, Belarus, Ukrayna, Moldova, Gürcüstan respublikaları ilə ölkəmiz arasında bir sıra hökümətlərarası və dövlətlərarası müqavilələrə və sazişlərə baxılaraq müsbət münasibət bildirilib. Eyni zamanda, MM ölkəmizin ictimai-siyasi həyatında baş verən mühüm ictimai-siyasi hadisələr barəsində mövqeyini açıqlayıb, NATO-nun Azərbaycanda keçirilməsi nəzərdə tutulmuş hərbi təlimlərinə Ermənistan ordusu zabitlərinin dəvət olunmasına qarşı Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrinin etirazlarını ifadə edən müraciət qəbul edib. Parlament öz səlahiyyətinə daxil olan bir sıra digər məsələlərə də baxıb. Yəni, Hesablama Palatasının 2004-cü ildəki fəaliyyətinə dair hesabatı dinlənilib, Palatanın gələn il üçün xərclər smetası təsdiq edilib». G.Baxşəliyeva qeyd edib ki, sessiya dövründə parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində mühüm işlər görülüb. Üzv olduğumuz beynəlxalq təşkilatlarda, o cümlədən Parlamentlərarası İttifaqda, Avropa Şurasının Parlament Assambleyasında, ATƏT-

in Parlament Assambleyasında, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində, MDB-nin Parlamentlərarası Assambleyasında və digər beynəlxalq qurumlarda deputatlar mütəmadi iştirak ediblər. Ötən dövrdə MM-in nümayəndə heyətləri Amerika Birləşmiş Ştatlarında, Rusiya Federasiyasında, Türkiyədə, Böyük Britaniyada və digər ölkələrdə səfərlərdə olub, deputatlardan bir qrupu Ukraynadakı prezident seçkilərini, Qazaxıstanda və Özbəkistanda keçirilmiş parlament seçkilərini müşahidə edib: «Azərbaycanın parlamentlərarası münasibətlər xəritəsinə bu yaxınlarda yeni bir ad əlavə olunub. Bu, Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova parlamentlərinin birgə təsis etdikləri GUÖAM Parlament Assambleyasıdır. Həmin qurumun təsis iclası bu il sentyabrın 23-də Ukraynanın paytaxtı Kiyev şəhərində keçirilib. Iclasda GUÖAM Parlament Assambleyasının yaradılması barədə Bəyannamə qəbul olunub. Ölkə parlamentini bu tarixi yığıncaqda MM sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Bundan başqa noyabrın 4-də Parisdə Fransa Senatının sədri Kristian Ponselenin təşəbbüsü ilə Cənubi Qafqaz ölkələri parlament sədrlərinin görüşü keçirilib. Görüşdə regional vəziyyət, mədəni irsin qorunması və digər məsələlər müzakirə olunub, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı ölkəmizin mövqeyi görüş iştirakçılarının bir daha nəzərinə çatdırılıb. Qeyd edilib ki, münaqişə yalnız beynəlxalq hüquq normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü təmin olunmaqla həll edilməlidir». G.Baxşəliyevanın dediyinə görə, payız sessiyası dövründə xarici ölkə hökumətlərinin və parlamentlərinin, beynəlxalq təşkilatların Azərbaycana gələn nümayəndələri, o cümlədən Bolqarıstan Respublikasının prezidenti Georgi Pirvanov, Moldova Respublikasının prezidenti Vladimir Voronin, Avropa Komissiyasının sədri Romano Prodi, Avropa Şurası Nazirlər Komitəsinin sədri, Norveçin xarici işlər naziri Yan Petersen, ATƏT-in fəaliyyətdə olan sədrinin Azərbaycan və Ermənistan üzrə təmsilçisi Filipp Dimitrov, ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarker, MDB Parlamentlərarası Assambleya Şurasının baş katibi Mixail Krotov, İtaliya Respublikasının Müdafiə Nazirliyi yanında Ali Müdafiə Elmləri Mərkəzinin diplomatik müşaviri Pietro Erkole Aqo, Ombudsmanların üçüncü Bakı Beynəlxalq Konfransının iştirakçıları, Türkiyə Böyük Millət Məclisinin qadın parlament müxbirləri və digər şəxslər ilə MM-də görüşlər keçirilib və səmərəli fikir mübadiləsi aparılıb. «Payız sessiyası dövründə MM-də bir sıra beynəlxalq tədbirlər təşkil edilib. Oktyabr ayında Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Hüquqi və Siyasi Məsələlər Komitəsinin 24-cü iclası Azərbaycan parlamentində keçirilib. Elə həmin ayda Azərbaycan Respublikasının Milli Məclisi və Rusiya Fede-

ral Məclisinin parlamentlərarası komissiyası özünün dördüncü iclasına toplaşıb. Noyabrın 25-27-də Bakıda NATO Parlament Assambleyasının «Rouz-Roud» seminarı keçirilib. «Cənubi Qafqazda təhlükəsizlik» mövzusunda bu seminarı NATO ilə Azərbaycan parlamenti birlikdə təşkil edib. Yeri gəlmişkən, xatırladım ki, bu sessiya dövründə MM «Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar» adlı kitab hazırlayıb nəşr edib. Kitab MM-in beynəlxalq əlaqələrinin, parlament əməkdaşlığının və parlamentlərarası münasibətlərinin inkişafı məsələlərinə həsr olunub».

Daha sonra MM-in bu günlərdə öz işinə başlayan yaz sessiyası barədə danışan G.Baxşəliyeva bildirib ki, onun kurasiyasında olan Sosial siyasət daimi komissiyası tərəfindən yaz sessiyası ərzində bir sıra qanun layihələrinin hazırlanıb müzakirəyə təqdim olunması nəzərdə tutulur: **«Hər şeydən əvvəl, ötən sessiyada MM-də birinci oxunuşda qəbul olunmuş «Qan, qan komponentlərinin donorluğu və qan xidməti haqqında» və «Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında» qanun layihələri ikinci oxunuşda müzakirə olunmaq üçün komissiya tərəfindən hazırlanaraq MM-ə təqdim olunub. «Hemofiliyalı və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında» qanun layihəsinin hazırlanması ilə əlaqədar komissiya bir sıra dövlətlərin təcrübəsini öyrənib, beynəlxalq təşkilatlarla əməkdaşlıq edib. Norveçin bu sahədəki təcrübəsi ətraflı öyrənilib. Beynəlxalq Hemofiliya Təşkilatı tərəfindən Tailandda keçirilən konqresdə komissiyanın nümayəndələri və mütəxəssislər iştirak ediblər. Odur ki, bu qanun layihələri tam beynəlxalq standartlara cavab verir və bu sahədə mövcud olan münasibətləri tam tənzimləmə mexanizminə malikdir. Bundan əlavə, Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyası ilə birlikdə hazırlanan «Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması haqqında» qanun layihəsi üçüncü oxunuşda MM-də müzakirə olunacaq»**.

Vitse-spikerin dediyinə görə, hazırda sözügedən komissiyanın üzvləri tərəfindən gender sahəsində yaranan münasibətləri tənzimləmək məqsədilə «Qadın və kişilərin hüquq bərabərliyinin dövlət təminatları haqqında» qanun layihəsi hazırlanır: **«Vətəndaşların pensiya təminatı haqqında» qanun layihəsi 3 ildən artıqdır müxtəlif əlaqədar təşkilatlar tərəfindən yeni konsepsiyada hazırlanır və güman edirik ki, o, bu ilin mart-aprel aylarında MM-in müzakirəsinə təqdim olunacaq. Başqa bir çox əhəmiyyətli qanunvericilik aktlarından biri də «Ünvanlı dövlət sosial yardımları haqqında» qanun layihəsidir. Ailə gəlirləri əsasında dövlət yardımının miqdarını və verilmə qaydasını müəyyən edəcək bu qanun layihəsi mütəxəssislərin iştirakı ilə**

Nazirlər Kabinetində hazırlanır və onun da yaz sessiyası ərzində parlamentə təqdim olunması gözlənilir». G.Baxşəliyeva deyib ki, komissiya tərəfindən hazırlanan «Demoqrafik təhlükəsizlik haqqında» qanun layihəsi ölkə prezidentinin bu sahədə imzaladığı dövlət proqramı ilə uzlaşan normativ hüquqi akt olacaq: **«Məlum olduğu kimi, son dövrlər cəmiyyətdə nikah, övladlığa, xüsusilə də beynəlxalq övladlığa götürülmə, işəgötürənlə işçi münasibətlərinin mövcud reallıqlara, dünya təcrübəsinə uyğun olaraq qurulması ilə əlaqədar, bu məsələlərin hüquqi tənzimlənməsinin daha da təkmilləşdirilməsi barədə ən müxtəlif səviyyədə müzakirələr aparılır. Eyni zamanda bu problemlərlə bağlı komissiyaya Ailə və Əmək məcəllələrinə bir sıra əlavə və dəyişikliklərin edilməsi təklifi ilə bəzi deputatların parlamentə ünvanlanmış müraciətləri daxil olub. Dəyişikliklərin layihələri üzrə Ədliyyə, Təhsil, Gənclər, İdman və Turizm, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Respublika Həmkarlar İttifaqları Konfederasiyasının rəyləri alınıb. Həmin rəylərdə qanun layihələrinin vacibliyi, lakin xüsusi həssaslıq edən bu məsələlərdə tələsməmək birmənalı şəkildə vurğulanır. Bununla əlaqədar olaraq, komissiyanın 28 dekabr 2004-cü il tarixli iclasında qərara alınıb ki, 2005-ci ilin yaz sessiyası ərzində Əmək Məcəlləsinin və Ailə Məcəlləsinin hərtərəfli monitorinqi keçirilsin. Bu məqsədlə hesab edildi ki, MM aparatı tərəfindən çox səriştəli işçi qrupları yaradılsın və onlara tapşırılsın ki, həmin məcəllələrə əlavə və dəyişikliklər edilməsi üçün beynəlxalq normalara, milli xüsusiyyətlərə uyğun gələn qanun layihələri hazırlansınlar».**

Ümumiyyətlə, vitse-spikerin bildirdiyinə görə, yaz sessiyasında qanunvericilik təşəbbüsü ilə hüquq siyasəti və dövlət quruculuğu sahəsində «İnzibati icraat haqqında» (ikinci oxunuş), «Dövlət qulluqçularının davranış qaydaları haqqında» (birinci oxunuş), «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsi haqqında», «Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması haqqında» (ikinci oxunuş), «Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydalarının təsdiq edilməsi barədə» (birinci oxunuş), «Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi barədə» (ikinci oxunuş), iqtisadi siyasət sahəsində «Aviasiya haqqında» (birinci oxunuş), «İpoteka haqqında» (ikinci oxunuş), «İnvestisiya fəaliyyəti haqqında», «Telekommunikasiya haqqında», «İnşaat fəaliyyəti haqqında» (birinci oxunuş), insan hüquqları sahəsində «İnformasiya azadlığı haqqında», elm və təhsil sahəsində «Təhsil haqqında» (birinci oxunuş), «Elm və dövlət elmi-texniki siyasəti haqqında»

(üçüncü oxunuş), «Elektron ticarət haqqında» (ikinci oxunuş), aqrar siyasət sahəsində «Ailə kəndli təsərrüfatı haqqında» (ikinci oxunuş), «Baytarlıq təbabəti haqqında» (birinci oxunuş), təbii ehtiyatlar, energetika və ekologiya sahəsində «Qiymətli metallar və daşlar haqqında» (birinci oxunuş), regional məsələlər sahəsində «Bələdiyyələrin regional assosiasiyalarının Nümunəvi Əsasnaməsinin təsdiq edilməsi barədə» (ikinci oxunuş), Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə qismən dəyişikliklər edilməsi haqqında layihələrin müzakirəsi və qəbulu gözlənilir. Həmçinin yaz sessiyasında «Azərbaycan Respublikasının hökuməti və Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan Alimlərlə Əməkdaşlığa Yardım üzrə Beynəlxalq Assosiasiya (İNTAS) arasında elmi əməkdaşlıq haqqında», «MDB-nin iştirakçısı olan dövlətlərin kitabxanalararası abunəçilik sisteminin yaradılması haqqında» və bir sıra digər müqavilə və sazişlərin, habelə, «Müstəqil Dövlətlər Birliyinin Mədəni Əməkdaşlığına Dəstək Fondunun yaradılması haqqında Təsis Müqaviləsi»nə və ona əlavə olunmuş «Müstəqil Dövlətlər Birliyinin Mədəni Əməkdaşlığına Dəstək Fondunun Nizamnaməsi»nə qoşulmaq barəsində» edilməsi barədə» qanun layihəsinin müzakirəsi və təsdiqi nəzərdə tutulur.

G.Baxşəliyeva eyni zamanda bildirib ki, yaz sessiyasının 5-ci iclasında hökumətin hesabatı, bir müddət sonra isə İnsan hüquqları üzrə müvəkkil-ombudsmanın hesabatı dinlənilәcək: **«Bir sözlə, builki yaz sessiyası da gərgin və məhsuldar keçəcək»**.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 4 mart 2005-ci il.

GÖVHƏR BAXŞƏLİYEVA: «AVROPA BİRLİYİ CƏNUBİ QAFQAZIN TƏHLÜKƏSİZLİYİNƏ XÜSUSİ DİQQƏT YETİRİR»

FRANSA-AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ DYUMON DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI FRANSA XARİCİ İŞLƏR NAZİRLİYİNƏ MƏRUZƏ HAZIRLAYIB TƏQDİM EDƏCƏK

Bu günlərdə Fransanın paytaxtı Paris şəhərində Qərbi Avropa İttifaqının Parlamentlərarası Assambleyasının 51-ci sessiyası keçirilib. Sessiyada «Avropa İttifaqı və onun Şərq qonşuları arasında təhlükəsizlik sahəsində əməkdaşlıq», «Avropa təhlükəsizlik strategiyasının həyata keçirilməsi», «Avropa texnologiyasının mənimsənilməsi proqramı» və digər məsələlər müzakirə edilib. Bu mötəbər tədbirdə ölkəmizi təmsil edən Milli Məclis (MM) sədrinin müavini Gövhər Baxşəliyeva müzakirələrdə iştirak edərək, gündəlikdəki məsələlərə Azərbaycan tərəfinin münasibətini bildirib. Bu barədə «525»in müxbirinə məlumat verən MM sədrinin müavini G.Baxşəliyeva qeyd edib ki, o assambleyanın 51-ci sessiyasında məruzə ilə çıxış edib, gündəliyə çıxarılan «Avropa İttifaqı və onun Şərq qonşuları arasında təhlükəsizlik sahəsində əməkdaşlıq» və digər məsələlərə müsbət münasibətini bildirib. O deyib ki, Azərbaycan Avropa Birliyi (AB) ilə bütün sahələrdə, o cümlədən təhlükəsizlik sahəsində əməkdaşlığa böyük önəm verir: «Ölkəmiz Avrasiyada geostrateji əhəmiyyətə malikdir və mühüm enerji layihələrini həyata keçirir. Azərbaycan prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızda iqtisadi, siyasi, sosial, hüquqi sahədə köklü islahatlar aparılır. Bu islahatların məqsədi Azərbaycanın Avropaya inteqrasiyasını daha da sürətləndirməkdir. Məlum olduğu kimi, Azərbaycan və AB arasında 22 aprel 1996-cı il tarixində «Tərəfdaşlıq və əməkdaşlıq haqqında» saziş imzalanıb. Bu saziş ölkəmizlə AB arasında əlaqələrin qurulmasında hüquqi bazanı təşkil edir. Azərbaycan tərəfi həmçinin Avropa Birliyinin qonşuluq siyasətinə də qoşulub». G.Baxşəliyevanın sözlərinə görə, o, çıxışında ölkəmizin NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində də səmərəli əməkdaşlıq etdiyini söyləyib: «Ölkəmiz Avroatlantik strukturlarına geniş inteqrasiya edir. Bundan başqa, ölkəmiz terrorizmə qarşı mübarizə sahəsində də öz töhfəsini verib. ABŞ-da törədilmiş 11 sentyabr terror aktlarından sonra, ölkəmiz antiterror koalisiyasına qoşulub və öz hava məkanını koalisiya üzvlərinin istifadəsi üçün açıb. Qanunvericilik sahəsində də əməli işlər həyata keçirilib, yəni, qanunvericiliyimiz beynəlxalq tələblərə uyğunlaşdırılıb. Azərbaycan tərəfi silahlara nəzarət üzrə bütün müqavilələrə, o cümlədən

də terrorizmə qarşı 12 beynəlxalq konvensiyaya qoşulub».

Çıxışında həmçinin Azərbaycan sülhməramlılarının fəaliyyətinə toxunan vitse-spiker qeyd edib ki, sülhməramlılarımız Kosovoda, Əfqanıstanda və İraqda sülh yaratma missiyalarını uğurla həyata keçirirlər. Həmin hərbi kontingent NATO standartlarına tamamilə cavab verir. «Çıxışım zamanı onu da qeyd etdim ki, təhlükəsizlik sahəsində uğurlu nəticə əldə etmək üçün Cənubi Qafqazda münaqişələrin həll edilməsinə xüsusi diqqət yetirilməlidir. Bu məsələlər öz həllini tapmamış Avropada təhlükəsizlik sahəsində əməkdaşlıqdan söhbət açmağa dəyməz. Ermənistanın törətdiyi münaqişə Cənubi Qafqazda sabitliyin pozulmasında başlıca amildir. Təxminən 15 il bundan öncə Azərbaycan Respublikası öz iradəsinin əleyhinə olaraq bu münaqişəyə cəlb edilib. Münaqişə nəticəsində 20 faiz torpaqlarımız işğal edilib, bir milyondan artıq soydaşımız öz doğma yurdlarından didərgin düşərək hələ də çətin şəraitdə yaşamaqdadırlar. BMT Təhlükəsizlik Şurasının (TŞ) dörd mühüm qətnaməsi hələ də işğalçı dövlət tərəfindən icra edilmir. Bundan başqa ATƏT-in 1994-cü və 1996-cı illərdə keçirilən Budapeşt və Lissabon sammitlərinin qərarlarında təşkilatın üzvü olan dövlətlər BMT TŞ-nın bu qətnamələrini dəstəklədiklərini bildirib. Həmçinin Avropa Şurası (AŞ) kimi nüfuzlu beynəlxalq təşkilat rəsmi sənədlərində, xüsusilə bu yaxınlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə qəbul etdiyi məruzədə separatçı rejimi pisləyərək Ermənistanı işğalçı ölkə adlandırıb. Təəssüf ki, bütün bu qərarların Ermənistan rəhbərliyinin apardığı siyasətə heç bir təsiri olmayıb. Bundan başqa, son vaxtlar özünün müvəqqəti hərbi üstünlüyündən istifadə edən Ermənistanın ayrı-ayrı siyasi xadimləri və bir sıra kütləvi informasiya vasitələri açıq şantaj taktikası və Azərbaycana təzyiq yolunu seçərək bununla bağlı kifayət qədər təcavüzkar bəyanatlar verirlər». Vitse-spiker çıxışı zamanı onu da qeyd edib ki, şantaj heç vaxt bu siyasəti aparan ölkəyə xeyir gətirmir. «Digər tərəfdən yeni minilliyin başlanğıcında humanitar problemlər və insan hüquqları kimi məsələlər prioritet xarakter daşıdığı bir zamanda bu cür siyasətin hansısa nəticə verəcəyinə inanmaq sadəlövhlük olar. Azərbaycan xalqının səbri tükənməz deyil. Hesab edirik ki, Ermənistanla Azərbaycan arasındakı dinc danışıqlar potensialı tam başa çatmayıb. Biz ATƏT-in Minsk qrupunun bu məsələdə konstruktiv mövqeyinə ümid edirik. Zənnimcə, sivil dünya artıq yaxşı başa düşür ki, hər hansı dövlətin süqutu sabitliyin pozulmasına, xalqların əzab və iztirab çəkməsinə səbəb olur. Ona görə də mənə elə gəlir ki, beynəlxalq aləm separatizm siyasətinin nəticəsi olaraq dövlət sərhədlərinin dəyişdirilməsi çağırışı kimi təhlükəli meylə qarşı birləşməlidir. Dünya ictimaiyyəti nəhayət ki, ədalətin bərqərar olmasında öz sözünü deməlidir və işğal edilmiş torpaqlarımız azad olunmalıdır».

Vitse-spiker çıxışında həmçinin dövlət başçısının münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində danışıqların davam etdirilməsinə tərəfdar olduğunu da avropalı parlamentarilərin nəzərinə çatdırıb: «Prinsipial mövqe ondan ibarətdir ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin qorunması şərti ilə həll edilməlidir. Bu məsələdə nüfuzlu təşkilat olan Avropa Birliyi də öz imkanları çərçivəsində münaqişənin həll edilməsinə öz təsirini göstərməlidir. Təklif etdim ki, regional münaqişələrin tənzimlənməsi üçün beynəlxalq miqyasda qanunvericilik bazası yaradılmalıdır. Çıxışımdan dərhal sonra İngiltərədən olan nümayəndə Con Vilkinson münasibətini açıqladı. O qeyd etdi ki, məruzəmdə Cənubi Qafqaz regionunda yaranmış durum aydın əks edilib. O, mənim regional münaqişələrin tənzimlənməsi ilə bağlı təklifimi dəstəklədi və əlavə etdi ki, Dağlıq Qarabağ münaqişəsi tez bir zamanda ədalətli həll edilməlidir». G.Baxşəliyeva bildirib ki, sessiyanın iclasından sonra Qərbi Avropa İttifaqı Assambleyasının sədri Qoris, Milli Assambleyanın üzvü, Fransa-Azərbaycan dostluq qrupunun sədri Dyumon, Fransa-Qafqaz parlamentlərarası əməkdaşlıq qrupunun prezidenti Düpon, Fransa Senatının beynəlxalq əlaəqlər komissiyasının vitse-prezidenti Piççiya ilə faydalı görüşləri olub: «Fransa-Azərbaycan dostluq qrupunun sədri Dyumon qeyd edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində həllini tapmalıdır. O həmçinin əlavə etdi ki, münaqişə ilə bağlı Fransa Xarici İşlər Nazirliyinə məruzə hazırlayıb təqdim edəcək və həmin məruzədə münaqişənin həllinə daha çox diqqət yetirilməsinin vacibliyi vurğulanacaq».

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 24 iyun 2005-ci il.

MƏŞRUTƏ İNQİLABININ 100 YAŞI QEYD OLUNDU

AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu iki günlük beynəlxalq elmi konfrans keçirdi. Məşrutə inqilabının 100 illiyi münasibətilə keçirilən tədbirdə filologiya elmləri doktoru, professor, institutun direktoru, vitse-spiker Gövhər Baxşəliyeva, dünya şöhrətli alim Cavad Heyət, məşhur elm xadimi Səməd Sərdarniya (İİR), İranın Bakıdakı fövqəladə və səlahiyyətli səfiri Əfşar Süleymani və digər tanınmış adamlar iştirak edirdilər. Bu mötəbər tədbir münasibətilə konfransda edilən məruzələr «Məşrutə İnqilabı – 100» adıyla çap edilmişdir. Kitabda Azərbaycanın, İİR-in, Rusiyanın, Türkiyənin, ABŞ-ın görkəmli iranşünas alimlərinin Məşrutə hərəkatının ayrı-ayrı məsələlərinin işıqlandırılmasına aid məqalələr toplanıb. ***G.Baxşəliyeva*** *bu mövzuda olan fikirlərini oxucularımızla bölüşür:*

- XX əsrin əvvəllərində İranda hakimiyyətdə olan rejimin daxili və xarici siyasətindən, onun ölkənin mənafeyi əleyhinə olan fəaliyyətindən narazı qalan xalq kütləsi ayağa qalxaraq öz hüquqlarını tələb etməyə başladılar. İlk xalq çıxışları onlara qarşı amansızlıqda ad çıxarmış saray vəziri Atabəy Əzəmin vəzifəsindən kənarlaşdırılması tələbi ilə başladı. Xalq hərəkatının genişlənməsindən və dərinləşməsindən qorxuya düşən Müzəffərəddin şah Atabəy Əzəmi başqası ilə - Eynüddövlə ilə əvəz etsə də, xalqın rejim əleyhinə çıxışları səngimədi. Bu çıxışlar Tehranla yanaşı, Təbrizdə, İsfahanda, Rəştdə, Şirazda və digər əyalət mərkəzlərində də baş qaldırdı. Çıxışların səciyyəvi cəhəti ondan ibarət idi ki, burada din xadimlərindən tutmuş tacir, bazar əhli, ziyalılar, bir sözlə, xalqın bütün zümrələri fəal iştirak edirdi. Bu mənada İran tarixində «Məşrutə hərəkatı» adlandırılan genişmiqyaslı hərəkat rejim əleyhinə və ölkədəki haqsızlıqlara qarşı İran xalqının azadlıq hərəkatı idi.

1905-ci ilin sonunda yüksələn bir xətlə inkişaf edən hərəkatın iştirakçıları Atabəy Əzəmin yerində oturan və xalqa qarşı zorakılıqda ondan heç də geri qalmayan Eynüddövlənin hakimiyyətdən uzaqlaşdırılmasını, ölkədə islahatların keçirilməsini və ədalətin bərpa olunmasını rəhbərlikdən təkidlə tələb etdilər.

Ölkənin bir çox yerlərində, o cümlədən Tehranda, əhalinin oturaq etiraz aksiyaları başlandı ki, bu işə bilavasitə vətənpərvər ruhanilər rəhbərlik edirdi.

1905-ci ilin dekabrında Tehranda bir neçə adlı-sanlı din xadiminin həbs edilməsi, bununla yanaşı, rejimin xalqa qarşı zorakılığı ölkənin bir sıra əyalətlərində azadlıq istəyən bütün insanları ayağa qaldırdı. Nümayişçilərin bir qismi öz qəzəb və nifrətini Tehrandakı Şah Əbdüləzim məscidində oturaq etirazla bildirdilər. Xalqın ilkin tələbləri baş nazirin istefaya göndərilməsi, islahatların keçirilməsi, möhtəkirliyin qarşısının alınması, məclisin çağırılması,

əcnəbi müşavirlərin dövlət işlərindən uzaqlaşdırılıb ölkədən qovulmasından ibarət idi. Xalq hərəkatının miqyasca genişlənməsi, ordu sıralarında bəstə oturanlara rəğbətin getdikcə artması şahlıq rejimini qorxuya saldığından, rejim üçün güzəştə getməkdən başqa yol qalmamışdı. Nəticədə 1906-cı ilin əvvəllərində Müzəffərəddin şah xalqın tələblərini yerinə yetirmək haqda vəd verməli oldu. Bu, Məşrutə hərəkatı tarixində rejimin xalq hərəkatı qarşısında ilk dəfə geri çəkilməsi olsa da, verilmiş vədə əməl olunmadı. Belə olan təqdirdə ölkədə, xüsusən Tehranda, Təbrizdə və digər əyalət mərkəzlərində xalq hərəkatları yenidən gücləndi. Dövlətin zorakılığına etiraz əlaməti olaraq Tehranı tərk edib Quma yığışan bir dəstə adlı-sanlı şəxslər xalqın adından şaha öz tələblərini bəyan etdilər.

Bu zaman Təbriz əhalisi mərkəzi hakimiyyətə xəbərdarlıq etdi ki, xalqa qarşı zorakılığın qarşısı alınmasa və Qanuni-Əsasi (Konstitusiya) iki gün ərzində elan edilməsə, xalq silahlı üsyana qalxacaq və zorakılığa zorakılıqla cavab verməli olacaqdır.

Xalq hərəkatı qarşısında növbəti dəfə geri çəkilmək məcburiyyətində qalan Müzəffərəddin şah 1906-cı il avqustun 5-də Konstitusiya haqqında fərman imzalamalı oldu. Bundan bir ay sonra Məclisin çağırılması haqda əsasnamə şah tərəfindən təsdiq edildi. Bu, Məşrutə hərəkatının İran tarixində mühüm nəticələrindən biri hesab edilir.

1906-cı ilin payızında ölkədə Şura Məclisinə seçkilər başlandı. 6 oktyabr 1906-cı ildə nümayəndələrinin çoxu xalq elçilərindən ibarət olan Məclis Tehranda toplandı. Məclisin ilk iclasında - Konstitusiya layihəsi və az sonra əlavələr qəbul olundu. Müəyyən çatışmayan cəhətlərinə baxmayaraq, ilk Konstitusiya ölkənin demokratikləşdirilməsində irəliyə doğru atılmış mühüm bir addım idi.

Sonralar verilmiş Məşrutə azadlıqlarının alınması, bunların yenidən bərpa edilməsi və xalqın hüquqlarının qorunması uğrunda yaradılmış «Mücahidlər» təşkilatının kütlə içərisində nüfuzunun durmadan artması, Xalq əncümənlərinin (Şuraların) fəaliyyətə başlaması, daha radikal tələblərin irəli sürülməsi həm şah səltənətini və həm də onu himayə edən xarici dövlətləri (ilk növbədə çar Rusiyası və Böyük Britaniya krallığını) narahat etməyə başladı. Tehrana hərbi qubernator təyin edilmiş rus kazak briqadasının polkovniki Lyaxovun başçılığı altında Məmmədəli şahın əmri ilə 1908-ci il iyunun 22-də şəhərdə azadlıq tələb edən qüvvələrə - məşrutəçilərə qarşı genişmiqyaslı hücum başlandı. Tehranda, Təbrizdə və ölkənin digər yerlərində azadlıq tələb edən qüvvələrə qarşı amansız repressiyalar vüsət aldı...

Azadlıq və demokratik hüquqlar uğrunda mübarizə aparan xalqa qarşı Teh-

randa amansız siyasi mühitin yarandığı bir zamanda Məşrutə hərəkatının mərkəzi Azərbaycana – Təbrizə keçdi. Sərdari - milli Səttərxanın başçılıq etdiyi məşrutəçilər şah və onu müdafiə edən mürtəce qüvvələrin qarşısına mütəşəkkil, mübariz və yenilməz ordu kimi çıxdı. Azərbaycan Məşrutəçiləri və onların silahlı müqavimət dəstəsi olan mücahidlər öz qəhrəmanlıqları, igidlikləri və dönməz əqidələri ilə Məşrutə tarixinin qızıl və həmişə yaddaqalan səhifələrini yazdılar. Bu qəhrəmanlıq epopeyası İran və dünya xalqları tərəfindən həmişə hörmət, məhəbbətlə qeyd edilmiş və bu gün də qeyd edilir.

Təbriz 1908-1909-cu illərdə tam 11 ay şah qoşunlarının, Rəhimxanın atlı dəstələrinin timsalında mürtəce qüvvələrin mühasirəsi şəraitində yaşamalı olmuşdu. Bu aylarda mücahidlərin, onlara arxa duran xalqın və inqilabçılara başçılıq edən Səttərxanın qəhrəmanlığı, yenilməzliyi və xalqın mübariz keyfiyyətləri bariz şəkildə üzə çıxmışdı. Təbrizin düşmənlərin birləşmiş qüvvələri qarşısında mətanətlə dayanması İranın digər əyalətlərində monarxiya və irtica əleyhinə xalqın mübarizəsinə yeni impuls verdi, onları yeni hücumlara ruhlandırmış oldu. Tehranla yanaşı, Gilan, İsfahan, Yəzd, Şiraz və digər əyalət mərkəzlərində Məmmədəli şah rejimi əleyhinə xalq hərəkatı dirçəldi və yeni vüsət aldı. Son nəticədə 1909-cu il iyulun 16-da Məmmədəli şah taxtdan salındı. O, ölkədən qaçmaq məcburiyyətində qaldı. Taxtdan salınmış sahın yerinə 14 yaşlı oğlu Əhməd Qacar şahlıq kürsüsünə əyləşdirildi.

Məşrutəçilərin tələbi və iradəsi ilə dövlət yeni seçki qanunu qəbul etdi. 1909-cu ilin noyabrın 17-də 2-ci çağırış İran Milli Şura Məclisi Tehranda açıldı. Bu, məşrutəçilərin növbəti qələbəsi idi. Həmin tarixdən 1979-cu il İran inqilabına qədər qonşu İran dövləti konstitusiyalı şahlıq üsul-idarəsi kimi fəaliyyət göstərmişdir.

1905-1911-ci illərdə ölkənin siyasi, iqtisadi qurumlarında və başqa təsisatlarda, həmçinin milli münasibətlərdə və s. sahələrdə əsaslı dəyişikliklər yaradılmasına imkan verilməmişdi. Bununla bərabər bir sıra azadlıqların əldə edilməsi üçün ilk addımlar atılmışdı. Nümayəndəli Məclisin fəaliyyətə başlaması, Konstitusiyanın qəbul edilməsi, Əyalət və Vilayət Əncümənlərinin təşkili və s. bu addımlardan hesab edilir.

1905-1911-ci illər Məşrutə inqilabının mühüm nəticələrindən biri İranın gələcək demokratik əsaslar üzrə inkişafı üçün səmərəli zəmin yaratması olmuşdur. Məşrutə hərəkatından sonra XX əsrdə İranda baş vermiş xalq hərəkatları məhz bu zəmin üzərində dirçəlmişdi.

«Hərbi and» qəzeti, 12 iyun 2005-ci il.

«XARİCİ ELMİ EZAMİYYƏTLƏR ÜÇÜN İNSTİTUTUMUZA MALİYYƏ VƏSAİTİ AYRILMIR»

ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN DİREKTORU, PROFESSOR GÖVHƏR BAXŞƏLİYEVA: «İNSTİTUTDA ƏVVƏLKİ İLLƏRDƏ MÖVCUD OLAN BIR SIRA PROBLEMLƏR, TƏƏSSÜF Kİ, ARADAN QALDIRILMAYIB»

«Hesabat ilində institut əməkdaşları fərdi müqavilə üzrə çalışıblar. Elmi-tədqiqat işləri institutun elmi istiqamətinə daxil olan 9 problem və 16 mövzu çərçivəsində aparılıb». Bu fikirləri «525»in müxbirilə söhbətində 2005-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi fəaliyyəti haqqında məlumat verən institutun direktoru, professor Gövhər Baxşəliyeva dilə gətirib. Onun sözlərinə görə, institutun elmi istiqamətlərindən biri «Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi və mədəni inkişafı, Azərbaycanla əlaqələri» adlanır ki, bu istiqamətə onun özü rəhbərlik edir: «Hesabat ilində İnstitutda 32 elmi-tədqiqat işi yerinə yetirilib. Qalan elmi-tədqiqat işləri keçicidir».

Tamamlanmış işlərdən olan «Ərəb ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti, Azərbaycanla əlaqələri» adlı problemə və «Ərəb ölkələrinin tarixi və ictimai-siyasi vəziyyəti» adlı mövzuya aid olan «Cahiliyyə ərəbləri və sabilik məzhəbi» tədqiqat işində islamdan əvvəl bütpərəst ərəblər arasında yayılmış dini etiqadlardan biri olan sabilik məzhəbindən bəhs edilir. «Şimal-Qərbi Azərbaycan tarixinə dair ərəbdilli arxeoqrafik materiallar» tədqiqat işində sərhəd bölgəsi olan Şimal-Qərbi Azərbaycanda XVI-XVIII əsrlərdə mövcud olmuş Car-Balakən icmalarının tarixi, icmaların İran və Osmanlılara, daha sonra Rusiya tərəfindən işğala qarşı mübarizəsi təsvir olunur.

«Abbasilər xilafətində mərkəzdənqaçma meyllərinin güclənməsi: Mosulda Həmdanilər sülaləsinin meydana gəlməsi və güclənməsi» tədqiqat işində IX əsrin əvvəllərində Abbasilər xilafətinin hərbi-siyasi və iqtisadi qüdrətinin zəifləməsi səbəblərini təhlil edən müəllif çoxsaylı tarixi mənbələrə və araşdırmalara istinad edərək göstərilən dövrdə xilafətdə baş vermiş xalq üsyanlarını və siyasi parçalanma prosesini ətraflı şəkildə şərh edir.

«İranın tarixi, iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti, İran-Azərbaycan əlaqələri» adlanan digər problemə və «İranın tarixi və ictimai-siyasi vəziyyəti» mövzusuna aid olan «İran İslam Respublikasının ictimai-siyasi həyatında mühafizakarlarla islahatçılar arasında mübarizə (1997-2000-ci illər)» adlı tədqiqat işində İranda islahat hərəkatının qısa tarixi və əsas xüsusiyyətləri, 1978-79-cu

illər inqilabından sonra tədricən islahatçı qüvvələrin formalaşması, islahatçılığın siyasi-ideoloji cərəyana çevrilməsi, islahatçıların siyasi uğurları və apardıqları islahatlar, mühafizəkar qüvvələrin islahatçılara qarşı fəal mübarizəyə başlaması, mübarizənin əsas cəhətləri və islahat hərəkatının perspektivləri əsasən İran materialları əsasında araşdırılır. «Sovet Azərbaycanında iranlılar icmasının mövqeyi və vəziyyəti (20-40-cı illər)» tədqiqat işində XX əsrin əvvəllərindən Qafqazda iranlı icmasının formalaşmasının tarixi-iqtisadi amilləri nəzərdən keçirilir, iranlı icmasının siyasi, mədəni, ictimai təşkilatlarının yaranması və fəaliyyəti tədqiq edilir. Həmçinin Azərbaycan sovetləşdirildikdən sonra iranlıların vətəndaşlıq statusu, iranlı siyasi mühacir cəmiyyəti, İran Kommunist Partiyasının Qafqazdakı fəaliyyəti və mövqeyi, İran maarif və dini müəssisələrinin, iranlı icmasının tanınmış nümayəndələrinin şəxsiyyəti və başqa məsələlər araşdırılır.

«Cənubi Azərbaycanın tarixi və müasir sosial-iqtisadi durumu» adlanan mövzuya aid olan «1978-1979-cu illər İran inqilabından sonra Güney Azərbaycanda milli mədəniyyətin inkişafı» tədqiqat işində qeyd olunur ki, 1978-1979-cu illər İran inqilabında fəal surətdə iştirak etmiş və inqilabın qələbəsində mühüm sosial qüvvə kimi yüksək rol oynamış güney azərbaycanlıların əsas tələblərindən biri də milli hüquqlarla bağlı idi. Tədqiqat işində güney azərbaycanlıların inqilabın qələbəsindən sonra milli mədəniyyətin inkişafı yolunda həyata keçirdikləri tədbirlər, anadilli qəzet və dərgilərin nəşri və yayılması sahəsində fəaliyyətləri əks olunub. Əsərdə milli mədəniyyətin inkişafı yolunda ilk addım kimi geniş kütləvi maarifləndirmə sahəsində ana dilini öyrədən ilk savadlandırma tədbirlərindən də bəhs edilir, «İnqilab yolunda» dərgisinin, eləcə də «Azərbaycan» və digər qəzetlərin fəaliyyəti təhlil olunur.

«Ağ inqilab» dövründə Güney Azərbaycanın sosial-siyasi və iqtisadi vəziyyəti (XX əsrin 60-70-ci illəri)» tədqiqat işində keçən yüzilliyin 60-cı illərində Güney Azərbaycanda Pəhləvi rejimi tərəfindən həyata keçirilən «iqtisadi və mədəni islahat»lardan, onların rejimin mənafeyinə xidmət edən mahiyyətindən bəhs olunur.

«İslam inqilabından sonra Cənubi Azərbaycandakı milli oyanışda bədii ədəbiyyatın rolu» tədqiqatında isə 1979-1990-cı illərdə Güney Azərbaycanda çıxan «Çənlibel», «Yoldaş», «Koroğlu», «Varlıq», «Güney», «Şəfəq», «Dədə Qorqud» və s. bu kimi anadilli mətbuat orqanlarına, həmin illərdə çap olunmuş şer və nəsr kitablarına nəzər salınır, mətbuat orqanlarından ədəbi-bədii nümunələr tədqiq və təhlil olunur. «İslam inqilabından sonra İranda Azərbaycan dili məsələsi (1979-2000-ci illər)» adlı tədqiqat işində islam inqilabından sonra güney azərbaycanlılarının milli hüquqlar uğrunda mübarizəsi təhlil olunur.

«Türkiyənin tarixi, iqtisadiyyatı, ictimai siyasi vəziyyəti, Türkiyə-Azərbaycan əlaqələri» adlanan problemə aid olan «Yüksəliş dövründə Osmanlı sənətkarlığı» başlıqlı tədqiqat işində ortaçağ Osmanlı sənətkarlığının inkişafının iqtisadi-siyasi amilləri və xüsusiyyətləri təhlil olunur.

«1918-ci ildə Qafqaz İslam Ordusunun Cənubi Qafqazda hərbi fəaliyyəti» tədqiqatında isə 28 may 1918-ci ildə öz müstəqilliyini elan etmiş Azərbaycan Demokratik Respublikasının ərazilərini bolşevik-daşnak rejimindən azad etmək uğrunda döyüşən Osmanlı ordusunun 5-ci diviziyasının nümayiş etdirdiyi şücaət və qəhrəmanlıq araşdırılır.

Hesabat ilində İnstitut əməkdaşlarının aşağıdakı monoqrafiya, kitab, broşür və topluları çapdan çıxıb: Z.M.Bünyadov. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı, «Pedaqogika», 2004. Əsərin Azərbaycan dilində yeni nəşri orijinal əsasında yenidən işlənib və təkmilləşdirilib.

Ə.Rəhimli «Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946)». 230 səh. Kanada, 2005 (Azərbaycan dilində, əski əlifba ilə). Monoqrafiya 1941-1946-cı illərdə Güney Azərbaycanda baş vermiş milli-demokratik hərəkatdan bəhs edir.

Beynəlxalq əlaqələrə gəlincə, G.Baxşəliyeva qeyd edib ki, cari ildə İnstitut əməkdaşları bir sıra beynəlxalq konfranslarda elmi məruzələrlə çıxış ediblər. G.Baxşəliyevanın 2005-ci ildə Bakı şəhərində «Qloballaşan dünyada islam» mövzusunda keçirilən beynəlxalq elmi konfransda «Müasir dövrdə qloballaşma və dinlə bağlı amillərin rolu», «Məşrutə inqilabı – 100» mövzusunda keçirilən beynəlxalq elmi konfransda isə «XX əsr İran tarixində əlamətdar hadisə» adlı məruzələri olub.

Eyni zamanda, institutun əməkdaşı professor Ş.Ə.Tağıyeva «Məşrutə inqilabı – 100» konfransında «1905-1911-ci illər inqilabı ərəfəsində İranın ictimai-siyasi və iqtisadi vəziyyəti», tarix elmləri namizədi S.Ə.Rüstəmova-Tohidi «Stalinizm dövründə repressiyalar və deportasiyalar: iranlılar Stalin repressiyalarının və deportasiyalarının obyekti kimi», «Postsovet dövründə Azərbaycan tarix elmində yeni istiqamətlər: «Qafqazda yaşayan xarici icmalar Stalin repressiyaları dövründə. Qafqazda yaşayan iranlıların Qazaxıstana sürgün edilməsi tarixindən» adlı məruzələrlə Amsterdam və Almatı şəhərində beynəlxalq elmi konfransda çıxış ediblər.

İnstitutun təşkil etdiyi elmi konfrans və sessiyalara gəldikdə, G.Baxşəliyeva deyib ki, cari ildə «Məşrutə inqilabı – 100», «Qloballaşan dünyada islam» adlı beynəlxalq elmi konfranslar təşkil olunub. Bundan başqa «Uydurma erməni soyqırımı», «Şərqşünas və general Sadiq bəy Ağabəyzadənin həyat və yaradıcılığı» adlı beynəlxalq elmi sessiya da keçirilib.

Elmi şuranın elmi-təşkilati fəaliyyətindən danışan institut direktoru deyib ki, cari ildə sözügedən şuranın 9 iclası olub. Elmi Şuranın fəaliyyətinin əsas istiqamətləri elmi-tədqiqat işlərinin vaxtında yerinə yetirilməsinə, müdiriyyətlə əməkdaşlar arasında bağlanan yeni müqavilə işlərinin mövzularının müzakirələrinə yönəldilib. İl ərzində Elmi Şuranın iclaslarında şöbələrin plan işləri, elmi-tədqiqat işlərinin nəticələri, çapa tövsiyə edilən kitablar müzakirə edilib, institutun aspiranturasına qəbul, İnstituta dissertant qəbulu, bəzi aspirant və dissertantların mövzularının dəqiqləşdirilməsi, müdafiəyə buraxılmaq üçün namizədlik dissertasiyaları, «Elmi araşdırmalar», «Filologiya məsələləri» və «Hikmət» məcmuələrinin çap olunması, İnstitutun bir sıra texniki ehtiyacları, şöbələrin yarımillik və illik hesabatları, İnstitutda fəaliyyət göstərən müqavilə komissiyasının hesabatı dinlənilərək müzakirə olunub.

Çatışmazlıqlar və təkliflər barədə isə G.Baxşəliyeva bunları dilə gətirib: «İnstitutda əvvəlki illərdə mövcud olan bir sıra problemlər, təəssüf ki, dəfələrlə müraciətlərimizə baxmayaraq, aradan qaldırılmayıb. Bunlardan ən mühümləri əməkdaşlarımızın normal elmi fəaliyyətinə imkan verən sayda otaqların olmaması və İnstitutun yerləşdiyi sahənin böyük bir hissəsinin təmirə ehtiyac duymasıdır. İstilik sisteminin işləməməsi nəticəsində əməkdaşlarımızın qış aylarında normal elmi fəaliyyətlə məşğul olmaları qeyri-mümkündür».

G.Baxşəliyeva onu da bildirib ki, uzun illər müraciət olunmasına baxmayaraq, xarici elmi ezamiyyətlər üçün AMEA rəhbərliyi tərəfindən maliyyə vəsaiti ayrılmır: «Bunsuz isə ölkəmizin tarix, ədəbiyyat və mədəniyyətinə dair lazımi səviyyədə elmi araşdırma aparmaq qeyri-mümkündür. İnstitutun xaricdə nəşr olunan elmi ədəbiyyatı və mətbuatı əldə etməsinin mümkünsüzlüyü problemi də qalmaqdadır. Bundan əlavə İnstitutun minik avtomobilinə də ehtiyacı var. Fikrimizcə, Şərqşünaslıq İnstitutuna cari ildə maliyyə vəsaiti ayrılarkən göstərilən problemlərin təxirə salınmadan həllinin zəruriliyi nəzərə alınmalıdır».

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 23 dekabr 2005-ci il.

GÖVHƏR BAXŞƏLİYEVA: «İRADƏ OLSA, «TƏHSİL HAQQINDA» QANUNU YAZ SESSİYASININ SONUNA QƏDƏR QƏBUL ETMƏK MÜMKÜNDÜR»

SABİQ VİTSE-SPİKER HESAB EDİR Kİ, QANUN LAYİHƏSİNİ MÜZAKİRƏYƏ ÇIXARMAZDAN ÖNCƏ, DÜNYA TƏCRÜBƏSİ ÖYRƏNİLMƏLİDİR

Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyası uzun illərdən bəri qəbul edilməsi düyünə düşən «Təhsil haqqında» qanun layihəsində köklü dəyişikliklər etmək niyyətindədir. Bu barədə kütləvi informasiya vasitələrinə məlumat verən sözügedən komissiyanın sədri Şəmsəddin Haciyev bildirib ki, artıq fevral ayından etibarən bu istiqamətdə müzakirələrə başlanacaq. Onun sözlərinə görə, son vaxtlar təhsildə ciddi dəyişikliklər baş verdiyindən sözügedən qanun layihəsinin də yenidən işlənməsinə ehtiyac yaranıb. «Qanun dünya təcrübəsinə əsaslanmalı və xüsusən də Avropanın mövcud təhsil sisteminin Azərbaycana gətirilməsinə imkan verməlidir» – deyən komissiya sədri əlavə edib ki, bununla bağlı bir çox məsələlər mühiyyət etibarilə mövcud qanun layihəsində əksini tapmayıb. Buna görə də layihə yenidən işlənməlidir.

Komissiya sədrinin açıqlaması ilə özünün də mətbuatdan tanış olduğunu bildirən sabiq vitse-spiker Gövhər Baxşəliyeva da mövcud vəziyyətin tələblərinə uyğun olaraq «Təhsil haqqında» qanun layihəsində müəyyən dəyişikliklərin edilməsini düzgün sayır. Onun sözlərinə görə, hazırda müzakirə olunan qanun layihəsi ötən 5 ilin tələblərinə uyğun hazırlanıb: «Mövcud qanun layihəsi o dövr üçün yüksək səviyyədə hazırlanmışdı. Sadəcə, bir məsələ ilə bağlı razılığa gələ bilmədik. Komissiyanın keçmiş sədri Şahlar Əsgərov Vahid Milli Testin keçirilməsini təklif edirdi. Indi Şəmsəddin Hacıyev hansı dəyişikliklərdən danışır, açığını deyim ki, bu barədə məlumatsızam. Ancaq onun təklif etdiyi yeniliklər doğrudan da ağlabatan olsa, təhsil sisteminin inkişafına xidmət etsə, gələcəkdə onları qəbul etmək olar. Ümumiyyətlə, mən də hesab edirəm ki, sözügedən qanun layihəsini müzakirəyə çıxarmazdan öncə biz bu sahədə dünya praktikası ilə yaxından tanış olmalıyıq. Sonradan həmin praktika əsasında yerli xüsusiyyətlərə uyğun qanun hazırlamalıyıq».

G.Baxşəliyeva hesab edir ki, mövcud test sistemi saxlanılmalıdır. Millət vəkilinin fikrincə, 1992-ci ildən tətbiq edilən test üsulu Azərbaycanın mövcud reallıqlarına cavab verir: «Hələlik bu test sistemini saxlamalıyıq. Amma 5 ildən sonra reallıqların necə olacağını deyə bilmərəm. Bəlkə də həmin vaxt bu

məsələyə yenidən baxıla bilər».

Layihədəki digər mübahisəli məqam – rektorların seçilməsi və ya təyin edilməsi ilə bağlı məsələyə toxunan millət vəkili bu məsələdə daha çox təyinata üstünlük verdiyini bildirib: «Mən daha çox rektorların təyin edilməsinin tərəfdarıyam. Çünki rektorların seçilməsi müəyyən problemlər yaradır. Yadınızdadırsa, bir müddət əvvəl bizdə buna cəhd edilmişdi. Amma həmin vaxt çoxlu problemlər yarandı. İndi də həmin problemlərin yaranacağı istisna deyil».

Aspiranturanın saxlanıb-saxlanılmaması məsələsinə gəlincə, G.Baxşəliyeva artıq bu məsələdə konsensusun əldə olunduğunu bildirib. Eks vitse-spikerin dediyinə görə, hazırda mövcud olan aspiranturaların adının dokturantura ilə əvəz edilməsilə fikir ayrılıqları aradan qalxıb: «Nəzərdə tuturuq ki, aspiranturada müdafiə edən şəxslər fəlsəfə doktoru adlandırılsınlar. Əgər həmin şəxslər sonradan elmin konkret sahəsi üzrə ixtisaslaşmaq istəyirlərsə, ayrıca ikinci müdafiəni etsinlər».

Millət vəkili qeyd edib ki, Milli Məclisin yeni Elm və təhsil daimi komissiyasının üzvləri artıq bir dəfə «Təhsil haqqında» qanun layihəsi ilə bağlı müzakirələr aparıblar. Amma bu müzakirələr əhatəli olmayıb: «Bu məsələnin yenidən müzakirəsinə ehtiyac var. Hesab edirəm ki, əgər iradə olsa, yaz sessiyasının sonuna qədər bu sənədi parlamentin plenar iclasının müzakirəsinə çıxarıb, qəbul etmək mümkündür. Çünki bu qanunun qəbulu cəmiyyətin sosial sifarişidir».

G.Baxşəliyeva onu da deyib ki, Milli Məclisin Elm və təhsil daimi komissiyasının üzvləri Təhsil Nazirliyinə dəvət olunub. Komissiya üzvlərinin nazirliyin kollegiya iclasında iştirakı nəzərdə tutulur. Çox güman ki, həmin iclasda «Təhsil haqqında» qanun layihəsinin yeni variantı deputatların iştirakı ilə müzakirəyə çıxarılacaq.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 18 yanvar 2006-cı il.

MİLLƏT VƏKİLİ GÖVHƏR BAXŞƏLİYEVA: «DAHA ÇOX SÜLH, DANIŞIQLAR YOLUNA ÜSTÜNLÜK VERMƏLİYİK»

«Qarabağ münaqişəsinin indi yalnız hərb yoluyla həll variantı birmənalı olaraq mümkün deyil. Bu, indiki dövrün reallıqları və şərtləri daxilində real görünmür». Bu fikirləri sabiq vitse-spiker, millət vəkili Gövhər Baxşəliyeva dilə gətirib: «Biz indi orta əsrlərdə yaşamırıq ki, hansısa şəxsi qəhrəmanlıq, şücaət nəticəsində ərazilərimizi azad edək. Eyni zamanda bildiyiniz kimi, bu regionda bir sıra dövlətlərin, supergüclərin maraqları kəsişir və toqquşur. Bununla yanaşı, bizim hərbi cəhətdən gücümüz, silahımız nə qədər çox olsa da, Qarabağ münaqişəsinin tək müharibə, hərb variantı ilə həlli mümkün görünmür. Istənilən hərbi gücə qarşı daha böyük hərbi güc çıxara bilərlər. Bu baxımdan, biz nahaq yerə cavanlarımızı məhvə doğru sürükləyə bilmərik, sürükləməməliyik. Onları gənc yaşlarında qurban verməməliyik. Biz bu məsələdə daha çox sülh, danışıqlar, diplomatiya yoluna üstünlük verməliyik və çalışmalıyıq ki, məhz dinc vasitələrlə 22 ildən artıq davam edən bu qanlı münaqişənin xalqımız üçün müsbət, ədalətli həllinə nail olaq». Bizimlə söhbətində millət vəkili sözügedən münaqişənin tənzimlənməsində vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupu və onun həmsədrlər institutunun fəaliyyətinə də öz narazılığını bildirib. G.Baxşəliyevanın qeyd etdiyinə görə, Minsk qrupunun və onun həmsədlər institutunun yaranmasından uzun müddət keçməsinə baxmayaraq, hələ də münaqişənin dinc, danışıqlar yoluyla tənzimlənməsinə, həll olunmasına nail olmaq mümkün olmayıb: «Danışıqlar prosesində bəlkə də hansısa irəliləyişlər var və bu onların özlərinə məlumdur, ancaq açıqda biz bu irəliləyişləri görmürük. Məsələnin sonu bugünədək görünmür. Ona görə bəlkə düşünmək lazımdır, bəlkə hansısa başqa bir formatda bu danışıqlar aparılmalı, davam etdirilməlidir?». Sülhməramlı qüvvələrin bölgədə yerləşdirilməsi məsələsinə gəlincə isə G.Baxşəliyeva deyib ki, sülhməramlılar o vaxt münaqişə bölgəsində yerləşdirilə bilər ki, erməni hərbi birləşmələri işğal olunmuş əraziləri azad etmiş, əhali həmin ərazilərə qayıtmış olsun. Yalnız bundan sonra insanların təhlükəsizliyini təmin etmək üçün BMT çətiri altında sülhməramlıları münaqişə bölgəsinə yerləşdirmək olar: «İndiki şəraitdə isə sülhməramlıların münaqişə bölgəsinə yerləşdirilməsi heç cür arzuolunan deyil. Bu, bizə müsbət heç nə verməz. Amma yeri gəlmişkən onu qeyd etmək istəyirəm ki, Qarabağ münaqişəsinin həlli yollarından biri də hər bir azərbaycanlının bu istiqamətdə cani-dildən iş görməsindən, fəaliyyət ortaya qoymasından keçir. Harada oluruqsa-olaq, biz bu istiqamətdə öz fəaliyyətimizi göstərməli, təbliğatla məşğul olmalı, Azərbaycan, Qarabağ həqiqətlərini dünya

ictimaiyyətinə olduğu kimi çatdırmalıyıq. Biz tarixi faktlara əsaslanan materialların xarici dillərə, xüsusilə ingilis dilinə tərcümə olunaraq yayımlanmasına nail olmalıyıq. Biz hansı ölkəyə gediriksə, hansı beynəlxalq tədbirə qatılırıqsa, bu materialları özümüzlə aparmalı, onları xaricilər arasında yaymalıyıq. Eyni zamanda, bu materialları dünyanın ən nüfuzlu kitabxanalarına göndərməliyik. Təbliğat yoluyla bu məsələdə özümüzə daha çox dost, tərəfdaş tapmağa cəhd göstərməliyik. Ermənistanı iqtisadi cəhətdən necə dünyadan təcrid etmişiksə, məhz o cür də ideoloji baxımdan təcrid etməyə çalışmalı və buna nail olmalıyıq. Biz ermənilər beynəlxalq aləmdən tam təcrid etməliyik ki, onlar özləri sülhə, kompromisə gəlməyə məcbur olsunlar. Əgər biz bunlara tam nail ola bilsək, Qarabağ münaqişəsinin ədalətli həllinə tezliklə yaxınlaşa və nail ola bilərik».

Müsahibəni apardı: Kamil Həmzəoğlu,
«525-ci qəzet», 20 fevral 2010-cu il.

AZƏRBAYCAN ƏRAZİSİ ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNDƏN İSTİFADƏ ÜÇÜN ÇOX ƏLVERİŞLİDİR

Martın ilk günlərində Avstriyanın Uels şəhərində «Beynəlxalq davamlı enerji günləri» mövzusunda konfrans keçirilib. Azərbaycanı bu toplantıda Milli Məclisin deputatı Gövhər Baxşəliyeva təmsil edib. Konfransda Azərbaycan nümayəndəsi öz məruzəsi ilə ölkəmizin energetika sektorundakı mövcud vəziyyət və həyata keçirilən layihələr barədə iştirakçılara müfəssəl məlumat verib.

Tədbir barədə təəssüratlarını bizimlə bölüşən Gövhər xanımın sözlərinə görə, konfransın açılış günü enerji mənbələrindən alınan istilik və soyuqluq enerjisi məsələsinə həsr edilib. Mövzu üzrə Avstriyanın energetika üzrə regional naziri Rudi Anskober, bu ölkənin nəqliyyat, innovasiya və texnologiya üzrə federal naziri Maykl Paut, Almaniyanın Energetika üzrə Elmi-Tədqiqat İnstitutunun əməkdaşı Klaudia Kemfert, Avropa Kommissiyasının Energetika və Nəqliyyat üzrə Baş İdarəsinin rəhbəri Xose Riesqo Villanueva çıxış edib. Onlar məruzələrində ekoloji təhlükəsizlik, istehsal tullantılarının yenidən sənayedə işlənməsi, yaşayış binalarının istilik və soyuducu sistemlərinin mərkəzləşdirilmiş enerji təminatı sisteminə çevrilməsi, Yaxın Şərq və Nigeriyadakı qeyri-sabit siyasi mühitin neftin qiymətinə təsiri, nüvə zavodları və uranın istehsalının yayılması, eləcə də Almaniyada elektrik enerjisi dəyərinin çox yüksək olması, neftin qiymətinin qeyri-sabitliyi və bu kimi məsələlərə toxunublar.

Konfransın ikinci günü «Avropada enerji səmərəliliyi» mövzusu müzakirəyə çıxarılıb. Daha sonra iştirakçılar dünya texnologiyasının nailiyyətlərindən olan müxtəlif şirkətlərin istehsal etdikləri istilik qurğuları ilə tanış olmaq üçün sərgi pavilyonuna yollanıblar. Martın 3-də konfrans öz işini «Avropa regionu üçün yaşıl enerji» mövzusu ilə davam etdirib və Gövhər Baxşəliyevanın məruzəsi dinlənilib. Gövhər xanım ilk növbədə son zamanlar Azərbaycanın yanacaq-energetika sektorunda müşahidə olunan müsbət tendensiyalardan danışıb: «**Məruzədə iştirakçıların diqqətinə çatdırdım ki, ölkəmizdə neftin, qazın, enerjinin istehsalı ildən ilə artır, ölkəmizin sənaye, məişət obyektlərinin və əhalinin tələbatı bütün neft məhsulları, təbii qaz və elektrik enerjisi ilə təchiz olunur. Ümumiyyətlə, bu gün tam qətiyyətlə demək olar ki, ölkəmizin enerji təhlükəsizliyi təmin olunur və gələcək illərdə bu təminat daha da möhkəmlənəcəkdir. Bütün bunlar əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş yeni neft strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur**». Məruzəçi ye-

ni neft strategiyasının həyata keçirilməsi nəticəsində dünyanın ən məşhur şirkətləri ilə «Hasilatın pay bölgüsü» haqqında 25 saziş imzalandığını və bunun nəticəsində səmərəli nəticələrin əldə edildiyini, həmin şirkətlər tərəfindən indiyədək respublikamızın neft sənayesinə 15 milyard ABŞ dollarına yaxın sərmayə qoyulduğunu, 2005-ci ildə respublikamızda 22,2 min ton neft, 5,82 mlrd. kubmetr qaz və 22, 3 mlrd. kv/saat elektrik enerjisinin hasil olunduğunu konfrans iştirakçılarının nəzərinə çatdırıb: «**Əlavə etdim ki, 2006-cı ildə bu sahədə respublikamızın iqtisadiyyatı üçün çox mühüm əhəmiyyət kəsb edən işlər nəzərdə tutulub. Bunlardan mövcud neft və qaz yataqlarının daha səmərəli istismarı, cari ildə neft hasilatının 30 milyon tondan artıq səviyyəyə çatdırılması, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin və Cənubi Qafqaz qaz boru kəmərinin istismara verilməsi, mövcud elektrik stansiyalarının enerji bloklarının yenidən qurulması və başqa tədbirlər nəzərdə tutulmuşdur. Əmin olduğumu bildirdim ki, əməkdaşlığımız regionumuzun nəhəng iqtisadi potensialından daha yaxşı istifadə etməyə şərait yaradacaq, investisiyaların artmasına və bizim regional iqtisadi layihələrimizin əməli surətdə həyata keçirilməsinə kömək edəcəkdir**».

Gövhər Baxşəliyeva ölkəmizin yerləşdiyi əlverişli coğrafi mövqeyin və iqlim şəraitinin dünyanın bir sıra inkişaf etmiş ölkələrində olduğu kimi respublikamızda da ekoloji cəhətdən təmiz və alternativ enerji mənbələrindən geniş istifadəyə imkan verdiyini vurğulayıb: «**Belə mənbələrdən istifadə istilik enerjisi stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaət edilməsi və ətraf mühitə atılan zərərli maddələrin miqdarının azaldılması ilə nəticələnər, təbii potensialların elektrik və istilik enerjisi istehsalına cəlb edilməsi elektroenergetikanın gələcək inkişafı istiqamətində mütərəqqi dəyişikliklər etməyə imkan yaradar**». Məruzəçi alternativ enerji mənbələrindən istifadə sahəsində Azərbaycan Milli Elmlər Akademiyası və onun müvafiq institutlarının son illər ərzində apardığı müəyyən elmi-tədqiqat və layihə-konstruktor işləri barədə məlumat verib: «**Bilirsiniz ki, son illərdə bu sahədə aparılan elmi-tədqiqat işləri nəticəsində külək, Günəş biokütlədən enerji alınması sahəsində bir sıra layihələr hazırlanmış, təcrübəsınaq qurğuları yaradılmışdır. Günəş enerjisinin faydalı iş əmsalının artırılması sahəsində mühüm elmi-tədqiqat işləri görülmüş, ölkənin külək kadastrı işlənib hazırlanmış, Abşeron yarımadasında irimiqyaslı külək enerjisi qurğularının inşası üçün ərazilər seçilmiş və bu ərazilərdə külək enerjisinin fiziki və energetik parametrləri təyin edilmişdir. Mən də iştirakçılara bütün bu işlər barədə məlumat verdim**». Gövhər Baxşəliyeva hesab edir ki, Azərbaycanın bir çox regionları üçün külək enerjisi alternativ enerji

mənbələri arasında ən əlverişlisidir. Onun fikrincə, ölkəmizin təbii iqlim şəraiti Günəş enerjisindən də istifadə olunmasının iqtisadi və ekoloji səmərələliliyinə əsas verir. Eyni zamanda, Azərbaycan ərazisi termal sularla zəngindir və mütəxəssislərin qənaətinə görə, onlardan istilik enerjisi istehsalında geniş istifadə etmək də yüksək səmərə verərdi. O vurğuladı ki, alternativ enerji mənbələrindən istifadə etməklə yaxın perspektivdə respublikamızda istehsal olunan elektrik enerjisinin 5-7 faizini, istilik enerjisinin isə 10 faizə qədərini bu mənbələr hesabına ödəmək mümkündür. Milli Məclisin deputatı Gövhər Baxşəliyevanın çıxışı böyük maraqla qarşılanıb. İspaniya, Kanada, Hindistan nümayəndələri məruzəçiyə çoxsaylı suallar ünvanlayaraq onları maraqlandıran bir sıra məqamlara aydınlıq gətirilməsini xahiş ediblər.

Mövzular üzrə bir neçə layihənin təqdimatı ilə beynəlxalq konfrans öz işini başa çatdırıb.

Söhbəti yazdı: Yadigar Cəfərli,
«Azərbaycan», 12 mart 2006-cı il.

«TƏHSİL HAQQINDA» QANUNUN MÜZAKİRƏSİ YENƏ DÜYÜNƏ DÜŞÜB

GÖVHƏR BAXŞƏLİYEVA: «GEC-TEZ CƏMİYYƏTİN GÖZLƏDİYİ QANUN ONA TƏQDİM OLUNACAQ»

On ilə yaxın müddətdir ki, «Təhsil haqqında» qanun layihəsinin müzakirəsi və qəbulu düyünə düşüb. Ancaq cəmiyyətdə belə bir fikir formalaşmışdı ki, 2006-cı ilin yaz sessiyasında bu məsələ öz həllini tapacaq. Çünki üçüncü çağırış Milli Məclis (MM) formalaşandan sonra rəhbərlik bu məsələnin həll olunacağını bildirmişdi və «Təhsil haqqında» qanun parlamentin yaz sessiyasının iş planına da salınmışdı. Lakin yaz sessiyasının başa çatmasına cəmi 3-4 plenar iclasın qaldığını, qurumun müvafiq komissiyasında bu sənədin müzakirə olunmadığını, ümumiyyətlə «Təhsil haqqında» qanunun müzakirəsi üçün uzun zamanın lazım olduğunu nəzərə alsaq, belə çıxır ki, bu sənədin müzakirəsi payız sessiyasına saxlanılıb.

MM-in Elm və təhsil məsələləri daimi komissiyasınını üzvü, millət vəkili Gövhər Baxşəliyeva jurnalistlərlə söhbətində bu məsələyə toxunaraq bildirib ki, ötən çağırış parlamentin dövründə bu məsələnin həll edilməsinə səbəb konsensusun əldə olunmaması olub: «Bir sıra məqamlar mübahisəli idi. Ümidvaram ki, bu beşillikdə problem aradan qalxacaq. Nəticədə cəmiyyətin gözlədiyi qanun ona təqdim olunacaq». Xatırladaq ki, ötən beşillikdə G.Baxşəliyeva vitse-spiker kimi fəaliyyət göstərib.

Sənədin nə vaxt müzakirəyə çıxarılacağına gəlincə, millət vəkilinin bu barədə hələlik heç bir məlumatı yoxdur. Onun sözlərinə görə, yeni «Təhsil haqqında» Qanunda sadəcə, aspirantura adı dokturantura ilə əvəzlənəcək. «Doktoranturanı bitirən fəlsəfə doktoru elmi dərəcəsini alacaq. Hər hansı elm sahəsi üzrə doktor olmaq istəyən isə ikinci dəfə müdafiə edəcək. Məndə olan məlumata görə, yeni qanunda məsələ bu şəkildə nəzərdə tutulub. Mən də bu mövqeni müdafiə edirəm. Hər halda bununla razılaşmaq olar».

Yeni qanunun təhsil sahəsində mövcud olan problemləri həll etmək gücünə qadir olması məsələsinə gəldikdə isə sabiq vitse-spiker qeyd edib ki, hər hansı müasir standartlara cavab verən gözəl qanun qəbul etmək olar: «Eyni zamanda, həmin qanunun real həyatda tətbiqində problemlər yarana bilər. Odur ki, çalışmaq lazımdır həm qanunlar müasir standartlara cavab versin, həm də onun işlək mexanizmi yaransın ki, nəticə etibarilə hər kəs tərəfindən bu qanuna əməl olunsun. Təhsil elə bir sahədir ki, bu, bütün cəmiyyəti əhatə edir. Ona görə də qəbul ediləcək qanunun işləməsi üçün bütün cəmiyyətin istəyi lazımdır. Müəl-

limlərdən tutmuş tələbələrə, rektorlara, valideynlərədək hamı Azərbaycanın gələcəyini düşünürüksə, yüksək səviyyəli nəslin olmasını istəyiriksə, bu sahədə köməkçi olmalı, əlimizdən gələni etməliyik».

Komissiya üzvü təhsilimizin indiki durumuna da münasibət açıqlayıb: «Burada müsbət meyllər də var, təəssüf ki, mənfi hallar da mövcuddur. Bunlar isə hamı tərəfindən etiraf olunur. Təbii ki, mənfi meyllərin aradan qaldırılmasında maraqlı olmalıyıq. Belə olan halda təhsilimiz Avropa təhsil səviyyəsində qalxa bilər».

Sonda Gövhər Baxşəliyeva işçi qrupunun «Təhsil haqqında» qanun üzərində işlədiyini bildirib.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 29 aprel 2006-cı il.

GÖVHƏR BAXŞƏLİYEVA: «ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN 10 DİSSERTANTINDAN 5-İ XARİCİ ÖLKƏ VƏTƏNDAŞIDIR»

«Hesabat ilində əməkdaşlarımız fərdi müqavilə üzrə çalışıblar. Elmi-tədqiqat işləri institutun elmi istiqamətinə daxil olan 9 problem və 26 mövzu çərçivəsində aparılıb». Bunu Milli Elmlər Akademiyasının (AMEA) Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva adı çəkilən institutun 2006-cı ildə elmi fəaliyyəti haqqında məlumat verərkən dilə gətirib. G.Baxşəliyevanın sözlərinə görə, «Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi və mədəni inkişafi, Azərbaycanla tarixi, iqtisadi və mədəni əlaqələri» istiqamətinə onun özü rəhbərlik edib. Hesabat ilində 44 elmi-tədqiqat işi bitirilib, qalan 33 işin isə 2006-cı il üçün nəzərdə tutulan hişşəsi yerinə yetirilib.

«İranın tarixi, iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti, İran-Azərbaycan əlaqələri» probleminə aid olan «İranın tarixi, ictimai-siyasi vəziyyəti» mövzusu üzrə, «XX əsrin əvvəllərində Osmanlı türklərinin Cənubi Azərbaycanda siyasi və mədəni fəaliyyəti» adlanan tədqiqat işində Osmanlı türklərinin Cənubi Azərbaycana münasibətinin dəyişməsi, Cənubi azərbaycanlılara ümumi türkçülük ideyasi kontekstində maraqlarının artması, Osmanlı-Rusiya qarşıdurmasında Cənubi Azərbaycana xüsusi diqqət yetirilməsi və bütün bunların nəticəsində cənubi azərbaycanlıların etnomilli şüurunun, etnomədəni fəaliyyətlərinin genişlənməsi və inkişafı ilə bağlı bəzi məsələlər nəzərdən keçirilir.

«İİR dövlət hakimiyyəti və idarəçilik sistemində mühakimə orqanlarının rolu» adlı tədqiqat işində İranda islam inqilabından sonra idarəçilik sistemində baş verən dəyişikliklərdən söhbət gedir, ölkənin daxili siyasi həyatında mühakimə orqanlarının rolu təhlil olunur. Əsərdə həmçinin ali qanunverici orqan olan İslam İnqilabı Şurasının fəaliyyət prinsipləri, islam cəza sisteminin əsas cəhətləri, ölkədə dünyəvi və dini qanunların uzlaşdırılması praktikası araşdırılır.

«İran İslam inqilabından sönra İranda siyasi partiyalar və təşkilatlar» tədqiqat işində 1979-cu il İran inqilabının qələbə çalmasında önəmli rol oynamış siyasi partiyalar, cərəyanlar, habelə sonrakı illərdə həmin siyasi cərəyanların bir çoxunun fəaliyyətinə yeni islami hakimiyyət tərəfindən qadağa qoyularaq onların tamamilə ləğv edilməsi, bu təşkilatlara mənsub olan kadrların və tərəfdarlarının kütləvi şəkildə həbs edilərək zindanlarda qətlə yetirilməsi, hakimiyyətə gəlmiş islamçı cərəyanların daxili çəkişmələr nəticəsində ayrı-ayrı siyasi görüşlərə malik partiyalar halında birləşməsi və sair məsələlər işıqlandırılıb.

«İran İslam Respublikasının xarici siyasətinin əsas prinsipləri» tədqiqatında İİR xarici siyasətinin nəzəri əsasları, taktikası və strategiyasından bəhs olunur. Eyni zamanda H.Rəfsəncani, M.Hatəmi və hazırki prezident M.Əhmədinejadın

prezidentliyi zamanı İranın xarici siyasət xəttindəki dəyişikliklər araşdırılır.

«Güney Azərbaycan. Tarixi oçerklər» kitabının II cildində Güney Azərbaycanın 1917-1979-cu illərdəki siyasi, sosial-iqtisadi və mədəni inkişafının mühüm probləmləri araşdırılıb. Kitabın əks etdirdiyi mühüm siyasi hadisələr bunlardır: Ş.M.Xiyabaninin başçılıq etdiyi 1917-20-ci illər milli-demokratik hərəkatı, 1925-ci ildə Qacarların hakimiyyətinə son qoyan Pəhləvi rejiminin farslaşdırma siyasəti, 1941-l946-cı illərdə Güney Azərbaycanda demokratik və milli hüquqlar uğrunda S.C.Pişəvərinin başçılığı ilə baş vermiş hərəkat, hərəkatın məğlubolma səbəbləri və sair. Kitabda həmçinin 50-70-ci illərdə Cənubi Azərbaycanın sosial-siyasi və iqtisadi vəziyyəti, 1978-1979-cu illər inqilabına aparan amillər, rejimin süqutunda Güney Azərbaycandakı milli qüvvələrin rolu da tədqiq edilib.

«Türkiyənin tarixi və ictimai-siyasi vəziyyəti» mövzusuna aid olan «Səddam rejimi devrildikdən sonra Şimali İraqda etnik münasibətlər və Türkiyənin siyasəti» tədqiqat işində son illərdə İraqda baş verən siyasi proseslər izlənir, bir sıra maraqlı dövlətlərin İraqa münasibətdə tutduğu mövqe, İraq probleminin Türkiyənin xarici siyasətində yeri təhlil olunur. «1918-ci ildə Qafqaz-islam ordusunun Naxçıvan əyalətində və Quba qəzasında xilaskarlıq missiyası» tədqiqat işində Qafqaz-islam ordusunun baş qərargah rəisi qaymaqam (polkovnik-leytenant) Rüstünün sənədlərinə istinad edilməklə Türkiyənin III Qafqaz Ordusunun hərbi birləşmələri və Azərbaycan Demokratik Respublikasının silahlı birləşmələrinin (Qafqaz - İslam Ordusu) 1918-ci ilin yay aylarında bolşevik-daşnak qüvvələrinə qarşı apardığı döyüşlər, onların savaş yolları, Naxçıvan əyaləti və Quba qəzasının azad edilməsi işıqlandırılıb.

«Türkiyə və Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi» tədqiqatında arxiv materiallarına, rəsmi sənədlərə və tədqiqat əsərlərinə istinad olunmaqla Türkiyənin münaqişəyə münasibətdə tutduğu ədalətli mövqe və Azərbaycana verdiyi siyasi dəstək şərh olunur.

«Ərəb ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti, Azərbaycanla əlaqələri» probleminə aid olan «Ərəb ölkələrinin tarixi və ictimai-siyasi vəziyyəti» mövzusu üzrə «VII-IX əsrlərdə müsəlman dünyasının mədəni-tarixi hüdudlarının formalaşması» tədqiqat işində sivilizasiyalararası konfliktin meyarları müəyyən edilmiş, onların ərəb-müsəlman və Mərkəzi Asiya türk mədəniyyətlərinin toqquşmasına aid edilməsi təhlil olunub. Tədqiqatçı həmçinin konfliktin bütöv müsəlman mədəni mühitinin formalaşması ilə nəticələnməsini isbat eməyə çalışıb.

İnstitutun çap işlərinə gəlincə, hesabat ilində G.Baxşəliyevanın «Əbü-l-Fərəc əl-İsfahani. Məcnun ləqəbli Qeys ibn Müləvvəh və ərəbdilli Azərbycan şairləri

haqqında hekayətlər. Ərəbcədən filoloji tərcümə, müqəddimə, tədqiqat, şərhlər və göstəricilər» kitabı X əsr görkəmli ərəb ədəbiyyatşünası Əbü-l-Fərəc əl-İsfahaninin məşhur şeir antologiyası «Nəğmələr kitabı»nın 5 fəslinin şərhli filoloji tərcüməsindən ibarətdir. Kitabda Şərq ədəbiyyatında məşhur olan Məcnun obrazının prototipi - ərəb poeziyasının nümayəndəsi Qeys ibn Müləvvəhin və VII-VIII əsrlər ərəbdilli Azərbaycan şairləri Musa Şəhavat, İsmayıl ibn Yəssar və Əbü-l-Abbas əl-Əma yaradıcılığı müqayisəli şəkildə araşdırılır.

«Arazın hər iki sahilində müsəlmanların soyqırımı» adlı fars dilindən tərcümədə erməni quldur dəstələrinin rus və ingilis hərbi qüvvələrinin köməyinə arxalanaraq Türkiyə, İran və Azərbaycan ərazilərində çoxsaylı cinayətlər törətmələri, müsəlman kənd və şəhərlərini xarabazara çevirmələri, yüz minlərlə günahsız insanın qətlini təşkil etmələri tutarlı sənədlər və mənbələr əsasında açılıb göstərilir.

«XX əsr Türkiyədə din və islam mistsisizmi - təsəvvüf sosiologiyası (ideya mənbələri, əsas problemləri, yeni meyllər)» kitabında Türkiyədə sosioloji məktəblərin, ö cümlədən, din sosiologiyası və müsəlman mistsisizminin meydana gəlməsi və formalaşması kimi məsələlər tədqiq olunur. Müəllif din sahəsində Türkiyənin ictimai-siyasi və sosioloji nəzəriyyə və ideyalarının təsirinə diqqəti cəlb edir. Kitab iki hissədən ibarətdir. Birinci hissədə ənənəvi, yəni «elitar» islama münasibətdə din sosiologiyası məsələsi araşdırılır. İkinci hissədə isə müsəlman mistsisizmi, yəni təsəvvüfün sosiologiyası məsələləri, müxtəlif sufi dini-siyasi cərə-yanların yaranması təhlil edilir.

İnstitutun beynəlxalq əlaqələrinə gəldikdə, G.Baxşəliyevanın dediyinə görə, hesabat ilində Şərqşünaslıq İnstitutunun xarici ölkələrin elmi müəssisələri ilə elmi əlaqələri İnstitut əməkdaşlarının beynəlxalq elmi konfransların işində iştirakı, xarici ölkələrə elmi ezamiyyətləri, xarici mətbuatda məqalələrin nəşri, xarici ölkə, radio və televiziyaları ilə çıxışları və birgə elmi tədbirlərin keçirilməsi ilə reallaşdırılıb.

İnstitutun direktor müavini Ş.Mustafayev ABŞ-ın «Fulbright» Proqramının qrantını qazanaraq ötən ilin sentyabr ayının 20-dən cari ilin iyun ayının 20-dək bu ölkənin İndiana Universitetində elmi ezamiyyətdə olub.

Ümumilikdə İnstitut əməkdaşları XII Beynəlxalq KİBATEK Ədəbiyyat konfransı və Türk Tarix Qurumunun Ankarada keçirilmiş XV Beynəlxalq konfransında fəal iştirak edib. Bununla yanaşı institut cari ilin may ayında AMEA Rəyasət Heyəti və Qafqaz Müsəlmanları İdarəsilə birlikdə «İslamda dözümlülük» mövzusunda beynəlxalq elmi konfrans keçirib. Konfransda Azərbaycan alimlərilə yanaşı türkiyəli alimlər də iştirak edib. Ümumilikdə, konfransın işində 18 məruzə dinlənib müzakirə edilib.

İnstitut həmçinin noyabr ayında Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun keçirdiyi «Cəlaləddin Rumi – 800» beynəlxalq elmi konfransının əsas təşkilatçılarından biri olub.

Bunlardan əlavə institut əməkdaşları hesabat ili ərzində bir sıra respublika konfranslarında elmi məruzələrlə çıxışlar etmiş, opponent və rəyçi olmuş, aspirant və dissertantların elmi işlərinə rəhbərlik etmiş, KİV-lərə müsahibələr veriblər. Professor Şövkət Tağıyeva Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin professor-müəllim, zabit və kursantları qarşısında «1917-1920-ci illərdə Cənubi Azərbaycan milli azadlıq hərəkatı» mövzusunda mühazirə ilə çıxış edib və məktəbin rəhbərliyi tərəfindən Fəxri Fərmanla təltif olunub. Fəlsəfə elmləri namizədi A.Məmmədov AMEA Rəyasət Heyətinin iclasında «Müasir islam fündamentalizminin əsas xüsusiyyətləri» mövzusunda məruzə ilə çıxış edib.

G.Baxşəliyeva sonda qeyd edib ki, əvvəlki illərdə olduğu kimi institut kadr hazırlığını əsasən aspirantura və dissertantura yolu ilə həyata keçirir. Hazırda institutun 11 əyani aspirantı var. Onlar «Ümumi tarix», «Dünya ədəbiyyatı», «Dinşünaslıq və mədəniyyətin fəlsəfəsi», «Fəlsəfə tarixi» və digər ixtisaslar üzrə təhsil alırlar. Cari ildə instituta «Dünya ədəbiyyatı», «Dinşünaslıq və mədəniyyətin fəlsəfəsi», «Ümumi tarix» ixtisasları üzrə 5 nəfər aspirant qəbul edilməsi nəzərdə tutulub. İnstitutun 10 dissertantından 5 nəfəri xarici ölkə vətəndaşlarıdır (İİR və Yəmən Respublikası).

İnstitutda «Dünya ədəbiyyatı» və «Türk xalqları ədəbiyyatı» ixtisasları üzrə Dissertasiya Şurası fəaliyyət göstərir. Cari ildə Dissertasiya Şurası təqdim olunmuş elmi-tədqiqat işlərini İnstitutun müvafiq şöbələri mütəxəssislərinin iştirakı ilə müzakirə və onlardan 7-nin müdafiəsini təşkil edib.

Cari ildə İnstitut Elmi Şurasının 9 iclası keçirilib. Elmi Şuranın fəaliyyətinin əsas istiqamətləri elmi-tədqiqat işlərinin vaxtında yerinə yetirilməsinə, müdiriyyətlə əməkdaşlar arasında bağlanan yeni müqavilə mövzularının müzakirələrinə yönəldilib. İl ərzində Elmi Şuranın iclaslarında şöbələrin plan işləri, elmi-tədqiqat işlərinin nəticələri, çapa tövsiyə edilən kitablar müzakirə edilib, institutun aspiranturasına qəbul, instituta dissertant qəbulu, bəzi aspirant və dissertantların mövzularının dəqiqləşdirilməsi, müdafiəyə buraxılmaq üçün namizədlik dissertasiyalarının müzakirəsi, «Elmi araşdırmalar», «Şərq filologiyası» və «Hikmət» məcmuələrinin çap olunması, şöbələrin yarımillik və illik hesabatları, institutda fəaliyyət göstərən müqavilə komissiyasının hesabatı dinlənilib.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 14 fevral 2007-ci il.

AZƏRBAYCAN DİNİ TOLERANTLIĞIN HÖKM SÜRDÜYÜ UNİKAL ÖLKƏDİR

Aprelin 6-7-də Türkiyənin İstanbul şəhərində Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalararası Alyansının II Forumu keçirilib. Forumda iştirak edən Milli Məclisin deputatı, AMEA Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva «Qloballaşan dünyada sivilizasiyaların alyansı: imkanlar, problemlər, perspektivlər» mövzusunda məruzə ilə çıxış edib.

Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı əlaqə və təsirinin minilliklərlə tarixi olduğunu söyləyən **Gövhər Baxşəliyeva**, dahi Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəvinin yaradıcılığında hələ XII əsrdə Şərq-Qərb paradiqmasının öz parlaq əksini tapdığını qeyd edib. Bəzi tədqiqatçıların mədəniyyətlərin inteqrasiyası, vahid dünya mədəniyyətinin təşəkkülü, millətlərin və xalqların qovuşaraq «superetnos» yaradacağı barədə konsepsiyalar irəli sürməsinə, digərlərinin isə əksinə, sivilizasiyaların toqquşmasından, Şərq və Qərb mədəniyyətləri arasında dialoqun qeyri-mümkünlüyündən danışmasına münasibətini bildirən Gövhər Baxşəliyeva hər iki konsepsiyada ifratçılığa meylin güclü olduğunu və onlardan heç biri ilə tam razılaşmağın mümkünsüzlüyünü deyib. Qeyd olunub ki, əvvəla, hər bir mədəniyyət başqa mədəniyyətdən öz genotipinə və inkişaf məntiqinə görə fərqlənir. İkincisi, böyük sivilizasiyalar özlərində birləşdirdikləri millətlərin və xalqların etnik xüsusiyyətini tamamilə silib aradan qaldıra bilmir: etnik xüsusiyyətləri və etnik kimliyi qoruyub saxlamaq əzmi hər bir xalqın şüurunda möhkəm yer tutmuşdur. Üçüncüsü, bu gün dünyanın müxtəlif yerlərində baş verən və çox vaxt ekstremist islam qruplaşmaları tərəfindən törədilən terror hadisələrini İslam-xristian qarşıdurması kimi qələmə vermək cəhdləri yanlışdır. Bu hadisələrin arxasında ilk əvvəl geopolitik düzənin yenidən qurulmasından doğan ziddiyyətlər və konkret iqtisadi-siyasi maraqlar durur.

Gövhər Baxşəliyeva qloballaşan dünyada dinc, yanaşı yaşamanın təmin edilməsinə yönəlmiş fəaliyyətin mühüm tərkib hissəsi və şərtlərindən birinin də din və ümumbəşəri dəyərlər sahəsində mədəniyyətlərarası dialoqdan keçdiyini söyləyib. Bütün dinlərdə dözümlüyə çağırışın olduğunu deyən Gövhər Baxşəliyeva bu çağırışın dinlərarası dialoq işində ən yararlı vasitə kimi geniş təbliğ edilməsinin vacibliyini vurğulayıb.

«Qoca Şərqin qapısı» adlanan Azərbaycanın dini tolerantlığın hökm sürdüyü unikal bir məkan olduğunu deyən Gövhər Baxşəliyeva xalqımızın dinc, ya-

naşı yaşamaq ənənəsinin tarixin dərinliklərindən gəldiyini söyləyib, eyni zamanda, ölkəmizin modernləşmə yolundakı nailiyyətlərindən söz açıb: «Təsadüfi deyil ki, Şərqdə ilk demokratik respublika və ilk demokratik təsisatlar hələ arxada qoyduğumuz əsrin əvvəllərində məhz Azərbaycanda yaranmışdı. Azərbaycanda mədəni irsin gücü və daxili dinamizmi, qərbləşmə yolundakı əvvəlki uğurları onun modernləşməyə uyğunlaşmaq qabiliyyətini artırır. Hazırda Avropa mədəniyyətinin praqmatik nailiyyətləri Azərbaycan cəmiyyətində başqa müsəlman cəmiyyətlərinə nisbətən qat-qat çoxdur. Bu amillər modernləşmənin tələblərinə cavab verən dəyərlərin və həyat oriyentasiyalarının Azərbaycan cəmiyyətində yayımlanmasına və möhkəmlənməsinə geniş şərait yaradır».

«Azərbaycan» qəzeti, 9 aprel 2009-cu il.

GÖVHƏR BAXŞƏLİYEVA: «ELM SAHƏSİNDƏ ÇALIŞANLARIN ƏMƏK HAQQINDAN TUTULAN VERGİ FAİZLƏRİ AŞAĞI SALINSIN»

«Hesab edirəm ki, 2010-cu ilin dövlət büdcəsi layihəsi ölkəmizin sistemli inkişafına xidmət edəcək və onun möhkəm əsaslarını yaradacaq mühüm sənəddir. Büdcənin xarakterik cəhəti onun sosial və investisiya yönümlüyünü saxlamasıdır. Başqa müsbət cəhət gələn ilin büdcəsinin 39 faizinin konkret dövlət proqramları üzrə istifadəsinin nəzərdə tutulmasıdır ki, bu, ayrılan vəsaitlərin xərclənməsinin şəffaflığını təmin edəcək». Bu fikirləri «525»ə açıqlamasında bitərəf millət vəkili, professor Gövhər Baxşəliyeva dilə gətirib. Onun sözlərinə görə, dünyanın əksər ölkələrində iqtisadiyyatın geriləməsi baş verdiyi halda, Azərbaycanda son altı ayın göstəricisinə görə iqtisadiyyatın artım tempi 6,1 faiz təşkil edib: «Gələn ilin dövlət büdcəsinin 34,4 faizinin sosial sahəyə yönəldilməsi nəzərdə tutulub. Təhsilə büdcənin 11 faizinin ayrılması planlaşdırılır. Səhiyyəyə 479 milyon manatdan artıq vəsait ayrılacaq. 2010-cu ildə elm sahəsinə bütövlükdə 98.203.217 manat ayrılır ki, bunun da təqribən 70 faizinə yaxını Milli Elmlər Akademiyası üçün nəzərdə tutulub. Bu o deməkdir ki, ölkədə elmin inkişafı prioritet istiqamət kimi müəyyənləşib. Bu fikri bir daha bu günlərdə Respublika Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması haqda ölkə prezidentinin sərəncamı da təsdiqləyir. Büdcə layihəsində gələn il üçün bu fonda təqribən 7 milyon manatın ayrılması nəzərdə tutulub, bu da özlüyündə Azərbaycan elmi üçün böyük hadisədir. Ümumiyyətlə, elm sahəsində dövlət siyasətinin əsas istiqamətləri ölkə prezidentinin 4 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş «2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya»da əks olunub. Bu müzakirəyə təqdim olunmuş büdcə zərfində də vurğulanır və elm sahəsi ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqaməti kimi müəyyənləşdirilir. Elmin inkişafına dair Milli Strategiyanın əsas məqsədlərindən biri də elm adamlarının sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Bununla əlaqədar təklif edirəm elm sahəsində çalışan insanların əmək haqlarından tutulan vergi faizləri mümkün qədər aşağı endirilsin».

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 7 noyabr 2009-cu il.

AZƏRBAYCANDA ELMİN İNKİŞAFI PRİORİTET İSTİQAMƏT KİMİ MÜƏYYƏN EDİLİB

«2010-cu ilin dövlət büdcəsi layihəsi ölkəmizin sistemli inkişafına xidmət edəcək və onun möhkəm əsaslarını yaradacaq mühüm sənəddir. Bu sənəd 2010-cu il və sonrakı üç il ərzində ölkəmizin makroiqtisadi proqnoz göstəriciləri əsasında, bu illərdə gözlənilən meyllər nəzərə alınmaqla tərtib olunub. 2010-cu il büdcə layihəsi ulu öndər Heydər Əliyevin iqtisadi və sosial stradegiyasının həyata keçirilməsinin bariz sübutudur. Məhz bu strategiyanın həyata keçirilməsinin nəticəsidir ki, bütün dünyanı bürümüş dərin maliyyə böhranı Azərbaycana o qədər də ciddi təsir etməyib». Millət vəkili, professor **Gövhər Baxşəliyevanın** sözlərinə görə, dünyanın əksər ölkələrində iqtisadiyyatın geriləməsi baş verdiyi halda, Azərbaycanda son altı ayın göstəricilərinə görə iqtisadiyyatın artım tempi 6,1 faiz təşkil edib.

Büdcənin digər xarakterik cəhəti onun sosial və investisiya yönümlüyünü saxlamasıdır. Başqa müsbət cəhət gələn ilin büdcəsinin 39 faizinin, yəni 387,3 milyon manatın konkret dövlət proqramları üzrə istifadəsinin nəzərdə tutulmasıdır ki, bu da ayrılan vəsaitlərin xərclənməsinin şəffaflığını təmin edəcək: «Sosial sahə haqqında ayrıca danışmaq istərdim. Gələn ilin dövlət büdcəsinin 34,4 faizinin, yəni 3 milyard 877,6 milyon manatın sosial sahəyə yönəldilməsi nəzərdə tutulub. Təhsilə büdcənin 11 faizinin, yəni 1 milyard 277 milyon manata yaxın vəsaitin ayrılması planlaşdırılır. Səhiyyəyə 479 milyon manatdan artıq vəsait ayrılacaq. Ümumiyyətlə, son illər təhsil və səhiyyə sahəsindəki uğurlar xüsusi söhbət mövzusudur. Heydər Əliyev Fondu tərəfindən bu sahələrdə görülən çoxsaylı işlər hamımızı sevindirir. Çoxsaylı məktəb tikintisi və təmiri, məktəblərin yeni texnologiya və avadanlıqlarla təchizi, şəkərli diabet, hemofiliya və talassemiya kimi ağır xəstəliklərə tutulmuş insanlara yardım məqsədilə müxtəlif layihələrin gerçəkləşdirilməsi, yeni səhiyyə ocaqlarının və müalicə-diaqnostika mərkəzlərinin tikintisi, onların ən yeni tibbi texnika ilə təchiz olunması və sair kimi işlər ölkəmizin inkişafında böyük uğurlardan xəbər verir. Belə mərkəzlərdən biri də deputat seçildiyim Bərdə rayonunda inşa edilib. Artıq Bərdə və ətraf rayonların sakinləri elə yaşadıqları yerdə hər növ tibbi müayinədən keçib, zəruri müalicə ala bilərlər. Bunun üçün artıq uzaq məsafə qət edərək hər dəfə Bakıya gəlməyə ehtiyac yoxdur». Millət vəkilinin bildirdiyinə görə, 2010-cu ildə elm xərcləri bütövlükdə 98.203.217 manat təşkil edəcək ki, bunun da təqribən 70 faizinə yaxını Milli Elmlər Akademiyası üçün nəzərdə tutulub. Bu o deməkdir ki, ölkədə elmin inkişafı prioritet istiqamət ki-

mi müəyyənləşib. Bu fikri bir daha bu günlərdə Respublika Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması haqda ölkə prezidentinin sərəncamı da təsdiqləyir. Büdcə layihəsində gələn il üçün bu Fonda təqribən 7 milyon manatın ayrılması nəzərdə tutulub, bu da özlüyündə Azərbaycan elmi üçün böyük hadisədir. Ümumiyyətlə, elm sahəsində dövlət siyasətinin əsas istiqamətləri ölkə prezidentinin 4 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş «2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya»da əks olunub. Bu müzakirəyə təqdim olunmuş büdcə zərfində də vurğulanır və elm sahəsi ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqaməti kimi müəyyənləşdirilir. Elmin inkişafı üzrə Milli Strategiya qarşıda Azərbaycanda fundamental tədqiqatların prioritetlərini ölkənin mühüm sosial-iqtisadi və ictimai-mədəni məsələlərinin həllinə uyğun müəyyənləşdirmək, elm və texnika sahəsində idarəetmə sistemini, elmi-tədqiqat müəssisələrinin və bütövlükdə elmi maliyyələşdirmə mexanizmlərini təkmilləşdirmək, elmi-texniki infrastrukturu modernləşdirmək, elmin normativ-hüquqi bazasını yaratmaq, yüksəkixtisaslı elmi kadrlar hazırlamaq, elmi mərkəzlərin qorunmasına, varisliyin təmin edilməsinə nail olmaq, elmin, təhsilin, istehsalatın inteqrasiyasını təmin etmək, elmi işçilərin sosial vəziyyətini yaxşılaşdırmaq, elmin informasiya təminatını, beynəlxalq elmi əlaqələri gücləndirmək, Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasını təmin etmək, elmi tədqiqatların və innovasiya siyasətinin səmərəsini artırmaq, fundamental elmlər üzrə tədqiqatları genişləndirmək, ölkəni texnoloji cəhətdən modernləşdirmək, elmi potensialın ölkənin milli təhlükəsizliyində fəal iştirakına nail olmaq, milli-mənəvi dəyərləri qorumaq və sairə bu kimi məsələlər qoyub. Inanırıq ki, bütün görülən tədbirlər nəticəsində Azərbaycan elmi surətlə irəliləyəcək, beynəlxalq məkanda özünəlayiq yer tutacaq və Azərbaycanımızın hərtərəfli sürətli inkişafına böyük töhfələr verəcək. Göründüyü kimi, elmin inkişafına dair Milli Strategiyanın əsas məqsədlərindən biri də elm sahəsində çalışan insanların sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Bu baxımdan yaxşı olardı ki, elmi işçilərin əmək haqlarından tutulan vergi faizləri mümkün qədər aşağı endirilsin».

«Olaylar» qəzeti, 11 noyabr 2009-cu il.

MÜDAFİƏYƏ YALNIZ ELMİ VƏ PEDAQOJİ FƏALİYYƏTLƏ MƏŞĞUL OLAN İNSANLAR BURAXILMALIDIR

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, professor, millət vəkili **Gövhər Baxşəliyeva** qəzetimizə verdiyi açıqlamada bir çox maraqlı fikirlər səsləndirib. Gövhər Baxşəliyevanın sözlərinə görə, artıq alimin öz kabinetində rahat oturub klassik dövrün tədqiqilə məşğul olması dövrü arxada qalıb: «Klassik dövr də tədqiq olunmalıdır. Amma bununla bahəm indiki zamanda dünya daha çevikdir, daha mobildir və elm bu gün yaranan problemlərə cavab verməlidir, bu gün baş verən hadisələri işıqlandırmalıdır. Bu istiqamətdə elmimizin, elmi müəssisələrimizin çevikliyinə, mobilliyinə xüsusi diqqət yetirilməlidir. Bildiyiniz kimi, qloballaşan dünyada yaşayırıq, mədəniyyətlərin dialoqu baş verir, ölkələr bir növ sərhədsizləşir, get-gəl çoxalır, bütövlükdə xarici təsir çoxalır. Belə bir şəraitdə biz gərək çalışaq öz milli «mən»imizi saxlayaq. Çalışmalıyıq ki, milli varlığımızla bağlı dəyərlərə xələl gəlməsin. Tariximizi, mədəniyyətimizi, bizi birləşdirən mənəvi dəyərləri qoruyub saxlamaq indi hər birimizin ümdə vəzifəsi olmalıdır. Sovet dövründə ölkəmiz dünya məkanından təcrid olunmuşdu, o cümlədən elmimiz də. O vaxt bir o qədər xaricə get-gəlimiz yox idi. Araşdırmalarımız rus elminə daha çox istiqamətlənirdi. Düzdür, biz kitablardan, ədəbiyyatlardan dünya elmilə tanış idik, amma bilavasitə kontaktımız mövcud deyildi. İndi zaman dəyişib, biz daha qısa bir zamanda dünya elminə inteqrasiya etməliyik və bizim tədqiqatlarımız dünya elmi tədqiqatlarının səviyyəsinə qalxmalıdır».

İnstitutumuz yeni tarixi şəraitdə öz elmi istiqamətini müəyyənləşdirməlidir. Biz bununla da tamamilə razıyıq. Bu iş bizdə artıq çoxdan başlayıb. Biz Şərqşünaslıq İnstitutunda mövcud olan məktəbləri qorumaq şərtilə tədqiqat, araşdırma regionunu, arealını genişləndirdik. Hesab edirik ki, müasir dövrdə təkcə Ərəb ölkələrini, İranı, Türkiyəni araşdırmaqla kifayətlənməməliyik. Rusiya Şərqşünaslıq İnstitutunda bütün Şərq ölkələri tədqiq olunur – Malayziyaya, İndoneziyaya, Filippinə qədər… Biz də artıq bu istiqamətdə iş aparırıq. Biz artıq Çini tədqiq etməyə başlamışıq, bu yöndə iki monoqrafiya çap olunub. Başlamışıq Yaponiyanı tədqiq etməyə, bununla yanaşı Mərkəzi Asiya və Uzaq Şərq ölkələri üzrə elmi qrup yaratmışıq. Biz yeni şöbə - Şərq-Qərb qarşılıqlı əlaqələrini və təsirlərini araşdıran şöbə yaratmışıq. Bu şöbədə ən müasir səviyyədə tədqiqatlar gedir». Millət vəkili elmi şuralarla bağlı, o cümlədən namizədlik, doktorluq dissertasiyalarının yazılmasındakı, müdafiə olunmasındakı qüsurlarla, nöqsanlarla əlaqədar qabardılan məqamlara da münasibət bildirib:

«Bu məsələ əslində institutların özlərindən asılıdır. Amma burada düzgün qeyd olunur ki, sovet dövrü ilə müqayisədə müdafiəyə buraxılan işlərin səviyyəsi aşağı düşüb. Bununla belə, bu, heç də o demək deyil ki, hamısının səviyyəsi aşağıdır. Amma aşağı səviyyəli işlər də çoxdur. Müdafiələrdə bəzən əvvəlki tələbkarlıqlar olmur. Yazıda o da göstərilir ki, elm, elmi işlərin müdafiələri bir biznesə çevrilib və bunun qarşısı alınmalıdır. Şəxsən mən də belə düşünürəm. Amma indi bu konkret hansı müəssisələrdə baş verir, o, artıq başqa məsələdir. Şəxsən belə hesab edirəm ki, bu yöndə qayda-qanun yaratmaq üçün müdafiəyə yalnız və yalnız elmi və pedaqoji fəaliyyətlə məşğul olan insanlar buraxılmalıdır. Bu qadağanı qoymayanda, görürsən ki, neqativ hallar üzə çıxır, yazıda da göstərildiyi kimi, hansısa prokurorluq əməkdaşı və yaxud dövlət məmuru gəlib müdafiə etmək, elmi dərəcə almaq iddiasına düşür. Axı, onların dissertasiya yazmaq üçün ən azı vaxtları yoxdur... Müdafiəyə yalnız elmi və pedaqoji fəaliyyətlə məşğul olan insanlar buraxılmalıdır. Problemlər isə məhz elə həmin digər insanların müdafiəyə buraxılmasından sonra yaranır. Elmi işçi müdafiəyə buraxılırsa, o, məhz həmin elmi kollektivdə işləyir və hansı səviyyədədir, onu da hamı yaxşı bilir. Hamı bilir ki, kimin qabında nə var. Zəif elmi işçi müdafiəyə buraxılmır və buraxılmamalıdır».

«Xalq Cəbhəsi» qəzeti, 12 dekabr 2009-cu il.

İKT PARLAMENT İTTİFAQI ÇEVİK TƏŞKİLATA ÇEVRİLƏCƏK

Təşkilatın Rəhbər Üçlüyünə geniş səlahiyyət verilib

İslam Konfransı Təşkilatı Parlament İttifaqının (Assambleyasının) nizamnaməsinə bir sıra vacib və əhəmiyyətli dəyişikliklər edilib. Bu barədə jurnalistlərlə söhbətində Milli Məclisin (MM) İslam Konfransı Təşkilatı Parlament İttifaqındakı (İKT Pİ) nümayəndə heyətinin rəhbəri, qurumun İcraiyyə Komitəsinin Asiya Qrupundan olan üzvü Gövhər Baxşəliyeva məlumat verib. Onun sözlərinə görə, İKT Pİ-nin nizamnaməsinə dəyişikliklər bugünlərdə təşkilatın İcraiyyə Komitəsinin Misir Ərəb Respublikasının (MƏR) paytaxtı Qahirə şəhərində keçirilən növbəti toplantısında edilib. Millət vəkili bildirib ki, İKT Pİ-nin Nizamnaməsinə dəyişikliklərin edilməsində məqsəd bu qurumu daha çevik və mobil bir təşkilata çevirmək niyyətindən, zərurətindən yaranıb: «İstək, niyyət budur ki, İKT Parlament İttifaqı dünyada və İslam aləmində baş verən, cərəyan edən hadisələrə daha tez və zamanında reaksiya verə bilsin. Nizamnaməyə dəyişikliklərlə bağlı təklifləri həm qurumdakı nümayəndə heyətləri, həm İKT-nin baş katibi İkmələddin Ehsanoğlu, həm də İKT Pİ-nin Baş katibliyi – baş katib və onun köməkçiləri irəli sürüb; müzakirələr nəticəsində təkliflərin xeyli qismi nəzərə alınıb: «Təkliflərdən biri nizamnamənin «Məqsədlər» adlı birinci maddəsilə bağlı idi. Təklifdə qeyd edilirdi ki, nizamnaməyə belə bir bənd əlavə olunsun: nizamnamədə göstərilən heç bir maddə İKT və BMT-nin nizamnamələrinə müvafiq olaraq, üzv ölkələrin daxili yurisdiksiyası çərçivəsinə aid heç bir məsələyə qarışmaq hüququnu vermir. Qeyd edim ki, tam məntiqi bir əlavə idi və bu təklif nəzərə alındı. Təkliflərdən digər biri 5-ci maddəylə əlaqədar idi. Həmin maddəyə təklif edilirdi ki, konfrans (əvvəllər konfrans iki ildən bir yığılırdı) ildə bir dəfə toplanır. Konfransın yeri və tarixini İcraiyyə Komitəsi müəyyənləşdirir və Şura təsdiqləyir. Şura konfransın yerini, tarixini dəyişdirə, onu təxirə sala bilər. Konfransın keçirilməsilə əlaqədar təkliflər irəli sürülməzsə, konfrans şura ilə əlaqələndirmə şəraitində Baş qərargahda keçirilir. Bu təklifi də tədbir iştirakçıları məqsədəuyğun hesab etdi. Nizamnaməyə növbəti təkliflərdən biri 7-ci maddəyə «Fövqəladə hallar və dəyişikliklərə reaksiya vermək üçün İttifaqa aktuallıq və çeviklik imkanının verilməsi» adlı əlavənin olunması idi. Həmin əlavədə bildirilir ki, rəhbər Troyka (Üçlük) İKT Parlament İttifaqının prezidentlərindən ibarət olacaq. Troyka Konfransa və ya İcraiyyə Komitəsinə İttifaqın maraq və məqsədlərinin həyata keçirilməsinə dair təkliflər təqdim edə bilər. Rəhbər Üçlük üzvlərinin konsensusu vasitəsilə ittifaqın mövqeyini müəyyən etmək və ya beynəlxalq əlaqələrini və mövqeyini möhkəmləndirmək məqsədilə beynəlxalq təşkilatlarla əlaqələr qura bilər. Üçlük hər

hansı konfrans üzvünü və ya baş katibi bu məqsədlə nümayəndə göndərə bilər. Rəhbər Üçlük zərurət olduğu təqdirdə və üzvlərinin konsensusu əsasında, müvafiq məsləhətləşmələr nəzərə alınmaqla və şəraitin imkan verdiyi dərəcədə, İttifaqın prinsip və məqsədləri, onun qətnamə çərçivəsində İKT Parlament İttifaqı adından hər hansı bir fövqəladə vəziyyətlə əlaqədar gərəkli bəyanat verə bilər. Bununla belə, baş katiblik rəhbər üçlüyün fəaliyyətini nizamlayacaq. Baş katiblik rəhbər üçlüyün fəaliyyətinə dair məruzələr hazırlayacaq. Müzakirələr nəticəsində 7-ci maddəyə təklif olunan bu əlavə nəzərə alındı». Gövhər Baxşəliyeva deyib ki, nizamnamənin 9-cu maddəsinə təklif olunan dəyişiklik – İcraiyyə Komitəsinin təqdim etdiyi müşahidəçi statusu üçün müraciətlərə baxılması – xeyli mübahisələrə səbəb olub: «Məsələn, bəzi ölkələr bu qurumda müşahidəçi kimi iştirak edir və ya etmək istəyir. Bu isə qurumda heç də birmənalı qarşılanmır. Ona görə bu təklif xeyli mübahisə doğurdu. Nizamnamənin 10-cu maddəsinə təkliflər isə nəzərə alındı. Yəni bundan sonra İKT İcraiyyə Komitəsinin dörd Daimi İxtisaslaşmış Komitəsi – Siyasi Məsələlər və Xarici Münasibətlər, İqtisadi Məsələlər və Ətraf Mühit, İnsan Hüquqları, Qadın və Ailə Məsələləri üzrə, Mədəniyyət, Qanunvericilik, Sivilizasiyaların və Dinlərin Dialoqu Məsələləri üzrə Komitəsi fəaliyyət göstərəcək. Bununla belə, hər Komitə 12 nəfərdən ibarət olacaq və orada hər qrupdan – Asiya, Afrika, Ərəb qruplarından dörd nəfər təmsil olunacaq: «11-ci maddəyə təklif olunan dəyişikliyə gəlincə, orada göstərilirdi ki, fövqəladə hallarda İcraiyyə Komitəsi fövqəladə iclas keçirə bilər. Bu fövqəladə iclası isə İcraiyyə Komitəsinin sədri və ya İKT Pİ-nin baş Katibi çağırır. Müzakirələrin yekununda bu dəyişiklik də məqsədəmüvafiq sayıldı. Hesab edirəm ki, nizamnaməyə təklif olunan və sonda nəzərə alınan bu dəyişikliklər çox əhəmiyyətli idi. Bunlar İKT Pİ-nin hadisələrə daha çevik reaksiya verməsinə gətirib çıxara bilər, belə də olacaq». Millət vəkili söhbət zamanı onu da bildirib ki, İKT Pİ İcraiyyə Komitəsinin toplantısı keçirilən günlər ərzində onun da tərkibində olduğu – birinci vitse-spiker Ziyafət Əsgərovun rəhbərlik etdiyi MM-in nümayəndə heyəti MƏR-də səfərdə olub. «Biz ayın 19-da Misir Qəlyubiyyə vilayətinin Qanatr şəhərində olduq və orada yerləşən Azərbaycan-Misir Dostluq Parkında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdik. Eləcə də şəhərin meriylə görüşdük. Bundan sonra Əl-Obur şəhərində Azərbaycanın birinci xanımı, millət vəkili Mehriban Əliyevanın adını daşıyan məktəbdə olduq, məktəbin müdiriyyəti, kollektivi ilə yaxından tanışlıq imkanı əldə etdik. Bununla yanaşı, məktəbdə Mehriban xanıma həsr olunmuş guşə ilə tanış olduq».

Səlcuq,
«Xalq Cəbhəsi» qəzeti, 29 dekabr 2009-cu il.

ÖTƏN İL ŞƏRQŞÜNASLIQ İNSTITUTUNDA 85 ELMİ-TƏDQİQAT İŞİ ARAŞDIRILIB

GÖVHƏR BAXŞƏLİYEVA: «AZƏRBAYCAN ŞƏRQŞÜNASLARI DÜNYA ELMİNƏ SANBALLI TÖHFƏLƏR VERİB»

Azərbaycanda şərqşünaslıq elmi yüksəliş dövrünü yaşayır. Etiraf edilməlidir ki, azərbaycanlı mütəxəssislər bu sahədə əldə etdikləri uğurları ilə bir sıra müsəlman dövlətlərini geridə qoyurlar. Bu işdə Azərbaycan Milli Elmlər Akademiyasının Ziya Bünyadov adına Şərqşünaslıq İnstitunun fəaliyyəti danılmazdır. Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili Gövhər Baxşəliyeva bildirib ki, hazırda Şərqşünaslıq İnstitutunda görülən işlər böyük alimlərimizin qoyduqları elmi ənənələrin davam etdirildiyini göstərir.

Bunu elə tək ötən ildə institutun alimlərinin qələmindən çıxmış tədqiqatlara, çap olunmuş kitablara, elmi dərgilərə nəzər salmaqla da görmək olar. 2009-cu ildə burada yüksək səviyyədə işlər yerinə yetirilib, böyük uğurlar əldə edilərək Azərbaycan şərqşünaslıq elminin inkişafına və dünya elminə inteqrasiyasına samballı töhfələr verilib. Ümumilikdə ötən ildə institutda 85 elmi-tədqiqat işi tamamlanıb. G. Baxşəliyevanın bildirdiyinə görə, müasir Türkiyənin iqtisadiyyatı və xarici iqtisadi siyasəti mövzusu çərçivəsində çapa hazırlanmış «Türkiyə. Tarixi-iqtisadi oçerklər» kitabı diqqətəlayiqdir. Bu sahədə görülmüş işlərdən «Türkiyənin xarici iqtisadi siyasətində MDB respublikaları» adlı elmi-tədqiqat işini də qeyd etməyə dəyər: «Əsası böyük alimimiz akademik Ziya Bünyadov tərəfindən qoyulan məşhur Osmanlı vergi dəftərlərinin tədqiqi, tərcüməsi və nəşri davam etdirilir. Bu sıradan «XVIII əsrin II yarısı - XIX əsrin 30-cu illərində Borçalı ərazisində etno-demoqrafik vəziyyət (Osmanlı və gürcü mənbələrinin müqayisəli təhlili əsasında)» adlı işdə Borçalı-Qazax bölgəsinə aid osmanlı, gürcü və fars mənbələri, o cümlədən, Tiflis əmirliyi, Borçalı-Qazax, Lori və Trabzon əyalətlərinin təhrir, Gürcüstan vilayətinin müfəssəl dəftəri, gürcü knyazları və İran şahlarının dövrə aid fərmanları araşdırılıb, tərcümə edilib, Borçalıdakı XVIII əsrdə demoqrafik, inzibati, sosial-iqtisadi, etno-coğrafi və hərbi-siyasi vəziyyət təsvir olunub və bir çox etnonim, toponim və onomastik ifadələrin izahı verilib. «XVIII yüzilliyin II yarısında Urmiya bölgəsinin etnodemoqrafik vəziyyəti (Osmanlı mənbələri əsasında)» adlı elmi-tədqiqat işi də tamamlanıb. XVIII yüzilliyin əvvəllərində Azərbaycanın əyalət və bölgələrinin sosial-iqtisadi vəziyyətinin, tarixinin öyrənilməsində İstanbul və Ankara arxivlərində çox dəyərli sənədlər, mənbələr qorunub saxla-

nılır. Bu mənbələrdən, xüsusilə, «Dəftəri-mufəssəli-livai-Xalxal və Urumi»dən istifadə edilərək Urmiyə bölgəsində XVIII yüzilliyin əvvəllərində Osmanlı fəthindən sonra baş vermiş ərazi-struktur dəyişiklikləri, maliyyə, kənd və nahiyələrdən toplanan vergilər, ərazidə məskunlaşmış əhalinin etnodemoqrafik vəziyyəti təhlil olunub. Övliya Çələbinin «Səyahətnamə» əsərinin II cildinin tərcüməsi və tədqiqi də bitmiş işlərdəndir». G.Baxşəliyeva deyib ki, Cənubi Azərbaycanla bağlı tədqiqatlara da böyük önəm verilir. Bu bölgənin tarixi, iqtisadiyyatı və ictimai-siyasi vəziyyəti problemi üzrə «Güney Azərbaycan» məlumat kitabı hazırlanıb, həmçinin Seyid Cəfər Pişəvərinin «Zindan xatirələri» ön söz və şərhlərlə çapa təqdim olunub: «Müsəlman Şərqi beynəlxalq münasibətlər sistemində» mövzusu üzrə «İran körfəzi ölkələri beynəlxalq əlaqələr sistemində» adlı elmi-tədqiqat işi tamamlanıb. Mərkəzi Asiya və Uzaq Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi və mədəni inkişafı, Azərbaycanla əlaqələri mövzusu çərçivəsində isə «Yaponiya ilə Azərbaycan Respublikası arasında siyasi-iqtisadi və mədəni əlaqələr» araşdırılıb». G.Baxşəliyevanın söylədiyinə görə, Qərbi Avropa və İslam dünyası arasında qarşılıqlı mədəni-ictimai təsir prosesləri mövzusu üzrə görülən işlərin də əhəmiyyəti böyükdür. «Postpozitivizm və işraqilik», «Türkiyədə modernləşmə prosesində elitanın rolu», «Modernləşmə və XX əsr ərəb ədəbiyyatı», «Müasir Şərq ədəbiyyatında Qərb obrazı» adlı tədqiqatlar bu qəbildəndir. Bu mövzuda həmçinin Bernard Luisin «Mədəniyyətlərin münaqişəsi: xristian, müsəlman və yəhudilər kəşflər dövründə» adlı əsəri tərcümə olunaraq çapa təqdim edilib. İnstitut direktorunun bildirdiyinə görə, il ərzində əməkdaşların 18 monoqrafiya, kitab və topluları nəşr edilib. Bunlardan «Ölməzliyə aparan yol» (Ərəb dilindən tərcümə, tədqiqat, şərh və qeydlər G.B.Baxşəliyevanındır), S.Ə.Rüstəmova-Tohidinin «Mart 1918. Bakı. Azərbaycanlıların soyqırımı sənədlərdə» kitablarını və digərlərini qeyd etmək olar. «Bunlardan əlavə, İnstitutun mütəmadi olaraq nəşr etdirdiyi «Şərq filologiyası məsələləri» məcmuəsində, «Elmi araşdırmalar» və «Azərbaycan şərqşünaslığı» jurnallarında Şərq tarixi, iqtisadiyyatı, ictimai fikri, ədəbiyyatı, dilləri ilə bağlı dəyərli məqalələr oxuculara çatdırılır. İl ərzində İnstitut əməkdaşlarının respublikamızda və xaricdə nəşr olunan elmi məcmuələrdə 200-dən artıq elmi məqaləsi dərc olunub. Bunlardan 42-si xarici ölkələrdə, o cümlədən nüfuzlu beynəlxalq nəşrlərdə işıq üzü görüb. 2009-cu il İnstitutun beynəlxalq əlaqələri baxımından da zəngin olub. Bu sıradan xarici ölkələrin elmi müəssisə rəhbərləri ilə keçirilən görüşləri, əməkdaşların xarici ölkələrə elmi ezamiyyələrini və s. qeyd etmək olar. İnstitutun əməkdaşları xarici ölkələrdə və ölkəmizdə keçirilən beynəlxalq elmi konfranslarda 53 dəfə (o cümlədən, 43 dəfə xarici ölkələrdə)

məruzələrlə çıxış edib, ABŞ-ın, Fransanın, Böyük Britaniyanın, Hollandiyanın, Rumıniyanın, Rusiyanın, Cənubi Koreyanın, Çin Xalq Respublikasının, Hindistanın, Türkiyənin, İranın, Qazaxıstanın, Özbəkistanın, Şimali Kipr Respublikasının və digər ölkələrin müxtəlif şəhərlərində Azərbaycan elmini layiqincə təmsil ediblər».

«Olaylar» qəzeti, 27 yanvar 2010-cu il.

«ERMƏNİLƏRİ BEYNƏLXALQ ALƏMDƏN TAM TƏCRİD ETMƏLİYİK»

GÖVHƏR BAXŞƏLİYEVA: «BUNDAN SONRA QARABAĞ MÜNAQİŞƏSİNİN ƏDALƏTLİ HƏLLİNƏ NAİL OLA BİLƏRİK»

«Qarabağ münaqişəsinin indi yalnız hərb yoluyla həll variantı birmənalı olaraq mümkün deyil. bu, indiki dövrün reallıqları və şərtləri daxilində real görünmür».

Bu fikirləri sabiq vitse-spiker, millət vəkili Gövhər Baxşəliyeva dilə gətirib: «Biz indi orta əsrlərdə yaşamırıq ki, hansısa şəxsi qəhrəmanlıq, şücaət nəticəsində ərazilərimizi azad edək. Eyni zamanda bildiyimiz kimi, bu regionda bir sıra dövlətlərin, supergüclərin maraqları kəsişir və toqquşur. Bununla yanaşı, bizim hərbi cəhətdən gücümüz, silahımız nə qədər çox olsa da, Qarabağ münaqişəsinin tək müharibə, hərb variantı ilə həlli mümkün qörünmür. İstənilən hərbi gücə qarşı daha böyük hərbi güc çıxara bilərlər. Bu baxımdan, biz nahaq yerə cavanlarımızı məhvə doğru sürükləyə bilmərik, sürükləməməliyik. Onları gənc yaşlarında qurban verməməliyik. Biz bu məsələdə daha çox sülh, danışıqlar, diplomatiya yoluna üstünlük verməliyik və çalışmalıyıq ki, məhz dinc vasitələrlə 22 ildən artıq davam edən bu qanlı münaqişənin xalqımız üçün müsbət, ədalətli həllinə nail olaq». Millət vəkili sözügedən münaqişənin tənzimlənməsində vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupu və onun həmsədrlər institutunun fəaliyyətinə də öz narazılığını bildirib. Onun sözlərinə görə, Minsk qrupunun və onun həmsədrlər institutunun yaranmasından uzun müddət keçməsinə baxmayaraq, hələ də münaqişənin dinc, danışıqlar yoluyla tənzimlənməsinə, həll olunmasına nail olmaq mümkün olmayıb: «Danışıqlar prosesində bəlkə də hansısa irəliləyişlər var və bu, onların özlərinə məlumdur, ancaq açıqda biz bu irəliləyişləri görmürük. Məsələnin sonu bugünədək görünmür. Ona görə bəlkə düşünmək lazımdır, bəlkə hansısa başqa bir formatda bu danışıqlar aparılmalı, davam etdirilməlidir?»

Sülhməramlı qüvvələrin bölgədə yerləşdirilməsi məsələsinə gəlincə isə G.Baxşəliyeva deyib ki, sülhməramlılar o vaxt münaqişə bölgəsində yerləşdirilə bilər ki, erməni hərbi birləşmələri işğal olunmuş əraziləri azad etmiş, əhali həmin ərazilərə qayıtmış olsun. Yalnız bundan sonra insanların təhlükəsizliyini təmin etmək üçün BMT çətiri altında sülhməramlıları münaqişə bölgəsinə yerləşdirmək olar: «İndiki şəraitdə isə sülhməramlıların münaqişə bölgəsində yerləşdirilməsi heç cür arzuolunan deyil. Bu, bizə müsbət heç nə verməz. Amma yeri gəlmişkən onu qeyd etmək istəyirəm ki, Qarabağ münaqişəsinin həlli

yollarından biri də hər bir azərbaycanlının bu istiqamətdə canı dildən iş görməsindən, fəaliyyət ortaya qoymasından keçir. Harada oluruqsa-olaq, biz bu istiqamətdə öz fəaliyyətimizi göstərməli, təbliğatla məşğul olmalı, Azərbaycan, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə olduğu kimi çatdırmalıyıq. Biz tarixi faktlara əsaslanan materialların xarici dillərə, xüsusilə ingilis dilinə tərcümə olunaraq yayımlanmasına nail olmalıyıq. Biz hansı ölkəyə gediriksə, hansı beynəlxalq tədbirə qatılırıqsa, bu materialları özümüzlə aparmalı, onları xaricilər arasında yaymalıyıq. Eyni zamanda, bu materialları dünyanın ən nüfuzlu kitabxanalarına göndərməliyik. Təbliğat yoluyla bu məsələdə özümüzə daha çox dost, tərəfdaş tapmağa cəhd göstərməliyik. Ermənistanı iqtisadi cəhətdən necə dünyadan təcrid etmişiksə, məhz o cür də ideoloji baxımdan təcrid etməyə çalışmalı və buna nail olmalıyıq. Biz ermənilər beynəlxalq aləmdən tam təcrid etməliyik ki, sonlar özləri sülhə, kompromisə gəlməyə məcbur olsunlar. Əgər biz bunlara tam nail ola bilsək, Qarabağ münaqişəsinin ədalətli həllinə tezliklə yaxınlaşa və nail ola bilərik.»

«Üç nöqtə» qəzeti, 20 fevral 2010-cu il.

GÖVHƏR BAXŞƏLİYEVANIN QARABAĞ PROBLEMİNƏ YANAŞMASI

Ermənilərin atəşkəsi pozmasına və 3 əsgərimizin şəhid olmasına münasibət bildirən Milli Məcisin Müdafiə və təhlükəsizlik komitəsinin üzvü, millət vəkili Elman Məmmədov deyib ki, Azərbaycanın müharibəyə başlamaqdan ayrı yolu qalmayıb. Onun sözlərinə görə, Azərbaycan müharibəyə başlamalı, eyni zamanda danışıqlar prosesi davam etdirilməlidir. Onun deputat həmkarı **Gövhər Baxşəliyeva** isə deyir ki, Qarabağ münaqişəsinin indi yalnız hərb yoluyla həlli variantı birmənalı olaraq mümkün deyil. Bu, indiki dövrün reallıqları və şərtləri daxilində inandırıcı görünmür: «Biz indi orta əsrlərdə yaşamırıq ki, hansısa şəxsi qəhrəmanlıq, şücaət nəticəsində ərazilərimizi azad edək. Eyni zamanda, bildiyiniz kimi, bu regionda bir sıra dövlətlərin, supergüclərin maraqları kəsişir və toqquşur. Bununla yanaşı, bizim hərbi cəhətdən gücümüz, silahımız nə qədər çox olsa da, Qarabağ münaqişəsinin tək müharibə, hərb variantı ilə həlli mümkün görünmür. İstənilən hərbi gücə qarşı daha böyük hərbi güc çıxarıla bilər. Bu baxımdan, biz nahaq yerə cavanlarımızı məhvə doğru sürükləməməliyik. Onları gənc yaşlarında qurban verməməliyik. Biz bu məsələdə daha çox sülh, danışıqlar, diplomatiya yoluna üstünlük verməliyik və çalışmalıyıq ki, məhz dinc vasitələrlə 22 ildən artıq davam edən bu qanlı münaqişənin xalqımız üçün müsbət, ədalətli həllinə nail olaq».

Millət vəkili münaqişənin tənzimlənməsində vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupu və onun həmsədrlər institutunun fəaliyyətinə də öz narazılığını bildirib. Gövhər Baxşəliyevanın sözlərinə görə, Minsk qrupunun və onun həmsədrlər institutunun yaranmasından uzun müddət keçməsinə baxmayaraq, hələ də münaqişənin dinc, danışıqlar yoluyla tənzimlənməsinə nail olmaq mümkün olmayıb: «Danışıqlar prosesində bəlkə də hansısa irəliləyişlər var və bu onların özlərinə məlumdur, ancaq açıqda biz bu irəliləyişləri görmürük. Məsələnin sonu bugünədək görünmür. Ona görə düşünmək lazımdır, bəlkə hansısa başqa bir formatda bu danışıqlar aparılmalı, davam etdirilməlidir». Sülhməramlı qüvvələrin bölgədə yerləşdirilməsi məsələsinə gəlincə isə Gövhər Baxşəliyeva deyib ki, sülhməramlılar o vaxt münaqişə bölgəsində yerləşdirilə bilər ki, erməni hərbi birləşmələri işğal olunmuş əraziləri azad etmiş, əhali həmin ərazilərə qayıtmış olsun. Yalnız bundan sonra insanların təhlükəsizliyini təmin etmək üçün BMT çətiri altında sülhməramlıları münaqişə bölgəsinə yerləşdirmək mümkündür: «İndiki şəraitdə isə sülhməramlıların münaqişə bölgəsinə yerləşdirilməsi heç cür arzuolunan deyil. Bu, bizə müsbət heç nə verməz. Amma yeri gəlmişkən onu qeyd etmək

istəyirəm ki, Qarabağ münaqişəsinin həlli yollarından biri də hər bir azərbaycanlının bu istiqamətdə canı-dildən iş görməsindən, fəaliyyət ortaya qoymasından keçir. Harada oluruqsa-olaq, biz bu istiqamətdə öz fəaliyyətimizi göstərməli, təbliğatla məşğul olmalı, Azərbaycan, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə olduğu kimi çatdırmalıyıq. Biz tarixi faktlara əsaslanan materialların xarici dillərə, xüsusilə ingilis dilinə tərcümə olunaraq yayımlanmasına nail olmalıyıq. Biz hansı ölkəyə gediriksə, hansı beynəlxalq tədbirə qatılırıqsa, bu materialları özümüzlə aparmalı, onları xaricilər arasında yaymalıyıq. Eyni zamanda, bu materialları dünyanın ən nüfuzlu kitabxanalarına göndərməliyik. Təbliğat yoluyla bu məsələdə özümüzə daha çox dost, tərəfdaş tapmağa cəhd göstərməliyik. Ermənistanı iqtisadi cəhətdən necə dünyadan təcrid etmişiksə, məhz o cür də ideoloji baxımdan təcrid etməyə çalışmalı və buna nail olmalıyıq. Biz ermənilər beynəlxalq aləmdən tam təcrid etməliyik ki, onlar özləri sülhə, kompromisə gəlməyə məcbur olsunlar. Əgər biz bunlara tam nail ola bilsək, Qarabağ münaqişəsinin ədalətli həllinə tezliklə yaxınlaşa və nail ola bilərik».

«Xalq Cəbhəsi» qəzeti, 20 fevral 2010-cu il.

GÖVHƏR BAXŞƏLİYEVA: «HİCABSIZLIQ AZƏRBAYCAN QADINI ÜÇÜN BÖYÜK NAİLİYYƏTDİR»

BMT-nin ixtisaslaşdırılmış təşkilatları - BMT-nin Uşaq Fondu (YUNİSEF), Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatı (YUNESKO), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Beynəlxalq Əmək Təşkilatı (BƏT) uşaq və gənclərin müdafiəsi üzrə beynəlxalq əməkdaşlıq sahəsində mühüm rol oynayırlar. Bu gün keçirilən konfransın da belə əməkdaşlığın möhkəmlənməsində xüsusi rolu şübhəsizdir.

Hörmətli həmkarlar!

Sizin diqqətinizə çatdırmaq istədiyim əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qurbanına çevrilmiş uşaqlar barəsindədir. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Dağlıq Qarabağ və ətraf rayonlardan, eləcə də Ermənistandan qovulmuş yüz minlərlə insanın çox hissəsini azyaşlı uşaqlar, gənclər təşkil edir. 1988-ci ildə Ermənistanda yaşayan azərbaycanlıların etnik təmizlənməsi nəticəsində 15 yaşına qədər 23 uşaq öldürülmüş, onlarla uşaq şikəst olmuşdur.

1992-ci ilin fevralında dünyada misli görünməmiş vəhşiliklə törədilmiş Xocalı soyqırımı nəticəsində 83 nəfər azyaşlı uşaq qətlə yetirilmişdir. Qismən sağlamlığını itirənlərin 76 nəfəri yetkinlik yaşına çatmamış oğlan və qızlardır. Bu cinayət nəticəsində 25 nəfər uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir, 54 nəfər uşaq itkin düşmüşdür.

Ümumiyyətlə, Ermənistanın iyrənc təcavüzü nəticəsində 20 min azərbaycanlı öldürülmüş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif xəsarət alaraq əlil olmuş, 1 milyona yaxın insan qaçqın və məcburi köçkünə çevrilmişdir. Bunların içərisində uşaqlar və gənclər əksəriyyət təşkil edir. Ən faciəli hal isə bütün beynəlxalq normalara zidd olaraq, 18 uşağın hələ də erməni əsirliyində olmasıdır.

Zəif məxluq olan uşaqların xüsusi qayğı və mühafizəyə ehtiyacları böyükdür. Hər bir uşağın fiziki, əqli, mənəvi cəhətdən inkişaf etməsi üçün lazımi şərait olmalıdır. Qeyd olunan münaqişə nəticəsində 130 min nəfərə yaxın Azərbaycan məktəblisi qaçqın düşmüşdür. Məcburi köçkünlük və qaçqınlıq problemi təhsil üçün çox ciddi çətinliklər yaratmışdır. Erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərimizdə 616 ümumtəhsil məktəbi, 234 məktəbəqədər tərbiyə müəssisəsi, 12 texniki peşə məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 5 orta ixtisas məktəbi, 1 ali məktəb işğal zonasında qalmış və dağıdılmışdır. 1994-cü ilin əvvəlləri üçün aparılmış təqribi hesablamalara görə Ermənistanın hərbi təcavüzü nəticəsində Respublikanın təhsil sisteminə 1,5 milyard ABŞ dolları dəyərində maddi ziyan vurulmuşdur. Lakin dəymiş mənəvi ziyan maddi ziyandan daha böyükdür.

İşğalın, terrorçuluğun qurbanlarına çevrilmiş günahsız uşaqlar neçə illərdir dözülməz şəraitdə çadırlarda yaşayır, təhsil alır, böyüyürlər. Düşərgə həyatı onlara ağır psixoloji təsir göstərir, müxtəlif xəstəliklər yaradır, mədəni dəyərlərdən uzaqlaşdırır.

Amansız münaqişədə valideynlərini itirmiş, məhv edilmiş, şikəst olmuş, uşaqlıq çağının qayğısız günlərindən məhrum olmuş uşaqlar, eləcə də çadırlarda bu gün dünyaya göz açan körpələrin pozulmuş hüquqlarının müdafiəsinə beynəlxalq ictimaiyyət, vəzifəsi bilavasitə uşaqların haqlarını mühafizə etmək olan beynəlxalq təşkilatlar biganə qalmamalı, onların hüquqlarının bərpa olunmasında beynəlxalq öhdəliklərin yerinə yetirilməsinə çalışmalıdırlar.

Mən fürsətdən istifadə edərək beynəlxalq ictimaiyyətə, donor ölkələrə və beynəlxalq humanitar təşkilatlara müraciət etmək istəyirəm ki, münaqişədən zərər çəkmiş əhalinin, ilk növbədə uşaq və gənclərin əzablarının aradan qaldırılması işinə daha fəal yanaşsınlar.

Diqqətiniz üçün təşəkkür edirəm.

Məruzə qadın parlamentarilərin Ümumdünya Konfransında ingilis dilində səsləndirilib. Roma (İtaliya), 17 oktyabr 2004-cü il.

MƏŞRUTƏ İNQİLABI – 100

Ç I X I Ş

Hörmətli xanımlar və cənablar!

Konfransımızda iştirak edən qonaqlar!

AMEA Rəyasət Heyətinin dəstəyi ilə akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu tərəfindən bu gün təşkil edilmiş Beynəlxalq elmi konfrans İran və Azərbaycan xalqlarının XX əsr tarixində şərəfli yer tutan 1905-1911-ci illər Məşrutə inqilabının 100 illik yubileyinə həsr edilmişdir.

Biz çox şadıq ki, konfransımızda İranın Azərbaycandakı səlahiyyətli səfiri cənab Əfşar Süleymani və onun həmkarları, dünya şöhrətli cərrah, ensiklopedik alim, «Varlıq» dərgisinin naşiri doktor Cavad Heyət, görkəmli tədqiqatçı alim Səməd Sərdarniya, Türkiyənin Bakıdakı səfirliyinin mədəniyyət üzrə müşaviri Fəti Qedikli, tanınmış şərqşünas alimlər və mətbuat nümayəndələri iştirak edirlər.

Nəzərinizə çatdırım ki, bugünkü yubiley təntənəsində Təbrizdən təşrif gətirmiş Sərdari Milli Səttarxanm nişanələri - onun nəvələri Səttar, Behzad və Sam Sərdari-milli cənablarının konfransımızda iştirak etmələri bizim üçün böyük şərəfdir.

İcazə verin AMEA Rəyasət Heyətinin və konfransın təşkilatçısı Şərqşünaslıq İnstitutunun rəhbərliyi adından hörmətli qonaqları və konfrans iştirakçılarını ürəkdən salamlayım və işlərində uğurlar arzulayım.

Hörmətli konfrans iştirakçıları!

Sizin hamınıza yaxşı bəllidir ki, 1905-1911-ci illərdə qonşu İranda baş vermiş Məşrutə inqilabı XX əsr tarixində əlamətdar və böyük ictimai hadisədir.

Məşrutə inqilabı İranın siyasi həyatında ona görə əlamətdardır ki, bu hərəkat ölkədəki şahlıq rejiminin əsaslarına ilk zərbəni vurmuş, İranın siyasi-ictimai həyatında bir sıra önəmli dəyişiklər yarada bilmişdi. Şahlıq istibdadının az da olsa, cilovlanması, ölkənin konstitusiyalı monarxiyaya çevrilməsi, İran tarixində ilk konstitusiyanın qəbul edilməsi, ilk parlamentin yaradılması, əyalət və vilayət əncümənlərinin təşkili və s., bunlar məşrutəçi qüvvələrin qanı və zəhməti bahasına əldə edilmişdi. Məşrutə inqilabının İran cəmiyyətinə məncə ən böyük töhfəsi azadlıq istəyən qüvvələri səfərbər edib onların şüurunda əsaslı dönüş yaratmasında olmuşdur. Bu oyanış Məşrutə hərəkatından sonrakı illərdə İranda baş vermiş siyasi hadisələrdə özünü aydın hiss etdirmişdir.

İnqilabın qələbə çalmasında Azərbaycan məşrutəçilərinin və böyük sərkərdə Səttarxanın və onun silahdaşlarının qəhrəmanlıq və fədakarlığını

xüsusi qeyd etmək lazımdır.

Bu gün Məşrutə hərəkatının 100 illik yubileyinə toplaşdığımız bir vaxtda biz məşrutə qəhrəmanları Sərdari Milli Səttarxanı, Salari Milli Bağırxanı, onların silahdaşlarını və azadlıq uğrunda şəhid olmuş insanları dərin hörmət və ehtiramla yad edirik və Allahdan onlara bir daha rəhmət diləyirik.

Əziz qonaqlar!

Məşrutə hərəkatı ilə bağlı bugünkü konfransımızda müxtəlif mövzularda 16 məruzə ediləcəyini nəzərə alıb mən bu haqda geniş danışmaq istəmirəm. Bu hərəkat bizim tariximizdə, ədəbiyyatımızda, ictimai-siyasi həyatımızda çox böyük izlər qoymuşdur. Bugünkü elmi toplantıda məhz bu haqda söhbəti gedəcək və ümidvaram ki, konfrans işini uğurla başa çatdıracaqdır.

Konfransda oxunacaq məruzələrin hamısının tam mənti Şərqşünaslıq institutunun hazırladığı və sizə təqdim olunacaq «Məşrutə inqilabı - 100» adlı məqalələr toplusunda çap edilmişdir. Buna görə məruzəçilərdən və çıxış edənlərdən imkan daxilində vaxta qənaət edib yığcam danışmaqlarını rica edirəm. Reqlament belədir - məruzələr üçün - 15 dəqiqə, çıxışlar üçün - 3-5 dəqiqə.

İndi isə konfransın təşkilat komitəsi tərəfindən hazırlanmış proqramın icrasına başlayırıq.

«Məşrutə inqilabı – 100» mövzusunda
Beynəlxalq Elmi Konfransda giriş sözü.
Bakı, 8-9 iyun 2005-ci il.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ SƏDRİNİN MÜAVİNİ XANIM GÖVHƏR BAXŞƏLİYEVANIN BÖYÜK LİVİYA ƏRƏB XALQ SOSİALİST CƏMAHİRRİYYƏSİNİN MİLLİ BAYRAMI MÜNASIBƏTİLƏ KEÇİRİLMİŞ TƏDBİRDƏKİ

Ç I X I Ş I

Hörmətli xanımlar və cənablar!

İcazə verin Liviya xalqının Milli Bayramı – Böyük Fateh İnqilabının 36-cı ildönümü münasibətilə Sizi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev adından təbrik edim.

Mən, həmçinin bu əlamətdar bayram münasibətilə Sizi və bütün Liviya xalqını Azərbaycan Respublikası Milli Məclisinin Sədri cənab Murtuz Ələsgərov, Milli Məclisin üzvləri və şəxsən öz adımdan da təbrik edirəm.

Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi 30 dekabr 1991-ci il tarixində Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. 16 mart 1992-ci il tarixində Azərbaycanla Liviya arasında diplomatik əlaqələr yaradılmışdır. 1995-ci ilin aprel ayında isə Bakıda Liviya səfirliyinin təsis edilməsi məqsədilə Liviyadan Azərbaycana nümayəndə heyəti gəlmiş və həmin tarixdən etibarən Liviyanın Bakıdakı səfirliyi – Xalq Bürosu fəaliyyət göstərir.

Hər iki dövlətin birgə səylərinin nəticəsi olaraq ikitərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində ciddi addımlar atılmışdır. İstər Liviyadan Azərbaycana, istərsə də Azərbaycandan Liviyaya müxtəlif səviyyələrdə hökumətlərarası səfərlər həyata keçirilmiş, iki ölkə arasında siyasət, iqtisadiyyat, ticarət, elm, texnika və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi məqsədilə Müştərək komissiya yaradılması barədə saziş, iki ölkənin hökumətləri arasında ticarət əlaqələrinin inkişaf etdirilməsinə dair müqavilə, mədəni əməkdaşlıq sahələrinə dair saziş və digər çox mühüm sənədlər imzalanmış və əlaqələrimizin bundan sonra da inkişaf etdirilməsi üçün hüquqi baza yaradılmışdır.

Liviya beynəlxalq sanksiyaların tətbiq edilməsindən sonra Azərbaycan nümayəndə heyətinin 2000-ci ilin 6 may tarixində Tripoliyə səfəri siyasi dairələr, yerli KİV və ümumən ictimaiyyətin diqqətindən yayınmamış, ölkəmiz və xalqımız haqqında müsbət rəyin formalaşmasına və rəğbətə səbəb olmuşdur.

Göstərilən səfər Afrika qitəsinin aparıcı dövlətlərindən və ərəb aləmində nüfuz sahibi olan Liviyada Azərbaycan Respublikasının mövqeyinin bu bölgənin siyasi-ictimai dairələrinə çatdırılması üçün əhəmiyyət kəsb etmişdir. Liviya XİN-i səviyyəsində Azərbaycanın mövqeyinin bu dövlət tərəfindən

beynəlxalq təşkilatlar, BMT və İKT çərçivəsində dəstəkləndiyi və bundan sonra da dəstəklənəcəyi təsdiq edilmiş, beynəlxalq təşkilatlarda qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsi qərara alınmışdır.

Liviya Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq üzrə Ümumxalq Komitəsinin siyasi işlər üzrə köməkçi katibi (Xarici İşlər Nazirinin birinci müavini) Səad Mustafa Mucbirin başçılıq etdiyi nümayəndə heyəti 2000-ci ilin 16-20 noyabr tarixlərində Azərbaycanda işgüzar səfərdə olmuşdur. Səfər zamanı S.N.Mucbir Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmiş, nümayəndə heyətinin Milli Məclisin Sədri M.Ələsgərov, Baş Nazir A.Rasizadə, Xarici İşlər Naziri V.Quliyev, İqtisadiyyat Naziri N.Nəsrullayev, Təhsil Naziri M.Mərdanov, Xarici İşlər Nazirinin müavini X.Xələfov, Dövlət Neft Şirkəti Prezidentinin müavini X.Yusif-zadə və Qafqaz Müsəlmanları İdarəsinin Sədri Şeyxulislam A.Paşazadə ilə görüşləri keçirilmişdir. Görüşlər zamanı müxtəlif sahələrdə Azərbaycan-Liviya əməkdaşlığı məsələləri müzakirə olunmuşdur.

Siyasət, iqtisadiyyat, ticarət, elm, texnika və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi məqsədilə Azərbaycan ilə Liviya arasında 16 mart 1992-ci il tarixində Azərbaycan Respublikası ilə böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında müştərək Saziş imzalanmışdır. Azərbaycan Prezidentinin 27 sentyabr 2003-cü il tarixli, 1342 saylı Sərəncamına əsasən Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiya təsis olunmuşdur. Liviya tərəfindən bir neçə dəfə Müştərək Komissiyaya həmsədr təyin olunmuş və 2000-ci ilin yanvar ayından bu səlahiyyətlər Liviya Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq üzrə Ümumxalq Komitəsinin mədəniyyət, informasiya və əməkdaşlıq üzrə köməkçi katibinə (Xarici İşlər Nazirinin müavini) həvalə edilmişdir. Komissiyanın Azərbaycan tərəfindən həmsədri Xarici İşlər Nazirinin müavini təyin edilmişdir.

Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın təşkil olunması haqqında Saziş ilə yanaşı Azərbaycan ilə Liviya arasında 1992-ci ildə mədəni əməkdaşlıq sahəsində saziş və ticarət müqaviləsi imzalanmışdır.

Hazırda Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın birinci iclasının keçirilməsi ilə əlaqədar hazırlıq işləri aparılır ki, bu da Azərbaycan-Liviya əlaqələrinin inkişafda olduğunu göstərir.

Ölkələrimiz Parlamentlərarası İttifaq, İslam Konfransı Təşkilatının Parlament İttifaqı kimi nüfuzlu beynəlxalq parlament təşkilatlarının üzvüdür.

Ölkələrimizin qanunverici orqanları arasında əlaqələrin inkişaf etdirilməsi də olduqca vacibdir. Bu cür əlaqələr Azərbaycan və Liviya arasında münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi işinə xidmət edəcəkdir.

Keçən il Liviya xalqının həyatında mühüm hadisə baş vermişdir. Liviya üzərindən embarqo götürülmüşdür. Bununla Liviyaya iqtisadi sahədə inkişaf etmək və ümumiyyətlə dünya ölkələri ilə inteqrasiya olunmaq imkanı yaradılmışdır.

Liviya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq və regional təşkilatlarda Azərbaycanın haqlı mövqeyini birmənalı şəkildə dəstəkləyir. 1997-ci ilin dekabr ayında Liviyanın İslama Çağırış Cəmiyyətinin köməkliyi ilə Azərbaycandakı məcburi köçkünlərə ərzaq, tibbi ləvazimat və s. ibarət humanitar yardım göstərilmişdir. Azərbaycan rəhbərliyi və xalqı Liviyanın bu ədalətli mövqeyini çox yüksək qiymətləndirir.

Hörmətli xanımlar və cənablar!

İcazə verin bir daha Sizi və bütün Liviya xalqını bu bayram münasibətilə təbrik edim və ölkənizə firavan həyat, əmin-amanlıq və iqtisadi tərəqqi arzu edim.

1 sentyabr 2005-ci il.

AZƏRBAYCAN RESPUBLİKASI PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN BAŞÇISI XANIM GÖVHƏR BAXŞƏLİYEVANIN İSLAM KONFRANSI TƏŞKİLATI PARLAMENT İTTİFAQININ QAHİRƏDƏ KEÇİRİLMİŞ KONFRANSININ V SESSİYASINDA

Ç I X I Ş I

Əziz bacılar və qardaşlar,

Hörmətli Konfrans iştirakçıları,

Hörmətli cənab Sədr!

İcazə verin ilk növbədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikası Milli Məclisinin Sədri cənab Oqtay Əsədovun səmimi salamlarını və Konfransın işinə uğurlar arzusunu sizə çatdırım.

Eyni zamanda, bu böyük beynəlxalq tədbirin belə gözəl təşkili və bizə göstərilən qonaqpərvərliyə görə Misir respublikasının rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

1999-cu ilin iyun ayında Tehranda keçirilmiş İslam Konfransı Təşkilatının Parlament İttifaqının təsis konfransından keçən dövrdə dünyada böyük dəyişikliklər baş vermişdir. Özündə Avropa və Şərq mədəniyyətinin ənənələrini birləşdirən Azərbaycan Respublikası da bəşəriyyətin və İslam dünyasının bir parçası kimi bu proseslərdən kənarda qalmayaraq istiqlaliyyət yolunda inamlı addımlarını atmaqdadır. Qeyd etmək lazımdır ki, islami dəyərlərə və əqidəsinə sadiq qalan Azərbaycan xalqı 70 il sovetlər ittifaqı tərkibində olduğu dövrdə güclü ateist təbliğatı altında olmasına baxmayaraq islam dininə sadiq qalmışdır.

Hazırda Azərbaycan Respublikasında ölkə Prezidenti, cənab İlham Əliyevin rəhbərliyi ilə ümummilli liderimiz Heydər Əliyevin siyasi xətti davam edilərək, demokratiyanın inkişafı, əsas insan azadlıqlarının təmin edilməsi, dünya iqtisadiyyatına inteqrasiya istiqamətində mühüm islahatlar həyata keçirilməkdədir. Ölkə vətəndaşları Azərbaycan Konstitusiyasında təsbit edilmiş bütün hüquqlardan, o cümlədən söz, vicdan, əqidə azadlıqlarından sərbəst surətdə istifadə edirlər.

Lakin ölkəmizin demokratik inkişafı yolunda xalqımızın ən ağrılı problemi Ermənistanın Azərbaycana qarşı təcavüzü böyük əngəllər törətməkdədir. Belə ki, bu təcavüzün nəticəsində Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ bölgəsi və onun ətrafında yerləşən 7 rayon ilə birlikdə torpaqlarımızın 20%-i işğal edilmiş, 1 milyondan artıq soydaşımız doğma ata-baba yurdlarından didərgin düşmüşlər. Erməni qəsbkarlarının işğalı Azərbaycan xalqına bö-

yük maddi və mənəvi ziyan vurmuşdur. İşğal olunmuş torpaqlarımızda erməni silahlı qüvvələri xeyli sayda mədəniyyət abidələrimizi məhv etmiş, tarixi məscidlərimizi, müqəddəs islam ocaqlarını, qəbiristanları yerlə-yeksan etmişlər, müsəlman sivilizasiyasının izlərini silmişlər. Bu vandalizm təkcə Azərbaycan xalqına qarşı deyil, bütün islam dünyasına vurulan bir zərbədir. Hərbi təcavüz və etnik təmizləmə nəticəsində 20 mindən çox azərbaycanlı öldürülmüş, 50 mindən çox adam əlil olmuş, dörd mindən çox adam əsir və itkin düşmüş, girov götürülmüşdür. Uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımının bütün dəhşətlərini görmüşlər. Yanvar ayı bitmək üzrədir. Bir neçə gündən sonra Azərbaycan xalqı üçün kədər və qüssə ayı olan fevral ayı başlayır. Məhz fevralın 26-da mənim xalqımın tarixində ən böyük faciələrdən biri baş verib. 1993-cü ilin məhz bu günündə erməni işğalçıları tərəfindən Xocalı adlı Azərbaycan şəhəri yerlə yeksan edilmiş, 613 dinc sakin, o cümlədən 63 uşaq və 106 qadın vəhşicəsinə öldürülmüşdür. 1275 sakin – qocalar, uşaqlar, qadınlar əsir aparılmış, olmazın təhqir və işgəncələrə məruz qalmışlar. 150 əsirin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günə qədər məlum deyil.

Bundan başqa, Azərbaycan erməni terrorçularının və eləcə də ASALA kimi məşhur terror təşkilatının geniş miqyaslı fəaliyyəti üçün poliqona çevrilmişdir. Erməni terrorçularının törətdikləri 30-dan artıq terror aktları nəticəsində iki mindən çox günahsız Azərbaycan vətəndaşı qətlə yetirilmiş, on minlərlə insan xəsarət almışdır.

Bizim üçün terrorçuluq əleyhinə mübarizə sahəsində əsas əngəl Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş və nəzarət olunmayan ərazilərdir. Bu ərazilər beynəlxalq terrorçular tərəfindən silah, narkotik maddə qaçaqmalçılığı və insan alveri məqsədilə istifadə olunmaqdadır.

Beynəlxalq hüquq normalarını kobud surətdə pozaraq, Ermənistan Respublikası işğal olunmuş Azərbaycan ərazilərində yeni yaşayış məskənləri salaraq, ərazinin demoqrafik vəziyyətini dəyişdirməyə çalışır. Mənbələr «Arsaxa qayıdış» adlı planın mövcudluğundan xəbər verir. Bu plana uyğun olaraq 2010-cu ilə qədər Dağlıq Qarabağda erməni əhalisinin sayını 300 minə çatdırmaq nəzərdə tutulub, halbuki münaqişənin başlanğıcında burada üç dəfə az erməni yaşayırdı.

Erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılmasını tələb edən BMT-nin məlum 4 qətnaməsini, beynəlxalq təşkilatların qərarlarını, o cümlədən İslam Konfransı Təşkilatı kimi çox nüfuzlu beynəlxalq təşkilatın Ermənistanın işğalçılıq siyasətini pisləyən, zəbt olunmuş torpaqlarımızın azad edilməsini tələb edən qətnamələrini qulaq ardına vuran Ermənistan bu günə

kimi Azərbaycan torpaqlarını işğal altında saxlayaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması prosesinə böyük maneələr törədir. Yeri gəlmişkən Avropa Şurası Parlament Assambleyasında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanı işğalçı, Dağlıq Qarabağ ermənilərini separatçı adlandıran qətnamənin qəbul edilməsini də burada xatırlatmaq istərdim.

Bununla əlaqədar mən bu yüksək tribunadan üzümü sizə tutaraq Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun şəkildə həll edilməsi istiqamətində səylərinizi bundan sonra da əsirgəməməyə çağırıram və hazırki sessiyanın yekun sənədlərinə Azərbaycan nümayəndə heyətinin təqdim etdiyi Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən qətnamələrin əlavə edilməsinin vacibliyini diqqətinizə çatdırıram.

Diqqətiniz üçün təşəkkür edirəm.

Qahirə, yanvar 2006-cı il.

QLOBALLAŞMA DÖVRÜNDƏ DİNLƏRARASI DİALOQ VƏ DİNİ DÖZÜMLÜLÜK

Hörmətli sədr!

Hörmətli konfrans iştirakçıları!

Mən məruzəmə başlamamışdan qabaq konfransın hazırlanmasında bizim institutla yaxından əməkdaşlıq etmiş Qafqaz Müsəlmanları İdarəsinə, İdarənin rəhbəri Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinə, Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin müəllim və professor heyətinə, ərəb ölkələrinin bu gün konfransa təşrif buyurmuş səfirlərinə və qardaş Türkiyədən gəlmiş islamşünas tədqiqatçılara dərin təşəkkürümü bildirmək istəyirəm.

«İslamda dözümlülük» mövzusu qloballaşma dövründə xüsusi aktuallıq kəsb edir. Ümid edirəm ki, konfransın materialları bu mövzunu mümkün qədər geniş açıqlamağa imkan verəcəkdir.

Müasir dövrdə qloballaşma prosesləri hər şeydən əvvəl beynəlxalq əlaqələrin güclənməsi, ölkələr arasında kommunikasiyaların genişlənməsi, ayrı-ayrı xalqların mədəniyyətlərində ümumi elementlərin artması ilə səciyyələnir. Eyni zamanda bu proseslərin gedişində daha çox Amerika və bir qədər zəif də olsa, Qərbi Avropa elementlərinin üstünlük təşkil etdiyi transmilli mədəniyyətin mədəni-siyasi hegemonluğunun özünü getdikcə daha bariz şəkildə göstərdiyini sezməmək mümkün deyildir. Bu hal bəzi tədqiqatçıları mədəniyyətlərin inteqrasiyası, vahid dünya mədəniyyətinin təşəkkülü, millətlərin və xalqların qovuşaraq «superetnos» yaradacağı barədə konsepsiyalar irəli sürməyə ruhlandırırsa, digər mütəxəssisləri, əksinə, sivilizasiyaların toqquşması, Şərq və Qərb mədəniyyətlərinin dialoqunun qeyri-mümkünlüyündən danışmağa sövq edir. Hətta bəziləri belə hesab edirlər ki, hər bir sivilizasiyanın əsasında din durur, dini etiqad və inanclar xalqların şüurunda möhkəm kök salmışdır və buna görə üçüncü dünya müharibəsi dini zəmində baş verəcəkdir.

Zənnimizcə, hər iki konsepsiyada ifratçılığa meyl güclüdür və onlardan heç biri ilə tam razılaşmaq olmaz.

Əvvəla, hər bir mədəniyyət başqa mədəniyyətdən öz genotipinə və inkişaf məntiqinə görə fərqlənir. Bu o deməkdir ki, vahid dünya mədəniyyətindən danışmağa dəyməz. İkincisi, böyük sivilizasiyalar özlərində birləşdirdikləri millətlərin və xalqların etnik xüsusiyyətlərini tamamilə silib aradan qaldıra bilmir: etnik xüsusiyyətləri və etnik kimliyi qoruyub saxlamaq əzmi hər bir xalqın şurunda möhkəm yer tapmışdır. Məsələn, bir vaxtlar Afrika qəbilələrinin islamlaşması heç də bu qəbilələrin etnik xüsusiyyətlərinin büsbütün aradan qalxmasına, zənci-Afrika mədəniyyətinin simasızlaşmasına gətirib çıxarma-

mışdı. Təşəkkül tapan yeni mədəniyyətdə ərəb-islam mədəniyyətinin elementləri nə qədər yer tapmışdısa, ənənəvi Afrika mədəniyyətinin ünsürləri də o qədər təmsil olunmuşdu. Bu nisbət bizim günlərdə də qorunub saxlanır. Bunu hazırda, müsəlman Nigeriyasında, müsəlman İndoneziyasında, yaxud Liviya tuareqlərinin bir çox adətlərində izləmək mümkündür. Yaxud bu gün Azərbaycanda Maqdonalds şirkəti öz üçüncü filialını yaradaraq nüfuz dairəsini genişləndirsə də, çayxana mədəniyyətini silib aradan çıxarmağa qadir deyildir. Onu da deyim ki, bu gün bəzi ərəb ölkələrində «qloballaşma» ilə «maqdonaldlaşma» eyni məna yüklü anlayışlar kimi başa düşülür.

Üçüncüsü, əlbəttə, bu gün dünyanın müxtəlif yerlərində baş verən və çox vaxt ekstremist islam qruplaşmaları tərəfindən törədilən terror hadisələrini islam-xristian qarşıdurması kimi qələmə vermək cəhdləri yanlış cəhdlərdir. Bu hadisələrin arxasında hər şeydən əvvəl iqtisadi-siyasi maraqlar durur. Əks təqdirdə, biz İran-İraq müharibəsini, yaxud xristian kimi səciyyələndirə biləcəyimiz NATO-nun xristian Yuqoslaviya əleyhinə apardığı müharibəni, ya da lap elə bu yaxınlarda Venesuela prezidenti Uqo Çavesin amerikanlara qarşı hinduların «zəhərli oxları» ilə çıxmaq təhdidlərini izah etməkdə çətinlik çəkərik.

Qloballaşma dövründə ənənəvi mədəniyyətlərin, o cümlədən islam mədəniyyətinin də xarici mədəni təsirlərə müqaviməti güclənsə də, bu, mədəniyyətlər və dinlər arasında dialoqu istisna etmir. Lakin bu dialoqun hüdudları olmalıdır. Bu hüdudlar isə dialoqun mənəvi-əxlaqi nöqteyi-nəzərdən məqbulluq dərəcəsi ilə şərtlənir. Bu baxımdan dinin norma və idealları sivilizasiyalar arasında həqiqi dialoqun gerçəkləşməsi üçün daha əlverişli sayılmalıdır. Çünki dinlər, hər halda əsas monoteist dinlər, özlərini İbrahim peyğəmbərin təkallahlıq təlimi ilə bağlamaqla bir-biri arasında, deməli, sivilizasiyalar arasında da körpü salırlar. Digər tərəfdən, dinlər sivilizasiyalararası dialoq yolunda əsas manea sayılan etnik separatizm meyllərini öz içərisində əridib yox etməyə çalışır.

Etiraf edilməlidir ki, son illərdə islama qarşı aparılan təbliğat işi müəyyən uğurlar qazanmışdır. Qərb ictimai fikrində islam haqqında dialoqa hazır olmayan, dözümsüzlük nümayiş etdirən, qəddarlığa çağıran bir din kimi təsəvvür yaradılmışdır. 11 sentyabr 2001-ci il Nyu-York və Vaşinqton hadisələri, Əfqanıstanda talibançıların, İraqda ayrı-ayrı radikal islam qruplaşmalarının pozucu fəaliyyəti, İndoneziya və Rusiyada terror aktları, Fransada iki ərəb gəncin öldürülməsinə cavab olaraq küçə iğtişaşları və avtomobillərin yandırılması ilə bağlı olaylar və nəhayət, Avropada Məhəmməd peyğəmbərə çəkilən karikaturalara reaksiya kimi bəzi müsəlman ölkələrində bir neçə səfirliyin binasına edilən hücumlar bu təbliğata heç də az rəvac verməmişdir.

Lakin islam mənbələrinə - Qurana və hədislərə ani bir nəzər belə bu dinin həqiqətən dialoq dini olduğunu görməyə imkan verir. Əsrlər boyu islam mütəfəkkirləri həmin mənbələrə istinadən bu dinin təklif etdiyi dialoqun əsaslarını işləyib hazırlamışlar.

Quran öyrədir ki: bəşər nəslinin mənşəyi birdir - Allah insanları tək bir nəfsdən (Adəmdən) xəlq etmiş, ondan zövcəsi Həvvanı, onlardan isə çoxlu kişi və qadınlar yaratmışdır (Nisa, 1); bir mənşədən törətmiş insanlar öz seçimləri əsasında müxtəlif konfessional qruplara bölünmüşlər - əgər Allah istəsəydi, insanları vahid bir ümmət edərdi, amma O, hərə üçün bir şəriət və yol təyin edib (Maidə, 48); bu müxtəliflik ona görədir ki, insanlar bir-birini tanısınlar – «bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq» (Hücürat, 13); tanışlıq və əməkdaşlıq üçün dialoq, həm də gözəl tərzdə, mehribanlıq şəraitində dialoq lazımdır – «ya Məhəmməd, insanları hikmətlə, gözəl öyüd-nəsihətlə Rəbbinin yoluna dəvət et, onlarla ən gözəl surətdə mücadilə et» (Nəhl, 125).

İslamda dialoqun qeyd edilən əsasları hədislərdə də öz əksini tapmışdır.

Digər tərəfdən, bütün dinlərdə dözümlülüyə çağırış vardır. Bu çağırış dinlərarası dialoq işində ən yararlı vasitə kimi geniş təbliğ edilməlidir. Bu dözümlülüyün əsas prinsipi isə o olmalıdır ki, hər bir cəmiyyətin və fərdin bu və ya digər əqidəni, bu və ya digər həyat tərzini seçmək haqqı vardır. Bu haqqa qarşı zor işlədilməsi yolverilməzdir.

Əlbəttə, dözümlülük heç də elə başa düşülməməlidir ki, məqbul saymadığın şeyi tənqid edə bilməzsən. ABŞ-ın İraqdakı siyasətini tənqid etməmək mümkün deyildir. Eləcə də Səddam Hüseynin diktatura rejimi, bir vaxtlar Əfqanıstanda taliban hökumətinin qadınlarla rəftarı ilə heç cür barışmaq olmazdı.

Dialoqun monoloqa çevrilməməsi və qarşılıqlı faydalı olması üçün dialoq qarşı tərəfi öz mövqeyindən döndərmək məqsədi güdməməli, tərəflər arasında fərqli və ixtilaflı məsələlərin deyil, müştərək məsələlərin ön plana çəkilməsinə üstünlük verməli, zora və təzyiqə söykənməməlidir.

Yalnız bu prinsiplərə əməl edildiyi təqdirdə biz üçüncü minillikdə sivilizasiyalararası və dinlərarası dialoqun davam etdiriləcəyinə ümid bəsləyə bilərik.

Diqqətinizə görə təşəkkür edirəm.

«İslamda dözümlülük» mövzusunda
Beynəlxalq Elmi Konfrans.
15 may 2006-cı il.

S.M.H.ŞƏHRİYARIN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ ELMİ SİMPOZİUMDA G.B.BAXŞƏLİYEVANIN

ÇIXIŞININ MƏTNİ

MİLLİ RUHUN TƏNTƏNƏSİ

Hörmətli simpozium iştirakçıları!

Bu gün Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Nizami adına Ədəbiyyat İnstitutu İİR-nın Azərbaycandakı Mədəniyyət mərkəzi ilə birgə təşkil etdiyi dahi Azərbaycan və İran şairi Seyid Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi simpozium öz işinə başlayır. Simpoziumun işində görkəmli Azərbaycan və İran alimləri iştirak edirlər.

Məhəmmədhüseyn Şəhriyar Azərbaycan və İran poeziyasının ən nəhəng simalarından biridir, qüdrətli söz ustadı, XX əsr Azərbaycan və fars ədəbiyyatının iftixarıdır. Şairin poeziyası dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi görüşlərinin canlı aynasıdır. Onun ölməz irsi əbədidir, nəinki Şərq, dünya mədəniyyəti və ədəbiyyatı xəzinəsinin nadir incisidir. Ecazkar poeziyası ilə ürəkləri fəth etmiş şair geniş kütlələrin sonsuz məhəbbətini qazanmışdır. Onun şeirləri dildən dilə düşmüş, bir çox dillərə tərcümə olunmuş, insanların ruhunu oxşamışdır. Bu gün ölkəmizdə çətin elə bir insan tapıla ki, Şəhriyar poeziyasının vurğunu olmasın, onun şeir nümunələrini bilməsin.

Böyük öndərimiz H.Əliyev müsahibələrin birində: «Sevdiyiniz şair?» – sualına – «Şəhriyar», - cavab vermişdir.

Nədir Şəhriyar poeziyasını bu qədər insanlara sevdirən, onu populyarlaşdıran, dillərdə əzbər edən, çox sevilən mahnıların sözlərinə çevirən?

Bu ilk növbədə Şəhriyar şerinin fikir zənginliyi, bədii saflığı və səmimiyyətidir. Ümumbəşəri ideyaları yorulmadan tərənnüm edən şair insanları sülhə, bərabərliyə, xeyirxahlığa, mənəvi təmizliyə çağırır. Şəhriyar yaradıcılığında ümumbəşərilik, humanizm, insana böyük məhəbbət geniş əks olunmuşdur:

İnsanlarıq, insanlığı xoşlayın,
Bir millətik, birləşməyə başlayın,
Bu xan-xanlıq hökumətin boşlayın,
Bu gün gərək bəşər olsun bir millət,
Bir millətə olarmı yüz hökumət?!

Qloballaşan, sərhədsizləşən dünyamız üçün nə qədər aktual sözlərdir. İnsanpərvərlik, vətənpərvərlik və xəlqilik Şəhriyar yaradıcılığının ana xəttini təşkil edir. O ənənəvi qəzəl şairindən fars dilində romantik şeirin gözəl nümunələrini, daha sonra isə ana dilində dahiyanə realist tablolar yaratmış mahir sənətkaracan böyük yaradıcılıq yolu keçmişdir.

Şəhriyar poeziyası sənətkarlıq baxımından da yüksələn xətlə inkişaf etmiş-

dir. O, novator şair kimi də özünü göstərmişdir. Klassik şer formasından geniş istifadə edən şair, özünü yeni şeirin də nümayəndəsi saymışdır. Onun sərbəst formada yazdığı şeirləri də gözəl sənət nümunələridir.

Şairin poetik dünyası zəmanəsinin ensiklopediyası olmaqla yanaşı bütün dövrlər üçün müasir olan əbədi mövzuları da əhatə edir.

Biz azərbaycanlılara şairi xüsusi sevdirən onun anadilli poeziyasına hopmuş milli ruhun poetik ifadəsidir. Milli ruh şairin anadilli poeziyasının həm ideya-məzmun, həm də bədii-estetik xüsusiyyətlərində parlaq əksini tapıb. Şair ən ülvi insani duyğuları tərənnüm edərək oxucusunu mənəvi yüksəkliklərə səsləyir. Şəhriyarın şer dili – sadəliyi, ilkinliyi ilə qəlbləri fəth edir, şirin bir ana laylası kimi qulaqlarımızda səslənir:

Heydərbaba, Nənəqızın gözləri,
Rəxşəndənin şirin-şirin sözləri,
Türki dedim, oxusunlar özləri,
Bilsinlər ki, adam gedər, ad qalar,
Yaxşı-pisdən ağızda bir dad qalar.

Yaxud:

Qarı nənə gecə nağıl deyəndə,
Külək qalxıb qap-bacanı döyəndə,
Qurd keçinin Şəngülüsün yeyəndə
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gül açıb, ondan sora solaydım.

Təbir caizsə, deyərdim ki, Şəhriyar poeziyası – bütövlükdə milli azərbaycanlı ruhunun təntənəsidir. Şəhriyarın füsünkar şeir aləmi, sehrli poetik dünyası büsbütün millidir, ruhumuzu oxşayır, oxucuya müqəddəs insani duyğuları, ülviyyəti aşılayır, ədalətə və azadlığa çağırır, məhəbbət və mərhəmət öyrədir. Şairin fikir dünyası olduqca genişdir, hətta sonsuzdur, insanı qanadlarına alaraq keçmişə, bugünə və sabaha aparır, Heydərbabanın qoynuna, xoşbəxt uşaqlıq çağlarına qaytarır, bugünün qayğılarını yada salır, sabahın müjdəsini verir. Şəhriyar poeziyasında hər birimizin ağlından və ürəyindən keçən, qəlbimizdəki zərif duyğular dahiyanə əksini tapır:

Heydərbaba, dünya yalan dünyadı,
Süleymandan, Nuhdan qalan dünyadı,
Oğul doğan, dərdə salan dünyadı,
Hər kimsəyə hər nə verib alıbdı,
Əflatundan bir quru ad qalıbdı.

Ayrılıq motivləri dərin iz buraxmışdır Şəhriyar yaradıcılığında. Mən deyərdim ki, Şəhriyarın bu mövzuda yazdığı şeirlər bütöv bir epoxanın rəmzinə çevrilmişdi:

Arazım vursun baş daşdan-daşa,

Göz yaşı gərək başlardan aşa,
Necə yad olsun qardaş qardaşa?
Nə din qanır, nə iman ayrılıq,
Aman, ayrılıq, aman, ayrılıq!

Birliyə çağırış çox güclüdür Şəhriyar yaradıcılığında.

«Birlik yaradın, söz bir olar biz kişilərdə», - misrası dillərdə əzbərdir.

Şəhriyar yaradıcılığında ana dilinə məhəbbət çox gözəl ifadə olunub:

Türkün dili tək sevgili, istəkli dil olmaz,
Ayrı dilə qatsan bu əsil dil əsil olmaz.

Şəhriyarın yaradıcılığı həmişə tədqiqatçıların diqqət mərkəzində olub. Ayrı-ayrı vaxtlarda Ə.Atəş, Q.Beqdeli, H.Billuri, Böyük Nikəndiş, B.Budaqov, Əliməmməd Əbülfəzl, Cəmşid Əlizadə, İsa Həbibbəyli, Həsənəli Məhəmmədi, Əhməd Kaviyanpur, H.Qasımov, E.Quliyev, Barfiruş, Məhəmmədbağır Nəcəfzadə, Mübəyyin Məhəmmədhüseyn, Zilli Məniçöhr, Hüseyn Münzəvi, B.Nəbiyev, Fəthi Nüsrətullah, N.Rizvanov, Y.Şeyda, E.Şükürova, E.Quliyev və digərləri Şəhriyarın həyat və yaradıcılığı haqda dəyərli əsərlər yazmışlar.

İnanırıq ki, bu işlər yenə də davam etdiriləcək. Böyük öndər Heydər Əliyevin dediyi kimi:

«Dahi sənətkarın yaradıcılığının dərindən öyrənilməsi, tədqiq və tədris edilməsi sənət və elm xadimlərimizin müqəddəs borcudur».

Son olaraq aşağıdakı misraları səsləndirmək istərdim:

Evlər qalır, ev sahibi yox özü,
Ocaqların ancaq işıldar közü,
Gedənlərin az-çox qalıbdır sözü,
Bizdən də bir söz qalacaq, ay aman!
Kimlər bizdən söz salacaq, ay aman!

Bəli, şairdən ölməz söz qalır və bu əbədiyyətə qədər belə olacaq. Nə qədər ki, xalqımız var, Şəhriyar sözü qalacaq, yaradıcılığı yaşayacaq və onun haqda yenə və yenə söz salınacaq, irsi tədqiq olunacaq, yeni-yeni əsərlər yaranacaq.

Şəhriyar irsi dilimizi, xalqımızı yaşadacaq, xalqımız isə Şəhriyar irsinin varlığının təminatçısı olacaq.

Və beləliklə də, özü demişkən «el məşəli», «əbədiyyət gülü» Şəhriyar sonsuzluğa qədər yaşayacaq.

Bakı, 2007-ci il.

XX ƏSR GÜNEY AZƏRBAYCAN TARİXİNİN ŞANLI SƏHİFƏSİ

Biz bu gün bura toplaşmışıq ki, Şeyx Məhəmməd Xiyabaninin başçılığı altında baş vermiş xalq hərəkatının – Xiyabaninin adı ilə bağlı olan «Xiyabani hərəkatının» 90 illik yubileyini qeyd edək.

1905-1911-ci illərdə baş vermiş Məşrutə hərəkatının məğlubiyyətindən sonra İranda, o cümlədən Güney Azərbaycanda irticanın şiddətlənməsi, ölüm, həbs və sürgünlərin həddən artıq çoxalması milli demokratik qüvvələrin gizli fəaliyyətə keçməsinə və ya başqa ölkələrə mühacirət etməsinə səbəb olmuşdur. Belə bir şəraitdə Səttarxan hərəkatında bir mücahid kimi yaxından iştirak edən, öz alovlu çağırış və çıxışları ilə xalqı mübarizəyə çağıran Şeyx Məhəmməd Xiyabani də müvəqqəti olsa da vətəni – Təbrizi tərk etmək məcburiyyətində qalır. O, bir müddət Qafqazın Maxaçqala şəhərinə, ticarətlə məşğul olan atası Hacı Əbdülhəmidin yanına gəlir.

Xiyabani Qafqaza gələnə qədər əvvəl doğulduğu Xamnə kəndində, sonra isə Təbrizdə dini və dünyəvi təhsil alır. O, Quranı və hədisləri, islam tarixini mükəmməl öyrənməklə bərabər, dünyəvi və riyazi elmləri: tarix, ədəbiyyat, məntiq, fizika, astronomiya və riyaziyyatı da öyrənməyə böyük həvəs göstərir. Dövrünün bilikli və savadlı şəxslərindən olur. Beləliklə, Şeyx Qafqaza hər tərəfli biliyə və geniş diapazona malik bir cavan kimi gəlir. O, Qafqazın bir çox şəhərləri ilə yanaşı, Tiflisə, Bakıya, Volqa boyu şəhərlərə, bəzi mənbələrin yazdığına görə Sankt-Peterburqa da gedir. Rusiyadakı siyasi mühit və düşüncə ilə yaxından tanış olur. Şeyx Qafqazda olarkən Qafqaz xalqlarının tarix və ədəbiyyatı ilə yanaşı, milli-azadlıq mübarizəsi ilə, Şeyx Şamil hərəkatı ilə maraqlanır və bu barədə daha çox məlumat əldə etməyə səy göstərir.

Xiyabani Qafqazda olduğu illərdə ailəsini vətənə – Təbrizə yola salmaq üçün Arazın bu tayında, Azərbaycanda olur. O, Bakı və Azərbaycandakı siyasi durum və ədəbi-mədəni mühitlə yaxından tanış olur. Neft Bakısı, burada çarizmin əsarətindən azad olmaq uğrunda gedən mübarizə, o zaman neft mədənlərində və başqa işlərdə çalışan 200 min nəfərdən çox olan cənublu həmvətənlərinin acı taleyi Xiyabaninin fikir və düşüncəsində xüsusi yer alır. Xiyabani üçün Arazın bu tayı, xüsusən Bakıdakı anadilli mətbuat, ədəbi və inqilabi mühit, Qafqazın qaynar siyasi durumu onun gələcək mübarizəsində və milli təfəkkürünün zənginləşməsində müstəsna rol oynamış, mübarizədə onun istiqamətini daha artıq müəyyənləşdirir. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Talıbov, Ordubadi, Nəriman Nərimanov, Ə.Haqverdiyev, Bakıda cənublulara məxsus «İttihad» məktəbinin yetirmələri olan yazıçı və ziyalılar, sosial-demokratların cənub qolu və s.

vətənə dönən və orada mübarizəni daha yüksək keyfiyyətdə davam etdirmək əzmində olan Xiyabaninin milli təfəkkürünün formalaşmasında mühüm rol oynamışdır.

Məcburi mühacirətdən sonra Təbrizə qayıdan Xiyabani ölkədəki siyasi vəziyyətlə, xüsusən Azərbaycandakı ağır iqtisadi durum, işsizlik, məmur özbaşınalıqları, hakim dairələrin ölkənin mənafeyini xaricilərə satmaq cəhdlərini görür. O, ilk addım olaraq xalqın mübarizəsinə rəhbərlik edən və onu hədəfə istiqamətləndirməyi bacaran təşkilata ehtiyac olduğunu anlayır. Bu məqsədlə 1917-ci ilin martında öz silahdaşları İsmayıl Novbəri, Məmmədəli Badamçı, İsmayıl Əmirxizi, Ələsgər Sərtipzadə, Əli Heyət və başqaları ilə birlikdə İran Demokrat Partiyasının Azərbaycan Vilayət Komitəsini yaradır və Komitəyə rəhbər seçilir. Bundan az sonra 1917-ci ilin aprelin 9-da partiyanın ideoloji orqanı olan «Təcəddüd» (yeniləşmə) adlı qəzetin ilk nömrəsi işıq üzü görür. «Təcəddüd»ün çap edilmiş 202 nömrəsinin, demək olar ki, çoxunda Xiyabaninin dərin məntiqə, alovlu vətən sevgisinə söykənən və xalqa nicat yolunu göstərən çıxış və nitqləri çap edilmişdi. Biz təəssüf edirik ki, «Təcəddüd»ün kolleksiyası hələlik əlimizdə yoxdur. Onu AMEA-nın Mərkəzi kitabxanasının mətbuat fonduna gətirmək haqqında düşünməliyik.

Xiyabani öz çıxışları ilə ölkədə milli oyanışa və xalqı mübarizənin hədəfinə düz istiqamətləndirməkdə müstəsna rol oynamışdır. Ölkəsinin yadlardan asılığı əleyhinə olan Xiyabani müstəqilliyi hər şeydən üstün tutaraq deyirdi: «Hər bir xalqın şərəfi onun müstəqilliyidir,... biz elə bir çıraq yandırmalıyıq ki, onun ixtiyarı öz əlimizdə olsun».

Xiyabaninin başçılıq etdiyi hərəkatın müstəbid rejim əleyhinə ilk izdihamlı çıxışı 1920-ci ilin aprelində olmuşdur. Bu çıxışa əsas səbəb hökumətə başçılıq edən M.Q.Vüsuquddövlənin ingilislərlə gizli müqaviləyə imza atması olmuşdur. Bu müqavilə əsasında İran Hindistan sayağı bir müstəmləkə ölkəyə çevrilməliydi.

1920-ci ilin mayında Xiyabaninin çağırışı ilə Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi altında Təbrizdə əhalinin böyük mitinqi keçirilmişdi. Xalqın tələbləri ilə yanaşı Vüsuquddövlənin ingilislərlə bağladığı gizli müqavilənin ləğv olunmasını tələb edən bu mitinqə Azərbaycandakı bölgələrin böyük əksəriyyəti qoşulmuşdur. Bu zaman Təbrizdə artıq dövlət idarələri, poçt-teleqraf, polis, hərbi hissələr qiyamçıların[1] tərəfinə keçmişdi. Mərkəzdən Azərbaycana göndərilən vali Müxbirülsəltənə şəhərə buraxılmamış, Azərbaycanda Muxtar hökumətin «Azadistan»ın yarandığı elan edilmişdi. Mərkəzi dövlət

[1] İran tarixşünaslığında Xiyabani hərəkatı ilə bağlı işlədilən «qiyam» sözü üsyan, inqilab, xalq hərəkatı kimi başa düşülməlidir.

Təbrizdəki olayların təsiri altında İngiltərə ilə imzaladığı müqaviləni qəbul etməkdən imtina etsə də, hərəkatın hədəfə doğru irəliləyişinin qarşısını ala bilmədi. İyun ayında artıq Azərbaycanda Milli Muxtar hökumətin yarandığı elan edildi. Hökumətin Rəyasət heyəti 20 nəfərdən ibarət olmuşdur. Bu hökumət özünün milli və demokratik xarakterli proqramını xalqa elan etdi. Demokratik azadlıqlardan tutmuş, iqtisadi məsələlər, maarif, dil, mədəniyyət, aqrar-kəndli məsələləri proqramda öz əksini tapmışdı. Bu proqram İran tarixində humanist və demokratik xarakterinə görə o vaxtacan misli görünməmiş tədbirlər kompleksi idi.

Xiyabani hərəkatında diqqəti çəkən mühüm cəhətlərdən biri də hərəkatın əvvəldən axıra qədər milli xarakterdə, azərbaycançılıq ruhunda getməsi və Azərbaycanın İran daxilində zülmə, əsarətə qarşı çıxmaqda bayraqdar olmasının qabardılması idi. Azərbaycanın xalq yazıçısı güney azərbaycanşünas alim akademik Mirzə İbrahimov öz məqalələrinin birində yazır: **«Şeyx Məhəmməd Xiyabaninin qiyamında azərbaycançılıq ruhu daha artıq özünü göstərirdi. Səttarxan inqilabından sonra güclənən irtica və təzyiq, hakim fars dairələri və istibdadın artan zülmü Azərbaycanı mütiləşdirmir, yatırdıb sakit etmir, əksinə daha artıq oyadır və hərəkətə gətirirdi. Getdikcə Azərbaycandakı xalq hərəkatları daha artıq milli xasiyyət kəsb etməyə başlayırdı. Şeyx Məhəmməd Tehran hakimlərinin Azərbaycanda yaratdıqları zorakılıq və səfalət mənzərəsini xalqın nəzərində canlandırırdı».**

Xiyabani hərəkatı Güney Azərbaycandakı azadlıq və qurtuluş uğrunda aparılan şanlı və şərəfli səhifələrindən biridir. Bu hərəkatın bütün çalarlarını tədqiq edib öyrənmək və bunları sonrakı nəsillərə çatdırmaq bizim vətəndaşlıq borcumuz və vəzifəmizdir. Xiyabani irsini və onun adı ilə bağlı hərəkatı müstəqilliyimizin yaratdığı yeni şəraitdə daha ətraflı və dərindən öyrənməyə imkan və şərait vardır. Ümummilli lider Heydər Əliyev çıxışlarının birində demişdi: **«Xalqın hər bir günü tarixdə öz yerini tutmalıdır. Tariximizin hər bir nöqtəsi, hər bir günü bizim üçün əzizdir, nə cür olur - olsun».** Bu mənada bu gün 90 illik yubileyini qeyd etdiyimiz Xiyabani hərəkatı tariximizin unudulmaz və həmişə yadda qalan səhifələrindəndir.

Etiraf etməliyik ki, Şeyx Məhəmməd Xiyabani və onun başçılıq etdiyi xalq hərəkatı haqqında təkmil, hərtərəfli, yad ideologiyanın təsiri olmadan yazılmış əsər və məqalələr yetərincə deyildi. Xiyabaninin şəxsiyyəti, mühiti, dini-fəlsəfi və elmi baxışları tam tədqiq olunub öyrənilməmişdir. Doğrudur, bu sahədə tanınmış alim Qulam Məmmədlinin, Xiyabani hərəkatı haqqında dəyərli əsəri olan professor Şövkət xanım Tağıyevanın və başqa alimlərimizin bir sıra kitab və məqalələri, hətta bədii və dram əsərləri vardır. Ancaq bunların bəzilərində

keçmiş siyasi mühitin ideoloji təsiri hiss olunur, bəzisində isə səthilik, mənbələrə yaxşı bələd olmamaq özünü göstərir.

Cənubi Azərbaycanda Şeyx Məhəmməd Xiyabani və onun başçılıq etdiyi hərəkat haqqında tarixçi alim Əli Azərinin Təbrizdə «Şeyx Məhəmməd Xiyabani qiyamı» adlı dəyərli əsərindən başqa Səməd Sərdariniyanın, Zəhra Vəfalının, Hüseyn Düzgünün və başqalarının yazılarında Xiyabani haqqında və onun başçılıq etdiyi hərəkatın milli qayəsi, məqsədi, mahiyyəti və hərəkətverici qüvvələri haqqında geniş məlumat verilmir. Xiyabani ilə silahdaş olmuş Hacı Məhəmmədəli Badamçının, Zeynalabdin Qiyaminin, Xiyabani hərəkatına əvvəl qoşulub sonra Şeyxə və hərəkata xəyanət etmiş Seyid Əhməd Kəsrəvinin çap olunmuş xatirələrində Xiyabani və onun başçılıq etdiyi hərəkatla bağlı dəyərli və maraqlı faktlar və epizodlar vardır. Xiyabani hərəkatının ideoloji silahı, təbliğat və təşkilatçısı olmuş «Təcəddüd» qəzeti haqqında əhatəli tədqiqat, kitab və məqalə ilə rastlaşmamışıq. Halbuki, «Təcəddüd» jurnalistikamızın vacib tədqiqat obyekti kimi öz araşdırıcısını gözləyir.

Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi «Azərbaycan Demokrat Firqəsi» və bu firqənin fəal üzvləri haqqında, firqənin məramı və siyasi hədəfləri barədə də geniş və obyektiv araşdırmalara ehtiyac vardır. Haqqında qeyd etdiyim məsələlər İnstitutumuzun elmi strukturunda olan İran tarixi və iqtisadiyyatı və Cənubi Azərbaycan Elmi Araşdırmalar şöbəsi əməkdaşlarının tədqiqat obyekti olmalıdır və bu məsələlərin gələcəkdə tədqiqat planına daxil edilməsi çox vacib işlərimizdəndir. Xiyabani və onun adı ilə bağlı hərəkat XX əsr tariximizin şərəfli səhifələrindəndir. Onu tədqiq edib ətraflı öyrənmək hər birimizin vətəndaşlıq borcumuz, şərqşünas tədqiqatçı kimi vəzifəmizdir.

Ş.M.Xiyabani hərəkatının 90 illiyinə həsr olunmuş elmi-nəzəri konfransdakı çıxış. 9 iyun 2010-cu il.

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, İƏT Pİ-da Azərbaycan nümayəndə Heyətinin rəhbəri Gövhər Baxşəliyevanın İƏT Pİ konfransında

ÇIXIŞI

Hamınızı ürəkdən salamlayıram, Azərbaycandan qucak dolu sevgilər və sayqılar sunuyorum!

Çox aktual və gərəkli məsələyə - Dəyişən müsəlman cəmiyyətlərində qadınların roluna həsr olunmuş bu konfransın təşkilinə, ev sahibliyi etdiyinə görə Türkiyə tərəfinə sonsuz təşəkkürümü bildirirəm.

Son illər dünyada, o cümlədən, dəyişən müsəlman cəmiyyətlərində gedən proseslərinin üstün istiqamətlərindən biri demokratikləşmə fonunda qadın problemi, qadın hərəkatı, qadın hüquqlarının müdafiəsi, qadınların fəal ictimai qüvvəyə çevrilməsidir. Effektiv milli gender mexanizminin yaradılması: İƏT-ə üzv dövlətlərin təcrübəsi, qadınların siyasi iştirakı yolu ilə demokratiyanın möhkəmləndirilməsi, dəyişən Yaxın Şərq və Şimali Afrikada qadın hüquqları, islam və demokratiya, vətəndaş cəmiyyəti və regional əməkdaşlığa imkan yaratmaq: «Gender bərabərliyi institutu»nun təsis edilməsi kimi bu və digər məsələlərin müzakirəsi hazırkı vaxtda, hesab edirəm ki, region xalqları üçün taleyüklü əhəmiyyət daşıyır.

Qadınlarımızın həyat tərzinin yaxşılaşdırılması Azərbaycan dövlətinin gerçəkləşdirdiyi sosial-iqtisadi siyasətin aparıcı istiqamətlərindən biridir. Bu siyasətdə, təbii ki, Azərbaycan qadınını ailədə və cəmiyyətdə ənənəvi həyat və təfəkkür tərzini qoruyub yaşadan milli dəyərlər ön plana çəkilir.

Ulu öndər Heydər Əliyev qadın problemlərinin həllini dövlət siyasətinin tərkib hissəsi hesab edərək, Azərbaycan qadınlarının cəmiyyətdə mühüm mövqe tutmasına həmişə böyük diqqət və qayğı göstərmişdir. 1998-ci ildə Prezidentin fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır ki, hazırda ölkəmizdə qadın problemlərinin həllində bu qurum böyük uğurlar əldə etmişdir.

2000-ci il martın 6-da ölkə Prezidenti «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» fərman imzalamışdır. Fərmanda qadınların kişilərlə bərabərliyini, xüsusilə onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək kimi vəzifələr öz əksini tapmışdır.

Azərbaycan Respublikasının qanunvericiliyi həyatın bütün sahələrində qadın və kişilərin bərabərliyi ideyalarını ifadə edir. 1995-ci ilin iyununda Azərbaycan Respublikası BMT-nin «Qadınlara münasibətdə hər cür ayrı-seçkiliyin ləğv edilməsi barədə» Konvensiyasına qoşularaq öz üzərinə müvafiq

öhdəliklər götürmüşdür. Ümumilikdə, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövləti qadınların və uşaqların hüquq və azadlıqları ilə əlaqədar 20-dən çox beynəlxalq konvensiyaya qoşulmuşdur.

Bu gün Azərbaycan qadınları cəmiyyətin inkişafında mühüm rol oynayırlar. Müstəqil respublikamızın 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyasında qadınların kişilərlə bərabər hüquqlara malik olması öz əksini tapmış, demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazası yaradılmışdır.

Milli qanunvericilikdə «Gender bərabərliyinin təminatları haqqında», «İnsan alverinə qarşı mübarizə haqqında» və digər qanunlar qəbul olunmuşdur. Ailə məcəlləsinə, Əmək məcəlləsinə və digər qanunvericilik aktlarına gender problemləri ilə bağlı əlavələr və düzəlişlər edilmişdir.

Azərbaycan Beynəlxalq Əmək Təşkilatının «Analığın mühafizəsi haqqında» qanuna (11.05.2010), Beynəlxalq Əmək Təşkilatının «Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında» 156 N-li Konvensiyasına (11.05.2010) qoşulmuşdur.

Tarixən şərəfli yol keçmiş, öz ucalığını qoruyub saxlamış Azərbaycan qadını bu gün cəmiyyətin bütün sahələrində fəal rol oynayır, bilik və bacarığını müstəqil dövlətimizin möhkəmlənməsinə və inkişafına sərf edir. Bugün ölkəmizdə elə bir sahə tapılmaz ki, orada qadınlarımız kişilərlə bərabər çalışmasın və ya rəhbər vəzifə tutmasınlar. Müstəqil dövlətimizin parlamentində qadınların sayının getdikcə artması (II çağırış MM-də - 11 qadın, III, çağırış MM-də 14 qadın, IV çağırış MM-də - 20 qadın) və millət vəkili kimi fəaliyyəti onların Azərbaycan cəmiyyətində yüksək nüfuza malik olmasının göstəricisidir.

Qadın deputatlarımız ölkəmizdə həyata keçirilən hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun, vətəndaş cəmiyyəti yaradılmasının, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqinin, geniş miqyaslı islahatların qanunvericilik bazasının yaradılması, təkmilləşdirilməsi və inkişaf etdirilməsi sahəsində onlara həvalə olunan vəzifələri layiqincə yerinə yetirirlər.

Düşünürəm ki, Parlamentlər səviyyəsində İƏT üzv dövlətlərin qadınlarının əməkdaşlığı və təcrübə mübadiləsi istər qanunvericilik sahəsində, istərsə də sosial sahədə ümumi işimizə böyük töhfə verərdi.

Bir məsələ haqqında da burda danışmaya bilmərəm. Bu gün xalqımızın üzləşdiyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ konfliktində Azərbaycan qadını da çox böyük iztirablara, əzablara düçar olmuşdur. İstər Ermənistandan, istərsə də Dağlıq Qarabağdan və ətraf rayonlardan qovulmuş milyonlarla insanın çox hissəsini qadınlar, uşaqlar təşkil edir. Bu günahsız insanlar erməni şovinistlərinin iyrənc işğalçılıq siyasətinin, erməni terrorizminin qurbanlarına çevrilmişlər. Nə yazıqlar ki, Azərbaycan xalqına qarşı XX əsrin sonu - XXI

əsrin əvvəllərində bu cür vəhşətlər yapmış ermənilər, bu gün 1915-ci ildə Anadoluda çox mürəkkəb beynəlxalq şəraitdə baş vermiş faciəli hadisələri erməni xalqına qarşı genosid adlandıraraq dünya parlamentlərinə çıxarmağa çalışırlar. Onlara səslənərək deyirəm: Əbəsdir cənablar, kimin hansı xalqa qarşı genosid həyata keçirtməsi region xalqlarına yaxşı məlumdur. Minlərlə Azərbaycan türkünü soyqırıma məruz qoyaraq, milyonlarla azərbaycanlıya qarşı etnik təmizləmə apararaq ata-baba yurdundan, İrəvandan, Gəncəbasardan, Dərələyəzdən, Göyçədən qovaraq erməni dövlətini yaratmanız bəs deyilmiş kimi, bu gün Azərbaycanın Dağlıq Qarabağ bölgəsini işğal etmisiniz.

22 dekabr 2011-ci il.
«Müsəlman cəmiyyətlərində dəyişikliklər və qadınların rolu» mövzusunda beynəlxalq konfrans. Təşkilatçılar: İƏT Pİ və Türkiyə Cümhuriyyəti Qadın və Sosial Siyasət Nazirliyi. İstanbul, 22-24 dekabr 2011-ci il.

AZƏRBAYCAN MİLLET MEBÜSU, FİLOLOJİ BİLİMLERİ DR., PROF. GEVHER HANIM BAHŞELİYEVA'NIN İKTPİ IV KONFERANSINDA

Ç I X I Ş I

BM'in denetimi altında terörizme karşı savaş verme, işgalcılık ve dış saldırıya karşı BM (BİRLEŞMİŞ MİLLETLER) Yasası'nın 51-ci Maddesinde tanınan ve sömürgeciliğe ve ırkçılığa karşı çıkan diğer belgelere uygun olarak, tüm bireysel veya toplum öz savunma haklarının kullanması yolu ile lejitim hakların iadesi

Sayın Başkan,

Sayın Konferansa katılanlar!

İlk önce, muteber toplantıya katılmam ve söz söylemem imkanı sağladığınıza göre Sizlere teşekkür etmek istiyorum. İslam Konferansı Teşkilatı dünyada barışın ve güvenliğin sağlanması ve korunması için yoğun gayretler göstermektedir. Biz İslam Konferansı Teşkilatı'nın uluslararası tutumunu yüksek değerlendirir, Birleşmiş Milletlerin himayesi altında terörizme savaş vermek üzere Uluslararası Merkez kurulmasını destekliyoruz. Azerbaycan uluslararası toplumun terörcülük aleyhine mücadelesine tam destek verir ve bu tahdidin kaldırılması yolunda direnme kapasitesini geliştirir.

Hepiniz biliyorsunuz ki, daha 15 yılı aşkın bir süredir ki, Azerbaycan Komşu Ermenistan'ın silahlı saldırısına uğramış ve sonuçta torpaklarımızın yüzde 20`si işğal edilmiş, ülkede bir milyonu aşkın gaşgın ve zorunlu göçkün toplusu meydana gelmiştir. Ermenistan silahlı kuvvetlerinin işğal ettikleri Dağlık Karabağ`da ve diğer yedi bölgede eski kültür anıtları, abideleri mahvedilmiş, mescitler dağıtılmış, müslüman mezarlıklarına hakaretle davranılmış, müslüman uygarlıklarının izleri silinmişdir. Askeri saldırı ve etnik tasfiye sonucunda 20 binden fazla Azerbaycanlı katle yetirilmiş, 50 bini aşkın insan sakat ve malul kalmış, dört binden fazla insan esir ve kayip olmuş, rehin alınmıştır. Çocuklar, kadınlar ve ihtiyarlar ermeni vahşi saldırganlarının türettikleri soykırımın müthişliklerinin kurbanı olmuşlar.

Bunun dışında, Azerbaycan toprakları Ermeni terörcülerinin ve keza, başından beri her yerde şiddet yapmayı kendine amaç edinmesi ile ünlü olan ASALA örgütünün geniş çaplı faaliyet poligonuna çevrilmiştir. Meselen, Moskova-Baku marşerutu ile hareket eden yolcu treni patlatılmıştır. 14 yolcu ölmüş, 22 kişi ağır yara almıştır. Kazakistan'ın Temirtau istasyonu yakınlığında

Azerbaycan'a ait tren patlatılmıştır. 16 kişi ölmüş, 22 kişi yara almıştır. Daha sonra Bakü-Kislovodsk feribotunda (sal köprüsünde) patlama sonucu 88 kişi hayatını kaybetmiştir. Bakü metrosunda yapılan terör aktı sonucu 42 kişi hayatını kaybetmiş, onlarla insan yara almıştır.) Azerbaycan'da Ermeni terörcülerinin türettikleri 30'dan fazla terör aktları sonucunda 2 bini aşkın sivil, masum Azerbaycan yurttaşı katle yetirilmiş, on binlerle insan arıza almıştır. Söz konusu terör eylemlerinde dine bağlılık arayanlardan farklı olarak, ermenilerin müslüman nüfus aleyhine gerçekleştirdikleri vahşetlere biz aynı dinsel tutumdan yaklaşmayız. Terörcülüğün dinsel kökenleri yoktur. Örneğin, Ermenistan Azerbaycan'a karşı terörcülük eylemlerini yerine getirebilmesi için bir çok dış devletlerin yurttaşlarını her türlü olarak memleketimize «ihraç» etmekte, onların işgal edilmiş Azerbaycan topraklarına yerleştirilmesi, farklı yönlerde hazırlık yapabilmeleri için finansman ve teknik yardımını sağlamaktadır. Genellikle, Ermeni terörizmi faaliyeti döneminde dünya çapında ünlü olmuş, herkesce bilinen terörcü örgütleri ile sıkı işbirliği yapmaktadır. Ermenistan arazisinde ve hem de Azerbay'canın işgal olunmuş topraklarında terörcülerin askeri hazırlıkları için dayanak noktaları, direnekler ve kamplar kurulmuştur.

Azerbaycan, münakaşanın uluslararası hukuk kuralları ve ilkelerine uyğun, ülkemizin arazi bütünlüğü çerçivesinde adaletli şekilde düzene koyulmasını, söz konusu münakaşa ile ilgili BM Güvenlik Konseyi kararnamelerin (Azerbaycan`a ait dört kararname kabul edilmiştir), bununla yanısıra, diğer uluslararası örgütlerin kararlarının yerine getirilmesini talep ediyor.

Birleşmiş Milletler Güvenlik Konseyi kararnamelerine uygun olarak, Azerbaycan Cumhuriyeti terörcülük aleyhine mücadele çerçevesinde, özellikle de, terörün finanse edilmesini engellemek amacıyle uygun önlemler almaktadır. Azerbaycan'ın Ermeni saldırganları tarafından işgal edilmiş ve kontrolümüz dışında bırakılmış toprakları bizim terörcülük aleyhine savaş vermemiz yolunda başlıca engel olarak kalmakta. Aynı araziler uluslararası terörcüler tarafından silah, uyuşturucu kaçakçılığı ve insan ihtikarlığı amacıyle kullanmakda. Uluslararası toplum tarafından terörcülük aleyhine savaş ile yanısıra saldırgan bölücülük ve aşırıcılığa karşı da aktif savaş verilmesinin kaçınılmaz olduğu düşüncesindeyiz. Uluslararası terörizme karşı mücadelede terör aktlarına engel olunması üzere milli-hukuki direneyin oluşturulması gayet gerekli ve mühim meseledir. Bu bakımdan 1999-yılında Azerbaycan parlamentosu somut önlemlerin alınmasını göz önünde bulunduran «Terörizmle mücadele» konusunda yasa kabüllenmiştir. Azerbaycan daha uluslararası terörcülüğe karşı meseleler üzere uluslararası on bir Kanvansiyon`a goşulmuştur.

Biz ülkemiz için, hem de bölge için en büyük tehlike kaynağı oluşturan

Ermenistan-Azerbaycan, Dağlık Karabağ münakaşasının adaleti, tehlikeye sokmadan barışsal çözümlenmesinde İslam Konferansı Teşkilatının ve diğer ülkelerin desteği ve duruşmasını deyerlendiriyoruz.

Biz terörcülüğün tüm biçimlerini kesinlikle kötülüyoruz, kendisinin türetilmesi nedenlerine, kaynaklarına, zamanına ve asıl kim tarafından gerçekleştirilmesine bağlı bulunmaksızın, uluslararası alam için en müthiş ve pek ciddi tehlike sanıyoruz. Terörizm aleyhine savaş vermenin pozitif sonuçlarına yalnız uluslarası işbirliğinin sağlayacağı imkanlar ve tüm düzeylerde terörizm aleyhine karşıdurmanın güçlendirilmesi ile ulaşılması mümkündür.

İstanbul,
12 aprel 2006-cı il.

ВЫСТУПЛЕНИЕ
ЗАМЕСТИТЕЛЯ ПРЕДСЕДАТЕЛЯ МИЛЛИ МЕДЖЛИСА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ГОСПОЖИ ГЁВХАР БАХШАЛИЕВОЙ НА ОФИЦИАЛЬНОМ ПРИЁМЕ, ПОСВЯЩЕННОМ ДНЮ НЕЗАВИСИМОСТИ УКРАИНЫ

Уважаемые дамы и господа!

Уважаемые гости!

Прежде всего, позвольте мне от имени Президента Азербайджанской Республики господина Ильхама Алиева сердечно поздравить всех вас по случаю четырнадцатой годовщины провозглашения независимости Украины, передать его наилучшие пожелания украинскому народу.

В то же время хочу поздравить вас в связи с этим знаменательным событием от имени спикера Парламента, депутатов Милли Меджлиса Азербайджанской Республики и от себя лично.

Азербайджан и Украину связывают давние узы дружбы и добрососедства. Эти исторические связи развивались на протяжении многих десятков лет и охватывают различные области жизни.

Протокол об установлении дипломатических отношений между Азербайджаном и Украиной был подписан в самом начале 1992 года, а спустя 3 года был подписан протокол об открытии посольств.

Азербайджанская Республика придает огромное значение развитию и углублению взаимосвязей с Украиной. Основа этой политики, ориентированной на стратегическое партнерство, было заложено общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым. Сотрудничество наших стран базируется на широкомасштабном Договоре о дружбе, сотрудничестве и партнерстве.

Еще в августе 1997 года Президент Азербайджанской Республики Гейдар Алиев посетил с официальным визитом Украину. В ходе визита были подписаны Меморандум о сотрудничестве в сфере нефтяной и газовой промышленности, Соглашение о военно-техническом сотрудничестве двух стран, Соглашение о подготовке военных кадров в военно-образовательных учреждениях двух государств и другие межгосударственные документы. В свою очередь, бывший Президент Украины, господин Леонид Кучма в 1995, 1998 и в 2000 гг. наносил визиты в нашу страну. В ходе этих визитов были подписаны ряд соглашений и договоров, способствующих созданию еще более благоприятных условий для взаимовыгодного сотрудничества наших государств.

Президент Азербайджанской Республики господин Ильхам Алиев

придает огромное значение всестороннему развитию и углублению азербайджано-украинских взаимоотношений. В июне 2004 года господин Ильхам Алиев совершил официальный визит в Украину, в ходе которого были подписаны соглашения об основных принципах сотрудничества в области энергетики и нефтегазового машиностроения, о сотрудничестве в борьбе с контрабандой и нарушением таможенных правил, о сотрудничестве между национальными телерадиокомпаниями двух стран, о производственной и научно-технической кооперации предприятий оборонных отраслей промышленности и ряд других соглашений, способствующих развитию и углублению наших взаимоотношений. Последние два года были особо насыщены двусторонними визитами делегаций наших стран. На Украине с визитами побывали спикер Национального Собрания Азербайджана господин Муртуз Алескеров, премьер-министр Артур Расизаде, министр иностранных дел Азербайджана, а в Азербайджане с визитами побывали председатель Верховной Рады Украины господин Литвин, министр иностранных дел Украины господин Тарасюк, ряд правительственных делегаций.

В ходе двухсторонних переговоров и встреч было высоко оценено нынешнее состояние украино-азербайджанских отношений, отмечена необходимость дальнейшего развития стратегического партнерства, намечены пути углубления двустороннего сотрудничества на всех уровнях. Значительное внимание стороны уделили обсуждению вопросов торгово-экономического сотрудничества, подчеркнули возрастание объемов товарооборота между нашими странами, констатировали необходимость реализации общих экономических проектов.

Сегодня, когда наши страны в сложных условиях создают свою государственность, давние историко-культурные дружественные связи содействуют современному сотрудничеству наших государств, одним из важных факторов которого является существование азербайджанской диаспоры в Украине и украинской – на азербайджанской земле. Наличие диаспор играет значительную роль в развитии торговли, научно-техническом сотрудничестве, в культурной и научной жизни наших государств. Нам хорошо известно, что на Украине действуют 7 воскресных школ, в которых проживающие в вашей стране азербайджанцы изучают свой родной язык и культуру, что в Киевском национальном университете изучается азербайджанский язык и литература. 500-тысячная азербайджанская диаспора в Украине имеет все возможности для своего полноценного и динамичного развития. Функционирует Конгресс азербайджанцев Украины, в

Киеве издается газета «Голос Азербайджана».

В свою очередь, в Бакинском Славянском университете готовятся кадры по «Украиноведению», а с целью ознакомления азербайджанских граждан с украинским языком, литературой и культурой при Славянском университете созданы Центр Украинской культуры и воскресная школа. Перечисленные мною факты наглядно демонстрируют высокий уровень взаимоотношений, сложившихся между нашими странами за последние годы не только в политической сфере, но и в области культуры, науки и образования.

Ярчайшим примером искренней дружбы между нашими странами и народами являются события, связанные с награждением общенационального лидера Азербайджанской Республики Гейдара Алиева самой высокой наградой Украинского государства – орденом Ярослава Мудрого, присвоение имени Гейдара Алиева институту социальных наук и международных отношений при Региональной Академии управления в Киеве, а также присвоение улице и парку в Ирпене имени академика Зарифы Алиевой.

Тесные контакты налажены и между законодательными органами двух стран. В 2001 и 2004 гг. парламентские делегации Украины посещали Азербайджан с официальными визитами, а в декабре 2002 и в сентябре 2004 годов возглавляемые председателем Милли Меджлиса господином Муртузом Алескеровым парламентские делегации Азербайджанской Республики совершали официальные визиты в Украину. В Милли Меджлисе образована и функционирует депутатская группа по сотрудничеству с Верховной Радой Украины. Парламентарии Украины и Азербайджана ведут плодотворное сотрудничество в рамках различных международных парламентских организаций, таких как Парламентские Ассамблеи Совета Европы, ОБСЕ, ЧЭС, Межпарламентский Союз и др. Они зачастую выступают с единых позиций, поддерживают друг друга при обсуждении представляющих взаимный интерес вопросов, проводят двусторонние встречи во время различных мероприятий. Взаимовыгодное сотрудничество в рамках ГУАМ и ее Парламентской Ассамблеи является дополнительным полем для дальнейшего укрепления отношений между нашими странами на благо народов Украины и Азербайджана и развития взаимосвязей между нашими парламентами.

Украина, являясь крупным европейским государством, имеет большой международный авторитет и экономический потенциал, развитую промышленность, особенно такие ее отрасли как машиностроение, металлур-

гия, аграрно-промышленный комплекс, что представляет огромный интерес для экономики Азербайджана. В свою очередь, в нашей стране, обладающей огромными природными ресурсами, осуществляются крупные международные и региональные проекты, именно поэтому взаимоотношения между нашими странами имеют характер взаимовыгодного сотрудничества. Качественно новым этапом такого сотрудничества можно назвать совместное участие Украины и Азербайджана в проекте ТРАСЕКА по восстановлению древнего Шелкового Пути.

В настоящее время идет подготовка к визиту Президента Украины Виктора Ющенко в Азербайджан. Мы верим, что этот визит еще более обогатит двусторонние связи и взаимосотрудничество между нашими странами.

Уважаемые дамы и господа!

Уважаемые гости!

В заключении позвольте выразить непоколебимую веру в то, что и украинский и азербайджанский народы успешно решат все стоящие перед ними нелегкие проблемы и в недалеком будущем обязательно вступят в семью высокоразвитых процветающих стран.

Еще раз поздравляю всех вас и в вашем лице дружественный народ Украины с Днем Независимости и желаю мира, стабильности и процветания.

Баку, 26 августа 2005 года.

ВЛИЯНИЕ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА НА ОКРУЖАЮЩУЮ СРЕДУ

Уважаемые коллеги, дамы и господа!

Реформы, начатые общенациональным лидером Азербайджана Гейдаром Алиевым в политической, экономической, социальной и судебной областях нашей страны сегодня успешно продолжаются Президентом Азербайджана, его превосходительство Ильхамом Алиевым. Эти реформы и преобразования сыграли и продолжают играть важную роль в развитии и строительстве демократического, гражданского и светского общества в Азербайджане и в успешной интеграции нашей страны в международное сообщество, особенно в Евро-Атлантические структуры. Парламентом Республики приняты почти все основные законы, и наша страна присоединилась к большинству конвенций, которые составляют юридическую базу в деле обеспечения прав человека и основных свобод. Однако, Армяно-Азербайджанский Нагорно-Карабахский конфликт создает большие препятствия для успешного выполнения этих реформ и наносит удар по безопасности не только Азербайджана, но и всего региона Южного Кавказа в целом.

Продолжающийся Армяно-Азербайджанский Нагорно-Карабахский конфликт является главным фактором нестабильности на Южном Кавказе. Около 20 лет тому назад против своей воли Азербайджанская Республика была втянута в этот конфликт. На сегодняшний день армянскими вооруженными формированиями оккупировано 20% азербайджанских территорий, включая Нагорный Карабах и семь прилегающих к нему районов. Свыше одного миллиона азербайджанцев стали беженцами и вынужденными переселенцами.

Армения по-прежнему продолжает игнорировать принятые еще в 1993 году четыре резолюции Совета Безопасности ООН, в которых подтверждается суверенитет и территориальная целостность нашей страны и содержатся требования немедленного, полного и безоговорочного вывода армянских вооруженных формирований во всех оккупированных территорий Азербайджанской Республики, возвращения беженцев и вынужденных переселенцев в места их постоянного проживания. Такая авторитетная международная организация как Совет Европы также в своих официальных документах по Армяно-Азербайджанскому Нагорно-Карабахскому конфликту указала на оккупацию 20% азербайджанских территорий и

наличие одного миллиона беженцев, открыто назвав Армению страной-оккупантом. В марте текущего года 62-ая сессия Генеральной Ассамблеи ООН также приняла резолюцию «Положение на оккупированных территориях Азербайджана», требующую полный и безоговорочный вывод армянских вооруженных формирований со всех оккупированных азербайджанских территорий. Но, увы, все эти решения не возымели какого-либо воздействия на политику армянского руководства.

Идея отторжения земель и создания новых государств в конечном счете приводит к возникновению незаконных сепаратистских зон, так называемых «зон беззакония». Существование таких зон представляет угрозу не только безопасности нашего региона, но и всего Кавказа в целом, а значит и международной безопасности вообще. У нас есть неопровержимые доказательства того, что оккупированные Арменией территории Азербайджана стали центром подготовки террористов, выращивания наркотических средств, торговли людьми, захоронения радиоактивных отходов. Легко представить себе глобальную угрозу, исходящую от перечисленных мною фактов противозаконных действий, имеющих место на оккупированной территории.

Но наши проблемы перечисленными фактами не заканчиваются. Конфликт между Арменией и Азербайджаном породил настоящую экологическую катастрофу в регионе и возымел крайне отрицательное влияние на окружающую среду, флору и фауну Азербайджана. Идет целенаправленное, систематическое уничтожение природных ресурсов и окружающей среды Азербайджана. На оккупированных территориях остались 251,4 тыс. гектаров или 25,3% всего лесного покрова Азербайджана. Идет хищническая вырубка этих лесов, за счет чего за последние годы деревообрабатывающая промышленность Армении выросла в несколько раз. Кроме того, армянские вооруженные формирования каждый год, начиная с последней трети мая, учиняют массовые пожары на сопредельных оккупированных территориях. С небольшими перерывами они продолжаются до конца августа. Сожжены десятки тысяч гектаров растительного покрова и плодородных земель. Уничтожены пастбища и пашни, флора и фауна региона. В атмосферу выброшены тонны вредных веществ-продуктов сгорания. Пожары переходят в сопредельные с оккупированными территориями Азербайджана земли и с ними очень трудно бороться.

Происходит систематическое загрязнение рек и водоёмов. Один из основных источников питьевой воды в Азербайджане – это река Аракс, определенная часть которой протекает и через Армению. Так вот, на армян-

ской части в неё систематически сливаются вредные химические вещества (выбросы предприятий горно-рудной, химической и металлургической промышленности) и органические отходы. Как результат, в азербайджанской части Аракса наличие фенолов больше нормы в 13 раз, меди – в 9 раз, сульфатов – в 6 раз.

Значительная часть объектов мелиорации и водного хозяйства республики остались на оккупированной территории, в связи с чем пахотным землям, оставшимся без орошения, нанесен непоправимый ущерб.

Один из крупных водохранилищ Азербайджана – Сарсанг, емкостью 560 миллионов тон – также остался на оккупированной территории. До оккупации из неё орошались посевы 6 земледельческих районов. Причём 80% воды из Сарсанга поступала сюда в засушливые для Азербайджана летние месяцы. Сейчас же, после оккупации, армяне 85-90% воды из водохранилища сливают в зимние месяцы, когда надобности в воде в таких количествах нет, что приводит к затоплению и оболачиванию земель и делает их непригодными для использования в сельском хозяйстве. А в весенне-летний сезон отпускают всего 10-15% воды, что приводит к снижению уровня воды в канале и засухе в окрестных территориях.

По подсчетам азербайджанских экологов, вследствие Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта окружающей среде Азербайджана нанесен ущерб в 26 миллиардов долларов США. Думается, что международные организации и мировая общественность не должны оставаться безучастными к подобным явлениям и требовать от армянского руководства соблюдения всех норм международного права.

Уважаемые коллеги!

В заключение я хотела бы особо подчеркнуть, что только после погашения очагов вооруженных конфликтов в наших странах мы сможем превратить кавказский регион в зону политической, экономической, экологической и социальной стабильности, что отвечает коренным интересам наших народов и является залогом процветания наших государств.

Благодарю за внимание.

Qərbi Avropa İttifaqının Parlament Assambleyasının 54-cü sessiyasında çıxış. Paris, 2008-ci il.

ÖN SÖZ, MÜQƏDDİMƏ, RƏY VƏ RESENZİYALAR



ÖN SÖZ

Elm aləmində elə dühalar olur ki, müasirləri onları tam dolğunluğu ilə qiymətləndirməyə çətinlik çəkir. Onların həqiqi qiymətini zaman özü verir və bu qiymət tarix məsafəsindən daha dəqiq, daha obyektiv, daha hərtərəfli olur. Elm kəhkəşanında zaman və məkan anlamının fövqündə duran elə ulduzlar var ki, vaxt axarı onları daha aydın, daha parlaq, daha möhtəşəm göstərir. Ziya Musa oğlu Bünyadov belə nəhəng insanlardan idi.

Ərəb xilafəti və orta əsrlər Azərbaycan, Qafqaz və qonşu ölkələr tarixinin qüdrətli tədqiqatçısı, nadir orta əsrlər şərq mənbələrinin yorulmaz tərcüməçisi və şərhçisi akademik Z.M.Bünyadovun qələmindən çıxmış 300-dən artıq elmi əsərin hər biri müstəsna zəhmətin, böyük tədqiqatçı məharətinin, dərin bilik və zəkanın məhsuludur. Məhz Z.M.Bünyadov ilk dəfə olaraq dünyaya bir sıra orta əsrlər Azərbaycan mütəfəkkir, alim və ədibinin adını tanıtdırdı, Vətən tarixinin orta əsrlər dövrünü tutarlı dəlillərlə canlandırdı, ərəb müəlliflərinin Azərbaycanla bağlı nadir əsərlərini elmi ictimaiyyətə təqdim etdi. Respublikada medievist-tarixçilər məktəbini yaradan və inkişaf etdirən akademik onlarca azərbaycanlı elmlər namizədi və elmlər doktoru yetişdirmişdir. Onun rəhbərliyi ilə bir çox xarici ölkələrin (Türkiyə, İran, İraq, BƏƏ, Küveyt) vətəndaşları namizədlik dissertasiyalarını müdafiə edib böyük elmə qədəm qoymuşlar.

Akademik Z.M.Bünyadovun həyatı, elmi və ictimai fəaliyyəti o qədər çoxcəhətli və rəngarəngdir ki, bir məruzədə bu haqda bütöv təsəvvür yaratmaq imkan xaricindədir. Burada biz yalnız Ziya müəllimin ömrünün bizim institutla bağlı dövründən, elmi və təşkilati fəaliyyətindən söz açmaq niyyətindəyik.

Ziya Bünyadov Azərbaycan EA Şərqşünaslıq İnstitutunda (o zaman institut Yaxın və Orta Şərq xalqları institutu adlanırdı) əmək fəaliyyətinə 1964-cü ildə «Orta əsrlər Şərq tarixi» şöbəsinin müdiri vəzifəsində başlamışdır. 1981-ci ildən etibarən isə ömrünün son gününədək qısa fasilələrlə institutun direktoru olmuşdur.

Bu dövrdə akademik Z.M.Bünyadovun elmi yaradıcılığı əsasən iki istiqamətdə inkişaf edib:

1. Azərbaycanın və qonşu Yaxın Şərq ölkələrinin feodalizm dövründə sosial-iqtisadi münasibətləri tarixinin tədqiqi;

2. Orta əsr müəlliflərinin Azərbaycan, Yaxın və Orta Şərq xalqlarının tarixinə, elm və mədəniyyətinə dair əsərlərinin öyrənilməsi, şərhli tərcüməsi və nəşri.

Birinci istiqamətə akademikin bu illərdə yazıb nəşr etdirdiyi və Azərbaycan elminə böyük şöhrət gətirmiş bu kimi fundamental əsərləri daxildir:

1. Azərbaycan VII-IX əsrlərdə. B., «Elm» 1965 (rus dilində): 1989, Azərnəşr, (Azərbaycan dilində).

2. Azərbaycan Atabəylər dövləti (1136-1225) B., «Elm», 1978 (rus dilində); «Elm», 1985 (Azərbaycan dilində). Əsərə görə müəllif 1980-ci ildə Dövlət mükafatına layiq görülmüşdür.

3. Xarəzmşahlar – Anuştəkinlər dövləti. 1097-1231-ci illər. M., «Nauka», 1986 (rus dilində). Kitaba görə müəllifə 1988-ci ildə «Urgənc (Xarəzm) şəhərinin birinci fəxri vətəndaşı» adı verilmişdir.

İkinci istiqamətə akademikin müxtəlif illərdə nəşr etdirdiyi çeşidli şərq mənbələrinin şərhli tərcüməsi daxildir:

1. Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri. Ərəb dilindən şərhli tərcümə. M., «Nauka», 1971 (rus dilində); 1992-ci ildə Azərbaycan dilində nəşr edilib.

2. Şihabəddin Məhəmməd ən-Nesəvi. Sirat əs-sultan Cəlal əd-Din Mankburnı. Ərəb dilindən şərhli tərcümə. Bakı, «Elm», 1973. Kitab 1996-cı ildə «Lukoyl» neft şirkətinin sponsorluğu ilə yenidən nəşr edilib.

3. Sədrəddin Əli əl-Hüseyni. Əxbar əd-daulət əs-səlçukiyyə. Ərəb dilindən şərhli tərcümə. M., «Nauka», 1980.

4. Əbu Məhəmməd Əhməd ibn Ə'sam əl-Kufi. Kitab əl-futuh. VII-IX əsrlər Azərbaycan tarixinə aid iqtibaslar. Ərəb dilindən şərhli tərcümə. Bakı, «Elm», 1981.

5. Əbülqasim əz-Zəhravi. Cərrahiyyə və alətlər haqqında traktat. Ərəb dilindən şərhli tərcümə. M., «Nauka», 1982.

6. Yaqut əl-Həməvi. Mu'cam əl-buldan. Azərbaycan haqqında məlumatlar. Ərəb dilindən şərhli tərcümə. Həmdullah Qəzvini. Nuzhət-əl-qulub. Azərbaycan haqqında məlumatlar. İngilis dilindən tərcümə. Bakı, «Elm», 1983.
və sairə.

Mütəxəssislər gözəl bilir ki, belə əsərlərin hazırlanması necə böyük zəhmət hesabına başa gəlir. Götürək elə 1991-ci ildə Ziya müəllim tərəfindən nəşrə hazırlanmış Abbasqulu ağa Bakıxanovun «Gülüstani-İrəm» əsərini. Müqəddimədə Ziya müəllim yazır:

«А.К.Бакиханов, излагая своё сочинение на русском языке, мыслил, конечно же на азербайджанском языке, которым он владел одинаково. Мысли свои он старался переводить на русский, придавая им восточный колорит и соблюдая классику русской речи. На мой взгляд, после редактирования была утрачена прелесть бакихановского стиха, манера изложения потеряла первоначальную красоту. Поэтому я счёл необходимым восстановить первоначальный авторский текст и таким

представить его читателю. Я приводил к современным требованиям только имена собственные, не комментируя рассуждения в области этимологии и топонимики.

При составлении комментариев и примечаний (а их около 950) я шёл вслед за А.К.Бакихановым и перепроверил (за некоторым исключением) все его ссылки на цитируемые им источники и литературу. Это было не просто, так как А.К.Бакиханов использовал огромное количество разноязычных древних и средневековых письменных источников и был знаком с большинством синхронных исследований, в «которых имелись материалы по исследуемому им региону. Для времён А.К.Бакиханова это являлось подвигом в науке, ибо ни один исследователь Востока до него такой эрудици-ей не обладал. Читатель при знакомстве с указателем использованных им источников и литературы сам убедится в колоссальной эрудиции А.К.Бакиханова. Феноменальное для первой половины XIX в. творчество!»

Fikrimizcə, şərhə ehtiyac yoxdur.

Ölməz Füzulinin «Mətlə'u-l-e'tiqad» fəlsəfi əsərinin ərəbcədən Azərbaycan dilinə şərhli tərcüməsi də akademik Z.M.Bünyadovun qələminin məhsuludur.

Ziya müəllimin elmi axtarışları təkcə orta əsrlər dövrü ilə məhdudlaşmırdı. Alimi Vətənin yaxın keçmişi də maraqlandırırdı. O, əsrin əvvəlində Azərbaycanda baş verən hadisələr, ADR-in fəaliyyəti, Bakı kommunası və sair mövzulara bir sıra məqalələr həsr edib. 30-cu illərin repressiya qurbanları isə alimin «Qırmızı terror» adlı kitabında (Bakı, 1993) işıqlandırılıb. Kitab bilavasitə çoxsaylı arxiv sənədləri əsasında yazılıb.

90-cı illərin əvvəllərindən başlayaraq Ziya müəllimin elmi fəaliyyətinin bir istiqaməti də xalq tərəfindən islam dininin doğru-dürüst öyrənilməsinə yönəlmişdir. Alim ilk növbədə professor V.Məmmədəliyevlə birgə müqəddəs «Qur'ani-Kərim»i dilimizə çevirir, ona şərhlər yazır. Sonra «Dinlər, təriqətlər, məzhəblər» adlı irihəcmli soraq kitabı hazırlayır. «İndi xalq öz dininə qayıdır, lakin xalqın dininə, imanına qayıtması üçün nə dərsliklər, nə elmi ədəbiyyat, nə soraq kitabçaları, nə də başqa vəsait vardır», - yazan müəllif yaranmış boşluğu bu kitabla aradan götürməyə çalışır. Kitab alimin vəfatından sonra 1997-ci ildə Respublika Prezidentinin şəxsi təşəbbüsü və qayğısı sayəsində işıq üzü görmüşdür.

Ziya müəllimin elmi maraq dairəsi yuxarıda işıqlandırdığımız sahələrlə məhdudlaşmırdı. Tarixçi olmasına baxmayaraq, o həmişə şərq ədəbiyyatı ilə də maraqlanırdı və yeri düşəndə, bu sahədə də böyük işlər görürdü. Məsələn, Nizaminin müasiri, XII əsr Azərbaycan müəllifi Əbu Bəkr ibn Xosrov əl-Ustadın

«Munisnamə» əsərinin əlyazmasını Böyük Britaniya kitabxanalarında kəşf edib, surətini gətirərək, professor Rüstəm Əliyevə vermişdi. Bu haqda əsərin sonrakı tərcümə nəşrində geniş məlumat verilib. Yaxud başqa bir epizod. Ziya müəllim uzun müddət XI əsr müəllifi İmaməddin əl-İsfahaninin «Xəridətül-əsr fi cəridətil-qəsr» əsəri haqda danışırdı. Dörd hissədən ibarət bu əsərin bir hissəsi əcəm (qeyri-ərəb) şairlərinə aid idi və elə bu səbəbdən də ərəb tədqiqatçılarının diqqətindən kənarda qalaraq, işıq üzü görməmişdi, əlyazma şəklində Bağdad kitabxanasında mühafizə edilirdi. Ziya müəllimin bir çox səylərinə baxmayaraq, İraq dövləti əlyazmanın surətini xaricilərə verməkdən imtina edirdi. Əsər isə bizim üçün olduqca vacib idi, orada qədim Azərbaycan şeri haqda məlumatlar ola bilərdi. Odur ki, Ziya müəllim əsərin surətini əldə etmək cəhdlərini yorulmadan davam etdirirdi. Nəhayət, 1996-cı ildə Ziya müəllimə məlumat çatdı ki, əsərin fotosurəti Küveyt kitabxanasında var. Ziya müəllim dərhal Birləşmiş Ərəb Əmirliklərinin institutumuzla elmi əlaqələri olan mədəniyyət mərkəzi ilə əlaqə saxladı, bu işdə köməklik etmələrini xahiş etdi. Çox keçmədi ki, əsərin surəti institutumuza gətirildi və Ziya müəllim onun ərəbcədən tərcüməsini və tədqiqini filoloq-ərəbşünas kimi mənə tapşırdı.

Bir çox beynəlxalq elmi məclislərin iştirakçısı olan akademik Z.M.Bünyadov Azərbaycan elmini ləyaqətlə təmsil edib. Türk Tarix Qurumunun VI-XII konqreslərində, Bağdadda tarixçilərin Beynəlxalq konqresində, Tokioda şərqşünasların XXXI Beynəlxalq konqresində, İranda Təbərinin 1100 illiyinə, Füzulinin 500 illiyinə həsr olunmuş beynəlxalq konfranslarda, Misirdə məşhur tarixçi əs-Süyutinin yubileyinə həsr olunmuş Beynəlxalq konfransda iştirak edərək maraqlı məruzələrlə çıxış etmişdi. Türkiyə tarixinin tədqiqi sahəsindəki xidmətlərinə görə alim 1982-ci ildə Türk Tarix Qurumunun müxbir üzvü, 1988-ci ildə isə həqiqi üzvü seçilmişdir.

İnstitut direktoru kimi Ziya müəllim böyük elmi-təşkilati iş aparırdı. O, Azərbaycan şərqşünaslıq elminin tərəqqisi, institutumuzun keçmiş ittifaqın digər şərqşünaslıq institutları və xarici ölkələrin şərqşünaslıq mərkəzləri ilə elmi əlaqələrinin möhkəmlənməsi və genişlənməsi üçün qüvvə və bacarığını əsirgəmirdi.

Akademik Z.M.Bünyadov Şərqşünaslıq İnstitutunun rəhbəri kimi Yaxın və Orta Şərq ölkələri problemlərinə həsr olunmuş bir sıra Beynəlxalq və regional elmi konfransların təşkilatçısı olmuşdur: «Şərqşünasların II Ümumittifaq konfransı» (1983), «İslamın aktual problemləri» (1985, 1987, 1992), «Fars körfəzi problemi» (1988), «Zaqafqaziyanın gənc şərqşünaslarının I konfransı» (1989), «Atatürkün anadan olmasının 100 illiyinə həsr olunmuş Beynəlxalq konfrans» və s. O, ömrünün sonunadək «Vətən tarixi», «Ümumi tarix» və «Din ta-

rixi və nəzəriyyəsi» ixtisasları üzrə birləşmiş müdafiə şurasına sədrlik etmişdir.

Bir neçə kəlmə də Ziya müəllimin iş üslubu və şəxsi keyfiyyətləri haqda danışmaq istərdim. Ziya müəllimin çox sadə və operativ iş üslubu var idi. Onun qəbuluna gələnləri heç vaxt gözlətdirməz, dərhal qəbul edib, məsələni yerindəcə həll etməyə çalışardı. Ümumiyyətlə, Ziya müəllimin otağının qapısı heç vaxt bağlanmazdı, həmişə açıq olurdu, o heç vaxt xüsusi qəbul saatları təyin etməzdi, hər kəs istənilən vaxt onun yanına gəlib, dərdini, problemini danışa bilərdi.

Ziya müəllim çox intizamlı idi. Nə vaxtsa cavanlıqda, cəbhədə xidmət etdiyi vaxt əldə etdiyi daxili nizam-intizam onun canına elə sirayət etmişdi ki, o bütün ömrü boyu bu intizama tabe olmuş, ondan kənara çıxmamışdı. Hər bir işdə son dərəcə dəqiq idi. Həmişə eyni vaxtda işə gəlib eyni vaxtda da işdən gedərdi. Hansısa səbəbdən yarım saat gecikməli olardısa, bu haqda mütləq əvvəlcədən zəng çalıb xəbərdarlıq edərdi. Ziya müəllim böyük olduğu qədər də sadə və səmimi idi. Riyakarlıq, ikiüzlülük, üzə bir söz deyib, arxada başqa söz danışmaq ona tamamilə yad idi. Belə insanlara nifrət edir, onlara heç vaxt bəraət qazandırmırdı. Ziya müəllim mərdlik və cəsarət nümunəsi idi. Bu cəhətlər onun həyatının hər bir sahəsində özünü büruzə verirdi – elmdə də, şəxsi və ictimai həyatında da, həmkarları ilə münasibətlərində də.

Ziya müəllim heç vaxt haqqı nahaqqa qurban verməzdi. Harada olsa, nə yazsa, nə danışsa da Ziya müəllim təbiətinin dərinliklərindən gələn ədalət hissini daim qoruyub saxlayırdı. Və bu hiss həmişə son nəticədə onun xarakterinin başqa cəhətlərinə qalib gəlirdi.

Ziya müəllim olduqca həssas, rəhmli, xeyirxah insan idi. Zəiflərə, kimsəsizlərə kömək etmək onun daxili tələbatı idi. Çox vaxt heç bir müraciət olmadan kollektivdən kiminsə artıq diqqətə və qayğıya ehtiyacı olduğunu özü duyurdu və o əməkdaşı daim diqqət mərkəzində saxlayıb, ona mümkün köməyi edirdi.

Ziya müəllim çox maraqlı həmsöhbət idi. Keçdiyi zəngin həyat yolu onun yaddaşına möhkəm həkk olunmuşdu və o hər dəfə yaddaşının dərinliklərindən hansısa epizodu çıxarıb bizə söyləyirdi. Cəbhə əhvalatlarını, təhsil aldığı vaxtları, elmdəki sonrakı illəri yada salırdı. Həyatında çoxlu çətinliklərlə qarşılaşdığını, bədxahları ilə münasibətlərini xatırlayırdı.

Akademiyanın taleyi onu çox narahat edirdi. 90-cı illərin əvvəllərində ölkəni bürümüş dərin iqtisadi böhran birincilər sırasında elmi işçilərə, onların maddi durumuna təsir etmişdi. Əməkdaşlarımızın ağır maddi vəziyyəti onu qayğılandırırdı, ürəyini ağrıdırdı. Hər vəchlə çalışırdı ki, onlara köməklik etsin,

çox şeydə güzəştə gedirdi, bu səbəbdən əvvəlki tələbkarlığını da azaltmışdı.

Olduqca zəhmətkeş idi Ziya müəllim. Gündəlik gərgin zəhmət onun bütün həyatının mənası idi. Çalışırdı ki, hədər yerə vaxt itirməsin. Hətta Elmi Şura iclaslarını, institutun ümumi yığıncaqlarını bir saata tamamlamağa çalışardı. Daima oxuyur, qeydə alır, yazırdı, tərcümə edirdi. Bir əsəri qurtarmamış, artıq yenisi haqda düşünürdü, daim axtarışda idi. İti zəkası, olduqca dərin hafizəsi vardı. İşinin bu qədər çoxluğuna baxmayaraq, hər bir məlumatı yaddaşında dəqiq saxlayırdı, heç nəyi nəzərdən qaçırmırdı. Onun əqli qabiliyyəti bizi elə valeh edirdi ki, özümüzdə onu ən müasir kompüterə bənzədirdik.

Artıq üç ilə yaxındır ki, institutumuz Ziya müəllimsizdir. Bu müddət ərzində elə bir gün olmayıb ki, onu yada salmayaq, bu və ya digər məsələ ilə əlaqədar onun dediklərini xatırlamayaq. Ziya müəllimdən cismən ayrı düşdüyümüz aylar ərzində institut əməkdaşlarının nəşr etdirdikləri bütün kitablar müəlliflər tərəfindən tamamilə könüllü şəkildə bu böyük insanın əziz, nurlu xatirəsinə ithaf olunub.

Böyük ehtiyac duyuruq Ziya müəllimə, onun müdrik məsləhətlərinə, maraqlı, duzlu, məzəli söhbətlərinə. Hətta keçmiş tənbehlərini belə indi şirin xatirə kimi yada salırıq. Deyirlər, ən yaxşı loğman-zamandır. Amma nədənsə vaxt keçdikcə, o böyük insanın itkisindən bizə dəyən mənəvi-psixoloji zərbənin ağrı-acısı azalmır ki, azalmır, əksinə, getdikcə artır.

«Şərqin aktual problemləri: tarix və müasirlik».
Akademik Ziya Bünyadovun anadan olmasının 75 illiyinə
həsr olunmuş elmi-nəzəri konfransın materialları.
27-29 yanvar 1999-cu il. Bakı, 2000, səh. 3-11.

ÖN SÖZ

Təqdim olunan nəşr Azərbaycan MEA Şərqşünaslıq İnstitutunun mərhum elmi əməkdaşı, filologiya elmləri namizədi Nigar Bakıxanova tərəfindən tərtib olunub, onun son əsəridir. Yaxşı yadımdadır, Nigar xanım bu lüğəti artıq xəstə olarkən, yataqda amansız ölümlə mübarizə apararkən tamamladı, vəfatından bir həftə öncə atası, Respublikamızın xalq artisti, hörmətli professor Tofiq Bakıxanov vasitəsilə instituta göndərdi. Nigarın narahat təbiəti öhdəsinə götürdüyü hər bir işi vaxtında və yüksək səviyyədə yerinə yetirmək qətiyyəti onu ölüm ayağında da tərk etməmişdi.

Nigar çox gənc həyatdan getdi. Qısa, lakin mənalı həyat yaşadı. Olub keçənləri xatırlarkən, bəzən mən onu parlaq, lakin qısaömürlü bir səma cisminə bənzədirəm. O, cəmi 34 il ömür sürdü, amma çox işlər gördü, neçə-neçə kitab, məqalə, tərcümə çap elətdirdi, neçə-neçə konfranslarda məruzə ilə çıxış etdi, dissertasiya müdafiə etdi, iki lüğət hazırladı. Yaşasaydı, daha böyük işlər görərdi. Kim bilir, bəlkə Nigarın simasında şərqşünaslıq elmimiz gələcək böyük alimini itirdi. Bu haqda Nigarın istedadı, elmi, biliyə tükənməz marağı, tədqiqatçılıq qabiliyyəti və bu işə sönməz həvəsi öncədən xəbər verirdi.

Nigar Tofiq qızı Bakıxanova 1961-ci il may ayının 17-də Bakı şəhərində dünyaya göz açmışdı. M.A.Əliyev adına İncəsənət İnstitutunun teatrşünas fakültəsini bitirmişdi. Şərq mədəniyyətinə, bütövlükdə Şərq aləminə olan böyük məhəbbəti onu müstəqil şəkildə ərəb dilini öyrənməyə sövq edir və nəhayət AMEA Şərqşünaslıq İnstitutuna gətirib çıxarır. «Ərəb filologiyası» şöbəsinin dissertantı olan N.Bakıxanova görkəmli Misir dramaturqu Əhməd Şövqinin yaradıcılığının tədqiqi ilə məşğul olur və 1992-ci ildə «Əhməd Şövqinin dramaturgiyası» adlı namizədlik dissertasiyasını uğurla müdafiə edir. Bu illər ərzində Nigarın bir sıra məqalələri çap edilir. «Misirdə kölgə teatrı», «Fələstin teatrı» («Ədəbiyyat və İncəsənət» q.), Əhməd Şövqinin «Xanım Yuda» pyesi («Şərq filologiyası məsələləri» məqalələr məcmuəsi), «Şekspir yaradıcılığında ərəb ünsürləri» («İncəsənət» q.). O, bir neçə konfranslarda məruzələrlə çıxış edir. Gənc alimin bir neçə tərcüməsi işıq üzü görür. 1993-cü ildə N.Bakıxanovanın tərtib etdiyi «Краткий русско-азербайджанско-арабский словарь дипломатических терминов» lüğəti çap olunur.

Nigarın gələcəyə aid böyük yaradıcılıq planları var idi və artıq doktorluq mövzusu haqda düşünürdü. Kim bilir, ömür vəfa etsəydi, bu istedadlı, çalışqan gənc alim hələ neçə-neçə əsər yazacaqdı. Min heyf ki, belə olmadı! Nigar bizdən həyatının və yaradıcılığının ən çiçəklənən dövründə ayrıldı. Allah ona qəni-qəni rəhmət eləsin!

Bakıxanova N.T. «İngiliscə-ərəbcə-Azərbaycanca iqtisadi terminlər lüğəti». Bakı, 2001-ci il kitabına yazılmış redaktordan ön söz.

XX ƏSR İRAN TARİXİNDƏ ƏLAMƏTDAR HADİSƏ

«Məşrutə inqilabi - 100» məqalələr toplusundan ibarət olan bu kitab keçən yüzilliyin əvvəllərində İranda bas vermiş mühüm bir hadisəyə - 1905-1911-ci illər Məşrutə inqilabının 100 illik yubileyinə həsr edilmişdir.

Kitabda Azərbaycanın, İranın, Rusiyanın, Türkiyənin və ABŞ-ın tanınmış iranşünas alimlərinin Məşrutə hərəkatının ayrı-ayrı məsələlərinin işıqlandırılmasına aid məqalələri toplanmışdır.

XX əsrin əvvəllərində İranda hakimiyyətdə olan rejimin daxili və xarici siyasətindən, onun ölkənin mənafeyi əleyhinə olan fəaliyyətindən narazı olan xalq kütləsi ayağa qalxaraq öz hüquqlarını tələb etməyə başlamışdır. İlk xalq çıxışları xalqa qarşı amansızlıqda ad çıxarmış saray vəziri Atabəy Əzəmin vəzifəsindən kənarlaşdırılması tələbi ilə başlanmışdır. Xalq hərəkatının genişlənməsindən və dərinləşməsindən qorxuya düşən Müzəffərəddin şah Atabəy Əzəmi başqası ilə - Eynüddövlə ilə əvəz etsə də, xalqın rejim əleyhinə çıxışları səngimədi. Bu çıxışlar Tehranla yanaşı Təbrizdə, İsfahanda, Rəştdə, Şirazda və digər mərkəzlərdə də baş qaldırdı. Bu çıxışların səciyyəvi cəhəti ondan ibarət idi ki, burada din xadimlərindən tutmuş tacir, bazar əhli, ziyalılar - bir sözlə xalqın bütün zümrəsi fəal iştirak edirdi. Bu mənada İran tarixində «Məşrutə hərəkatı» adlandırılan geniş miqyaslı hərəkat rejim əleyhinə və ölkədəki haqsızlıqlara qarşı İran xalqlarının azadlıq hərəkatı idi.

1905-ci ilin sonunda yüksələn bir xətlə inkişaf edən hərəkatın iştirakçıları qəddar Atabəy Əzəmin yerində oturan və xalqa qarşı zorakılıqda ondan heç də geri qalmayan Eynüddövlənin hakimiyyətdən uzaqlaşdırılmasını, ölkədə islahatların keçirilməsini və ədalətin bərpa olunmasını hakimiyyətdən təkidlə tələb etdilər...

Ölkənin bir çox yerlərində, o cümlədən Tehranda əhalinin oturaq etiraz aksiyaları başlandı ki, bu işə bilavasitə vətənpərvər ruhanilər rəhbərlik edirdi.

1905-ci ilin dekabrında bir neçə adlı-sanlı din xadiminin həbs edilməsi, bununla yanaşı rejimin xalqa qarşı zorakılığı Tehranda və eləcə də ölkənin bir sıra əyalətlərində azadlıq istəyən bütün insanları ayağa qaldırmış oldu. Nümayişçilərin bir qismi öz qəzəb və nifrətini Tehrandakı Şah Əbdüləzim məscidində oturaq etirazla - «Bəstə oturmaq»la bildirdilər. Xalqın ilkin tələbləri bas nazirin istefaya göndərilməsi, islahatların keçirilməsi, möhtəkirliyin qarşısının alınması, Məclisin çağırılması, əcnəbi müşavirlərin dövlət işlərindən uzaqlaşdırılıb ölkədən qovulmasından ibarət idi. Xalq hərəkatının miqyasca genişlənməsi ordu sıralarında bəstə oturanlara rəğbətin getdikcə artması şahlıq rejimini qorxuya saldığından, rejim üçün güzəştə getməkdən başqa yol qalmamışdı. Nəticədə

1906-cı ilin əvvəllərində Müzəffərəddin şah xalqın tələblərini yerinə yetirmək haqda vəd verməli oldu. Bu, Məşrutə hərəkatı tarixində rejimin xalq hərəkatı qarşısında ilk dəfə geri çəkilməsi olsa da, verilmiş vədə əməl olunmadı. Belə olan təqdirdə ölkədə, xüsusən Tehranda, Təbrizdə və digər əyalət mərkəzlərində xalq hərəkatları yenidən gücləndi. Dövlətin zorakılığına etiraz əlaməti olaraq Tehranı tərk edib Quma yığışan bir dəstə adlı-sanlı şəxslər xalqın adından şaha öz tələblərini bəyan etdilər.

Bu zaman Təbriz əhalisi mərkəzi hakimiyyətə xəbərdarlıq etdi ki, xalqa qarsı zorakılığın qarşısı alınmasa və Qanuni-Əsasi (Konstitusiya) iki gün ərzində elan edilməsə, xalq silahlı üsyana qalxacaq və zorakılığa zorakılıqla cavab verməli olacaqdır.

Xalq hərəkatı qarşısında növbəti dəfə geri çəkilmək məcburiyyətində qalan Müzəffərəddin şah 1906-cı il avqustun 5-də Qanuni-Əsasi haqqında fərman imzalamalı oldu. Bundan bir ay sonra Məclisin çağırılması haqda əsasnamə şah tərəfindən təsdiq edildi. Bu, Məşrutə hərəkatının İran tarixində mühüm nəticələrindən biri hesab edilir.

1906-cı ilin payızında ölkədə Şura Məclisinə seçkilər başlandı. 6 oktyabr 1906-cı ildə nümayəndələrinin çoxu xalq elçilərindən ibarət olan Məclis Tehranda toplandı. Məclisin ilk iclasında Konstitusiya layihəsi və az sonra ona əlavələr qəbul olundu.

Müəyyən çatışmayan cəhətlərinə baxmayaraq, ilk Konstitusiya ölkənin demokratikləşdirilməsində irəliyə doğru atılmış mühüm bir addım idi.

Sonralar verilmiş Məşrutə azadlıqlarının alınması, bunların yenidən bərpa edilməsi və xalqın hüquqlarının qorunması uğrunda yaradılmış «Mücahidlər» təşkilatının kütlə içərisində nüfuzunun durmadan artması, Xalq əncümənlərinin (Şuraların) fəaliyyətə başlaması, daha radikal tələblərin irəli sürülməsi həm şah səltənətini və həm də onu himayə edən xarici dövlətləri (ilk növbədə çar Rusiyası və Böyük Britaniya krallığını) narahat etməyə başladı. Tehrana hərbi qubernator təyin edilmiş rus kazak briqadasının polkovniki Lyaxovun başçılığı altında Məmmədəli şahın əmri ilə 1908-ci il iyunun 22-də şəhərdə azadlıq tələb edən qüvvələrə - məşrutəçilərə qarşı geniş miqyaslı hücum başlandı. İyunun 23-də isə səhər tezdən Məclis top atəşinə tutulub dağıdıldı. Tehranda, Təbrizdə və ölkənin digər yerlərində azadlıq tələb edən qüvvələrə qarşı amansız repressiyalar başlandı.

Azadlıq və demokratik hüquqlar uğrunda mübarizə aparan xalqa qarşı Tehranda amansız siyasi mühitin yarandığı bir zamanda Məşrutə hərəkatının mərkəzi Azərbaycana – Təbrizə keçdi. Sərdari-milli Səttarxanın başçılıq etdiyi məşrutəçilər şah və onu müdafiə edən mürtəce qüvvələrin qarşısına mütəşəkkil,

mübariz və yenilməz ordu kimi çıxdı. Azərbaycan məşrutəçiləri və onların silahlı müqavimət dəstəsi olan mücahidlər öz qəhrəmanlıqları, igidlikləri və dönməz əqidələri ilə Məşrutə tarixinin qızıl və həmişə yadda qalan səhifələrini yazdılar. Bu qəhrəmanlıq epopeyası İran və dünya xalqları tərəfindən həmişə hörmət və məhəbbətlə qeyd edilmiş və bu gün də qeyd edilir.

Məşrutənin beşiyi sayılan Təbriz 1908-1909-cu illərdə tam 11 ay şah qoşunlarının, Rəhim xanın atlı dəstələrinin timsalında mürtəce qüvvələrin mühasirəsi şəraitində yaşamalı olmuşdu. Bu aylarda mücahidlərin, onlara arxa duran xalqın və inqilabçılara başçılıq edən Səttarxanın qəhrəmanlığı, yenilməzliyi və xalqın mübariz keyfiyyətləri bariz şəkildə üzə çıxmışdı.

Təbrizin düşmənlərin birləşmiş qüvvələri qarşısında mətanətlə dayanması İranın digər əyalətlərində monarxiya və irtica əleyhinə xalqın mübarizəsinə yeni impuls verdi, onları yeni hücumlara ruhlandırmış oldu. Tehranla yanaşı Gilan, İsfahan, Yəzd, Şiraz və digər əyalət mərkəzlərində Məmmədəli şah rejimi əleyhinə xalq hərəkatı dirçəldi və yeni vüsət aldı. Son nəticədə 1909-cu il iyulun 16-da Məmmədəli şah taxtdan salındı. O, ölkədən qaçmaq məcburiyyətində qaldı. Taxtdan salınmış şahın yerinə onun 14 yaslı oğlu Əhməd Qacar Məclis nümayəndələrinin qəyyumluğu ilə şahlıq kürsüsünə əyləşdirildi.

Məşrutəçilərin tələbi və iradəsi ilə dövlət yeni seçki qanunu qəbul etdi və 1909-cu ilin noyabrın 17-də 2-ci çağırış İran Milli Şura Məclisi Tehranda açıldı. Bu, məşrutəçilərin növbəti qələbəsi idi. Həmin tarixdən 1979-cu il İran inqilabına qədər qonşu İran dövləti konstitusiyalı şahlıq üsul-idarəsi kimi fəaliyyət göstərmişdir.

1905-1911-ci illərdə ölkənin siyasi, iqtisadi qurumlarında və başqa təsisatlarda, həmçinin milli münasibətlərdə və sair sahələrdə əsaslı dəyişikliklər yaratmağa imkan verilməmişdi. Bununla bərabər, bir sıra azadlıqların əldə edilməsi üçün ilk addımlar atılmışdı. Nümayəndəli Məclisin fəaliyyətə başlaması, Konstitusiyanın qəbul edilməsi, Əyalət və Vilayət Əncümənlərinin təşkili və s. bu addımlardan hesab edilir.

1905-1911-ci illər Məşrutə inqilabının mühüm nəticələrindən biri İranın gələcək demokratik əsaslar üzrə inkişafı üçün səmərəli zəmin yaratması olmuşdur. Məşrutə hərəkatından sonra XX əsrdə İranda baş vermiş xalq hərəkatları məhz bu zəmin üzərində dirçəlmişdi.

«1905-1911-ci illər Məşrutə hərəkatı ərəfəsində İranın siyasi-iqtisadi durumu», «Məşrutə inqilabı illərində İran beynəlxalq münasibətlərdə», «Məşrutə hərəkatında ruhanilərin rolu», «1906-cı il konstitusiyası», «Azərbaycan Məşrutə hərəkatının beşiyi olmuşdur», «Səttarxan Azərbaycandakı Məşrutə hərəkatının rəhbəri və sərkərdəsidir», «Qafqazda yaşayan iranlıların Məşrutə hərəka-

tında iştirakına dair», «Məşrutə hərəkatı dövründə Güney Azərbaycan ədəbiyyatı», «Molla Nəsrəddin» və «Məşrutə inqilabı» və s. bu kimi məqalələr kitabın əsas məzmununu təşkil edir.

Kitab Məşrutə inqilabının 100 illik yubileyinə dəyərli töhfədir. Eyni zamanda topludakı məqalələrin iranşünas tədqiqatçılar, müəllimlər, tələbələr və geniş oxucu kütləsi üçün maraqlı və faydalı olacağıma inanırıq.

«Məşrutə inqilabı – 100».
Beynəlxalq elmi konfrans
kitabına müqəddimə. Bakı, 2005.

ELMİ REDAKTORDAN

Dədə-Qorqud irsinin nümunələrindən sayılan qədim türk dastanı «Saltuknamə»də türk xalqlarının qəhrəmanlığı, döyüşkənliyi, cəsurluğu, adət-ənənələri, etnoqrafiyası, coğrafi mövqeyi haqqında geniş məlumat verilmişdir. Bu dastanın əsas xüsusiyyətlərindən biri islam mədəniyyəti və dünyagörüşü ilə qədim türk mədəniyyətinin və türk inanclarının sintezinin islam təfəkkürü ilə əks olunmasıdır.

Dastanın qəhrəmanı XII əsrdə yaşamış əsl adı Şərif Xızır olan Sarı Saltukdur. Anadolu və Rumelinin türklər tərəfindən fəth edildiyi dövrdə Sarı Saltuk bir çox müharibələrdə iştirak edərək, göstərdiyi misilsiz qəhrəmanlıqlara görə dillər əzbəri olmuş və əfsanəvi şəxsiyyətə çevrilmişdir. Sarı Saltukun qədim türklərdə məşhur olan alplar kimi fövqəladə fiziki gücə sahib olması, qazilər kimi islam yolunda qəhrəmanlıqla vuruşması, dərviş və valilər kimi kəramət sahibi olması onu əfsanəvi şəxsiyyət kimi formalaşdırmışdır, Sarı Saltuk islam dinini və türkçülüyü geniş yaymaqla bərabər Anadoluda və Rumelidə Osmanlı dövlətinin yaranması uğrundakı müharibələrdə böyük şücaət göstərmişdir. Bütün Türküstanı keçərək Hindistanı, Çini, Avropanı və Ərəbistanı addım-addım dolaşaraq, islamı və türkçülüyü yaymışdır. Osmanlı dövləti yaranıb ərazisi böyüdükcə Sarı Saltukun qəhrəmanlıq meydanı da genişlənmişdir.

Dastanın bəzi rəvayətlərində o dövrün məşhur şəxsiyyətləri və tarixi hadisələri haqqında da bir çox məlumatlar mövcuddur. Dastanda tarixi faktlarla yanaşı dastan və nağıllara xas olan mifoloji ünsürlərə də rast gəlmək mümkündür. Sarı Saltuk tarixi şəxsiyyətlərlə yanaşı, cadugərlər, cinlər və divlərə qarşı da vuruşmuşdur. Bəzi hallarda isə cinlər ona kömək edərək, çətin vəziyyətdən xilas etmişlər. Yuxarıda saydığımız xüsusiyyətlərinə görə «Saltuknamə» dastanı türk xalq dastanları içərisində önəmli yerlərdən birini tutur.

Fateh Sultan Mehmetin kiçik oğlu Cem Sultan (XV əsr divan şairi, 1459-1495) Ədirnədə olarkən Sarı Saltukun müridlərindən onun haqqındakı rəvayətləri dinləmiş və çox xoşuna gəlmişdir. O, yaxın adamı olan Əbül-Hayri Rumiyə bu rəvayətləri toplamağı tapşırmışdır. Əbül-Hayri Rumi Anadolunu və Rumelini dolaşaraq yeddi il müddətində «Saltuknamə» dastanı yazıya köçürmüşdür.

Dastanın 3 cilddən ibarət olan müxtəlif nüsxələri mövcuddur. Görkəmli türk alimi prof. doktor Şükrü Haluk Akalın bu nüsxələrin ərəb əlifbası ilə olan əlyazmalarını toplayaraq, tənqidi mətnini hazırlamış və 1230 səhifədən ibarət olan dastanı 3 cilddə çap etdirmişdir. I cild 1987-ci ildə Adanada, II cild 1988-ci ildə İstanbulda, III cild isə 1990-cı ildə Ankarada nəşr olunmuşdur.

Üç cildlik «Saltuknamə» dastanı türkiyəli alim və tədqiqatçılarla yanaşı Şərqin və Qərbin də bir çox alim və tədqiqatçılarının diqqət mərkəzində olmuş və dastan haqqında məlumat və tədqiqat xarakterli əsərlər çap olunmuşdur.

Türk ədəbiyyatı tədqiqatçıları Qasımlı Sədaqət, Osmanova Barat, Xəlilova Emiliya dastanın türk dünyası və eyni zamanda Azərbaycan oxucusu və tədqiqatçıları üçün əhəmiyyətini nəzərə alaraq, prof. doktor Şükrü Haluk Akalının çap etdirdiyi 3 cildlik kitabı qədim türkcədən Azərbaycan dilinə tərcümə edərək nəşrə hazırlamışlar.

Hələlik bu kitabın I cildini nəşr edərək, Azərbaycan oxucularının istifadəsinə təqdim edirik. Ümid edirik ki, bu kitab nəşr olunduqdan sonra Azərbaycanda da bu dastan haqqında yeni-yeni sanballı tədqiqat əsərləri yazılacaqdır.

Ebül-Hayri Rumi. Saltuknamə. 3 cilddə. I cild.
Bakı, 2007-ci il kitabına ön söz.

ƏSİRƏDDİN ƏBU HƏYYAN ƏL-ƏNDƏLUSİ. «ƏD-DÜRRƏ ƏL-MUDİYYƏ Fİ-L-LUĞA ƏT-TÜRKİYYƏ» («TÜRK DİLİNDƏ PARLAQ İNCİ») BAKI, 1997

Əbu Həyyan əl-Əndəlusi dövrünün çoxşaxəli yaradıcılığa malik bir alimi, tanınmış dilçisi, görkəmli tarixçisi, ədəbiyyatşünası, yaxşı hədisçi və Quran oxuyanı kimi tanınır. Əsrlərlə itmiş hesab edilən və çətinliklə əldə edilən «Əd-Dürrə əl-Mudiyyə fi-l-luğa ət-türkiyyə»nin türkologiya tarixində əvəzsiz rolu vardır.

Əbu Həyyanın bu lüğətini tarixi ardıcıllığına görə orta əsrlərdə tərtib edilmiş ikidilli ilkin lüğətlərdən hesab etmək olar. Bu lüğət türk dillərinin (o cümlədən Azərbaycan dilinin) qədim dövrünün lüğət tərkibi, dil xüsusiyyətləri, fonetik sistemi haqqında zəngin material verən qiymətli və qədim abidələrdən biridir.

Azərbaycan leksikoqrafiyası tarixinin öyrənilməsində «Əd-Dürrə ...» lüğətinin əhəmiyyətini nəzərə alaraq onu azərbaycanşünaslıq elminə də qiymətli töhfə hesab etmək olar.

Kitab ali məktəblərin şərqşünaslıq və filologiya fakültələrində oxuyan tələbələr, türk dilləri ilə məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuşdur. Kitab ərəb və türk dillərinin tarixini öyrənməkdə faydalı bir dərs vəsaiti ola bilər.

«Elm» qəzeti, dekabr 2007-ci il, № 11 (449).

ELMİ REDAKTORDAN

Ulu Şərqin mənəvi qaynaqları çağlar boyunca bir sıra xalqların ədəbiyyatında başlıca mövzulardan olmuşdur. Həmin xalqların tanınmış sənətkarlarının yaradıcılığında Şərq mövzuları əsas motivlər kimi, böyük maraq və ilhamla əks etdirilmişdir. Bunun başlıca səbəbi Şərq qaynaqlarının ideya-məzmun baxımından zəngin çalarlara malik olmasıdır. Onlara müraciət edən hər bir sənətkar da qabaqcıl humanizm ideyalarının və işıqlı mənəvi duyğularının tərənnümü üçün tarixin dərin qatlarında çətin sınaqlardan çıxmış etibarlı istinad nöqtələri tapırlar. Bu anlamda bir çox Şərq mənəvi qaynaqlarının dünya mədəniyyəti xəzinəsində özünə möhkəm yer tutması təbii və qanunauyğundur.

Şərq mədəniyyətinin ayrılmaz hissəsi olan türk xalqları, o cümlədən Türkiyə xalqının son yüzilliklər ədəbiyyatında bu qanunauyğunluqlar qabarıq tərzdə özünü göstərməkdədir. Bu baxımdan XX yüzilliyin çox görkəmli sənətkarları səviyyəsinə yüksəlmiş Nazim Hikmət yaradıcılığı da istisna deyildir. Həm şair, həm nasir, həm dramaturq, həm də ictimai xadim kimi dünya şöhrəti qazanmış bir Şərq yazarının yaradıcılığında Şərq motivlərinin əks olunmasını tədqiqat obyekti seçmək, onu monoqrafik səviyyədə işləmək və elmi ardıcıllıqla izləməyin özü təqdirəlayiqdir. Nazim Hikmətin dünya xalqları arasında məşhurlaşmasının əsas səbəbi əsərlərinin mövzu müxtəlifliyi və ideya-məzmun sarıdan zənginliyi ilə şərtlənir. Bunun təbii nəticəsidir ki, həyat və ictimai fəaliyyəti, yaradıcılığı və fəlsəfi-estetik görüşləri barədə istər Türkiyədə, istər Azərbaycanda, istər Bolqarıstanda, istər Rusiyada və istərsə də başqa ölkələrdə çoxlu sayda elmi, kütləvi və bədii əsərlər meydana çıxmışdır. Bu sıraya ayrı-ayrı Şərq xalqlarının şair və ədəbiyyatşünaslarının əsərləri də daxildir. Həmin bədii və elmi əsərlərin çoxu marksist metodologiyası ilə qələmə alınıb. Halbuki, Nazim Hikmətin yaradıcılığında, yalnız «kommunist ideologiyası» axtarmaq, yaxud əsərlərindən bu yönümdə bəhs açmaq elmi problemə birtərəfli yanaşmaq demək olardı. Doğrudur, Nazim Hikmətdən, onun ədəbi fəaliyyətindən çox yazılmış, dünyanın bir sıra görkəmli qətəm sahibləri bu və ya başqa münasibətlə sənətkarın yaradıcılığına münasibət bildirmiş, bir şəxsiyyət kimi ondan dönə-dönə elmi söhbətlər açmışlar. Lakin «Nazim Hikmətin yaradıcılığında Şərq» mövzusu ilk dəfədir ki, nəşrə hazırlanan bu monoqrafiyada daha geniş və əhatəli şəkildə işlənmişdir. Şərq mövzusu və Şərq mənəvi qaynaqlarına istinad olunması «Nazim Hikmət və dünya mədəniyyəti» mövzusunun tərkib hissəsidir. Bunu əsas göstərən müəllifin monoqrafiyaya «Dünya mədəniyyətində yeri olan sənətkar» adlı ön söz yazması da tamamilə yerinə düşür.

Nazim Hikmətin yaradıcılığında Şərq mövzularında əsərlərin araya gəlməsi

və Şərq qaynaqlarından təsirlənmə poetik, nəsr və dramatik formalarda öz təzahürünü tapır. Bu anlamda monoqrafiyanın müvafiq olaraq eyni yönümlərdə işlənməsi məsələsinə də müəllifin doğru mövqedən yanaşdığından irəli gəlir. Belə ki, Nazim Hikmətin poeziyasında Şərq motivlərinin əks olunmasından söhbət gedəndə onun həmin mövzuda qələmə aldığı lirik və epik nümunələrdən bəhs edilmişdir. Ədibin bədii nəsrində Şərq mövzularının işlənməsindən danışılarkən yazarın miniatürləri (fikraları), nağılları (masalları), bir hekayəsi, «Göy almalar», «Qan danışmaz...» və «Həyat gözəldir, qardaşım!» romanları nəzərdən keçirilmişdir. Həm də əvvəlki iki romanı Azərbaycanda ilk dəfədir ki, tədqiqata cəlb olunmuşdur. Monoqrafiyanın üçüncü bölümündə yazarın dram yaradıcılığında Şərq folkloru və Şərq qaynaqlarının təsiri elmi şəkildə işıqlandırılır. «Yusif və Züleyxa», «Fərhad və Şirin» kimi klassik Şərq mövzularından, eyni zamanda, folklorundan bəhrələnmə yolu ilə Nazim Hikmətin qələmə aldığı pyeslərin ilkin mənbələrlə müqayisələri əsərin ən uğurlu hissələrindəndir.

Filologiya elmləri namizədi Rəşid Təhməzoğlunun (Quliyevin) monoqrafiyası dünya nazimşünaslığına yeni töhfədir. Müəllifin gəldiyi ümumi nəticə bundan ibarətdir ki, Nazim Hikmətin yaradıcılığında Şərq motivləri görkəmli sənətkarın əsərlərini mövzu baxımdan və ideya-məzmun cəhətindən xeyli zənginləşdirmiş, onun dünya şöhrətinin, o cümlədən Şərq ölkələrində populyarlığının qat-qat artmasına çox geniş imkanlar açmışdır.

Rəşid Təhməzoğlu (Quliyev)
«Nazim Hikmətin yaradıcılığında Şərq».
Monoqrafiya (Bakı), 2008 kitabına elmi redaktordan ön söz.

RƏY

«Min bir gecə» ümumşərq ədəbiyyatının mədəni-tarixi abidəsi, onun bəşər mədəniyyətinə bəxş etdiyi misilsiz söz xəzinəsidir. Mahiyyətcə folklor abidəsi, xalq ədəbiyyatı nümunəsi olan «Min bir gecə» erkən formalaşma mərhələsində yazıya alındığından onun şifahi və yazılı həyatı paralel şəkildə davam etmiş və bu unikal mexanizm çərçivəsində çoxsaylı hekayətçilərin, redaktorların, mirzələrin səyi ilə təkmilləşərək bugünkü şəklini almışdır. Daim klassik ərəb ədəbiyyatı ilə qarşılıqlı təsir orbitində inkişaf edən bu əsər əsrlər boyu müsəlman Şərqi xalqları üçün tükənməz süjetlər xəzinəsi rolunu oynamış, həmin xalqların istər şifahi söz sənətinə, istərsə də yazılı epik ədəbiyyatına əhəmiyyətli təsir göstərmişdir.

«Min bir gecə» ilə bağlı geniş tədqiqat əsərləri Avropa şərqşünaslarına məxsusdur. Avropa şərqşünaslığında «Min bir gecə»yə olan qeyri-adi maraq şərq alimlərinə də təsir göstərmiş və onlar da «Min bir gecə»nin tədqiqi sahəsində müəyyən təşəbbüslər göstərmişlər. Şərq və Qərbdə geniş araşdırmalar olmasına baxmayaraq, Azərbaycan şərqşünaslığında «Min bir gecə» ilə bağlı xüsusi araşdırma aparılmamışdır. L.B.Bayramovanın «Min bir gecə» ərəb ədəbiyyatının mədəni-tarixi abidəsi kimi» kitabı Azərbaycan şərqşünaslığında «Min bir gecə»yə həsr olunmuş ilk geniş tədqiqat əsəridir. L.B.Bayramova ilk dəfə olaraq abidənin struktur və məzmunu, janr və kompozisiya xüsusiyyətləri təhlil olunmaqda, onun konkret parametrlərini müəyyənləşdirmiş, əsərin ərəb və ümumən şərq ədəbiyyatı tarixində yerinin aydınlaşdırılmasına cəhd göstərmişdir.

Əsərin giriş hissəsində mövzunun aktuallığı, məqsəd və vəzifələri, elmi, yeniliyi, nəzəri və praktik əhəmiyyəti əsaslandırılır.

Kitabın «Min bir gecə»nin təşəkkülü və təkamülü» adlanan birinci fəslində orta əsr mənbələrində və bilavasitə abidənin mətnində olan məlumatlar əsasında onun formalaşdığı tarixi-mədəni şərait nəzərdən keçirilmiş, istər tipoloji və xronoloji, istərsə də janr və üslub baxımından rəngarəng bədii materialları ehtiva edən bu nəhəng süjetlər toplusunun genezisi və inkişaf prosesi izlənilmiş, onun tərkibindəki ayrı-ayrı layların səciyyəvi xüsusiyyətləri qeyd olunmuşdur. Müəllif belə bir qənaətə gəlir ki, «Min bir gecə» Sasanilər dövründə «Hezar əfsanə» adlı nağıllar toplusundan qaynaqlanaraq VI əsrdə mükəmməl pəhləvi variantında formalaşmış və ərəb mədəni mühitinə daxil olaraq ikinci həyatını yaşamışdır. İkinci həyatını yaşamağa başlayan abidə əlavələr və poetik bəzəklər hesabına zənginləşərək X-XII əsrlərdə Abbasilər xilafətinin paytaxtı Bağdadda ilkin redaksiyada meydana çıxmış və onun təşəkkül və təkamül pro-

sesi XVIII əsrə qədər davam etmişdir.

Müəllif birinci fəslin sonunda belə bir nəticəyə gəlmişdir ki, təqribən min illik zaman məsafəsində üç mərhələdə keçdiyi təkamül prosesi nəticəsində «Min bir gecə»nin tərkibində üç lay – hind-İran, Bağdad və Misir layları yaranmışdır. Bu laylar abidədə xalis şəkildə mövcud olmasa da, onların fərqləndirilməsi aparıcı tematik ünsürlər, tarixi və coğrafi reallıqlar, süjet və kompozisiya elementləri əsasında mümkün olur, çünki hər bir laydakı nağıllar sonrakı təsir və əlavələrə rəğmən özündə yarandığı mühitin, ictimai şəraitinin, mədəni ənənələrinin, həyat və təfəkkür tərzinin möhürünü daşıyır.

«Min bir gecə» nağıllarının tematik təsnifatı və təhlili» adlanan ikinci fəsil beş bölmədən ibarətdir. Nağıllarda orta əsr adamını düşündürən elə bir məsələ, ictimai-siyasi və mədəni mühitdə, ailə həyatında və məişətdə müşahidə olunan elə bir hadisə yoxdur ki, bu nəhəng abidədə öz əksini tapmamış olsun. Müəllif bu nöqteyi-nəzərdən əsərin tərkibindəki hekayətləri xüsusi paraqraflar, məhəbbət, sehrli, məişət, səyahət və tarixi motivlər olmaqla beş əsas tematik qrupa bölərək, onların hər bir birinin təsnifatlarını vermişdir.

«Min bir gecə»nın bədii xüsusiyyətləri» adlanan üçüncü fəsil iki paraqrafdan ibarətdir. Birinci paraqrafda nağılların struktur və kompozisiyasından bəhs olunur. Burada əsasən abidənin kompozisiyasının özünəməxsusluğunu şərtləndirən üç əsas struktur tipindən dolayı təhkiyə, daxili haşiyə struktur modellərindən istifadə olunmuş, abidənin tərkibindəki üç modelə məxsus nağılların konstruksiyası tədqiq olunmuşdur. İkinci paraqraf «Bədii təsvir vasitələri» adlanır. Müəllif burada personajların təsvirindən, təşbeh və məcaz növlərindən biri olan metaforalardan, təbiət təsvirlərindən bəhs etmişdir. O, poetik parçalarla namizədlik işinin həcmini artıraraq mətnin ifadəliliyinin gücləndirilməsinə, ekspressiv təsirin artırılmasına nail olmuşdur.

Kitab tamamlanmış, dolğun və orijinal bir əsərdir.

Lalə Bayramovanın «Min bir gecə»
ümumşərq ədəbiyyatının mədəni-tarixi
abidəsi kimi» (Bakı, 2009) kitabına rəy.

ÖN SÖZ

1978-1979-cu illər İran inqilabından sonra təsis edilmiş İran İslam Respublikasının daxili və xarici siyasəti region və dünya dövlətlərinin, beynəlxalq ictimaiyyətin daim diqqət mərkəzində olmuş və bu günlərdə həmin diqqət daha da güclənmişdir. İnqilabın qələbəsindən sonra islam inqilabının ixracı çağırışları, onun ardınca başlanan və XX əsrin II yarısının ən uzun müddətli və dağıdıcı müharibəsi olan İran-İraq müharibəsi (1980-1988), müharibədən sonrakı illərdə, xüsusilə 2002-ci ildən başlayaraq İranın nüvə proqramı ilə bağlı məsələ beynəlxalq siyasətin mərkəzi məsələlərindən birini təşkil etmişdir. Dünya dövlətləri və dünya ictimaiyyəti İran-İraq müharibəsindən sonra İranda başlanan daxili iqtisadi, siyasi, mədəni islahatlara böyük diqqət göstərərək mövcud siyasi sistemin bazar iqtisadiyyatı, demokratiya və dünyəviləşmək istiqamətində hərəkət etdiyinə böyük ümidlər bəsləməyə başlamışlar. 1997-ci ildə prezident seçilmiş və əvvəlki siyasi fəaliyyətindən islahatçı kimi tanınan S.M.Xatəminin 8 illik fəaliyyəti İranın beynəlxalq izolyasiyadan çıxarılmasına, regional əməkdaşlığın genişlənməsi və güclənməsinə, dünya dövlətləri ilə münasibətlərin normallaşdırılmasına, mədəniyyətlərin toqquşması paradiqmasının mədəniyyətlərin dialoqu paradiqması ilə əvəz olunmasına yönəlmişdi. Prezident S.M.Xatəminin başçılığı ilə islahatçı qüvvələr İranda Əsas qanunda təsbit edilmiş prinsiplərin həyata keçirilməsinə, siyasi həyatın demokratikləşməsinə, mədəni sferanın genişlənməsinə böyük əhəmiyyət verirdilər. Xarici və daxili siyasətdəki yeni müsbət meyllər dünya, region dövlətləri, beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənir, əsasən dəstəklənir və onlarda böyük ümidlər doğururdu. Lakin islahatçılar öz nailiyyətlərini möhkəmləndirə bilmədiklərindən, tədricən mövqelərini əldən verməyə başlamış və 2005-ci il seçkilərində məğlub olaraq siyasi hakimiyyətdən kənarlaşdırıldılar. 2005-ci il prezident seçkilərində qalib gələn mühafizəkar qüvvələr hakimiyyətin bütün qollarına nəzarət sahəsində inhisar əldə edərək xarici və daxili siyasətdə dünya ictimaiyyətinin narazılığına səbəb olan yeni, daha mühafizəkar və radikal kurs həyata keçirməyə başladılar.

İran İslam Respublikasında siyasi kürsün tez-tez dəyişməsinin və ən mühümü mütərəqqi siyasi və mədəni islahatların möhkəmlənə bilməməsinin, mühafizəkar qüvvələrin öz mövqeyini yenidən və daha əsaslı, geniş şəkildə bərpa edə bilməsinin əsas səbəbləri nədir?

Həmin suala düzgün və obyektiv cavab vermək üçün İranın siyasi sistemini, sosial, etnik strukturunu, siyasi elitanın strukturunu, onu təşkil edən müxtəlif qrupların siyasi, mədəni, ideoloji baxışlarını, yönümlərini və bir çox

digər məsələləri hərtərəfli şəkildə araşdırmaq tələb olunur.

1990-cı illərin əvvəllərindən İranın daxili həyatında cərəyan edən ictimai-siyasi proseslər xarici siyasi ədəbiyyatda mühafizəkarlarla islahatçılar arasında qarşıdurmanın təzahürü kimi təqdim olunur.

Oxucuların diqqətinə təqdim olunan kitab İranda mühafizəkar və islahatçı adlandırılan qüvvələrin qarşılıqlı münasibəti və onların fəaliyyətinin əsas xüsusiyyətlərinin araşdırılmasına həsr edilmişdir.

Müəllif əvvəlcə əsas anlayışlar olan mühafizəkarlıq (və ənənəviçilik) və islahatçılıq (və liberalizm) anlayışlarının müxtəlif anlamlarını nəzərdən keçirərək həmin sahədə mövcud olan bəzi ziddiyyətləri qeyd edir. Daha sonra İranda islahat hərəkatının tarixinə qısa nəzər salan müəllif belə qənaətə gəlir ki, həmin islahatlar daim əsas komponentlərdən birinə etina edilmədən həyata keçirilmişdir.

İran İslam inqilabının qələbəsindən sonra üçüncü yol konsepsiyası əsasında Şərq islam prinsip, dəyər və normalarının rəhbərliyi və hakimiyyəti altında Qərb-Şərq sintezi əsasında yeni siyasi, iqtisadi, mədəni sistem təşkil edilsə də, çox qısa zamandan sonra (1989-cu ildən) həmin «mükəmməl» sistemin islah olunması zərurəti özünü göstərməyə başlamış və həmin istiqamətdə addımlar atılmışdır. İslahat ideyası və tələbləri hakim elita daxilində güclü müqavimətə rast gəlmiş və nəticədə elita daxili qüvvələr mühafizəkarlar və islahatçılar kimi qruplaşmağa başlamışlar. Mühafizəkar qüvvələr əsasən hakim elita ilə məhdudlaşsa da, geniş ictimaiyyət tərəfindən ciddi şəkildə dəstəklənən islahatçı qüvvələrin fəaliyyətini asanlıqla məhdudlaşdırır və onu hakimiyyətdən kənarlaşdıra bilirlər. Bunun səbəbi islahatçı adlanan siyasi qüvvələrin islahat aparmaq imkanlarının son dərəcə məhdud olmasında axtarılmalıdır. Cəmiyyətin gözlədiyi cavabı vermək imkanına malik olmayan islahatçılar onun geniş dəstəyindən məhrum olaraq siyasi hakimiyyətdən (2005) kənarlaşdırıla bilmişdi.

İslahatçılar ilə mühafizəkarlar arasında münasibətləri nəzərdən keçirən müəllif belə bir nəticəyə gəlir ki, İran İslam Respublikasında siyasi qüvvələrin həmin terminlərlə ifadə olunması müəyyən dərəcədə süni xarakter daşıyır. İİR mövcud siyasi sistemi, onun hüquqi ifadəsi olan Əsas qanun rejimin əsaslarına təhlükə yaratmadan hər hansı bir əsaslı islahat keçirilməsinə şərait yaratmır. Bununla yanaşı kimin – islahatçıların və ya mühafizəkarların – hakimiyyətdə olmasından asılı olmayaraq iqtisadi sferada XX əsrin 90-cı illərindən başlanmış islahatlar davam etdirilir və genişləndirilir. Maraqlıdır ki, Əsas qanunu ölkə iqtisadiyyatının əsas sahələrini dövlət mülkiyyəti elan edən 44-cü maddəsi Əsas qanuna düzəliş edilmədən, İran liderinin həmin qanunun yeni şərhi əsa-

sında artıq iqtisadi islahatların daha geniş miqyasda aparılmasına əsas verir. Həmin islahatlar sistemin və rejimin əsaslarını yaxın gələcəkdə təhlükəyə salmamaqla yanaşı hakim bürokratiyanın maddi sərvətlərin bölüşdürülməsində iştirakını təmin edir. Müəllifin qənaətinə görə mühafizəkarlarla islahatçılar arasında qarşıdurma hakim siyasi sistemin öz potensialını tam sərf edib sona çatanacan davam edəcəkdir.

Vidadi Mustafayevin «İran İslam Respublikasında hakimiyyətdaxili münasibətlər» (Bakı), 2010 kitabına ön söz.

ПРЕДИСЛОВИЕ

Изучение арабской филологии в Азербайджане имеет глубокие корни. Еще со времен Арабского халифата азербайджанские ученые проявляли большой интерес к арабскому языку, к изучению арабской грамматической науки, арабского стихосложения, поэтики и риторики. Это вполне объяснимо, если учесть исторические предпосылки, предопределившие неразрывную связь всех народов, исповедующих ислам и участвовавших в создании единой арабо-мусульманской синкретической культуры. Истории известны имена таких выдающихся средневековых ученых-азербайджанцев как Хатыб Табризи, Хубейш Тифлиси, Ардабили, Барда'и и многие другие, которые своим творчеством внесли весомый вклад в развитие арабоязычной культуры, ставшей впоследствии достоянием общечеловеческой цивилизации.

Традиции, заложенные в раннее средневековье, оставили неизгладимый след и в творчестве азербайджанских ученых более позднего времени. В последние годы всё возрастающие связи независимой Азербайджанской Республики с зарубежными странами, и в том числе со странами Ближнего и Среднего Востока, наряду с развитием политических и экономических связей стимулирует и культурное взаимодействие наших народов, что в свою очередь положило начало новому этапу в развитии арабистики и, в частности, арабской филологии в нашей стране. Современным азербайджанским учёным-арабистам принадлежит большая заслуга в деле изучения многовековых исторических и социо-культурных связей азербайджанского народа с Арабским миром и собственно арабской истории и филологии.

Предлагаемая вниманию читателей книга посвящена изучению развития арабской филологии в Азербайджане, начиная с раннего средневековья до наших дней. В работе осуществлены обзорные исследования истории изучения арабской филологии в стране, в хронологическом порядке представлены сведения о наиболее видных средневековых азербайджанских ученых, участвовавших в формировании и развитии арабской филологической науки. В работе также даны подробные сведения о научной деятельности последующих азербайджанских ученых, специализирующихся в области арабской филологии и создавших немало ценных трудов в этой области. По мере необходимости освещена и деятельность различных востоковедных центров в республике и, в первую очередь, Института Востоковедения имени академика З.М.Буниятова Национальной Академии Наук Азербайджана. Работа носит информативный характер.

Предисловие к кн.: Л.М.Оруджева, З.Э.Шихалибейли. Развитие арабской филологии в Азербайджане. Баку, 2004.

ЦЕННЫЙ ВКЛАД В ИРАНИСТИКУ

Автор представляемой вниманию читателей книги - доктор филологических наук, профессор Мехти Кязимов хорошо известен как в нашей стране, так и за ее пределами как видный специалист в области средневековой персоязычной литературы. Его исследования о художественном наследии гениального азербайджанского поэта Низами Гянджеви, о его поэтической школе, в особенности о такой своеобразной форме ее функционирования и развития как назире, давно привлекли внимание научной общественности и получили высокую оценку ведущих востоковедных центров. Важные заслуги принадлежат М.Кязимову в области перевода на русский язык персоязычных исторических и литературных памятников средневековья. Особо следует отметить его книгу «Из истории суфийской мысли» (Баку, «Элм», 2001), в которую вошли комментированные переводы трудов трех выдающихся суфийских авторов XI и XШ вв. - Абдаллаха Ансари, Наджм ад-Дина Рази и Фахр ад-Дина Ираки.

И вот перед нами его очередное исследование, посвященное новейшей истории персидской литературы - событие, редко встречающееся в нашей научной практике, ибо ученые, которые занимаются изучением литературной классики, обычно не уделяют внимания современному периоду, и наоборот. Но, безусловно, для настоящего ученого-профессионала не существует временных ограничений и он может успешно исследовать художественные произведения как средневековья, так и современности, добиваясь при этом одинаково плодотворных результатов. «Персидская поэзия конца XX века» ярко подтверждает это.

Однако не только этим обуславливается интерес, вызываемый настоящей работой. Дело в том, что она посвящена почти неизученному периоду персидской поэзии. Как отмечает и сам автор, «поэзия 1970-1990-х годов остается все еще малоизвестной и даже неизвестной нашему читателю (добавим, что и многим нашим специалистам - Г.Б., М.М.) как по большинству имен, так и по произведениям, что в первую очередь относится к последним двум десятилетиям XX века». Между тем это обстоятельство становится причиной серьезных трудностей не только в исследовательской, но и в преподавательской работе наших коллег. Кстати, в «Истории персидской литературы X1X-XX веков» (Москва, 1999), написанной авторитетным коллективом российских востоковедов, данный период, можно сказать, не освещен. Да и в самом Иране пока не появились более или менее обобщающие труды о литературном развитии страны в

послереволюционный период.

Такое положение, естественно, вызвано, прежде всего, объективными факторами, а именно, революционными событиями 1978-1979 годов и последующими процессами в Иране, а также несистематизированностью огромного художественного материала, создававшегося в послереволюционные десятилетия. Неслучайно, что для сбора необходимого материала М.Кязимову пришлось совершить ряд научных командировок в Иран.

На слабую исследованность послереволюционной персидской поэзии оказали влияние и факторы субъективного порядка. Так, в отличие от классического периода с его «статичной» картиной, изучение современного динамичного литературного процесса сопряжено с риском подмены основных тенденций случайными фактами и преходящими увлечениями. Поэтому последнее требует от исследователя помимо навыков литературоведческого анализа, также и умения заглядывать в перспективу, способности предвидеть, и при необходимости даже предсказывать судьбу различных художественных явлений и отдельных мастеров слова. Выражаясь иначе, в данном случае исследователь должен быть не только историком и теоретиком литературы, но также и литературным критиком. Настоящая книга показывает, что именно такими данными обладает ее автор. Это подтверждается как методикой рассмотрения истоков и общей картины послереволюционной персидской поэзии, так и выбором девяти авторов в качестве ее ведущих представителей. Поэты, которым в книге посвящены обширные очерки, с одной стороны представляют различные литературные поколения, а с другой - отдельные художественные направления, что позволило автору создать целостную картину тематического и идейно-эстетического диапазона персидской поэзии конца прошлого столетия.

Одним из важнейших итогов исследования является, на наш взгляд, выявление того, что исламизация культурных и духовных ценностей в послереволюционном Иране носила не такой уж тотальный, всеобъемлющий характер, что литература, подвергаясь мощному влиянию господствующей идеологии, тем не менее продолжала развиваться по своим имманентным законам, что художественные поиски выдающихся поэтических личностей шли на пересечении традиционалистских и модернистских устремлений.

Итак, восполняя существенный пробел в отечественном востоковедении, книга проф. М.Кязимова «Персидская поэзия конца XX века» может служить надежной отправной точкой для дальнейших исследований в

этом направлении. Надеемся, что и сам автор, находящийся в расцвете творческих сил, продолжит свои изыскания и представит в будущем научной общественности еще более широкую и всеохватывающую книгу о современной литературе соседней страны. Но и в теперешнем виде ее можно охарактеризовать как ценный вклад в иранистику.

Предисловие к кн.: М.Д.Кязимов.
«Персидская поэзия конца XX века». Баку, 2006.

MƏTBUATDA ƏLAQƏLİ MƏLUMATLAR



MİSİR MƏDƏNİYYƏT MƏRKƏZİNİN DİREKTORU İLƏ GÖRÜŞ

Saleh Məşəl! Bu ad respublikanın ərəbşünas alimlərinə yaxşı tanışdır. O, həmçinin ölkənin ədəbiyyat və incəsənət nümayəndələrinin, bəzi dövlət və özəl ali məktəblərinin professor və müəllim heyətlərinin yaxından tanıdıqları fenomen bir şəxsiyyətdir. Azərbaycanda son illərdə fəaliyyət göstərən xarici ölkə diplomatları içərisində respublika ziyalıları, KİV müxbirləri, ali məktəblərdə ərəbcə təhsil alan tələbələr, islamşünaslar tərəfindən ən çox sevilən, seçilən, əzizlənən bir diplomatdır Saleh Məşəl.

Azərbaycanda 2000-ci ilin payızından bu günlərə qədər diplomatik missiyada bulunan Saleh Məşəl Bakıya gəldiyi ilk gündən müdiri olduğu Misir mədəniyyət mərkəzinin qapılarını respublika ictimaiyyətinin üzünə geniş açmış və öz ölkəsinin tanınmış elm, mədəniyyət, ədəbiyyat, kino, siyasət xadimlərinin, eləcə də bu ölkənin keçmiş və müasir tarixinin ən şanlı səhifələrinin ölkəmizdə təbliği, tanınması sahəsində, necə deyərlər, özünü fəda etmişdir. O, Bakıda olduğu iki il yarım ərzində sanki «Məşəl» adını təsadüfən daşımadığını sübut etmək üçün öz ömrünü bir məşəl kimi şölələndirərək yüzlərlə Bakı sakinini onun işığına yığmağa müvəffəq olmuşdur.

Saleh Məşəl ölkəmizə təşrif buyurduğu andan Misir mədəniyyət mərkəzində üç yaş qrupunda ərəb dili kursları açaraq dörd nəfər tanınmış ərəb dili mütəxəssisini orada dərs deməyə dəvət etmiş və hər həftə özü şəxsən ərəb ədəbi dilində bu dil ilə maraqlananlar qarşısında mühazirələr oxumuşdur. O, həmin mərkəzdə az qala hər həftə respublikanın müvafiq sahələrdə çalışan ziyalı və mütəxəssislərinin köməyi ilə Misirin tanınmış elm və mədəniyyət xadimlərinin yubiley mərasimlərini keçirmişdir. O, Misirdən videokassetlər gətirməklə istər mərkəzdə, istərsə də Bakının bəzi kinoteatrlarında Misir filmləri həftəsi keçirmiş, respublikanın kino işçiləri ilə Misir kino xadimləri arasında dostluq körpüsü salmağa müvəffəq olmuşdur.

Öz xalqını, vətənini dərin bir məhəbbətlə sevən bu diplomatın artıq Bakıda yüzlərlə dostu, pərəstişkarı vardır. O, özünün yüksək əxlaqi keyfiyyəti, intellektual bilik və işgüzarlığı ilə Misir mədəniyyət mərkəzinə qədəm qoyanların diqqətini özünə cəlb etmişdir.

Bu günlərdə AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda Saleh Məşəlin Azərbaycanda öz diplomatik missiyasını başa vurub Qahirəyə dönüşü ilə bağlı keçirilən düzənlərdə onun Bakıda olduğu müddətdə iki ölkə arasında saldığı dostluq, qardaşlıq körpüsünün mətinliyindən, mötəbərliliyindən danışılmışdır.

İnstitutun direktoru, Azərbaycan Respublikası Milli Məclis sədrinin

müavini, filologiya elmləri doktoru **G.B.Baxşəliyeva** yığıncağı açaraq Saleh Məşəlin Azərbaycandakı diplomatik missiyası dövründəki fəaliyyətini istər bir ərəbşünas alim, istərsə də bir dövlət rəsmisi kimi yüksək dəyərləndirmiş və onun bünövrəsini qoyduğu bu xeyirxah işin, bu mötəbər əməlin gələcəkdə də mütləq davam etdiriləcəyinə əminliyini vurğulamışdır. O, Saleh Məşəl körpüsünün üstündən gələcəkdə neçə-neçə Misir-Azərbaycan pərəstişkarlarının addımlayacağını bildirmişdir. G.B.Baxşəliyeva Saleh Məşəlin bir mədəniyyət attaşesi kimi Azərbaycandakı diplomatik fəaliyyətini yüksək dəyərləndirməklə yanaşı, onun çox həlim təbiətə, yüksək əxlaqi keyfiyyətə malik olduğunu və respublikanın bütün zümrələrdən olan tanınmış simaları, o cümlədən KİV nümayəndələri ilə fərdi dostluq münasibətlərində bulunduğunu xüsusi vurğulamışdır.

Gövhər xanım Saleh Məşələ Bakıdakı diplomatik missiyasını başa vurub vətəninə qayıtması münasibətilə uğurlu yol diləmiş və bir daha əminliyini bildirmişdir ki, Saleh Məşəl qayıtdıqdan sonra orada Azərbaycanın sədaqətli bir dostuna çevriləcək və Azərbaycanda gördüklərini, Azərbaycanın haqq işinin yenilməzliyini istər şəxsi görüşlərində, istərsə də Misirin informasiya vasitələrində misirlilərə və eləcə də digər ərəb ölkələrinin vətəndaşlarına layiqincə çatdıracaqdır.

Sonra Gövhər xanım Saleh Məşələ söz verdi. Saleh Məşəl vida mərasimi təşkil etdikləri üçün Gövhər xanıma, institutun kollektivinə öz təşəkkürünü bildirərək qeyd etdi ki, o, Bakıda olduğu müddətdə özünü qəriblikdə hiss etməmişdir. Bu səbəbdən də Bakı əhalisini, azərbaycanlıları, respublikanın görkəmli informasiya vasitələrini, elm və mədəniyyət nümayəndələrini ona bəslədikləri hörmətə görə yüksək dəyərləndirdi. Saleh Məşəl qeyd etdi ki, o, Misir mədəniyyətini və ədəbiyyatını Azərbaycanda təbliğ etməklə yanaşı mədəniyyət mərkəzində keçirdiyi tədbirlərdə, görüşlərdə Azərbaycanın ədəbiyyat və mədəniyyətini də unutmamış və hər bir görüşdə müvafiq paralellər aparmaqla bu iki xalqın arasında oxşarlıqlar tapmağa səy göstərmişdir.

Saleh Məşəl Misir yazıçılarından Nobel mükafatı laureatı Nəcib Məhfuzun, Tofiq əl-Həkimin, Taha Hüseynin, Əhməd Şöqinin, Yusif əs-Sibainin, Misir ədəbiyyatşünası, doktor Şöqi Dayf, şair Hafiz İbrahim və başqalarının yubileyləri, habelə Misirin kino ulduzlarının şərəfinə keçirdiyi tədbirlərdə respublikanın tanınmış elm və mədəniyyət xadimlərinin yaxından iştirak etdiyini bildirməklə onlara öz dərin təşəkkürünü ifadə etmişdir. Saleh Məşəl respublika kitabxanalarına Misir yazıçılarının əsərlərindən ibarət xeyli kitablar hədiyyə etdiyini, ərəb dilini öyrənənlərə, Misir kinosuna maraq göstərənlərə mədəniyyət mərkəzində xüsusi şərait yaradıldığını xüsusi qeyd etdi. O, bunu da qeyd

etdi ki, Bakıdakı gərgin işi, fəaliyyəti nəticəsində o, respublikanın iki özəl universitetinin fəxri doktoru diplomuna layiq görülmüşdür. O, bütün bunlar üçün, ona bəslədikləri yüksək qayğı və ehtiram üçün azərbaycanlılara, Azərbaycan dövlətinə bir daha dərin təşəkkür və minnətdarlığını bildirdi və bir daha qeyd etdi ki, o, gələcəkdə Azərbaycan xalqına firavan həyat, xoşbəxtlik və səadət diləyir və tezliklə Qarabağ münaqişəsinin ədalətli həllinə nail olunmasını arzulayır.

Daha sonra İnstitutun «Ərəb filologiyası» şöbəsinin müdiri Vilayət Cəfərov söz alaraq bildirdi ki, «Ərəb filologiyası» şöbəsində Misir ədəbiyyatının tədqiqi ilə bağlı geniş işlər aparılır. O qeyd etdi ki, bu şöbədə Saleh Məşəlin yuxarıda adlarını çəkdiyi Misir yazıçılarının böyük əksəriyyətinin həyat və yaradıcılıqları barədə dissertasiyalar yazılmışdır və bu iş bu gün də davam etməkdədir. Bundan başqa V.Cəfərov Saleh Məşəlin diplomatik fəaliyyətini də yüksək qiymətləndirərək dedi: «Saleh Məşəl Misir ədəbiyyatı və mədəniyyətinin fanatıdır və mən arzu edərdim ki, Azərbaycanı xarici ölkələrdə təmsil edən diplomatlarımız bu universal biliyə malik olan şəxsiyyətdən mənsub olduqları ölkəni xaricdə necə təmsil etməyin yollarını öyrənəydilər».

Bu maraqlı vida mərasiminin sonunda Saleh Məşələ institut kollektivi adından İçəri şəhərin mənzərəsini əks etdirən tablo və çiçək dəstələri təqdim olundu.

Vilayət Cəfər,
Şərqşünaslıq İnstitutunun elmi işçisi,
«Elm» qəzeti, № 25-26, 21 iyul 2003-cü il.

MİRZƏ KAZIM BƏYİN 200 İLLİYİNƏ HƏSR OLUNMUŞ KONFRANS

Son zamanlar ölkəmizin elmi həyatında tez-tez baş verən müxtəlif maraqlı hadisələr - elmi disputlar, beynəlxalq görüş və konfranslar çoxları üçün artıq adi hala çevrilmişdir. Belə hadisələrdən biri də bu yaxınlarda Bakıda YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə birlikdə keçirdiyi görkəmli şərqşünas-alim və pedaqoq Mirzə Kazım bəyin 200 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans olmuşdur.

Azərbaycan və Rusiya şərqşünaslığının tarixinə Mirzə Kazım bəy görkəmli tədqiqatçı, elm təşkilatçısı, fenomenal bir şəxsiyyət kimi daxil olmuşdur.

1802-ci il iyun ayının 22-də Dərbənd şəhərində anadan olan Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu Kazım bəyin gəncliyi Dərbənd və Quba şəhərlərində keçmişdir. O, hələ 17 yaşında ikən «Ərəb dilinin müxtəsər qrammatikası» adlanan ilk elmi əsərini nəşr etdirmişdir. Mirzə Kazım bəy pedaqoji fəaliyyətə 1825-ci ildə, əvvəlcə Omsk Asiya məktəbində, sonra isə Qazan Universitetində müəllim kimi başlamışdır. 23 il ərzində məhsuldar elmi yaradıcılıqla məşğul olmuş, Rusiyada şərqşünaslığın sistemli inkişafının elmi və praktik əsaslarını qoymuşdur. 1849-cu ildən etibarən ömrünün sonunadək (1870) o, Sankt-Peterburq Universitetinin professoru olmuşdur. Burada Mirzə Kazım bəy özünün yaratdığı Şərq dilləri fakültəsinin ilk dekanı seçilmişdir.

XIX əsrin 20-ci illərindən başlayaraq Mirzə Kazım bəyin bütün ömrü Rusiya ilə bağlı olmuşdur. Müxtəlif səbəblərə görə islam dinindən uzaqlaşdığına baxmayaraq, bu dinin tədqiqinə, araşdırılmasına Mirzə Kazım bəy böyük vaxt sərf etmiş, rus və dünya ictimaiyyətini islamın fəlsəfi, siyasi, hüquqi, ideoloji əsasları ilə tanış etmişdir.

Professor Mirzə Kazım bəy Rusiya Elmlər Akademiyasının müxbir üzvü və Rusiya Coğrafiya Cəmiyyətinin üzvü olmuşdur.

O, bir sıra sanballı əsərlər və məqalələr, araşdırmalar və monoqrafiyalar müəllifidir. Bunların arasında «Müxtəsərül-viqayət» (1845), «Konkordans - Quran sözlərinin fehristi» (1859), «Bab və babilər» (1865), «Şera-ül-islam» (1867), «Müridizm və Şamil» (1859) kimi əsərlər öz fundamentallığı ilə seçilir.

M.Kazım bəy dəyərli elmi əsərlərinə görə İran şahı tərəfindən «Şirin-Xurşid» mükafatına, Rusiyada isə 3 dəfə «Demidov» mükafatına layiq görülmüşdür.

Sözügedən konfransın əsas məqsədi öz dövründə Şərq tarixinin, mədəniyyətinin, dillərinin, islamın və müsəlman hüququnun əvəzsiz bilicisi, görkəmli

alim Mirzə Kazım bəyin zəngin elmi irsini araşdıran Azərbaycan, Rusiya, Fransa, Almaniya şərqşünasları arasında fikir mübadiləsini təmin etməkdən ibarət idi.

Konfransı Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik M.Kərimov açdı. Giriş sözü ilə Azərbaycan Respublikasının Xarici işlər naziri, YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının sədri, professor V.Quliyev çıxış etdi. O qeyd etdi ki, Kazım bəyin elmi irsinin araşdırılması bu gün də öz aktuallığını itirməyib və son zamanlar Yaxın Şərqdə baş verən hadisələr Kazım bəyin bir alim kimi uzaqgörənliyini, hadisələrin mahiyyətinə nüfuzetmə qabiliyyətini bir daha nümayiş etdirir.

AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru **G.Baxşəliyeva** çıxışında M.Kazım bəyin çoxşaxəli fəaliyyətindən danışdı.

Konfransın işində Azərbaycan, Rusiya, Almaniya və Fransa alimləri iştirak edirdilər. Uzun illər Mirzə Kazım bəyin yaradıcılığını öyrənib araşdıran, alimin əsərlərini çap etdirən görkəmli mütəxəssis, hüquq elmləri doktoru, professor A.Rzayev «Mirzə Kazım bəy və müasirlik» adlı məruzə ilə çıxış etdi. Görkəmli iranşünas-tarixçi, professor Ş.Tağıyevanın «Mirzə Kazım bəy babilər hərəkatının tədqiqatçısı kimi» mövzusunda etdiyi məruzə maraqla qarşılandı. Azərbaycan dilçiliyi tarixində Mirzə Kazım bəyin tutduğu yer haqqında filologiya elmləri doktoru A.Əlizadə söz açdı.

Şərqşünaslıq İnstitutunun mütəxəssisləri islamşünas-alim A.Məmmədov «Mirzə Kazım bəyin Konkordansı və onun yenidən nəşrinin əhəmiyyəti» haqqında, türkoloq E.Həsənova «Mirzə Kazım bəyin «Müridizm və Şamil» əsərində islamın bəzi məsələləri» barəsində araşdırmalarının nəticələrini konfrans iştirakçılarının diqqətinə çatdırdılar. İnstitutun gənc əməkdaşı H.Hüseynovanın Kazım bəyin müsəlman hüququ ilə bağlı araşdırmaları haqda məruzəsi maraqla dinlənildi.

Konfransda xarici qonaqlar da məruzələrlə çıxış etdilər. Moskvadan gələn tarixçi S.Oreşkova, Sankt-Peterburq Universitetinin nümayəndəsi - ədəbiyyatçı-türkoloq A.Plyov, Qazan Universitetinin professoru R.M.Valeyev Mirzə Kazım bəy tərəfindən elmi dövriyyəyə daxil edilmiş Osmanlı qaynaqları haqqında, alimin Rusiyada türk dillərinin tədqiqi və tədrisi sahəsində xidmətləri və ümumiyyətlə, Mirzə Kazım bəyin Rusiya şərqşünaslığında yeri barəsində geniş məlumatlar verdilər.

Fransadan gəlmiş və Mirzə Kazım bəyin ailə üzvləri ilə yaxın təmasda olan madam Mirey Massip Kazım bəyin nəvəsi Aleksandr Lvoviç Kazım bəyin həyat və yaradıcılığı haqqında məruzə etdi, müxtəlif sənədlər və fotomateriallar

əsasında qurulmuş diafilm nümayiş etdirildi.

Tanınmış Azərbaycan alimi, ölkəmizdə Mirzə Kazım bəy irsinin ilk tədqiqatçılarından olan Heydər Hüseynovun qızı Sara xanımın proqramdan kənar çıxışı da konfransın ümumi ruhuna münasib səsləndi.

Beləliklə, demək olar ki, konfrans Mirzə Kazım bəyin həyatı və elmi fəaliyyətində yeni, bu vaxta qədər açılmamış tərəflərə işıq saldı və alimin 200 illik yubileyinə qədirbilən soydaşlarının töhfəsi oldu.

Leyla Məlikova,
Şərqşünaslıq İnstitutunun elmi əməkdaşı,
«Elm» qəzeti, 21 iyul 2003-cü il.

AZƏRBAYCAN QADINLARININ II QURULTAYINDA

Milli Məclis sədrinin müavini **Gövhər Baxşəliyeva** qurultay iştirakçılarını təbrik edərək dedi ki, müstəqil Azərbaycanın qadınlarının birinci qurultayından keçən dövrdə ölkəmizin həyatının bütün sahələrində mütərəqqi islahatlar davam etdirilmişdir. Ölkənin qanunvericilik orqanı hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prinsiplərinin bərqərar edilməsi, insan və vətəndaş hüquqlarının, azadlıqlarının qorunması, iqtisadi islahatların hüquqi bazasının yaradılması məsələlərini daim diqqət mərkəzində saxlamış, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin möhkəmləndirilməsi istiqamətində əməli tədbirlər görmüşdür. Qanunların və bir sıra məcəllələrin hazırlanmasında Avropa Şurasının ekspertləri iştirak etmişlər. Onlar bildirmişlər ki, Milli Məclisin qəbul etdiyi hüquqi sənədlər Azərbaycanın demokratiya yolu ilə ardıcıl inkişafı, dövlət həyatının bütün sahələrində Avropa dəyərlərinin bərqərar olması üçün lazımi hüquqi təminat yaratmışdır.

Parlament sədrinin müavini əmin olduğunu bildirdi ki, bütün xalqımız kimi, namuslu, cəfakeş, ictimai-siyasi proseslərdə daha fəal iştirak edən Azərbaycan qadınları qarşıdan gələn prezident seçkilərində öz sözünü deyəcək, düzgün seçim edəcəklər.

«Azərbaycan» qəzeti, 28 sentyabr 2003-cü il.

MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ ROMADA QADIN DEPUTATLARIN ÜMUMDÜNYA KONFRANSINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycanın İtaliyadakı səfirliyindən AzərTAc-a bildirmişlər ki, Romada qadın deputatların ikigünlük ümumdünya konfransı öz işini başa çatdırmışdır. İtaliya parlamenti deputatlar palatasının yerləşdiyi Monteçitorio sarayında keçirilən konfransın işində 107 ölkənin qanunverici orqanından 200-dən artıq nümayəndə iştirak etmişdir. Konfransda Azərbaycanı Milli Məclisin sədr müavini Gövhər Baxşəliyeva və Azərbaycan — İtaliya parlamentlərarası işçi qrupunun rəhbəri, deputat Amalya Pənahova təmsil etmişlər. Qadın deputatlar müxtəlif ölkələrdə uşaqların vəziyyətinə, onların hüquqlarının qorunmasına, uşaq əməyinin istismarının qarşısının alınmasına və sair mövzulara dair fikir mübadiləsi aparmış və görüləcək işlərin müştərək planını hazırlamışlar.

«Uşaqlar hərbi münaqişələrdə» mövzusunda ingilis dilində çıxış edən Milli Məclisin sədr müavini **Gövhər Baxşəliyeva** azərbaycanlıları öz tarixi torpaqlarından silah gücünə çıxararaq etnik təmizləmə aparan Ermənistanın Azərbaycana təcavüz etdiyini, qanlı Xocalı soyqırımını törətdiyini diqqətə çatdırmış, ölkəmizə dəymiş maddi və mənəvi ziyan barədə konkret faktlar əsasında ətraflı məlumat vermişdir. Dağlıq Qarabağdan və ona bitişik rayonlardan, eləcə də Ermənistandan silah gücünə qovulmuş azərbaycanlıların böyük əksəriyyətini uşaqlar və yeniyetmələrin təşkil etdiyini söyləyən natiq demişdir ki, işğal nəticəsində minlərlə məktəb və məktəbəqədər tərbiyə müəssisəsi dağıdılmışdır. Həmin məktəblərin şagirdləri on ildən çoxdur ki, dözülməz şəraitdə çadırlarda yaşayır və təhsil alırlar. Çox təəssüf ki, hüquqları pozulmuş bu uşaqların taleyinə beynəlxalq təşkilatların böyük əksəriyyəti biganədir. Bu məsələyə biganə qalmaq olmaz. Azərbaycanlı uşaqların pozulmuş hüquqlarının bərpa olunmasında beynəlxalq öhdəliklər mütləq yerinə yetirilməlidir.

Çıxış konfrans iştirakçılarında dərin maraq doğurmuşdur.

«Xalq qəzeti», 22 oktyabr 2004-cü il.

«ZİYA BÜNYADOVUN ƏSƏRLƏRİNDƏKİ RUH QƏLBLƏRİ TƏLATÜMƏ GƏTİRƏCƏK»

Gövhər Baxşəliyeva: «Ziya Bünyadov Azərbaycanda şərqşünaslıq elminin tərəqqisi üçün qüvvə və bacarığını əsirgəmirdi»

Ötən ilin sonlarında «Nurlan» nəşriyyatı tərəfindən Azərbaycan və rus dillərində nəşr olunan «Akademik Ziya Bünyadov. Biblioqrafiya» kitabı Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.M.Bünyadov adına Şərqşünaslıq Institutunun son və uğurlu nəşrlərindən biridir. İnstitutun Elmi Şurasının qərarı və institutun direktoru, filologiya elmləri doktoru, professor, Milli Məclis sədrinin müavini **Gövhər Baxşəliyevanın** elmi redaktorluğu ilə nəşr edilən bu kitabda 1997-ci ilin fevral ayının 21-də öz evinin astanasında qətlə yetirilmiş mərhum akademik, Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, sabiq millət vəkili, Şərqşünaslıq İnstitutunun keçmiş direktoru Ziya Bünyadovun tərcümeyi-halından, elmi və siyasi fəaliyyətindən, keçdiyi şərəfli həyat yolundan söhbət açılır. Yeri gəlmişkən, cəmi 13 gündən sonra Z.Bünyadovun vəhşicəsinə qətlə yetirilməsinin 8-ci ildönümü tamam olur. Qeyd edək ki, institut adıçəkilən nəşri çapa hazırlayarkən mərhum akademikin əvvəllər dərc edilmiş bütün biblioqrafik göstəricilərini nəzərə alıb, oxucuların diqqətinə çatdırılan bu biblioqrafiya nəşrində Z.Bünyadovun 2003-cü ilədək dərc olunmuş bütün əsərləri öz əksini tapıb. Mərhum alimin elmi fəaliyyəti o qədər çoxşaxəli, o qədər məhsuldar olub ki, yaratdığı şaysız-hesabsız əsərləri bu gün də dünyanın hər yerində alimlərin, elm adamlarının marağına səbəb olur, diqqətini çəkir. Təsadüfi deyil ki, Z.Bünyadovun yaradıcılığına bir an olsun azalmayan marağın kökündə onun işıqlandırdığı və həll etdiyi problemlərin bu gün də aktuallıq kəsb etməsi dayanır. Mərhum akademik özü bu haqda sağlığında belə yazırdı: «Bugünkü təfəkkür gücü dünənkindən alır. Arzu edirəm ki, çoxillik əməyimin nəticələrindən yalnız tarixçilər yox, başqa sahələrin adamları da bəhrələnsinlər, keçmişlə bu günün qəlbləri, təfəkkürləri və ruhları arasındakı qırılmaz əlaqələri təmin etsinlər».

Biblioqrafik nəşrə ön söz yazan professor G.Baxşəliyevanın qeyd etdiyinə görə, dünya şərqşünaslıq elminə ölməz əsərlər bəxş etmiş alimin sağlığında onun əsərlərinin biblioqrafiyası iki dəfə nəşr edilib. Bundan başqa alimin əsərlərinin siyahısı da iki defə dərc olunub. 1999-cu ildə alimin seçilmiş əsərlərinin üçcildlik külliyyatı rus dilində çapdan çıxarkən onun sonuncu cil-

dinə tərtibçi tərəfindən akademikin elmi işlərini əhatə edən 214 addan ibarət qısa biblioqrafik siyahı daxil edilib. G.Baxşəliyevanın yazdığı ön sözdə qeyd olunur ki, son siyahı üzərindəki iş alimin yeni biblioqrafiyasının tərtibi və nəşri problemini üzə çıxardı. Sonuncu biblioqrafiyanın çapdan çıxdığı 1994-cü ildən sonra Z.M.Bünyadovun 70 məqaləsi, 4 tərcümə işi nəşr olunmuş, «Dinlər, təriqətlər, məzhəblər» adlı məlumat kitabı, «Polis məmuru Dümbül bəyin macərası» roman-pamfleti, elmi redaktəsi ilə yeddi kitab işıq üzü görmüşdü. Hazırki nəşr isə daha tam və mükəmməldir: «Biblioqrafiya akademikin 540 əsərini – monoqrafiya, məqalə, tərcümə və sair işlərini əhatə edir, buraya həm də onun haqqında yazılmış 385 məqalə, rəhbərliyi ilə müdafiə olunmuş 35 dissertasiya mövzusu daxil edilib. Yeni tərtib olunmuş biblioqrafiyanın fərqli cəhəti ondadır ki, müxtəlif janrlara və qruplara aid işlər nəşr illərinə görə təqdim edilir. Bu, akademikin yaradıcılıq yolunu onun həyatının keşməkeşlərilə əlaqədə izləməyə imkan verir və alimin yaradıcılıq üslubunun, tərzinin inkişafını, onun nə vaxt hansı mövzuya üstünlük verdiyini nümayiş etdirir». Akademik Z.M.Bünyadovun öz fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslıq məktəbinin şöhrətini ölkənin hüdudlarından çox-çox uzaqlara yayaraq orta əsrlər Şərqi və Ərəb xilafəti, Azərbaycan, Qafqaz və Orta Asiya tarixi üzrə görkəmli mütəxəssis kimi dünyada tanındığını, onun vətəndə və vətəndən kənarda geniş oxucu kütlələrinin rəğbətini və məhəbbətini qazandığını qeyd edən G.Baxşəliyeva yazdığı ön sözdə daha sonra bunları bildirir: «Ziya Bünyadov 21 dekabr 1923-cü ildə Astara şəhərində hərbi tərcüməçi ailəsində anadan olub. O, on altı yaşında ikən Göyçay şəhərində orta məktəbi bitirib və Bakı Hərbi Piyadalar Məktəbinə daxil olmaq üçün yaşını iki il artırıb. Hərbi məktəbi bitirdikdən sonra (1941) leytenant Z.M.Bünyadov Böyük Vətən Müharibəsi cəbhələrində vuruşub, Ukrayna, Moldova, Qafqaz, Belarus, Polşa və həmçinin Berlin uğrunda döyüşlərdə fəal iştirak edib. İki dəfə yaralanıb və kontuziya alıb. Hərbi tapşırığı yerinə yetirərkən göstərdiyi şücaətə, qəhrəmanlıq və igidliyə görə 27 fevral 1945-ci ildə Z.M.Bünyadova Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilib. 1945-ci ilin mayından 1946-cı ilin mayınadək Berlin şəhərinin Pankov rayonunun komendant köməkçisi olan gənc zabit Z.M.Bünyadov Berlinin təsərrüfat və mədəni həyatının bərpa edilməsində fəal iştirak edib. Keçmiş ADR hökuməti Z.M.Bünyadovun əməyini yüksək qiymətləndirərək onu «Vaffenbrudersaft», «Artur Bekker» qızıl medalları və fəxri çekist adı ilə təltif edib. 1946-cı ildə sovet ordusu sıralarından tərxis olunduqdan sonra Z.M.Bünyadov N.Nərimanov adına Moskva Şərqşünaslıq İnstitutuna, 1950-ci ildə isə institutun aspiranturasına daxil olub. Tələbəlik illərində görkəmli sovet ərəbşünası, professor Y.Belyayev onun müəllimi olub.

Böyük şərqşünasla yaxınlıq Ziya Bünyadovun sonrakı fəaliyyətində, onun ərəbşünas və mediyevist kimi formalaşmasında həlledici rol oynayıb. 1954-cü ildə Y.A.Belyayevin rəhbərlik etdiyi kafedrada Z.Bünyadov ilk tədqiqat işi olan «Afrikada İtaliya imperializmi» adlı namizədlik dissertasiyasını müvəffəqiyyətlə başa çatdıraraq uğurla müdafiə edib. 1954-cü ildə Z.M.Bünyadov Bakıya qayıdıb və Azərbaycan EA Tarix İnstitutunda böyük elmi işçi vəzifəsinə qəbul edilib, 1958-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin müəllimi olub. 1964-1981-ci illərdə Z.Bünyadov Yaxın və Orta Şərq Xalqları İnstitutunun Şərqin orta əsrlər tarixi şöbəsinə rəhbərlik edib, 1981-1986-cı illərdə Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində işləyib». G.Baxşəliyeva qeyd edir ki, Z.Bünyadovun elmi yaradıcılığı iki istiqamətdə inkişaf edib: «Yaxın və Orta Şərq ölkələri feodalizm dövrü tarixinin tədqiqi, elecə də Yaxın və Orta Şərq xalqlarının tarixinə, elm və mədəniyyətinə dair orta əsf müəlliflərinin əsərlərinin araşdırılması, izahlı tərcüməsi və nəşri». 1964-cü ildə Z.M.Bünyadov tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün «Azərbaycan VII-IX əsrlərdə» mövzusunda dissertasiya müdafiə edib. 1965-ci ildə SSRİ Ali və Orta Təhsil Nazirliyi nəzdində Ali Attestasiya Komissiyası ona professor adı verib. 1965-ci ildə çap olunan «Azərbaycan VII-IX əsrlərdə» kitabı Z.M.Bünyadova Azərbaycanın orta əsrlər tarixi üzrə ciddi tedqiqatçı və mütəxəssis şöhrəti qazandırıb. Çünki G.Baxşəliyevanın yazdığına görə, bu, Azərbaycan tarixinin ərəb xilafəti dövrünə dair sovet tarixşünaslığında yazılmış ilk tədqiqat əsəri idi. Burada geniş şəkildə tədqiqata cəlb olunmuş ərəb, fars, türk, erməni, gürcü mənbələrinin, o vaxtadək məlum olmayan və çətin əldə edilən yazılı abidələrin dərin tədqiqi və təhlili sayəsində ərəb işğalı ərəfəsində və xilafət dövründə Azərbaycanı sosial-iqtisadi, siyasi həyatı hərtərəfli təhlil olunub, Azərbaycanın orta əsrlər tarixinə dair bir sıra mühüm problemlər ətraflı şəkildə araşdırılaraq öz həllini tapıb: «Əsərdə xilafətə qarşı xalq kütlələrinin mübarizəsinə xüsusi yer verilib, Babəkin başçılıq etdiyi Xürrəmilər hərəkatı geniş şəkildə işıqlandırılıb. 1967-ci ildə Z.Bünyadov Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilib, 1970-ci ildə «Azərbaycan SSRİ Elmlər Akademiyasının Xəbərləri. İctimai elmlər seriyası (tarix, fəlsəfə və hüquq seriyası)» jurnalının baş redaktoru təyin olunub. 1978-ci ildə Bünyadov «Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər)» adlı monoqrafiyasını nəşr etdirib. Alimin çoxillik əməyinin məhsulu olan bu sanballı tədqiqat işində Səlcuq dövründə Azərbaycanın iqtisadi, sosial və mədəni inkişafi araşdırılıb. Kitabda Azərbaycanın o dövrdəki siyasi tarixi məsələləri ilə yanaşı XII əsrin ikinci yarısı – XIII əsrin birinci rübündə Orta Şərqin feodal sülalərinə mənsub hökmdarların qurduğu dövlətlərin,

o cümlədən, Azərbaycan Eldəniz Atabəyləri dövlətinin dövrün siyasi və mədəni həyatında mühüm rol oynadığı göstərilib. Əsərdə həmçinin o dövrdə Qafqazda siyasi şəraiti xarakterizə edən bir çox qjymətli və ilk dəfə elmi dövriyyəyə daxil edilmiş materiallar yerləşdirilib. Z.Bünyadovun «Azərbaycan Atabəylər dövləti» əsəri ölkəmizin və qonşu ölkələrin tarixinin çox az öyrənilən dövrünün araşdırılmasında mühüm mərhələ olduğuna görə elmi ictimaiyyət tərəfindən layiqincə qiymətləndirilib. Əsər 1980-ci ildə elm və texnika sahəsində Azərbaycan Dövlət mükafatına layiq görülüb. 1982-ci ildə Z.Bünyadov türk xalqları tarixinin öyrənilməsində böyük xidmətlərinə görə Türk Tarix Qurumunun müxbir üzvü seçilib. 1986-cı ilin yanvarından 1988-ci ilin mayınadək Z.Bünyadov Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutunun Şərqin orta əsrlər tarixi şöbəsinin müdiri vəzifəsində işləyib. 1988-ci ilin mayında Z.Bünyadov Aral dənizinin xilasetmə komitəsinin tərkibinə daxil edilib. Həmin ildə Urgənc (Xorezm) şəhərinin 340 illiyinin bayram edilməsi ilə əlaqədar olaraq şəhərin tarixi və ədəbiyyatının öyrənilməsi sahəsində xidmətlərinə və Aral dənizinin ekoloji probleminin həll edilməsinə böyük kömək göstərdiyinə görə Z.Bünyadova yeni təsis olunmuş «Urgənc şəhərinin fəxri vətəndaşı» adı verilib, 1988-ci ilin mayından 1990-cı ilədək Azərbaycan SSRİ EA Şərqşünaslıq İnstitutunun direktoru olub. 1988-ci ilin oktyabrında türk xalqları tarixinin öyrənilməsində xidmətlərinə görə Türk Tarix Qurumunun fəxri üzvü, 1990-cı ilin iyununda isə Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti seçilib. 1992-ci ilin oktyabrında yenidən Şərqşünaslıq İnstitutuna rəhbərlik edib. 1990-cı ildə «Qurani-Kərim»in tərcüməsinə görə H.Z.Tağıyev adına mükafata layiq görülüb.

Vitse-spiker yazır ki, 1992-ci ildə Azərbaycanın ən çətin dövründə Z.M.Bünyadov özünün siyasi seçimini edir: «Onu Yeni Azərbaycan Partiyasına sədr müavini seçirlər. 1993-cü ildə «Astaranın fəxri vətəndaşı», 1994-cü ildə isə «Göyçayın fəxri vətəndaşı» adına layiq görülür. 12 noyabr 1995-ci ildə Z.Bünyadov Milli Məclisin deputatı, həmçinin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr məsələləri üzrə parlamentin daimi komissiyasının üzvü seçilir. Eyni zamanda, akademik Z.Bünyadovun Vətən qarşısında xidmətləri dövlət rəhbəriliyi tərəfindən həmişə yüksək qiymətləndirilir: «O, SSRİ-nin bir sıra orden və medalları, Oktyabr inqilabı ordeni ilə təltif edilir. 1983-cü ildə ona elmin inkişaf etdirilməsində əldə etdiyi nailiyyətlərə görə SSRİ XTNS-in gümüş medalı, 1985-ci ildə isə faşist Almaniyası üzərində Böyük Vətən Müharibəsinin 40 illik qələbəsi münasibətilə I dərəcəli Vətən Müharibəsi ordeni verilir. 1998-ci ildə Z.Bünyadov vəfatından sonra Azərbaycanın ən yüksək mükafatı «İstiqlal» ordeninə layiq görülür». G.Baxşəliyeva daha sonra yazır ki,

Z.M.Bünyadovun zəngin biliyi, geniş dünyagörüşü, hədsiz zəhmətsevərliyi və böyük tədqiqatçı istedadı onun qələminə məxsus hər bir əsərdə büruzə verir. «Z.M.Bünyadov ixtisaslı şərqşünas kadrların hazırlanmasında da böyük xidmətlər göstərib. O, Azərbaycanda mediyevist tarixçi ərəbşünaslar məktəbinin banisi və rəhbəri olub. Akademik Z.Bünyadov İraq və Suriya Ərəb Respublikaları üçün yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayıb. 27 namizədlik işinin rəhbəri və məsləhətçisi, 12 doktorluq dissertasiyasının opponenti olub». G.Baxşəliyevaya görə, illər ötəcək, Azərbaycan xalqının dahi oğlu, ölkəmizin layiqli vətəndaşı Z.Bünyadovun xatirəsi qədirbilən xalqımızın, gələcək nəsillərin yaddaşında əbədi yaşayacaq: «Onun insanlara bilik, ziya bəxş edən ölməz əsərlərindəki ruh qəlbləri təlatümə gətirəcək, hər kəsi vətəndaşlıq borcuna – Vətəni sevmeyə, ona vicdanla və sədaqətlə xidmət etməyə çağıracaq. Son nəfəsədək! Ziya Musa oğlu Bünyadov kimi!».

Sonda onu da qeyd edək ki, 2000-ci ildə Bakı şəhərində keçirilən Z.Bünyadovun 75 illiyinə həsr olunmuş «Şərqin aktual probləmləri: tarix və müasirlik» elmi-nəzəri konfransda giriş sözu ilə çıxış edən G.Baxşəliyeva qeyd edir ki, mərhum akademikin həyatı, elmi və ictimai fəaliyyəti o qədər çoxcəhətli və rəngarəngdir ki, bir çıxışla bu barədə bütöv təsəvvür yaratmaq imkan xaricindədir: «...İnstitut direktoru kimi Ziya müəllim böyük-elmi-təşkilati iş aparırdı. O, Azərbaycan şərqşünaslıq elminin tərəqqisi, institutumuzun keçmiş İttifaqın digər şərqşünaslıq institutları və xarici ölkələrin şərqşünaslıq mərkəzləri ilə elmi əlaqələrinin möhkəmlənməsi və genişlənməsi üçün qüvvə və bacarığını əsirgəmirdi».

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 8 fevral 2005-ci il.

MİLLİ MƏCLİSDƏ «BÖYÜK ÖMRÜN DASTANI» KİTABININ TƏQDİMATI

Srağagün Azərbaycan Respublikası Milli Məclisində millət vəkili, «Şöhrət» ordenli xalq şairi Zəlimxan Yaqubun ümummilli liderimiz Heydər Əliyevin həyat yoluna və ictimai-siyasi fəaliyyətinə həsr etdiyi «Böyük ömrün dastanı» kitabının təqdimat mərasimi keçirildi.

Ölkə parlamentinin sədri, professor Murtuz Ələsgərov təqdimat mərasiminə toplaşan millət vəkillərini, ədəbi-mədəni ictimaiyyətin nümayəndələrini və kütləvi informasiya vasitələri təmsilçilərini salamladı, giriş nitqi ilə çıxış etdi:

- Bu gün biz buraya Azərbaycan Respublikasının xalq şairi, Milli Məclisin deputatı Zəlimxan Yaqubun ümummilli liderimiz, möhtərəm Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyi «Böyük ömrün dastanı» kitabının təqdimetmə mərasiminə toplaşmışıq. Mərasim çox əlamətdar bir vaxta - Heydər Əliyevin anadan olmasının 82-ci ildönümü ərəfəsinə təsadüf edir.

Məlum olduğu kimi, ulu öndərimiz Heydər Əliyevə ümumxalq məhəbbətinin təzahürü olan saysız-hesabsız şerlər, poemalar, rəsm əsərləri, nəğmələr həsr olunmuşdur. Bu sənət əsərləri içərisində elə nadir incilər var ki, onlar sənətkarlıq baxımından diqqəti xüsusilə cəlb edirlər. Xalq şairi Zəlimxan Yaqubun «Böyük ömrün dastanı» poeması da belə əsərlərdəndir.

Kitabın ön sözündə Zəlimxan Yaqub deyir: «Bu əsəri mən yazmadım. Ürəyimin qanı, gözlərimin yaşı, ruhumun çırpıntısı, əllərimin titrəyişi, həyəcanlı duyğularımın ləngəri, haqqın sədası, Tanrının hökmü yazdırdı».

Əlbəttə, Heydər Əliyev kimi dahi bir şəxsiyyətin haqqında əsər qələmə almaq sənət adamından son dərəcə böyük məsuliyyət tələb edir. Heydər Əliyevin həyatını, taleyini, dönməz mübarizəsini, xalqına sonsuz məhəbbətini, eyni zamanda düşmənə amansız nifrətini realistcəsinə əks etdirmək müəllifdən, hər şeydən əvvəl, ümummilli liderimizi yaxından tanımaq, onun müqəddəs amalına bələd olmağı tələb edir. Zəlimxan Yaqub kitabının ön sözündə dediyi kimi, o, istər xarici səfərlərdə, istər Azərbaycanda, istərsə də şəxsi görüşlərində Heydər Əliyevi yaxından tanımış, Heydər Əliyev fenomeninə olan ulu sevgisi, güclü rəğbəti, böyük məhəbbəti sayəsində bu əsəri araya-ərsəyə gətirmişdir.

Zəlimxan Yaqubun poeması Heydər Əliyev dühasını bütün çalarlarıyla əks etdirmişdir. Ulu öndərimizin keçdiyi həyat yolu, apardığı mübarizə, Azərbaycan fəlakətin bir addımlığında olanda vətənini, xalqını ağır bəlalardan xilas etməsi, eyni zamanda bir millət atası kimi onun yüksək mənəvi keyfiyyətləri, qayğıkeşliyi əsərdə bədii boyalarla canlandırılmışdır.

«Böyük ömrün dastanı» poemasının «Səndən sonra» adlı hissəsi bu günü-

müzün real güzgüsüdür. Burada şair möhtərəm Prezidentimiz İlham Əliyevdən söz açır, Heydər Əliyevdən bizə əmanət olan Vətənimizin gündən-günə yüksəlişini, dünya miqyasında tanınmasını və daha nurlu sabahını dərin məhəbbət hissi ilə tərənnüm edir.

Hörmətli Zəlimxan müəllimi — respublikamızın xalq şairini «Böyük ömrün dastanı» poemasının işıq üzü görməsi münasibəti ilə bir daha səmimi qəlbdən təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Milli Məclisin üzvlərindən Yeni Azərbaycan Partiyasının icraçı katibi Əli Əhmədov, parlamentin Regional Məsələlər daimi Komissiyasının sədri Zahid Qaralov, Aqrar Siyasət daimi Komissiyasının sədri Eldar İsmayılov, millət vəkilləri Mikayıl Mirzə, Fəttah Heydərov, Həsən Mirzəyev, Milli Məclis sədrinin müavini **Gövhər Baxşəliyeva**, Amaliya Pənahova, Vaqif Abdullayev və Anar Axundzadə kitab barədə fikirlərini bölüşdülər, çıxışlarında müəllifi uğurlu əsəri münasibəti ilə təbrik etdilər. Natiqlər vurğuladılar ki, çağdaş ədəbiyyatımızda öz sözü və yeri olan xalq şairi Zəlimxan Yaqub Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi ən böyük övladlarından birinin — ümummilli liderin, müstəqil Respublikamızı dünyada tanıtdıran siyasi xadimin, ölkəyə uzun müddət rəhbərlik etmiş dövlət başçısının ədəbi obrazını sənətkarlıqla yarada bilmişdir, «Ananın əmanəti», «14 iyul bayramı», «Kremldə keçən ömür», «Naxçıvanda keçən günlər», «Onu zaman çağırdı», «Bakı görüşü», «Heydər «Xalq!» - deyəndə, xalq «Heydər!» - dedi», «Prezident ömrünün son saatları», «Gedən millətdən gedir», «Ata Heydər – Atatürk», «Ölməzlik», «Sənin yerin görünəcək», «Səni Allah qorudu», «Ən böyük abidənin ölməz adı sevgidir», «Budur xalq sevgisi, el məhəbbəti», «Son görüş, son ayrılıq», «Başın sağ olsun, Vətən», «Səndən sonra», «Bu dərdi mən yazmadım», «Minnətdarlıq» kimi hissələrə bölünmüş bu poema - dastanın dərsliklərə salınaraq yeni nəslə öyrədilməsini təklif edən çıxışçılar milli qələm sahiblərimizin Heydər Əliyev mövzusuna bundan sonra da təkrar-təkrar qayıdacaqlarına inamlarını bildirdilər.

Mərasimin sonunda söz alan millət vəkili, xalq şairi Zəlimxan Yaqub tədbirin keçirilməsinə şərait yaratdığına görə Milli Məclisin rəhbərliyinə, Murtuz Ələsgərova, həmçinin məclis iştirakçılarına, ürək sözlərini deyənlərə təşəkkür etdi «Böyük ömrün dastanı» poemasının araya-ərsəyə gəlməsi barədə məlumat verən Z.Yaqub qeyd etdi ki, bu əsərin tarixi 1969-cu ildə - Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbərlik etdiyi vaxta gedib çıxır: «Kitabdakı poetik-epik misralar 15 günə yazılıb, lakin Azərbaycandan kənarda, qonşu Gürcüstanda - Borçalı torpağında yaşadığım illərdən bu yana, yəni 1969-2003-cü illər ərzində içimdə gəzdirdiyim duyğuları qələmə almışam. Ölümünə heç vaxt inanmadı-

ğım, ölümsüzlüyü ilə ömrüm boyu öyünəcəyim bir şəxsiyyətlə bağlı üstümüzü alan, qapımızı döyən qəfil qara xəbər hamı kimi, məni dərindən sarsıtdı. Bu sarsıntılar içində əlimə nə vaxt qələm götürdüyümdən heç özümün də xəbərim olmadı. O vaxt özümə gəldim ki, artıq sonuncu misranı yazıb son hissəni tamamlamışam...

İstər xarici səfərlərdə, istər Azərbaycanda, istər şəxsi görüşlərimizdə ona olan ulu sevgim, güclü rəğbətim, böyük məhəbbətim məni rahat buraxmadı. Yaşadığım kövrək duyğuları, zərif düşüncələri, üzüntülü anları, incə hissləri, çaxnaşmalı məqamları vərəqlərə köçür, şerə, dastana çevir - dedilər...».

Çıxışının sonunda xalq şairi Zəlimxan Yaqub bu mövzu ilə bağlı həyatının sonuna qədər əsərlər yazacağını bildirdi və bu günlərdə «Gənclik» nəşriyyatında – «Azərbaycan lirikası kitabxanası» silsiləsindən işıq üzü görmüş yeni kitabındakı lirik şerlərindən birini söylədi.

A.Əbilov,
«Ədəbiyyat» qəzeti, 29 aprel 2005-ci il.

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

Mayın 18-də Milli Məclis sədrinin müavini **Gövhər Baxşəliyevanın** Rusiya Federasiyasının «Naş Vıbor» Partiyasının sədri İrina Xakamada ilə görüşü keçirildi.

Qonağı səmimiyyətlə salamlayan G.Baxşəliyeva Azərbaycan Respublikasının Milli Məclisi barədə ətraflı məlumat verdi. Daha sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Milli Məclis sədrinin müavini problemin nizamlanması istiqamətində rəsmi Bakının fəaliyyətindən danışdı. Qeyd olundu ki, münaqişə nəticəsində bir milyondan artıq azərbaycanlı doğma yurd-yuvasından didərgin düşmüşdür. Milli Məclis sədrinin müavini bildirdi ki, ölkəmiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdardır.

Son illərdə Azərbaycanda iqtisadi və sosial sahədə həyata keçirilən tədbirlər barədə məlumat verən G.Baxşəliyeva dedi ki, cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkədə 200 minə yaxın yeni iş yeri açılmışdır. Ümumiyyətlə isə beş ildə Azərbaycanda 600 min yeni iş yerinin açılması nəzərdə tutulur. Milli Məclis sədrinin müavini ölkədə regionların və sahibkarlığın inkişafı, yoxsulluğun aradan qaldırılması üzrə dövlət proqramlarının uğurla həyata keçirildiyini söylədi.

Səmimi qəbula görə minnətdarlığını bildirən Rusiya Federasiyasının «Naş Vıbor» Partiyasının sədri İrina Xakamada dedi ki, onun rəhbərlik etdiyi partiya Rusiyada milli azlıqların problemləri ilə yaxından maraqlanır. O, Rusiyanın ictimai-siyasi həyatı ilə bağlı ətraflı məlumat verdi.

Sonda rusiyalı qonaq Azərbaycanda parlament seçkisi ərəfəsində mövcud ictimai-siyasi vəziyyətlə maraqlandı. Bu barədə məlumat verən G.Baxşəliyeva bir neçə gün əvvəl dövlət başçısı cənab İlham Əliyevin seçki praktikasının təkmilləşdirilməsinə dair sərəncam imzaladığını və Azərbaycan hakimiyyətinin parlament seçkisinin şəffaf və ədalətli keçirilməsində maraqlı olduğunu söylədi.

«Azərbaycan» qəzeti, 19 may, 2005-ci il.

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

Dünən Milli Məclisin Sosial siyasət daimi komissiyasında «Nur» Uşaq və Gənclər İctimai Birliyinin üzvləri ilə görüş keçirilmişdir. Görüşdə məqsəd gələcəkdə uşaq hüquqları ilə bağlı qanunların qəbul edilməsi prosesində uşaq və gənclər təşkilatının nümayəndələrinin iştirakını təmin etmək idi.

Komissiya sədri Hadi Rəcəbli xatırlatmışdır ki, parlamentdə uşaq hüquqları ilə bağlı mühüm qanunlar qəbul edilmişdir. Azərbaycan uşaqların hüquqları ilə əlaqədar beynəlxalq konvensiyaya da qoşulmuşdur. O həmçinin bildirmişdir ki, son iki ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə uşaq yaradıcılığı gecələri, uşaq rəsm sərgiləri təşkil edilmişdir.

Görüşdə iştirak edən Milli Məclis Sədrinin müavini **Gövhər Baxşəliyeva** demişdir ki, qanunverici orqanda belə görüşlərin keçirilməsi çox önəmlidir. Romada uşaq hüquqlarına həsr edilmiş beynəlxalq konqresdə iştirakından söz salan G.Baxşəliyeva bildirdi ki, həmin konqresdə çox ciddi şəkildə belə bir fikir irəli sürüldü ki, uşaqlar əsir götürülməməli, münaqişələrdə əziyyət çəkməməlidirlər. Deputatlardan Məlahət Həsənova və Vəsadət Əzizov uşaqların hüquqlarının müdafiəsi məqsədilə Azərbaycan hökumətinin bu sahədə gördüyü digər tədbirlərdən danışdılar.

«Nur» Uşaq və Gənclər İctimai Birliyinin rəhbəri Sevinc Məsiyeva öz işləri barədə məlumat verərək dedi ki, təşkilat fəaliyyətə başladığı gündən ətrafına müxtəlif məktəblərdən fəal, əlaçı uşaqları cəlb etmiş, 2001-ci ildə dünyanın ən fəal uşaq birliyi adına layiq görülmüşdür. O, parlamentdə uşaq hüquqları ilə bağlı qanunların qəbul edilməsi prosesində onların iştiraklarının təmin edilməsini müsbət qiymətləndirdi.

Təşkilatın üzvlərindən Aytəkin Əsgərova, Nigar Məmmədli və Nurlanə Əsgərova çıxış edərək bu məsələ ilə bağlı fikirlərini söylədilər.

«Azərbaycan» qəzeti, 27 may 2005-ci il.

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

İyunun 3-də Milli Məclis Sədrinin müavini **Gövhər Baxşəliyeva** Sloveniya parlamentinin üzvü, Sloveniya Milli Partiyasının prezidenti, Sloveniya Respublikasının Qərbi Avropa Birliyində nümayəndəliyinin rəhbəri Zmaqo Yelinçiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları salamlayan G.Baxşəliyeva bildirdi ki, Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra böyük inkişaf yolu keçmişdir. Hazırda hüquqi və dünyəvi dövlət quruculuğu prosesini davam etdirən Azərbaycan Avropa strukturlarına uğurla inteqrasiya edir. Bu günlərdə Avropaya İnteqrasiya üzrə Dövlət Komitəsinin yaradıldığını xatırladan Milli Məclis Sədrinin müavini buna müvafiq olaraq Azərbaycanın sözügedən qurumla əlaqələrinin inkişaf etdirilməsinin nəzərdə tutulduğunu söylədi.

Azərbaycan parlamenti haqqında qonaqlara məlumat verən G.Baxşəliyeva bu ilin payızında Milli Məclisə növbəti seçkilərin keçiriləcəyini qeyd etdi.

Nümayəndə heyətinin rəhbəri Zmaqo Yelinçiç ölkəmizə Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının dəvəti ilə səfərə gəldiklərini dedi. Onun sözlərinə görə, səfər Azərbaycanı daha yaxından öyrənməyə və ölkə haqqında düzgün məlumatları Avropaya çatdırmağa kömək edəcəkdir. Z.Yelinçiç bildirdi ki, vaxtilə Azərbaycana gəlmiş nümayəndə heyətinin isveçrəli bir üzvü ölkəmiz haqqında həqiqətə uyğun olmayan hesabat hazırlamışdı. Nümayəndə heyətinin rəhbəri dedi ki, yaxın vaxtlarda Sloveniyanın xarici işlər naziri və NATO-nun Baş katibi ilə keçirəcəyi görüşlərdə bu barədə ətraflı məlumat verəcəkdir. Qonaq parlament seçkilərinə toxunaraq bildirdi ki, ATƏT-dən seçkini müşahidə etmək üçün gələcək qrupa Azərbaycanı sevən şəxs rəhbərlik etməlidir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunmuşdur.

«Azərbaycan» qəzeti, 4 iyun 2005-ci il.

«İSLAMDA DÖZÜMLÜLÜK» MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS KEÇİRİLMİŞDİR

Mayın 15-16-da Şərqşünaslıq İnstitutu AMEA Rəyasət Heyəti və Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə «İslamda dözümlülük» mövzusunda beynəlxalq elmi-nəzəri konfrans keçirmişdir. Konfransda Türkiyə və Azərbaycan alimləri, mütəxəssislər, din xadimləri, islam ölkələrinin səfirləri iştirak etmişlər.

Plenar iclası AMEA-nın prezidenti, akademik Mahmud Kərimov açaraq qeyd etmişdir ki, müzakirəyə çıxarılmış mövzunun dərin tarixi kökləri vardır. XXI əsrin başlanğıcında elm, texnika və texnologiyaların, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi bir dövrdə dinlər, o cümlədən islam dini dünyada gedən siyasi-iqtisadi, sosial və mədəni proseslərdə əhəmiyyətli rol oynamaqda davam edir. Bugünkü konfransda «İslamda dözümlülük» mövzusunun alim və tədqiqatçıların, din xadimlərinin müzakirəsinə çıxarılması son dərəcə əhəmiyyətli görünür. «İslamda dözümlülük» mövzusu Azərbaycan şəraitində də elmi əhəmiyyət daşıyır. Xalqımızın mənəvi dəyərlərinin əsasında islam durur. Amma azərbaycanlılar həmişə özgə dinlərə də hörmətlə yanaşmağı, dözümlülük göstərməyi bacarmışlar, çünki dözümlülük islamın ən mühüm dəyərlərindəndir.

Akademik M.Kərimov bildirmişdir ki, ümummilli liderimiz Heydər Əliyev deyərdi ki, «başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapmışdır. Azərbaycanda islam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Hesab edirik ki, insanlar hansı dinə, mədəniyyətə mənsubluğundan asılı olmayaraq bütün başqa mədəniyyətlərə, dinlərə mənəvi dəyərlərə də hörmət etməlidirlər». Dini dözümlülük siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən xüsusi qayğı ilə dəstək tapır.

Milli azlıqlar və dini qurumlarla iş üzrə dövlət müşaviri Hidayət Orucov, Misir Ərəb Respublikasının ölkəmizdəki səfiri Yusif Əhməd İbrahim əl-Şarkavi, Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfiri Əli Həsən Əhməd Cəfər təbrik sözü söyləmiş, konfransın işinə uğur arzulamışlar. Hidayət Orucov Azərbaycanda tolerantlıq mövzusunda beynəlxalq simpozium keçirilməsini təklif etmişdir. Onun sözlərinə görə, bu, tolerant Azərbaycan cəmiyyəti haqqında beynəlxalq aləmdə geniş təsəvvür yaradardı.

Konfransda Şərqşünaslıq İnstitutunun direktoru, professor **Gövhər Baxşəliyeva** «Qloballaşma dövründə dinlərarası dialoq və dini dözümlülük»

mövzusunda məruzə etmişdir. Məruzədə qeyd olunmuşdur ki, müasir dövrdə qloballaşma prosesləri, hər şeydən əvvəl, beynəlxalq əlaqələrin güclənməsi, ölkələr arasında kommunikasiyanın genişlənməsi, ayrı-ayrı xalqların mədəniyyətlərində ümumi elementlərin artması ilə səciyyələnir. Bütün dinlərdə dözümlülüyə çağırış vardır. Bu çağırış dinlərarası dialoq işində ən yararlı vasitə kimi geniş təbliğ edilməlidir. Bu dözümlülüyün əsas prinsipi isə o olmalıdır ki, hər bir cəmiyyətin və fərdin bu və ya digər əqidəni, həyat tərzini seçmək haqqı vardır. Bu haqqa qarşı zor işlədilməsi yolverilməzdir. Yalnız bu prinsiplərə əməl edildiyi təqdirdə biz üçüncü minillikdə sivilizasiyalararası və dinlərarası dialoqun davam etdiriləcəyinə ümid bəsləyə bilərik.

Məruzəçi təəssüflə vurğulamışdır ki, son illər Qərb ictimai fikrində islam haqqında dialoqa hazır olmayan, dözümlülük nümayiş etdirməyən, qəddarlığa çağıran bir din kimi təsəvvür yaradılmışdır. Lakin islam mənbələrinə, Quran və hədislərə ani bir nəzər salaraq qətiyyətlə demək olur ki, bu din həqiqətən dialoq dinidir. Əsrlər boyu islam mütəfəkkirləri həmin mənbələrə istinadən bu dinin təklif etdiyi dialoqun əsaslarını işləyib hazırlamışlar.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, tarix elmləri doktoru, professor Şeyxülislam Allahşükür Paşazadə «Azərbaycan dünyada tolerantlıq örnəyi kimi» mövzusunda çıxış edərək bildirmişdir ki, bu elm ocağında islamda dözümlülük mövzusunu müzakirə etmək məqsədilə toplaşmışıq. İslamda din ilə elm arasında ayrılıq yoxdur və din ilə elm bir-birini tamamlayır. Din adamı elmin müxtəlif məsələləri ilə məşğul olduğu kimi, elm adamı da ürəyində Allaha dərin etiqad bəsləyən mömin müsəlman ola bilər. Bu xüsusiyyət islamın öz mahiyyətindən doğur. Allahın birliyinə etiqad təbliğ edən islam həqiqəti Allahın öz bəndəsi olan insana bəxş etdiyi iman və biliyin vəhdətində görür. İslam dünyası orbitinə daxil olan Azərbaycanda zərdüştilər, yəhudilər və xristianlar öz dini etiqadlarını qoruyub saxlaya bilmişlər. Bütün bunlar ölkədə güclü tolerantlıq ənənələrinin təşəkkül tapmasına və ictimai şüurda bərqərar olmasına gətirib çıxarmışdır. Bu ənənələr bu gün də davam etməkdədir.

A.Paşazadə konfrans iştirakçılarının diqqətini ölkəmizin dünyada tolerantlıq nümunəsi olmasına cəlb etmişdir. O demişdir ki, Azərbaycan müxtəlif dinlərin daşıyıcıları arasında dözümlülük münasibətləri ilə bağlı zəngin təcrübəyə malikdir. Dini dözümlülük, tolerantlıq mədəniyyət deməkdir, yüksək tolerantlıq isə yüksək mədəniyyətdən irəli gəlir. Tarixən dözümlülük ənənələrinə malik olan müstəqil Azərbaycanda demokratik prinsiplərə söykənərək öz əqidəsində yaşayan bütün xalqlara dilindən, dinindən, milliyyətindən asılı olmayaraq eyni azadlıqlar, hüquqlar verilmişdir. Bu, bütün bəşəriyyət üçün gözəl örnəkdir.

Konfransda AMEA-nın müxbir üzvü, professor Vasim Məmmədəliyevin «İslam sülh, əmin-amanlıq və dözümlülük dinidir», Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Salman Musayevin «İslamda dözümlülük müxtəlif əqidələrin dinc yanaşı yaşama üsulu kimi», Mərmərə Universiteti ilahiyyat fakültəsi, tədris və təməl islam elmləri bölməsinin rəhbəri, professor Cəlal Ekbayın «İslam və dözümlülük», BDU-nun professoru Ömər Aslanın «İslam sadəcə tolerantlıq və itaət deyil, eyni zamanda dözümlülük dinidir», BDU-nun ilahiyyat fakültəsi islam elmləri kafedrasının professoru Hasan Çiritin «Quran və sünnədə dözümlülüyün əsasları», fəlsəfə elmləri namizədi E.Həsənovanın «İslamda dözümlülük məsələlərinə dair» və başqalarının məruzələri də maraqla dinlənilmişdir.

Natiqlər öz məruzələrində qeyd etmişlər ki, dinimiz tarix boyu insan şəxsiyyətinə hörmət bəsləmiş, insanlar arasında sülh, dözümlülük, tolerantlıq kimi ali məfhumların bərqərar olması üçün lazım olan hər şeyi etmişdir. Həmin humanist ənənə bu gün də davam edir. Tarixi faktlar bir daha sübut edir ki, islam dövlətçiliyində dözümlülük ənənələri güclü olmuşdur. Bu gün bu ənənələr düzgün münasibətlərin inkişafına kömək edə bilər.

«Elm» qəzeti, 16 iyun 2006-cı il.

İSLAM KONFRANSI TƏŞKİLATI NÖVBƏTİ DƏFƏ ERMƏNİ TƏCAVÜZÜNÜ PİSLƏDİ

Gövhər Baxşəliyeva: «Terror aktlarında dinlə bağılıq axtaranlardan fərqli olaraq, biz ermənilərin törətdiyi vəhşiliklərə bu mövqedən yanaşmırıq»

Ötən həftə, ayın 7-dən 13-nə qədər Türkiyənin İstanbul şəhərində İslam Konfransı Təşkilatı Parlament İttifaqının (İKT Pİ) dalbadal 3 tədbiri keçirilib. Ayın 8-9 İKT İcraiyyə Komitəsinin iclası, 10-11-də İKT Pİ-nin 7-ci sessiyası, 12-13-də isə İKT Pİ-nin IV konfransı keçirilib. Hər üç tədbirdə Azərbaycanı Milli Məclisin (MM) İKT Pİ-dəki daimi nümayəndə heyətinin üzvləri - professor **Gövhər Baxşəliyeva,** Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) sədri Sabir Rüstəmxanlı, Azərbaycan Sosial Rifah Partiyasının (ASRP) sədri Xanhüseyn Kazımlı, millət vəkili Cavanşir Paşazadə və parlamentin əməkdaşı Aynur Nurəhmədova təmsil edib. Bu haqda «525»-in müxbirilə söhbətində Azərbaycanın İKT Pİ-dəki daimi nümayəndə heyətinin rəhbəri, millət vəkili Gövhər Baxşəliyeva məlumat verib. Qeyd edək ki, İKT-yə 58 müsəlman dövləti üzv olsa da, sözügedən təşkilatın Parlament İttifaqında cəmi 47 ölkənin nümayəndə heyəti təmsil olunur. Onu da bildirək ki, hər üç tədbirdə 47 ölkənin 20-nin nümayəndə heyətinə həmin ölkələrin parlament sədrləri, yerdə qalanlara isə vitse-spikerlər və millət vəkilləri rəhbərlik ediblər. Hər üç tədbirdə iştirak etdiklərini və müzakirə olunan bütün məsələlər barədə öz mövqelərini ortaya qoyduqlarını deyən G.Baxşəliyevanın sözlərinə görə, bununla belə, sessiyanın materiallarında Azərbaycanla, xüsusilə Dağlıq Qarabağ məsələsilə bağlı heç bir məqam əksini tapmayıbmış. Bunun nümayəndə heyətinin üzvlərində böyük təəssüf hissi doğurduğunu deyən sabiq vitse-spiker sessiyanın gedişi zamanı söz alaraq azərbaycanlı parlamentarilər adından narahatçılıqlarını qeyd etdiyini dilə gətirib: «Qeyd edim ki, sessiyanın gündəliyinə, onun materiallarına müsəlman ölkələrində baş verən proseslər, xüsusilə də İraq, İran, Kəşmir, Kipr, Fələstin məsələləri salınsa da, Azərbaycan haqda bir kəlmə belə olsun söz salınmamışdı. Odur ki, mən söz alıb deputatlarımız adından narahatçılığımızı bildirdim və bundan sonra bizə dedilər ki, təkliflərinizi gözləyirik. Biz də qısa bir zamanda öz təkliflərimizi hazırlayıb Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) ilə razılaşdırdıq, sonra onlar sessiya iştirakçılarına paylandı və sessiyanın materiallarına salındı. Nəzərinizə çatdırım ki, həmin 3 bəndlik sənəddə Azərbaycanın Ermənistanın təcavüzünə məruz qalması, 1 milyondan artıq qaçqın-köçkün ordusunun yaranması, ümumiyyətlə, bu məsələdə Azərbaycanın mövqeyinin

dəstəklənməsi öz əksini tapıb. Yəni, İKT Parlament İttifaqı bir daha Ermənistanın təcavüzkar dövlət olduğunu və münaqişənin sülh yolu ilə həllinə tərəfdar çıxdığını bəyan edib». G.Baxşəliyevanın qeyd etdiyinə görə, tədbirin sonuncu iki günü, yəni, ayın 12-13-də İKT Pİ-nin IV konfransı keçirilib ki, həmin tədbirə sədrliyi Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Bülent Arınc edib. Ümumiyyətlə, bu tədbirə Türkiyənin prezidenti Əhməd Necdət Sezər, baş nazir Rəcəb Tayyib Ərdoğan, o cümlədən Misir Ərəb Respublikasının ali qanunvericilik orqanın Alt Palatasının sədri İbrahim Əhməd Auf da qatılıb və onlar konfrans iştirakçıları qarşısında məruzə ediblər. Bununla yanaşı, tədbirdə BMT-nin baş katibi Kofi Annanın təbrik məktubu oxunub. Vaxt az olduğu üçün, konfransda cəmi 10-l5 nəfərə söz verildi ki, bunlardan biri də mən idim. Mən terrorizmlə, eləcə də qloballaşma və sivilizasiyalararası dialoqla bağlı iki məruzə hazırlasam da, onları birləşdirib bir məruzə ilə çıxış etdim. Mən çıxışım zamanı bildirdim ki, artıq 15 ildir Azərbaycanın qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalması nəticəsində torpaqlarımızın 20 faizi işğal edilib, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaşayır. Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Dağlıq Qarabağ və digər yeddi rayonda qədim mədəniyyət abidələri məhv edilib, məscidlər dağıdılıb, müsəlman məzarları təhqir olunub, müsəlman sivilizasiyasının izləri silinib. Hərbi təcavüz və etnik təmizləmə nəticəsində 20 mindən çox azərbaycanlı öldürülüb, 50 mindən çox adam əlil olub, dörd mindən çox adam əsir və itkin düşüb, girov götürülüb. Azərbaycanda erməni terrorçularının törətdikləri 30-dan artıq terror aktları nəticəsində iki mindən çox insan günahsız Azərbaycan vətəndaşı qətlə yetirilib, on minlərlə insan xəsarət alıb. Tədbir iştirakçılarının nəzərinə çatdırdım ki, dünyada terror aktlarında dinlə bağlılıq axtaranlardan fərqli olaraq, biz ermənilərin törətdikləri vəhşiliklərə bu mövqedən yanaşmırıq, çünki terrorçuluğun dini kökləri yoxdur. Çıxışım zamanı onu da qeyd etdim ki, məsələn, Ermənistan Azərbaycana qarşı terrorizm fəaliyyəti üçün bir sıra xarici dövlətlərin vətəndaşlarını cəlb edir, onların işğal olunmuş torpaqlarda hərbi hazırlığını, maliyyə və texniki yardımını təşkil edir. Ümumiyyətlə, erməni terrorizmi öz fəaliyyəti dövründə dünya miqyasında məşhurlaşmış bir çox tanınmış terrorçu təşkilatlar ilə sıx əməkdaşlıq edir. Qloballaşma və sivilizasiyalararası dialoqa gəlincə isə bildirdim ki, dialoqun monoloqa çevrilməməsi və qarşılıqlı faydalı olması üçün dialoq qarşı tərəfi öz mövqeyindən döndərmək məqsədi güdməməli, tərəflər arasında fərqli və ixtilaflı məsələlərin deyil, müştərək məsələlərin ön plana çəkilməsinə üstünlük verməli, zora və təzyiqə söykənməməlidir».

G.Baxşəliyeva onu da qeyd edib ki, həm sessiyanın, həm do konfransın ye-

kunu olaraq «Boğaziçi deklarasiyası» və «İstanbul deklarasiyası» qəbul olunub. Həmçinin, onun özü İKT Pİ-nin mədəni və sosial məsələlər üzrə komitəsinə, X.Kazımlı iqtisadi məsələlər üzrə komitəsinə, G.Paşazadə isə insan hüquqları komitəsinə üzv seçiliblər. Bundan başqa X.Kazımlı ilə o özü İKT Pİ-nin Şurasına üzv seçiliblər.

«525-ci qəzet», 18 aprel 2006-cı il.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN DEPUTATI GÖVHƏR XANIM BAXŞƏLİYEVA BÖYÜK LİVİYA SOSİALİST XALQ ƏRƏB CƏMAHİRİYYƏSİNƏ SƏFƏR ETMİŞDİR

Milli Məclisin Azərbaycan-Liviya dostluq qrupunun rəhbəri **Gövhər** xanım **Baxşəliyeva** və Milli Məclis Aparatının Beynəlxalq münasibətlər şöbəsinin böyük məsləhətçisi Aynur Nurəhmədova Liviya Ümumxalq Konqresinin Xarici əlaqələr üzrə katibi cənab Suleyman Əl-Şhuminin dəvəti ilə 2006-cı il 6-11 sentyabr tarixlərində Liviyada səfərdə olmuşlar.

2006-cı il sentyabrın 6-da Liviyanın Tripoli şəhərində Gövhər xanım Baxşəliyeva cənab Suleyman Əl-Şhumi tərəfindən qəbul edilmişdir. Görüş zamanı hər iki tərəf ölkələri və təmsil etdikləri qurumlar haqqında məlumat vermiş, qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmiş və Liviya konqresi ilə Azərbaycan parlamenti arasında əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduqlarını bildirmişlər.

Sentyabr ayının 7-də G.Baxşəliyeva Böyük Liviya Sosialist Xalq Ərəb Cəmahiriyyəsinin Sosial məsələləri üzrə naziri xanım Bakhita Abdelalim Alşelvi ilə görüşmüş, qadın, uşaq və əlillərin sosial problemlərini müzakirə etmişdir. Həmin gün o XİN-nin Asiya məsələləri üzrə müavini cənab Mohammed Ömər Əl-Barani tərəfindən qəbul edilmişdir. Görüşdə ölkələrin ikitərəfli və İslam Konfransı Təşkilatı çərçivəsindəki əlaqələri müzakirə edilmişdir.

Sentyabrın 8-də Liviyanın tarixi abidəyə çevrilmiş qədim Sabrata şəhəri ilə tanışlıq, sentyabrın 9-da Liviyanın Sırt şəhərində bir sıra Afrika ölkələri prezidentlərinin iştirakı ilə Afrika İttifaqının yaradılmasının 7-ci ildönümünə həsr olunmuş təntənəli iclas və mədəni tədbirlərdə iştirak, sentyabrın 10-da isə Tripolidə yerləşən universitet, muzeylər və tarixi abidələrlə tanışlıq təşkil edilmişdir.

Liviya Ərəb Xalq Cəmahiriyyəsi Azərbaycan Respublikasının müstəqilliyini 30 dekabr 1991-ci ildə tanıyan ilk dövlətlərdən biri olmuşdur.

1992-ci ilin mart ayında Liviya ilə Azərbaycan arasında diplomatik əlaqələr yaradılmışdır.

Liviyaya beynəlxalq sanksiyaların tətbiq edilməsindən sonra Azərbaycan nümayəndə heyətinin 2006-cı ilin 6 sentyabr tarixində Tripoliyə səfəri siyasi dairələr, yerli KİV və ümumən ictimaiyyətin diqqətindən yayınmış, ölkəmiz və xalqımız haqqında müsbət rəyin formalaşmasına və rəğbətə səbəb olmuşdur.

Göstərilən səfər Afrika qitəsinin aparıcı dövlətlərindən və ərəb aləmində nüfuz sahibi olan Liviyada Azərbaycan Respublikasının mövqeyinin bu bölgənin siyasi-ictimai dairələrinə çatdırılması üçün əhəmiyyət kəsb etmişdir. Liviya XİN-i səviyyəsində Azərbaycanın mövqeyinin bu dövlət tərəfindən

beynəlxalq təşkilatlar, BMT və İKT çərçivəsində dəstəkləndiyi və bundan sonra da dəstəklənəcəyi təsdiq edilmiş, beynəlxalq təşkilatlarda qarşılıqlı-faydalı əməkdaşlığın davam etdirilməsi qərara alınmışdır.

Liviya Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq üzrə Ümumxalq komitəsinin siyasi işlər üzrə köməkçi katibi (Xarici İşlər Nazirinin birinci müavini) Səad Mustafa Mucbirin başçılıq etdiyi nümayəndə heyəti 2000-ci ilin 16-20 noyabr tarixlərində Azərbaycanda işgüzar səfərdə olmuşdur. Səfər zamanı S.N.Mucbir Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmiş, nümayəndə heyətinin Milli Məclisin Sədri M.Ələsgərov, Baş Nazir A.Rasizadə, Xarici İşlər Naziri V.Quliyev, İqtisadiyyat Naziri N.Nəsrullayev, Təhsil Naziri M.Mərdanov, Xarici İşlər Nazirinin müavini X.Xələfov, Dövlət Neft Şirkəti Prezidentinin müavini X.Yusifzadə və Qafqaz Müsəlmanları İdarəsinin Sədri Şeyxülislam A.Paşazadə ilə görüşləri keçirilmişdir. Görüşlər zamanı müxtəlif sahələrdə Azərbaycan-Liviya əməkdaşlığı məsələləri müzakirə olunmuşdur.

Siyasət, iqtisadiyyat, ticarət, elm, texnika və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi məqsədilə Azərbaycan və Liviya arasında 16 mart 1992-ci il tarixində Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında müştərək Saziş imzalanmışdır. Azərbaycan Prezidentinin 27 sentyabr 2003-cü il tarixli, 1342 saylı Sərəncamına əsasən Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiya təsis olunmuşdur. Liviya tərəfindən bir neçə dəfə Müştərək Komissiyaya həmsədr təyin olunmuş və 2000-ci ilin yanvar ayından bu səlahiyyətlər Liviya Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq üzrə Ümumxalq Komitəsinin mədəniyyət, informasiya və əməkdaşlıq üzrə köməkçi katibi (Xarici İşlər Nazirinin müavini) Həssuna əş-Şəvuşa həvalə edilmişdir. Komissiyanın Azərbaycan tərəfindən həmsədri Xarici İşlər Nazirinin müavini X.Xələfov təyin edilmişdir.

Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın təşkil olunması haqqında Saziş ilə yanaşı Azərbaycan ilə Liviya arasında 1992-ci ildə mədəni əməkdaşlıq sahəsində saziş və ticarət müqaviləsi imzalanmışdır.

Hazırda Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın birinci iclasının keçirilməsi ilə əlaqədar hazırlıq işləri aparılır ki, bu da Azərbaycan-Liviya əlaqələrinin inkişafda olduğunu göstərir.

«525-ci qəzet», 25 sentyabr 2006-cı il.

GÖRKƏMLİ ŞƏRQŞÜNAS-ALİM AİDA İMANQULİYEVANIN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLMİŞDİR

AzərTAc xəbər verir ki, oktyabrın 11-də Beynəlxalq Mətbuat Mərkəzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə görkəmli şərqşünas-alim, tərcüməçi, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir.

Mərasimdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru **Gövhər Baxşəliyeva**, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ağamusa Axundov, AMEA-nın müxbir üzvü Vasim Məmmədəliyev, filologiya elmləri doktoru Vilayət Cəfərov, respublikanın baş psixiatrı Ağabəy Sultanov və başqaları Aida İmanquliyevanın həyat və elmi fəaliyyətindən danışmış, bu gözəl insanla bağlı xatirələrini diqqətə çatdırmışlar. Bildirilmişdir ki, heç kimə, heç nəyə məhəl qoymadan, su kimi axıb-gedən vaxtın, zamanın içində Aida xanımın da öz vaxtı var idi. Bu kəşməkeşli dünyada cəmi 53 il yaşamasına baxmayaraq, qədrini bildiyi və hər anından bəhrələndiyi vaxtın yaddaşında əbədi yer almış, böyük yadigarlar qoyub getmişdir.

Bakı Dövlət Universiteti şərqşünaslıq fakültəsi ərəbşünaslıq qrupunun ilk tələbələrindən biri olmuş Aida xanım Moskvada Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturada təhsil alaraq «Qələmlər Birliyi» və «Mixail Nuaymənin yaradıcılığında onun rolu» mövzusunda namizədlik dissertasiyasını müdafiə etdikdən sonra, ardıcıl, davamlı çalışmaları onu respublikamızın şərqşünaslıq məktəbinin görkəmli nümayəndələrindən birinə çevirmişdir.

Natiqlər Aida İmanquliyevanın keçmiş SSRİ-də yeni ərəb ədəbiyyatı kursunun əsas yaradıcılarından biri olduğunu, ərəb ədəbiyyatının ən ciddi tədqiqatçısı kimi tanındığını diqqətə çatdırmışlar. Qeyd edilmişdir ki, həyatını Azərbaycan elminin inkişafına həsr etmiş görkəmli ictimai xadim qısa ömrünün sonlarında təşkilatçılıq qabiliyyətini də göstərmiş, Şərqşünaslıq İnstitutunun direktoru işlədiyi dövrdə bu elm ocağının daha da təkmilləşdirilməsinə öz töhfəsini vermişdir.

Görkəmli şərqşünas-alim, ərəb mühacir ədəbiyyatının tədqiqatçısı, əsil vətəndaş, gözəl insan, fədakar ana olmuş Aida xanım İmanquliyevanın xatirəsinin əbədiləşdirilməsinin vacibliyini vurğulayan natiqlər bildirmişlər ki, elmdə qazandığı nüfuzu, dəyərini itirməyən elmi irsi, yaddaşlarda qalan xatirələri, vətəndaşlıq mövqeyi ilə seçilən övladları onu zamanın pozulmaz səhifələrində artıq əbədiləşdirmişlər.

Aida xanım İmanquliyevanın qızı, filologiya elmləri doktoru, professor

Nərgiz Paşayeva anasının xatirəsinə həsr olunmuş, olduqca səmimi keçmiş tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirmişdir.

Mərasimdə Azərbaycan Prezidenti katibliyinin rəisi Dilarə Seyidzadə və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri akademik Arif Mehdiyev iştirak etmişlər.

«Ədəbiyyat qəzeti», 13 oktyabr 2006-cı il.

MİXAİL KEMPER: «QƏRBDƏ DAİM AZƏRBAYCANA BÖYÜK BİR MARAQ OLUB»

Azərbaycan Milli Elmlər Akademiyasının Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda Sent-Lourens Universitetinin professoru Mixail Kemperlə görüş keçirilib.

Mərasimi Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, professor **Gövhər Baxşəliyeva** açaraq görüş iştirakçılarını ABŞ-ın Sent-Lourens Universitetinin Mərkəzi Asiya tarixi kafedrasının əməkdaşı, islamşünas və ərəbşünas alim M.Kemperlə tanış edib. Qeyd olunub ki, «1789-1889-cu illərdə Tatarıstan və Başqırdıstanda sufilər və üləmalar: rus hakimiyyəti dövründə islam haqqında mübahisələr» mövzusu üzrə doktorluq dissertasiyasını müdafiə edən M.Kemper son dövrlərdə «Türkiyədə Bektaşi təriqəti və mənaqibnamələri» mövzusu üzərində işləməkdədir. 2005-ci ildə «Dağıstanda siyasi hakimiyyət, hüquq və islam: xanlıqlar və kənd icmalarından imamət dövrünə qədər» adlı kitabı işıq üzü görüb. O, həmçinin Almaniyada və Qazaxıstanda nəşr edilmiş bir neçə kitabın redaktoru olub. Folksfagen Fondunun sponsorluq etdiyi «XVIII-XX əsrlərdə islam» adlı beynəlxalq araşdırma layihəsinin iştirakçısıdır.

Sonra «Qərbin elmi mərkəzlərində islamşünaslıq və Azərbaycanşünaslıq araşdırmalarının müasir vəziyyəti» adlı məruzə ilə çıxış edən qonaq vurğulayıb ki, Qərbdə daim Şərqə böyük maraq duyulub və hər hansı bir qərblinin təsəvvüründə Şərq əsrarəngiz, ekzotik bir dünya kimi mövcud olub: «Təbii ki, Qərb dünyası bu əsrarəngliyi daha yaxşı anlamaq və ələ keçirmək üçün onu araşdırmağa ehtiyac duyub. Avropada şərqşünaslıqla bağlı aparılan ilk araşdırmalar da bu məqsədi daşıyıb. Bu baxımdan Edvard Səidin «Orientalizm» kitabı böyük hay-küyə səbəb olub. Şərqşünaslıqla bağlı aparılan tədqiqatlarda daha böyük uğur qazanmaq üçün çox vaxt yerli alimlərdən də istifadə edilib, onlarla əməkdaşlıq qurulub. Məlumdur ki, xüsusilə rus şərqşünaslığında müsəlmanlar özləri də iştirak ediblər. Məşhur şərqşünas alim Mirzə Kazım bəyin adını xüsusən vurğulamaq gərəkdir. Hazırda Avropa və Amerikada Şərq və ya Azərbaycan dili necə öyrənilir? Keçmiş Sovet İttifaqı dövründən fərqli olaraq, Şərqi «birinci mənbədən» öyrənmək üçün imkanlar indi daha genişdir. Hətta tədqiqatçılar arasında Azərbaycan dilini öyrənənlər də var. Son dövrlərdə Şərq, islam və Azərbaycanla bağlı bir çox tədqiqat əsərləri meydana çıxıb. Bunlardan aşağıdakıların adlarını çəkmək mümkündür: Firuzə Müstəşar - «Dini sərhədlər: Çar Rusiyası və Qafqazda islam», Brenda Şeffer - «Sərhədlər və Qafqaz», İngeborq Baldouof -

«Rusiya müsəlmanlarının tövbələrində islahat və dəyişiklik», Svent Kornel - «Azərbaycanda islamın siyasiləşməsi», Turac Atabəki - «Etniklik və İraqda güc uğrunda mübarizə», Tadeuş Svetoçovski - «Rusiya və Azərbaycan: sərhəd zolağı keçiddə», «Azərbaycanın tarixi lüğəti», «Azərbaycan», Əkbər Məcidov - «Azərbaycan. Ümid yeri: Müasir siyasi tarix», Barbara Kelner-Heynkel və Cakob Landau - «Eks-Sovet müsəlman dövlətlərində dil siyasətləri», Cəmil Həsənli - «Soyuq müharibə əleyhinə», Mixail Kemper - «Rusiya və Mərkəzi Asiyada müsəlman mədəniyyəti» və sairə.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 23 yanvar 2007-ci il.

MİSİR PARLAMENTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

Ölkəmizdə 8 günlük səfərdə olmuş Misir-Azərbaycan Parlamentlərarası dostluq qrupunun üzvləri bu günlərdə AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşlar. Başda sədr Əhməd Amr Həşim olmaqla qrupun 7 üzvü ərəbşünas alimlərlə görüşərək, ölkəmizdə bu sahədə aparılan elmi-tədqiqat işləri ilə yaxından maraqlanmışlar.

Şərqşünaslıq İnstitutunun direktoru, professor **Gövhər Baxşəliyeva** misirli parlamentariləri institutun ərəbşünas tədqiqatçıları ilə tanış edərək, bu elm müəssisəsinin fəaliyyət göstərdiyi 50 il ərzində Yaxın və Orta Şərq xalqlarının tarixi, ədəbiyyatı, dili, fəlsəfi fikri ilə bağlı yüzlərlə əsərin ərsəyə gəldiyini qonaqların nəzərinə çatdırmış və ərəbşünaslığa dair nəşr olunmuş kitablarla onları tanış etmişdir. İnstitutun fəxri olan dünya şöhrətli görkəmli alimlər – akademik Həmid Araslı, akademik Ziya Bünyadov, professor Aida İmanquliyevanın ərəbşünaslıq elminə verdikləri böyük töhfələrdən söz açan Gövhər xanım institutun elmi-tədqiqat işlərinin, əsasən, Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi, mədəni inkişafının qanunauyğunluqlarını öyrənmək, Şərq xalqlarının tarixini, filoloji və dini-fəlsəfi irsini araşdırmaq, yazılı abidələri tədqiq, tərcümə və nəşr etmək, Şərq-Qərb sivilizasiyalararası münasibətləri araşdırmaq, Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələrini tədqiq etmək, müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik, mədəni münasibətləri araşdırmaq, onlara dair proqnoz və tövsiyələr işləyib hazırlamaq istiqamətində aparıldığını söyləmiş, hazırda ərəbşünaslıq sahəsində fəaliyyət göstərən Ərəb filologiyası, Ərəb ölkələri tarixi və iqtisadiyyatı, Yazılı abidələrin tədqiqi və nəşri, Din və ictimai fikir tarixi şöbələrinin fəaliyyətindən danışmışdır.

Professor G.Baxşəliyeva Misirə dair aparılan tədqiqatlardan söz açaraq qeyd etmişdir ki, Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsində Misir tarixinin öyrənilməsi, orta əsr misirli tarixçilərin əsərlərinin tərcüməsi və nəşri xüsusi önəm daşıyır. Eləcə də Ərəb filologiyası şöbəsində Misir ədəbiyyatı araşdırılır, bu ölkə ədəbiyyatının XX əsr nümayəndələri Taha Hüseyn, Yusif əs-Sibayi, Nəcib Məhfuz, Şövqi Dayf və digər bu kimi ədiblərin yaradıcılığı geniş tədqiq olunur, bu sahədə sanballı monoqrafiyalar hazırlanır, kitablar nəşr olunur.

Ərəb filologiyası şöbəsinin müdiri Vilayət Cəfərov, Din və ictimai fikir tarixi şöbəsinin müdiri Abutalıb Məmmədov misirli deputatlara şöbələrin fəaliyyəti barədə daha geniş məlumat vermişlər. Qonaqlar ərəb tarixi və iqtisadiyyatı sahəsində aparılan tədqiqatlarla da tanış edilmişdir.

Şərqşünaslıq İnstitutunda ərəbşünaslıq sahəsində görülən işlərlə tanışlıqdan

dərin məmnunluğunu ifadə edən Misir-Azərbaycan Parlamentlərarası dostluq qrupunun sədri Əhməd Amr Həşim alimlərə yeni tədqiqatlarında uğurlar arzulamış, əmin olduğunu bildirmişdir ki, bu institutda Misirə dair aparılan tədqiqatlar Şərq aləmində geniş təbliğ olunacaq. O, Şərqşünaslıq İnstitutunun ərəbşünas alimləri ilə gələcək əməkdaşlığa hazır olduğunu demişdir. Əhməd Amr Həşim İslam birliyindən, sülhpərvərlik dini olan İslamın təbliğ etdiyi yüksək mənəvi dəyərlərdən söz açaraq, Azərbaycanın mütərəqqi islam ölkəsi kimi bir nümunə olmasını vurğulamışdır.

Görüşdə iştirak edən Misirin ölkəmizdəki səfiri Yusif əş-Şərkavi ölkələrimiz arasında əlaqələrdən danışmışdır.

Vüqar Məmmədov,
«Elm» qəzeti, 15 noyabr 2007-ci il.

TÜRK DÖVLƏT VƏ CƏMİYYƏTLƏRİNİN XI DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYINDA VACİB MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR

BEYNƏLXALQ ƏLAQƏLƏRƏ, MEDİA VƏ İNFORMASİYA TEXNOLOGİYALARINA XÜSUSİ DİQQƏT YETİRİLMƏLİDİR

AzərTAc xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakıda keçirilən Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının beynəlxalq əlaqələr, media və informasiya texnologiyaları komissiyasının noyabrın 18-də «Park-İNN» mehmanxanasında iclası olmuşdur:

Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının sədr müavini Gültəkin Hacıyevanın sədrliyi ilə keçən iclasda parlamentin deputatı, AMEA-nın müxbir üzvü, Şərqşünaslıq İnstitutunun direktoru **Gövhər Baxşəliyeva** «Türkdilli ölkələrin qloballaşan dünyaya inteqrasiyası: reallıqlar, problemlər və perspektivlər» mövzusunda məruzə etdi, türk xalqlarının və dövlətlərinin tarixi, coğrafi mövqeləri barədə məlumat verdi.

Türk xalqları arasında əlaqələrin inkişafı məsələlərindən danışan natiq dedi ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dünya birliyinə inteqrasiya yolunu tutmuşdur. G.Baxşəliyeva demokratik dəyərlərin inteqrasiya prosesindəki rolunu vurğuladı.

Azərbaycan xalqının müsəlman Şərqində ilk demokratik, dünyəvi dövlət qurduğunu diqqətə çatdıran Milli Məclisin deputatı bildirdi ki, türk xalqları milli dəyərlərini yaşatmadan Avropa dəyərlərinə sahib ola bilməzlər.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın dünya birliyinə inteqrasiyasında qardaş Türkiyənin rolunu yüksək qiymətləndirdiyini xatırladan məruzəçi Türkiyənin modern dünyanın bir hissəsi olduğunu bildirdi.

G.Baxşəliyeva ABŞ Konqresinin xarici əlaqələr komitəsində qəbul olunmuş qondarma erməni soyqırımı haqqında qətnaməni pisləyərək Türkiyəyə təkcə Azərbaycanın deyil, bütün türk dövlətlərinin dəstək verməsinin vacibliyini vurğuladı.

Türk xalqları arasında inteqrasiyanı sürətləndirmək üçün müəyyən addımların atılmasının faydasından söz açan G.Baxşəliyeva bu istiqamətdə müxtəlif sahələri əhatə edəcək ümumi mükafatların təsis olunmasını təklif etdi. Bildirdi ki, türk dövlətləri bir-birinə terrora qarşı mübarizə məsələsində dəstək verməli, iqtisadi-ticarət əlaqələrini genişləndirməlidirlər. Bundan əlavə, parlamentlər və hökumət qurumları eləcə də, qeyri-hökumət təşkilatları arasında əməkdaşlığı

genişləndirməyə ehtiyac vardır. Türk dövlətlərinin dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsinin vacibliyini qeyd edən məruzəçi bildirdi ki, bu ölkələrin hamısı Dünya Ticarət Təşkilatına üzv olmalıdır.

AMEA-nın informasiya texnologiyaları institutunun direktoru, akademiyanın müxbir üzvü Rasim Əliquliyev «Türkdilli ölkələr və cəmiyyətlər arasında informasiya texnologiyaları sahəsində əməkdaşlığın perspektivləri» mövzusunda məruzə etdi. Alim müasir dövrümüzdə informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətdəki rolundan söz açaraq dedi ki, Azərbaycanda bu sahədə dövlət siyasəti çərçivəsində böyük işlər görülür. O, Elektron Azərbaycan» layihəsinə bənzər layihələrin digər türk dövlətlərində də tətbiqinin mümkünlüyünü bildirdi.

Natiq türk xalqları arasında informasiya texnologiyaları sahəsində əməkdaşlığı genişləndirmək məqsədi ilə beynəlxalq konfrans keçirilməsini təklif etdi, virtual məkanda ermənilərə qarşı birgə informasiya mübarizəsi aparılmasının, bu istiqamətdə səyləri birləşdirməyin vacibliyini diqqətə çatdırdı.

Bakı Slavyan Universitetinin professoru Asif Hacıyev Gürcüstan parlamenti tərəfindən qəbul edilmiş «XX əsrin 40-cı illərində sovet hakimiyyəti tərəfindən Gürcüstandan zorla qovulmuş şəxslərin repatriasiyası haqqında» qanunun icrası sahəsində vəziyyət: mövcud çətinliklər və onların həlli yolları» mövzusunda məruzə etdi, Ahıska türklərinin qarşılaşdıqları çətinliklərdən ətraflı danışdı, onların problemlərinin bütün türk dünyasının problemi olduğunu diqqətə çatdırdı.

Türkiyə Böyük Millət Məclisinin deputatı Ələddin Böyükkaya türk parlamenti yaratmağı təklif etdi.

Bakı Dövlət Universitetinin müəllimi, tarix elmləri doktoru Musa Qasımlı «Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun türk dünyasının tarixi mənafelərinə qarşı yönəlmiş nəticələri» mövzusunda məruzəsində ermənilərin qədim Azərbaycan torpaqlarında yerləşdirilməsinin çirkin məqsədlərindən danışdı, bunun türk dünyasını parçalamaq niyyəti güddüyünü diqqətə çatdırdı.

Natiq Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri, acı nəticələri haqqında danışaraq bildirdi ki, hələ 70-ci illərdə ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdlərini ümummilli liderimiz Heydər Əliyev qətiyyətlə ifşa etmişdir.

Türkiyə Böyük Millət Məclisində Azərbaycan üzrə parlament dostluq qrupunun yaradıcılarından biri, sabiq millət vəkili Bülent Akarçalı həmin mövzunu davam etdirərək demişdir ki, ərəb xalqı üçün Fələstin problemi nə deməkdirsə, Qarabağ problemi də türk dünyası üçün eyni mənanı kəsb edir. O,

türklərə qarşı ermənilərin zaman-zaman törətdikləri vəhşiliklərdən, terror aktlarından söz açaraq saxtakar erməni lobbisinə qarşı birgə mübarizənin vacibliyini qeyd etdi.

Bülent Akarçalı diqqətə çatdırdı ki, erməni diasporunun çirkin fəaliyyəti erməni xalqının rifahına xidmət etmir. Hazırda Ermənistandakı ağır iqtisadi-sosial durumun əsas səbəbkarlarından biri də məhz elə erməni diasporudur.

Milli Məclisin deputatı Həvva Məmmədova Ermənistanın işğalçı siyasəti nəticəsində öz yurdlarından didərgin düşmüş soydaşlarımızın vəziyyətindən söz açaraq dedi ki, hələ də erməni əsirliyində olan vətəndaşlarımız vardır. İşğal altındakı qədim türk torpaqlarında tarixi abidələrin vəhşicəsinə məhv edildiyini bildirən H.Məmmədova qaçqın və məcburi köçkünlərin vəziyyətinə dair beynəlxalq konfrans keçirilməsini təklif etdi.

İraq türkman cəbhəsinin lideri Saadetin Ergeç İraq türkmanlarının Səddam Hüseyn rejimində, eləcə də hazırkı dövrdə üzləşdikləri çətinlikləri diqqətə çatdırdı. Bildirdi ki, hazırda türkmanların yaşadıqları ərazilərə süni şəkildə digər millətlərin nümayəndələri yerləşdirilir, bölgənin demoqrafik vəziyyəti dəyişdirilir.

Fasilədən sonra davam etdirilən müzakirələrdə Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının noyabrın 19-da keçiriləcək iclasında qəbul olunması nəzərdə tutulmuş sənədlərə dair təkliflər irəli sürülmüşdür. Komissiya üzvləri iclasda müzakirə olunan məsələlərlə bağlı yekun hesabatı hazırlamışlar.

«Azərbaycan» qəzeti, 26 noyabr 2007-ci il.

ŞƏHRİYAR – 100

BEYNƏLXALQ ELMİ SİMPOZİUM

İyirminci yüzillik Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri, o taylı-bu taylı poeziyamızı, xalqımızın dərin hisslərini, ağrı-acısını, sevincini öz bədii yaradıcılığında yaşadan dahi şairimiz Məhəmmədhüseyn Şəhriyarın 100 illik yubileyi bu il həm ölkəmizin, həm də söz ustadının yaşamış olduğu İranın ən möhtəşəm salonlarında böyük təntənə ilə qeyd edilir. Ölkəmizin ədəbiyyatşünaslıq elminin təmsilçiləri də bu təntənədən kənar qala bilməzdilər.

Noyabrın 28-də AMEA-nın konfrans zalında ölməz şairimiz Şəhriyarın 100 illiyinə həsr olunmuş Azərbaycan – İran beynəlxalq elmi simpoziumu keçirildi. Tədbirin təşkilatçıları AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, eləcə də İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin mədəniyyət mərkəzi idi.

Yubiley tədbirini giriş sözü ilə Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, professor **Gövhər Baxşəliyeva** açdı. Gövhər xanım çıxışında Məhəmməd Hüseyn Şəhriyarı Azərbaycan və İran poeziyasının ən nəhəng simalarından biri, qüdrətli söz ustadı kimi təqdim edərək dedi: «Şəhriyar XX əsr Azərbaycan və İran ədəbiyyatının iftixarıdır. Şairin poeziyası dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi görüşlərinin canlı aynasıdır. Onun ölməz irsi əbədidir, nəinki, Şərq, dünya mədəniyyət və ədəbiyyatı xəzinəsinin nadir incisidir. Ecazkar poeziyası ilə ürəkləri fəth etmiş şair geniş kütlələrin sonsuz məhəbbətini qazanmışdır. Onun şerləri dildən-dilə düşmüş, bir çox dillərə tərcümə olunmuş, insanların ruhunu oxşamışdır. Bu gün ölkəmizdə çətin elə bir insan tapıla ki, Şəhriyar poeziyasının vurğunu olmasın, onun anadilli şerlərini bilməsin».

G.Baxşəliyeva ümumbəşəri ideyaları yorulmadan tərənnüm edən şairin insanları sülhə, bərabərliyə, xeyirxahlığa, mənəvi təmizliyə çağırdığını, onun yaradıcılığında humanizmin, insana böyük məhəbbətin geniş əks olunduğunu qeyd etdi. Gövhər xanım Azərbaycanlılara şairi xüsusi sevdirən cəhətin onun anadilli poeziyasına hopmuş milli ruhun poetik ifadəsi olduğunu vurğuladı, Şəhriyarın yaradıcılığında ayrılıq motivlərinin dərin iz buraxdığını, əsərlərində birliyə çağırışın çox güclü olduğunu söylədi. Ölkəmizdə şəhriyarşünaslıq sahəsində aparılan tədqiqatlardan, B.Nəbiyev, R.Əliyev, H.Bülluri, E.Quliyev, E.Şükürova, N.Rizvanov və başqalarının böyük şairə həsr olunmuş əsərlərindən söz açan G.Baxşəliyeva böyük öndərimiz Heydər Əliyevin sözlərini xatırlatdı: «Dahi sənətkarın yaradıcılığının dərindən öyrənilməsi, tədqiq və tədris edilməsi sənət və elm xadimlərimizin müqəddəs borcudur».

Gövhər xanım çıxışını bu sözlərlə bitirdi: «Şəhriyar irsi dilimizi, xalqımızı

yaşadacaq, xalqımız isə Şəhriyar irsinin varlığının təminatçısı olacaq. Və beləliklə də, özü demişkən, «el məşəli», «əbədiyyət gülü» Şəhriyar sonsuzluğa qədər yaşayacaq».

Sonra İİR-nin Azərbaycandakı səfirliyinin mədəniyyət mərkəzinin sədr müavini Həmid Səfəri tədbir iştirakçılarına öz təbrikini çatdırdı. O, Şəhriyarı Şərq poeziyasının dahi nümayəndələri ilə bir cərgəyə qoyaraq, bu cür şairlərin tək bir xalqa, bir ölkəyə deyil, dünyəvi fikirləri, böyük sənətkarlığı ilə bütün dünyaya məxsus olduğunu dedi. H.Səfəri İranda Şəhriyarın ad gününün hər il bir şeir bayramı kimi anıldığını, böyük şairə həsr olunmuş çoxsaylı tədbirlər keçirildiyini, kitablar nəşr olunduğunu qeyd etdi.

AMEA Rəyasət Heyətinin təbrikini tədbir iştirakçılarının diqqətinə AMEA-nın müxbir üzvü Teymur Kərimli çatdırdı.

Sonra məruzələr başlandı. İlk məruzəçi – Ədəbiyyat İnstitutunun direktoru, akademik Bəkir Nəbiyev «Şəhriyar şerində haqqa dəvət» mövzusunda çıxış etdi. B.Nəbiyev Şəhriyarın ana dilində yazdığı əsərləri ilə ədəbiyyatımızın klassiki səviyyəsinə qalxdığını söylədi. O, şairin yaradıcılığı ilə oxucularına böyük mənəvi dəyərlər aşıladığını, onları haqqa səslədiyini vurğuladı: «Şəhriyar bütün varlığı ilə haqqa sığınır və oxucusunu da haqqa dəvət edir».

İranlı alim Eyvaz Taha məruzəsində Şəhriyar yaradıcılığında romantizmdən danışdı. O, şairin yaradıcılığının nisgil üzərində qurulduğunu qeyd edərək, bu duyğuların mənasından söz açdı. Məruzəçi Xoşginab kəndinə qayıdarkən şairin qəlbində oyanan nisgilin onun əsərlərində necə əks olunduğunu dilə gətirdi.

AMEA-nın müxbir üzvü Teymur Kərimli Şəhriyarı klassik irs nümayəndəsi kimi dəyərləndirdi, zəngin folklorumuzun şairin yaradıcılığında buraxdığı izə nəzər saldı. Tarix elmləri doktoru, şair Şahin Fazil Şəhriyar qəzəllərindən söz açaraq, böyük sənətkarın 3 qəzəlinə yazdığı nəzirələri dinləyicilərə çatdırdı. Növbəti çıxışçılardan Nüşabə Əlizadə şairin Azərbaycan dilinə tərcümələrindən, Sabir Əmirov farsdilli ədəbiyyatşünaslıqda Şəhriyar haqqında yazılan yazılardan, Şövkət Tağıyeva Azərbaycan türklərinin milli şüurunun formalaşmasında və milli bütövlük baxışlarının kamilləşməsində böyük söz ustadının rolundan danışdılar. Daha sonra Elman Quliyev, Esmira Şükürova, Pərvanə Məmmədli və başqaları Şəhriyar yaradıcılığına həsr olunmuş məruzələrini oxudular, Əlibala Hacızadə ustad şairin şerinə yazdığı bir nəziräni söylədi.

Sonda Şəhriyar şerlərindən bir neçəsi səsləndirildi və yekunda Şərqşünaslıq İnstitutunun direktoru G.Baxşəliyeva bütün məruzələrin kitab halında nəşr olunacağını bildirdi və tədbir iştirakçılarına öz təşəkkürünü çatdırdı.

«Ədəbiyyat qəzeti», 30 noyabr 2007-ci il.

ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNDA AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ QEYD OLUNDU

Martın 30-da Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda azərbaycanlıların soyqırımı günü ilə əlaqədar tədbir keçirildi.

Toplantını institutun direktoru, millət vəkili, professor **Gövhər Baxşəliyeva** açdı. 31 martın xalqımız üçün kədərli bir tarix olduğunu deyən G.Baxşəliyeva ermənilərin Azərbaycan xalqına qarşı zaman-zaman həyata keçirdikləri soyqırımı siyasətindən danışdı. Arazın hər iki tayında azərbaycanlılara qarşı törədilən kütləvi qırğınları, qarətləri, zorakılıq əməllərini xatırladan Gövhər xanım 1905-1907-ci illərdə İrəvanda, Zəngəzurda, Tiflisdə, Bakıda, Naxçıvanda, Gəncədə, Qarabağda, 1918-1920-ci illərdə Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda dinc, əhaliyə amansız divan tutulduğunu, elə tək 1918-ci ilin 31 martında Bakıda 30 mindən çox dinc sakinin qətlə yetirildiyini yada saldı. O, ermənilərin bu mənfur əməllərinin sovet dönəmində də davam etdirildiyini, 1948-1953-cü, 1988-1989-cu illərdə Ermənistan ərazisindən yarım milyona yaxın azərbaycanlının deportasiya edildiyini, yüzlərlə insanın öldürüldüyünü, ölkəmizin müstəqillik illərində işğal edilən Dağlıq Qarabağ və ətraf rayonlardan bir milyona yaxın azərbaycanlının qovulduğunu, 1992-ci il fevralın 26-da tarixin ən qanlı cinayətlərindən birinin – Xocalı soyqırımının törədildiyini qeyd etdi. Gövhər xanım sovet hakimiyyəti dövründə soyqırımı ilə bağlı faktların təhrif olunduğunu, gizlədildiyini qeyd edərək, müstəqillik illərində bu sahədə dönüş yaradıldığını söylədi: «1998-ci il martın 26-da ulu öndərimiz Heydər Əliyevin imzaladığı «Azərbaycanlıların soyqırımı haqqında» fərmanı ilə 31 mart azərbaycanlıların soyqırımı günü elan edilmişdir. Bu, milli yaddaşımızı dirçəldən, tarixi həqiqətlərin üzə çıxmasına və öz yerini tapmasına təkan verən mühüm siyasi-hüquqi və mənəvi bir addım oldu».

Azərbaycan xalqına qarşı ötən əsrin əvvəllərində həyata keçirilən soyqırımı ilə bağlı yeni-yeni faktların bu günlərdə də məlum olmasını, Qubada həmin hadisələrin qurbanlarının kütləvi məzarlığının aşkarlandığını deyən G.Baxşəliyeva son dövrdə rəhbərlik etdiyi Şərqşünaslıq İnstitutu əməkdaşlarının da Azərbaycan xalqına qarşı törədilən cinayətlərin üzə çıxarılması istiqamətində gördükləri işlərdən söz açdı və çıxış üçün sözü bu sahədə daha geniş tədqiqatları ilə tanınan tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidiyə verdi.

S.Rüstəmova-Tohidi Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında ermənilərin törətdiyi qanlı faciələrdən ətraflı söhbət açaraq 70 il ərzində bu ha-

disələrin təhrif edildiyini və son illərin tədqiqatlarına baxmayaraq, hələ törədilən cinayətlərin 20 faizinin belə açılmadığını qeyd etdi. Solmaz xanım qanlı mart günlərində erməni millətçilərinin cinayətkar əməllərinin, törədilən qırğınların təşkilatçısı və istiqamətverənləri olan Bakının yerli erməni ziyalı təbəqəsindən danışaraq, onların qarşısında duran proqramın Bakıda və Azərbaycanın digər bölgələrində müsəlman əhalisinin mümkün qədər azaldılması olduğunu söylədi. S.Rüstəmova-Tohidi 1918-ci ilin 15 iyulunda Azərbaycan hökuməti yanında yaradılmış fövqəladə təhqiqat komissiyasının erməni cinayətlərinin açılması, bu hadisələri törədənlərin cəzalandırılması sahəsində gördüyü böyük işlərdən söz açdı: «Ələkbər bəy Xasməmmədovun rəhbərlik etdiyi komissiyanın materialları 36 cilddən, 3500 səhifədən ibarətdir. Onların gərgin əməyi sayəsində mart hadisələrində günahkar olanlara qarşı 194 cinayət işi açılmış, 24 nəfər Bakıda, 100 nəfər Şamaxıda həbs olunmuşdu. Bu həbslər erməni ictimaiyyətini və mətbuatını çox narahat edirdi və onlar komissiyanın fəaliyyətinə hər cəhdlə maneçilik törətməyə çalışırdılar».

Həmin komissiyada ermənilərin törətdiyi cinayətləri əks etdirən onlarla fotoşəkillərin olduğunu qeyd edən natiq sovet dövründə onların yoxa çıxdığını söylədi və hələlik əldə olunan yeganə fotoşəkili tədbir iştirakçılarına nümayiş etdirdi.

Sonra institutun əməkdaşları Şövkət Tağıyeva, Esmeralda Həsənova və başqaları çıxış edərək 31 mart hadisələrinin, eləcə də ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi digər cinayətlərin unudulmaması, dünya ictimaiyyətinə çatdırılması üçün səyləri daha da artırmağın vacibliyini qeyd etdilər.

Tədbirin sonunda G.Baxşəliyeva xalqımıza qarşı həyata keçirilən soyqırımının əsl mahiyyətinin gələcək nəsillərə və dünya ictimaiyyətinə çatdırılmasında alimlərimizin mühüm rolu olduğunu qeyd etdi, ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində xalqımızın haqq işinin qalib gələcəyinə əminliyini bildirdi.

Vüqar Məmmədli,
«525-ci qəzet», 3 aprel 2008-ci il.

İSLAM KONFRANSI TƏŞKİLATI PARLAMENT İTTİFAQININ İSTANBULDA FÖVQƏLADƏ SESSİYASI KEÇİRİLİB

Gövhər Baxşəliyeva: «İstanbul deklarasiyasinda Danimarkanın mətbu orqanlarında Məhəmməd Peyğəmbəri təhqir edən karikaturalarin yer almasının böyük qəzəb və təəssüf hissi ilə qarşılandığı qeyd olunub»

Məlum olduğu kimi, bu günlərdə Türkiyənin İstanbul şəhərində İslam Konfransı Təşkilatına üzv ölkələrin Parlament İttifaqı (İKT Pİ) Şurasının Fövqəladə sessiyası keçirilib. İclasda ölkəmizi millət vəkili **Gövhər Baxşəliyeva** təmsil edib. Tədbirin gündəliyində duran əsas məsələ İKT Pİ baş katibi vəzifəsinə seçkilərin keçirilməsi olub. Bu vəzifəyə namizədlər Mahmut Erol Kılıç, Brigi Rafini, Cəfər Səid Basaleh və Makarim Vibisono toplantıda çıxış ediblər. Bundan sonra İKT Pİ Baş Katibliyinin 2007-ci il üzrə maliyyə hesabatı dinlənilərək qəbul edilib. Daha sonra İKT Pİ baş katibi və onun köməkçisi vəzifələrinə seçkilər keçirilib, gizli səsvermə ilə Türkiyə nümayəndəsi Mahmut Erol Kılıç təşkilatın yeni baş katibi seçilib, onun köməkçisi vəzifəsini İran nümayəndəsi Əli Əsğər Sincani tutub.

İKT Pİ Şurası iclasının sonunda İslam dünyasını son zamanlar yenidən narahat etməyə başlayan bir məsələyə - Avropa ölkələrinin mətbuatında Məhəmməd Peyğəmbəri təhqir edən karikaturaların dərc olunmasına və film çəkilişinə münasibət bildirilib. Şuranın qəbul etdiyi İstanbul deklarasiyasında Danimarkanın mətbu orqanlarında İslam Peyğəmbərini təhqir edən karikaturaların yer almasını və bunun bəzi dairələrdə dəstəklənməsini İKT Pİ-nin böyük qəzəb və təəssüflə qarşıladığı qeyd olunub. Bu haqda «525»in müxbirilə söhbətində məlumat verən G.Baxşəliyeva bildirib ki, İKT Pİ üzvləri Avropa Parlamentindəki həmkarlarına müraciət edərək, onları hər hansı dinin və ya peyğəmbərin təhqir olunmasına görə cəza nəzərdə tutan qanunlar qəbul etməyə çağırıblar. Onun qeyd etdiyinə görə, sənəddə İKT Pİ Şurasının Dakarda keçirilən İK sammitinin sonuncu sessiyasının yekun bəyannaməsinin və İKT baş katibi Əkmələddin İhsanoğlu tərəfindən irəli sürülmüş ekspert qrupunun yaradılması haqqında təklifin dəstəkləndiyi bildirilib.

G.Baxşəliyeva onu da xatırladıb ki, İKT Pİ Şurasının Fövqəladə sessiyasından öncə - yanvarın 27-31-də təşkilatın Misirin Qahirə şəhərində keçirilmiş V konfransında Azərbaycan nümayəndə heyətinin təklifi ilə «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» və «Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv

edilməsi və dağıdılması haqqında» qətnamələr Siyasi və iqtisadi məsələlər üzrə komitəyə təqdim olunub və konfransın yekun sənədlərində öz əksini tapıb. Millət vəkillərimizin digər təklifi ilə Ermənistan - Azərbaycan münaqişəsi məsələsi konfransda müzakirəyə qoyulub, nümayəndə heyəti üzvlərinin rəy və təklifləri maraqla izlənilib. G.Baxşəliyevanın sözlərinə görə, o çıxışında İKT Pİ-nin 1999-cu ilin iyununda Tehranda keçirilmiş təsis konfransından keçən dövrdə dünyada böyük dəyişikliklər baş verdiyini qeyd edərək, özündə Avropa və Şərq mədəniyyətinin ənənələrini birləşdirən Azərbaycanın da bəşəriyyətin və İslam dünyasının bir parçası kimi bu proseslərdən kənarda qalmadığını deyib.

Erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılmasını tələb edən BMT-nin məlum 4 qətnaməsini, beynəlxalq təşkilatların qərarlarını, o cümlədən İKT kimi çox nüfuzlu beynəlxalq təşkilatın Ermənistanın işğalçılıq siyasətini pisləyən, zəbt olunmuş torpaqlarımızın azad edilməsini tələb edən qətnamələrini qulaq ardına vuran Ermənistanın bu günə kimi Azərbaycan torpaqlarını işğal altında saxlayaraq münaqişənin sülh yolu ilə nizama salınması prosesinə böyük maneələr törətdiyini də qeyd edən G.Baxşəliyeva tədbir iştirakçılarını Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun şəkildə həll edilməsi istiqamətində səylərini bundan sonra da əsirgəməməyə çağırıb».

Konfransın fəaliyyətinə gəldikdə, burada da Asiya, Afrika və Ərəb qruplarından İcraiyyə Komitəsinə üzvlər seçilib. Asiya qrupundan G.Baxşəliyevanın namizədliyi səsə qoyulub və dəstəklənib.

G.Baxşəliyeva sonda bildirib ki, Azərbaycan nümayəndə heyətinin təklif etdiyi dörd bənd tədbirin sonunda müzakirəyə qoyulan yekun sənədə - «Qahirə Bəyannaməsi»nə salınıb. Bəyannamədə qeyd olunur ki, tədbir iştirakçıları BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin ciddi şəkildə yerinə yetirilməsini, erməni silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazilərindən tam, qeyd-şərtsiz və dərhal çıxarılmasını qəti surətdə tələb edir, Ermənistanı Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ehtiramla yanaşmağa çağırır, məscidlərin və digər müqəddəs islam məbədlərinin Azərbaycan ərazilərində vəhşicəsinə dağıdılmasını ciddi surətdə pisləyir, Azərbaycan hökuməti və xalqının öz ölkəsinin müdafiəsi naminə göstərdiyi səyləri dəstəkləyir və onlarla tam şəkildə həmrəy olduğunu təsdiq edir.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 10 aprel 2008-ci il.

ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNDA KONFRANS: «HEYDƏR ƏLİYEV VƏ ŞƏRQ»

Ulu öndər Heydər Əliyevin anadan olmasının 85 illiyi ərəfəsində ölkəmizin bütün müəssisələrində bu əlamətdar tarixlə bağlı mühüm tədbirlər keçirilir. Dünya siyasətində ümdə yeri olan ümummilli liderimizin Şərq aləmində böyük nüfuza malik olması hamıya bəllidir. Ölkənin şərqşünas alimləri də yubiley ərəfəsində ulu öndərin məhz Şərq siyasətini nəzərdən keçirməyi qərara aldılar. Aprelin 24-də AMEA Rəyasət Heyətinin binasının konfrans zalında akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkil etdiyi «Heydər Əliyev və Şərq» mövzusunda elmi-nəzəri konfrans keçirildi.

Tədbiri giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, professor **Gövhər Baxşəliyeva** böyük öndərin çoxşaxəli fəaliyyəti, yeritdiyi daxili və xarici siyasəti, dövlət quruculuğunda gördüyü böyük işlər barədə danışaraq, çıxışında Heydər Əliyevin Şərq siyasətinə xüsusi yer ayırdı. Heydər Əliyevin Türkiyə və digər türkdilli dövlətlər, İran, ərəb ölkələri və digər Şərq dövlətləri ilə bağlı apardığı siyasət nəticəsində genişlənən mövcud əlaqələrdən danışan G.Baxşəliyeva, ulu öndərin İslam Konfransı Təşkilatı ilə əlaqədar siyasəti və gördüyü işlərdən geniş bəhs etdi: «Heydər Əliyev müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, ənənələrimizi qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək, bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini vurğulamışdı. 1993-cü ilin ikinci yarısından başlayaraq, bu istiqamətdə görülən işlər sanki yeni nəfəs aldı. İKT ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensivləşməyə və fəallaşmağa başladı».

Gövhər xanım 1994-cü ilin noyabrında Prezident Heydər Əliyevin İKT baş katibi, doktor Həmid əl-Qablidə Bakıda keçirdiyi görüşün respublikamızla bu təşkilat arasındakı əməkdaşlığı daha da fəallaşdırması, ümummilli liderimizin həmin ilin dekabrında Kasablankada İKT-yə üzv ölkələrin dövlət və hökumət başçılarının VII, 1997-ci ildə isə Tehranda VIII zirvə toplantılarında iştirakı və çıxışları barədə söz açdı.

Sonra AMEA-nın 1-ci vitse-prezidenti, akademik Arif Həşimov tədbir iştirakçılarını təbrik edərək, konfransın bu günlərdə ulu öndərə həsr olunmuş tədbirlərdən tamam fərqləndiyini qeyd etdi. «Dövlətin Şərq siyasətinin qurulmasında şərqşünas alimlərin də böyük əməyi olmuşdur», — deyən A.Həşimov,

Heydər Əliyevin hələ ilk hakimiyyəti dövründə də bu sahəni öz diqqətində saxladığını, şərqşünaslara dəstək olduğunu söylədi.

Konfransda Heydər Əliyevin Şərq siyasəti barədə Şərqşünaslıq İnstitutu əməkdaşlarının məruzələri dinlənildi.

Filologiya elmləri namizədi Xalidə Quliyeva-Qafqazlı «Heydər Əliyevin xarici siyasət konsepsiyasında Türkiyə» mövzusunda məruzə etdi. Məruzəçi H.Əliyevin hələ gənc yaşlarından türk dilinə, ədəbiyyatına böyük maraq göstərməsindən söz açdı, 1993-cü ildə müstəqil Azərbaycanın rəhbərliyinə gəlməsindən sonra dövlətlərimiz və xalqlarımız arasında münasibətlərin daha da möhkəmlənməsi istiqamətində gördüyü işlərdən danışdı. Azərbaycan və Türkiyə rəhbərlərinin bu illər ərzində qarşılıqlı səfərlərindən bəhs edən məruzəçi, çıxışını ulu öndərin iki qardaş xalq arasında yaranmış dostluq, qardaşlıq münasibətləri barədə dediyi sözlərlə tamamladı : «Dəfələrlə dediyimiz kimi «Biz bir millət, iki dövlətik» sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır».

Tarix elmləri namizədi İsmayıl Əsədov «Heydər Əliyev və ərəb ölkələri» mövzusunda məruzəsində bu bölgə dövlətləri ilə beynəlxalq əlaqələrin qurulmasında ulu öndərin müstəsna xidmətindən danışdı: «Heydər Əliyevin bu sahədə pozitiv fəaliyyəti nəticəsində onun qarşılıqlı səmərəli əməkdaşlıq və qarşılıqlı hörmət prinsipi əsasında əlaqələr qurduğu bütün ərəb ölkələri BMT Baş Assambleyasında «Azərbaycanın işğal olunmuş torpaqları haqqında» qətnamənin qəbul edilməsində ölkəmizi dəstəklədilər».

Tarix elmləri namizədi Vidadi Mustafayev «Heydər Əliyevin Şərq siyasətində İran» mövzusunda məruzə etdi. 1992-ci ilin yayında Azərbaycanda hakimiyyət dəyişikliyindən sonra lkələrimiz arasında münasibətlərin pozulduğunu vurğulayan V.Mustafayev, bir il sonra ölkə rəhbərliyinə gələn Heydər Əliyevin müdrik siyasəti sayəsində bu münasibətlərin tezliklə qaydaya salınaraq iki dövlət arasında dostluq əlaqələrinin möhkəmləndiyini söylədi: «Biz tam cəsarətlə deyə bilərik ki, İran İslam Respublikası ilə əlaqələrin bu səviyyəyə çatması ulu öndər Heydər Əliyevin düşünülmüş, tarazlaşdırılmış, ardıcıl və məqsədyönlü xarici siyasətinin nəticəsində mümkün olub».

Bütövlükdə ölkələrimiz arasında indiyə kimi 100-dən çox sənəd imzalandığını deyən məruzəçi, bunların arasında Prezident Heydər Əliyevin 2002-ci il may ayının 18-20-də İrana rəsmi səfəri zamanı imzalanmış Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında Müqavilənin xüsusi yeri olduğunu qeyd etdi.

Məruzələr bitdikdən sonra Şərqşünaslıq İnstitutunun əməkdaşları — fəlsəfə elmləri namizədi Esmeralda Həsənova və xalq şairi Söhrab Tahir Heydər Əli-

yevlə bağlı maraqlı xatirələrini danışaraq, ulu öndərin böyük siyasətçi olmaqla yanaşı, necə səmimi, diqqətcil insan olduğunu vurğuladılar.

Konfransın yekununda bir daha söz alan Gövhər Baxşəliyeva, Heydər Əliyevi Şərqşünaslıq elmi ilə çox möhkəm tellərin bağladığını deyərək, ümummilli liderimizin 1997-ci il mayın 8-də İstanbulda olarkən orada yerləşən İKT İslam Tarixi və Mədəniyyəti Araşdırmaları Elmi Mərkəzini (İRSİCA) ziyarət etməsindən danışdı: «Heydər Əliyev öz çıxışlarında qeyd etmişdir ki, islam tarixinə aid Azərbaycanda da böyük araşdırmalar aparılır. Bu araşdırmalar islam dünyasında geniş təbliğ edilməlidir. İslam Konfransı Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının, onun Şərqşünaslıq İnstitutunun əlaqələrinin daha da sıxlaşdırılması vacibdir. Yaradılacaq belə münasibətlər xalqımızın və islam tarixinin mədəniyyətinin öyrənilib daha geniş təbliğ edilməsində mühüm rol oynaya bilər».

Məhz ümummilli liderimizin tövsiyələri əsasında AMEA Şərqşünaslıq İnstitutu ilə İRSİCA arasında sıx əlaqələrin yarandığını vurğulayan G.Baxşəliyeva, bu gün də bir çox istiqamətləri əhatə edən birgə əməkdaşlığın davam etdiyini, müştərək mövzuların işlənildiyini, qarşılıqlı ezamiyyətlərin həyata keçirildiyini və birgə elmi tədbirlər təşkil edildiyini söylədi. Gövhər xanım nitqini bu sözlərlə tamamladı: «Heydər Əliyevin Şərq siyasətini qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha bu qənaətə gəlirik ki, böyük öndərimizin apardığı xarici siyasəti də daxili siyasəti kimi daim bir mərama, bir məqsədə, bir amala xidmət edib – müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək, xalqımızın dünya xalqları birliyində özünəlayiq yer tutmasına nail olmaq».

Vüqar Məmmədov,
«Elm» qəzeti, may 2008-ci il.

GÖRKƏMLİ ŞƏRQŞÜNAS ALİM AİDA İMANQULİYEVANIN XATİRƏSİ ANILMIŞDIR

Sentyabrın 19-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) və AMEA-nın Şərqşünaslıq İnstitutunun kollektivləri, Milli Məclisin deputatları, respublika qadın ictimaiyyətinin nümayəndələri İkinci Fəxri xiyabana gələrək XX əsrin tanınmış ziyalılarından biri, görkəmli şərqşünas alim, tərcüməçi, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın xatirəsini dərin ehtiramla yad etmiş, məzarı üzərinə əklillər və gül dəstələri qoymuşlar.

Anma mərasimində komitənin sədri Hicran Hüseynova alimin həm elmi, həm də ictimai fikir tarixindəki yerindən və rolundan danışmışdır. Bildirmişdir ki, Aida xanım İmanquliyeva Azərbaycan şərqşünaslıq elminin korifeylərindən biri, yorulmaz tədqiqatçı, qayğıkeş, nəcib, həssas bir insan idi. Aida xanım Azərbaycanda ilk şərqşünas qadın alim kimi milli tariximizdə şərəfli yer tutmuşdur. Komitə sədri demişdir ki, Aida xanım İmanquliyevanın tədqiqat əsərləri və tərcümələri ədəbiyyat və mədəniyyət xəzinəmizin zəngin sərvətləridir. Qələmə aldığı bütün əsərləri bu xanımın əsl elm fədaisi, cəsarətli fikir və söz sahibi, kamil şəxsiyyət olduğunu təsdiq edir.

Aida xanım gördüyü işlər, etdiyi xeyirxahlıqlar barədə danışmağı sevməzdi. Təvazökarlıq da onun bir gözəlliyi idi. O, nəcibliyini əməlində göstərirdi. Qısa, lakin şərəfli ömrü boyu Azərbaycan elminin inkişafı yolunda bacardığını etdi, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru işlədiyi illərdə bu elm ocağının təkmilləşdirilməsi üçün böyük işlər gördü.

AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı **Gövhər Baxşəliyeva** alimin bu gün də aktuallığını itirməyən zəngin ədəbi irsindən danışmış, onun mühacir ərəb ədəbiyyatını dərindən tədqiq etdiyini, şərqşünaslıq elmində silinməz iz qoyduğunu bildirmişdir.

Aida xanım İmanquliyevanı tanıyanlar, dərs dediyi tələbələr onun mənəvi gözəlliyinin vurğunu idilər. Onun davranışı və rəftarı, mühazirələri tələbələrini heyran edirdi. Hər hərəkətində kübarlıq, nəciblik vardı. Tanrı ondan heç nəyi əsirgəməmişdi. Zahiri görünüş, ağıl, alicənablıq, nəciblik, özünə tələbkarlıq, ailəsinə tükənməz məhəbbət Aida xanım İmanquliyevanın insani keyfiyyətlərini səciyyələndirən əsas cəhətlər idi.

Hamıda xoş təəssürat oyatmaq, hamının sevimlisi olmaq mümkün deyil. Ancaq Aida xanım bu sevgini qazana bilmişdi. Gördüyü işlərlə, xeyirxahlığı, nəcibliyi, böyük ürəyi ilə onu sevənlərin qəlbində özünə abidə qurmuşdur. Bu gün o, övladlarının, nəvələrinin ömründə, elmimizin, ədəbiyyatımızın tərəqqisində yaşayır.

«Azərbaycan» qəzeti, 20 sentyabr 2008-ci il.

ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN YUBİLEYİ QEYD OLUNMUŞDUR

Dekabrın 24-də Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binasında AMEA-nın Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun yaradılmasının 50 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilmişdir. Əvvəlcə iştirakçılar institutun tarixini əks etdirən kitab sərgisi ilə tanış olmuşlar.

Ölkəmizdə akkreditə olunmuş səfirliklərin nümayəndələrinin, Milli Məclisin deputatlarının, elm və mədəniyyət xadimlərinin iştirakı ilə keçirilən tədbiri AMEA-nın prezidenti, akademik Mahmud Kərimov açaraq, əlamətdar gün münasibətilə institutun əməkdaşlarını təbrik etmiş, onlara yaradıcılıq uğurları arzulamışdır. İnstitutun ötən müddət ərzində fəaliyyətinin bəzi məqamlarını xatırladan M.Kərimov demişdir ki, öz coğrafi mövqeyinə və tarixi inkişaf xüsusiyyətlərinə görə, Azərbaycan hələ orta əsrlərdən başlayaraq Şərqlə Qərb, Avropa ilə İslam aləmi arasında mədəni körpü rolunu oynamışdır.

Bu baxımdan yeni dövrdə Azərbaycan ziyalıları, şərqşünas alimlər İslam mədəniyyətinin Avropa xalqlarına tanıdılması və Qərb alimlərinin əsərlərinin müsəlman Şərqində yayılmasında aparıcı rol oynamışlar. A.Bakıxanov, M.F.Axundov, Mirzə Kazım bəy, M.C.Topçubaşov, Ə.Ağayev və başqaları öz əsərləri ilə Şərq tarixinə, ədəbiyyatına və fəlsəfəsinə qiymətli töhfələr vermiş, habelə rus şərqşünaslığının inkişafına da böyük təsir göstərmişlər. 1958-ci ildə Şərqşünaslıq İnstitutunun yaradılmasının Azərbaycan elmi üçün əhəmiyyətini qiymətləndirən M.Kərimov bildirmişdir ki, bu hadisə ictimai və humanitar elmlərin inkişafında mühüm rol oynamışdır.

İnstitutun direktoru, Milli Məclisin deputatı **Gövhər Baxşəliyeva** bildirmişdir ki, hələ sovetlər dövründə institut SSRİ məkanında və dünyada tanınmış elmi mərkəzlərdən biri idi. İnstituta həmişə korifey alimlər rəhbərlik etmiş və onların yaratdıqları məktəb bu gün də yaşayır və inkişaf edir.

Vurğulanmışdır ki, böyük alim, pedaqoq Aida xanım İmanquliyevanın institutda yaratdığı Ərəb ədəbiyyatşünaslığı məktəbi də bu gün uğurla fəaliyyət göstərir. Bu yönümdə ərəb aləminin bir çox görkəmli ədib və şairləri haqqında xeyli əsərlər nəşr olunmuşdur.

Hazırda institutda 10-a yaxın şöbədə və bir elmi qrupda Şərqin ən aktual problemləri, mədəni, iqtisadi inkişafın qanunauyğunluqları tədqiq olunur. Ötən əlli ildə burada 500-dən çox monoqrafiya, məqalələr məcmuəsi və kitablar nəşr olunmuş, əməkdaşlarımız bir sıra beynəlxalq konfrans, simpozium və forumlarda ölkəmizi layiqincə təmsil etmişlər. Eyni zamanda, institutda şərqşünaslı-

ğın aktual problemlərinə dair elmi sessiyalar, konfranslar da keçirilir.

G.Baxşəliyeva diqqətə çatdırmışdır ki, Azərbaycanın müstəqilliyini bərpa etməsi şərqşünaslıq elmində yeni üfüqlər açmaqla yanaşı, eyni zamanda, onun qarşısında həyata keçirilməsi vacib olan ciddi vəzifələr də qoymuşdur. İndi Şərq ölkələrinin tarixinin, ictimai-siyasi, iqtisadi-sosial və etnik proseslərinin, tarixi-etimoloji irsinin uğurlu tədqiqi və nəşri həyata keçirilir. Təkcə son ildə əməkdaşlarımızın bu və ya digər mövzularda 60-dan çox kitabı, yüzlərlə elmi məqalələri çap olunmuşdur. Bunlar təkcə ölkəmizdə deyil, eyni zamanda xaricdə də nəşr olunur və mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir.

AMEA-nın vitse-prezidenti, akademik Nailə Vəlixanlı və başqaları institutun yaradıcı kollektivini əlamətdar yubiley münasibətilə təbrik etmişlər.

İnstitutun əməkdaşlarının bir qrupuna AMEA Rəyasət Heyətinin fəxri fərmanı təqdim olunmuşdur.

AzərTAc.
«Xalq» qəzeti, 25 dekabr 2008-ci il.

«AZƏRBAYCAN TELEVİZİYA MƏKANI İCTİMAİ VƏ MƏDƏNİ HƏYATIMIZIN AKTUAL PROBLEMLƏRİ İŞIĞINDA» MÖVZUSUNDA ELMİ-TƏCRÜBİ KONFRANS KEÇİRİLMİŞDİR

Noyabrın 24-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində «Azərbaycan televiziya məkanı ictimai və mədəni həyatımızın aktual problemləri işığında» mövzusunda elmi-təcrübi konfrans keçirilmişdir.

AMEA-nın prezidenti, akademik Mahmud Kərimov konfransı açaraq mövzunun əhəmiyyətindən danışmışdır. Akademik bildirmişdir ki, konfransda «Azərbaycanın efir məkanı: problemlər və vəzifələr» məqaləsində qaldırılan məsələlər tanınmış alimlər tərəfindən şərh ediləcək və problemlərin həlli yolları müzakirə olunacaqdır. Məruzəçilərin bu məsələ ilə bağlı səsləndirdikləri təkliflər ümumiləşdirilərək müvafiq təşkilatlara təqdim ediləcəkdir.

Akademik M.Kərimov demişdir ki, Azərbaycanın efir məkanı ölkəmizin güzgüsüdür. Televiziya və radioda olan problemlər cəmiyyətimizin problemləridir. Ona görə də məsələyə kompleks şəkildə baxılmalı, alimlərin bu istiqamətdə fikir və təklifləri şərh edilməli, onların efir məkanı ilə əlaqəsi yaxşılaşdırılmalıdır. Düşünürəm ki, konfrans bu işə mühüm töhfə verəcəkdir.

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik Bəkir Nəbiyev «Azərbaycan televiziyası və ədəbiyyatımız» mövzusunda məruzə ilə çıxış etmişdir.

Bildirmişdir ki, müstəqil Azərbaycan dövlətinin ictimai-mədəni həyatının işıqlandırılmasında, ölkəmizin əldə etdiyi böyük iqtisadi uğurların, daxili və xarici siyasət sahəsində qazandığımız ciddi nailiyyətlərin dünyaya çatdırılmasında, eləcə də xalqın qarşıda duran mühüm, taleyüklü problemlərin həllinə səfərbər edilməsində, tarixi-mənəvi dəyərlərimizin, milli sərvətlərimizin qorunub gələcək nəsillərə çatdırılmasında kütləvi informasiya vasitələrinin rolu və əhəmiyyəti əvəzsizdir.

Bəkir Nəbiyev demişdir ki, müstəqil dövlətçilik strategiyamızın yaradıcısı, ümummilli lider Heydər Əliyevin söz, mətbuat, informasiya azadlığının təmin olunması sahəsindəki yorulmaz fəaliyyəti senzuranın ləğvi ilə nəticələnmişdir ki, bu da mətbuatın və digər informasiya vasitələrinin demokratik əsaslar üzərində sərbəst inkişafına zəmin yaratmışdır.

Natiq vurğulamışdır ki, ölkəmizdəki demokratik mühitdən, söz azadlığından sui-istifadə edən, bəzi telekanallarda özünə yer tapan bayağı verilişlər, şit şou-əyləncə proqramları, səviyyəsiz yarışmalar, ara söhbətləri isə bir növ «yeni» ənənəyə çevrilmişdir. Mənsub olduğu xalqın mənəviyyatını, tarixi-mədəni

dəyərlərini gözdən salan bir sıra verilişlər, həqiqətən də, bu günümüz və sabahımız üçün olduqca zərərlidir.

Nə qədər ağrılı olsa da, deməliyik ki, bəzi telekanallarda hərbi-vətənpərvərlik verilişləri azlıq təşkil edir. Olanlar da başdansovdu və uzun illərdən bəri tamaşaçını bezdirən şablonlar əsasında hazırlanır. Bu mövzuda yeni və fərqli, cəlbedici proqram variantları, demək olar ki, görünmür. Qarabağ problemi, işğal altındakı torpaqlarımızın taleyi kimi ən vacib və aktual məsələlər çox vaxt ekran-efir mühitində ikinci planda qalır. Əvəzində telekanallarda səviyyəsiz və bəzən ikrah doğuran proqramlar geniş yer alır.

Bununla yanaşı, bəzi telekanallarda hazırlanan yüksək səviyyəli verilişlərdən də söz açan akademik B.Nəbiyev bildirmişdir ki, ədəbiyyat klassiklərimizi, folklor və etnoqrafiya mədəniyyətimizi işıqlandıran «Məclisi-üns», «Tərəf-müqabil», «Bir mahnının tarixçəsi», «Ədəbi abidələr», «Yurd yeri», «İncilər» adlı verilişlər öz dolğunluğu ilə zövq oxşayır.

«Televiziya həmişə arzu olunan qonaqdır. Çox istərdim ki, bəzi telekanallar bu qonaq statusundan sui-istifadə etməsinlər, tənqid edilən qüsurlarını və digər nöqsanlarını aradan qaldırsınlar», - deyən B.Nəbiyev vurğulamışdır ki, xalqımızın adət-ənənələrinə, milli mentalitetimizə zərər vuran məzmunsuz, bayağı, şit şoulardan uzaqlaşmaq günün tələbidir.

Konfransda AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun direktoru İlham Məmmədzadə «Azərbaycan efir məkanı və ictimaiyyətçi alimlər qarşısında duran vəzifələr», AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, filologiya elmləri doktoru, professor **Gövhər Baxşəliyeva** «Şərqşünas alimlər efir məkanını necə görmək istəyir», AMEA-nın müxbir üzvü Rəna Məmmədova «Azərbaycan teleməkanında milli musiqimiz», AMEA-nın İnsan Hüquqları İnstitutunun direktoru Aytən Mustafayeva «Tamaşaçının və ya oxucunun hüquqlarını necə qorumalı», professor Rəhilə Məhərrəmova «Azərbaycan efir məkanı və ədəbi dilimiz», sənətşünaslıq doktoru Kübra Əliyeva «Azərbaycan incəsənəti efir məkanında» və filologiya elmləri namizədi Ağaverdi Xəlilov «Azərbaycanın efir məkanı və folklor: problemlər və perspektivlər» mövzularında məruzələrlə çıxış etmişlər.

Məruzələrdə jurnalistlərin peşəkarlığını artırmaq üçün treninqlərin təşkili, efir üçün seçilmiş mövzulara uyğun ekspertlərin təyin olunması, AMEA-nın institutları tərəfindən müxtəlif mövzulara uyğun layihələrin hazırlanaraq telekanallara təqdim edilməsi, Azərbaycan dilinin üslub və qaydalarına əməl olunması, yeri gəldi-gəlmədi alınma sözlərdən istifadənin qarşısının alınması, görkəmli alimlərin həyat və fəaliyyətini əks etdirən verilişlərin hazırlanması və

digər təkliflər səsləndirilmişdir.

Məruzələr ətrafında AMEA-nın müxbir üzvü Tofiq Hacıyev, akademik Vasim Məmmədəliyev, Milli Məclisin deputatı, professor Nizami Xudiyev və başqaları çıxış edərək, konfransın aktuallığını vurğulamış və Azərbaycanın efir məkanı üçün vacib olan bəzi məsələlərdən danışmışlar.

AzərTAc.
«Elm» qəzeti, 26 noyabr 2009-cu il.

«İSLAMDA MƏDƏNİYYƏT VƏ GÖZƏLLİK AMİLİ» MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANS KEÇİRİLMİŞDİR

9-10 noyabr 2009-cu il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Milli Azərbaycan Tarixi Muzeyində «İslamda mədəniyyət və gözəllik amili» mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. 9 ölkənin elmi-tədqiqat və ali təhsil müəssisələri nümayəndələrinin iştirakı ilə keçirilən və 2 gün davam edən konfransda ilk olaraq «Bakı-islam mədəniyyətinin paytaxtı» ili çərçivəsində muzeydə təşkil olunmuş sərginin açılışı olmuşdur. Sərgidə Azərbaycanın və onun paytaxtı Bakı şəhərinin müsəlman dünyasında yeri, islam dininin xalqın həyatının müxtəlif sahələrinə təsiri göstərilmiş, Azərbaycanın müsəlman sivilizasiyası kontekstində öz yeri olan bir ölkə kimi obrazının yaradılmasına cəhd edilmişdir. Sərgidə nümayiş etdirilən eksponatlar islamın Azərbaycanın dövlətçiliyinə, azər-baycanlıların mədəniyyətinə, məfkurəsinə, məişətinə, adət-ənənələrinə təsirini, ölkəmizin digər müsəlman ölkələri ilə qarşılıqlı əlaqələrini əks etdirir.

Konfransı giriş sözü ilə Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva açaraq bu tədbirin «Bakı-islam mədəniyyətinin paytaxtı» mədəniyyət ili çərçivəsində keçirildiyini bildirmişdir. Bakı şəhərinin bu fəxri ada layiq görülməsini dövlət siyasətinin tərkib hissəsi olaraq islam dəyərlərinə, mədəniyyətinə, islam irsinin zənginləşməsinə göstərilən xüsusi diqqət və qayğının nəticəsi kimi qiymətləndirmişdir: «Bakı şəhəri əsrlər boyu Şərq və Qərb arasında bir körpü rolunu oynamış, zəngin tarixi və mədəniyyəti ilə bu inteqrasiyaya öz töhfələrini vermişdir. Azərbaycanın milli mədəniyyətinin formalaşmasında islamın böyük rolu olmuşdur. İslam özündə ümumbəşəri dəyərləri cəmləşdirən humanist və sülhpərvər bir dindir. Ümumiyyətlə, sivilizasiyalar arasında islam mədəniyyətinin həmişə xüsusi yeri olmuş, elm, təhsil, memarlıq, təsviri incəsənət, musiqi, poeziya və s. məhz islam dininə əsaslanaraq ümumbəşəri nailiyyətlər əldə etmişdir». S.Məmmədəliyeva islam dininin düzgün aşılanmasında elmin və alimlərin əvəzolunmaz rolunu qeyd edərək onlara bu səmərəli fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra AMEA-nın prezidenti, akademik Mahmud Kərimov Rəyasət Heyəti və öz adından iştirakçıları salamlamış, konfransın Bakıda keçirilməsinin heç də təsadüfi olmadığını bildirmişdir: «Azərbaycan monumental ortalıqda yerləşən bir ölkə kimi həm Şərqin, həm də Qərbin zəngin mədəni işlərinin ən vacib nümunələrini özündə əks etdirir. İslam mədəniyyətinin paytaxtı olacaq şəhər zən-

gin tarixə sahib olmalı, elmin, ədəbiyyatın, mədəniyyətin inkişafı sahəsində xüsusi nailiyyətlərə nail olmalı, islam, bütövlüklə dünya mədəniyyətinə xüsusi töhfələr verməlidir». Akademik M.Kərimov bu baxımdan Azərbaycan mədəniyyətinin islam mədəniyyətinin önəmli bir hissəsi kimi dünya mədəniyyəti tarixinə əvəzsiz tövhələr verdiyini qeyd etmişdir. Azərbaycan mədəniyyətin bütün sahələrində Şərqi və islamı ən yüksək səviyyədə təmsil edərək ümumbəşəri dəyərlər kontekstində özünəməxsus yer tutur. Məhz bu baxımdan Azərbaycan mədəniyyəti islam mədəniyyətinin təmsilçisi kimi gözəllik amilini özündə əks etdirir. Millətlərarası münasibətlərin ümumbəşəri dəyərlər kontekstində formalaşması bu əlaqələrin qarşılıqlı anlaşma istiqamətində inkişaf etməsinə təkan verir. Bu isə həmrəyliyin, bərabərliyin, tolerantlığın formalaşmasına zəmin yaradır.

M.Kərimov vurğulamışdır ki, son zamanlar böyük tərəqqi dövrünü yaşayan Azərbaycan Qərbin Şərqə qapısı olaraq Qərb rasionalizmini, elmini Şərqə, Şərqin mədəniyyətini, dəyərlərini isə Qərbə ötürməkdə çox mühüm yer tutduğunu bir daha sübut etməkdədir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Hidayət Orucov çıxışında aktual bir mövzuya həsr olunmuş bu beynəlxalq konfransın islamda gözəllik və mədəniyyət anlayışlarının daha dərindən tədqiq olunmasında, ümumiyyətlə, müqəddəs dinimizin regionda və dünyada düzgün təbliğ edilməsində önəmli rol oynayacağını bildirmişdir. İslam dininin mədəniyyət anlayışının ümumbəşəri olduğunu qeyd edən natiq islamın mədəniyyətdə din, dil və irq məhdudiyyəti qoymadığını, insanları məhdud çərçivədə saxlamadığını, tərəqqiyə yönəltdiyini bildirmişdir.

Sonra konfrans iştirakçılarından AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, fil.e.d., professor **Gövhər Baxşəliyeva** «İslam mədəniyyətinin təşəkkülündə Azərbaycan ziyalılarının rolu», Albaniya Dövlət Arxivinin əməkdaşı Entela Muço «Nadir şah dövründə Bakı islam mədəniyyəti», Rusiyanın Nijni-Novqorod İslam İnstitutunun rektoru, siyasi elmlər namizədi Dəmir Müxətdinov «Volqa-Ural regionunda islam mədəniyyəti və təhsili: təcrübə və yenilik», publisist-tədqiqatçı Teymur Atayev «İslamda harmoniya dünya ilahiliyinin ifadəsidir», İstanbul Universitetinin nümayəndəsi doktor Vüqar İmanov «A.M.Topçubaşovun Qafqazdakı dini təhsil müəssisələrinin islahat layihəsi», AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, t.e.d. Tarix Dostiyev «Orta əsr Bakı şəhərinin maddi mədəniyyətində islam amili», Bakı Dövlət Universitetinin «Azərbaycanşünaslıq» Elmi-Tədqiqat Mərkəzinin elmi işçisi Səidə Quliyeva «İslam mədəniyyətinin paytaxtları», Moskva Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşı, fəl.e.n. Nadejda

Mixaylova «İslam şəriətində dilin gözəllikləri», İordaniya Haşimlər Krallığı Ali-Beyt Universitetinin əməkdaşı, fəl.e.d. Əli Cümə əl-Rəvahinə «İslamda bahar gözəllikləri» və fəl.e.d. Məhəmməd Mahmud Ducan əl-Amuş «İslam şəriətində dilin gözəllikləri», AMEA Milli Azərbaycan Tarixi Muzeyinin elmi işlər üzrə direktor müavini, t.e.n. Nərgiz Əliyeva «Xilafət dövründə Azərbaycanın islam mədəniyyəti mərkəzləri (XI-XII əsrlər)» mövzularında məruzələr etmişlər.

Sonda konfransın mövzusu və məruzələrlə bağlı ətraflı fikir mübadiləsi aparılmış, bu cür beynəlxalq tədbirlərin islamın təbliği və olduğu kimi qəbul edilməsində mühüm rol oynadığı vurğulanmışdır.

Sevinc Paşayeva,
«Elm» qəzeti, 26 noyabr 2009-cu il.

İSLAM KONFRANSI TƏŞKİLATI PARLAMENT İTTİFAQININ NİZAMNAMƏSİNƏ DƏYİŞİKLİK EDİLİB

İslam Konfransı Təşkilatı Parlament İttifaqının (Assambleyasının) Nizamnaməsinə bir sıra dəyişikliklər edilib. Bu haqda jurnalistlərlə söhbətində Milli Məclisin (MM) İslam Konfransı Təşkilatı Parlament İttifaqındakı (İKT Pİ) nümayəndə heyətinin rəhbəri, sözügedən qurumun İcraiyyə Komitəsinin üzvü **Gövhər Baxşəliyeva** məlumat verib. G.Baxşəliyevanın sözlərinə görə, İKT Pİ-nin Nizamnaməsinə dəyişikliklər bu günlərdə adıçəkilən təşkilatın İcraiyyə Komitəsinin Misir Ərəb Respublikasının (MƏR) paytaxtı Qahirə şəhərində keçirilən növbəti toplantısında edilib. Millət vəkili bildirib ki, İKT Pİ-nin Nizamnaməsinə dəyişikliklərin edilməsində məqsəd bu qurumu daha çevik və mobil bir təşkilata çevirmək niyyətindən, zərurətindən yaranıb. «Niyyət budur ki, İKT Parlament İttifaqı dünyada və islam aləmində baş verən, cərəyan edən hadisələrə daha tez və zamanında reaksiya verə bilsin», – deyən G.Baxşəliyevanın qeyd etdiyinə görə, Nizamnaməyə dəyişikliklərlə bağlı təkliflər həm qurumdakı nümayəndə heyətləri, həm İKT-nin baş katibi Ehsanoğlu, həm də İKT Pİ-nin Baş Katibliyi – baş katib və onun köməkçiləri tərəfindən irəli sürülüb və müzakirələr nəticəsində həmin təkliflərin bir xeyli qismi nəzərə alınıb. Millət vəkili söhbət zamanı onu da qeyd edib ki, İKT Pİ İcraiyyə Komitəsinin toplantısı keçirilən günlər ərzində Milli Məclisin nümayəndə heyəti MƏR-də səfərdə olub. «Biz ayın 19-da Misir Qəlyubiyyə vilayətinin Qanatr şəhərində olduq və orada yerləşən Azərbaycan-Misir Dostluq Parkında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdik, eləcə də şəhərin meri ilə görüşdük. Bundan sonra Əl-Obur şəhərində Azərbaycanın birinci xanımı, millət vəkili Mehriban Əliyevanın adını daşıyan məktəbdə olduq, məktəbin müdiriyyəti, kollektivi ilə yaxından tanışlıq imkanı əldə etdik. Məktəbdə Mehriban xanıma həsr olunmuş guşə ilə tanış olduq», – deyə millət vəkili sözlərinə əlavə edib.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 29 dekabr 2009-cu il.

AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİ TƏSDİQLƏYƏN TARİXİ XƏRİTƏLƏR AŞKARLANMIŞDIR

Hazırda ərazi bütövlüyünü bərpa etmək uğrunda mübarizə aparan xalqımızın haqq səsini bütün dünyaya çatdırmaq, yalan üzərində qurulan erməni təbliğatını ifşa etmək üçün Azərbaycan barəsində həqiqətləri hər kəsə bəyan etmək çox vacibdir.

Azərbaycan Milli Elmlər Akademiyası akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutundan bildirmişlər ki, tarixi sənədlər məhz Azərbaycan xalqının əzmkar mübarizəsində haqlı olduğunu açıq-aşkar göstərir. Sadəcə, ermənilərin dünya ictimaiyyətinin gözü önünə çəkdiyi qalın yalan pərdəsini yarmaq üçün hər birimiz həqiqətləri üzə çıxarmaq işində əlimizdən gələni əsirgəməməliyik.

Bu sahədə Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, professor **Gövhər Baxşəliyevanın** ötən ay Misirin Dar-ül-Kütub kitabxanasından əldə edərək gətirdiyi xəritələr böyük əhəmiyyətə malikdir. Həmin kitabxananın kartoqrafiya şöbəsində 15 mindən artıq müxtəlif tarixi xəritə saxlanılır. Misirə qısa səfəri dövründə Gövhər Baxşəliyeva bu xəritələrin yalnız bir qismi ilə tanış olmaq imkanı əldə etmişdir. Lakin elə bu xəritələr arasından o, Azərbaycan üçün çox dəyərli olan 5 xəritəni üzə çıxararaq həmin xəritələrin surətini götürmüşdür.

Avropa və Asiya ölkələrində ötən əsrlərdə nəşr edilmiş və tarixin müxtəlif dövrlərini əhatə edən bu xəritələrlə tanış olarkən Azərbaycanın ərazi bütövlüyünün, Ermənistanın isə indiki ərazisindən çox-çox uzaqlarda, cənubda olmasının Qərb alimlərinə, xəritəşünaslarına açıq-aydın bəlli olduğu təsdiqlənir. Bütün bunlar mənfur qonşularımızın son dövrlərdəki yalançı təbliğatının ifşa edilməsinə yeni bir əsas verir.

Gövhər Baxşəliyeva həmin xəritələrin surətini Bakıya gətirmiş və onları dərindən araşdırmışdır. G.Baxşəliyevanın bu araşdırmalarının nəticəsi ilk növbədə Azərbaycan oxucusuna, daha sonra isə bütün dünya ictimaiyyətinə çatdırılacaqdır.

Bu xəritələrdən birincisi (şəkil 1a, şəkil 1b) ötən əsrin əvvəllərində Parisin Sent Denis Bulvarı 18-20 ünvanında A.Tarid tərəfindən nəşr edilmişdir. Dəmir yolları və naviqasiya xətlərini göstərmək üçün tərtib olunan bu xəritə Avropa və Asiya ölkələrini əhatə edir. Bu xəritədə Xəzər dənizinin qərb sahillərində təsvir edilən və Azərbaycan kimi təqdim edilən dövlətin ərazisi Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920-ci illər) ərazisi ilə uyğun, hətta nisbətən geniş verilmişdir.

Azərbaycan Milli Ensiklopediyasında təqdim edilən müvafiq xətirədə (səh. 290) mübahisəli ərazi kimi qeyd edilən yerlər də A.Taridin xəritəsində Azərbaycan ərazisi kimi verilmişdir. Dağlıq Qarabağın, o cümlədən Şuşanın tarixi Azərbaycan ərazisi olduğunu təsdiqləyən bu xəritədə ölkəmizin ərazisinə indiki

dövlətimizin ərazisindən əlavə şimaldan Dərbənd, Qasımkənd və daha yuxarı olan yerlər verilir. Qərbdən sərhəd Göyçə gölündən keçir. Müasir Ermənistanın Mehri, Qafan, Gorus, Sisyan, Vardenis, Krasnoselsk rayonları, Berd rayonunun yarıdan çoxu və s. Azərbaycan ərazisi kimi göstərilir. Bu xəritənin Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən tarixi coğrafiyasının öyrənilməsində mühüm əhəmiyyəti vardır.

Digər bir xəritədə Gülüstan, Türkmənçay müqavilələrindən sonrakı İran ərazisi əks olunmuşdur. Fars dilində tərtib olunan bu xəritədə Azərbaycan toponimi Araz çayının sahillərindən ta İraqın sərhədlərinə kimi uzanan ərazi üzərində yazılmışdır. Burada Azərbaycan ərazisində Əhər, Mərənd, Savalan dağı, Urmiya gölü, Marağa, Mahabad, Maku, Xoy, Ərdəbil, Miyanə, Təbriz və digər şəhərlər göstərilir.

Xəritələrdən üçüncüsü (şəkil 3a, şəkil 3b, şəkil 3c) 1785-ci ildə İtaliyanın Venesiya şəhərində tərtib olunmuşdur. Böyük Makedoniyalı İsgəndərin imperiyası adlanan bu xəritə Avropa, Afrika və Asiyanı əhatə edir. Xəritə Antonio Zatta və onun oğlanları tərəfindən italyan dilində tərtib edilmişdir. Burada Xəzər dənizinin qərb sahilində Albaniya ərazisi göstərilir. Ərazinin cənubunda Araz çayı qeyd edilir. Xəritəyə diqqət yetirdikdə dövlət deyil, sadəcə, coğrafi ərazi kimi böyük və kiçik Ermənistanın Araz çayından xeyli cənubda Assuriya və Mesopatamiya ilə qonşuluqda verildiyini görmək olar.

Növbəti iki xəritə Niderlandın Amsterdam şəhərində tərtib olunmuşdur və Osmanlı imperiyasını əhatə edir. Rəssam Yudukus Hundius tərəfindən tərtib edilən bir xəritə Sultan III Məhmətin dövrünə (1595-1603) aiddir. Digər xəritə isə 1775-ci ildə rəssam Fridrix dö Vid tərəfindən tərtib edilərək çap olunmuşdur. Bu xəritələrdə də erməni ərazilərinin indikindən xeyli cənubda olaraq, müasir Ermənistan dövlətinin ərazisinə heç bir aidiyyətinin olmaması aşkar görünür. Fridrix dö Vidin xəritəsində Azərbaycan ərazisində Şirvan toponimi qeyd edilir.

Göründüyü kimi, bütün bu xəritələr Azərbaycanın ərazi bütövlüyünü təsdiqləməklə, erməni uydurmalarını ifşa etməklə yanaşı, bunun Qərbdə və Şərqdə ötən əsrlərdə xəritəşünas alimlər tərəfindən şəksiz qəbul edildiyini tam olaraq sübuta yetirir, tarixi Ermənistan ərazilərinin isə nəinki Dağlıq Qarabağa, heç indiki Ermənistan dövlətinin özünə də aidiyyəti olmadığını göstərir.

İstər Dar-ül-Kütubda, istərsə də dünyanın digər mötəbər mənbələrində bu həqiqətləri bir daha təsdiqləyə biləcək onlarla sənədlər əldə etmək mümkündür. Bütün bunları aşkarlamaq Azərbaycan elminin, dünya ictimaiyyətinə çatdırmaq isə hər bir azərbaycanlının borcudur.

AzərTAc.
«Azərbaycan» qəzeti, 27 yanvar 2010-cu il.

XOCALI ŞƏHİDLƏRİ ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNDA YAD EDİLİB

1992-ci il fevralın 26-sı tarixə XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilə bilən Xocalı soyqırımı günü kimi düşdü. Həmin gecə erməni hərbi birləşmələri Rusiya ordusunun 366-cı motoatıcı alayının hərbi texnikasının iştirakilə Dağlıq Qarabağın azərbaycanlılar yaşayan Xocalı şəhərini zəbt etdilər. Ermənilərin törətdikləri görünməmiş vəhşiliklər nəticəsində dinc Xocalı sakinlərindən 613 nəfər, o cümlədən 106 qadın və 63 uşaq şəhid oldu, 487 nəfər şikəst qaldı, əksəriyyəti qocalar, uşaqlar, qadınlar olmaqla 1275 nəfər əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qaldı. Bu kədərli gündən artıq 18 il ötür. Bu gün ölkəmizin hər yerində, eləcə də xaricdə yaşayan soydaşlarımızın səyləri ilə xarici ölkələrdə Xocalı şəhidlərinin əziz xatirəsi yad edilir, müxtəlif anım tədbirləri keçirilir. Xocalı şəhidlərinin belə anım mərasimlərindən biri də dünən Azərbaycan Milli Elmlər Akademiyasının akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda keçirildi. Tədbirdə çıxış edən Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, professor **Gövhər Baxşəliyeva** fevralın 26-sının Azərbaycan xalqı üçün çox ağrılı bir gün olduğunu qeyd etdi. Xocalı faciəsinin ağır nəticələri barədə danışan G.Baxşəliyeva, xalqımızın bu günü böyük hüzn və kədərlə qeyd etdiyini söylədi. G.Baxşəliyeva ümummilli lider Heydər Əliyevin 2-ci dəfə hakimiyyətə gəlişindən sonra Milli Məclis tərəfindən bu hadisələrə hüquqi-siyasi qiymət verildiyini qeyd etdi: «Xocalı soyqırımı ilə bağlı İslam Konfransı Təşkilatı Parlament İttifaqı tərəfindən də müvafiq sənəd qəbul edilib və 57 üzvü olan təşkilata daxil olan ölkə parlamentlərinə də Xocalı faciəsinin soyqırımı kimi qəbul edilməsi ilə bağlı müraciət edilib».

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 26 fevral 2010-cu il.

LİVİYA SƏFİRİ İLƏ ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNDA GÖRÜŞ

Liviyanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Saad Mustafa Mucbir martın 4-də AMEA Şərqşünaslıq İnstitutunda olub. Səfir millət vəkili, Şərqşünaslıq İnstitutunun direktoru, professor **Gövhər Baxşəliyeva** ilə görüşüb.

Gövhər xanım Azərbaycan-Liviya Parlamentlərarası Dostluq qrupunun rəhbəridir. Saad Mustafa Mucbir G.Baxşəliyeva ilə görüşün bu səbəbdən, eyni zamanda, Azərbaycanla ölkəsinin mövcud elmi əlaqələrini öyrənmək və inkişaf etdirmək baxımından ona maraqlı olduğunu bildirib.

G.Baxşəliyeva Şərqşünaslıq İnstitutunda ərəbşünaslıq sahəsində görülən işlərdən söz açıb, səfiri institutda son zamanlar çap olunmuş kitablar və elmi jurnallarla tanış edib. Gövhər xanım rəhbərlik etdiyi institutda Liviya ilə bağlı elmi işlərin aparılmasının vacibliyindən danışıb. O, iki ölkə alimləri arasında elmi əlaqələrin qurulması, onların qarşılıqlı elmi səfərlərinin təşkilinin bu işə çox fayda verə biləcəyini qeyd edib, müştərək elmi işlərin görülməsinin əhəmiyyətini vurğulayıb. Gövhər xanım şərqşünas alimlərimiz üçün Liviya kitabxanalarında olan qədim mənbələrin, xəritələrin əhəmiyyətli olacağını bildirib.

Səfir Saad Mustafa Mucbir Azərbaycanda aparılan quruculuq işlərini, Azərbaycan elminin inkişafını yüksək qiymətləndirdiyini deyib və respublikamızdakı diplomatik fəaliyyətində ölkələrimiz arasında elmi əlaqələrin qurulmasına böyük həvəslə yardımçı olacağını söyləyib.

Sevinc Paşayeva,
«Elm» qəzeti, 11 mart 2010-cu il.

«MÜASİR ŞƏRQİN SOSİAL-İQTİSADİ İNKİŞAFI VƏ AZƏRBAYCAN MODELİ» ADLI KONFRANS KEÇİRİLDİ

Martın 17-18-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə «Müasir Şərqin sosial-iqtisadi inkişafı və Azərbaycan modeli» adlı ümumrespublika elmi-nəzəri konfransı keçirildi.

Konfransın AMEA Rəyasət Heyətinin binasında keçirilmiş plenar iclasında AMEA Şərqşünaslıq İnstitutunun direktoru, fil.e.d., professor **Gövhər Baxşəliyeva** şərqşünaslıq elminin genişprofilli olduğunu qeyd edərək, bu sahədə klassik dövrlə bağlı tədqiqatlarla yanaşı, Şərq ölkələrinin müasir inkişafının, sosial-iqtisadi, mədəni həyatının araşdırıldığını da söylədi. G.Baxşəliyeva konfransın əsas məqsədlərini açıqladı: «Şərq ölkələri çox mürəkkəb inkişaf yolu keçib. Konfransın əsas məqsədi müasir Şərq ölkələrinin sosial-iqtisadi inkişafına bir daha nəzər salmaqdır. Bu prosesləri öyrənib qiymətləndirmək bizim üzərimizə düşür».

Gövhər xanım Azərbaycanın Şərqin ayrılmaz bir hissəsi olduğunu qeyd edərək, azərbaycanlılarıQadınn müsəlman mədəniyyətinin yaradılmasında oynadıqları roldan söz açdı.

Ölkəmizin müstəqilliyinin ilk illərində siyasi, sosial-iqtisadi böhran içində olduğunu xatırladan G.Baxşıliyeva, Ümummilli lider Heydər Əliyevin qayıdışından sonra bütün bu hallara son qoyulduğunu, siyasi sabitliyin yarandığını, iqtisadi inkişaf üçün əlverişli mühit yaradıldığını qeyd etdi. Bu gün Azərbaycan Respublikasının əldə etdiyi iqtisadi uğurlar dünya ölkələrinə bir nümunədir.

Şərqşünaslıq İnstitutunun «Din və ictimai fikir» şöbəsinin müdiri, fəl.e.n. Esmeralda Həsənova «Müasir Türkiyədə ictimai-siyasi vəziyyət, millətçilik və islam», AMEA İqtisadiyyat İnstitutunun direktoru, iqtisad elmləri doktoru, professor İsa Alıyev, Şərqşünaslıq İnstitutunun əməkdaşı, i.e.n. Əkrəm Rəhimli «Azərbaycan-İran iqtisadi əlaqələri və onun inkişaf perspektivləri», Şərqşünaslıq İnstitutunun «Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı» şöbəsinin müdiri, t.e.n. Fərda Əsədov «Azərbaycanla qonşu Yaxın Şərq ölkələrində siyasi islam və islam transformasiyası» mövzularında məruzələrlə çıxış etdilər.

Konfrans «Müasir Şərqin sosial-iqtisadi inkişafı və Azərbaycan modeli», «Qloballaşma və Şərq ölkələrinin sosial-siyasi inkişafı» və «Müasir Şərq ölkələrinin iqtisadi inkişafı: problemlər və perspektivlər» bölmələri üzrə işini davam etdirmişdir.

«Elm» qəzeti, 7 aprel 2010-cu il.

«24 APREL TARİXDƏN MƏLUMATI OLMAYANLARIN ALDADILDIĞI GÜNDÜR»

HULUSİ KILIÇ: «ERMƏNİ SOYQIRIMI»NI MÜZAKİRƏYƏ ÇIXARAN DÖVLƏTLƏR BUNU ERMƏNİ LOBBİSİNDƏN PUL QOPARMAQ XATİRİNƏ EDİRLƏR»

Dünən «Trend» İnformasiya Agentliyinin və Jurnalist Qadınlar Assosiasiyasının (JQA) təşkilatçılığı ilə «Uydurma tarixin görünən və görünməyən tərəfləri» adlı konfrans keçirilib. JQA rəhbəri Sevil Yusifova qeyd edib ki, konfransın əsas məqsədi 24 aprel tarixi ilə bağlı ermənilərin qaldırdığı qondarma soyqırım iddialarına qarşı ciddi faktlarla, elmi araşdırmalarla ictimaiyyəti tanış etməkdən ibarətdir: «Bura toplaşmaqda əsas məqsədimizdən biri də Türkiyə-Azərbaycan qardaşlığının sarsılmazlığını nümayiş etdirmək, həmçinin ötən əsrdə baş vermiş erməni cinayətlərinin əsl üzünü açıb göstərmək, bu tarixi həqiqətləri dünya xalqlarına çatdırmaq, gerçəkliyin üzə çıxmasında elm adamları ilə medianın əməkdaşlığına nail olmaqdır. Buna səbəb isə 24 apreldə dünyanın bir çox yerlərində ermənilərin yalandan hay-küy salmağa başlamasıdır. Ermənilər öz yalanlarını dünyaya çatdırmaqdan ötrü hər cür fitnə-fəsada, saxtakarlığa əl atmaqdan belə çəkinmirlər. Onlar bizim faciələrimizin üstündə öz faciələrini uydururlar. Çox təəssüf ki, dünyanın bir çox super dövlətləri də bu uydurmalara dəstək olurlar».

Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili **Gövhər Baxşəliyeva** rəhbərlik etdiyi institutda türk tarixini öyrənən xüsusi şöbənin fəaliyyət göstərdiyini diqqətə çatdırıb. O, «erməni soyqırımı»nın da məhz bu şöbə tərəfindən araşdırıldığını söyləyib: «Həmin araşdırmalar bir daha təsdiq edir ki, əslində tarixdə heç bir «erməni soyqırımı» olmayıb. Əksinə, ermənilər tərəfdən azərbaycanlılara qarşı bir neçə dəfə soyqırım aktı həyata keçirilib». Gövhər Baxşəliyeva tarixdə hansısa «erməni soyqırımı»nın olmadığını bildirib. O, 1915-ci ildə ermənilərə qarşı heç bir soyqırım aktının törədilmədiyini diqqətə çatdıraraq, əksinə, həmin illərdə ruslarla əlbir olan ermənilərin 1 milyona yaxın müsəlmanı öldürdüyünü, yaxud da öz el-obasından didərgin saldığını söyləyib.

Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfiri Hulusi Kılıç soyqırım məsələsi barədə siyasətçilərin deyil, tarixçilərin danışmasının daha düzgün hal olduğunu bidlirib. Səfir ölkəsinin bu məsələ ilə bağlı mövqeyini də iştirakçıların diqqətinə çatdırıb: «Birinci cahan savaşında Osmanlı dövləti beş cəbhədə müharibə aparırdı. Müharibənin gedişində ermənilərin xəyanəti ilə üzləşən

Osmanlı dövləti onları öz torpağının başqa bir hissəsinə, indiki Suriya ərazisinə göndərib. Müharibənin getdiyi ərazidən uzaqlaşdırmaq istəyib. Bunu isə dinc bir şəkildə həyata keçirib. Ona görə də burada hansısa soyqırımdan danışmaq yersizdir. 1915-ci ildə ermənilərlə yanaşı, başqa milli azlıqlar da həmin ərazidə yaşayıblar. O zaman mən sual edirəm ki, niyə Osmanlı dövləti oradakı yəhudiləri və sair millətləri deyil, məhz ermənilər köçürdü. Məncə, bu sualın cavabını hər kəs yaxşı bilir. 24 aprel tarixi gerçəkliyin saxtalaşdırılaraq qarşımıza çıxarıldığı bir gündür. Bunu tarixi hadisələr barədə geniş məlumatı olmayan insanların aldadılması günü kimi də qəbul edirəm. Biz 2005-ci ildən bu yana bütün dünyaya deyirik ki, gəlin bu məsələni tarixçilərin öhdəsinə buraxaq.

Tarixçilərdən ibarət tərəfsiz komissiya yaradaq və bu hadisələri birgə araşdıraq. Bunun üçün bütün arxivlərimiz tarixçilərin üzünə açıqdır. Ancaq təəssüf ki, bizim bu çağırışımıza Ermənistan heç bir cavab vermir. Dünya bilməlidir ki, Türk milləti öz tarixi ilə üzləşməkdən heç bir zaman qorxmayıb. Bu gün də qorxmur».

Səfir «erməni soyqırımı»nın başqa ölkələrin parlamentində müzakirə olunmasına da münasibət bildirib. Qeyd edib ki, bu addımı atan dövlətlər erməni diaspor təşkilatlarından, erməni lobbilərindən pul qazanmaq xatirinə bunu edirlər: «Tarixin üçüncü bir ölkənin parlamentində müzakirə olunmasını düzgün addım hesab eləmirəm. Çünki həmin ölkənin parlament üzvlərinin əksəriyyəti bəlkə də heç xəritədə Türkiyənin, Azərbaycanın və Ermənistanın harada yerləşdiyini belə göstərə bilməzlər. Amma onlar tariximizi müzakirə eləyir, hətta siyasi qərarlar qəbul edirlər. Digər tərəfdən «erməni soyqırımı»nı müzakirə edən dövlətlərin parlamentləri erməni lobbiçilərindən pul qoparmaq xatirinə bu işə gedirlər. Bu isə tarixi saxtakarlığa dəstək verməkdir, tarixə qarşı cinayət törətməkdir. Türkiyə bu mövzuda heç kimə boyun əymədi və bundan sonra da əyməyəcək. Soyqırım günahkarlarını axtaranlar, yaxşı olardı ki, tarixin daha yaxın səhifələrini oxusunlar. 1990-cı illərdə baş verən hadisələri öyrənsinlər. Bosniyada, Ruandada, Xocalıda baş verən hadisələrə baxsınlar. Çünki həmin hadisələrlə bağlı kifayət qədər video materiallar, sübutlar var».

Rufik İsmayilov,
«525-ci qəzet», 24 aprel 2010-cu il.

ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNDA QƏLƏBƏNİN 65-ci İLDÖNÜMÜ İLƏ BAĞLI YIĞINCAQ KEÇİRİLİB

Dünən AMEA akademik Ziya Bünyadovun adına Şərqşünaslıq İnstitutunda alman faşizmi üzərində qələbənin 65-ci ildönümünə həsr olunmuş yığıncaq keçirildi. Tədbirdə İnstitutun direktoru, millət vəkili **Gövhər Baxşəliyeva** çıxış edərək, alman faşizmi üzərində qələbənin əhəmiyyətindən danışdı: «Bu günlərdə mütərəqqi bəşəriyyət alman faşizmi üzərində qələbənin 65 illiyini qeyd edir. Ötən əsrin dördüncü onilliyində bütün dünyanın başı üzərini almış qara buludları 1941-1945-ci illərdə alman faşizmi üzərində qələbə qazanan Sovet xalqları dağıtdılar. Azərbaycan xalqı bu qələbəyə öz töhfəsini həm ön cəbhədə vuruşmuş yüz minlərlə igid övladları, həm də arxa cəbhədə fədakarlıqla çalışmış insanların gərgin əməyi ilə verib. Müharibəyə respublikamızdan 700 minədək insan yollanıb və onlardan 350 mini amansız döyüşlərdə həlak olub. Bu qələbə uğrunda öz canlarını qurban vermiş igid Azərbaycan övladlarının xatirəsi hər birimiz üçün əzizdir». Xalqımızın ön cəbhədə böyük şücaət göstərmiş qəhrəman övladlarının olduğunu deyən G.Baxşəliyeva İnstitutun direktoru olmuş və hazırda institutun adını daşıdığı akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovdan söz açdı. G.Baxşəliyeva xalqımızın arxa cəbhədə də göstərdiyi rəşadəti də xatırlatdı. O bu qələbənin əldə olunmasında cəbhəyə neftin 90 faizini verən Bakının həlledici rolunu qeyd etdi.

Müharibə illərində Cənubi Azərbaycandan Bakıya gələrək arxa cəbhədə çalışmış hüquq elmləri namizədi Soltanəli Mirzəzadə onunla birgə yüzlərlə soydaşımızın cənubdan gələrək böyük qələbəyə göstərdikləri xidmətlərdən danışdı. S.Mirzəzadə bu qələbənin bütün dünya xalqları üçün böyük əhəmiyyət daşıdığını vurğuladı.

İnstitut əməkdaşlarından fəlsəfə elmləri namizədi Esmeralda Həsənova, tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi və başqaları çıxış edərək müharibənin milyonlarla insanın taleyində ağır izlər qoyduğunu qeyd etdi və bu qələbəni bəşəriyyətə bəxş etmiş insanlar qarşısında bugünkü nəsillərin borclu olduğunu bildirdilər.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 6 may 2010-cu il.

«Ş.M.XİYABANİ HƏRƏKATI – 90»

GÖVHƏR BAXŞƏLİYEVA: «XİYABANİ HƏRƏKATI XALQIMIZIN AZADLIQ UĞRUNDA APARDIĞI MÜBARİZƏNİN ŞANLI SƏHİFƏLƏRİNDƏN BİRİDİR»

Dünən Şərqşünaslıq İnstitutunda «Şeyx Məhəmməd Xiyabani hərəkatı-90» mövzusunda elmi konfrans keçirildi. İnstitutun direktoru, professor **Gövhər Baxşəliyeva** 1920-ci ildə Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi altında baş vermiş xalq hərəkatından, Azərbaycan Demokratik Partiyası və partiyada Xiyabaninin fəaliyyətindən, onun məqsəd və hədəfindən söhbət açdıqdan sonra Xiyabani şəxsiyyətinin ruhaniliklə yanaşı inqilabi-demokratik, böyük mütəfəkkir və vətənpərvər cəhətləri üzərində dayandı və bu keyfiyyətlərin hərəkatın baş verməsinə və gedişinə göstərdiyi təsiri şərh etdi. «Xiyabani hərəkatı tariximizin azadlıq və qurtuluş uğrunda apardığı mübarizənin şanlı və şərəfli səhifələrindən biridir. Bu hərəkatın bütün çalarlarını tədqiq edib öyrənmək və bunları sonrakı nəsillərə çatdırmaq bizim vətəndaşlıq borcumuz və vəzifəmizdir», – deyən G.Baxşəliyeva institutun İran və Cənubi Azərbaycan şöbələrində çalışan alimlərin Xiyabani irsini və onun adı ilə bağlı hərəkatı yeni şəraitdə daha ətraflı və dərindən öyrənəcəyini söylədi. Xiyabani hərəkatının tariximizin unudulmaz və həmişə yadda qalan səhifələrindən olduğunu deyən G.Baxşəliyeva, ulu öndər Heydər Əliyevin bir fikrini xatırlatdı: «Xalqın hər bir günü tarixdə öz yerini tutmalıdır. Tariximizin hər bir nöqtəsi, hər bir günü bizim üçün əzizdir».

İqtisad elmləri namizədi Əkrəm Rəhimli «Şeyx Məhəmməd Xiyabani hərəkatı və onun Güney Azərbaycanın azadlıq hərəkatında yeri» mövzusunda məruzə etdi. Ə.Rəhimli Xiyabaninin mübarizə əzmini belə xarakterizə etdi: «O, ruhani bir şeyx olaraq mübarizə meydanına atılır, inqilab əsgəri kimi ələ silah alıb məşrutəçilərin səngərində vuruşur, alovlu nitqləri ilə inqilab mücahidlərini qələbəyə ruhlandırmaqda tarixi xidmət göstərirdi. O, Səttarxanın qəhrəmanlığına, dönməzliyinə və kütləni mübarizəyə qaldırmaq bacarığına böyük qiymət vermişdir. Xalq tərəfindən Təbriz Əncüməninə, sonra isə, İran Şura Məclisinə vəkil seçilən Xiyabani məntiqi və alovlu nitqləri ilə şahlıq rejimini, ona xidmət göstərən irticaçı qüvvələrin yaramazlıqlarını, ölkənin mənafeyinə düşmən mövqelərini xitabət kürsülərindən cəsarətlə ifşa etmişdi».

«Ucdantutma qırğınlar, soyğunlar, zülm və işgəncələr Azərbaycandakı istiqlaliyyət hərəkatını və azadlıq tələblərini məhv edə bilməyəcək», - deyən Ə.Rəhimli Xiyabaninin və silahdaşlarının Vətən torpağına səpdikləri azadlıq

toxumlarının çürüyüb məhv olmadığını, zaman-zaman bu toxumların cücərib milləti azadlığın işıqlı sabahına doğru mübarizəyə ruhlandırdığını, həmçinin onun son çıxışlarının birində dediyi fikri xatırlatdı: «Haqqa xidmət etmək istəyən bir qüvvə daha güclü düşmənlərin müqabilində məğlub olsa belə, o yenə bir gün dirçəlməyə və ölməz səsini qulaqlara çatdırmağa müvəffəq olacaqdır. Ey ölməz Azərbaycan, başını uca tut, yaşa və əbədi var ol!»

Tarix elmləri doktoru Solmaz Rüstəmova «Ş.M.Xiyabani hərəkatı və Komintern» mövzusunda məruzə etdi. Kommunist İnternasionalının Cənubi Azərbaycanda Xiyabaninin başçılıq etdiyi milli-azadlıq hərəkatına münasibətindən söz açan məruzəçi Kominternin bu hərəkatı görmədiyini, daha çox ruslarla əməkdaşlıq edən Mirzə Kiçik Xana diqqət yetirdiyini söylədi: «Xiyabani heç bir kömək istəmədən özünü müstəqil aparsa da, bunun da sonu faciə ilə qurtardı».

Filologiya elmləri doktoru İslam Qəribli «Ş.M.Xiyabani hərəkatı və Güney Azərbaycandakı ədəbi mühit» mövzusunda məruzə etdi. «XX əsrin ilk onilliklərinin ədəbiyyatında özünü göstərən ən ümdə keyfiyyətlərdən biri qələm sahiblərinin bir çoxunun eyni zamanda əldə silah daxili və xarici irticaya qarşı döyüş meydanına atılması ilə müşahidə olunurdu ki, bu da ədəbiyyata döyüşkən ruh, mübarizə əzmi gətitir, bədii sözün kəsərini daha da artırırdı» – deyən məruzəçi həmin dövrün tanınmış yazarlarının, o cümlədən Mahmud Mirzə Qəni oğlu Qənizadə, Nimtac xanım Səlmasi, Mirzə Əli Şəbüstəri Möcüz, Mirzə Eşqi, İrəc Mirzə, Pərvin Etisami və başqalarının yaradıcılığına toxundu.

Kamil Həmzəoğlu,
«525-ci qəzet», 10 iyun 2010-cu il.

GÖRKƏMLİ ŞƏRQŞÜNAS AİDA İMANQULİYEVANIN «MƏQALƏLƏR VƏ TƏRCÜMƏLƏR» KİTABININ TƏQDİMATI KEÇİRİLDİ

Oktyabrın 15-də AMEA akademik Ziya Bünyadov adına Şərqüşnaslıq İnstitutu tərəfindən görkəmli şərqşünas alim Aida İmanquliyevanın «Məqalələr və tərcümələr» adlı kitabının təqdimatı keçirilib. AMEA Rəyasət Heyətinin binasında təşkil olunmuş tədbiri giriş sözü ilə millət vəkili, Şərqşünaslıq İnstitutunun direktoru professor **Gövhər Baxşəliyeva** açdı. O yaxın günlərdə Şərqşünaslıq İnstititutun dünya şöhrətli alimin elmi fəaliyyəti dövründə çap etdirdiyi məqalələri və ərəb ədəbiyyatından tərcümələri bir araya toplayaraq, kitab şəklində nəşr etdirdiyini bildirdi. Kitabı Şərqşünaslıq İnstitutunun «Ərəb filologiyası» şöbəsinin müdiri, filologiya elmləri doktoru Vilayət Cəfərovun tərtib edərək nəşrə hazırladığını söyləyən G.Baxşəliyeva, ön söz və şərhlərin də Vilayət müəllimə aid olduğunu nəzərə çatdırdı.

Aida İmanquliyevanın elmi fəaliyyətindən söz açan Gövhər xanım dedi: «Aida xanım tək əsas tədqiqatçısı sayıldığı məhcər ədəbiyyatı ilə məşğul olmayıb, eyni zamanda ərəb ədəbiyyatının müxtəlif problemlərini araşdırıb və bütün bunlar da təqdim olunan kitabda öz əksini tapıb. Aida İmanquliyeva həm də Azərbaycan-ərəb, ərəb-rus ədəbi əlaqələrinə dair bir sıra məqalələrin müəllifidir. O, rus ədəbiyyatının çox gözəl bilicisi idi. Xüsusən XIX və XX əsrlər rus ədəbiyyatının ərəb ədəbiyatına təsiri Aida xanımın yaradıcılığında böyük yer tutur».

Gövhər Baxşəliyeva qərb ədəbiyyatının ərəb ədəbiyyatına təsiri ilə də bağlı Aida xanımın bir sıra məqalələr yazdığını söylədi, eyni zamanda onun Mixail Nuaymə, Süheyl İdris və digər ərəb yazıçılarından etdiyi yüksək səviyyəli tərcümələrdən də söz açdı.

Daha sonra söz «Məqalələr və tərcümələr» kitabının tərtibçisi Vilayət Cəfərova verildi. Aida İmanquliyeva ilə 25 il bir şöbədə işlədiyini söyləyən Vilayət müəllim, bu illər ərzində həmkarının bütün yaradıcılığına bələd olduğunu qeyd etdi. Aida xanımın ölkəmizin sərhədlərindən kənarda da ərəb məhcər ədəbiyyatının və ümumilikdə ərəb ədəbiyyatının aparıcı mütəxəssislərindən biri kimi tanındığını deyən V.Cəfərov, tanınmış şərqşünas alimlərin onun barədə söylədikləri bəzi fikirləri xatırlatdı. Kitabın hazırlanması prosesindən də qısa bəhs edən Vilayət müəllim, onun ərsəyə gəlməsində əməyi olanları da qeyd etməyi unutmadı.

Vilayət Cəfərov kitaba Aida xanımın 1963-ci ildən ömrünün sonunadək yazıb çap etdirdiyi bütün məqalələrin toplandığını bildirdi və kitabda görkəmli alimin 53 məqalə və tərcüməsinin dərc olunduğunu qeyd etdi: «Aida xanım

Qərbdə Əndəlus torpaqlarından tutmuş Şərqdə Dəclə və Fərat sahillərinə kimi müxtəlif ərəb ölkələrinin ədəbiyyatını əsl tədqiqatçı müdrikliyi ilə araşdırıb. Yazıçılar İttifaqının üzvü olmuş Aida xanımın tərcümələrinə baxanda onun xalq dilinə necə gözəl bələd olması görünür. Ömür vəfa etsəydi, Aida xanım ərəbşünaslıq elminə daha böyük töhfələr verərdi. İndi bu işi layiqincə davam etdirmək onun ardıcıllarının borcudur».

Vilayət müəllim Aida İmanquliyevnın adına ərəb filologiyası sahəsində mükafatın təsis olunması təklifi ilə də çıxış etdi.

Şərqşünaslıq İnstitutunun Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə Aida İmanquliyevanın anadan olmasının 71-ci ildönümü münasibəti ilə keçirdiyi «Ərəb filologiyası sahəsində gənc alimlərin ən yaxşı elmi-tədqiqat əsəri» adlı müsabiqənin qalibi, filologiya elmləri namizədi Ruhəngiz Cümşüdlü öz çıxışında filologiya elmləri doktoru Aida İmanquliyevanın Azərbaycan şərşqünaslığında önəmli yer tutmasının danılmaz fakt olduğunu qeyd etdi.

Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva tədbiri yekunlaşdıraraq ərəbşünaslıq sahəsində bir məktəb yaratmış Aida xanımın elmi yaradıcılığının gələcək nəslə bir örnək olduğunu söylədi və görkəmli alimin xatirəsinin xalqımızın hafizəsində daim yaşayacağını dedi. Gövhər xanım təqdim olunan kitabın tərtibçisinə və onun hazırlanmasında əməyi olan hər bir kəsə öz təşəkkürünü bildirdi.

«Ədəbiyyat qəzeti», 22 oktyabr 2010-cu il.

BAKIDA «ŞƏRQ XALQLARININ BAKI QURULTAYI - 1920: TARİX VƏ REALLIQLAR» MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS KEÇİRİLİR

Noyabrın 23-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu və Hollandiya Beynəlxalq Sosial Tarix İnstitutunun birgə təşkilatçılığı ilə «Şərq xalqlarının Bakı qurultayı - 1920: tarix və reallıqlar» mövzusunda beynəlxalq elmi konfrans işə başlamışdır.

1920-ci ilin sentyabrında Komintern tərəfindən Bakıda təşkil edilmiş Şərq xalqlarının I qurultayının 90 illiyi münasibətilə keçirilən tədbirdə Azərbaycan alimləri ilə yanaşı, Türkiyə, İran, Özbəkistan, Hollandiya, Rusiya, Böyük Britaniya, Almaniya, Yaponiya və Gürcüstandan olan mütəxəssislər iştirak edirlər.

Şərqşünaslıq İnstitutunun direktoru, professor, Milli Məclisin deputatı Gövhər Baxşəliyeva tədbirin məqsəd və əhəmiyyətindən, Şərq xalqlarının Bakı qurultayının tarixindən danışmışdır. Bildirilmişdir ki, o zaman yeni yaranmış Azərbaycan Sovet Sosialist Respublikasının paytaxtı Bakıda kommunistlərin təşəbbüsü ilə keçirilən qurultayın əsas məqsədi Şərq xalqları arasında kommunist ideyalarını təbliğ etmək olmuşdur. Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun iştirak etdiyi qurultaya Avropa və Asiyanın 37 ölkəsindən 1900-ə qədər nümayəndənin qatıldığı qeyd olunmuşdur. G.Baxşəliyeva Şərq xalqlarının Bakı qurultayının bu xalqların milli oyanış, azadlıq hərəkatında böyük rol oynadığını qeyd etmişdir.

Sovet dövründə qurultayın materiallarının kommunist ideologiyası baxımından araşdırıldığını vurğulayan G.Baxşəliyeva qeyd etmişdir ki, həmin tarixi hadisələr hazırda dünya alimlərinin diqqət mərkəzindədir. Konfransın əsas məqsədi tarixi hadisələrə həqiqətin gözü ilə baxaraq, qurultayın əsl mahiyyətini, reallıqları ortaya çıxarmaq, hadisələri düzgün qiymətləndirməkdir.

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, AMEA-nın vitse-prezidenti, akademik Nailə Vəlixanlı tariximizin silinməz səhifəsi olan Şərq xalqlarının Bakı qurultayının hansı qurum tərəfindən keçirilməsindən asılı olmayaraq, onun açılmayan səhifələrinin arxiv sənədləri vasitəsilə üzə çıxarılmasının vacibliyindən bəhs etmişdir.

Hollandiya Beynəlxalq Sosial Tarix İnstitutunun Yaxın Şərq və Mərkəzi Asiya Departamentinin direktoru, professor Turac Atabəki AMEA ilə birgə artıq dördüncü konfransı təşkil etdiklərini, hazırkı konfransın böyük əhəmiyyətini vurğulamış, təmsil etdiyi qurumun arxivləri haqqında danışmış-

dır.

AMEA Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov Azərbaycan Sovet Sosialist Respublikasının tarixindən, ölkəmizdə sovet hakimiyyəti qurulduqdan sonra xalqımıza vurulan milli-mənəvi zərbələrdən, Özbəkistan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, professor Dilarom Alimova, Türkiyənin Atatürk Universitetinin professoru Yavuz Aslan, Qazaxıstan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, professor Səttar Məcidov, AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, AMEA-nın müxbir üzvü Rafael Hüseynov keçmiş sovet xalqlarının tarixinin yenidən araşdırılmasının vacibliyindən danışmış, həqiqətlərin üzə çıxarılmasında konfransın əhəmiyyətli rol oynayacağına əminliklərini bildirmişlər.

Konfransda «Şərq xalqlarının birinci qurultayından sonra nələr dəyişmişdir? Qafqazda elmi əməkdaşlığın tarixi və perspektivləri», «Şərq xalqlarının birinci qurultayı arxiv sənədlərində», «Məlum və naməlum qurultay: Şərq xalqlarının Bakı Konqresi – 1920» və s. mövzularda məruzələr dinlənilmiş, müzakirələr aparılmışdır.

Tədbir çərçivəsində «Şərq xalqlarının I qurultayı (1920)» adlı tarixi-sənədli film və qurultaya həsr olunmuş fotosərgi nümayiş olunmuşdur.

Konfrans noyabrın 24-də işini davam etdirəcəkdir.

AzərTAc.
«Azərbaycan» qəzeti, 24 noyabr 2010-cu il.

ŞƏRQŞÜNASLIQ İNSTİTUTU «ŞƏRQ XALQLARININ BAKI QURULTAYI – 1920: TARİX VƏ REALLIQLAR» ADLI BEYNƏLXALQ ELMİ KONFRANS KEÇİRDİ

Son zamanlar beynəlxalq əlaqələrini xeyli genişləndirən AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu dünyanın aparıcı elmi mərkəzləri ilə birgə elmi konfransların təşkili ilə də fərqlənir. Noyabrın 23-24-də Şərqşünaslıq İnstitutunun və Niderlandın Beynəlxalq Sosial Tarix İnstitutunun birgə təşkilatçılığı ilə keçirilmiş «Şərq xalqlarının Bakı qurultayı – 1920: tarix və reallıqlar» adlı beynəlxalq elmi konfrans da bu qəbil tədbirlərdəndir. Bu konfransda Azərbaycan, Niderland, Rusiya, Böyük Britaniya, Almaniya, Yaponiya, İran, Türkiyə, Özbəkistan və Gürcüstandan alimlər iştirak edirdilər.

Noyabrın 23-də AMEA Rəyasət Heyətinin konfrans zalında keçirilmiş açılış mərasimində giriş sözünü söyləyərək iştirakçı və qonaqları salamlayan Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, filologiya elmləri doktoru, professor **Gövhər Baxşəliyeva** 90 il öncə baş tutmuş Şərq xalqlarının Bakı qurultayının bu xalqların milli oyanış, azadlıq hərəkatında çox vacib rol oynadığını və bu qurultayın materiallarını zaman-zaman yenidən araşdırmağa ehtiyac olduğunu, hadisələrə obyektiv yanaşmağın vacibliyini qeyd etdi. Konfransın böyük əhəmiyyətindən danışaraq dünya alimlərinin də bu hadisəyə çox böyük maraq göstərdiyinini söyləyən Gövhər xanım, konfransda söyləniləcək məruzələrdə tariximizin bugünədək elmə məlum olmayan pərdəarxası hadisələrinin açıqlanacağını dedi.

Tədbirdə çıxış edən AMEA-nın vitse-prezidenti, AMEA Azərbaycan Tarixi Muzeyinin direktoru Nailə Vəlixanlı Şərq xalqlarının Bakı qurultayının tariximizin silinməz səhifəsi olduğunu söylədi və onun hansı qurum tərəfindən keçirilməsindən asılı olmayaraq, tarixmiz olduğuna görə vaxtında açılmamış sirləri arxiv sənədləri vasitəsilə üzə çıxarmağın vacibliyini vurğuladı.

Niderlandın Beynəlxalq Sosial Tarix İnstitutunun Yaxın Şərq və Mərkəzi Asiya departamentinin direktoru, Leyden və Amsterdam universitetlərinin professoru Turac Atabəki AMEA ilə birgə artıq 4-cü konfransı təşkil etdiklərini söyləyərək, hazırkı konfransın böyük əhəmiyyətini vurğuladı. Təmsil etdiyi institutun arxivləri haqqında məlumat verən T.Atabəki, bugünkü konfransın təşkilində böyük əməyi olan AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı, tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidinin Niderlandın Beynəlxalq Sosial Tarix İnstitutu ilə 20 ilə yaxındır ki sıx əməkdaşlıq etdiyini nəzərə çatdırdı. Niderlandlı alim şərqşünaslıq deyəndə beynəlxalq aləmdə əsasən dil və ədəbiyyata dair tədqiqatların nəzərə tutulduğunu söyləyərək, AMEA Şərqşünaslıq İnsti-

tutunda Şərqin tarixinə, xüsusən də müasir tarixinə dair aparılan tədqiqatların əhəmiyyətini vurğuladı və bunun Orta Asiyanın müvafiq elmi mərkəzləri üçün də nümunə olduğunu dedi.

Daha sonra AMEA A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, müxbir üzv Yaqub Mahmudov, Özbəkistan Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Dilarom Alimova, AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, müxbir üzv Rəfael Hüseynov, Türkiyənin Ərzurum şəhərindəki Atatürk Universitetindən professor Yavuz Aslan, Qazaxıstan Tarix İnstitutunun direktoru, professor Səttar Məcidov çıxış edərək keçirilən tədbirin əhəmiyyətindən danışdılar.

Çıxışlardan sonra tədbir iştirakçılarına «Şərq xalqlarının I qurultayı (1920)» adlı tarixi-sənədli film nümayiş etdirildi. Daha sonra məruzələr dinlənildi. Konfransın ilk günündə Rusiya Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya, Qafqaz və Ural-Volqaboyu Araşdırmaları Mərkəzinin rəhbəri Ələkbər Ələkbərov «Şərq xalqlarının I qurultayından sonra nələr dəyişmişdir? Qafqazda elmi əməkdaşlığın tarixi və perspektivləri», Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi, tarix elmləri doktoru Ataxan Paşayev «Şərq xalqlarının I qurultayı arxiv sənədlərində», Niderlandın Beynəlxalq Sosial Tarix İnstitutunun Yaxın Şərq və Mərkəzi Asiya departamentinin direktoru, Leyden və Amsterdam universitetlərinin professoru Turac Atabəki «Kominternin yaxın tarixinə bir baxış: komintern və Şərq xalqlarının Bakı qurultayı», AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı, tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi «Məlum və naməlum qurultay: Şərq xalqlarının Bakı konqresi-1920», Azərbaycan Prezidenti yanında İdarəçilik Akademiyasından tarix elmləri namizədi Firdovsiyə Əhmədova «Sovet Rusiyasının Şərq siyasətində Azərbaycanın yeri (1920-1922-ci illər)» mövzusunda məruzələr etdilər.

Konfransın ikinci iş günündə Böyük Britaniyanın Mançester Universitetindən Oliver Bestin «Bakı Daşkəndə qarşı: Beynəlxalq Təbliğat Şurası və onun Şərq xalqlarının I qurultayı ərəfəsində Şərqdə inqilabi hərəkatlarda fəaliyyəti (1919-1920)», İranın Qəzvin şəhərindən Xomeyni Universitetinin professoru Hüseyn Abadianın «Koalisiyalar və parçalanmalar: İranın siyasi fəalları və I Bakı konqresi», Almaniyanın Şverin şəhərindən müstəqil tədqiqatçı Pejman Deyləminin «Şərq xalqlarının Bakı qurultayında İran nümayəndələri və Qurultayın İranda Sovet diplomatiyasına təsiri», Türkiyənin Ərzurum şəhərindəki Atatürk Universitetndən professor Yavuz Aslanın «Şərq xalqlarının I qurultayının Türkiyə baxımından əhəmiyyəti və nəticələri», Bakı Dövlət

Universitetinin professoru, tarix elmləri doktoru Musa Qasımlının «Türkiyədə Mustafa Kamal hərəkatı Sovet Rusiyasının və Kominternin planlarında», Özbəkistan Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Dilarom Alimovanın «Türküstanlılar Şərq xalqlarının I qurultayında: mövqelər və çağırışlar» və s. mövzularda məruzələri dinləyicilərin nəzərinə çatdırıldı. Məruzələrdən sonra iştirakçılar arasında maraqlı müzakirələr aparıldı.

Bununla da «Şərq xalqlarının Bakı qurultayı – 1920: Tarix və reallıqlar» adlı beynəlxalq elmi konfrans öz işini yüksək səviyyədə başa vurdu.

«Elm» qəzeti, 30 noyabr 2010-cu il.

İKT Pİ-NIN II FÖVQƏLADƏ KONFRANSI KEÇİRİLİB

2011-ci il yanvar ayının 16-19-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu Dabi şəhərində İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının komitə iclasları XIII sessiyası və II fövqəladə konfransı keçirilib.

Bu tədbirlərdə Azərbaycan Respublikası Milli Məclisini millət vəkili, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, professor **Gövhər Baxşəliyevanın** rəhbərlik etdiyi parlament nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinə millət vəkili Sabir Rüstəmxanlı və nümayəndə heyətinin katibi Zəhra Vəliyeva daxil olublar.

İlk növbədə ayın 16-17-də İKT Pİ Siyasi və iqtisadi məsələlər üzrə, Hüquqi məsələlər, insan hüquqları və ətraf mühit üzrə və Qadın, sosial və mədəni məsələlər üzrə daimi ixtisaslaşmış komitələrin iclasları olub.

Komitə iclaslarında müzakirə olunan məsələlərlə, o cümlədən qətnamələrlə bağlı Azərbaycan nümayəndə heyəti də çıxış edərək, öz münasibətini bildirib. Ölkəmizin parlament nümayəndə heyəti «İslam Konfransı Təşkilatı Parlament İttifaqı və Dialoq və Əməkdaşlıq naminə İslam Konfransı Təşkilatı Gənclər Forumu əməkdaşlığına dair» və «Azərbaycanın Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərindəki vəziyyətə dair» qətnamə layihələrini müzakirəyə təqdim edib.

«İslam Konfransı Təşkilatı Parlament İttifaqı və Dialoq və Əməkdaşlıq naminə İslam Konfransı Təşkilatı Gənclər Forumu əməkdaşlığına dair» qətnamədə İKT Pİ və DƏ-İKT GF arasında əməkdaşlıq alqışlanır, İKT Pİ üzv parlamentləri DƏ-İKT GF ilə fəal əməkdaşlığa çağırılır və təşkilatın bir sıra təşəbbüsləri dəstəklənir. Xüsusən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən «Xocalıya ədalət» beynəlxalq təşviqat kampaniyası barədə bəndi qeyd etmək gərəkdir. İKT Pİ Leyla xanım Əliyevanın fəaliyyətini yüksək qiymətləndirib və bu rəy qətnamədə öz əksini tapıb. Müvafiq bənddə deyilir:

«İKT Anım Günü təşəbbüsü çərçivəsində mədəniyyətlərarası Dialoq üzrə və Əməkdaşlıq naminə İslam Konfransı Təşkilatı Gənclər Forumunun baş əlaqələndiricisi xanım Leyla Əliyevanın təşəbbüskarı olduğu və 26 fevral 1992-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində azərbaycanlı sakinlərin erməni qüvvələri tərəfindən kütləvi qırılmasına dair tarixi həqiqətin yayılması məqsədini qarşıya qoyan «Xocalıya ədalət» beynəlxalq təşviqat kampaniyasını alqışlayır və insanlığa qarşı törədilmiş bu cinayətin xüsusi olaraq tanınmasını təmin etmək və milli və beynəlxalq səviyyələrdə bu təşəbbüsü dəstəkləmək üçün üzv parlamentlərə müraciət edir».

Qeyd edək ki, Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən və

Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına və hadisənin dünya ictimaiyyəti tərəfindən hüquqi-siyasi və mənəvi qiymətləndirilməsinə nail olmağa yönəlmiş «Xocalıya ədalət» beynəlxalq təşviqat kampaniyası hazırda 30-dan artıq ölkədə yüzlərlə könüllü tərəfindən uğurla həyata keçirilir.

«Azərbaycanın Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərindəki vəziyyətə dair» qətnamədə deyilir:

«İslam Konfransı Təşkilatına Üzv Dövlətlərin Parlament İttifaqı İslam Konfransı Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək; Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizindən artığının işğalının hələ də davam etməsindən dərin narahatlığını bildirərək; Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün aqibəti və humanitar problemlərin davamından təsirlənərək; Təşkilatın bu problemlə bağlı bütün müvafiq qətnamələrini bir daha təsdiq edərək; Ermənistan Respublikasının BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının bütün müvafiq qətnamələrinə ciddi sürətdə əməl etməsinə çağıraraq; Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasının Cənubi Qafqaz dövlətlərində təhlükəsizlik və stabilliyə hədə yaratdığını bildirərək; Münaqişənin həlli üzrə edilən bütün diplomatik və digər səyləri alqışlayaraq; Ermənistan Respublikasının davam etdirdiyi təcavüzkar siyasətin ATƏT çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsirini dərk edərək; Ermənistan və Azərbaycan arasında münaqişənin uzadılmasının hər iki ölkənin iqtisadi və sosial inkişafına əngəl törətdiyini, münaqişənin sülh yolu ilə həllinin regionda sülhün və sabitliyin bərqərar olunmasında əhəmiyyətini vurğulayaraq

1. Azərbaycan dövlətinin beynəlxalq tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyü, suverenliyi və müstəqilliyinə ehtiramını və davamlı dəstəyini bir daha təsdiq edir;

2. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin, eyni zamanda BMT Baş Assambleyasının A/RES/62/243 saylı qətnaməsinin icra edilməsini və Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ ərazisi də daxil olmaqla, Azərbaycan Respublikasının işğal olunmuş torpaqlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir;

3. Ermənistan tərəfini münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə müvafiq ortaq həll vasitələrinə nail olmaq üçün konstruktiv dialoqa çağırır;

4. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən məcburi kö-

çürülmüş əhalinin öz doğma yurdlarına qayıtmalarının ayrılmaz hüquqları olduğunu bir daha təsdiq edir və münaqişədən zərər çəkmiş ərazilərin hərtərəfli reabilitasiyası da daxil olmaqla, qaçqın və məcburi köçkünlərin şərəf və ləyaqətlə qayıtmaları üçün müvafiq şəraitin yaradılmasının vacibliyini vurğulayır;

5. Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində erməni və Azərbaycan icmalarının normal, təhlükəsiz və bərabər şəraitdə yaşamalarının təmin olunmasının əhəmiyyətini qəbul edir;

6. Azərbaycan Respublikasının ərazisinin işğalı nəticəsində yaranmış vəziyyətin qanuniliyini heç bir ölkənin tanımayacağını, bu vəziyyətin saxlanılmasına yardım və kömək göstərməyəcəyini bir daha təsdiq edir;

7. Azərbaycan xalqına müharibə qurbanlarına görə öz dərin başsağlığını bildirir və Dağlıq Qarabağ münaqişəsi zamanı və ya münaqişənin nəticəsində əziyyət çəkmiş və hələ də öz hüquqlarından tam yararlana bilməyən sakinlər, habelə hələ də evlərinə qayıda bilməyən qaçqın və məcburi köçkünlərin durumu ilə bağlı narahatlığını ifadə edir;

8. Silahlı münaqişə nəticəsində yaranmış humanitar vəziyyət və erməni millətindən olan əhalinin işğal olunmuş ərazilərə qeyri-qanuni köçürülməsindən dərin narahatlıq hissi keçirdiyini ifadə edir;

9. Azərbaycan Respublikasının işğal olunmuş torpaqlarında məcburi demoqrafik dəyişikliklərin qəbul edilməzliyini bir daha təsdiq edir;

10. Erməni millətindən olan əhalinin Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülmələrinin qarşısını almağı və dayandırmağı tələb edir və bunun münaqişənin sülh yolu ilə həlli prosesinə zərər vura biləcəyini bildirir;

11. Münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə müvafiq olaraq sülh yolu ilə həll olunması üçün beynəlxalq vasitəçilik səylərinə, xüsusilə də ATƏT-in Minsk Qrupunun fəaliyyətinə öz dəstəyini ifadə edir və yuxarıda qeyd olunmuş qərarlara uyğun olaraq davamlı sülhün əldə olunması məqsədilə bu səylərin intensivləşdirilməsinə ehtiyac olduğunu qəbul edir;

12. Üzv dövlətləri, habelə beynəlxalq və regional təşkilat və birlikləri öz səlahiyyətləri çərçivəsində münaqişənin həll olunması prosesinə təsirli töhfə verməyə çağırır.

Ümumiyyətlə, komitələrdə bir sıra digər qətnamələr də müzakirə olunub. Qadınlar, sosial və mədəni məsələlər üzrə daimi ixtisaslaşmış komitədə müzakirə olunmuş qətnamələr aşağıdakılardır:

1) İslam və Qərb parlamentləri arasında davamlı dialoqun aparılmasına yönəlmiş səylərə dəstək haqqında;

2) İslam dəyərlərinə qarşı Qərb həmlələrinə müqaviməti əsas götürərək, si-

vilizasiyalararası dialoqun müdafiəsi haqqında;

3) Səmavi dinlər və onların rəmzlərini təhqir etməyi qadağan edən beynəlxalq qanunvericiliyin BMT tərəfindən yaradılmasına etimad göstərməsi haqqında;

4) Qadının rolunun gücləndirilməsi haqqında;

5) Əl-Aksa məscidinin İsrail təhdidlərindən qorunması;

6) İslam ölkələrində gənclərin rolunun gücləndirilməsi;

7) İslam aləmində uşaqlara qayğı və himayə haqqında;

8) Ölümcül xəstəliklərin qarşısının alınması və ətraf mühitin qorunmasında İslam parlamentlərinin rolu;

Siyasi və iqtisadi məsələlər üzrə daimi ixtisaslaşmış komitədə müzakirə olunan qətnamələr bunlardır:

1) Fələstində vəziyyətə dair;

2) İsrailin və Qüdsün yəhudiləşdirilməsinə dair İsrail hökumətinin planlarına qarşı mübarizədə islam parlamentlərinin rolu;

3) Suriyanın Ərəb Colan təpələrinə dair;

4) Livandakı vəziyyətə dair;

5) Bütün xalqların sülh məqsədləri ilə müasir texnologiya və enerjinin əldə edilməsi və onlardan istifadə etməkdə bərabər hüquqlarının dəstəklənməsi;

6) Orta Şərq bölgəsinin kütləvi qırğın silahlarından azad olunması;

7) İraqda vəziyyət;

8) Sudanda vəziyyət;

9) Dövlət terrorizminə qarşı mübarizə;

10) İslam ümmətinin müqəddəratını hədəf alan təhdidlərə qarşı islam dövlətlərinin birliyinin və həmrəyliyinin gücləndirilməsi;

11) Somalidəki vəziyyətə dair;

12) Şimali Kiprdəki vəziyyətə dair;

13) Camma və Kəşmirdəki vəziyyətə dair;

14) Azərbaycanın Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərindəki vəziyyətə dair;

15) Hər hansı İslam ölkəsinə qarşı ehtimal edilən sanksiyalardan imtina haqqında;

16) İslam parlamentləri arasında qəbul olunan məsələlərin öncədən dövlət qurumları ilə məsləhətləşməsi və razılaşdırılması haqqında;

17) İKT Pİ – Dialoq və Əməkdaşlıq naminə İslam Konfransı Gənclər Forumu əməkdaşlığına dair;

18) Dünya maliyyə böhranının təsirinin azaldılması üçün İslam ölkələrinin birgə fəaliyyətinə dair;

19) Fəlakətlər baş verdiyi zaman üzv dövlətlər tərəfindən islam həmrəylik fonduna könüllü maliyyə yardımları edilməsi haqqında.

Hüquqi məsələlər, insan hüquqları və ətraf mühit üzrə daimi ixtisaslaşmış komitədə isə bu qətnamələr müzakirə edilib:

1) BMT ilə əməkdaşlı haqqında;

2) Beynəlxalq demokratik dəyərlərin, insan hüquqlarının, beynəlxalq humanitar hüququn üzv dövlətlər tərəfindən öyrənilməsi;

3) İslami təlimlərə müvafiq insan hüquqlarının təkamülü;

4) Ətraf mühitə qayğı və davamlı inkişafın tələbləri ilə ayaqlaşmaq haqqında;

5) Ətraf mühit və davamlı inkişaf haqqında.

Yanvarın 18-də İslam Konfransı Təşkilatı Parlament İttifaqının 13-cü sessiyası keçirilib. Sessiyada komitələrin məruzəçiləri dinlənilib, maliyyə məsələləri müzakirə olunub və növbəti sessiyanın sədri seçilib. Tədbirdə çıxış edən millət vəkili Gövhər Baxşəliyeva Azərbaycan nümayəndə heyətinin təklif etdiyi qətnamə layihələrinin qəbul olunmasına görə öz təşəkkürünü bildirib və yekun Əbu Dabi bəyannaməsinə Azərbaycanla bağlı bu maddələrin salınmasını təklif edib:

İKT Pİ üzv dövlətlər BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsini tələb edir və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxmasını tələb edir;

Ermənistan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmağa çağırılır;

Azərbaycan Respublikası hökuməti və xalqının bu problemin həll olunmasına göstərdiyi bütün səylər tam dəstəklənir və onlara hörmətlə yanaşılır;

Azərbaycanın qaçqın və məcburi köçkünlərinin öz ata-baba yurdlarına tezliklə şərəf və ləyaqətlə qaytarılmasını təmin etməyə çağırır;

İKT Pİ konfransının 30-31 yanvar 2010-cu il tarixində Kampalada keçirilmiş 6-cı sessiyası tərəfindən qəbul olunan Ermənistan qüvvələri tərəfindən Xocalı (Azərbaycan) şəhərində azərbaycanlı əhaliyə qarşı törədilmiş kütləvi soyqırımının insanlığa qarşı cinayət kimi tanınmasına dair qərarın həyata keçirilməsinə çağırır.

Təkliflər bütünlüklə qəbul edilib.

Yanvarın 19-da İKT Pİ-nın 2-ci fövqəladə konfransı keçirilib. Konfransda 13 ölkə parlamentinin, o cümlədən Bəhreyn, Misir, Qambiya, İndoneziya, İraq, Küveyt, İran, Mavritaniya, Sudan, Səudiyyə Ərəbistanı, Suriya, Qətər, Pakistan parlamentlərinin spikerləri, bir sıra digər ölkə parlamentlərinin nümayəndə

heyətlərinin rəhbərləri çıxış edib. Tədbirdə sülh proseslərinin yeni inkişafı çərçivəsində İslam dünyası tərəqqisi və təhlükəsizliyinin üzləşdiyi beynəlxalq və regional problemlər; Əl-Qüds əş-Şərifin qorunması, İslam dünyası dövlətlərində nüvə enerjisindən sülh məqsədi ilə istifadə, Qərb dövlətlərinin parlamentləri, xüsusilə də ABŞ-ın prezidenti Obama administrasiyasının islam dünyası ilə əməkdaşlığa dair mövqeyi çərçivəsində ABŞ konqresi ilə dialoq və əməkdaşlıq; İKT Pİ-nın islahatı: A) islahat komitəsinin məruzəsinin nəzərdən keçirilməsi, B) İKT Pİ-nın 2010-cu ilin yanvarında Kampalada (Uqanda) keçirilmiş 6-cı konfransı tərəfindən götürülmüş İKT Pİ icraiyyə komitəsinin nizamnaməyə dəyişikliklərə dair hesabatın nəzərdən keçirilməsi; Sudanda sülh prosesi və digər məsələlər müzakirə olunub.

Konfransda İKT Pİ nizamnaməsinə dəyişikliklər qəbul olunub. Bu dəyişikliklər təşkilatın daha çevik, mobil, operativ işləməsinə yönəlib. Bundan əlavə komitələrin sayı 4-ə çatdırılıb. Sonda konfransın yekun bəyannaməsi qəbul olunub.

«Milli Məclis» jurnalı, mart-aprel 2011-ci il.

ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNDA «YAXIN VƏ ORTA ŞƏRQ REGİONU SON HADİSƏLƏR İŞIĞINDA» MÖVZUSUNDA ELMİ SESSİYA KEÇİRİLDİ

Mart ayının 16-da AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda «Yaxın və Orta Şərq regionu son hadisələr işığında» mövzusunda elmi sessiya keçirildi. Tədbiri açan Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, filologiya elmləri doktoru, professor **Gövhər Baxşəliyeva** son zamanlar Yaxın Şərqdə baş verən hadisələrdən danışdı və onların tək regionda yox, bütün dünyada yaratdığı əks-sədadan söz açdı. Tunis, Misir, Liviya, Yəmən, Bəhreyn, Mərakeş, İordaniya və s. region ölkələrində baş verən hadisələrin gözlənilməz istiqamətdə cərəyan etdiyini söyləyən G.Baxşəliyeva, hətta mütəxəssislərin Səudiyyə Ərəbistanına onların hər hansı təsirini öncədən istisna etdiklərini və yanıldıqlarını bildirdi. G.Baxşəliyeva dedi: «Ərəb ölkələrində baş vermiş inqilablar Yaxın və Orta Şərqin siyasi xəritəsini dəyişdi. Region ölkələrinin ictimai-siyasi həyatında mühüm dəyişikliklər baş verdi. Eyni zamanda bu hadisələr dünya birliyi qarşısında bir sıra mürəkkəb suallar qoydu: Bu hadisələrin səbəbi nədir? Onları təşkil edən qüvvələr var idimi? Hadisələrdən sonra regionda qüvvələrin tənasübü necə olacaq? Siyasi struktur necə olacaq? Nə üçün Amerikanın və Qərbin bu hadisələrə reaksiyası dərhal tam müəyyən olmadı? Yeni Şərq necə olacaq? Regionun digər ölkələrinə bu hadisələr necə təsir edəcək? Onların İrana təsiri varmı? Bu hadisələr Türkiyədə necə əks olunacaq?».

Gövhər xanım hazırkı elmi sessiyanın da qoyulan bütün bu suallara şərqşünas alimlərimizin müəyyən dərəcədə cavab verməsi, məsələlərə öz münasibətlərini, mütəxəssis kimi rəylərini bildirməsi məqsədi ilə keçirildiyini dedi.

G.Baxşəliyeva həmçinin Yaxın və Orta Şərqdə son zamanlar baş qaldıran siyasi gərginliyin Azərbaycana təsirinin mümkünsüzlüyündən danışdı. Vurğulandı ki, Ərəb ölkələrində baş verən hadisələrin digər ölkələrə, o cümlədən Azərbaycana avtomatik şamil edilməsi qətiyyən düzgün deyil. Belə ki, hər ölkədə ictimai-siyasi həyatın öz spesifikası, öz problemləri və ziddiyyətləri var və bu ziddiyyətlərin də öz həlli mexanizmləri mövcuddur. Azərbaycanda Prezident İlham Əliyevin yürütdüyü və bütün xalqımız tərəfindən dəstəklənən siyasət, aparılan iqtisadi, siyasi və hüquqi islahatlar qarşıya çıxan hər hansı problemlərin tezliklə həllinə şərait yaradır.

Şərqşünaslıq İnstitutunun «Şərq və Qərb» şöbəsinin müdiri, fəlsəfə elmləri namizədi Anar Əzimov «Ərəb ölkələrində son vaxtlar baş verən siyasi hadisələrin siyasi-metodoloji təhlili» mövzusunda məruzə etdi. Daha sonra insti-

tutun «İran tarixi və iqtisadiyyatı» şöbəsinin müdiri, tarix elmləri namizədi Vidadi Mustafayev «Yaxın Şərqdə son hadisələr və İran» mövzusunda məruzə etdi, «Din və ictimai fikir» şöbəsinin müdiri, fəlsəfə elmləri namizədi Esmeralda Həsənova bu hadisələrin baş vermə səbəblərini təhlil etdi, onların Türkiyədə əks-sədasından söz açdı, institutun elmi işçisi Bəhlul Nuri «Liviya böhranı və xaos təhlükəsi» mövzusunda çıxış etdi.

Sonda məruzələr ətrafında müzakirələr aparıldı.

«Azərbaycan Şərqşünaslığı» jurnalı,
may-iyun, 2011-ci il.

AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİ TƏSDİQLƏYƏN TARİXİ XƏRİTƏLƏR

Ərazi bütövlüyünü bərpa etmək uğrunda mübarizə aparan xalqımızın haqq səsini daha da ucaltmaq, tarixi gerçəklikləri bütün dünyaya bəyan etmək, danılmaz tarixi həqiqətləri məqsədyönlü şəkildə təhrif edərək, öz xalqına başdan-ayağa saxta tarix yazan erməni «alimlərinin» saxtakarlıqlarını durmadan ifşa etmək hər bir azərbaycanlının və ilk növbədə alimlərimizin müqəddəs borcudur. Bu sahədə Azərbaycan alimləri tərəfindən xeyli faydalı iş görülüb, tədqiqatlar aparılıb, monoqrafiyalar və kitablar yazılaraq, nəşr edilib və edilməkdədir. Bu istiqamətdə növbəti layihəni Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişaf Fondunun qrant şəklində maliyyə dəstəyi ilə millət vəkili, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva reallaşdırır. «Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən orta əsr və yeni dövr xəritələrinin axtarışı və surətlərinin ölkəmizə gətirilməsi» adlı layihə üzərində iş bu ilin aprel ayından başlanıb. Layihə çərçivəsində G.Baxşəliyeva 20 iyun -10 iyul tarixlərində İspaniya və Fransaya ezam olunub, bu ölkələrin bir sıra kitabxana və arxivlərində axtarışlar aparıb, yüzlərlə qədim xəritə və atlasları nəzərdən keçirərək, 80-dən çox xəritənin surətini çıxarıb, elektron variantını hazırlayıb, çəkilişlər aparıb. Xalqımızın tarixi coğrafiyasının öyrənilməsi üçün faydalı olan və Ermənistanın Cənubi Qafqaza gəlmə etnos olduğunu sübut edən bu xəritələr müstəsna əhəmiyyətə malikdir. Gətirilən bir çox mühüm sənədlər sırasında orijinalları Hamburq, Bolonya, Cota, Leyden, Paris, London, Berlin və Vyanada saxlanılan qədim ərəb və fars əlyazmaları var ki, bunlarda Azərbaycana aid xəritələrin və onların Avropa alimləri tərəfindən hazırlanmış transkripsiyalarının fotosurətləri əks olunub.

X-XIII əsrin birinci yarısında tərtib olunan bu xəritələr Azərbaycanın tarixi əraziləri haqqında həqiqəti olduğu kimi əks etdirir. Məsələn, onlardan birində Azərbaycan əraziləri şimalda Bab al-abvabdan («Dərbənd») bir qədər də yuxarıyadək torpaqları, cənubda indiki Cənubi Azərbaycan ərazisini və ondan daha cənubda yerləşən Ərməniyyə vilayətinin, əl-kəbir (böyük) və əl-sağır (kiçik) daxil olmaqla, böyük hissəsini əhatə edir (Balxi, Hamburq nüsxəsi).

Xəritədə Azərbaycan ərazisinə Dərbənd, Şabran, Şəki, Qəbələ, Şəmkir, Gəncə, Bərdə, Bərzənd, Əhər, Ərdəbil, Mərənd, Marağa, Təbriz, Səlmas, Xoy, Hilat, Bidlis, Miyanə və s. şəhərlər daxildir. Xəritədə aydın görünür ki, «böyük» və «kiçik» Ərməniyyə tarixi Azərbaycan torpaqlarından cənubda yerləşib və yer adından başqa bir şey deyildir. Beləliklə, bu xəritə bir daha təsdiq edir

ki, erməni təbliğatının dənizdən-dənizə «Böyük Ermənistan» xülyası böyük yalandan başqa bir şey deyildir.

Gətirilmiş sənədlər ermənilərin Cənubi Qafqaza gəlmə etnos olduğunu, Fərat çayının yuxarılarında qədim Assuriya və Mesopotamiya ilə sərhəddə məskunlaşdığını və zaman-zaman indiki Türkiyə və İranın ərazisinə köç etdiklərini əyani şəkildə nümayiş etdirir. 1918-ci ilədək Cənubi Qafqaz ərazisində heç bir erməni dövləti olmayıb. Bu, tarixi reallıqdır və əldə edilmiş yeni xəritələr bunu bir daha təsdiq edir.

Azərbaycan xalqının əcdadları hələ eramızdan əvvəl Arazdan şimalda, Dağlıq Qarabağ da daxil olmaqla, Albaniya, cənubda isə Manna və Atropatena kimi dövlətlər yaratmışlar. Bu dövlətlər süqut etdikdən sonra da həmin ərazilərdə müxtəlif Azərbaycan dövlətləri yaranmış və xalqımız öz tarixi torpaqlarında kompakt şəkildə yaşamağa davam etmişdir. Bunu əldə edilmiş xəritələrdə çoxsaylı Azərbaycan toponimlərinin əks olunması bir daha sübut edir. Yalnız XIX əsrin əvvəllərindən Rusiya imperiyasının regionda apardığı məqsədyönlü siyasət nəticəsində Cənubi Qafqaza Türkiyədən və İrandan ermənilərin kütləvi köçürülməsi başlandı və beləliklə də, Cənubi Qafqazda erməni dövlətinin yaradılmasının əsası qoyuldu. Xalqımızı öz tarixi torpaqlarından məhrum etmək və bu torpaqları ermənilərlə məskunlaşdırmaq məqsədi ilə erməni millətçiləri tərəfindən xalqımıza qarşı zaman-zaman deportasiyalar və qətliamlar həyata keçirildi, boşaldılmış tarixi Azərbaycan ərazilərinin adları isə ermənləşdirildi. Hazırda Ermənistan Respublikası adlanan ərazinin tarixi Azərbaycan torpaqları olduğu və burada xalqımıza məxsus toponimlərin tarixin yaddaşına möhkəm həkk olunduğu əldə edilmiş xəritələrdə tutarlı dəlillərlə əyani şəkildə bir daha təsdiq edilir.

Surətləri gətirilən xəritələr müxtəlif dövrlərdə və regionlarda tərtib edilmişdir. Burada qədim Şərq alim, tarixçi və səyyahları Balxi (miladi 921-ci il), İstaxri (m. 934), Müqəddəsi (m. 985), Əhməd əl-Tus (m. 1160), İbn Səid (m. 1276 m), Nəsrəddin Tusi (m. 1270) və sairə müəlliflərin tərtib etdiyi xəritələr vardır.

XV-XVII əsrlər Avropa alim, səyyah və xəritəşünasların tərtib etdiyi xəritələr də çox mühüm əhəmiyyətə malikdir. Abraham Orteliusun 1570 və 1606-c illərdə çap olunmuş Avropa xəritələri, Georq Sansonun 1669-cu ilə aid, Guiljelmo Blacuvun isə üzərində tarixi əks olunmayan Asiya qitəsinə aid xəritələri, Rofellenin 1506-cı il tarixli Yer kürəsi xəritəsi, naməlum müəllifin 1529-cu ildə hazırladığı və Avropa, Asiya və Afrikanı əhatə edən xəritəsi, Stalpartidin Antverpendə nəşr etdiyi dünya xəritəsi, 1562-ci ildə İenkensononun yaratdığı Rusiya, Moskoviya və Tartariya xəritəsi, həmçinin 1482-ci ildə

Florensiyada Françesko Berlingierinin tərtib etdiyi xəritə və digər naməlum müəlliflərin əsərləri bu qəbildəndir.

Sonrakı dövr Avropa xəritəşünaslarının tərtib və nəşr etdirdikləri xəritələr də erməni təbliğatının yalan üzərində qurulduğunu sübut edir. XVIII-XIX əsrlərə aid bu xəritələrdən 1877-ci ildə tərtib edilmiş Qafqazın xəritəsi (Qota, Almaniya), A.Fon Petermannın hazırladığı Qafqazın fiziki-coğrafi xəritəsi, Dr.H.Kiepertin 1854-cü ildə Berlində nəşr etdirdiyi Qafqaz ərazilərinin xəritəsi, eləcə də Gilyermo del İslenin, N.Sansonun (1724), Fridrix de Vitin (1775), Antonio Zattanın (1785) və digərlərinin xəritələri Azərbaycan həqiqətlərini təsdiqləyən tarixi sənədlərdir

Görkəmli fransız xəritəşünası Alfons Taridin müxtəlif illərdə nəşr etdirdiyi Qafqaza və Osmanlı imperiyasına aid xəritələri xüsusi əhəmiyyətə malikdirlər.

Digər xəritələr qrupunu isə çar Rusiyası zamanı hərbi topoqrafik depoda və Əlahiddə Qafqaz Korpusunun Baş Qərargahı nəzdində tərtib edilmiş və İmperator Rus Coğrafiya Cəmiyyəti tərəfindən müxtəlif illərdə (1841, 1847, 1862, 1895, 1898, 1899, 1908, 1909, 1910 və s.) nəşr edilmiş Qafqaz və onun müxtəlif quberniya və uyezdlərini əks etdirən xəritələr təşkil edir.

Bunlardan əlavə, İstanbul Baş Bakanlığı arxivindən Qafqaza aid Osmanlı xəritələrinin gətirilməsi də xalqımızın tarixi keçmişinin öyrənilməsi üçün mühüm əhəmiyyət daşıyır. XVII-XIX əsrin əvvəllərinə aid bu xəritələrdə Azərbaycanın tarixi coğrafiyası olduqca düzgün, obyektiv və dolğun əks olunub. Məsələn, xəritələrdən ikisində İrəvan şəhəri öz ilkin adına müvafiq olaraq Rəvan variantında verilib. Tarixdən məlumdur ki, bu şəhər məhz yarandığı dövrdən Rəvan adlanıb və sonradan buraya gəlmiş ermənilər tərəfindən adı dəyişdirilərək hazırkı variantını alıb.

Bütün bu xəritələr Azərbaycanın ərazi bütövlüyünü təsdiqləməklə, erməni uydurmalarını ifşa etməklə yanaşı, bunun Qərbdə və Şərqdə ötən əsrlərdə xəritəşünas alimlər tərəfindən şəksiz qəbul edildiyini tam olaraq sübuta yetirir.

«Azərbaycan» qəzeti, 15 sentyabr 2011-ci il.

«MÜASİR ŞƏRQŞÜNASLIĞIN AKTUAL PROBLEMLƏRİ»

İyunun 1-2-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun və Rumıniyanın Babeş-Bolya Universitetinin Türkologiya və Mərkəzi Asiya Araşdırmaları İnstitutunun birgə təşkilatçılığı ilə «Müasir şərqşünaslığın aktual problemləri» mövzusunda beynəlxalq elmi konfrans keçirildi.

AMEA Rəyasət Heyətinin konfrans zalında keçirilən açılış mərasimini giriş sözü ilə açan AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, filologiya elmləri doktoru, professor **Gövhər Baxşəliyeva** tədbir iştirakçılarını salamlayaraq qeyd etdi ki, ötən il Şərqşünaslıq İnstitutu və Babeş-Bolya Universitetinin Türkologiya və Mərkəzi Asiya Araşdırmaları İnstitutu arasında elmi əməkdaşlığa dair saziş imzalanıb. Bu əməkdaşlığın ilk addımı kimi də ötən il Rumıniyanın Kluj-Napoka şəhərində hər iki institutun təşkilatçılığı ilə beynəlxalq elmi konfrans keçirildi. Hazırda isə ikinci belə tədbir Bakıda keçirilir. Son aylarda Yaxın Şərqdə baş verən hadisələri xatırladan Gövhər xanım, bu prosesləri, eləcə də digər Şərq ölkələrinin həyatında baş verənləri nəzərdən keçirməyin, onlara qiymət verməyin şərqşünasların borcu olduğunu söylədi.

Azərbaycanda hələ Orta əsrlərdə böyük alimlərin Şərq mədəniyyətini öyrəndiklərini vurğulayan G.Baxşəliyeva dünyada şərqşünaslıq elminin XIX əsrdən inkişafının başlandığını və azərbaycanlı alimlərin bu işdə çox böyük rol oynadıqlarını dedi: Müasir dövrümüzdə bu elmin Azərbaycanda inkişafına AMEA-nın Şərqşünaslıq və Əlyazmaları institutlarının, Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin görkəmli alimləri çox böyük töhfələr veriblər. Şərqşünaslıq İnstitutunda bu sahənin həm klassik, həm də müasir dövrü üzrə dəyərli tədqiqatlar aparılır. Türkoloji araşdırmalara çox böyük diqqət yetirilir və bu istiqamətdə Rumıniyanın Babeş-Bolya Universitetinin Türkologiya və Mərkəzi Asiya Araşdırmaları İnstitutu ilə əməkdaşlıq çərçivəsində birgə fəaliyyətin də böyük səmərəsi olacaq.

Daha sonra söz Rumıniyanın Babeş-Bolya Universitetinin rektoru, professor, doktor Andrey Marqaya verildi. Konfransın iki ölkənin elmi müəssisələri arasında məhsuldar əməkdaşlığın bir bariz nümunəsi olduğunu söyləyən çıxışçı, bundan böyük şərəf duyduqlarını dilə gətirdi: «Şərqşünaslıq elminin incəliklərini duymaq böyük zəhmət tələb edir. Avropada şərqşünaslıq elminin əhatə dairəsi haqqında böyük müzakirələr aparılır və Şərq məfhumuna Atlantik okeanından Sakit okeana qədər əraziləri daxil edirlər.»

Şərqi Avropanın, o cümlədən Azərbaycanın mədəniyyətini dünyaya tanıtdırmağın əhəmiyyətindən danışan Andrey Marqa, rəhbərlik etdiyi universitetin

Türkologiya və Mərkəzi Asiya Araşdırmaları İnstitutunda bu sahədəki fəaliyyətdən söz açdı. Orta Asiya türk dövlətləri ilə əməkdaşlıqlarından söz açan rumıniyalı alim, Qazaxıstan və Türkmənistanla görülən birgə işlərdən danışdı və bu sahədə Azərbaycanın elm ocaqları ilə əməkdaşlığın xüsusi yerini qeyd edərək bu işin yaxın gələcəkdə parlaq məhsullarının ortaya çıxacağına inamını bildirdi.

Rumıniyanın Babeş-Bolya Universitetinin Türkologiya və Mərkəzi Asiya Araşdırmaları İnstitutunun direktoru, professor, doktor Təhsin Cəmil Bakıda 5 ilini keçirdiyini və bura hər gəlişində çox şad olduğunu söylədi: «Özümü azərbaycanlı və bakılı hesab edirəm. Bakıya, azərbaycanlılara könül bağlamışam. Azərbaycanda xoşbəxt oluram. Azərbaycanın tarixini, mədəniyyətini, ruhunu Avropada tanıtmaq bizim üçün məsul bir vəzifədir.»

2010-cu ildə rəhbərlik etdiyi institutda Azərbaycanşünaslıq şöbəsi açıldığını deyən Təhsin Cəmil, ölkəsində bu sahəni öyrənən tələbələrin sayının getdikcə artdığını, Azərbaycan mədəniyyətinə, tarixinə böyük maraq olduğunu bildirdi.

Ötən il ilk dəfə Kluj-Napokada, bu il isə Bakıda keçirilən bu cür konfransların mütəmadi olaraq bir il Avropada, bir il isə türk dövlətlərinin birində keçirilməsinin planlaşdırıldığını söyləyən T.Cəmil, növbəti konfransın Yunanıstanda və ya Macarıstanda keçiriləcəyi ehtimalını qeyd etdi.

Sonra Tbilisi Dövlət Universiteti arxeologiya kafedrasının professoru, fəlsəfə doktoru Marina Puturidze, AMEA İqtisadiyyat İnstitutunun direktoru, iqtisad elmləri doktoru, professor İsa Alıyev, YUNESKO-nun Mərkəzi Asiya Araşdırmaları İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru Şahin Mustafayev, Türkiyənin Nevşehir Universitetinin Türk dili və ədəbiyyatı kafedrasının müdiri, doktor Ömər Bayram çıxış edərək konfransın əhəmiyyətindən danışdılar və tədbir iştirakçılarına uğurlar arzuladılar. Sonra Azərbaycan, Rumıniya, Türkiyə, İran, Gürcüstan və digər ölkələrdən 150-yə yaxın alimin qatıldığı konfrans öz işini Şərqşünaslıq İnstitutunda «Tarix», «Din tarixi, fəlsəfə və ictimai fikir», «İqtisadiyyat», «Ədəbiyyatşünaslıq» və «Dilçilik» bölmələrində davam etdirdi.

Tarix bölməsində «Tatar tarixinin tədqiqində rast gəlinən əsas problemlər» (prof. dr. Təhsin Cəmil - Rumıniyanın Babeş-Bolya Universitetinin Türkologiya və Mərkəzi Asiya Araşdırmaları İnstitutunun direktoru), «Orta əsrlər Şərq tarixinin bəzi məqamları haqqında» (prof., t.e.d. Nərgiz Axundova - Bakı Dövlət Universiteti), «İraq: demokratik dövlətə doğru çətin yol» (t.ü.f.d. Aida Bağırova - Bakı Dövlət Universiteti), «İstanbullu Əhməd Kamalın Azərbaycandakı fəaliyyəti» (dr. Mehdi Gəncəli - Türkiyənin Mərmərə Universiteti), «Orta tunc dövründə Cənubi Qafqaz və Yaxın Şərqin qarşılıqlı mədəni əlaqələrinin aktual problemləri» (prof., f.d. Marina Puturidze - Tbilisi Dövlət Universiteti), «Ərəb

dünyasının müasir mərhələdə bəzi problemləri» (f.ü.f.d. Lalə Əliyeva - AMEA Şərqşünaslıq İnstitutu) və s. maraqlı məruzələr dinlənildi.

«Din tarixi, fəlsəfə və ictimai fikir» bölməsində AMEA Şərqşünaslıq İnstitutundan f.ü.f.d. Anar Əzimovun «Qloballaşma: dini ənənələrə etiraz», f.ü.f.d Aslan Həbibovun «Türkiyədə şiəlik», f.ü.f.d. Leyla Məlikovanın «Mirça Eliadanın dini-fəlsəfi baxışlarında dini birlik», institutun iranlı dissertantı Fərənək Məhəmmədzadənin «Asiyada qloballaşmaya doğru inkişaf» mövzusunda məruzələri xüsusi maraq doğurdu.

«İqtisadiyyat» bölməsində «Yaxın Şərqdə Türkiyə: yeni fəallığın xəritələşdirilməsi» (f.d. Şaban Kardaş - Türkiyənin TOBB Universiteti), «Çin Xalq Respublikasının XX əsrin birinci yarısında regional sənaye siyasəti» (c.ü.f.d. Rafiq Abbasov - AMEA Şərqşünaslıq İnstitutu) və digər mövzularda məruzələr oldu.

«Ədəbiyyatşünaslıq» bölməsində edilən məruzələr arasında AMEA Şərqşünaslıq İnstitutundan f.e.d. Vilayət Cəfərin «Türkologiyanın ərəb dilində yazılmış şah əsəri», prof., f.e.d Mehdi Kazımovun Nəcm əd-Din Razi və onun «Mirsad əl-ibad» əsəri», f.ü.f.d Xalidə Qafqazlının «Müasir dövr türk ədəbiyyatının görkəmli şairi Bayram Durbilməz», f.ü.f.d. Nüşabə Əlizadənin «Qulamhüseyn Saedinin Azərbaycan dilində pyesi haqqında», Qafqaz Universitetindən Səttar Durmazın «Çakəri Sinanın şeirlərində fars ədəbiyyatının təsiri», AMEA Əlyazmalar İnstitutundan f.e.d. Möhsün Nağısoylunun «Hübeyş Tiflisi və əsərləri haqqında», AMEA Ədəbiyyat İnstitutundan Esmira Fuadın «Ortaq dəyərlər: Şəhriyar və Mixay Eminesku», Türkiyənin Nevşehir Universitetindən dr. Ömər Bayramın «Klassik türk ədəbiyyatında ədəbi çevrələr: şəhərlər və məkanlar» və s. mövzularda məruzələr maraqlı müzakirələrlə müşayiət olundu.

«Dilçilik» bölməsində Rumıniyanın Babeş-Bolya Universitetinin Türkologiya və Mərkəzi Asiya Araşdırmaları İnstitutundan prof., dr. C.Felezeunun «Qədim türk-osmanlı dili və yazısının araşdırılmasının Rumıniyada aktual durumu», AMEA Şərqşünaslıq İnstitutundan f.ü.f.d. Laura Orucovanın «Ərəb nəhv»i və onun xüsusiyyətləri», f.e.d. Şəfəq Əlibəylinin «Füzulinin farsca divanında «kölgə» leytmotivi», f.ü.f.d. Çimnaz Mirzəzadənin «Hübeyş Tiflisinin «Qanun əl-ədəb» lüğətində poetik fraqmentlər», AMEA Dilçilik İnstitutundan prof., f.e.d. Roza Eyvazovanın «Şeyx Səfiəddin Ərdəbilinin «Qara məcmuə»sinə bir baxış», Bakı Dövlət Universitetindən f.e.n. Əsmətxanım Məmmədovanın «fars dili fonetika və orfoqrafiyasının mühüm problemi haqqında» və s. mövzularda maraqlı məruzələr böyük maraqla qarşılandı.

Konfrans öz işini yekun iclasla tamamladı.

«Ədəbiyyat qəzeti», 10 iyun 2011-ci il.

AZƏRBAYCAN XALQININ İSLAM MƏDƏNİYYƏTİNƏ VERDİYİ TÖHFƏLƏR HEÇ DƏ BAŞQALARINKINDAN AZ DEYİL

İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Həsən Firuzabadinin avqustun 9-da verdiyi hədələyici ruhlu açıqlamada Azərbaycan xalqının, dövlətinin və Prezidentinin ünvanına səsləndirdiyi sərsəm fikirlər cəmiyyətimizin haqlı narazılığına səbəb olmuş, ictimai-siyasi xadimlər, hərbçilər, ziyalılar bu bəyanata sərt təpki göstərmiş, Azərbaycan Xarici İşlər Nazirliyi İran hökumətinə rəsmi etiraz notası təqdim etmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasına neqativ münasibət ifadə edən fikirlər vaxtaşırı İranın kütləvi informasiya vasitələrində, ayrı-ayrı siyasətçilərin və din xadimlərinin çıxışlarında yer alır. Lakin bu cür münasibətin ali baş komandandan sonra İranın ən yüksək rütbəli hərbçisi, üstəlik ölkənin Milli Təhlükəsizlik Şurasının üzvü tərəfindən bəyan edilməsi xüsusi narahatlıq, təəssüf və hiddət doğurur.

General Firuzabadinin o qədər də geniş olmayan açıqlamasında üç məqam diqqəti cəlb edir.

Əvvəla, o, Azərbaycan Respublikasını bir müsəlman ölkəsi olaraq İranla dostluq prinsiplərinə riayət etməməkdə və ölkədə sionistlərin (?) əl-qol açmasına şərait yaratmaqda ittiham edir. Bu ittihamın nə qədər əsassız və cəfəng xarakter daşıdığını sübut etməyə ehtiyac yoxdur. Sadəcə, İran İslam Respublikasının müsəlman torpaqlarını işğal etmiş Ermənistan dövləti ilə günbəgün genişlənən, bəzi İran rəsmilərinin «qardaşlıq» kimi səciyyələndirdiyi əlaqələrini yada salmaq kifayətdir ki, kimin dostluq prinsiplərinə nə dərəcədə riayət etdiyi aydın olsun.

İkincisi, cənab Firuzabadi iddia edir ki, «Aran əhalisinin damarlarında İran qanı axır və onun ürəyi islam və Quran eşqi, Əli sevgisi ilə döyünür». Öncə onu deyək ki, Azərbaycan əhalisinin hansı hisslərlə yaşadığını müəyyən etmək cənab Firuzabadinin işi deyildir; yaxşı olar ki, o, İran əhalisinin arzu və istəklərini öyrənsin və təmsil olunduğu hökumətlə birgə onları həyata keçirməklə məşğul olsun. Generalın Azərbaycanı «Aran» adlandırması isə onun hansı düşüncəyə malik olduğunu, hansı ideologiyanın xidmətində durduğunu ortaya qoyur. Məsələ burasındadır ki, Azərbaycan Respublikası müstəqillik qazanandan bəri İranda bir dəstə tədqiqatçı, bəzi mətbuat orqanları onun ərazisinin tarixən Azərbaycan adlanmadığını «sübut etməyə» çalışır, torpaqlarımızı gah «Şimali İran», gah da «Aran» adlandırırlar. Məqsəd aydındır: Azərbaycan Respublikası əhalisinin İranda yaşayan azərbaycanlılarla etnik birliyini inkar etmək, eyni zamanda torpaqlarımızın tarixən İran ərazisi olduğunu vurğula-

maq. Firuzabadinin «Aran» sözündən istifadə etməsi qatı antiazərbaycan və antitürk mahiyyətli bu çalışmaların hansı səviyyələrdə himayə edildiyini ortaya qoyur. Lakin general nəzərə almır ki, qonşu ölkənin beynəlxalq birlik tərəfindən tanınan, BMT-də təsbit edilən rəsmi adını söyləməkdən imtina dövlət məmuru olaraq onun özü üçün də, bütövlükdə İran hakimiyyəti üçün də əsl rüsvayçılıqdır.

Üçüncüsü, general Firuzabadi bütün hüquqi çərçivələri və diplomatik normaları aşaraq, Azərbaycan Prezidenti cənab İlham Əliyevi əhalinin islami hisslərinə və «oyanışına» diqqətli olmağa çağırır, əks təqdirdə, onun «təhlükəli aqibətlə üzləşəcəyi» barədə xəbərdarlıq edir. Əcəba, müstəqil bir dövlətin başçısına məsləhət vermək, xəbərdarlıq etmək haqqını və səlahiyyətini İran generalına kim verib?! Bu, açıq-aşkar qonşu dövlətin daxili işinə qarışmaq deyilmi? Görəsən, rəsmi təbliğatında daim Qərbi, xüsusən də ABŞ-ı başqa ölkələrin daxili işlərinə müdaxilədə suçlayan İran hökumətinin nümayəndəsi bunu özünə necə rəva görür?!

General Firuzabadinin bu açıqlama ilə çıxış etməsinin formal səbəbi Azərbaycanda qeydiyyata alınmamış İslam Partiyası üzvlərindən bir qrupunun həbs edilməsi və onların işinə məhkəmə baxışının başlanması, eləcə son aylar hicab məsələsi ilə bağlı ölkəmizdə gedən müzakirələrdir. Sual doğur: dini siyasi alət etmiş kiçik bir qrupa canıyananlıq edən, onları «məzlum» kimi qələmə verməyə çalışan cənab Firuzabadi öz ölkəsində çoxsaylı insanların, ö cümlədən azərbaycanlı mədəni fəalların həbsini görmürmü?! Bəlkə öz ana dilində qəzet, jurnal buraxmaq, şeir, hekayə yazmaq islam və insan haqları baxımından yasaqdır?!

Hicab məsələsinə gəldikdə isə, deməliyik ki, Azərbaycan cəmiyyəti və dövləti bu məsələni demokratik müzakirələr şəraitində və qanun çərçivəsində həll etməyə qadirdir və bu işdə bizim kiminsə məsləhətinə qətiyyən ehtiyacımız yoxdur. Ümumiyyətlə, general Firuzabadi və onun kimilər bilməlidir ki, islam dini heç kəsin inhisarında ola bilməz: bu, həm də bizim dinimizdir və Azərbaycan xalqının islam mədəniyyətinə verdiyi töhfələr heç də başqalarınkından az deyil. Biz dini dəyərlərimizə ehtiramla yanaşırıq, eyni zamanda çağdaş dəyərlərə də sadiqik. Azərbaycan Respublikası dünyəvi dövlətdir, din dövlətdən ayrıdır. Bununla belə, dövlətimiz dini dəyərlərə hörmətini, onların qorunması və inkişafına qayğısını əməli fəaliyyətində nümayiş etdirir. Dini siyasət səhnəsinə gətirmək istəyənlərin arzusu isə elə arzu olaraq qalacaqdır.

«525-ci qəzet», 18 avqust 2011-ci il.

XARİCİ ÖLKƏLƏRDƏN AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİ TƏSDİQLƏYƏN TARİXİ XƏRİTƏLƏR GƏTİRİLİB

«Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən orta əsrlər və yeni dövr xəritələrinin axtarışı və ölkəyə gətirilməsi» çərçivəsində ölkəyə 80-dən çox xəritənin surəti gətirilib.

Gün.Az-ın verdiyi xəbərə görə, bu barədə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Şərqşünaslıq İnstitutunun direktoru **Gövhər Baxşəliyeva** bu gün Elmin İnkişafı Fondunun keçirdiyi tədbirdə bildirib.

Onun sözlərinə görə, Prezident yanında Elmin İnkişafı Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən layihənin icrasına bu ilin aprel ayından başlanılıb. İtaliya, Almaniya, Fransa, İngiltərə və Fransanın kitabxana və arxivlərində araşdırmalar aparılıb, yüzlərlə xəritə və atlaslar nəzərdən keçirilib.

«Xalqımızın tarixi coğrafiyasının öyrənilməsi üçün faydalı olan və Ermənistanın Cənubi Qafqaza gəlmə etnos olduğunu sübut edən bu xəritələr müstəsna əhəmiyyətə malikdir».

G.Baxşəliyeva bildirib ki, gətirilən sənədlər arasında mühüm Avropa şəhərlərində saxlanılan ərəb və fars əlyazmaları da var ki, bunlarda da Azərbaycana aid xəritələr və onların Avropa alimləri tərəfindən hazırlanmış transkripsiyalarının fotosurətləri əks olunub.

«X-XIII əsrin birinci yarısında tərtib olunan bu xəritələr Azərbaycanın tarixi əraziləri haqqında həqiqəti olduğu kimi əks etdirir. Məsələn, onların birində Azərbaycan əraziləri Dərbənddən də yuxarıyadək göstərilir».

Ermənilərin Cənubi Qafqazda yaşayan xalq olmamalarına gəldikdə isə, layihə icraçısı vurğulayıb ki, xəritədə onların Fərat çayının yuxarı sahilində məskunlaşdığı və Qafqaza aid olmamaları açıq görünür.

«Hətta indiki Yerevan da Rəvan kimi qeyd olunub. Göyçə gölü də öz adı ilə qeyd olunub».

G.Baxşəliyeva qeyd edib ki, layihə 2012-ci ilin yazına qədər davam edəcək. Layihə bitdikdə görülən işlərin əks olunduğu atlas da nəşr olunacaq.

Rüfət Əhmədzadə,
Gün.Az – 12 sentyabr 2011-ci il.

GÖRKƏMLİ ŞƏRQŞÜNAS ALİM AİDA XANIM İMANQULİYEVANIN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ MÜSABİQƏNİN QALİBLƏRİ MÜKAFATLANDIRILMIŞLAR

Oktyabrın 10-da görkəmli ziyalı, böyük şərqşünas alim və parlaq şəxsiyyət Aida xanım İmanquliyevanın anadan olmasından 72 il keçir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) görkəmli alimin xatirəsinə həsr olunmuş «Ərəb filologiyası sahəsində gənc alimlərin ən yaxşı elmi-tədqiqat əsəri» mövzusunda ənənəvi müsabiqə keçirmişdir. Müsabiqədə aspirant, dissertant və gənc alimlər iştirak etmişlər.

Oktyabrın 10-da AQUPDK müsabiqənin yekunlarına həsr olunmuş tədbir keçirmişdir.

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycan elmini Şərq dünyasında tanıdan böyük ziyalı, ədəbi fikir tariximizin istedadlı nümayəndəsi Aida xanım İmanquliyevanın həyat və yaradıcılığı barədə danışmışdır. Qeyd etmişdir ki, artıq bir neçə ildir AQUPDK böyük alimin doğum günü ərəfəsində «Ərəb filologiyası sahəsində gənc alimlərin ən yaxşı elmi-tədqiqat əsəri» mövzusunda ənənəvi müsabiqə təşkil edir. Hər müsabiqə yeni-yeni istedadlı mütəxəssisləri üzə çıxarır. Əsas məqsədimiz Aida xanım İmanquliyevanın zəngin ədəbi irsinin dərindən öyrənilməsi və qorunmasıdır.

M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Bakı filialının rektoru, professor Nərgiz Paşayeva bildirmişdir ki, ərəb-Azərbaycan ədəbi-mədəni əlaqələrinin inkişafında böyük xidmət göstərmiş Aida xanım İmanquliyevanın elmi və bədii irsi təkcə onun şəxsi fəaliyyətini əks etdirmir. Şübhəsiz, onun yaradıcılığının bəhrələri bütövlükdə Azərbaycan elmi ictimaiyyətinin, mədəniyyətinin böyük nailiyyətidir.

Elmi biliklərə yiyələnməyin vacibliyini diqqətə çatdıran N.Paşayeva vurğulamışdır ki, Şərq, o cümlədən ərəb ədəbiyyatını tədqiq etmək, öyrənmək olduqca çətin, eyni zamanda, şərəfli bir işdir. Bu, xüsusi istedad tələb edir. Biz çalışmalıyıq ki, bu sahənin güclü tədqiqatçıları yetişsin.

N.Paşayeva müsabiqə qaliblərini bir daha təbrik etmiş, onlara yeni-yeni uğurlar arzulamışdır.

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı Gövhər Baxşəliyeva, bu İnstitutun şöbə müdiri Vilayət Cəfər və Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) professoru Elman Quliyev çıxış edərək Aida xanım İmanquliyevanın Azərbaycan şərqşünaslıq elminin inkişafında əvəzsiz xidmətlərindən danışmışlar. Bildirilmişdir ki, o, ilk müsəlman şərqşünas alim qadın kimi bütün Şərq dünyasında

tanınmışdır. Bu vətənpərvər ziyalı xanımın qələmə aldığı hər bir əsər, apardığı elmi araşdırmalar ədəbiyyat xəzinəmizin parlaq nümunəsi kimi müəllifinin böyük söz sahibi və kamil şəxsiyyət olduğunu bir daha təsdiq edir. Onun elmi əsərləri şərqşünaslıq tariximizin nadir inciləri hesab olunur. AMEA-nın Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə Aida xanım İmanquliyevanın yüzlərlə kitab və elmi məqalələr toplusu nəşr olunmuşdur. O, ərəb-Azərbaycan ədəbi-mədəni əlaqələrinin inkişafında böyük xidmət göstərmiş, yaradıcı fəaliyyətinin hər bir istiqaməti ilə qədim Şərqə tükənməz sevgisini sübut etmişdir.

Tədbir çərçivəsində Aida xanım İmanquliyevanın xatirəsinə həsr olunmuş «Ərəb filologiyası sahəsində gənc alimlərin ən yaxşı elmi-tədqiqat əsəri» mövzusunda müsabiqənin qalibləri mükafatlandırılmışlar.

Müsabiqədə Bakı Dövlət Universitetinin (BDU) əməkdaşı Kəmalə Musayeva birinci, ADPU-nın doktorantı Məlahət Babayeva ikinci, AMEA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşı Fatma Məcidova və BDU-nun şərqşünaslıq fakültəsinin dosenti Gülnur Mahmudova üçüncü yerlərə layiq görülmüşlər.

AzərTAc
«Elm» qəzeti, 25 oktyabr 2011-ci il.

AİDA İMANQULİYEVANIN HƏYAT VƏ YARADICILIĞINA HƏSR OLUNMUŞ ELMİ SESSİYA KEÇİRİLMİŞDİR

Oktyabrın 11-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli şərqşünas alim, professor Aida İmanquliyevanın həyat və yaradıcılığına həsr olunmuş elmi sessiya keçirilmişdir.

Görkəmli alimin təvəllüdünün 72-ci ildönümünə həsr edilən tədbiri giriş sözü ilə Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor **Gövhər Baxşəliyeva** açaraq Aida İmanquliyevanın elmi və təşkilati fəaliyyətindən, şərqşünaslığın inkişafındakı rolundan geniş söz açmışdır. Alimin şərqşünaslıq elminə böyük töhfələr verdiyini bildirərək, ərəb məhcər ədəbiyyatının tədqiq olunmasında məxsusi xidmətlərindən danışan Gövhər xanım, böyük alimin tərcümələrinin hər zaman böyük məhəbbətlə qarşılandığını qeyd edib: «Aida İmanquliyeva ərəb ədəbiyyatşünaslığı sahəsində bir məktəb yaratmış alimdir. Aida xanımın o vaxt açdığı elmi cığırlar indi də davam etdirilir. Onun əsərləri bu gün ərəb aləmində geniş yayılıb. Aida xanım əsərlərində öz dövrünü bir neçə onillik qabaqlayaraq, Şərqlə Qərb arasında qarşılıqlı təsiri gözəl əks etdirib. Həmin əsərlərdə o, Şərqlə Qərb arasında əlaqələrin müsbət istiqamətdə getməsinin mümkünlüyünü göstərirdi».

Aida İmanquliyevanın pedaqoji fəaliyyətindən söz açan G.Baxşəliyeva onun uzun illər Bakı Dövlət Universitetində ərəb ədəbiyyatı fənnindən xüsusi kurs apardığını, bir pedaqoq, elmi rəhbər kimi böyük nüfuz qazandığını qeyd etmişdir.

A.İmanquliyevanın Şərqşünaslıq İnstitutunda Ərəb filologiyası şöbəsinə rəhbərliyi dövründə 10-dan çox namizədlik dissertasiyasının müdafiə edildiyini, yüksək ixtisaslı kadrların yetişdirildiyini xüsusi vurğulayıb.

Aida xanımın Şərqşünaslıq İnstitutunda direktor müavini və direktor vəzifələrində çalışdığı dövrdə göstərdiyi dəyərli elmi təşkilatçılıq fəaliyyətindən, görkəmli alimin beynəlxalq elmi konfranslarda Azərbaycan şərqşünaslığını layiqincə təmsil etməsindən söz açmışdır.

Sonra tədbir iştirakçılarından Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsinin müdiri, filologiya elmləri doktoru Vilayət Cəfərov Aida İmanquliyevanın elmi irsinin təbliğindən söz açmışdır. V.Cəfərov bu sahədə görülən işlərdən ötən il Aida xanımın «Məqalələr və tərcümələr» toplusunun çap olunmasını xüsusi qeyd etmişdir. Bu topluda Aida İmanquliyevanın ərəb ədəbiyyatına həsr edilmiş Azərbaycan və rus dillərində elmi məqalələri və ərəb ədəbiyyatından etdiyi tərcümələr dərc olunduğunu bildirmişdir.

Vilayət müəllim hazırda ərəbşünaslıq sahəsində görülən bir sıra işlərin Aida xanımın əziz xatirəsinə həsr olunduğunu qeyd etmiş və şöbədə hazırlanaraq

çap olunmuş dörddilli tibb terminləri lüğətini, A.İmanquliyevanın dissertantı olmuş Fazil Güneyin «Suriya qadın yazıçılarının əsərlərində qadın emansipasiyası» adı altında təqdim etdiyi kitabı və s. buna misal göstərmişdir.

V.Cəfərov çıxışında həmçinin Aida İmanquliyevanın dünya şərqşünaslıq mərkəzlərində böyük nüfuza malik olduğunu qeyd edərək görkəmli alimlərin Aida xanım haqqında söylədikləri maraqlı fikirləri xatırlatmışdır.

Daha sonra tədbirdə Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Xalidə Quliyeva-Qafqazlının «Professor Aida İmanquliyevanın əsərlərinin Ukraynada nəşri», Nizami adına Ədəbiyyat İnstitutunun Xarici ölkələr ədəbiyyatı və ədəbi əlaqələr şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Bəsirə Əzizəliyeva «Aida İmanquliyevanın tədqiqatlarında mühacir ərəb yazarlarının əsərlərinin elmi təhlili», «Azər-News» qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Fazil Abbasovun «Bəşəri duyğular örnəyi Aida xanım haqqında xatirələr» mövzularında çıxışları dinlənilmişdir.

Tədbir çərçivəsində A.İmanquliyevanın dissertantı olmuş Fazil Güneyin «Suriya qadın yazıçılarının əsərlərində qadın emansipasiyası» kitabının təqdimatı keçirilmiş, «Professor Aida xanım İmanquliyeva» mövzusunda kitab və fotoşəkillərdən ibarət sərgi nümayiş etdirilmişdir.

Sevinc Paşayeva,
«Elm» qəzeti, 25 oktyabr 2011-ci il.

ŞƏRQŞÜNASLIQ İNSTİTUTU MÜSTƏQİLLİK İLLƏRİNDƏ

Oktyabrın 17-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda «Müstəqillik illərində Azərbaycan elminin inkişafı» mövzusunda elmi sessiya keçirilib. Tədbiri giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, filologiya elmləri doktoru, professor, **Gövhər Baxşəliyeva** Azərbaycanın müstəqilliyinin 20 ili ərzində keçdiyi böyük inkişaf yolundan, bütövlükdə elmimizin, o cümlədən şərqşünaslıq elminin əldə etdiyi nailiyyətlərdən söz açdı.

G.Baxşəliyeva ilk növbədə Azərbaycanın 20 il öncə yenidən müstəqilliyini əldə etdiyi dövrə nəzər saldı. Sovet İttifaqının süqutunun tarixi zərurət olduğunu qeyd edən Gövhər xanım, bu hadisənin qanunauyğun, obyektiv tarixi proseslərin nəticəsində baş verdiyini söylədi: «Sovet imperiyasına daxil olan 15 respublikadan əksəriyyəti müstəqillik arzusu ilə yaşayırdı. Lakin sovet hakimiyyətinin rəhbərliyindən narazı xalqların etirazlarının qarşısı zor gücünə alınır, müstəqil düşüncəli insanların səsləri boğulurdu. O vaxtkı şəraitdə bu istiqamətdə mübarizə aparmaq çox çətin idi. Lakin dövlətin bu cür idarə edilməsi çox uzun müddət davam edə bilməzdi. SSRİ rəhbərliyində baş verən hadisələr ölkənin süqutunu sürətləndirdi ki, bunun da nəticəsində dağılan imperiyaya daxil respublikalar müstəqillik əldə etdilər».

G.Baxşəliyeva Azərbaycanın bu prosesi keçmiş Sovet respublikalarından fərqli olaraq, daha ağır, daha çox itki ilə başa vurduğunu qeyd etdi, müstəqilliyin ilk illərinin çətinliklərindən danışdı: «Bir tərəfdən Ermənistanın torpaqlarımıza təcavüzü, digər tərəfdən isə hakimiyyət təcrübəsi və səriştəsi olmayan insanların daxili və xarici siyasətdə buraxdığı səhvlər xalqımızı ciddi sınaq qarşısında qoydu. Siyasi didişmələr və silahlı qruplaşmaların mübarizəsi ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxardı. Daxili hərc-mərclik, hakimiyyət orqanlarının iflic vəziyyətə düşməsi yenicə qazanılmış müstəqilliyin itirilməsinə səbəb ola bilərdi. Lakin bu dəfə tarix təkrarlanmadı. Çünki əvvəlki dövrlərdən fərqli olaraq, indi xalqın bütün təbəqələrinin inandığı və hörmət bəslədiyi ümummilli lider, böyük siyasi iradəyə və təcrübəyə malik şəxsiyyət – Heydər Əliyev şəxsiyyəti var idi. Ulu öndər müstəqilliyimiz üçün təhlükə törədən amilləri aradan qaldıraraq onu, öz təbirincə desək, dönməz və əbədi etdi».

O, Heydər Əliyevin ölkənin inkişafının əsasını qoyduğunu söyləyərək, ulu öndərin layiqli davamçısı İlham Əliyevin 2003-cü ildən ölkəyə rəhbərliyi dövründə əldə olunan nailiyyətlərin, iqtisadi uğurların Azərbaycanı həyatın müxtəlif sferalarında dünya miqyasında aparıcı mövqelərə çıxartdığını qeyd etdi: «Məhz möhtərəm Prezident İlham Əliyevin düşünülmüş iqtisadi siyasəti sayəsində Azərbaycan iqtisadi inkişaf tempinə görə ən yüksək yeri tutdu, bütün

dünyanı iqtisadi böhran bürüdüyü bir dövrdə həmin böhranı, demək olar ki, hiss etmədən adladı və iqtisadi inkişafını davam etdirdi».

Azərbaycan elminin müstəqillik illərində əldə etdiyi nailiyyətlərdən söz açan Gövhər xanım, Şərqşünaslıq İnstitutunun da əldə etdiyi uğurlarla öncüllər sırasında olduğunu, xüsusən də elmimizin dünyaya inteqrasiyası baxımından fəallığı və məhsuldarlığı ilə seçildiyini vurğuladı: «Müstəqillik illərində Şərqşünaslıq İnstitutu əməkdaşlarının nəşr olunmuş 245 kitabından 17-si, 2700 elmi məqaləsindən 365-i xarici ölkələrdə işıq üzü görüb. Keçirilmiş 28 konfransdan 15-i beynəlxalq miqyaslıdır və bu sırada xaricdə təşkil etdiyimiz birgə konfranslar da var. Bunlardan müxtəlif illərdə Bakıda Hollandiyanın Utrext Universiteti ilə birgə keçirdiyimiz «Azərbaycan və qonşu ölkələrdə XX əsrin əvvəllərində ictimai-siyasi fikir və ideoloji reallıqlar» mövzusunda, YUNESCO ilə birgə təşkil etdiyimiz Mirzə Kazım bəyin 200 illiyinə həsr olunmuş beynəlxalq konfransları, «Heydər Əliyev və Şərq», «Yaxın və Orta Şərq: dünəni, bu günü və sabah», «Şərq xalqlarının Bakı qurultayı-1920: tarix və reallıqlar» və s. mövzularda, həmçinin Türkiyə Respublikasının 75 illiyinə, Osmanlı dövlətinin yaranmasının 700 illiyinə, böyük İran şairləri Hafiz Şirazi və Sədi Şiraziyə, İranda Məşrutə inqilabının 100 illiyinə, Şeyx Məhəmməd Xiyabani hərəkatının 90 illiyinə həsr olunmuş beynəlxalq konfransları qeyd etmək olar. Son zamanlar Rumıniyanın Babeş Bolya Universiteti ilə sıx əlaqələr qurulub və bu Universitetin Türkologiya və Mərkəzi Asiya Tədqiqatları İnstitutu ilə birgə ötən il Rumıniyanın Kluj-Napoka şəhərində «Şərq və Qərb arasında dialoq», bu il isə Bakıda «Müasir şərqşünaslığın aktual problemləri» mövzusunda beynəlxalq elmi konfranslar uğurla keçirilib. Bizim həmçinin təşkil etdiyimiz 51 seminardan 8-i, 34 simpoziumdan 11-i də beynəlxalqdır. Bu illər ərzində Şərqşünaslıq İnstitutunun əməkdaşlarının xaricdə iştirak etdiyi tədbirlər sırasında 317 konfrans, 47 seminar, 121 simpozium var. Alimlərimiz indiyədək 14 qrant alıb. Ötən 20 ildə Şərqşünaslıq İnstitutunda 8 doktorluq və 66 namizədlik dissertasoyası müdafiə edilib.

İnstitutumuzun hazırda Türkiyə, Almaniya, Hollandiya, Rumıniya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası və s. ölkələrin universitet və elmi mərkəzləri, habelə Türk Tarix Qurumu ilə sıx elmi əlaqələri var. Onlarla ikitərəfli elmi əməkdaşlıq haqqında müqavilələr imzalanıb, şərqşünas alimlərin daha səmərəli elmi fəaliyyətlə məşğul olması təmin edilib. Həmçinin institut YUNESCO-nun dəstəyi ilə fəaliyyət göstərən Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun Azərbaycan üzrə əlaqələndiricisidir».

Daha sonra Şərqşünaslıq İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Məsiağa Məhəmmədi «Müstəqillik illərində Şərqşünaslıq İnstitutunun fəaliyyəti» mövzusunda məruzə etdi.

M.Məhəmmədi məruzəsində müstəqillik dönəmində Şərqşünaslıq İnstitutunun araşdırmaların problematikası baxımından ciddi transformasiya mərhələsi yaşadığını qeyd edərək, vurğuladı ki, bu prosesi izləyərkən müstəqilliyin ilk növbədə Azərbaycan şərqşünaslığını ideoloji basqılardan azad etməsini, tədqiqatların milli strateji çərçivədə qurulmasına şərait yaratdığını müşahidə etmək olur. Bu illərdə aparılan tədqiqatların mərkəzində Azərbaycan xalqının mədəniyyəti, tarixi, düşüncəsi dayanır.

Məruzəçi müstəqilliyin eyni zamanda alimlərimizin xarici ölkələrə, beynəlxalq aləmə bilavasitə çıxışına imkan yaratdığını qeyd etdi: «Sovet dövründə xarici elmi əlaqələr çox məhdud çərçivədə, ciddi nəzarətdə idi. Hər hansı alimin beynəlxalq tədbirdə iştirakı bir neçə mərhələli nəzarətdən sonra baş tuturdu. Bu da əsasən əməkdaşların Şərq ölkələrinə mütərcim kimi dəvət olunması ilə məhdudlaşırdı. Müstəqillik nəticəsində nəinki nüfuzlu, sözünü demiş alimlərimiz, eyni zamanda gənc kadrlar da xaricdəki həmkarları ilə elmi əlaqələr qurmaq imkanı əldə etdi ki, bu da Azərbaycan elminin dünyaya inteqrasiyası üçün geniş perspektivlər açdı».

Məruzədə qonşu Şərq ölkələrində tarixi-ictimai proseslərin də öyrənilməsinə diqqətin artdığı, müstəqilik illərində İslamın araşdırılması sahəsində çox səmərəli işlər görüldüyü nəzərə çatdırıldı. Bu qəbildən mərhum Abutalıb Məmmədovun, Ramiz Mürsəlovun İslam fundamentalizmi, Esmeralda Həsənovanın İslamın Türkiyədə rolu haqqında əsərləri qeyd edildi.

Şərqşünaslıq İnstitutunun görüdyü işlər arasında institutun yaranmasında və fəaliyyətində müstəsna xidmətləri olmuş alimlərimizin – Ziya Bünyadovun, Aida İmanquliyevanın, Rüstəm Əliyevin biblioqrafiyalarının hazırlanması, xatirə kitablarının çap olunması, onlara həsr olunmuş tədbirlərin keçirilməsi fəaliyyət istiqamətlərindən biri kimi göstərildi. İnstitutun elmi fəaliyyətini əks etdirən bukletin 2005-ci ildə işıq üzü görməsi də diqqətə çatdırıldı.

Sonra Şərqşünaslıq İnstitutunun aparıcı əməkdaşlarının məruzə ətrafında çıxışları oldu. «Din və ictimai fikir tarixi» şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Esmeralda Həsənova Azərbaycanın müstəqillik əldə etdiyi şəraitdən danışaraq, ölkəmizin uğurlarında ulu öndər Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində xidmətlərinin böyük əhəmiyyətini qeyd etdi. E.Həsənova suverenliyin hakimiyyətin xalqa aidliyi demək olduğunu söyləyərək, Azərbaycanın müstəqilliyini bu baxımdan xarakterizə etdi. O, eyni zamanda rəhbərlik etdiyi şöbənin müstəqillik illərində fəaliyyətindən danışaraq, İslam elmi ilə bağlı tədqiqatlarda əldə olunan nailiyyətləri dilə gətirdi.

Tədbirdə həmçinin «Ərəb filologiyası» şöbəsinin müdiri, filologiya elmləri doktoru Vilayət Cəfərov, «Yazılı abidələrin tədqiqi və nəşri» şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Mehdi Kazımov, «Cənubi Azərbaycan tarixi» şöbəsinin müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Əkrəm Rəhimli, ins-

titutun həmkarlar təşkilatının sədri, hüquq üzrə fəlsəfə doktoru Soltanəli Mirzəzadə çıxış edərək, müstəqilliyin böyük nemət olduğunu və onu hər vəchlə qoruyub möhkəmləndirməyin vacibliyi qeyd etdilər.

Elmi sessiyanı Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva yekunlaşdırdı.

Vüqar Məmmədov
«Ədəbiyyat qəzeti», 28 oktyabr 2011-ci il.

BUDAPEŞTDƏ «III RESPUBLİKANIN 20 İLİ» MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS KEÇİRİLİB

Noyabrın 24-25-də Budapeşt şəhərində Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı səfirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı, Azərbaycan Respublikasının Diaspora ilə İş Üzrə Dövlət Komitəsinin dəstəyi ilə «III Respublikanın 20 ili» mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş konfransda Azərbaycan və Macarıstandan olan mütəxəssislər və tanınmış ictimai-siyasi xadimlər 1991-ci ildə müstəqillik aktının qəbul olunmasından sonra Azərbaycan, onun daxili və xarici siyasəti, Dağlıq Qarabağ münaqişəsi, ölkəmizin iqtisadiyyatı, neft strategiyası, mədəniyyəti, təhsili və digər mövzularda məruzələrlə çıxış ediblər.

Konfransı giriş sözü ilə açan Azərbaycan Respublikasının Macarıstandakı səfiri Vilayət Quliyev ölkəmizin 20 ildə keçdiyi şərəfli yoldan danışıb və konfransın əhəmiyyətini vurğulayıb. V.Quliyev Azərbaycan və Macarıstanın dövlət qurumlarının yüksək vəzifəli rəsmilərinin, millət vəkillərinin, hər iki ölkənin elmlər akademiyalarının təmsilçilərinin, tanınmış elm xadimlərinin konfransda Azərbaycanın müstəqillik illərində keçdiyi yola nəzər salacağını bildirib. Daha sonra Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfov nitq söyləyib. Sonra məruzələr başlanıb. Millət vəkili, AMEA Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor **Gövhər Baxşəliyeva** rəhbərlik etdiyi elmi müəssisədə müstəqillik illərində görülən işlərə nəzər salaraq, əməkdaşların səmərəli fəaliyyəti nəticəsində əldə olunan nailiyyətləri qeyd edib: «Son 20 il ərzində institut əməkdaşlarının 245 monoqrafiya və kitabı, 2700 məqaləsi işıq üzü görüb. Əməkdaşlarımızın kitabları xarici ölkələrdə də tərcümə olunub çap edilir. Alimlərimizin son illərdə İranda, Türkiyədə, Rusiyada, Kanadada, Ərəb ölkələrində kitabları işıq üzü görüb. Alimlərimizin kitablarından 17-si, məqalələrindən isə 365-i xaricdə nəşr olunub. Bundan əlavə Şərqşünaslıq İnstitutunun mütəmadi olaraq «Şərq filologiyası məsələləri» məcmuəsi, «Elmi araşdırmalar» toplusu və «Azərbaycan şərqşünaslığı» jurnalı nəşr olunur. Şərqşünaslıq İnstitutunda bu illərdə 60-dək ümumrespublika və beynəlxalq elmi konfrans, simpozium və sessiyalar keçirilib, əməkdaşlar 550 dəfədən çox xarici ölkələrdə elmi məclislərdə iştirak ediblər». Millət vəkili respublikamızın müstəqillik qazanmasının institutun önündə yeni üfüqlər açmaqla bərabər, həm də ciddi vəzifələr qoyduğunu qeyd edib: «Xarici siyasət xəttini bu gün müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün həm Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi və həm də regionda gedən proseslərdə dövlət maraqlarının qorunması institutun elmi fəaliyyəti dairəsinin daha da tutumlu ol-

masını, bir sıra yeni istiqamətlərin yaradılması və ciddi keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini vacib edib. İnstitutun kollektivi bu yeni şəraiti qiymətləndirərək qeyd edilən problemlərin həlli istiqamətində addımlar atıb və atmaqdadır». G.Baxşəliyeva institutda elmi tədqiqat işlərinin əsasən Şərq ölkələrinin tarixi, bu ölkələrdə cərəyan edən ictimai-siyasi, iqtisadi və etnokonfessional proseslər, bu ölkələrin beynəlxalq münasibətlər sistemində rolu, Şərq xalqlarının tarixi və filoloji irsi, yazılı abidələrin tədqiqi, tərcüməsi və nəşri, islam mədəniyyətinin təşəkkül tapmasında Azərbaycan xalqının iştirakı, Yaxın və Orta Şərq ölkələrinin ictimai-siyasi həyatında İslam amili və s. istiqamətlərdə aparıldığını diqqətə çatdırıb. O, 90-cı illərin ikinci yarısından etibarən institutun elmi planlarında Azərbaycanşünaslıq istiqamətində mühüm dəyişikliklər edildiyini vurğulayıb: «Əməkdaşlarımız ilk növbədə ərəbdilli və farsdilli Azərbaycan alimlərinin və ədiblərinin yaradıcılığına dair tədqiqatlar aparır, Azərbaycan tarixinə, mədəniyyətinə, dilinə, ictimai-fəlsəfi fikrinə dair ərəb və fars dilində olan qaynaqların tapılıb araşdırılması üçün səmərəli fəaliyyət göstərirlər. Tədqiqat planlarımıza ilk növbədə Azərbaycanın ərazi bütövlüyünün müdafiəsinə yönəlmiş, xalqımızın tarixinə və mədəni inkişaf məsələlərinə töhfələr verə biləcək əsərlər salınıb. Bir sözlə, Şərqşünaslıq İnstitutu bu gün müstəqil Azərbaycanın milli və dövlət maraqlarına xidmət edən zəruri bir elmi tədqiqat mərkəzi olmaqla yeni dövrün tələblərilə ayaqlaşan inkişaf mərhələsinə qədəm qoyub».

Kamil Həmzəoğlu
«525-ci qəzet», 30 noyabr 2011-ci il.

ƏRDOĞAN: «SARKOZİ ÖZ AİLƏSİNƏ BAXSA, ORADA TÜRKİYƏNİN, TÜRKLƏRİN KÖMƏYİNDƏN, XOŞ MÜNASİBƏTİNDƏN BAŞQA BİR ŞEY GÖRMƏZ»

«Əlcəzairdə fransızların etdiyi soyqırımı idi. Sarkozi bu soyqırımı bilmirsə, getsin atası Sarkozidən soruşsun, Sarkozinin babası da İspaniyadan qaçıb Osmanlıya sığındı, daha sonra Fransaya köç etdi». Bu fikirləri Türkiyənin İstanbul şəhərində keçirilən «Müsəlman cəmiyyətlərində dəyişikliklər və qadınların rolu» adlı beynəlxalq konfransda Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan dilə gətirib. Qeyd edək ki, adıçəkilən tədbirin təşkilatçıları İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqı və Türkiyə Ailə və Sosial Siyasət Nazirliyi olub. Konfransın açılışında İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının baş katibi doktor, professor Mahmud Erol Kılıc, İslam Əməkdaşlığı Təşkilatının baş katibi doktor, professor Əkmələddin İhsanoğlu, Türkiyənin ailə və sosial siyasət naziri Fatma Şahin, Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan çıxış ediblər. Çıxışçılar inkişaf edən müsəlman cəmiyyətində qadının rolundan danışıb, xüsusən Yaxın Şərq və Şimali Afrika regionunda qadın hüquqlarından söz açıblar, qadınların siyasi iştirakı yolu ilə demokratiyanın möhkəmləndirilməsinin, effektiv milli gender mexanizminin yaradılmasının zəruriliyini vurğulayıb, gender bərabərliyi institutunun təsis edilməsi fikrini dəstəkləyiblər. Tədbirdə Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın çıxışı böyük hərarətlə qarşılanıb. Hökumət başçısı islam dinində qadına münasibətdən danışıb, qadının inkişafı olmadan cəmiyyətin inkişafının mümkünsüzlüyünü qeyd edib. Rəcəb Tayyib Ərdoğan Fransa Senatının bu yaxınlarda qondarma erməni soyqırımı ilə bağlı qəbul etdiyi qərara da öz münasibətini bildirib. O, 500-dən çox üzvü olan bir qurumun cəmisi 50-yə yaxın üzvünün iştirakı ilə keçirilən iclasda 30-dan bir qədər artıq Senat üzvünün səsvermə ilə dəstəklədiyi bir qərarın qüvvəyə minməsini heç bir prinsipə sığmadığını vurğulayıb. Ümumiyyətlə, türklərin ermənilərə qarşı soyqırımının olmadığını deyən baş nazir, Fransa prezidenti Nikola Sarkoziyə ünvanlanaraq, fransızların vaxtilə Əlcəzairdə ərəblərə qarşı törətdiyi soyqırımının, fransalıların çətin tarixi dönəmlərində məhz türklərə üz tutaraq kömək istəməsinin tarixi faktlar olduğunu nəzərə çatdırıb. Rəcəb Tayyib Ərdoğan söylədiklərinin təsdiqi olaraq vaxtilə fransızların kralı Françeskonun Qanuni Sultan Süleymana ünvanladığı məktubu tədbir iştirakçılarının diqqətinə çatdırıb. Məktubda yazılır: «Sən ki, Fransa ölkəsinin kralı olan Françeskosan. Kralların sığınacağı olan qapıma məktub göndərərək ölkənizin işğala uğradığını və əsir edilərək həbsə atıldığınızı bildirmisiniz. Bu vəziyyətdən xilas olmaq üçün məndən kömək istəyirsiniz. Könlünüzü sıxmayın, əsla üzülməyin. Yalnız Allahın dediyi olar. Nə edəcəyimi elçinizdən öyrənəcəksiniz». Baş nazir Fransa prezidentinə əsl soyqırımın fransalılar tərəfindən törədildiyini necə öyrənə biləcəyini də anladıb: «Əlcəzairdə fransızların etdiyi soyqırımı idi. Sarko-

zi bu soyqırımı bilmirsə, getsin atası Sarkozidən soruşsun. Sarkozinin babası da İspaniyadan qaçıb Osmanlıya sığındı, daha sonra Fransaya köç etdi. Sarkozi əgər öz ailəsinə baxsa, orada Türkiyənin, türklərin köməyindən, xoş münasibətindən başqa heç bir şey görməz». Konfransda Azərbaycandan millət vəkili, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor **Gövhər Baxşəliyeva** çıxış edib. Regionda baş verən dəyişikliklərin xüsusiyyətlərindən danışan Gövhər xanım demokratikləşmə, modernləşmə yolunu tutmağın ərəb xalqları üçün bir tarixi şans olduğunu vurğulayıb. G.Baxşəliyeva Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın soyqırımı ilə bağlı söylədiyi fikirlərə də münasibətini bildirib. Dəqiq tarixi faktlara əsaslanan çıxışı tam dəstəklədiyini bildirən millət vəkili, Fransanın 100 il öncəki qondarma soyqırımı ilə bağlı qərar qəbul etməkdənsə, 20 il öncə Xocalıda ermənilər tərəfindən törədilən soyqırımına, bütöv bir şəhərin məhv edilməsinə, 600-dən çox insanın qətlə yetirilməsinə, minlərlə insanın əsir götürülərək işgəncələrə məruz qoyulmasına, minlərlə insanın qarın içində donmasına və digər vəhşiliklərə münasibət bildirməyin düzgün olduğunu vurğulayıb. Tarix boyu ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərdən söz açan G.Baxşəliyeva, 1918-ci ilin 30 mart hadisələrində Stepan Şaumyanın himayəsi altında olan dəstələrin həyata keçirdikləri qətllərdən danışıb, respublikanın müxtəlif bölgələrində vəhşiliklə kütləvi qırğınların həyata keçirilməsi, cəsədlərin kül halında quyulara basdırılması faktlarını diqqətə çatdırıb: «Bütün bu vəhşiliklər o zaman hadisələrdən dərhal sonra yaradılan Fövqəladə istintaq komissiyası tərəfindən araşdırılaraq sübuta yetirilib. Həmin arxiv sənədləri toplu halında çap olunaraq müxtəlif dillərdə yayılıb». Ermənilərin Cənubi Azərbaycanda da törətdikləri soyqırımından danışan G.Baxşəliyeva, bütün bunların təbrizli tarixçi alim Səməd Sərdariniyanın «Arazın hər iki tayında müsəlmanların soyqırımı» kitabında əks olunduğunu nəzərə çatdırıb.Fransa Senatının bütün bu vəhşiliklərə qiymət vermək əvəzinə türklərin ermənilərə qarşı qondarma soyqırımı məsələsini qanunvericiliyə salaraq cəzaların tətbiq etməsini pisləyən millət vəkili, buna cavab olaraq Türkiyə Böyük Millət Məclisinin ermənilər tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımı aktlarına qiymət verərək bunun qanunvericiliyə salınmasını təklif edib. Tədbirdən sonra isə millət bu məsələlər barədə daha da ətraflı məlumat verməsi, müvafiq materialların çatdırılması ilə bağlı müraciətlər olub. Türkiyənin televiziyasının xəbərlər xidməti və «Kanal-7» televiziya kanalı G. Baxşəliyevadan ətraflı müsahibələr götürüblər.Tədbirin sonunda konfransın bəyannaməsi qəbul edilib. Bəyannamədə Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğana konfransda iştirakına və dünya ictimaiyyətini qadınlara yönəlmiş zorakılığın bütün formalarını pisləməyə və onlara qarşı mübarizə aparmağa səsləyən ruhlandırıcı bəyanatına görə, həmçinin tədbirin təşkili və konfransda iştiraklarına görə İslam

Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının baş katibi doktor, professor Mahmud Erol Kılıca, İslam Əməkdaşlığı Təşkilatının baş katibi doktor, professor Əkmələddin İhsanoğluna, Türkiyənin ailə və sosial siyasət naziri Fatma Şahinə dərin minnətdarlıq bildirilir, İslam ölkələrindəki təşkilatların əksəriyyətində qadın problemi ilə məşğul olan bölmələrin yaradılması alqışlanır, qadınların üzləşdikləri problemlərin və çətinliklərin həlli üçün İKT-yə üzv ölkələrin parlamentlərinin nümayəndə heyətləri başçılarının tövsiyə və təkliflərinin, ümumregion Gender Bərabərlik İnstitutunun yaradılması təklifinin nəzərə alındığı qeyd olunur.

Kamil Həmzəoğlu
«525-ci qəzet», 28 dekabr 2011-ci il.

AKADEMİK ZİYA BÜNYADOVUN XATİRƏSİ ANILDI

Görkəmli şərqşünas alim, vaxtilə AMEA-nın vitse-prezidenti, AMEA Şərqşünaslıq İnstitutunun direktoru vəzifələrində çalışmış, Sovet İttifaqı Qəhrəmanı akademik Ziya Bünyadovu aramızdan 15 ilə yaxın bir vaxt ayırır. Lakin bu böyük insanın elmdə əldə etdiyi nailiyyətlər, döyüş meydanlarında göstərdiyi şücaətlər heç zaman unudulmur.

Dekabrın 21-də – böyük alimin doğum günündə AMEA-nın rəhbərliyi, AMEA Şərqşünaslıq İnstitutunun kollektivi, Ziya Bünyadovun həyat yoldaşı Tahirə Bünyadova və ailə üzvləri Fəxri Xiyabanda onun məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla yad etdilər. Ziya Bünyadovun məzarı üzərinə əklil və gül dəstələri qoydular.

AMEA-nın birinci vitse-prezidenti, akademik Arif Həşimov, vitse-prezidenti, akademik Nailə Vəlixanlı, AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor **Gövhər Baxşəliyeva** çıxış edərək, Azərbaycan şərqşünaslıq və tarix elminin korifeyi Ziya Bünyadovun keçdiyi zəngin və mənalı həyat yolundan, qoyduğu böyük elmi irsdən, yaratdığı elmi məktəbdən söz açdılar. Onun öz fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslıq məktəbinin şöhrətini ölkənin hüdudlarından çox-çox uzaqlara yayaraq, orta əsrlər Şərqi və Ərəb xilafəti, Azərbaycan, Qafqaz və Orta Asiya tarixi üzrə görkəmli mütəxəssis kimi dünyada tanındığı vurğulandı.

Ölkə prezidenti cənab İlham Əliyevin bu yaxınlarda akademik Ziya Bünyadovun 90 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncamdan söz açan alimlər bununla əlaqədar tək paytaxtda deyil, respublikanın bölgələrində də bir sıra tədbirlərin keçiriləcəyini bildirdilər.

«Elm» qəzeti, 29 dekabr 2011-ci il.

«MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR: ƏDƏBİ TƏSİR VƏ ƏLAQƏLƏR» MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS KEÇİRİLDİ

Dekabrın 7-də AMEA Rəyasət Heyətində XX əsr Şərq poeziyasının görkəmli nümayəndəsi Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 105 illiyinə həsr olunmuş «Məhəmmədhüseyn Şəhriyar: ədəbi təsir və əlaqələr» mövzusunda beynəlxalq elmi konfrans keçirildi.

AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə keçirilən konfransda Azərbaycan alimləri ilə yanaşı, İran və İraqdan olan tədqiqatçılar da iştirak edirdilər.

Konfransı giriş nitqi ilə AMEA Şərqşünaslıq İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor **Gövhər Baxşəliyeva** açaraq Məhəmmədhüseyn Şəhriyarın Azərbaycan və bütövlükdə Şərq poeziyasının ən nəhəng simalarından biri, qüdrətli söz ustadı olduğunu bildirdi. «Şairin poeziyası dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi görüşlərinin canlı aynasıdır. Onun ölməz irsi nəinki Şərq, ümumən dünya mədəniyyəti və ədəbiyyatı xəzinəsinin nadir incisidir. Onun şeirləri bir çox dillərə tərcümə olunaraq, insanların ruhunu oxşamışdır. Bu gün ölkəmizdə elə bir insan çətin tapıla ki, Şəhriyar poeziyasının vurğunu olmasın, onun şeir nümunələrini bilməsin».

Insanpərvərlik, vətənpərvərlik və xəlqilik mövzularının Şəhriyar yaradıcılığının ana xəttini təşkil etdiyini söyləyən G.Baxşəliyeva onun ənənəvi qəzəl şairindən fars dilində romantik şeirin gözəl nümunələrini, daha sonra isə ana dilində dahiyanə realist tablolar yaratmış mahir sənətkara qədər böyük yaradıcılıq yolu keçdiyini bildirdi. O, Şəhriyar poeziyasının bütövlükdə milli azərbaycanlı ruhunun təntənəsi olduğunu, şairin poetik dünyasının zəmanəsinin ensiklopediyası olmaqla yanaşı, bütün dövrlər üçün aktual olan ədəbi mövzuları əhatə etdiyini nəzərə çatdırdı. G.Baxşəliyeva bildirdi ki, şairin bədii irsi həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. «Şəhriyar yaradıcılığında əsas mövzulardan biri də onun ikiyə bölünmüş Azərbaycan xalqının ayrılıq nisgilini ifadə etməsidir. O, Azərbaycan ədəbiyyatında bu mövzunun əsasını qoymuş bir şairdir. Azərbaycanlılara onu xüsusi sevdirən anadilli şeirləridir».

Tədbirdə «Şəhriyar və klassik Şərq şeiri» mövzusunda məruzə edən AMEA Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Nüşabə Araslı M.H.Şəhriyarın ümumşərq mədəniyyəti ilə yaxından bağlı və klassik Şərq poeziyasının qədim köklü ənənələrinə dərindən bələd nadir sənət bilicisi olduğunu bildirdi. O, şairin şifahi xalq ədəbiyyatı və klassik poeziyasının qabaqcıl ənənələrindən ayrılmaz olan çoxcəhətli zəngin irsində xalq yaradıcılığının hikməti, klassik Şərq poeziyasının dərin məna tutumu və təkrarsız

